XƏLİL RZA ULUTÜRK

# LEFORTOVO ZİNDANINDA

«ÇİNAR-ÇAP»
BAKI - 2006

Tərtib edəni: **Firəngiz xanım Ulutürk,**
*Azərbaycan Neft Akademiyası, İctimai fənlər kafedrasının baş müəllimi, akademik Y.Məmmədəliyev, R.Rza, X.R.Ulutürk və Araz ali ədəbi mükafatları laureatı*

Redaktor və
ön söz müəllifi: **Əlizadə Əsgərli**

Naşir:
***Qoşqar İsmayıloğlu***

**XƏLİL RZA ULUTÜRK**

X50 **«LEFORTOVO ZİNDANINDA»** Bakı, **«ÇİNAR-ÇAP»** nəşriyyatı, 2006, – 482 səh.

Bu əsər ədəbiyyatımızda elmi-tarixi memuar janrının ilk nümunələrindəndir. İndiyədək analoqu olmayan ədəbi yaradıcılıq tipidir. Belə nümunələrə dünya ədəbiyyatında az təsadüf edilir.

Kitabda istiqlal şairi, milli azadlıq mücahidi Xəlil Rza Ulutürkün azadlıq müdarizəsindəki iştirakının bəzi səhifələri, habelə, onun Lefortovo zindan həyatının mühüm tarixçəsi ifadə olunmuşdur.

Əsər gənclərimizin hərbi vətənpərvərlik və dövlətçilik tərbiyəsi, vətənə, xalqa, torpağa əqidəcə, məsləkcə bağlanmaq sahəsində qiymətli salnamədir.

X $\frac{4702060200}{122}$

© **«ÇİNAR-ÇAP», 2006**

## MÜNDƏRİCAT

MİLLİ İDEAL MÜCAHİDİ

YAZILACAQ SƏHİFƏLƏR İNTİZARINDA

ULUTÜRK ÖMRÜNÜN ULU MÖHÜRÜ

**I HİSSƏ**

AZADLIĞI İSTƏMİRƏM ZƏRRƏ-ZƏRRƏ, QRAM-QRAM...

**II HİSSƏ**

DOĞRANSAM DA QİYMA-QİYMA, TİKƏ-TİKƏ, RİZƏ-RİZƏ

MƏRAMIMDIR MÜBARİZƏ

# MİLLİ İDEAL MÜCAHİDİ*

Xəlil Rza Ulutürk görkəmli şair, filosof, mütəfəkkir şəxsiyyət, ədəbiyyatşünas-alim olmaqla bərabər, ictimai-siyasi xadim, milli istiqlal mücahididir. Onun azadlıq hərəkatı öncüllərindən biri olmasını yalnız Azərbaycana aid olan hadisə hesab etmək olmaz. X.R.Ulutürk mücahidliyi – bəşər azadlıq hərəkatının tərkib hissəsi, dünya bahadırlarına məxsus olan mübarizə yolunun tarixi davamı - gələnəyidir. X.R.Ulutürkün fərdi nümunəsi Məhəmməd Hadi, Fərrux Yəzdi, Sergey Korolyov, Soljenitsın, Nazim Hikmət, Nelson Mandela, Qarsiya Lorka, Beloyannis, Xosrov Ruzbeh, Pablo Neruda, KelşVandış, Mehdi Hüseynzadə kimi dünya vətənpərvərlərinin qəhrəmanlıq nümunəsidir.

X.R.Ulutürk xalqımızın azadlığı, milli idealı naminə ayağa qalxmışdı. Zəngin tarixə bələdlik, fərdi mübarizə ruhu, nəslin keçib-gəldiyi represiyalar yolu onu azadlığa, istiqlala səsləmişdi. O, Azərbaycanın müstəqil dövlətçiliyi naminə ayağa qalxmışdı! Türkçülüyün, Azərbaycançılığın düşməni olan rus imperiyasına qarşı ayağa qalxmışdı! Azov, Xəzər, Qara dəniz, Cənubdan Türkiyə və İranla əhatə olunmuş yüzlərlə xalqın – qafqazlının qənimi olan ikibaşlı qartal imperiyasına qarşı ayağa qalxmışdı!

X.Rza istiqlal hərəkatının mədəniyyət xadimləri arasında daha mübariz, daha prinsipial olmuşdur. O, 1988-ci ildən erməni şovinizminə, rus imperializminə qarşı inadlı, səbatlı mübarizəyə başlamış, Azərbaycanın bütün bölgələ-

* Məqalə kitabın mündəricəsini əhatə etdiyindən öndə gəlmişdir. – Red.

rində inqilabi çıxışlar etmiş, proqram məqsədlər irəli sürmüş, xalqı mütəşəkkil səfərbərliyə çağırmışdır. Onun çıxışlarının, ictimai-siyasi fəaliyyətinin mahiyyətində Azərbaycanın dövlət müstəqilliyi və demokratiya yolu ilə inkişafı ideyası durmuşdu. Belə bir siyasi mövqe şairi "qara siyahıya" saldırmış, imperiyanın zindanlarına gətirib çıxarmışdı. Elə arxiv materiallarından, oxucuların ixtiyarına verilmiş bu kitabdan da öyrənirik ki, 12 yanvar 1990-cı il tarixdə – DTK ətrafında keçirdikləri əzəmətli piketə, rəis müavini İlhüseyn Hüseynova irəli sürülmüş tələblərə görə onun "zindan həyatı" başlanmışdı. Şair xatırlayır: "70 ildir ki, daşnaklar yuva salıb, üstəlik daşnak südü əmənlər, qırmızılar. Təmizləyin DTK-nı murdarlardan. Təmizləyin Azərbaycanı! Bəlkə də adım qara siyahıya həmin gün düşüb (Birinci gün, 26 ocaq, 1990, Bakı).

Xəlil Rza 26 yanvar 1990-cı ildə Akademiyada keçirilən matəm mitinqindən çıxıb Şəhidlər xiyabanına gələndə, bəşər cəlladı Qorbaçov, Yazov, Kryuçkov, Girenko, Barannikov kimi qırmızı imperiya xadimlərinə, onların yerli nökərlərinə qarşı xalq qəzəbini, nifrətini ifadə edəndə, ağ və qırmızı imperiyanın cinayətlərini göstərəndə, onları şer dili ilə söyləyəndə həbslər başlanmış və o, "Gənclik" metrosuna çathaçatda, xalq artisti Mikayıl Mirzənin 73-77 AQ nömrəli "Jiquli" maşınında qamarlanmışdır. Xəlil Rza Ulutürk Azərbaycan SSR Prosessual Cinayət Məcəlləsinin 67-ci maddəsi ilə milli ədavəti qızışdırmağa görə SSRİ baş prokurorunun müavini İ.Abramovun əmrinə əsasən həbs edilmiş, ona 3 aydan 10 ilədək iş gözlənilmişdir. "Qanadları bükülməyən bir qüdrət şairi alıb layiq olduğu təmiz, ülvi bir mövqeyə qaldırmış", "al qana bələnmiş dünya yerində qalmışdır". Xəlil Rza 27 yanvar

1990-cı ildə Moskvaya, SSRİ DTK-nın Lefortovo zindanına gətirilmişdir.

Xəlil Rzanın Lefortovo həyatının salnaməsi boz üzlü, eni uzunluğundan böyük olan varaqlara yazılmış və qaytaqlanıb saxlanılmışdır. Bu bağlamalarda gündəliklər (elmi-tarixi memuarlar), M.J.Lermontov, A.S.Puşkin, A.Blokdan etdiyi tərcümələr və şerlər toplanmışdır. X.Rza evə qayıtdıqdan sonra onları səliqəyə salmış, üzlərini yenidən köçürmüş və bir hissəsini "Davam edir 37" kitabında çap etdirmişdir.

Lefortovo gündəlikləri şairin vəfatından sonra mərhum İmran Xəlilovun redaktorluğu ilə çap olunmuşdur (Bakı "Azərbaycan" nəşriyyatı, 1998). Kitab kiçik şriftlərlə, kiril əlifbası ilə yığıldığından Firəngiz xanım onun təkrar nəşrini vacib bilmişdir. İkinci nəşr tərtibcə yeni keyfiyyətdə, iri həcmdə olub X.Rzanın Lefortovo həyatını tarixi sənədlərlə bir yerdə, Firəngiz xanımın əlavələri ilə birlikdə əhatəli surətdə canlandırır. Şairin qadını həmin əlavələri nəzərə aldığından kitabı iki hissədə tərtib etməyi vacib bilmişdir.

Yerləşdirilmiş materiallar tarixi xronologiyaya əsaslanır. 21 noyabr 1988-ci ildən 8 oktyabr 1990-cı ilə qədərki illəri özündə əks etdirir. X.Rza ilk əlyazma variantında milli hərəkatın fraqmentlərini də mündəricəyə daxil etmişdir ki, 1990-cı ildən, 26 yanvardan başlayan zindan həyatına gəlişin obyektiv və subyektiv amilləri də təsəvvür olunsun. Firəngiz xanım da şairin öz seçimini saxlamağa üstünlük vermişdir. Tərtibat zamanı yanvar, fevral, mart, aprel, may, iyun, iyul hadisələrinin gündəliklərinə daha çox diqqət yetirilmiş, avqust və sentyabr aylarından kitaba demək olar ki, heç bir yazı düşməmişdir. Bu sə-

bəbdən də Firəngiz xanıma müraciət etdik. Firəngiz xanım bu faktı belə izah edir ki, görünür Xəlil Rza həmin aylarda zindanda daha çox tərcümə materialları ilə məşğul olmuşdur. Orijinalı oxumaq, onlar üzərində yaradıcı işləmək, əlbəttə, vaxt tələb edirdi. Nəzərə alaq ki, Xəlil Rza M.J.Lermontovdan, A.S.Puşkindən, A.Blokdan poema və şeirləri bu müddətdə dilimizə çevirmişdi. Bir də həmin aylarda (avqust, sentyabr) Xəlil Rzanın Bakıya gətirilməsinə daha ciddi səy edilirdi. Onun mənə həsr etdiyi məhəbbət şeirlərinin çoxu da bu aylarla bağlı idi. Xəlil Rza yazdığı gündəliklərin ideya məzmununu da zindanda poetikləşdirmişdi. Bütün bu səbəblərdən düşünmək olar ki, o, Lefertovo həyatının son aylarını daha çox poetik yaradıcılığa həsr etmişdi.

Xəlil Rza həbsdən qayıdandan sonra Lefortovo əlyazmalarını nəşrə hazırlamışdır (lakin vəfatı ona kitabın nəşrinə imkan verməmişdi. Salnamədə yanvar ayı 26, 27, 28, 29, 30, 31 günlərini, fevral ayı 1, 2, 3, 4, 6, 7, 8, 12, 13, 15, 18, 19, 20, 21, 23, 25, 26, 27, 28 günlərini, mart ayı 1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10, 11, 12, 13, 15, 17, 19, 22, 25, 26, 29, 30 günlərini, aprel ayı 10, 12, 13, 14, 15, 16, 17, 19, 20 günlərini, may ayı 2, 10, 24, 26, 27, 28 günlərini, iyun ayı 1, 5, 6, 7, 8, 14, 21, 22, 25, 27, 28 günlərini, iyul ayı 5, 13, 14, 19 günlərini, oktyabr ayı 8 gününü əhatə edir. Qalan günlərin tarixi əks-sədası isə kitabda yoxdur.

Gündəliklər sadəcə X.Rzanın başına gələnlərin tarixçəsi deyil. Sənətkar geniş "formatda" həqiqətlərdən danışmışdır: Azərbaycanın tarixindən, keçmişindən, rus imperiyasının siyasətindən bəhs etmişdir. Faktlara geniş informasiyada yanaşmışdır.

Xəlil Rzanın arxivində Lefortovo sənədləri saxlanılır. Bu sənədlər içərisində ərizələr, müraciətnamələr, ittiham-

namələr və başaqaları vardır. Lakin bunlardan ilk nəşrə heç nə düşməmişdir. Yeni nəşrdə isə onların bir qismi özünə yer tutur. 30 iyul 1990-cı il tarixli ittihamnamədən məlum olur ki, Xəlil Rza guya kütləvi iğtişaşa görə, milli ədavəti və düşmənçiliyi qızışdırmağa, erməni millətinə zor göstərməyə görə cinayət məsuliyyətinə alınmışdır. «O, 1989-cu ilin noyabrından başlayaraq -1990-cı ilin yanvarına qədər Bakı şəhərində şəxsən və bir dəstə adamla çoxminli mitinqlərdə  şəhərin mərkəzi meydanında qəsdən millətlərarası düşmənçiliyə, ayrı-seçkiliyə, erməni millətinin şəxsiyyətini və ləyaqətini alçaldan və onların millətindən asılı olaraq Konstitusiya hüquqlarını məhdudlaşdıran hərəkət etmişdir.» X.R.Ulutürk 26 yanvar 1990-cı ildə həbs edilmiş, naməlum istiqamətə aparılmışdır.

Şairin həyat yoldaşı Firəngiz xanım Ulutürk qadın dəyanəti ilə 18 dəfə Lefortovo zindanlarına üz tutmuş, güman bildiyi yerlərə dəfələrlə müraciət etmiş, bir sıra rəsmi qəbullarda olmuş, təhdidlər görmüş, qorxudulmuş, lakin inamından, inadından dönməmişdir. O ilk əvvəl ərinin harada saxlandığını öyrənməyə çalışmışdır. Bu məqsədlə qəbul edilmədiyini görüb, Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri V.Hüseynova, MK-nın birinci katibi A.Mütəllibova və Bakı şəhər xüsusi rayonunun hərbi komendantı A.Dubinyaka, SSRİ baş prokuroru A.Suxarevə, sonra G.Titova, SSRİ KQB sədri V.Kryuçkova aramsız teleqramlar vurmuş, ərizələrlə müraciət etmişdir. Qorxmamışdır. Özünə, haqq işinin qalib gələcəyinə inanmışdır. Firəngiz xanım bacısı Rəna xanımla birlikdə yalnız fevralın 18-də müəyyənləşdirə bilmişdir ki, əri Moskvaya - DTK-ya aparılmışdır. Firəngiz xanım fevralın 28-də Moskvaya, Lefortovo zindanına gələ bilmişdir. Martın 4-də ilk görüş

baş tutmuş, o, qardaşı Nizami ilə Xəlil Rzanın görüşünə gəlmişdir.

Firəngiz xanım martın 1-də Bakıya, DTK-ya çağırılmışdır. O, baldızı Böyükxanımın əri doktor Elxanla Dzerjinski adına klubun 4-cü mərtəbəsində yerləşən DTK-da dindirilmişdir.

Firəngiz xanımın 4 mart 1990-cı il, saat 16-da Moskvada X.Rza ilə ilk görüşü olmuşdur. Görüşdən sonra müstəntiq Yanalov Bakıda Təhlükəsizlik Nazirliyində verilən suallarla: X.Rzanın başqa millətlərə necə baxması, qadınları sevib-sevməməsi, pula, siyasi təşkilatlara münasibəti ilə bağlı Firəngiz xanıma sorğular etmiş və cavablar almışdır.

Firəngiz xanım qaynı Rüstəmlə birlikdə fürsətdən istifadə edib sessiyadakı deputatlara, Yazıçılar İttifaqına vərəqələr paylayıb, oradan bütün respublikaların yaradıcılıq birliklərinə müraciətnamələrin göndərilməsinə, habelə, Çingiz Aytmatova, Oljas Süleymenova, David Kuqiltinova çatdırılmasına təşəbbüs göstərmişdir. Belə kompaniyanı xalq özü Bakıda da aparmışdır. Təkcə SSRİ baş prokuroru A.Suxarevə bir mlyon iki yüz mindən artıq tələbnamə, məktub, teleqram, ərizə, şikayət göndərilmişdir. Firəngiz xanımın evinin yanında aclıq çadırı qurulmuş, geologiya-minerologiya elmləri namizədi Könül Zeynalova və Ədilə xanım, su idarəsi mühəndisi Nizami Hüseynov, X.Rzanın qardaşları Məhəmməd bəy, Tofiq bəy və başqaları aclıq elan etmişlər. İnsan seli "Xalq şairinə azadlıq!" şüarı yazılmış transporantlarla küçə nümayişlərinə çıxmışdır.

"X.Rzanı Müdafiə Komitəsi" yaradılmışdır. Komitənin sədri, xalq yazıçısı İsmayıl Şıxlı, üzvləri Hümmət Süleymanlı, Ramiz Duyğun, Sabir Rüstəmxanlı, Əzizə Cəfərza-

də, Könül Zeynallı və başqaları olmuşdu. Komitə X.Rzanı müdafiə etmək üçün "Beynəlxalq insan hüquqlarını müdafiə cəmiyyətinin" ünvanına milyon yarımdan artıq imza toplamışdı, xalqın haqq səsini yuxarılara çatdırmışdı. Bakıda Elmira Mikayıl qızına, DTK sədri V.Hüseynova, MK-ya yüzlərlə teleqramlar, tələbnamələr, müraciətlər göndərilmişdi. Xalq yazıçısı, hörmətli Anar müəllim Suxarevin qəbulunda olmuş, vəziyyəti onlara aydınlaşdırmağa çalışmışdır. Bakıda şairlər: Qabil, Ramiz Duyğun, Nəriman Həsənzadə, Şamil Əsgər, Şahmar Əkbərzadə, Zülfüqar Şahsevənli, Sabir Şərqi, Əşrəf Şəfi, və başqaları "Xəlil, hey" deyə haray qoparmışlar. Yalnız bundan sonra fevralın 26-da rəsmən cavab bildirilmişdi ki, Xəlil Rza Moskvada saxlanılır, 67-ci maddə ilə təqsirkar bilinir. Həmin dövrdə Sabir Rüstəmxanlı Xəlil Rzanın şerlərini "Azərbaycan" qəzetində tez-tez dərc etmişdi. Azərbaycanın görkəmli oğulları, o cümlədən Ağdam rayon həmkarlar ittifaqının sədri Zeynal Məmmədov milli respublikaların Ali Sovetlərinə, Kremlə, Çingiz Aytmatova teleqramlar vurmuşdu. Firəngiz xanım özü Azərbaycan EA prezidenti, akademik Eldar Salayevə ərizə ilə müraciət etmişdi. İlk dəfə şairlərdən Hidayət Orucov, Nəriman Həsənzadə, Ramiz Duyğun, Qasım Qasımzadə, Qabil, Şəmşad Rza, Oqtay Rza, Mətləb Misir, Gəray Göyyurd, Əlis Səfər, Höcət Məmmədli, Mikayıl Yusif, Seyran Cavad və başqaları Xəlili haraylamışdılar. Firudin Şimşək, Qulu Xəlilov, Könül Zeynallı "Azadlıq" radiosu ilə Xəlilin Lefortovoya salınmasını dünyaya bəyan etmişdi. Bu sahədə qeyrətli vətənpərvər Mirzə Xəzərin xidmətləri böyük olmuşdur. O, Moskvada baş verən hadisələri səhər saat 6-dan 7-yə kimi xəbər verir, Xəlil Rzaya aid şerlər oxuyurdu. "Sonralar hamımız deyirdik ki, Xəlil, səni Mirzə Xəzərin səsi xilas et-

di, o, bütün dünyaya car çəkir, "Azərbaycanın xalq şairi Xəlil Rzaya azadlıq!" deyərək, bütün ölkələri köməyə çağırırdı"[1].

O zaman türk Yazıçılar Birlikləri də X.Rzanı xilas üçün müraciətlər edir, şairin azad olunmasını istəyirdilər. Bu cəhətdən Özbəkistan yazıçılarının fəallığı xüsusi qeyd olunmalıdır. O zaman Özbəkistanın yazıçı, alim və jurnalistləri Bakı şəhər məhkəməsinin sədri İlqar Abbasova tələbnamə ilə müraciət etmişdilər.

Xəlil Rza xalqın, ictimaiyyətin tələbi ilə 18 oktyabr 1990-cı ildə Bakıya, DTK-ya gətirilmişdir. O, oktyabrın 23-də zaminə buraxılmışdır.

Məhkəmədə X.Rzanın vəkili Hacı Rəhmanov, ictimai vəkilləri isə Qabil, Qasım Qasımzadə və Ramiz Duyğun olmuşdu. Məhkəmə bir aya qədər davam etmiş, bu sahədə xalqımızın qeyrətli oğlu, mərhum Hümmət Süleymanlının böyük xidmətləri olmuşdu. Sədr İlqar Abbasov ədalətli hökm çıxarmış, Xəlil Rza bəraət almış, xalqımız sevinmişdir. Firəngiz xanım X.Rzanın zindan həyatından sonrakı dörd ili, şair ömrünün son səhifələrini kitaba daxil etməyi lazım bilməmişdir. Son dörd il əslində Xəlil Rzanın zindan həyatının – onun doğurduğu fiziki məhrumiyyətlərin davamı, şairin xəstəlik illərinin əks-sədasıdır. Firəngiz xanım bu dörd ilin tarixini sənədləri, təfərrüatları ilə birlikdə «Xəlil Rza kədərimlə qol-boyun» kitabında (B., "Şərq-Qərb" nəşr., 2003) ifadə etdiyindən burada təkrar etməyə lüzum görməmişdir.

Kitabda bu və ya digər hadisələrlə bağlı məlumatlar zəngindir, oxunaqlıdır. Burada 20 Yanvar hadisələri, habelə, şairin başına gələnlərin tarixi xronikası aydın, dürüst göstərilmişdir.

"Lefortovo zindanında" tarix, coğrafiya, siyasət baxımından informasiya ilə sıxdır. Kitab siyasi, ideoloji cəhətdən kəsərli salnamədir. Bu toplu elmi-tarixi memuardır – ədəbiyyatımızda yeni janr tipidir, memuar janrının xüsusi bir hissəsidir. Lefortovo gündəliyi gəncliyə öyüd-nəsihət, vəsiyyət kitabıdır. Onun gənclərimizin hərbi vətənpərvərlik və dövlətçilik tərbiyəsində ictimai-siyasi əhəmiyyəti böyükdür. Kitab vətənə, xalqa, torpağa əqidəcə, məsləkcə bağlanmağın yolunu göstərir, nümunə rolunu oynayır. Bu salnamə Xəlil Rza Ulutürk əbədiyyətinin bir nişanəsi, bir saxlancıdır. Milli şüur və məfkurəmizin, ideoloji fikir tariximizin inkişafında kitabın qiyməti misilsizdir.

**ƏLİZAD□Ə ƏSGƏRLİ,**
*Azərbaycan Milli Elmlər Akademiyası*
*Nizami adına Ədəbiyyat İnstitutunun*
*aparıcı elmi işçisi, filologiya elmləri namizədi,*
*Bakı Qızlar Universiteti*
*Ədəbiyyat və jurnalistika kafedrasının müdiri.*

# YAZILACAQ SƏHİFƏLƏR İNTİZARINDA

Xəlil Rza Ulutürkə lap gənc vaxtlarından, azı qırx ildir yaxından bələdəm. Onunla həmişə həmkar, həmməslək və yaradıcılıq təmasında olmuşuq. Bu illərin bir qismi ədəbi hərəkat axınında, digər qismi Nizami İnstitutunun divarları arasında elmi əməkdaşlıq şəraitində keçmişdir. Hələ altmışıncı ildə (1960-cı il nəzərdə tutulur – Ə.Ə)"Ədəbiyat və incəsənət" qəzetinin baş redaktoru olduğum dövrdə Xəlilin "Azadlığı istəmirəm qram-qram..." səpgili şerlərini dərc etdiyimə görə, rəhbər orqanların töhmətini də daxilən bir mükafat kimi qəbul eləmişəm. İstiqlal nəğməkarımız məhbəsdə ikən onun barəsində həqiqətləri və ümumxalq rəyini çətinliklə də olsa, ilk dəfə mətbuat səhifələrinə çıxarmağa da imkan tapdım. Xəlil Rza Ulutürk imperiyanın bədnam Lefortovo zindanında yatanda etirazımı "Azərbaycan", "Vətən səsi", "Ədəbiyyat" qəzetlərində və Tehranda çıxan "Varlıq" jurnalında bildirmişəm. Bütün bunlar cəsur millət qəhrəmanının xidmətləri müqabilində heç nədir. Demək istəyirəm ki, biz, Xəlil Rza Ulutürkün həmkarları onun pak mənəviyyatına yaxından bələd olduqca, kamilləşib bütövləşən şəxsiyyətinə çox borclu oluruq. Mənim üzərimə isə bu borcun ikiqat ağırlığı düşür:bir yandan ağır günümün həyanı, digər tərəfdən böyük qarşısındakı borcun şərəfi kimi. Nəcabət sahibi Xəlilin bizim ailə üzərindəki haqq-sayı unudulmazdır. Oğlum Fəxrəddinin faciəsində yas mərasiminin yeddisinə qədər

o, hər gün bir mərsiyə yazdı, kitablarında dərc etdirdi. «Ona qoşma qoşan Xəlil Rzanın bağrında bir qardaş yarası qaldı» dediyi həmin günlərdə dözülməz dərdimizə onun şərik olduğu nəsilbənəsil yaddaşımızdan silinməyəcək.

Milli müstəqilliyimiz yolunda Xəlilin bir sərkərdə, bir əsgər kimi atdığı dönməz addımlar onu ictimaiyyətin nəzərində heç bir müasir sənətkara nəsib olmayan əlahiddə mərtəbəyə qaldırmışdır. Qeyri-adi istedadı, mətanəti, milli əqidə və mücahidliyi, sərhədsiz zəhmətsevərliyi ilə Xəlil Qaf qartallarına məxsus zirvə haqqı qazanmışdır. Bir vaxt azadlıq, milli mənafe sözlərini dilə gətirənlərin faciəli aqibətini görə-görə ilk gənclik çağlarından xalqının istiqlal məramını car çəkməkdən ötrü kəfən geyənlərdən olmuşdur Xəlil. Cild-cild orijinal kitablar müəllifi «Moabit dəftəri»ni türk dilində səsləndirməkdən ötrü yuxusuz gecələr keçirəndə ağlına gəlməzdi ki, onu da Musa Cəlilin taleyi gözləyir. O da qəsbkara qarşı ayağa qalxmışdı, bu da. Fərqləri bu idi ki, tutulanda Musa Cəlilin əlində avtomat silahı var idi. Xəlilin əlində avtomat qələm. Əli silahlını faşist tutmuşdu, əli qələmlini kommunist. Mən həmin gün Şəhidlər xiyabanında idim. İzdiham sovet tankının tırtılları altında qanlarına qəltan edilən akademiyanın alimlərinin dəfn mərasiminə yığışmışdı. Xəlil Rza söz aldı, dedikcə təsirli, həm də pərişan nitq söylədi, imperiya başçısına qəzəbli ittiham şeirini oxudu. Mərasim bitər-bitməz söz kürsüsündən endi. Kütləyə qarışıb yox oldu. Sən demə, güdükçülər şairi qarabaqara izləmiş, fürsət tapıb münasib yerdə qollarını qanırmış və öz qara maşınlarına mindirmişlər... Sonra da birbaşa şər yuvası Moskvaya, Lefortovo həbsxanasına atmışlar. Mən Bakı şəhər məhkəməsində üç

vətənpərvərin mühakiməsi zamanı Xəlil Rzanı ictimai müdafiəçilərindən biri kimi təxminən bir ay çəkən bu prosesdə iştirak etmişəm. Yetmiş ildə xalqımızın başına gətirilən müsibətlərin sənədləşmiş nümayişinə çevrilən bu ibrətamiz tarixi hadisədə Xəlilin son sözü əsl ittiham idi.

İndi məhbəs məhsulunun az, lakin hər misrası od-alov saçan bir qismi – Ulutürkün Gündəliyi qarşımızdadır. Xəlilin on illər boyu yorulub usanmadan yazdığı, yüzlərcə cildə sığmayan gündəlikləri bütövlükdə milli və siyasi, mədəni və ədəbi gedişatımızın, demək olar ki, tarixə çevrilmiş güzgüsüdür. Bu aynada ictimai həyatımız topoqraf dəqiqliyi ilə əks etdirimişdir. Xəlil gündəlik qeydlərində tariximizin yaddaşlardan silinməyəcək dərdlərini, erməni və rus azğınlarının sinəmizə çəkdiyi çalın-çarpaz dağları unutmamağa çağırır. Unutqanlığı ilə manqurt simasızlığı ilə dağlayır. Yaşadığımız qanlı-qadalı illəri günbəgün, saatbasaat qələmə alıb sənədləşdirir. Bu günün mənasını daha aydın açıqlamaqdan ötrü dünənə baş vurub qayıdır. Xəlil hadisələri qlobal miqyasda, böyük türk dünyası həndəvərində izləyir, vəziyyətlə dərindən-dərinə tanışlıqdan sonra qələmi işə salır. Məsələn, həbsxana qəzetlərindən öyrənir və oxucuya da çatdırır ki, Semipalatinskidə 1949-cu ildən bəri atom-hidrogen bombaları sınaqları səbəbilə on mindən çox adam şüalanma xəstəliyinə tutulub. «Belə bir dəhşət obyekti olaraq Türküstan dünyasının seçilməsi təsadüfidirmi?» sualına velikorus şovinizminin iyrənc təbiətini açıqlayıb «yox»! cavabını verir. Başqa bir misal Xocalı soyqırımının proqnozuna aiddir. Xəlil hələ 1989-cu ilin dekabrında görün nə yazmışdır: «Daşaltıdan, Həsənqulu kəndindən bizimkiləri çıxarıblar. Kərkicahan, Xocalı dai-

mi güllə yağmuru altındadır. Mətbuat faciəni gizlədir».

Gündəlikdə ayrı-ayrı şəxsiyyətlərin xidmətini səxavətli şair təxəyyülü ilə şişirtmə də, bəzi hallarda isə amansız mücahid qılıncını sivirmə məqamları da vardır. Xəlilin hadisələrə, insanlara istər obyektiv, istərsə də subyektiv münasibətində meyar olaraq ideala sədaqətindən irəli gələn səmimiyyət dayanır. Fərəhinin də, qəzəbinin də köpünü ala bilmir. Səhvə, yanlış addıma görə hədəf seçəndə özü ilə başqasında fərq qoymur. Ona görə də Xəlildən heç kəsin umu-küsüyə, inciməyə haqqı yoxdur. Universitet illərində düşmənlərimizi tərənnüm edən şerlərini xatırlayıb özünə qarşı ifrat amansızlıqla yazır: «Ar olsun, Xəlil, səni dama nahaq basmayıblar...

Nadir qafil olsa, qafil sayarlar,
Tacir qafil olsa, bağışlayarlar.
Sənətin qanunu başqadır bir az,
Şair qafilliyi bağışlanılmaz!».

Xəlil Rza Ulutürkün zindan həyatı onun sarsılmaz iradəsini son dözüm sınağına çəksə də, nəinki əyə bilməmiş, bəlkə daha da bərkitmişdir. Burada «İldırımlar köhlənimdir, qoy bir minim çapım» deyən şairin canından çox istədiyi Azərbaycanı, cəbhə dostlarını, qohum-əqrəbanı, övladlarını, halalını xatırlayıb qəribsədiyi, kövrəldiyi anlar, namərd torundakı Koroğlunun Çənlibel, Nigar həsrətini yada salır. Gündəlikdə vəfalı ömür yoldaşı Firəngizi, igid Təbrizini andıqca şairin sorğular, həyəcanlar dənizində çırpındığını, kövrəldiyini oxuduqca sən də eləcə həyəcanlanıb kövrəlməyə bilmirsən. Firəngiz xanım bütün məqamlarda ailə başçısına, ərə – sirdaş, silahdaş olan türk gəlinidir. Xəlil iftixarlı bir riqqətlə yazır: «Dəyanətlidir Firəngizim. Bu dəfə ağlamır. Yalnız şerlərimi dinləyəndə gözlərini silir...

Uzaq xatirələr toyda-düyündə,
Ömür gəldi keçdi darda, sürgündə.
Kişilər dünyada seyrələn gündə,
Kişi duruşuna qurban olduğum».

Gündəliyin Lefortovo ayları, həftələrində hələ Şuşa, Laçın istehkamlı, Dəlidağ, Murov arxalı Xəlili nələr gözləyir, o vaxtlar hələ faciəsi yazılmamış Xocalı, Kəlbəcər müsibətləri, Təbriz güvəncli oğul dağı qələmə alınmamış səhifələr... Azərbaycana Xəlil Rza siqlətli şair, Təbriz mətanətli şəhid, Firəngiz vəfalı xanım, Sevinc səbrli gəlin vermiş müqəddəs Ulutürk ocağı bu dərdləri yaşayacaq. Ulutürk mərdanəliyi ilə özündə milləti silkələyib, birləşdirib ayağa qaldırmaq gücü tapacaq. Allahın köməkliyi ilə zəfər muştuluqlu günlərimiz gələcək, qartal lələkli Ulutürk qələmi Gündəliyin hələ boş, yazılmamış vərəqlərini, qələbə müjdəli səhifələrini dolduracaq.

**QASIM QASIMZADƏ,**
*filologiya elmləri doktoru*
*6 aprel 1993.*

# ULUTÜRK ÖMRÜNÜN ULU MÖHÜRÜ

Deyirlər, böyük ədibimiz Mirzə Cəlil hər ilin sonunda "Molla Nəsrəddin" dərgisinin və ümumən ədəbi gedişatın uğur və itkilərini sadalamağı xoşlar və onların bəzisinə acı-acı, bəzisinə də şirin-şirin gülərmiş... Məsələn, 1911-ci ilin uğurlarından (bu söz dırnağa alınmamalıdır) danışanda ədib deyərmiş:

– Şükür, bu ilki qazancımız qabaqkı illərdən çox olub; redaksiya iki dəfə daşa tutulub, bir neçə əməkdaşımıza qəsd təşəbbüsü olub, Əli Nəzmini mollalar əməllicə əzişdirib, Əliqulu Qəmküsara dörd dəfə güllə atılıb, bir neçə nömrəmiz yarıbayarı Kürə tökülüb, mətbəəni yandırmaq təşəbbüsü olub, lakin andır tam yaş olduğundan yanmayıb və şübhəsiz bu qazancların qaymağı o olub ki, Hophopu çərlədib öldürə bilmişik.

Bəli, ədib dərginin artan nüfuz və təsirini belə bir dillə təsdiq edirdi. Bütün bu təxribat və hücumlar, təzyiq və həmlələr yuxarıdan rus imperializminin, aşağıdan kütlə fanatizminin əlilə baş verirdi.

Hər dəfə yazıçının bu təfsir-sadalama üslubunu görəndə gözəl vətəndaş şairimiz Xəlil Rzanı düşünürəm.

Xəlil şer yaradıcılığına başlayandan 5-6 il sonra Vətəninin tapdaq altında, xalqının əsir olduğunu dərindən duyub sözü ilə ciddi mübarizə meydanına atılıb. Və nəticədə amansız yağının imkanında olan hər cür repressiyalara məruz qalıb: işdən və partiyadan çıxarılıb (!), çoxlu töhmət

alıb, kitabları gecikdirilib və ya buraxılmayıb, "xatalı" sözləri senzurada ən amansız şəkildə təftiş və ixtisar olunub, həbs edilib, nəhayət, erməni-rus yırtıcılarına qarşı VƏTƏN MÜHARİBƏSİNDƏ oğlunu itirib. Xəlilin son 35 ildə gördüyü siyasi sitəmlərin sayı bundan qat-qat çoxdur. Lakin şairin müqəddəs Vətən eşqi, istiqlal arzusu, millət yanğısı onun qarşılaşdığı bütün maneələrə üstün gəlib, hamısını süpürüb, onu bugünkü istiqlal mərhələmizə gətirib çıxarıb.

İlahi, insanda nə qədər daxili enerji, nə qədər qırılmaz inam, nə qədər böyük qorxmazlıq olarmış! Bu mənəvi sifətlər Xəlildə ideal pillədədir. Çərçivələri qırmaq, haqsız və riyakar axına qarşı durmaq, həqiqətin müdafiəsində qalıqsız-kəsirsiz qurban getmək Xəlilin boyuna biçilib!

"Molla Nəsrəddin" kimi, Xəlil Rzaya da güllələr həmişə eyni nöqtələrdən dəyib: yuxarıdan rus imperializmi, aşağıdan milli satqınlar, DTK, özü demişkən, milli gürzələr... 37 ildən bəri tanıdığım bu azman adamda bir neçə şəxsiyyət görmüşəm: Şair Xəlil Rza, tərcüməçi Xəlil Rza, alim Xəlil Rza, müəllim Xəlil Rza, təbliğatçı Xəlil Rza, salnaməçi Xəlil Rza... Özü bu yaradıcılıq qanadlarını bir misrasında çox gözəl ifadə edib.

Ən maraqlı və ibrətamiz cəhət də budur ki, bu Xəlil Rzaların hamısı bütövlükdə birləşir, hamısı bir-birini tamamlayır, hamısı bir-birini təsdiq edir, Şair kimi müxtəlif dillərdə 20-dən çox kitabı və dörd min şeri çıxıb; tərcüməçi kimi iki qalın kitabı və minlərlə tərcüməsi buraxılıb; alim kimi üç iri monoqrafiyası və yüzdən çox məqaləsi var; müəllim olaraq keçmiş APİ-nin ən sevimli pedaqoqla-

rından biri kimi fəaliyyət göstərib; təbliğatçı Xəlilin kimliyinə onu tanıyanlar yaxşı bələddir – onun irili, xırdalı bütün söhbət və danışıqlarının, bəhs və mühakimələrinin bircə mübtədası var: Azərbaycan-Türk mədəniyyətinin qədimliyi, böyüklüyü, bənzərsizliyi! Salnaməçi Xəlil Rza isə ən emosiyasız adamı da heyrətə salar: 32 ildən bəri ictimai-siyasi-ədəbi həyatımızdan apardığı gündəliklər 400 cildi keçib. Özü də Xəlilin gündəliklərində bəzi salnaməçilərdə gördüyumüz gündəlikbazlığa rast gəlmərik, “pəncərəmdən düşən günəş məni oyatdı, yuyunub-geyindim, arvadın isitdiyi düşbərədən bir kasa içib işə yollandım, artıq hava tutqun idi" kimi adi və gərəksiz söhbətlərə təsadüf etmərik. Bu gündəliklərdə xalqımızın əsl tarixi yatır, ürəyi döyünür, duyğu və düşüncəsi hıçqırır. Bunlarda ən adi fakt nə olsa yaxşıdır? – Rus bolşevizminin antitürk mahiyyəti və onun təzahürləri! Bu gündəliklərdə ən kiçik bəhs nə olsa yaxşıdır? – böyük alimimiz Heydər Hüseynovun ölümünün müfəssəl səbəbləri! Gündəliklərində Xəlil Rza yalnız həqiqət adlı bir müəllimi danışdırır! Məzmun zənginliyinə, fakt bolluğuna, ictimailik əmsalına gerə Xəlilin gündəliklərinə hətta İvan Turgenev və Lev Tolstoy kimi salnaməçilər də həsəd apara bilərlər. Xəlilin bu gündəlikləri xalqımızın misilsiz sərvətidir, bunlar əzrayılın ağzından salınmış canlı tarixdir – öz qılınc həqiqətilə yalançı tarixləri doğrayıb tökən tarix! Mən tam əminəm ki, indiki bəzi alverçi və binamus nəşriyyat işçilərinin yapdıqları maneələr tezliklə aradan qalxacaq, Xəlilin gündəliklərini nəşr etməyin danılmaz zərurətini və əvəzsiz tarixi əhəmiyyətini başa düşub bu nəcib işə girişəcək qeyrətli naşir-

lər yetişəcəkdir. Bir vücudda birləşən Xəlillər bu vucudun bütun toxumaları ilə xalqımıza, istiqlalımıza, maddi və mənəvi dirçəlişimizə, özünütəsdiqimizə, azad dövlətçilik aktımıza xidmət edir. Yuxarıda saydığım Xəlillər daha böyük bir Xəlilin hökmü ilə hərəkət edib: VƏTƏNDAŞ XƏLİL RZA! Doğrusu, yuxarıda saydığım Xəlillər əvəzolunmaz deyil, lakin vətəndaş Xəlil Rza əvəzsizdir, ona tay tapmaqda şəxsən mən çətinlik çəkirəm. Xəlil Rzanın şeri də, adicə sözü də, şəxsiyyəti də, hətta adı da Türk varlığına böyük, müqəddəs inam və məhəbbətlə yazılmışdır. Mən heç kəsin heysiyyətinə toxunmaq, "vətəndaşlıq stajı"nı azaltmaq istəməzdim. Lakin suverenlik və istiqlal hayqırışları, azadlıq və milli hüquq mubarizəsi hərəkatında Xəlilə pioner desəm, onu tanıyanlar mənə şərik çıxarlar. Biz bu sözləri üç-dörd ildir deyirik. Xəlil isə 30-40 ildir bu yoldadır. 32 il bundan irəli dediyi sözlərdə nə dolayı bədii obraz tapmaq olar, nə məcaz, nə də rəmz; bunlarda bütöv-bütöv xalqları "tula payı" ilə milli mənlikdən yayındıran mürtəce rus-sovet imperializminə birbaşa, açıqca üsyan var: AZADLIĞI İSTƏMİRƏM ZƏRRƏ-ZƏRRƏ, QRAM-QRAM. QOLUMDAKI ZƏNCİRLƏRİ QIRAM GƏRƏK, QIRAM. QIRAM!". Xəlil Rza rəsmi dairələrdə həmişə "xatalı adam" sayılıb, həmişə təqib edilib. DTK-da onun barəsində cild-cild "əsərlər" var, hamısı da fitnəkar Moskvanın tələbi, manqurt bolşeviklərin əli, sapı özümüzdən olan baltaların ağzı ilə hazırlanıb! Lakin Xəlil Vətən, Xalq, İstiqlal yolunda hər şeyə dözüb. O, xalqının istiqlalı yolunda, Xətai demişkən, "iliyi əriyib sümüyü qalan" yenilməz bir mübarizdir. Milli varlığımızın ölüm-di-

rim savaşında oğlu TƏBRİZ-in döyüş meydanında qəhrəmancasına həlak olması Xəlil ömrünün məna möhürüdür!

Belə bir fakt da rəmzi mənadan xali deyil ki, TƏBRİZ şər imperiyasının Qırmızı ordusu ("qırmızı" türkcə həm də həyasız deməkdir) sıralarından qaçdı, lakin Milli Orduya könüllü getdi. Bəli, 2 il həbsdə yatmağı 2 il şər ordusunda xidmət etməkdən üstun tutdu. Belə bir ordudan qaçmaq ona şərəf gətirdi, dustaqlıq isə onun yenilməz cavan Türk təbiətinin dəqiq ifadəsi oldu. Murmanskdan, Şimal Buzlu Okeanın sahillərindan nifrətlə qopub Bakıya, məhəb-bətinə tərəf gəldi. Xəlilbəylilər ailəsində böyüyən TƏBRİZ miniatür Azərbaycan oldu. Onun mərdanə ölümünün baiskarı da tarixi yağı simvolu idi. Bu ölüm təkcə oğul faciəsi deyil, həm də ata taleyi aktıdır. Bu ölüm Xəlil Rzaya necə yaraşır, onun həyatını necə tamamlayır! Bu şanlı ölüm Təbrizə halal olsun! Təbriz ölümü Xəlil Rza ömrünün ən müəzzəm akkordu, ən təbii yekunu, ən ideal bəzəyi oldu! Bu muqəddəs ölüm Xəlil Rza qəhrəmanlığının təsdiqi, möhürü oldu! Bu ölüm Xəlilin aldığı mükafatların ən böyüyü olmaqla onları tamamladı. Xəlil Rza olan kəs bu dörd illik cihadda bir oğul qurbanı verməyə bilməzdi! Ağzı qızanda Allahını danıb hər şeyə qulp qoyan, hər şeydə qara niyyət arayan, insafını itirib Xəlil Rzanın tam səmimi milli istiqlal mübarizəsini, dil, xalq, vətən təəssübünü ucuz şöhrət axtarışı, boş şair hay-küyü hesab edən inkarçılara da cavab aktı oldu bu məğrur ölüm! Yuxarıda bir qismini saydığımız dövlət mükafatları məgər Xəlil işinin səmimiyyətinin rəsmi təsdiqi deyilmi? Kim nə deyir-desin, mən belə düşünürəm ki, Təbrizin ölümü Təbrizdən çox

Xəlil Rzaya yaraşır. Çünki yiyəsi ilə birlikdə bu ölümün də müəllifi XƏLİL RZA ULUTÜRKDÜR! Xəlil kimi ülvi atanın, Firəngiz xanım kimi arslan ananın, Fərhad, Tofiq, Rüstəm, Məhəmməd kimi kişi əmilərin, Arifə, Böyükxanım, Ulduz kimi erkək bibilərin bir Təbriz qurbanı olmaya bilməzdi. Hər şey, hər kəs böyüyəcək, qocalacaq, amma bu igid oğul həmişə 28 yaşında qalacaq. Onun qalan ömür payını könüldaşı Sevinc ilə ciyərparaları Türkay və Gültaç yaşayacaqlar.

**SABİR ƏLİYEV**
*filologiya elmləri doktoru, professor.*
*Gəncə, aprel 1992.*

# I HİSSƏ

# AZADLIĞI İSTƏMİRƏM ZƏRRƏ-ZƏRRƏ, QRAM-QRAM...

# BİRİNCİ GÜN, 21 NOYABR 1988, BAKI

Bakını və aləmi bürüyən əzəmətli uğultular düşünməyə və evdə çalışmağa imkan vermir.

– A zər bay can! A zər bay can! – sədaları altında irəliləyən dəstələr sahildə Hökumət evi qarşısındakı Azadlıq meydanına axışmaqdadır. Təbrizə, Rzaya, Sevincə tapşırıram:

– Heç bir iş! Heç bir dərs! Hamınız tətil və nümayişə!

– Oldu, ata. Hamımız nümayişə!

Son çağlarda boyu xeyli ucalmış, əzələləri möhkəmlənmiş kimi görünən qara bığlı, səhər üzlü, enli kürəkli Təbrizimin gözlərində bic bir təbəssüm gizlənib.

... Çantamı götürüb evdən çıxıram. İnstitutda son hadisələri incə təhlildən keçirən ağ saçlı Əkbər Ağayevi dinləyirik.

– Ruslar heç vaxt ağıllı diplomatiya, müdrik dövlət qoruyuculuğu nümayiş etdirə bilməmişlər! – deyir. – Rus imperi yası yalnız süngüyə, zorakılığa arxalanmışdır. İngilislər Hindistanda 300 il hökm etdi, vaxtın bitdiyini sezəndə getdilər. Amma qırmızı imperializm həyasızdır, adı kimi qırmızıdır. Hələ yenicə başlanan döyüşlərdə biz müdafiəsizik. Qarşımızda səngər dalında səngər dayanır. Həm daşnak murdarlığının, həm də gözləri buz kimi soyuq velikorus şovinizminin qarşısında duruş gətirməliyik. Asan olmayacaq. Qanımız töküləcək. Allah özü bizi bəladan saxlasın.

Söhbətə qoşulan qırımızı yanaqlı Nadir Məmmədov

deyir ki, dünən mənim oğlumu erməni bilib sahil meydanında bərk əzişdiriblər.

... Professor Yaşar Qarayevin, bizim direktor otağında həmkarlar başçımız, tənqidçi Şamil Salmanov məni ehtiyatlı olmağa, «velikorus şovinizmi» ifadəsini işlətməməyə çağırır.

– Sənin hər çıxışından sonra bizə zəng edirlər. Özünü və bizi hər gün zərbə altında qoyma! Axı onlar sənin səviyyəndə deyillər. Beyinləri də, ürəkləri də hələ qorxuhürkü içindədir.

...Evdəyəm. Nümayişdən qayıdan Firəngiz böyük həyəcan içindədir. Sevincimdən, kədərimdən ağladlım, – deyir, gözlərini yenidən silir. – Aclıq elan etmiş bir gənc tribunadan od püskürdü, səndən də amansız, sərt danışdı.

Respublikanı idarə edə bilmirsiniz, istefa verin, rədd olun, gedin! – dedi. Sabir Rüstəmxanlı üsyankarlığında onun haqlı olduğunu təsdiqlədi. Vur-çatdasından. Sən getmə, Xəlil!

Gedirəm. Nümayiş ümmanındayam.

...Hökümət evinin birinci qatından da aşağıda yerləşən əzəmətli, çırağban bir salona keçirəm. Tənqidçi Aydın Məmmədov nümayişin qətnaməsini yazır. Bəyənmir, düzəlişlər edir, yenidən yazır. Xətti az qala oxunmaz dərəcədə, incə və zərifdir. Qaralamasını ələ keçirir, gündəliyə qoşuram. Budur, Aydın bəyin xətti:

– Yaranmış təhlükəli vəziyyətdə bilavasitə təqsirkar olan, ölkəmizin xalqlarının birliyinə zidd mövqe tutaraq birtərəfli millətçilik siyasətini daha da dərinləşdirən Dağlıq Qarabağ Muxtar Vilayəti partiya komitəsinin ziyanlı kursu rədd edilsin. Öz partiya nüfuzunu xalqlar arasında təfriqəyə yönəltmiş vilayət partiya komitəsinin indiki

bürosu buraxılsın, birinci katib Poqosyana layiqli partiya cəzası verilsin.

Keçən ayların təcrübəsi göstərdi ki, Azərbaycanın ayrılmaz tərkib hissəi olan Dağlıq Qarabağa verilmiş muxtariyyat erməni xalqının sosial-iqtisadi və mədəni inkişafına deyil, Azərbaycan xalqının, Azərbaycan Respublikasının birliyinə, onun suveren hüquqlarına qarşı yönəldilmiş, bu muxtariyyat bayrağı altında yenidənqurma və inqilabi yeniləşdirmə siyasətinə zidd fəaliyyət aparılmış, Muxtar Vilayətdə real hakimiyyət antidemokratik və mürtəce – millətçi dairələrin əlinə keçmişdir. Bütün bunlara son qoymaq üçün Dağlıq Qarabağa verilmiş muxtariyyatın ləğv olunması haqqında xalqın haqlı tələbini qanuniləşdirmək məsələsi qaldırılsın.

Keçən aylar ərzində Ümumittifaq mətbuatında, Mərkəzi televiziya və Radioda Dağlıq Qarabağ hadisələri ilə bağlı ancaq və ancaq erməni millətçilərinin iddia və tələbələri öz əksini tapmış, Azərbaycan xalqının tarixi və konstitusiya hüquqları, tələb və ağrıları, əzab və işgəncələri süni surətdə arxa plana keçirilmişdir. Bunu nəzərə alaraq, gec də olsa, Azərbaycan xalqının təbii arzularının, tələb və iradlarının Ümumittifaq mətbuatında işıqlandırılmasına, Azərbaycan xalqı haqqında erməni millətçilərinin yaratmaq istədikləri səhv təsəvvürlərin dağılmasına real yazılar və çıxışlar şəklində nail olunması Azərbaycan KP MK-nın, Azərbaycan hökumətinin qarşısında ən təxirəsalınmaz vəzifə kimi qoyulsun.

Kütlələrin qanuni tələblərini həm rəhbər orqanlara çatdırmaq, həm də bu tələblərin necə, nə şəkildə yerinə yetirilməsi haqqında əmək kollektivlərinə, ali məktəblərə vaxtaşırı məlumat vermək, habelə irəli sürülən tələblərin

gerçəkləşdirilməsinə xalqın bütün təbəqələrinin sağlam iradə və enerjisini nizamlı şəkildə cəlb etmək üçün kollektivlərin inandığı, fikir və mülahizələri ilə sözsüz razılaşdığı adamlardan ibarət xüsusi təşəbbüs qrupu yaradılsın və bu qrupa Azərbaycan Xalq Cəbhəsini təşkil etmək həvalə olunsun!

Respublikadakı vəziyyətə müşahidəçi kimi yanaşan, öz mənafeyini qorumaq üçün deputat seçkilərinə respublikanın dərdlərinə biganə qalan deputatlar geri çağırılısınlar. Ən çətin, ən gözlənilməz halarda düzgün və prinsipial mövqe tutan, respublikamızın suverenliyinə qəsdləri, milli hücumları layiqli şəkildə darmadağın edə biləcək adamların Ali Sovetə deputat seçilməsinə real şərait yaradılsın.

* * *

Aydın bəy əlinin altındakı qətnamənin yeni və daha kamil variantını hazırlayır, qələmi kağızın üstünə qoyub qalxanda uca boyu bir az da uca görünür.

– Necə edək ki, bu izdiham qasırğasını sakitləşdirə bilək? Əlbəttə, irəli sürdükləri tələblərin ağıla batanlarını yerinə yetirməklə! Bu gün bir adamı təcili yardım maşınında aparıblar. Dişləri kilidlənmiş qızın ağzını güclə açdı yazıq Rauf. Bayrağın dəstəyini soxdu dişlərinin arasına. Qızın nəfəsi güclə qayıtdı. General Yemelyanko gəlir. Hərbi vəziyyət elan olunsa bir-birimizin üzünə baxa bilməyəcəyik.

– Aydın bəy, sizin irəli sürdüyünüz tələblər yerindədir, amma kafi deyil. Əlavə edək:

1. Ermənilərin Topxana qurğusu dağıdılsın.

2. Ermənistandan çıxarılan didərginlər Şuşaya, Xoca-

lıya, ümumən Dağlıq Qarabağa köçürülsün, onlardan ibarət xalq özünümüdafiə dəstələri yaradılsın.

3. Bakıdakı nümayiş və tətil qasırğalarını Mərkəzi televiziya göstərsin.

4. Respublikadakı hadisələri işıqlandıranda əyintilərə yol vermiş «Bakinski raboçi», «Vışka» qəzetləri öz səhvlərini düdzəltsinlər.

– Mən Fuad Musayev söz verirəm ki, bu təklifləri yerinə yetirmək üçün var qüvvəmi işə salım. Sən də, Xəlil bəy, siyahı tut, meydandakı dəstə başçılarını çağıraq bura, məsləhətləşək. Nemət bəy, Məhəmməd Hatəmi Tantəkin, Babək Ədalətli, Babək Hüseynoğlu, Ənvər, Qorxmaz gəlsinlər. Diktafon ilə çağırın, haraylayın!

Fuad Musayev sözünü bitirər-bitirməz MK xadimi, şair Vahid Əziz gəlib çıxır və mənə üz tutur:

– Qan tökülə bilər, Xəlil bəy! Ordu dəyənəyi işə sala bilər. Sən nüfuzlusan. Xalq səni eşidir. Çıx irəli, başa sal ki, bu tüstü-duman içində nəfəs alanlar, tonqal işığına yığışanlar bizim bacı-qardaşlarımızdır. Mafiyaçılar, rüşvətxorlar, idarələri söküb dağıdanlar, xalqı talayanlar ifşa olunmaqdan qorunmaq üçün onları maskaya çeviriblər. Eynilə Xankəndi əhvalatı təkrar olunur. Neçə milyon dövlət əmlakını mənimsəmiş Manuçarov Xankəndi təlatümlərinə on ay başçılıq etdi, həbs olunacağını biləndə İrəvana qaçdı. Bizim də Manuçarovlarımız var. Xalqın qar-yağış altında qalması, xəstələnməsi, qırılması, antisanitariya, natəmizlik, epidemiya təhlükəsi onların qətiyyən vecinə deyil. Əksinə, maşın-maşın çörək, xörək, çay, qənd göndərir, çadır qururlar ki, bulanıq suda balıq tuta bilsinlər. Sən bilirsənmi ki, bu gün neçə qız-gəlin bu meydandaca tumanını isladıb, bir çoxlarını xərəkdə aparıblar. Başbilən-

ləri çağıraq, bu izdihamı yönəldək stadiona!

– Getməzlər!

– Neçin getməsinlər? Orada tualet də var, bufet də. Mitinqimizi orada daha yaxşı keçirə bilərik. Ağıllı tərpənməsək, sənin «velikorus» dediyin şovinistlər bizi qanımıza bələyəcəklər. Qonşu millətləri toqquşdurmağın daha fəci səhnələrini yaradacaqlar. Sən nə düşünürsən, Xəlil bəy?

– Məncə, nümayişdən tətilə keçmək vaxtı çatıb. Həm işi dayandırmalıyıq, həm də məhsul axınını. Bakı – Batumi neft kəmərini qapamaq mümkün deyilsə, mədənlərdə, neftayırma zavodlarında işi dayandırmaq mümkündür və lazımdır. Moskva səninlə yalnız onda hesablaşar ki, qul olmadığını bildirəsən, qanımızın şüşəyə tutulmasına barı 68 ildən sonra yol verməyəsən!

Məndən bu cavabı gözləməyən Vahid Əziz üz döndərib başqa səmtə gedir.

– Bəs sənin fikrin nədir, yoldaş Əkbərzadə Şahmar bəy?

Daim gülümsər və səmimi Şahmar Əkbərzadə dəftər-qələmi əlimdən alıb yazır:

– Fikrinə şərikəm. Bundan başqa hər iki millətin təhsil görməyən müdriklərini (100:100) bir yerə yığmaq, törənə biləcək faciəni onların müzakirəsinə vermək vacibdən də vacibdir. Çünki hər dövrdə erməniləri ölümə-soyqırımına sürükləyən, liderlik iddiasına düşən yelbeyinlər qoyub. Qoy əməkçi təbəqə müdrikliyi "Ocaq", «Sem pesen ob Armenii», "Pustıye stulya" na dne rojdenii", "Armyanskie eskizı" kitablarından yox, özlərindən öyrənsinlər. Qoy zəmilərin dilini bilənlər, torpağın bərəkətini qüdrətdə dualarla diləyən əliqabarlılar öncə yığışıb dərdləşsinlər. Onlar "Olum ya ölüm"ə düzgün qiymət verməyə qadirdir-

lər. Hər iki respublikanın rəhbərliyi buna çalışmalıdır. Əfsus ki, yadlarına düşmür. Çox heyf. Qonşuları zəlil, tifil, bədbəxt eləmək üçün əlimizdə çox imkanlar var. Amma bu imkanı onlara ultimatum şəklində yox, "sarı simdə" qandırmaq bizim mərdliyimizə; halallığımıza dəlalət edər. Hesablaşmasalar, onda başqa məsələ. Balayanın şöhrətlənməsi hesabına əkinçi Aşotun ölümü faciədir. Zori Balayan, Paruyr Ayrikyan, Silva Kaputikyan dar ayaqda Andronik Ozanyan kimi qaçıb xaricə gedəcəklər. Onların əvəzinə heç bir təqsiri olmayanların güdaza getməsi bədbəxtlikdir.

## BEŞİNCİ GÜN,
## 25 NOYABR 1988, BAKI.

## ÇIXIŞIMIN BAŞ CİZGİLƏRİ

**1. Azərbaycan Türkləri son doqquz gündəki nümayiş və tətillərdə böyük əxlaqi gözəllik, inqilabi əzm və intizam nümayiş etdirmişlər. Buna görə qadağ-an saatının ləğv edilməsini tələb edirik. Azərbaycana qoşun və tank hissələri çağıranlar yalnız və yalnız öz stolundan dördəlli yapışanlar, təslimçi və fərarilər, boşqab dibi yalayanlardır. Onlara ar olsun!**

**2. Orduya hörmət edəlim, onlarla münaqişəyə girməməliyik, əksinə, yemək-içmək verməliyik.**

**3. Azərbaycan SSR Ali Sovetinin təcili sessiyası çağırılsın. Gündəliyində bu məsələlər qoyulsun:**

**a) Dağlıq Qarabağda muxtariyyatın ləğvi;**

**b) SSRİ Anayasasının 74-çü maddəsinə Estoniya SSR Ali Sovetinin düzəlişləri bəyənilsin. Təminat verilsin ki, SSRİ Ali Sovetinin qərarları müttəfiq respublikanın mənafeyinə uyğun deyilsə, təxirə salına, dəyişdirilə bilər.**

**4. Estonların bu düzəlişini alqışlayır, milli suverenlik uğrunda mübarizədə onlarla rəydaş olduğumuzu bildiririk.**

**5. Ermənilər Zəngilan-Mehri rayonları arasında dəmiryol relslərini söküb darmadağın etmişlər, yüzlərcə Türkazər sərnişin çölün düzündə qalmışlar. Basarkeçər rayonunda (indiki Vardenisdə) iki Turkazər kəndi-**

**nə vəhşicəsinə basqın etmiş, hərəsində beş evi yandırmış, talan etmişlər. Mehri rayon partiya komitəsinin birinçi katibi bütün Türkazərləri Ermənistanı tərk etməyə çağırmış, əks halda onların sağ qalacağına tə'minat vermədiyini bildirmişdir.**

**6. Radio, telegüzgü komitəsi Bakıdakı tətil və nümayişləri ağciyər kimi yox, kişi kimi işıqlandırmalıdır.**

Bu işdə böyük səbatsızlıq göstərən Elşad Qulusoy "Molodyoj Azerbaydcana"nın redaktoru Nəçəf bəydən örnək götürməli, bunu bacarmasa əvəz olunmalıdır.

# BEŞİNCİ GÜN, 25 NOYABR 1988, BAKI

Xalq Cəbhəsinin özəyini yaratmağı aşağıda adı çəkilən yoldaşlardan xahiş edirəm:

Nemət Pənahlı, L. Şmidt (indiki Səttarxan - red.) adına zavodun fəhləsi,

Sabir Rüstəmxanlı, şair, "Yazıçı" nəşriyyatının baş redaktoru,

Ziya Bünyadov, akademik, tarixçi,

Şahmar Əkbərzadə, şair, jurnalist, "Kommunist" qəzeti xadimi,

İsa Qəmbərli, alim

Əbülfəz Əlisoy, tarixçi alim, Əlyazmalar İnstitutu,

Zəlimxan Yaqub, şair, "Yazıçı" nəşriyyatı,

Tofiq Bayram, şair,

Mikayıl Mirzə, aktyor, Akademik Teatr,

Fuad Poladlı, aktyor, Akedemik Teatr,

Yəhya Məmmədli, ADU-nun rektoru,

Arif Mansurov, tikinti naziri,

Firudin Cəlilli, ADU öyrətməni,

Bəhmən Sultanlı, ADU öyrətməni,

Ənvər bəy, coğrafiyaçı alim,

Cümşüd bəy, coğrafiyaçı alim,

Mənsur Əlisoy, peşəkar inqilabçı, şərqşünas alim,

Sabir Yanardağ, ədəbiyyatşünas, filoloq,

Şamil Saleh Əlisoy, filosof,

İsmayıl Təriqpeyma, hüquqçu,

Məhəmməd Hatəmi Tantəkin, peşəkar inqilabçı, folklorçu alim,

Azər Zamanlı, rejissor, folklor teatrı yaradıcısı,
Yaşar Qara, professor, Nizami adına Ədəbiyyat İnstitutu,
Bəxtiyar Vahab, xalq şairi,
Nurəddin Qulusoy, aktyor,
Aliyə Təhmasib, müəllimə, Azarbaycan SSR Ali Sovetinin deputatı,
Həsən Həsənli, MK katibi,
Xudaverdi Hənifəli, MK-da inşaat və şəhər təsərrüfatı şöbəsi müdirinin birinici müavini,
Xaliq, Bahadır şair, Radio-televiziya komitəsinin əməkdaşı,
Cavanşir Hüseynli, Neft-Kimya İnstitutunda öyrətmən,
Ədalət, Əlyazmalar İnstitutunun elmi əməkdaşı,
Əlipənah Rzalı, Cəlilabadda XC dayaqçısı,
Rasim Süleymanlı, Şəkidə "Ocaq"çıların başçısı,
Əbülfəz Rəhimli, alim, Tarix İnstitutu,
Tofiq Rza Xəlilbəyli, Salyanda XC dayaqçısı,
Babək Bəxtiyar oğlu Ədalətli, "Xətaiçilər" bayraqdarı,
Atamoğlan, ADU öyrətməni,
Rüstəm Behrudi, şair, "Yazıçı" nəşriyyatı,
Tofiq Rüstəm, ADU-nun partiya lideri.

## BEŞİNCİ GÜN,
## 1 ARALIQ (DEKABR) 1988, BAKI.

## GÜNAYDIN, ƏZİZ DOSTLAR!

Sizin hər birinizə ayrıca məktub yazmağa macalım olmadığı üçün bircə məktubumu dürlü ünvanlara göndərirəm. Vəziyyət son dərəcə gərgindir. Gərginliyin azalacağına gümanım, ümidim azdır. Ermənistandan Bakıya vaqon-vaqon, maşın-maşın yaralılar gəlir. Burnu, qulağı kəsilən, barmaqları üzülən, sinəsinə, alnına xaç şəkli çəkilənləri, dağ basılanları, məməsi kəsilən qızları görmək dəhşətlidir. Bu sətirləri yazdıqca gözlərimi yaş yandırır. Daşnak ma-fiyasının dalında velikorus şovinizminin mafiyası dayandığı üçün bu dərdlərin öhdəsindən gələ bilmirik. Xalqımız müdafiəsizdir. Bu gün Azərbaycanı bürüyən milli azadlıq hərəkatından dəhşətə gələn, stollarını, vəzifələrini itirəcəklərindən qorxanlar, boşqab dibi yalayan başçılar rus qoşunlarını Bakıya dəvət etmişlər. Asfaltı doğrayan tanklar küçələri, yolları, keçidləri kəsib. Mikayıl Mirzənin dediyinə görə, silahlı, ağ qalxanlı, dəyənəkli, avtomatlı döyüşçülərin sayı yüz on mindir. Bakıda keçən ayın 17-də ləngərlənən nümayiş və tətillərin ümmanı hələ də tam səngiməmişdir. Bütün əclaflıqlara, eybəcərliklərə baxmayaraq, bu günlər Bakının və Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılır. Bu mübarizə milli suveren-lik, Azərbayçan türkcəsi, fikir, vicdan azadlığı uğrunda gedən mübarizədir, istismara, sümürkəçiliyə son qoymağa çağıran möhtəşəm xalq hərəkatıdır. Şuşanın

Topxana ormanına soxulan, Qubadlının Eyvazlı kəndini lap bu günlərdə yandıran, Basərkeçərdəki Azərbayçan – Türk obalarına divan tutan, Kirovakanın azərbaycanlılar yaşayan Şaumyan kəndini darmadağın edən, üzdəniraq "cərrah" əlilə başın dərisini qoparıb tərsinə tikən daşnak bu gün bəşəriyyətin bağrında xərçən' xəstəliyidir. Bu xəstəliyin, bu epidemiyanın haçan yaranmasından, yayılmasından xəbərin varmı? Yoxsa eşit: 1828-ci il fevralın 10-da Türkmənçay müqaviləsi bağlanmış, Azərbaycanın iki yerə parçalanması İran şah-lığı və Çar Rusiyası tərəfindən sənədləşdirilmişdir. Həmin vaxtdan heç bircə gün də keçməmiş Çar göstəriş vermişdir ki, Azərbaycan torpaqları hesabına Ermənistan vilayəti təşkil edilsin! Bəli, xərçəng xəstəliyinin tarixi həmin gündən başlanır. Dağlıq Qarabağa ermənilərin köçürülməsi də həmin tarixlə bağlıdır. Böyük yazıçı və "Ağıldan bəla" yaradıcısı olsa da, diplomatik vəzifəsində Çara tam sədaqətli Aleksandr Qriboyedov Türkmənçay bağlaşmasından sonra erməniləri İrandan və Türkiyədən böyük dəstələr halında Dağlıq Qarabağa köçürməyə başladı. Özü də boynuna alırdı ki, bu köçün nəticələri müsəlmanlar ilə toqquşmaya gətirib çıxara bilər. Oktyabr çevrilişindən sonra çarlığın erməni himayədarlığı siyasətini kommunist cildinə girmiş velikorus şovinistləri daşnak mafiyası ilə birlikdə davam etdirmişlər. Həyasızlığın və ədalətsizliyin dərəcəsinə baxın ki, 1923-cü ildə Erməistanda yaşayan 580 min Türkazərə muxtariyyat verilmədiyi halda, Dağlıq Qarabağda vur-tut bir neçə min erməniyə muxtariyyat verilmişdir. 65 il qismində onlar bu muxtar vilayəti bizə qarşı ən böyük fitnəkarlıq və rəzalət ocağına çevirə bilmişlər.

Məşhur rus alimi, insanşünas, millətşünas Vasili Lvoviç Veliçko hələ XX əsrin başlanğıcında Qafqaz uluslarına dair əsərində ən dürüst elmi dəlillər əsasında sübut edir ki, erməni cövhəri natəmizdir. Müxtəlif ibtidai etnik ünsürlərin qatışınğından yaranmış erməni onların mənfi cəhətlərini özünə aşılamışdır.

Tı – vor! Tı – rab! Tı – armyanin!
Oğrusan, köləsən, sən ermənisən!

Bu müdrik kəlam dahi Puşkinin qələmindən çıxmışdır. Şüar kimi yazılıb Bakının Tonqallar meydanında ən uca yerdən asılmışdır, arxasında Xəzər, önündə nümayişçilər.

Birinci dünya müharibəsini hazırlayan beynəlxalq imperializmin və onun təmsilçiləri: Yunanıstan, İtaliya, Fransa, İngiltərə, ABŞ, Rusiya dövlətləri Türkiyəni bir dövlət kimi xəritədən silməyi qərarlaşdırdılar, üç dəniz arasında yerləşəcək Böyük Ermənistan xülyasına qapılmış daşnakların keçən əsrin sonlarında yaratdığı şərəfsiz partiyanı və qüvvəni Türkiyə cəmiyyətinə paz kimi çalmaq siyasətini yeritdilər, onları mətbuatla, hərbi avadanlıqla, ərzaqla, min bir şirnikdirici imtiyazlar ilə təmin etdilər. Bu qlobal xəyanətin hansı nəticələrə gətirib çıxardığı artıq bəşəriyyətə bəllidir. Birinci dünya müharibəsi gedişində 300 min türk qırıldı, bir o qədər də erməni. Lakin erməni – daşnak tarixçiləri bu rəqəmi getdikcə şişirtdilər. Öncə elan edildi ki, yarım milyon erməni qırılıb. Sonra bu rəqəm bir milyona çatdırıldı, sonralar "Pravda" qəzetində oxuduq ki, türklər milyon yarım erməni qırmışlar. "Геносид армян в Османской империи" əsərində bu rəqəm iki milyonu ötüb keçdi. Sən demə, daşnak xislətində yalnız köləlik və oğurluq cövhəri deyil, həm də ən böyük yalançılıq, saxtakarlıq, gopçuluq şakəri varmış. Özünə vurğunluq, xudbin-

lik və qisasçılıq duyğusu elə bir qata qalxdı ki, İrəvanda soyqırımı (genosid) abidəsi qoyuldu. Azərbaycan qazı hesabına işıqlandırılan və ocağı alışdırılan bu abidənin başına pionerə keçməyə hazırlaşan cocuqları gətirdilər və onların varlığına ilk millətçilik toxumlarını, qisasçılıq cövhərini məhz burada atdılar. Bu ilin fevralında Əskəran yolunda Əlini və Bəxtiyarı güllə ilə vurub öldürən onlar deyilsə, bəs kimlər idi? Builki hadisələrin gedişində mənə tam bəlli oldu ki, bu dünyada bütün xilqətlərin: balıqların, quşların, bitkilərin, heyvanların növü olduğu kimi, insanların, hətta, millətlərin də çeşidləri var. Öz torpağına, öz əməyinə, öz istedadına güvənən halal, dinc, humanist millətlər olduğu kimi, özgə torpağını ələ keçirməyə can atan, müxtəlif doktrinaların maskası altında başqasının əməyini və milli sərvətlərini mənimsəyən, zəli kimi qan soran, haramzada, antihumanist uluslar da var. Ermənilər bu sırada ikincilərdəndir. Ermənistanda neçə-neçə vəhşiliklər törədildiyi bu günlərdə mənə daha parlaq biçimdə bəlli oldu ki, millətçilik, illah ki, erməni kimi uluslara xas ifrat millətçilik beyinləri kütləşdirən amansız zəhərdir! Heç bilmirəm bu folklor örnəyini yaradanı alqışlayım, yoxsa qınayım:

Şaftalıdan badam olmaz,
Ermənidən adam olmaz!

Ən dəhşətlisi budur ki, Ermənistanda yuvalanan daşnak epidemiyası, yəni millətçilik azarı bu gün Azərbaycana da keçir, yayılır. Min illər boyu öz humanizmi, qonaqsevərliyi, başqa millətlərə ehtiramı ilə seçilən Azərbaycan xalqı içərisində bu gün həmin ənənələri yaşadanlarla yanaşı, yaşatmaq istəməyənlər də var. Mikayıl Mirzə danışır ki, Ermənistanda yüklənən 27 avtobusdan yalnız üçü Qazaxa

sağ-salamat gəlib çıxmışdır. Sən demə, hərbçi paltarı geymiş daşnaklar bizim türkazər didərginləri müşayət etmək maskası altında yola çıxarmış, soyub yağma etdikdən sonra ən qorxulu, kimsəsiz keçidlərdə avtobusdakıları boşaltmış, seçmələri güllələmiş, qalanları da dağa, daşa, ormanlara səpələmişlər. Bizim nümayiş komitəsində, "Yenidənqurma uğrunda el birliyi" cəmiyyətində ağsulu, gənc alim Cümşüd bəyin mənə göstərdiyi şəkillər dəhşətlidir: Qafandan çıxmış Türkazər ana qucağında iki yavrusu ormana pənah gətirmiş, aclıqdan və şaxtadan donub ölmüşdür. Başqa bir boylu gəlin hansı dərədə, hansı kol dibindəsə yükünü yerə qoyduğu məqamda keçinmişdir. 29 noyabr 1988-ci il tarixli nümayişdə alim Qara Namaz kişinin imzası ilə əl-əl gəzən bir mətni sizə yetirimmi? Buyurun:

1918-1988-ci illərdə Azərbaycan xalqına qarşı qəsdlərin xronikası:

1. 1918-ci ilin martında qatı millətçi Stepan Şaumyan milyonçu Lalayanın, daşnakların və onun əmrinə tabe olan bolşeviklərin əli ilə otuz min bakılını al qanına bələmişdir.

2. Vur-tut bir il on bir ay ömür sürən Azərbaycan Demokratik Respublikası (28 mayis 1918 - 27 nisan 1920) onun düşmənləri tərəfindən darmadağın edilmişdir. Qan tökülməsinə yol verməmək üçün bizim milli hökumət silahlı müqavimət göstərmədiyi halda qırmızılar və daşnaklar Türkazər generalını Qara "qələbə"nin elə ilk günündəcə güllələmişlər.

3. 1920-ci ildə Nərimanın təşəbbüsü və Leninin razılığı ilə yaradılmış "Azərbaycan Türk Cümhuriyyəti" hər ikisinin vəfatından sonra dərhal ləğv edilmiş, "Türk" anlayışı həm respublikanın adından, həm də milli pasportlardan çıxarılmışdır.

4. Stalin, Beriya, Mikoyan və Şaumyanın tör-töküntüləri birləşib işi o yerə çatdırdılar ki, 1923-cü ildə Ermənistanda yaşayan 580 min Türkazərə heç bir muxtariyyat verilmədiyi halda, vur-tut bir neçə min erməniyə Dağlıq Qarabağ muxtariyyatı ehsan verilmişdir. Bu halda səkkiz oymaq Azərbaycandan alınıb Ermənistana qatılmışdır. Bu rayonların Türkcə adları dəyişdirilmiş, ermənicəsi qondarılmışdır. Həmin oymaqlar bunlardır: Allahverdi – Noyamberyan, Qarakilsə – Kirovakan, Dilican, Karvansaray – İcevan, Şəmşəddin – Bert, Çəmbərək – Karmir (Krasnoselsk), Basarkeçər – Vardenis, Daraçiçək – Razdan.

Əlavə edim ki, daşnaklar sovet hakimiyyəti illərində üç mindən çox Türk toponimini darmadağın eləmiş, dağ, orman, bulaq, çay, oba, qəsəbə, oymaq adlarını dəyişdirmiş, heç bir elmi kökü olmayan erməni adları ilə əvəz etmişlər. Bu hadisə elm, bəşəriyyət və vicdan qarşısında çinayətdir.

5. 20-ci illərin sonu – 30-cu illərin başlanğıcından etibarən pantürkizmə, panislamizmə qarşı mübarizə maskası altında Azərbaycanın ən yaxşı oğulları məhv edilmiş, ləkələndirilmiş, sıradan çıxarılmışdır. Böyük alim Bəkir Çobanzadədən tutmuş öncə İrana, oradan Türkiyəyə qaçmış şairimiz Almas İldırımın ləkələnməsi həmin dövrün məhsuludur.

6. Stalin, Beriya, Mikoyan, Yejov, Jdanov qaragüruhunun azğınlığı, Moskvanın və yerli Üçlüyün (troykanın) göstərişi və imzaları ilə yurdsevərlərin dustaq edilməsi və güllələnməsi bu dövrdə xeyli geniş miqyas almışdır. Özbəkistanda həmin qəsd Çolpan, Fitrət, Abdulla Ələvi kimi böyük şair və yazıçılara qarşı yönəldilmişdir.

7. 1937-ci ildə həbs edilən Mikayıl Müşfiq ilə bir sırada Türk sözü dustaq edilmiş, güllələnmişdir. Bu söz

millətimizin adı kimi pasportlardan çıxarılmışdır. Min adam, kəndli, fəhlə, görkəmli partiya işçisi, dövlət xadimləri məhv edilmişdir, bundan 29 mini ziyalıdır, yəni cəmiyyətin elitası, qaymağıdır.

8. Azərbaycanda 1937-çi il qırğınının ən fəal təşkilatçıları daşmaklar olmuşlar. Markaryan, Qriqoryan, Sumbatyan, Qalustyan, Yemelyanov və başqa bu kimi qanlı millətçilərin əli, hökmü və göstərişi ilə minlərcə Azərbaycan Türk seçmələri güllələnmş, zindanlarda çürudülmüşdür.

9. 1920-ci ildə Sergey Mironoviç Kirov tərəfindən yeridilən ruslaşdırma kursu getdikcə daha geniş miqyas almış, Bakının və Azərbaycanın bağrında bəd şişə – xərçəng xəstəliyinə çevrilmişdir.

10. Azərbaycan turklərinin min il lşlətdiyi əski əlifba 1926-cı ildə ləğv edilmiş, latın əlifbasına keçilmişdir. Bunu görən Türkiyə türkləri də bizdən ayrı düşməmək üçün latın əlifbasını qəbul etmişlər. Tulküdən də bic olan İ.V.Stalin 1939-cu ildə ayılmışdır ki, ey dadibidad, SSRİdəki bütun turk ulusları eyni latın əlifbasını işlədirlər. Onlardan hər birinə ayrıca eybəçər bir əlifba verməyi planlaşdırmışdır, 1940-cı ilin başlanğıcında bu şərəfsiz plan həyata keçirilmişdir. Kiril qrafikası arasında özbək türklərinə bir əlifba, tatar türklərinə başqa bir əlifba, Azərbaycan turklərinə bambaşqa bir əlifba verilmişdir. Qırğızların, qazaxların, qaraqalpaqların, qaqauzların, sakların (yakutların), başqırdların və ümumən Türk uluslarının bir-birindən təcrid edilməsi, mənən, ruhən ayrılması, aralarındakı fərqin dərinləşdirilməsi üçün geniş iştimai-siyasi şərait yaradılmışdır. Bu sırada özbək əlifbası daha eybəcərdir – "A" yaz, "O" hərfini oxu, "O" yaz, "A" oxu. "Paxtakor" komandasının adı əslində "paxtakar"dır, saxtakar, fitnəkar kimi

bir sözdür. Lakin görun fitnəkarlar, saxtakarlar həmin sözün yazılışını necə eybəcərləşdirmişlər. Heç bir qrammatik, fonetik lüzum olmadığı halda, özbək turklərinə Н (myaqkiy znak), һ (tverdıy znak) əta edilmişdir, ruslaşdırma kursunun yalnız bircə şaxəsi olan əlifba siyasəti türk millətinin mənəvi birliyini sarsıtmaq, onu öz məğzindən, elmi qaynaqlarından məhrum etmək qəsdinə doğru yönəldilmişdir. Bu şərəfsiz siyasət nəticəsində bu gün ziyalılarımızın çoxu kəmsavaddır, hətta, Akademiyada da belələri onlarcadır.

11. İkinci dünya müharibəsi çağlarında türklər və Azərbaycan türklərinin böyük bir qismi sərhəd oymaqlarından Sibirə, Turküstana surüldü. Maraqlıdır ki, indiki Gurcüstan SSR-nin Axaltsixe rayonundan sürülənlər pasportunda hələ bu gün də milliyyət əlaməti olaraq "Türk" sözunü daşıdıqları halda, biz bu hüququmuzdan yoksunuq, məhrumuq. Mir Cəfər Bağırovun dirənməsi, dəyanəti olmasaydı, o vaxt bütun Azərbaycan xalqı sürgün ediləcəkdi,

12. Arazın o tayında, Güneydə yaradılmış Azərbaycan Demokratik Respublikası (21 Azər 1945 - 21 Azər 1946) İranın baş naziri Qəvam üs-Səltənə ilə gizlicə sövdələşən İ.V.Stalin və onun Beriya, Jdanov, Mikoyan kimi qaragüruhçu dəstəsi, şaykası tərəfindən məhv edilmişdir, Stalin sovet qoşunlarını geri çağırdı, Tehranın millətçi ordusu, Güney Azərbaycana və Təbrizə təpildi, yarım milyondan çox Azərbaycan türkləri gulləlləndi, dar ağacından asıldı, zindanlarda çürüdüldü. İnqilab başçısı Seyid Cəfər Pişəvəri Yevlax – Mingəçevir yolunda erməni sürücüsünün xəyanəti nəticəsində qəzaya salındı, vəhşicəsinə öldürüldü.

13. Ermənistanda yaşayan Azərbaycan türklərindən 150 min ailə 1947-1949-cu illərdə öz dədə-baba ocaqlarından

köçürüldü, Ermənistanda mühüm vəzifədə olan Azərbaycan türkləri partiya, sovet təşkilatlarından uzaqlaşdırıldılar.

14. Azərbaycanın Laçın, Gədəbəy, Qazax, Qubadlı, Noraşen kimi rayonlarından min hektarlarla torpağın gizli, aşkar qoparılması, satqınların əli ilə satın alınması 1983-cü ildə daha geniş miqyas aldı, həyasızlıq dərəcəsinə qaldırıldı. Bu xəyanətin başçıları hələ də cəzalandırılmayıblar.

15. Türk-erməni toqquşmasının (1915) əlli illiyi keçirildiyi çağlarda, 1965-ci ildə Ermənistanda və onun sərhəd oymaqlarında yaşayan türkazər ailələrinə qanlı divan tutuldu.

16. 1985-ci ildə Qazax rayonu ərazisindən, Əskipara və digər kəndlərdən beş min hektar torpaq kəsilib Ermənistana verildi. Ermənilər tərəfindən doğranan orman hələ də qan-yaş tökür.

17. 1988-ci ildə Ermənistandan zorla köçürülən Türkazər ailələrinin faciəsi daha geniş miqyas aldı. Qafan, Sisyan, Zəngibasar (Masis), Basarkeçər, Çəmbərək, Karmir (Krasnoselsk), Vedi, Spitak, Karvansaray (İcevan) oymaqlarından köçürülənlərin ev-eşiyi yandırıldı, ilxı və sürüləri, bütün təsərrüfatı, kolxoz və sovxozları mənimsənildi, yağmalandı. Azərbaycan türklərinə qarşı ermənilərin yeritdiyi soyqırımı (genosid) siyasəti həyasız bir miqyas aldı. Qubadlının Eyvazlı kəndi yandırıldığı halda, bu iş türkazərlərin boynuna qoyuldu, həmin obanı erməni kəndi kimi qələmə verənlər öz alçaqlığından utanmadılar.

18. Velikorus şovinistlərinin, daşnakların, "Krunk"çuların, «Karabax»çıların əlinə keçmiş "İzvestiya", "Pravda", "Literaturnaya qazeta", "Krasnaya zvezda" kimi qəzetlər və dərgilər, ABŞ və Avropa radiostansiyaları çoxdan bəri yeritdikləri antiazərbaycan kursunu

1988-ci ildə son dərəcə həyasızlıqla genişləndirdilər. Xankəndindən köçürülən evləri darmadağın və talan edilən türkazərlərə qarşı böhtan kampaniyasını Livana – Beyrutadək genişləndirdilər.

19. Bu gün Fransada və Yunanıstanda kök salmış "Daşnaksütun" partiyası Ermənistan Kommunist Partiyasını felən öz filialına çevirə bilmişdir. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə soxula bilmiş təslimçilər, boşqab dibi yalayanlar, fərarilər də felən onların millətçi-şovinist dəyirmanına su tökməklə məşğuldurlar.

# BEŞİNCİ GÜN, 9 ARALIQ (DEKABR) 1988, BAKI.

Məktubumu davam etdirirəm, əziz dostlar!

Nigaran gözlərini çoxdan yolda qoyduğum Sevinc balam, Şəki türklərinin cəsur oğulları – Rasim Süleymanlı, Nemrəz Ana, Ülkər bala, Sümayə xanım, Aşıq Sakit, Nəsib bəy, Rüzgar bəy, Niyazi bəy, Akif bəy, Ələddin və Muxtar həzrətləri, Şəkidə fitnə yuvalarını darmadağın etmiş bahadırlarımız! Göyçaydan mənə çox təsirli məktubunu göndərmiş loğmanımız Namiq Hacı kişi! Tərtər türklərinin igid oğlu Alim Mustafa Qaradağlı.

Sizin hamınıza bənövşə qoxulu günaydınlarımı çatdırıram. Hadisələrin sonrakı gedişi sizə bəllidir. İrtica kükrəyir. Mətbuat üzərində hərbi senzura qoyulub. "Molodyoj Azeybaydjana" qəzetinin redaktoru, cəsur jurnalist Nəcəf Nəcəfov vəzifəsindən azad edilmişdir. Mən bu igidi qorumaq və öz işinə qaytarmaq üçün 280 adamdan imza topladım, MK-nın birinci katibi Əbdürrəhman Vəzirovun adına teleqram vurduq. Heç bir xəbər yoxdur. Dəyənək altına düşmüş, alnı çapılmış, gözünün altına, üstünə qara fənər qoyulmuş Rza Xəlil təcili yardım xəstəxanasında yatır. Aralıq ayının 5-də hərbçi tərəfindən qabırğasından güllələnmiş Azərbaycan Tibb İnstitutunun tələbəsi yarğı kürsüsünə çatmadan qanı tökülən liftdəcə ölmüşdür. Aralıq (dekabr) ayının 5-də həmin xəstəxanadan mənə zəng edən həkim Faiq Tağılı bildirdi ki, ölən bala 1967-ci ildə anadan olmuş Xaliqli Gündüz Müzəffər oğludur. 5 aralıq (dekabr) milli matəm günümüzdür. Hərbçi-

lər həmən gün Bakını qanlı bazara çevirdilər. Bakı numayişlərinin başçıları: – Əbülfəz Əlisoy, Nemət bəy, Məhəmməd Hatəmi Tantəkin  dustaqdır. 30 igid DTK zirzəmisindədir. Yürüşlərində cinayət tərkibi olmadığı üçün tezliklə buraxılacaqlarına ümidvaram. Zindanda əxlaqi gözəllik nümayiş etdirənlər az deyil. Radio-televiziya əməkdaşı Türk sifətli Tahir Abbas buraxılarkən demişdir:

– Cəbhədaşlarım buraxılmayınca mən buradan getməyəcəyəm!

Bunun əksinə olanlar da var. Telegüzgüdən nümayişə, Nemətə və Azərbaycan xalqına böhtan atan Namiq Zeynalova qarşı  hamı qəzəblə doludur. "Namiqi öldürəcəyik!", bu qərardan qurtulmaq üçün qaçıb hardasa gizlənmişdir. Deyilənə görə evlərini Ağdamda yandırmışlar. Radio-televiziyanın sağlam işçiləri deyirdilər ki, dustaqlıqdan yeniçə qayıtmış, narkoman və alçaq Namiq Zeynalov xəyanətini dörd nəfər hazırlamışlar: Şamil Məcidov, Rafiq Zeynalov, Vaqif Hüseynov, bir də Əfrand Daşdəmirov. Sonuncu adam akademiyanın müxbir üzvüdür, bilikli və bacarıqlıdır. Lakin biliyi bizə yox, əks cəbhəyə xidmət edir.

17 noyabr – 4 dekabr nümayişlərində liderliyi ələ ala bilmiş Nemət bəy ruhən güclü bir oğuldur. Bununla belə, şöhrət azarı onu yedi, demək olar ki, heç kəsə söz vermək istəmədi, özünü xalq adlı dayaqdan məhrum etdi, hələ vaxtı çatmamış şüarlar irəli sürdü, partiya və hökumətə ultimatum göndərdi, buna görə noyabrın 28-dən etibarən mikrofondan məhrum edildi. Ziya Bünyadov kimi liderliyə qadir alim mikrofonu ələ keçirə bilmədi, böyük tribun Mikayıl Mirzə mikrofonu yalnız bircə kərə ələ keçirə bildi, ildırım səsi diyar-diyar yayıldı!

Azərbaycana xəyanət xeyli geniş və dərin plan əsasında qurulmuşdur. Bu xəyanət 24 mart 1988-ci il tarixli qərar-

dan başlanır. "Pravda" o qərarı çap etmədi, yalnız bizim qəzetlər 27-28 martda verdilər. 18 iyulda xoruz kimi didişənləri gördünüz. Oyun və aktyorluq imiş. Bu yaxınlarda bəstəçi Arif Məlikov bunu aktyora açıq bildirib. "Sən saydığını say, gör fələk nə sayır! Döyüşürüksə, qul deyilik!”

# ÜÇÜNCÜ GÜN,
# 20 ARALIQ 1989, BAKI - SUMQAYIT.

– Ay Mikayıl, özün səhnəmizin günəşi! Gör maşının nə gündə! Sökülüb tökülən bir maşında gəzmək yaraşarmı sənə?

Yarızarafat, yarıgerçək deyilmiş bu cümlələri arabir eşidən Mikayılımız maşını təzələmək fikrindədir. Sumqayıt Boru-prokat zavodunda çalışan, xəstə, yorğun, müharibə və əmək veteranı Müslüm kişinin – qayınatasının adına 07 damğalı bircə maşın ala bilərmi? Bu məqsədlə rejissor dostumuz, yenicə yaradılmış "Poeziya teatrı"nın direktoru Rafiq bəy Atakişisoyun tünd mavi rəngli "Volqa"sına əyləşir, Sumqayıt şəhər partiya komitəsinin təzə birin-ci katibi – Eldar İsmayıllının görüşünə gəlirik. Qara saçları çiyinlərinə dalğa-dalğa tökülmüş Mikayıl Mirzə cibindən təptəzə və bahalı bir Çin avtoqələmi çixarır, Eldar bəyin şüşəli masası üstünə qoyur.

– Katibliyiniz mübarək!

– Hədiyyəniz mübarək! Mikayılımız kimi qüdrətli bir sənətkarın bağışladığı qələmlə yazmaq səadəti mənə qismət olub. Sağ ol!

Əllərinin və dirsəklərinin altında, masanın üstündə qar kimi ağappaq iri bir salfet var. Bu, onun dirsəklərini, əllərini, manjetlərini, arxaikləşmiş ifadə ilə desəm "yön"lərini tozdan, çirkdən qorumaq üçündür. Lakin ümumən ekoloji fəlakətə uğramış, çirkə, dumana və acı tüstülərə bürünmüş Sumqayıtda bu mümkünmüdür?

– Mümkündür! – deyir Eldar İsmayıllı. - Ən zərərli və zəhərli sexlərdən altmışını bağlamışıq. Artıq şəhərdə bildir gördüyünüz ifrat dərəcədə acı, zəhərli tüstülər xeyli azalıb, cocuq ölümünün faizi də aşağı düşüb. "Doğransam da parça-parça, tikə-tikə, rizə-rizə, Mubarizə! Məqamımdır mənə bənzə!", Xəlil Rzanın bu  misralarından xəbərdaram. Azərbaycan türkcəsinin saflığını qorumaq uğrunda "Beş qəpik" cərimələsindən xəbərdaram. Ancaq bəzən mübarizəsində  ifrata varır, ziyalı əxlaqı ilə bir araya sığmayan ciddi səhvlərə yol verir, Mərkəzi Komitəni "Qəmlı mağara" adlandırır.

Mədəniyyət bakanlığı da qanlı mağaradır, respublika hərbi komissarlığı da, SSRİ Müdafiə Nazirliyi də, Azərbaycan döyüşçülərini ən pis iqlim zonalarına göndərən, ölümlərini təşkil edən Ter-Qriqoryan da, zirzəmisində ermənilər üçün toxuculuq fabriki açmış teatr da, prokurorluq da, Səhiyyə Nazirliyi də, iki ildən bəri iflic edilmiş Yazıçılar İttifaqı da, başqa yaradıcılıq birlikləri də! Əbdürrəhmən Xəlil oğlu Vəzirovun nəfəsi dəyən hara varsa, mütləq qanlı mağaraya çevrilir: Beyləqandan tutmuş filarmoniyayadək!

Əbdürrəhman Xəlil oğlu Vəzirov gördünmü, Beyləqan gö-rüşündə beyləqanlıları nə günə saldı, bircə günün ərzində nə qədər yaltaqlar, təslimçilər, fərarilər yetirdi.

– Qaynar plov qazanını, isti çayı qoyaq qabağımıza, barışaq! - dedi.

Nə olub keçibsə unudaq! – dedi.

Unutmaq  manqurtluqdur. Vəzirov  manqurtluğa çağırır. Düşmən təpiyini söykəyib sənin boğazına. Sən də altdan yuxarı yaltaq dilini bir arşın çıxardıb yalvarırsan:

– Gəl, plov yeyək, barışaq.

Düşmən sənin boylu gəlinlərini süngü ucunda yataqdan qaldırıb çölə fırlayır. Amma sən burada sessiya kürsüsündən "Bratski armyanski narod!" deyə hayqırırsan! Əgər barışıq təklifini irəli sürmək mütləq vacibsə, qoy bunu qəsbkar tərəf irəli sürsün. 1905-ci ildən bəri 1 milyon 800 min Türkazər öz dədə-baba torpağından, Qərbi Azərbaycandan vəhşiliklə qovulub. Axı bu 1 milyon 800 min qarışqa deyil, insandır. Hansı ixtiyarla sən bu müsibətləri unudaq deyirsən? Hansı ixtiyarla sən Azərbaycan qızlarının məmələri ucunda yanar siqar söndürənləri, ağ sinələrinə qanlı xaç şəkli dağlayanları unudaq deyirsən? Qursalı kəndindən çıxan Türkazər, hətta, köpəyini zəncirdən açmağa, qazanı ocaq üstündən götürməyə belə macal tapmamışdır. Amma erməni burada üç evindən ikisini satmaq üçün götür-qoy edir, illər boyu tədbir tökür, tor qurur, "Krunk"a, "Karabax" təşkilatına pul koçürür, macal tapanda milis mayoru Fazil İsmayılovu güllə ilə vurub öldürür, Orduxanı, Rza Sadıq kişini, Qaçay Ələkbərovu al qanına bələyir, Naxçıvanda 1250 baş qoyunu birdən aparır, Ağa körpusünü partladır. Daşaltı, Həsənabad, Həsənqulu, Novlu başda olmaqla otuz səkkiz kəndimizi birnəfəsə tutur, yağmalayır. Bu dərdlərin qarşısında susursansa, sül-hə çağırırsansa, mağara deyilsən nəsən? Sən mağaradan daha şərəfsizsən. Çünki doğma xalqının başını kəsənlərə kömək edirsən, qanlı əlinə zağlı qılınc verirsən! Heç bilirsənmi ki, bu gün barışıq nə deməkdir. O deməkdir ki, bağlanmış ermənicə "Kommunist" qəzeti açılsın. "Qrakan Adirbecan" dərgisi bərpa olunsun. Gedən ermənilər nazlana-

nazlana geri qayıtsınlar, işə bərpa olunsunlar və 1 milyon 800 min Türkazərin qanı batsın. Şaumyan, Mikoyan, Mirzəyan, Stalin, Kirov, Orconikidze, Serebrovski, Yejov, Qəvam üs-Səltənə, Suslov, Jdanov, Brejnev cinayətlərinin üstündan qələm çəkilsin. Manqurtluq budur! İndi görun ziyalı mədəniyyəti kimdədir? Bu cina-yətlər zəncirini nişan verəndə, yoxsa ört-basdır edəndə, manqurtluğa çağıranda?! Ziyalı mədəniyyəti, hər şeydən önçə tarix axarının ön cərgəsində addımlamaqdır, ədalətli, mərd, prinsipial, xeyirxah və humanist olmaq deməkdir. Bu keyfiyyətlərdən yoxsulsansa, məhrumsansa, hansı mədəniyyətdən söhbət gedə bilər. Məgər manjetləri, yönləri pak-pakizə saxlamaq mədəniyyətin birinci nişanasidir, yoxsa sonuncu? Keçən il didərginlər karvanı Şuşaya doluşanda Mərkəzi Komitənin katibi Telman Orucov yüyürdü, maşınların təkərindən yapışıb "Dayan!" deyə bağırdı, didərginlərin böyük bir qismini Dağlıq Qarabağdan, Şuşadan çıxartdı. Sən buna nə ad verirsən? Bu, ziyalı mədəniyyətidir, yoxsa kaskasız satqınlıq? Yalnız mağaradan çıxanlar bu çür addım ata bilərlər. Yalnız manqurtlar öz doğma xalqına əl qaldıra bilərlər.

Məni diqqətlə dinləyən Eldar İsmayıllı yaralarıma məlhəm qoymaq istəyir:

– Sumqayıt küçələrini yeni adlar bəzəyir, – deyir. – Koroğlu, Babək, Sabir küçəsi, Azərbaycan xiyabanı... Poeziya klubu açmışıq.

– Harada?

– Cəfər Cabbarlı, Səməd Vurğun küçələrinin quçaqlaşdığı yerdə... Binanın üstündə barelyefləri... Bu yaxında

Güney Azərbaycandan, İrandan gələnləri qarşıladıq. Qərarlaşdıq ki, "Təbriz" mağazası açaq, ticarət qaydasınca xuşgəbər gətirsinlər, xurma, kişmiş, badam, püstə sataq.

...Mənim 41 yaşım var, qırx min didərginimiz. Didərginlərdən 412 müəllimi işə düzəltmişik. Ermənilər könüllü köçüb gedirlər. Burada 11 min erməni vardı, indi vur-tut 118-i qalıb, bunlardan 38 qadının əri Türkazərdir. Həyasızları çoxdur. Məktəb direktoru Preobrajenskayanın atası ermənidir, anası rus, əri də rus. İşə çıxmır. Həftə səkkiz, mən doqquz Moskvadadır. Oğlunun arvadı yəhudi-dir. Anasından həyalı imiş, ərizəsini yazıb işdən çıxdı, getdi. Yavaş-yavaş olsa da Sumqayıt təmizlənir. 60 sex bağlamışıq, acı tüstü, zəhər, çocuq ölümü xeyli azalıb. Sizin "Poeziya teatrı"nın burda çıxışları vaçibdir. Yaxşı olar ki, ideoloji katib Şakir Abış bəylə görüşəsiniz.

...Mən Qazaxın Qaymaqlı kəndindənəm. Atam, anam Rustavidə yaşayıb. Gözümü açandan görmüşəm ki, ermənilər qapılarımızda nökər olublar. Çoxu Yuxarı Öysüzlər kəndinda yaşayırdılar. Bəzən ilan kimi dil çıxarıb yalvarardılar. Bu gün onlar ağa olub, bizimkilər qul. Heç bilirsən hər səhər nə qədər qul tökülür Maştağa bazarına. Qul – yəni didərgin. Hamısı qul gücünü, qol gücünü satmaq istəyir. Azərbaycanı bu günə kimlər qoydu, bu səbəblər səni düşündürsün, əziz Şair! Yaxşı olar bizim milis rəisi polkovnik Fətulla Hüseynov ilə göruşəsiniz. Xəzinə kişidir. Həyatın qaynarındadır... Fətulla bəy, iki ekstremist göndərirəm hüzuruna! – deyib dəstəyi yerinə qoyan katib ayağa qalxır, bizi yola salır.

Bığları ağarsa da, saçları hələ qaralığını itirməmiş uca boylu, pəhləvan cüssəli polkovnik Fətulla kişi ilə öncə ka-

binetində, sonra çay süfrəsi başında qonuşuruq. Aleksandr Xristoforoviç Baqramyan adlı qatı bir daşnakın adını çəkir:

– Bu daşnak bizim Tovuz rayonu ilə Ermənistan sərhəddində böyük bir göl yaratdı. Adı – Tovuzun, dadı – erməninin. Bizim örüşlərimiz, biçənəklərimiz, əkin yerimiz qaldı su altında. Suyu aparan da erməni oldu. Üstəlik gölün bütün xərci də bizim boynumuza düşdü. Azərbaycan hökuməti iflicdir. 500 saqqallının əlində aciz qalıb. Əlacı budur ki, Xankəndi aerolimanını qapa. Gündə 24 reys gəlir. 80 yerlik vertolyotlar gəlir-gedir, qayıdıb silah gətirir. Heç birinə macal vermə, vur sal! Hadruta, Çaykəndə nə qədər vertalyot gəlir, çoxunun da tanınma nişanı yox! Niyə imkan verirsən. Əgər doğrudan da, Xankəndinə girmək istəyirsə, niyə buna imkan verirsən, ay yoldaş Viktor Petrov oğlu Polyaniçko?! Nasosnıdakı hərbi aerodromun təyyarələri göyə qalxanda Bakının, Sumqayıtın qulaqları yırtılır. Cocuqlar yerini bulayır qorxusundan. Çoxları kişilikdən düşür. Bu kimi cinayətlərin ən mühüm səbəblərindən biri ziyalı müqavimətinin olmamasıdır.

...Dünən Kremldə, Qurultaylar sarayında çıxış edən bir general-leytenant vaysına-vaysına deyinirdi ki, xalq hiddətlənib, Kirovun, Leninin, Orconikidzenin heykəllərini ləkələyirlər, murdarlayırlar. Buna yol vermək olmaz!

...Milli münaqişələr SSRİ-ni sarsıdır. Bolnisidə bizimkilərin 370 evindən vur-tut ikicəsi qalıb. Onun da gürcü müştərisi başının üstündə! Çörəyi kəsdilər, unu apardılar. Çörəksiz qalanların duruş gətirməsi çətindir. Görün necə alçaq vasitələrə əl atırlar. Fəxralıda 1700 ev var, Kəpənəkçidə – 2100, hamısı da Vəzirovdan imdad diləyir. Soruşan yoxdu: Vəzirov Ermənistandan çıxarılanlar üçün

neylədi ki, sizin üçün neyləsin? Bakıda 317 min Borçalı əhli var. Böyük qüvvədir. Görək bir iş görə biləcəklərmi? Mayor Sabir bəy, sənə üstündə 72 gülləsi olan bir avtomat bağışlaram, bu köçhaköçün, həyasız axının qarşısını ala bilsən! Ermənilər Şuşanı hədələyirlər ki, Yeni ilədək köçüb getməsəniz, hücum yapacağıq! Daşaltıdan, Həsənqulu kəndlərindən bizimkiləri çıxardıblar. Kərkicahan, Xocalı daim güllə yağışı altındadır. Mətbuat faciəni gizlədir.

# 1990-CI İLİN BAŞLANĞIC GÜNLƏRİNDƏN BİRİ, BAKI.

Şimali Azərbaycan Xalq Cəbhəsinin üçüncü konfransındayam. Akademiyanın birinci mərtəbədəki dəyirmi salonundayıq. Bu məclisə necə can atdığımı, necə gəlib çıxdığımı bir Allah bilir, bir də Şuşada qoyub gəldiyim aktyor arkadaşım Mikayıl Mirzə, rejissor Rafiq Atakişisoy. Dəhşətli basabasda onlar yerdə qaldılar, mən vertalyotun təkərindənmi, pilləkənindənmi yapışıb yuxarı dırmaşa bildim, yoxsa asıla-asıla qaldım, üst-başımı hələ də sahmana sala bilməmişəm. Həm iş yerim akademiyada, həm Yazarlar Birliyində Xalq Cəbhəsi üzvü olduğum halda, bu konfransda mandat ala bilməmişəm. Yrəyimi ən çox incidən iki dostu Şuşada atıb gəlməyimdir. Görəsən, Mikayıl Mirzə, Rafiq Atakişisoy Şuşa blokadasını yarıb gələ bildilərmi? Yoxsa qaldılar baxa-baxa. Axı raykom katibi bizim üçümüzü də vertalyot meydançası müdirinə adbaad tapşırmışdı... Məgər tapşırmaqladı? Vertalyot vur-tut 28 adam götürə bilir. Yerdəki adamların sayı isə azı 300... Əli uşaqlı analar, gəlinlər, ağbirçəklər, ağsaqqallar, hamıdan çox ikinci semestr dərslərinə can atan tələbələr... Öncə əlimdəki çantamı, sonra özümü içəri atıb uzun, taxta oturacağın üstündə əyləşdim, yalnız bundan sonra vertalyotdakı sərnişinlərin sayını müəyyənləşdirə bildim, saydım: 26 nəfər. Demək, 2 nəfər çatmır... demək Mikayılla Rafiq də əyləşə bilərmiş. Yox, onlar qızları, gəlinləri yerdə qoyub irəli soxula bilməzdilər. Mən isə soxuldum – bu təlatümlü konfransa çatmaq xatirinə! Görək mənim bu dərəcədə çır-

pınışıma dəyəcəkmi, murad hasil olacaqmı? Ağdamda, ustad Zeynal kişinin evində ayaqqabılarımı palçıqdan Hüseyn, Şahin, Hafiz qardaşları – Zeynalın oğulları təmizlədilər... Görək onların bu qayğısına dəyəcəkmi bura gəlib çıxmağım?

Şimali Azərbaycan Xalq Cəbhəsi İdarə Heyətinin üzvü Sabit Bağırlıya diqqət kəsilirəm.

– İsa bəyin söylədiyi yeddilərdənəm, – deyir. – İqtisadiyyat komissiyası yaratmışıq. İqtisadi proqram hazırlamışıq.

Anlamıram, söhbət hansı ölkənin iqtisadi proqramından gedir, vahid Azərbaycanmı, yoxsa, yalnız Quzey Azərbaycanın? Bəlkə Turanın, gələcəkdə yaradılacaq Turan dövlətinin!

... Hikmət bəy Hacısoya diqqət kəsilirəm. Tüzük və yönətimin (proqram və nizamnamənin) yaradılmasında iştirak etdiyini bildirir. Yenə pərişanam. Natiqi tam qavraya bilmirəm.

– Bizim Xalq Cəbhəsinin birliyini üç kişi dağıtdı, – Nemət, Etibar, bir də Zərdüşt bəy.

Nəcəf Nəcəfli – "Azadlıq" qəzetinin redaktoru ona etiraz edir:

– Müxalifət mövqeyi tutduqlarına görə kişiləri ittiham etmək olmaz! – deyir. – Etibar böyük nüfuz sahibidir. Zərdüştün də milli hərəkatda xidmətləri az deyil.

Ön cərgədə əyləşmişəm ki, natiqləri yaxşı dinləyim. Başı ağ mərmər kimi cilalı, sarışın bığlı, türk sifətli Zərdüşt Əlizadəyə diqqət kəsilirəm.

– Amerika Birləşik Dövlətlərində sorğu keçirilib, – söyləyir. Yola saldığımız ilin ən fəal milləti Azərbaycan türkləridir. İlin ən fəal adamı M.S.Qorbaçov!.. SSRİ-nin

dağılması nədənlərindən biri bizdə parlament mədəniyyətinin, siyasi mədəniyyətin olmamasıdır. Mərkəzi Komitənin birinci katibi Əbdürrəhman Xəlil oğlu Vəzirovun istefa verməsini tələb edənlər çoxdur. Məncə bürokratın digəri ilə əvəz olunması faydasızdır. Biz baltanı dibdən vurmalı, sistemin dəyişməsi uğrunda çarpışmalıyıq. Kommunist ideologiyası, kommunist sistemi çürüyüb. “Silaha sarılaq!” deyənlər çoxdur. Ancaq mən bilmirəm, silaha sarılsaq, udarıqmı, yoxsa arada xalqın qanı bada gedər? Doğrusu, mən meyiddən, qandan, qırğından qorxuram. Məncə dinc inqilab biçimləri tapmalıyıq. Qanlı inqilab arxivə verilib.

Rafiq Əlisoy adlı dəliqanlı hayqırır:

– Şimali Azərbaycan Xalq Cəbhəsini parçalayan mənəm. Ona görə parçalayıram ki, liderimiz Əbülfəz Əlisoy qanuni seçilməyib.

Qaraqaş, qaragöz, şəvə bığlı, üzü nurlu, təmkinli, cəsur Etibar Səlidar oğlu Məmmədlinin adı çəkiləndə dəyirmi salon diqqət kəsilir:

– Biz Xalq Cəbhəsində yox, milli çəbhədə birləşməliyik – deyir – Çünki milli demokratik inqilabın dalğaları içindəyik. Xalq anlayışı sürüşkəndir, yayğındır, əslində, yığın bir qələbəlik, qara kütlə deməkdir, Bu anlayışda şüursuzluq, təşkilatsızlıq çaları da var. Millət - ulus isə bəşəri tərəqqi yolunda yüksək mərhələdir. Millət özünü dərk eləmiş qüvvədir, şüurlu və təşkilatlı mərhələdir. Buna görə biz hələ Şah İsmayıl Xətai dövründə biçimlənmiş Azərbaycan Türk millətini, XX əsrin başlanğıcında özünü yenidən təsdiq etmiş, Azərbaycan Demokratik Cümhuriyyətini yaratmış (28 Mayıs 1918 – 28 nisan 1920) əzamətli milləti yenidən geri çəkib xalq adlandıra bilmərik. Onu şüur-

suz, təşkilatsız qara kütlə səviyyəsinə endirməyə bizim mənəvi haqqımız yoxdur. Azərbaycan milli istiqlala doğru gedir. Güvəndiyimiz hər bir təşkilatın adı, biçimi buna uyar olmalıdır.

Hikmət Hacısoy bildirdi ki, Ne'mət Pənahlı, Zərdüşt Əlisoy və mən Azərbaycan Xalq Cəbhəsini parçalayırıq, dağıdırıq. Bəli, birləşməzdən öncə ayrılmalıyıq. Məqsəd və məramımızı aydın bilməliyik. Büllur fikiri xılta qatmaq olmaz. Şimali Azərbaycan Xalq Cəbhəsinin lideri Əbülfəz Əlisoy mənim müəllimim olub, yenə müəllimimdir, ondan öyrənirəm. Lakin indiki məqamda fikirlərimiz haçalanırsa, niyə bunu gizlətməliyik?

Hikmət bəy Hacısoy bizə demokratiyanın Avropa modelini təklif edir. Yox, ey yeddilər, biz gündoğanıq, Şərqik.

Tətil modellərini kabinetlərdə yaratmaq olmaz! Xalqın Cəbhəsində yox, biz milli cəbhədəyik!

Leyla xanım İslam qızı Yunuslu söz kürsüsünə yanaşır. Boyalı, ağ üzlü, zərif bir gəlindir.

– Bağışlayın, – deyir, – təhsilimi rusca almışam, doğma türkcəmizdə danışanda bir azca çətinlik çəkirəm. Almaniya, Fransa, ABŞ, Britaniya kimi ölkələrdə məqalələrim çıxıb. Fikrim budur ki, qartımış, qarımış, yaşamaq haqqını çoxdan itirmiş, mənfur SSRİ-nin həm iqtisadi, həm də siyasi baxımdan çökdüyü, darmadağın olduğu çağlarda keçmiş mənəvi sərvətimizi ələ gətirək, 28 Mayıs 1918 – 20 nisan 1920 ayrıcında bərqərar olmuş və bütün gündoğana ilk dəfə şölə saçmış Azərbaycan Türk Demokratik Cümhuriyyətini bərpa edək, mənfur, murdar kommunist parlamentinin darmadağın olunmasına nail olaq, demokratik seçkilər əsasında yaradılmış yeni parlamentimizə, milli hakimiyyətimizə güvənək! Qoy çoxpartiyalılıq olsun! Bu

partiyalar xalqın zəkasını, vicdanını, iradəsini təmsil edə biləsi kişi və qadınları parlamentə gətirməyi bacarsınlar!

Leyla xanım Jalə Nərmin Kəngərli adlı bir qızcığazın ona bəxş etdiyi təzə-tər nərgizləri və ağlı, qırmızı qərənfilləri astaca köksünə sıxır, qoxulayır, sanki gələcək Azərbaycan türk baharını əzizləyir, oxşayır.

Qara saçlı, tunc sifətli dəliqanlı Nurəddin Əkbərli kişini dinləyirik:

– Bədbəxtliyimiz bundadır ki, mənsub olduğumuz Şimali Azərbaycan Xalq Cəbhəsinin hələlik konseptual, vahid ideologiyası hazırlanmayıb. Məncə, bunun əsasında üç amil dayanmalıdır: milli mənafe, islamçılıq, demokratiya.

Milli müstəqillik yolu bizim 1300 il gedib gəldiyimiz Məkkə, Mədinə yoludur, bəlkə ondan da üstündür. Zülmət gecələrdə irəliləyən karvanlarımızı azmaqdan xilas edən kəhkəşan əzəmət və ülviyyətdir.

Azərbaycan Kommunist Partiyası, komsomol, həmkarlar təşkilatı xalq içində nüfuzunu çoxdan itirib. Buna görə də Azərbaycanın Türk gəncləri komsomola KƏMsomol deyir, ondan iyrənir, üz döndərir. Neçə illər boyu kommunizm məktəbi kimi qələmə verilən həmkarlar təşkilatı, sən demə həm KARlar, həm də KORlar təşkilatı imiş. Nökərin nökəri, kommunist partiyasının qulu imiş, istismar və köləlik vasitəsi olduğu üçün ondan heç bir nicat ummaq olmaz. Onların üçünü də darmadağın etmək borcumuzdur. Amma yenisini qurmaq zərurəti bizi daha çox düşündürməlidir.

Zori Balayan alçaqlığına qarşı hələ neçə il bundan irəli kəskin, tutarlı elmi cavabı ilə rəğbətimizi qazanmış qarasaqqal İsa Qəmbər söz kürsüsünə yanaşır:

– Təşəbbüs mərkəzini biz yaratmışıq! – deyir, Sabit

Bağırlının, Hikmət Hacısoyun adlarını fəxr ilə çəkir. Siyasi mədəniyyətə yiyələnməyə çağırır və ustad Mirzə Cəlildən bir misal çəkir:

– Politika saman altından su yeritməkdir.

Qırmızı imperiyanın, Kremlin bizi yenidən tora salmaq üçün çəkdiyi nəqşləri, qan qoxulu planları onların öz düsturasında darmadağın etməliyik.

Zərifə Nəsibsoy adlı gözəl bir türk qızını dinləyirik. On birinci əsrdə yaşayıb-yaratmış və dünya mədəniyyəti xəzinəsinə "Qutadqu bilik" ("Xoşbəxtliyə aparan elm") adlı kitabını – dürdanəsini bəxş etmiş böyük şairimiz Balasaqunlu Yusifdən misal gətirir: – Başçısı şir olan, qoyun sürüsü olan şirlərə mütləq qalib gəlir. Buna görə bu gün bizə şirürəkli başçılar gərəkdir.

Dünən bizə öz evində unudulmaz bir ziyafət vermiş mühəndis arkadaşımız, üzü nurlu Məhəmməd bəy Əhmədlinin bu düstura qarşı qiyabi qiyamını eşidirəm:

– Yetər, qoyun sürüsü olduq. Şirlər dəstəsinə şirürəklilər başçılıq etməlidir.

Şimali Azərbaycan Xalq Cəbhəsində nəzarət bölməsinin üzvü, şəvə bığlı, qara saçlı, ağ üzlü Xudu Xudusoyu dinləyirik, ayıq olmağa, Moskofçu qırmızı (həyasız, üzünün suyu tökülmüş) ordunun 1920-ci ilin nisan – mayis ayrıcında törətdiyi cinayətləri, qız-gəlin üzərində yapdığı vəhşilikləri, yağma və talanları, son 70 ildən bəri milləti var-yoxdan çıxaran, yorğan-döşəyinin yununu və pambığını belə çalıb aparan bolşeviklərin qanlı əməllərini unutmamağa çağırır, yalnız Azərbaycan türklərinə qarşı deyil, ümumən bəşəriyyətə, tərəqqiyə qarşı yönəldilmiş bu xəyanətləri ifşa və rüsvay etməyə, buna son qoymağa çağıran təşkilat strukturuna möhtac olduğumuzu bildirir.

Qubadlıdan gəlmiş Maqsud adlı dəliqanlı türk deyir ki, sərhədlərimizdə 20 minlik erməni qoşunu toplanmış və Moskva tərəfindən, Qərbi Avropa və Amerika BİrləşmiŞ Ştatları tərəfindən zəhər tuluğuna döndərilmiş dişlərinin dibinədək silahlandırılmışlar. Sərhəd qalalarımız, o sarıdan Qubadlı, Kəlbəcər, Beyləqan, Laçın, Qazax yalnız yardım istəmir, ilk növbədə sənin vətəndaş qeyrətini, Türk qeyrətini tələb edir, Qalx, yurdunu qoru! Yurd sərhəddən başlanır. Qarşımızda Hamlet sualı durur: Olum, ya Ölüm! Ölüm istəmirsənsə ordu, milli ordu yaratmalısan. Görək, Şimali Azəristan Xalq Cəbhəsi buna qadir olacaqmı? Çürümüş, qartımış parlamentin kirli yaxasından yapışıb bunu tələb edəcəkmi?

Bu yaxınlarda Qubadlıya Xəlil Rza Ulutürk, Mehdi Məmmədli, bir də Oruc Şirinsoy gəldilər, raykom katibi, qart canavar Şahsuvarı mədh etdilər, getdilər. Heç biri onun kirli yaxasından yapışmadı ki, nə qədər rüşvət almısan, neçə ton xalq qanını şüşəyə tutub yuxarıdakı kommunist rəhbərlərinə təhvil vermisən?! Məgər Xəlil Rza Ulutürk kimi əzəmətli, ayıq gözlü şair bilirmi ki, kommunist yırtıcı deməkdir. Niyə kompromisə yol verir, alçaqlara güzəşt edir: Niyə? Məgər siz bilmirsinizmi ki, Qubadlı, Laçın əldən getsə, erməni imperialistləri sabah bizi Bakıdaca qıracaqlar?! Yatanlara ar olsun!

Tətil komitəsi üzvlərindən mavigözlü, türk sifətli Sədrəddin, Şəmsəddin Umudlu, Fəxrəddin, şəkili balası Cəsarət Yaşar oğlu Cəlilsoy kimi alovlu natiqlərdən sonra söz kürsüsünə yanaşan, ağ saqqallı şölə verən Axund Kərbəlayı Əlikram kişiyə diqqət kəsilirəm:

– Sizdə təqsir yoxdur – deyir. – Bu mənfur, rəzil, həyasız bolşeviklər bir əsrə yaxındır ki, millətin başında dəyir-

man hərləyirlər. Mənəviyyatı əlimizdən alıblar, bizi yalnız maddi amillər ilə məşğuliyyətə məcbur ediblər... Cəlilabadın qeyrətinə qurban olum. İmansızlara, xalqın qanını şüşəyə tutanlara qarşı necə qəzəblə qalxdı ayağa! Rədd olsun kommunizm! Yaşasın İslam – türk qaynaşması. Bayrağımız – "Quran"dır, Vətənimiz – "Turan!"

İri gözlüklü, qara saçlı, türk sifətli İbrahim Naxçıvan Muxtar Respublikasının dünya xalqlarına xitabını oxuyur, üç dəniz arasında böyük Ermənistan yaratmaq xülyasına qapılmışların öz alçaq məqsədlərinə çatmaq yolunda necə murdar vasitələrə əl atdıqlarına, əli dəyənəkli, silahsız çobanlara, naxırçılara avtomat və BTR-lə hücum edib sürü-sürü qoyunu, naxır-naxır inəyi çalıb apardıqlarına, cocuqlara, qadınlara atəş açdıqlarına dair acınacaqlı misallar gətirir, bu rəzalətlərə son qoyulmasını tələb edir.

Vaxtilə mənim Türkan qəsəbəsindəki bağımda qonağım olmuş pəhləvan cüssəli dəliqanlı Siyamək bəyi dinləyirəm. Güney Azərbaycandakı fədailər təşkilatının fəal xadimlərindən biri olub. Güllələnmək təhlükəsindən, təqibdən qurtularaq qaçıb gəlib. Sərhəddin o tayında da, bu tayında da dönə-dönə zindanlara düşmüş, ölümlə üz-üzə dayanmış bu cəsur dəliqanlı təklif edir ki, Şimali Azərbaycan Xalq Cəbhəsinin Cənub – Güney şöbəsi yaradılsın və sonuncu efirə çıxsın. Şimali Azərbaycan Türk Respublikasının adı dürüstləşdirilsin, bəşəriyyət bilsin ki, Kremlin və Tehranın əli ilə hələ Gülüstan (1813), Türkmənçay (1828) bağlaşmaları əsasında, iki yerə parçalanmış Vətənimiz bu gün ruhən Bütövdür, Vahidlik və Azadlıq amalına qovuşmaq əzmində sabitqədəmdir.

Məhəmməd Əmin Rəsulzadə adına Azərbaycan Dövlət Universiteti hüquq fakültəsinin tələbəsi, mavi gözlü, qara

saçlı, türk sifətli Əli bəy Kərimli deyir ki, nizamnamə tam hazır deyil, hüquqçu layihəçilər – Fuad bəy, Fazil bəy, Qulam Hüseyn Əlisoy, Rahil Hacısoy bunu tezliklə başa çatdırmalıdırlar.

Universitetin Dövlət hüququ kafedrasının və içtimai həyatımızın fəal xadimi, ağ saçlarının işığına qərq olmüş ağ üzlü Murtuz kişinin çıxışından öyrənirəm ki, Azərbaycan Türk Respublikasının suverenlik sənədi məhz bu kafedrada hazırlanmışdır.

İçərisində həmişə böyük qəzəb qasırğaları yaşadan peşəkar inqilabçı Mənsur Əlisoy deyir ki, Azərbaycan Xalq Cəbhəsi yeni diktaturadır, vicdan və zəka əhlini özünə yaxın buraxmır, əsl yurdsevərləri dəyərləndirməkdən uzaqdır, acizdir. Necə olur ki, Siz Azərbaycan Demokratik Cümhuriyyətinin üçrəngli bayrağını 70 ildən sonra, ilk dəfə qaldıran və Azərbayçan Kommunist mafiyası mağarası qarşısında dalğalandıran Yaşar Turkazər Məmmədli kimi oğulu bü gün bayıra basırsınız, nəinki mandat, ona heç dəvətnamə də vermirsiniz?!

Azərbaycanın bügünkü hakim dairələrində Çauşesku ölümünə layiq ölü canlar var. Onlara güzəştə getməsi onlarla alveri və əlaqəsi Azərbayçan Xalq Cəbhəsini etibardan, el gözündən sala bilər və salır. Bunu unutmamalı! Mərkəzi Komitəni üç tərəfdən blokadaya almasını təsvir etmək çətindir.

Uca boylu, qara saçlı, şəvə bığlı, şux geyimli Türk sifətli Tamerlan Qarasoy, söz kürsüsünə yaraşıq verir. Öz parlaq nitqilə Azərbaycan türkcəsinin incəliklərini nümayiş etdirir. Nitqindən öyrənirəm ki, Şimali Azərbaycan Xalq Cəbhəsinin başlıça hüquqi sənədləri ADU-da, onun mənsub olduğu hüquq fakültəsində hazırlanmışdır. Ağ saçlı,

ildırım kəsərli zəka məşəli Tofiq Qasımlı hiddətlidir, nizamnamənin diktatorluğa apardığını bildirir.

* * *

... Günlər sovuşacaq. Böyük aktyorumuz Mikayıl Mirzə ilə qarşılaşacağam. Salamlaşandan sonra ilk sualı bu olacaq:

– Ayı sənin qulağına nə dedi?

– Ayı mənim qulağıma dedi ki, Şimali Azərbaycan Xalq Cəbhəsini öyrənmək naminə iki nəfərə yüngülcə vəfasızlıq etmək olar...

Mikayılın nəyə işarə vurduğu aydındırmı? İbtidai məktəb dərsliklərində "İki yoldaş" adlı hekayə var. İki yoldaş ormana seyrə çıxırlar. Qarşıdan zorba bir ayının gəldiyini görən yoldaşlarından biri qaçıb ağaca dırmaşır. O biri üzüqoyulu çəmənliyə yıxılır, özünü ölülüyə qoyur. Ayı sovuşub gedəndən sonra yuxarıdakı aşağı enib soruşur:

– Ayı sənin qulağına nə dedi?

– Dedi ki, vəfasızlara qoşulma, bərk ayaqda səni atıb qaçar, ağaca dırmaşa bilər.

Mikayılımız onu və rejissor qardaşımız Rafiq bəy Atakişisoyu Şuşanın vertolyot meydançasında atıb gəldiyimə işarə vurur. Mənsə bildirirəm:

– Xalqa vəfalı olmaq naminə iki fərdə yüngülcə vəfasızlıq etmək olar.

# BİRİNCİ GÜN,
# 8 OCAQ (YANVAR) 1990, BAKI.

Bu gün Azadlıq meydanında qopan qasırğanın iki, üç dəfə güclənib ləngərlənməsini, ağappaq qarı, sel sularını tapdalaya-tapdalaya Neftçilər prospektinə çıxmasını, Azərneft meydanında dəhşətli bir axına, zor qüvvəyə çevrilməsini, qanlı mağara Mərkəzi Komitənin, üç tərəfdən blokadaya almasını təsvir etmək çətindir, buna macalım, vaxtım yoxdur. Mərkəzi Komitənin, Ali Sovetin və Nazirlər Sovetinin komendantı, polkovnik Vaqif Axundov əzəmətli insan dənizi qarşısında bət-bənizi qaçmış halda mənə yanaşır, on nəfər seçib Mərkəzi Komitə binasına qədəm qoyub dialoqa girməyimizi xahiş edir:

– Qoy MK katibi özü gəlsin, xalq önündə sorğulara cavab versin! – deyirəm. Lakin ağ üzlü, qarasaqqal, 27 yaşlı fəhlə qardaşımız Nemət Pənahlı təklifi qəbul edir. İzdihamın qanadında içəri giririk. Mərkəzi Komitədə təbliğat, təşviqat şöbəsinin müdiri, gözlüklü, daim gülən, gülümsəyən, buğdayısifət, Respublika Elmlər Akademiyasının müxbir üzvü Rafiq Əlisoy, bura yenicə işə gətirilmiş tənqidçi Kamal Abdullayev, MK katibi Rafiq Zeynalov və başqa yoldaşlardır bizi qarşılayır.

Qarasaqqal Nemət bəy deyir ki, növbəti mitinqə, şənbə gününədək tələblərimizi yerinə yetirməsəniz süpürgəçisindən tutmuş katibinədək bu əzəmətli, zırpı imarəti, qanlı mağaranı alt-üst edəcəyik. Bunu bacarmasaq, ardımızca xalq gəlməsə, mən özümü öldürəcəyəm!

Tələblərimizin mətnini tələm-tələsik yazıb kabinetə toplaşanlara oxuyuram, sonra MK katibi Rafiq Zeynalova təqdim edirəm.

**TƏLƏBLƏRİMİZ:**

**1. Başda Əbdürrəhman Xəlil oğlu Vəzirov olmaqla Mərkəzi Komitəyə və onun şərəfsiz Bürosuna, Şimali Azərbaycan SSR Ali Sovetinə, Nazirlər Sovetinə soxulmuş milli xainlər, Kremlin boşqab dibini yalayanlar istefa versin və ümumxalq divanına cəlb edilsinlər!**

**2. Azərbaycan Kommunist Partiyasının suverenliyi təmin edilsin, Sov. İKP-dən ayrılsın, nökərçilik roluna son qoyulsun.**

**3. Azərbaycan Kommunist Partiyasının, onun Mərkəzi Komitəsinin, Bürosunun hegemonluğuna (ağamənliyinə) son qoyulsun.**

**4. Partiyalar azadlığına, fəaliyyətinə meydan verilsin!**

**5. Həyasız, qırmızı imperiyanın timsalı, Azərbaycan türklərinin qanlı və qəddar düşməni Sergey Mironoviç Kirovun zülmət heykəli devrilsin, hökumətin öz əlilə aradan götürulsün!**

**5.Mətbuatın, telegüzgünün, akademiya, universitet, institut və elmi, yaradıcı təşkilatların üstündən partiya nəzarəti götürülsün!**

**6.Azərbaycan türklərinin qızıl qvardiyasını təşkil edən yurdsevərlər, dustaq dəliqanlılar, kişilər, 84 igid məhbus dərhal və danışıqsız həbsdən azad edilsin. Onlar üçün cinayət işi quraşdırmış, milli şüurdan yoxsul müstəntiqlər məsuliyyətə cəlb olunsunlar: Nəsimi**

rayonunda müstəntiq Mürad Əliyev, müstəntiq şərəfini tapdamış Nəcəfov, felən Muxtaryan adlanmalı müstəntiq Muxtarov. Nəsimi rayon milis idarəsinin rəisi Adıgözəlov rüsvay edilsinlər. Hər kəs özünə layiq cəzasına çatdırılsın!

7. Laçın, Gədəbəy, Sədərək, Kəlbəcər, Tovuz, Şuşa, Qubadlı, Qazax, Naxçıvan, Ordubad torpaqlarını, ormanlarını, yaylaqlarını, biçənəklərini zaman-zaman əlaltından xəlvəti satan, əvəzinə qızıl, rüşvət və "malades" alan satqınların hamısı, başda Nadir Hüseynbəyov olmaqla məsuliyyətə cəlb olunsunlar. Laçın rayonunun özündən böyük yaylağını satmış Hüseynbəyov kimilər rüsvayçılıq divarına mıxlansın.

8. Yeni il ərəfəsində cəlilabadlılara qanlı divan tutanlar divana çəkilsinlər.

9. Culfada, Naxçıvanda ədalətsiz sərhəddi dağıdanlara, 17 min hektar torpağı tikanlı məftillər altından çıxaranlara cəza yox, mükafat verilsin, onların tələbləri ödənilsin:

a) Araz çayında çimmək, balıq tutmaq, suyundan istifadə etmək azadlığı;

b) Güneylə Quzey Azərbaycan arasında ticarət azadlığı, qohum-qardaşların görüşməsi, bir-birinə barı qonaq gedib-gəlməsi; səyahət azadlığı, ədəbi, elmi, mədəni ilişgilərin güçləndirilməsi, hər iki sahildə milli şüurun qüvvətləndirilməsi azadlığı;

v) Ümumi əlifbanın, vahid mətbuatın, o taya xidmət edən telegüzgünün yaradılması azadlığı.

10. Azərbaycanın iqtisadi, siyasi suverenliyi sözdə, kağızda qalmasın.

**11. Ermənilər Azərbaycandan son nəfərinədək qovulsun! Xanlar şəhərində birinci katib Qərib İsgəndərov kimi satqınlar, hərbi komissar general-leytenant Əbülfəz Qasımov kimi qara mafiya başçıları ifşa olunsunlar!**

# İKİNCİ GÜN,
# 9 OCAQ 1990, BAKI.

Ötən şənbə günü, ocaq – yanvar ayının 6-da Mərkəzi Komitədə iqtisadiyyat şöbəsinin müdiri Ziyad Səmədzadənin məni DİN müavini Viktor Pavloviç Barannikova necə təqdim etdiyini yada salıb evdən çıxıram.

– Bizim böyük şairimiz XƏLİL RZA bu kişidir. Tanış olun, deyəsən görüşünü diləyirdiniz.

Pəhləvan cüssəli, qırmızı sifətli, mavi gözlü Barannikovun mənə dediklərini yada salıram:

– SSRİ Daxili İşlər nazirinin müavini Statis Henrixoviç Lisauskas gəlib çıxıb Bakınıza. Mitinqlərin nüfuzlu başçıları ilə, Sizinlə maraqlanır, vaxtınız olarmı, ikinci gün DİN-də, saat 14 çağlarında görüşək?

– Olar. Əli Cabbar kişilə bir gələcəm. Şair və ideoloqdur. Mitinqlərin nüfuzlu başçılarındandır.

– Buyurun, gəlin!

Ağ saçlı Əli Cabbar əhdə vəfa qılıb, məni Hüsü Hacıyev küçəsində, əzəmətli DİN binası qarşısında bəkləyir. Görüşüb binanın arxa tərəfinə keçirik. Bizi Cinayət axtarışları şöbəsinin əməkdaşı Yaqub Hüseyn oğlu Əlisoy qarşılayır və söhbətdaşlarımızın əyləşdikləri otağa gətirir. Öncə pəhləvan cüssəli Barannikovun iri pəncəli əlini sıxırıq, sonra ağır addımlar ilə içəri girən Statis Henrixoviç Lisauskasın. 57 yaşlı litvalıdır.

– Sveyskas kivas!

Söhbətdaşım söhbətinə bu Litva məsəli ilə başlayır. Mənasını da özü açıqlayır: – Cansağlığı dilərəm sənə!

– Mən də sizə cansağlığı dilərəm!

– Xəlil bəy, eşitdiyimə görə, siz Bakıda qaynayan milli hərəkatın el içində sayılan başçılarından birisiniz, Sizi dinləyirlər, sözünüzə baxırlar. Antierməni hərəkatı bütün Azərbaycanı, Bakını bürüyüb. Dayandırın bu hərəkatı. Bu münaqişədə sıravi ermənin heç bir suçu, günahı yoxdur. Qurunun oduna yaş yanmasın! Azərbaycan güclü respublikadır, təbii sərvətləri zəngindir. Ermənistan isə... Yarım milyon ermənini Bakıdan qovsanız, zavallılar nə günə düşər?

– Statis Henrixoviç, azərbaycanlılar bəşəriyyət qarşısında üzuağ bir millətdir. Heç kimin toyuğuna kiş deməyib, bostanına daş atmayıb... Ancaq bu gün bu dini millətin başı, boynu qılınc altındadır, Rusun imperiya qılıncı altında, daşnakların qanlı baltası altındadır. Birinçi cümlənizdən bildim ki, bizim məmləkətin tarixinə bələd deyilsiniz. Halbuki mən sizə bələdəm. Mayronis, Salomeya Neris, Putinas sərvətləri sinəmdədir, Mejelaytis, Martsinkyaviçyus, Alfonsas Maldonis, Şimkus Vladas, Yudita Vayçyunayte kimi şairləriniz ürəyimə, beynimə işıq salıb. Mejelaytisin ən qüdrətli dünya tərcüməçilərindən biri də mənəm. Mən erməni tayfasının qarşısında da alnıaçıq, başı ucayam. Akop Akopyan, Avetik İsaakyan, Ovanes Şiraz, Paruyr Sevak, Silva Kaputikyan... neçə-neçə erməni şerbazı məhz mənim sayəmdə azərbaycanca dil açıb. Ölənlərə rəhmət, amma onlardan sağ qalanları mən şair yox, sənətkar yox, şerbaz sayıram. Milliyyətindən asılı olmayaraq sənətkar və kişi yalnız haqq cəbhəsində yer tutmalıdır, şər cəbhəsində yox! Məsləhət blirəm: Siz də öz cəbhənizi müəyyənləşdirin, görün harada dayanıbsınız: xeyirin, yoxsa şərin cəbhəsində?!

Bizim sərkərdə şairimiz Şah İsmayıl Xətai dövründə Azərbaycanın sahəsi olub iki milyon səkkiz yüz min kvadrat kilometr. Təsəvvür edirsinizmi: 2 milyon 800 min kvadrat kilometr. İndi nə qədərdir? İndi Sovet Azərbaycanının sahəsi vur-tut 86,7 min kvadrat kilometrdən ibarətdir. Bu, millət üçün dünya miqyaslı qlobal bir faciədir. Azərbaycanın sahəsi 32 dəfə kiçildilib. Kim kiçildib? Əlbəttə, ağ və qırmızı imperiya və onun daşnak kimi nökərləri! Rus çarlığı öncə Gülüstan (1813), sonra Türkmənçay (1828) bağ-laşmaları ilə sonuclanan vuruşmalarda Azərbaycanı iki yerə parçalayıb, Arazın bu tayını özü götürüb, o tayını verib İrana. Bununla yetinməyib. Elə bu tayın özünü də ağ, sonra qırmızı imperiya zaman-zaman parçalayıb. Zəngəzuru alıb, atıb erməninin ağzına, Göyçə mahalını alıb, atıb erməninin ağzına, Altunkəndi alıb atıb erməninin ağzına! Uluxanlını alıb, atıb erməninin ağzına!

Hələ bunlardan öncə İrəvan mahalını alıb, atıb erməninin ağzına. Erməni ağzı dolub daşanda atıb Gürcüstanın ağzına, haraları? Borçalı vilayətini, Mesxeti diyarını, Axalkalaki basalağını!

Gürçü ağzı dolub daşanda Azərbaycandan Dərbəndi qoparıb atıb RSFSR-in ağzına! İmperiya ağzı əjdaha ağzından yekədir, üfunətlidir. Siz bəşər evladısınız. Azərbaycan millətinə qarşı 200 ildən bəri tuşlanmış soyqırımı siyasətini, cismani və mənəvi soyqırımının növ-növ çeşidlərini görməmək, yaxud özünü görməməzliyə vurmaq sizə yaraşmaz. Xənkəndində 280 türkazər evini ermənilər bircə həftənin içində darmadağın və talan etdilər. Gözləri zəka nuru saçanları təkərə, pokrışkaya sarıdılar, üstlərinə benzin tökub kibrit çəkdilər. Əlini, Bəxtiyarı, Orduxanı, Rza Sadıqlını... nə qədər dəyərli oğulları, çobanları, sürücüləri

qurşuna düzüb canlı məşələ, külə döndərdilər. Vaqon-vaqon insanları girov götürüb, sonra qurşuna düzüblər, sürü-sürü apardıqları qoyunlar, naxır-naxır daşıdıqları inəklər, camışlar acların, acgözlərin boğazlarında qalsın, barı min illərdən bəri Xocalıda, Kərkicahanda, Tuğda, Cəmillidə yaşamış insanlar ilə işləri olmasın. Hər gün başlarına raket ətəşi yağdırırlar. Erməni zatən qorxaqdır, onu ürəkləndirən rus silahıdır, imperiya ordusudur, Dünya miqyaslı məkr, hiylə şəbəkəsidir. "Litqazeta"dan tutmuş "Moskovski novosti"yə qədər bütun qəzet, dərgi redaksiyalarına soxulmuş mənəvi təxribatçılardır, Qorbaçovun, Aqanbekyanın, İqor Belyayevin, Zori Balayanın arxasında dayanmış Saxarovdur, Corc Beykerdir və Beyker kimiləridir. Bu şərəfsiz siyahıda sizdəmi yer tutmaq istərdiniz? Mən Mejelaytisi və 300-dən çox dünya şairini dilimizə çevirmişəm. Onda haram edərəm sizə gözlərimin nurunu! Zəhmətimi! Yox, litvalılar şər çəbhəsində yer tuta bilməzlər. Çünki özləri bu gün milli istiqlal vuruşlarındadırlar.

– Yandı nəfəsiniz, Xəlil bəy, toxdayın. Baxın, bugünkü "Pravda" qəzeti Ermənistan Ali Sovetinin qərarının Ali Soveti tərəfindən ləğv edildiyini bildirir. Ermənilərin Dağlıq Qarabağı özlərinə, Ermənistana qatmaq cəhdi əbəsdir.

– Ermənistan Ali Soveti bu qərarı haçan qəbul edib? Keçən il dekabrın 1-də. Bu gün isə 1990-cı il ocaq (yanvar) ayının 9-dur. Toydan sonra nağara, imperiya məkri, imperiya manevri.

– Xəlil bəy, sizi görüşə dəvət etməkdən məqsədim budur ki, bu cəhənnəm odunun üstünə benzin yox, su tökəsiniz. Mən kəndçi balasıyam, 15 yaşımdən bəri işləyirəm. İndi 57 yaşın içindəyəm. Bu münaqişədə qocalar, çocuqlar işgəncə çəkəcəklər. Mən XX əsrin bu son on ili-

ni qansız, qırğınsız görmək istəyiram. Çernovitsa adlı döyüşçü Xankəndi ilə Ağdam arasındakı qovğada öldürülüb. Ukrayna balasıdır. Ünvanını götürdüm, getdim anasının əlini öpdüm, ancaq göz yaşlarını quruda bilmədim, sorğularına cavab verə bilmədim:

– Tovariş qeneral, poçemu moeqo sına otpravili na Kavkaz?

– Bəşəriyyəti biz necə qoruya bilərik? Qoy bu suallar sizi düşündürsün!

– Yalnız və yalnız xeyir çəbhəsində öz səngərini tutmaqla, yoldaş general! Sizə göstərməyə bir kitab gətirmişəm. Baxın: N. İ. Şavrov, Sankt-Peterburq, 1911. "Zaqafqaziyada rus mənafeyinə yeni təhlükə. Muğanın özgə xalqlara satılması". Bu kitabı mənə dostum Yəhya Yusifli göndərib, arxivşünas, kitabşünasdır. İndi bu əsəri turkcəyə çevirməklə məşğuldur. Oxuyun, bu kitabı, görün rus çarlığı Azərbaycan türk millətini darmadağın etmək üçün necə dəridən-qabıqdan çıxıb, özünün erməni nökərlərini necə yaraqlandırıb, ayaqlandırıb türkə – İslama qarşı. Oxuyuram, dinləyin: Xoşbəxtliklə nəticələnmiş 1877-1878-ci illər Rusiya – Türkiyə müharibəsi bizə bütöv Kiçik Asiyalı yeni köçkünlərin tam axınını bəxş etmişdir. Qars vilayətində təxminən 50 min erməni və 40 min yunan məskunlaşdırılıb. Boş qalmış vilayət çoxlu sayda özgə xalqların əhalisini öz qoynuna alır. Bundan başqa, general Ter-Qukasov Sürməli qəzasına bizdə qalan 35 min Türkiyə ermənisinin alaçığını çıxardır. Bundan sonra ermənilərin Kiçik Asiyadan arası kəsilməyən axını başlayır. 1894-cü ildə artıq gəlmə ermənilərin sayı təxminən 900 minə çatırdı.

Knyaz Qolitsının onların qovulması barədə səyi nəticə

vermədi - türklər onları qəbul etmədilər. Nəticədə ermənilərə elan edildi ki, kim rus təbəəliyini qəbul etməsə güclə qovulacaqdır. Əlbəttə, ermənilərin hamısı rus təbəəliyini qəbul etdi və əvvəlcədən köçürülmüş erməni əhalisi ilə qaynayıb qarışdı. O zamandan başlayaraq, Kiçik Asiyadan axın davam edir, indi təkşə Qars vilayətində binə salmaq uçün torpaq almağa can atan təxminən 35 min erməni ailəsi hesablanmışdır. İndi Zaqafqaziyada yaşayan 1 milyon 300 min erməni yerli əhaliyə mənsub deyil, bizim tərəfimizdən məskunlaşdırılıb.

Əgər təbii artımı nəzərə alsaq, onda görərik ki, 13 il ərzində biz 300 mindən artıq erməni yerləşdirmişik.

Zaqafqaziyaya özgələrin yerləşdirilməsi rəqəmlərlə böylədir:

Ermənilər – 1 milyon.
Polyaklar – 17 min 264 nəfər.
Çexlər – 20 min 41 nəfər.
Latışlar – 5 min 561 nəfər.
Moldovanlar – 2 min 724 nəfər.
Yunanlar – 82 min 43 nəfər.
Yəhudilər – 30 min 890 nəfər.
Estonlar – 5 min 241 nəfər.
Aysorlar – 5 min 28 nəfər.
Cəmisi: 1 milyon 147 min 972 nəfər

Bu rəqəmlərdən hər biri millətimizə qarşı imperiya pazıdır, əziz Statis Henrixoviç! Mən sizə Azərbaycana qarşı min-min cinayətdən yalnız bircəsini göstərirəm.

# İKİNCİ GÜN, 9 OCAQ 1990, BAKI.

İçəridə dəli-divanə olsam da, üzümdəki, gözümdəki təbəssümü heç bir qara qüvvəyə təslim etməyə vaxtım, ixtiyarım yoxdur. Məndən imdad istəyən dəliqanlı Fuad bəyə telefonda deyirəm ki, yeganə dayağımız, pənahımız göydə Ulu Tanrı, yerdə Atatürkün dedikləridir.

– Döyüşdə hər türk on yabançıya bərabərdir! – söyləmişlər.

– Xayır! – demiş Atatürk. – Hər türk bir dünyaya bərabərdir.

Günəş öz qüvvəsini özündən alır. Dörd ümman öz qüvvəsini özundən alır. Yer kürəsi öz hərlənmə güçünü özündən alır, başda bahar olmaqla dörd fəsil də eləcə. Öz içərimizdən qüvvət alalım. Azərbaycan təklənib. Yırtıcılar üstünə dörd tərəfdən, yerdən, göydən tökülüb. Mavi gözlü, ağ üzlü, qara saçlı qonşum, dəliqanlı Qədir bəy xəbər verir ki, gürcü kinematoqrafları ayağı sürüşkən qadınlardan ibarət havalı bir dəstəni Borçalıda qədim bir türk qəbristanına gətirmişlər. Saxta bir film çəkməyə girişmişlər. Filmin məzmunu bundan ibarət olmalı imiş ki, dünən gurcüləri qırmış şah Abbasın nəvələri onun işini necə davam etdirirlər, təxminən Sumqayıt faciəsi kimi bir faciə törədirlər. Borçalı əhli bu fitnəkarlığı darmadağın etmiş və guya Qumbaridzeyə teleqram vurmuşlar. Borçalı, Mesxeti, ümumən Gürcüstan türkləri başsızdır. Xalq qüvvətli olsa da, rəhbərsizdir. Ziyalıların çoxu qaçıb Bakıya sığınmışlar. Elə Qədir bəyin bacısı, yaxın qohumları da.

– Fərarilik ən böyük gədalıqdır! – deyirəm. – Namərd qabağından qaçmağa sizin haqqınız yoxdur. Gürcülər türk evlərini ucuz-baha satın alır, siz də bu felə uyursunuz!

«Ermənisiz Azərbaycan» karvanı yenə Nizami lağımının önündən yürüşü başlayır. Üç məqsədimiz var: Respublika prokurorluğunu daşnaklardan təmizləmək, başda ağüzlü, qarasaqqal, Masallı türkü Elşən Axundlu olmaqla 84 dustağı həbsdən qurtarmaq, bir də Ostrovski küçəsinin dikdirində yerləşən, bağlı məscidi açmaq, dövlətin yox, xalqın sərəncamına vermək!

İndiki halında Sovet dövləti, Moskva, məscid əhlini, dindar müsəlmanları da istismar edir, sümürür, halbuki məscidin ixtiyarı öz əlində olsa, SSRİ müsəlmanları birləşə bilərlər. Koordinasiya sistemi yaranar, öz mətbuatı, nəşriyyatı olar. Bəli, Raci, Dəxil, Qumri kimi az qala unudulmuş şairlərimizin əsərlərini çap edə bilərik. Məscidin və dini mərkəzin büdcəsi özündə qalsa, yeni mədrəsələr açar, təmir işlərini özü aparar, bağlı məscid bu günə qalmaz, pəncərələrindən hörümçək toru sallanmaz!

...Məscidin yanına gəlib çatıncayadək karvan əhli yorulub əldən düşür. 23 yaşlı qarasaqqal, göyçək Seyid Tahir Qarabağlının ayaqları qar suyu içindədir. Məni səhər tezdən Cəlilabada, oradan Şuşaya, Laçına, Qubadlıya aparmaq istəyir.

– Kimliyini (avtobioqrafiyasını), şəklini mənə yetir! – deyir. – Səni Şuşadan deputat verəcəyik!

Əslində deputatlığa layiq olan özüdür. Qar içində bahar kimi addımlayan bu göyçək üzlü, qarasaqqal, son dərəcə mehriban dəliqanlının sinəsindən Azərbaycan fəryadları fışqırır:

– Ya Rəbbim, sən özün bu daşnak bandasına və onun havadarlarına yeni bir bəla kəramət eylə! – söylədiyi zaman izdiham dolu küçələr səs-səsə verir: "AMİN!".

Bəli, ayaqları qar suyu içində sızıldasa da, Seyid Tahir Qarabağlı məndən hələm-hələm ayrılmaq istəmir:

– Sən bizim "Milli Qurtuluş Cəbhəsi"nin İdarə Heyətində

olmalısan! – deyir. Şahin və İlham adlı iki dəliqanlını, olduqca səmimi, mərd igidləri mənə qoşur ki, evəcən ötürsünlər.

– Kim bizimkilərə sataşsa, dərhal cavablarını veririk. Köçəriyə elə qulaqburması verdik ki, bir də Mənsur Əlisoyun həndəvərində hərlənə bilmir. Sənə, Seyid Tahirə, Məhəmməd Hatəmi Tantəkinə sataşan olsa, iki gözlərini bir deşikdən çıxararıq.

Gözlərim Şahin bəyin, İlham bəyin gözlərində olsa da, ürəyim orda, bayaqkı qovğanın, mənəvi qasırğanın yanındadır. Aman Allah, bizim ağ bənizi qəzəb zirehli, gümüş saçlı Firuz Haşım, əxlaqındakı nəzakət pərdəsini söküb-tökməsə də, canındakı nifrət və qəzəb dəryalarını gizlədə bilməyən, ADU öyrətməni, ağ üzlü, açıq alınlı Vəkil Məhəmməd, Spitak oymağından, Qursalı kəndindən çıxarılmış rus təhsilli dəliqanlı, uca boylu mərifət günəşi, qarasaqqal Ramiz, qınından sıyrılmış qılınça bənzər ağ saçlı İsmayıl bəy, fürsət düşəndə qonaqlıq verməkdən ayrıca zövq alan, başı qarlı dağlara bənzər İslam kişi Poluxin (indiki Murtuza Muxtarov - red.), Çiçerin (indiki Yusifbəy İbrahimbəyli - red.) küçələrinə sığışmayan əzəmətli izdihamın qədəmlərinə necə od tökdülər. Əslində haqq-ədalət qəsri adlanmalı prokurorluq binasının milis əllərilə açılmış ağır qapısından keçib gələn respublika prokuroru, uca boylu, qaraqaş, qaragöz, yaraşıqlı İlyas İsmayılova necə divan tutdular, rüsvayçılıq divarlarına mıxladılar.

– Müstəntiqlərin kordur, Muxtarlı yox, Muxtaryandır, Əlisoy yox, Əliyandır. Onlar kişi yox, kərtənkələdir.

## BAZAR, 14 OCAQ, 1990, BAKI.

Evdə iki qonağım var: Rzalı Musagil, bir də mənim yerlim - Dayı Əlihəsənin oğlu Aydın Bədəlli, bizim salyanlı balası.

Rzalı bəy mənim çimərlik arkadaşımdır, illər boyu Xəzər yaxasında, Şıx çimərliyində birlikdə yüyürmüşük, futbol oynamışıq, hətta qışın bro-bro vaxtında, ocaq-yanvar ayında belə Xəzər qasırğalarını köksümüzə sıxmışıq. Neft-Kimya İnstitutunda istilik texnikası kafedrasında çalışır, gözəl alim və pedaqoqdur. Gəlib ki, mənə Altunkənd müsibətini danışsın. Ruslaşanlar Altunkəndə Krasnoselsk deyir. Mən isə 1988-ci ilin sonlarında 318 min türkazər Qərbi Azərbaycandan, o sırada Altunkənddən çıxarılandan, qovulandan, yandırılandan, darmadağın ediləndən sonra da ruslaşmanın bu cür atributlarına qarşı qəzəblə, üsyanla doluyam, bu cür murdar ifadələri dilə gətirə bilmirəm. Son hadisələr içərisində başım qaynar qazandır. Buna görə Rzalı bəyi əməlli-başlı dinləyə bilmirəm. Yadımda qalan budur ki, Azərbaycan türklərinin ən qədim məskənlərindən biri olan Altunkənd rayonu və onun Meşəkənd, Toxluca, Ardanış kimi kəndlərindən bizimkilər rus silahının zəhmi altında böyük zülm və işgəncə ilə çıxarılmışlar. Bakıdan Altunkəndə gedən dörd hərbi vertolyotun birində bizim Rzalı da ora uçmuşdur:

– Aman Allah, adamları nə halda gördüm, dilənçi kökündə! Ac, susuz, yuxusuz, üzgün insan zəncirləri qar üstündə, buz ustündə, evsiz-eşiksiz. Türkcə danışdığımı

görünçə, bir qoca dizlərimi qucaqladı qarda. Özünü atdı vertolyota. Hərbçilər qocanı dartıb saldılar yerə: "Başqa kəndə uçuruq!".

Dayanmışam çay yaxasında... o tayda didərginlər zənciri... Bizi görüb ürəkləndilərmi? Özlərini çaya vurmaq istədilər. Qoymadım, əlimlə rədd işarəsi verdim.

Yanımdakı polkovnik məndən soruşur:

– Görəsən, bu qədər çamaatı aparmağa neçə "İkarus" bəs edər? Qarşıdakı qızcığaza bax, lap ölü kimidir. Ayaq üstə zorla dayanıb.

Erməni milisi onları üstüaçıq yük maşınlarına yükləyir və guya sərhəddə aparır. Əslində öz məskənlərindən uzaqlaşdırır, dağa, daşa, ormana, dərəyə... Hara gəldi tökür, yük kimi boşaldıb uzaqlaşır.

Tunc sifətli Rzalı nəfəsi yana-yana danışır, dediklərinin hamısını qavraya bilmirəm. Ayrı-ayrı cümlələri beynimdə ildırım kimi çaxır, gurlayır: "... Atam, qardaşım, ərim üz qoydu meşəyə", "Meşəkənddə sovxoz direktoru", "Altunkənddə komsomol katibi Ziya...", "Türkazarcə danışdığımı görüncə ermənilər çaxnaşdı... hərbçilər dərhal məni dəstəkləyib çəkdilər vertolyota. Yoxsa araya qan düşə bilərdi. Mən də 16 yaşlı bir oğlanı aradan çıxara bildim, çəkdim vertolyota",.. Polkovnik – pilot hayqırdı:

– Bura partladıcı maddə qoya bilərlər. Tələf ola bilərik. Diqqətli olun. Meşədə 130 adam qalıb... Gəncəbasardan benzin götürək...

Rzalının söhbətindən anlayıram ki, hərbi vertolyotlardan yalnız bircəsi kəşfiyyat xəbəri gətirə bilib. Qalan üç vertolyota ermənilər bu imkanı verməyiblər.

– Qazax yolu açıldı. Meşədəki 130 nəfəri bəlkə də xilas etmək olar!

– General Samsonov daim yalan məlumat verir. Kremlə heç bir təhlükə, tələfat yoxdur.

General Tyaqunovun dediklərindən tək-tək cümlələr yadda qalır: "Tovariş Yazov, oçen mnoqo poqibşix i ranenıx...".

– Qazax yolu geç açıldı. Dada yetə bilmədilər. 130 nəfər meşədə batdı. Didərgin bir qızcığaz var, Bakıda qızım Şəlalə ilə bir məktəbdə oxuyur. Atasının dadına yetdim. Buraxılış vərəqəsi alıb xilas etdim. Gözlərindən gildir-gildir yaş tökürdü. "Bu gecə yol açılmasa dama basılmış qızları, gəlinlari od vurub yandıracam! – deyirdi. – Daşnak nəfəsi it cəmdəyindən də murdardır, Qızları ləkələyə bilərlər".

– Təçili köçürun!

Bu, M.S.Qorbaçovunmu əmridir, yoxsa general Yazovun? Hər ikisinin! Öncə birinci fərman verib, sonra ikinci.

Rzalı nəfəsi varlığını yandıra-yandıra danışır, mən qırmızı imperiya məkrinin dolaşıq kələflərini öyrənməyə çalışıram. Fərqanədən çıxarılan Mesxeti (Ahısxa) türklərini Azərbaycanın türk oylaqlarına yox, ləzgilərin çox olduğu Xaçmaza yönəldirlər ki, tayfa davası düşsün. Doğrudan da, düşür. Ləzgilər türkə torpaq verməkdən boyun qaçırırlar. Qırmızı imperiya nökərləri öz qanlı torlarını necə dürüst toxuyurlar.

# BİRİNCİ GÜN, 1 OCAQ, 1990.

"Qarabağa yardım" komitəsinin və "Azərbaycan" qəzetinin əməkdaşı Yaşar Əlisoya "Məndən başlanır Vətən" kitabımı bağışladıqdan sonra ustad Bayram Bayramlının görüşünə can atıram. Gülara xanımın gətirdiyi lalə rəngli çayı nuş edə-edə danışırıq. Hansı bir məktubumdasa soyadından “ov" şəkilçisini atdığım üçün məndən incidiyini bildirir. Şah taxtına əyləşibmiş kimi vüqarla, təmkinlə davranır və özünəxas qaydada öyüd-nəsihət verməyə girişir.

– Xəlil bəy, sən özün yaxşı bilirsən ki, Qərb aləmi bizə qarşı xaç yürüşü təşkil etmişdir. Hərbi vəziyyətə keçmək, Bakını al qanına bələmək üçün bəhanə axtarırlar. Bu cür fitnə-fəsadların hamısında erməni barmağı var. Erməniyə qarşı soyqırımı məsələsini təzələmək istəyirlər. SSRİ-dən ayrılmaq və bu halda Dağlıq Qarabağı yağlı bir tikə kimi qapmaq fikrindədirlər. Dünən Sumqayıtda, bu gün Bakda ermənini qıran, öldürən, talayan Kremlin, Yerevanın ideoloqlarıdır. Onlar ermənini öldürüb qanını bizim üstümüzə tökmək istəyirlər. Sən bu işdə ehtiyatlı ol. Ermənininin öldürülməsinə yol vermə. Əksinə, yıxılanı qaldır, yola sal getsin. Bir daha təkrar edirəm. Azərbaycana qarşı xəyanət şəbəkəsi çox genişdir, çox güclüdür. Sənin polad qayçın bu hörümçək torunu doğraya biləcəkmi? Bilmirəm. İstefa şüarını bir kənara qoy. Meydanlarda hayqırırsan:

– Səmadan səda verir Məhəmməd əl Mustafa:

– Vəzirova istefa!

– Vəziryana istefa!

– Hələ o beytin yeni variantı da var, Bayram müəllim.

– O necədir?

– Korşalıb ağlı, beyni,
Rədd et Yanvəzirşteyni!

– Bunu nə məqsədlə uydurmusan?

– Arvadı, övladları yəhudidir. Özü masondur, sionizm təşkilatının nökəridir. Azərbaycanda böyük vəzifə başında qalması daim təhlükəlidir. Təhlükəsi anbaan artır. Rədd olması vacibdir.

Başının üstündən Həsən bəy Zərdabi, Ələkbər Sabir, Mirzə Əli Möcüz, Mirzə Cəlil, Üzeyir bəy Hacıbəyli, Səməd Vurğun, Şəhriyar, Rəsul Rza, Xudu Məmmədli kimi böyüklərimizin şəkil-portretlərini asdırmış və özünü güman ki, onların cərgəsində hiss edən buxara papaqlı, nur çöhrəli, sinli, təmkinli Bayram kişi önündəki armudu stəkandan, lalə rəngli çaydan iki qurtum içib sözünə davam edir

– "Yanvəzirşteyn" dediyin adamın yerinə göz dikən beş nəfərdir və heç biri o işə yaramır.

Mən düşünür, namizədləri xəyalımda müəyyənləşdirməyə çalışıram. DTK rəisi Vaqif Hüseynov, Bakanlar sovetliyinin sədri Ayaz Mütəllibov, MK katibi Telman Orucov, vəzifədə onunla eyni səviyyəli Həsən bəy Həsənli və daha neçələri…

– Heç biri yaramır! – deyə Bayram kişi cümləsini təkrarlayır. - Müstəqillik fikrinə düşən Litva Kremlə beş milyard borclu çıxdı. Bu fikrə düşsən səni də borclu çıxaracaqlar. Buna görə yorğanına görə ayağını uzat, elə et ki, səni də 10 milyard borclu çıxarsınlar.

– Necə olur, Bayram müəllim, Azərbaycanı iki yüz ildir soyur, talayır, daşıyıb aparırlar, hələ məni borclu çıxarac-

aqlar?! Gülüncdür. Azərbaycan Litva deyil, qat-qat zəngin məmləkətdir.

– Bakıya gələn türklər deyir ki, Azərbaycana təzə-təzə isinişirik, elə etməyin ki, ayağımız buradan kəsilsin. 27 milyonluq Güney Azərbaycan bizim Qarabağa Yardım Komitəsinə bircə qəpik də verməyib. Parisdə, Nyu-York-da, Londonda Mirzə Cəlil nəvələri var, burada Bakıda babalarının evini bərpa edə bilərlər. Qorxurlar, gəlmirlər. Onları ürkütməyin. O boyda Naxçıvanda bizim "Azərbaycan" qəzetinin vur-tut 1200 abunəçisi var. Sən zəlzələ qoparsan o abunəçilər də əlimizdən çıxar. Ömrüm boyu heç kəsə baş əyməmişəm. İsmayıl Şıxlının yanında məni bu komitəyə ağsaqqal seçdilər. Bugünkü Azərbaycan dərdlərinin aynası olan bir qəzet çıxarırıq. Bacarırsınızsa yardım edin. Mane olmayın. Şuşadakı konfransınız, mitinqiniz xoşuma gəlmədi. Katib, yaxud RİK sədri seçməyin vaxtı deyil. "Dağlıq Qarabağ Azərbaycanın şah damarıdır!" deyə hayqır, elə hayqır ki, Kreml silkələnsin, Qorbaçov onu necə veribsə, eləcə də alsın. Dağlıq Qarabağ Azərbaycanın içindədir, nə zamansa biz onun blokadasını qıracağıq. Hər cümlənə fikir ver, unutma ki, hər kəlmən yazılır. Sənətkar sözü zamanın sözüdür… İş gör hara çatıb ki, Vəkil Məhəmməd də dəstəbazlıq yapır. O dəstəni yaxın buraxma. 23 erməni öldürülüb, 32 nəfər əzişdirilib. Qırğın təşkilatçısı Yerevandır, Moskvadır. "Yeraz" anlayışını ortaya atanlar var, Şüvəlan Yaradıcılıq Evində yığıncaq keçirilib.

– Rədd olsun Yerazlar! – deyə hayqıranlar var. – Bu düşmən barmağı səncə kimindir? Əlbəttə, Vəzirovu yıxıb onun yerinə keçmək istəyənlərin!

Bayram kişi ilə sağollaşıb iş yerimə, akademiyaya gəli-

rəm. Birinci qatdakı dəyirmi salonda bərk vur-çatdasın, təlatüm var. Sədr Allahşükür adlı qarasaqqaldır.

– Azərbaycan Ermənistan ilə hər cür iqtisadi, siyasi əlaqəni dərhal kəsməlidir! – deyir. – Elə buradaca Müdafiə Şurası yaratmalıyıq. Buyur, söz sənindir, Yunus Oğuz!

Yunus Oğuz adlı ağbəniz dəliqanlı təklif edir ki, elə bu zaldaca yaradılacaq Milli Müdafiə Şurasına Mənsur Əlisoy sədrlik etsin.

Zindanlarda çəkdiyi məşəqqətlərdən bir neçə dişi zədələnmiş, ancaq iradəsi sarsılmamış, pəhləvan cüssəli, ağbəniz, qüdrətli Mənsur Əlisoy söz kürsüsünə qalxır.

– Xalq inqilabı başlanıb! – deyir. Naxçıvan, Lənkəran, Cəlilabad, Kürdəmir döyüş içindədir. Biz istismara, istsmarçılara, milli satqınlara, eybəcərliyə və şərə qarşı xalqı silahlandırmalıyıq. Xalqımızı namərd düşmən qabağında silahsız qoyan başsız KP başçılarıdır. Xəlil Rza demişkən, onların üfunətli cəmdəklərinə min lənət! Dərbənddən bəri keçən qatarlar dayandırılmalıdır. Ermənistana getməməlidir. Bugünkü Ermənistan şərin, irticanın, təcavüzün paytaxtıdır. Şərqi, müsəlmanlığı, türkü vurmaq, sıradan çıxarmaq, şil-küt eləmək işində namərd Qərb başçılarının və Kremlin əlində kəsərli alətdir. Vazgen dünyaya car çəkir ki, Bakıda bir kilsənin qapısı sındırılıb. Zərrəcə vicdanı varsa Vazgen bəs niyə qımıldanmır ki, keçən əsrin başlanğıcından bəri Ermənistanda, əslində Qərbi Azərbaycanda nə qədər müsəlman-türk evləri darmadağın edilib, qəbristanlıqlar, məscidlər, abidələr yerlə yeksan olunub, dərya-dərya qan tökülüb, günahsız türk qanı, müsəlman qanı!

… Sərhədlərimiz qapanmalıdır. Dərhal Milli Ordu yaradılmalıdır.

Akademiyanın Xalq Cəbhəsi İdarə Heyətinin üzvü, ağsaçlı İsmət bəyi dinləyirik.

– Boynumuza almalıyıq ki, Dağlıq Qarabağımız düşmən tərəfindən zəbt olunub, hüquqi cəhətdən verilməsə də, felən əldən verilib. Satqın Azərbaycan Kommunist Partiyası işin bu tərəfini maskalayır, xalqdan gizlədir. Satqınları taxtından qoparmaq borcumuzdur.

Cismən zəif olsa da, milli şüur baxımından güclü biblioqraf və kitabsatan Mirzə Hüseyni dinləyirik.

– Axı komsomol nökəri, partiya köləsi Əbdürrəhman Xəlil oğlu Vəzirov kimdir ki, ondan yardım diləyək? Rədd olsun, xalqın və tərəqqinin yolunda boş bir kötük olduğunu dərk eləsin! O Kremlin əlində oyuncaqdır və Kremlə yalnız oyuncaq başçılar gərəkdir respublikalarda. Dahi Hüseyn Cavid hələ 55 il bundan irəli bu fəlakəti görür, xəbər verirdi:

İdrakı sönük başçıların qəfləti ancaq
Etmiş, edəcək milləti əllərdə oyuncaq.

Mən əminəm ki, Vəzirovdan sonra onun yerinə gələcək adam yenə oyuncaqlar arasından seçiləcək.

Turana qılıncdan daha kəskin, ulu qüvvət
Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!

Milli şüuru, Türk şüurunu millətin hər bir fərdinin şəxsi sərvətinə çevirməliyik, bundan dürüst yolumuz yoxdur.

Fizika institutunun əməkdaşı Qüdrət bəy söz kürsüsünə qalxır:

– KP biletlərini yırtalım, cıralım – deyə hayqırır. – Bu günlərdə mənə tam bəlli oldu ki, Azərbaycan Kommunist Partiyası felən nökər partiyadır, iradəsi xalqa, humanizmə, tərəqqiyə qarşıdır. Biz Ermənistan ilə hərbi vəziyyətdə olduğumuz halda Ədbürrəhman Vəzirova istefa tələb etmək azdır. O və onun kimilər mütləq və mütləq xalq məhkə-

məsi qarşısında dayanmalıdırlar!

Mən çıxış edirəm. Xəyanətin, cinayətin kökləri, Birinci Pyotrun fərmanları haqqında düşünürəm.

– Nəyin bahasına olur-olsun, Bakıdan yerliləri sıxışdırıb çıxarmalı, erməniləri və rusları, xaçpərəst dinindən olan digər millətlərin dəstələrini gətirib burada yerləşdirməli, kilsələrin sayını artırmalı və bu işləri elə görməli ki, müsəlmanlar mümkün qədər xəbər tutmasınlar.

Böyük arxeoloq Ə.K.Ələkbərov Azərbaycan arxeologiyasına dair araşdırmalar kitabını Birinci Pyotrun bu fərmanlarının tədqiqi ilə başlayır, Bakıda, habelə, ümumən Azərbaycanda xaçpərəst kilsələrinin necə yarandığını, türkazərlərə qarşı illər və əsrlər boyu yeridilən soyqırımının tarixi köklərini açıqlayır. 1989-1990-cı illərin ayrıcında Şuşada, Xocalıda, Kərkicahanda gördüyüm dəhşətlər, vəhşiliklər, Xankəndindən tuşlanan güllə yağmuru altında çörək qazanan kişilərin şikayətləri, Tiflisə və oradan BMT-yə getmək üçün rayon katibindən icazə və bilet istəmələri, Bakı vağzalına tökülən  qaçqınlar, ermənilər tərəfindən burnu, qulağı kəsilmiş didərginlər, Sumqayıtın Saray kəndində gecəyarı tövlədə göz açarkən pərdidən divar çatlağına doğru sürünən ilanı gördüyündən dili tutulan 12 yaşlı qızcığazın fəlakəti qanımda nəbz kimi vurur.

Üstəlik telegüzgüdə seyr etdiyim bir əhvalat nəzərimdə canlanır. Zəngilan zəhmətkeşləri qarşısında çıxış edən Əbdürrəhman Xəlil oğlu Vəzirova Nüvədi kənd əhli, poçt müdiri şikayətlənir ki, ermənilər bu kəndə poçt çatdırılmasına imkan vermirlər.

Bu şikayətin qarşısında MK katibi nə desə yaxşıdır

– Sizi təbrik edirəm, Bakıya dörd min erməni qayıdıb!

Nə qədər alçaq olmalısan ki, aclıq, talan, məktubsuzluq,

maddi və mənəvi blokada məngənəsində sıxılan, saqqalından göz yaşı süzülən kişilərə bu cür cavab verəsən.

Əbdürrəhman düz deyir. Daşnaklar, doğrudan da, Bakıya qayıdır və yeni Cavidləri, yeni Müşfiqləri sürgünlərə göndərmək, qurşunlamaq üçün macal gəzir, Kreml tulaları onlar üçün bu şəraiti yaradırlar.

Nitqimin sonunda "Silahlan!" şerimi oxuyuram. Məni akademiyanın Milli Müdafiə Şurasına üzv seçmək istəyirlər. Gözüm su içmədiyi üçün boyun qaçırıram. Əldə ov tüfəngi də olmadığı halda, hansı müdafiədən söhbət gedə bilər?

Məndən sonra rusca gözəl çıxış edən ağbəniz türk gözəli Natella xanım Adıgözəllini dinləyirik.

– Azərbaycan ziyalılarının qüsuru bundadır ki, respublikada və Arazın o tayında nələr baş verdiyini dünya ictimaiyyətinə çatdıra bilmir. Biz Bakıda erməni azlığını qorumalıyıq. Onların qırılması Yerevan və Kreml tərəfindən təşkil olunur ki, Dağlıq Qarabağa soxulmalarını maskalaya bilsinlər. Üç təklif irəli sürürəm:

1. Azərbaycan Ali Soveti Xankəndinə və Azərbaycandakı digər erməni bölgələrinə Yerevandan hərbi texnika, hərbi qüvvə daşınmasına, Azərbaycan torpaqlarının zəbt olunmasına qəti etirazını bildirsin. Təcavüzə son qoyulmazsa Ermənistan ilə hər cür iqtisadi, siyasi əlaqələri kəsəcəyini car çəksin. Təkcə qaz kəmərini kəssək, Ermənistan soyuqdan gəbərər və təcavüzdən əl çəkməyə məcbur olar. Bu addımı atmaq üçün bizə qətiyyətli kişi rəhbərlər gərəkdir, Vəzirov və onun həndəvəri kimi nakişilər yox!

2. Bütün Sovei İttifaqı xalqlarına, bütün akademiyalara, bütün institutlara teletayp ilə xitab edib, Kremlin və Yere-

vanın Azərbaycana, bəşəriyyətə qarşı cinayətlərini tam açıqlamalıyıq, iki ildə törətdikləri cinayətləri Qorbaçovların, Arutunyanların daş sifətlərinə çırpmalıyıq!

3. Azərbaycan xalqının başına gətirilmiş cinayətləri BMT-yə yetirməliyik. Dünya ictimaiyyəti bilməlidir ki, 1990-cı ildən bəri indi Ermənistan adlanan Qərbi Azərbaycandan 1 milyon 800 min türkazər köçürülüb, qovulub, sürgün və darmadağın edilib.

İlham Behrudi adlı qara saçlı, ciddi, məğrur bir dəliqanlıya diqqət kəsilirəm:

– İki il öncə Əbdürrəhman Xəlil oğlu Vəzirov Azərbaycanda demokratiyanın anasını ağlatmaq, aşıb-daşan milli hərəkatı cilovlamaq, susdurmaq üçün Moskvadan qoşun çağırdı. Əlidəyənəkli və avtomatlı iki minlik qoşun hüzurumuza şərik çıxdı. Həm də Azadlıq meydanlarını qan ilə yumağın əsasını qoydu, ancaq xalqımızın Azadlıq eşqini boğa bilmədi. Mənə görə, bu gün yaradılan Milli Müdafiə Şurasına ruslar, yəhudilər, başqa etnik tərkibin nümayəndələri də daxil edilməlidir.

Qara saçlı, ağ üzlü Adil Qəribli görək nə deyir:

– Mənim tələbim budur ki, Vəzirov kimilər Milli Müdafiə Şurasına yaxın buraxılmasın. Ümumrespublika səfərbərliyi elan edilsin. Tüfeylilər, istismarçılar, biganələr kənarda qalmasın, işə cəlb olunsunlar. 18 yaş ilə 50 yaş arasında olan kişilər silaha sarılsın. Suveren AKP yaradaq.

Kimsə yerindən qışqırır:

– AKP daim nökərdir, suveren ola bilməz! Altdan su verən ola bilər!

Qara bığlı dəliqanlı Saleh Süleymanlını dinləyirik. Akademiyanın hər bir institutunda Milli Müdafiə Şurası yaratmağa çağırır.

Boz saçları yavaş-yavaş ağaran coğrafiyaçı İbrahim coşur:

– Hər iki qəsbkara qarşı birləşək! – deyir. – Azərbaycanın bütün bölgələrində xalqı döyüşə hazırlamalı, komandirləri, hərbi xidmət çəkənləri toplamalı. Azərbaycana qarşı cinayəti ruslar, ingilislər, fransızlar, bütün bəşəriyyət bilməlidir!

Gümüşü saçlı kimyagər Hüseynli görək nə söyləyir:

– Döyüş vəsaitimiz yoxdur! – deyir. – Azərbaycan iki əsrdir ki, özgələrin uğrunda döyüşür, öz səngərimiz yoxdur. Zavodlarımız döyüş rejiminə keçməlidir. Hansı institutda birinci şöbə varsa, orada barıt, güllə əldə etmək olur. Bu işi öncə laboratoriyada görməliyik, sonra sınaq zavodlarında, istehsalatda.

Nemət adlı alim ayağa qalxır

– Akademiyanın Rəyasət Heyəti öz səlahiyyətini dayandırır, Milli Müdafiə Şurasına verir. Şura üzvlərinin sayı Rəyasət Heyətinin sayınca olmalıdır.

Qara saçlı Vaqif Əsədli yoldaşa diqqət kəsilirəm:

– Qoy hər institut öz Milli Müdafiə Şurasını yaratsın və nümayəndələrini bu gün bura göndərsin, saat 17-də toplanacağıq.

Qətnamə oxunur. Ön cərgədə əli qələmliyəm. Natiqlərdən biri deyir ki, İspaniyadan istirahətdən qayıtmış Rafiq Məmmədli cinayət axtarışları müfəttişidir, DİN-ə gətirilib, Anası ermənidir, xalqı incidir. Tanıyın.

Başqa bir natiq deyir ki, erməniləri "Şəfəq" kinoteatrına yığırlar. Günahsızları yola salmaq, zırpı daşnakları girov saxlamaq lazımdır.

Ağbəniz türk gözəli Azərbaycan alimlərinin sovet xalqlarına xitabını rusca əla oxuyur. Yanımda əyləşmiş şair

ürəkli rəssam, nəqqaş Zeynal Zeynallı TÜRK sözünü böyük hərflər ilə yazdığıma göz yetirir, gülümsəyir. Bu gülüşdə bir irad varmı?

– Narahat olma! – deyirəm. – Bütün orfoqrafiya qaydalarını pozuban TÜRK sözünü daim böyük hərflər ilə yazmalıyıq. Çünki Türk qəhrəmanlıq və gözəllik deməkdir, bizi bütün fəlakətlərdən, silahsızlıqdan xilas edə biləcək qüvvətin ünvanıdır. Silahımızdır!

Vur-tut dördcə gün sonra mənə bəlli oldu ki, Milli Müdafiə Şuralarının yaradılması yuxarıların təşəbbüsüdür, fitnəkarlıqdır, 20 ocaq – yanvar 1990-cı il tarixli qırğına bəraət qazandırmaq üçün planlaşdırılmış cinayətin bir şaxəsidir.

… Saat 19 çağları. Şimali Azərbaycan Xalq Cəbhəsinin qərargahındayıq. Cəbhənin başçısı Əbülfəz Əlisoya diqqət kəsilmişik.

–İmperiya zülmətləri ərimәkdədir, – deyir. İndi millətin işığı gəlir. Arazın o tayında dayaq dəstələri yaranır. Ümid etmək olar ki, Güneylə Quzeyin birləşəcəyi gün uzaqda deyil. Məncə, Azərbaycan Milli Hərəkatı Dərbənddən Hindistanadək yayılacaq, bütün böyük Turan dünyasını bürüyəcək. İndi Şərqin hər guşəsində "Allah! Allah!" sədaları yüksəlir. Bu, Qorbaçovun iddia etdiyi kimi, İslam özülçülüyü deyilən, Azadlıq və haqq uğrundu mübarizənin sədalarıdır. Şimali Azərbaycan Xalq Cəbhəsi dağılmaqda olan SSRİ-nin türk-islam qüvvələrini birləşdirə bilsə, Şərqdə çox qüvvətli Azərbaycan dövləti yaranacaq. 250 miylonluq vahid, böyük Turan dövlətinin yaranmasına doğru aparacaq. Deyirlər ki, Xalq Cəbhəsinin sıralarında xalq rəhbərləri də var. Doğrudur. Amma biz buna əminik ki, Cəbhə getdikcə durulacaq, şəffaflanacaq və dəniz çör-

çöpü sahilə tullayan kimi, özünü təmizləyəcək. Varlı evləri talayanlar var, böyük amalı xırda məqsədlərə qurban vermək olmaz. Biz bütün evlərin varlanması, zənginləşməsi uğrunda çarpışmalıyıq. Həyəcana düşməməliyik. Gec-tez qələbə bizimdir. Biz haqqı və özümüzü qorumaq üçün mill ordumuzu yaratmalıyıq. Tanrı bir adama, yaxud millətə xoşbəxtlik vermək istədikdə onu sınağa çəkir. Sınaq çağlarındayıq. Tehranın, Təbrizin, Dərbəndin, Kazanın, Daşkəndin, Ankaranın, İstanbulun bütün türk-islam qüvvələrini birləşdirməliyik. Bunun üçün, əlbəttə, türk partiyalarının yaranması labüddür. Casus partiyaları tanıyan, tabuta qoyan da siz özünüz olmalısınız.

Azərbaycan nağıllarının birində tilsim qırmalı üç qardaşdan bəhs olunur. Tilsim qırx arşınlıq quyunun dibindədir.

– Yandım, çəkin! – deyə böyük qardaş quyu dibindən qışqırır. Çəkirlər.

– Yandım, çəkin! – deyə ortancıl qardaş da qışqırmalı olur. Çəkirlər

– Yandım! – desəm çəkməyin, mən ya ölməli, ya da tilsimi qırmalıyam.

Kiçik qardaşın bu diləkçəsini yerinə yetirirlər. Tilsim qırılır, bacıları div zindadından qurtulur. Azadlıq bizim yalnız bacımız deyil. Anamız və Sevgilimizdir. Azadlığı div zindanından, Qırmızı imperiyanın Kreml quyusundan xilas etməli və bu yolda türk nağılındakı kiçik qardaş olmalıyıq… İndi dövlət də razıdır ki, ermənilər Bakıdan çıxarılsınlar. Amma dinc yolla. Bizim türkazər qardaşlarımızı Ermənistandan, Xəlil Rza demişkən, klassik Azərbaycandan çıxaran ermənilərin vəhşi yolunu tutmaq bizim türk adımıza yaraşmaz. Türk adil və cəsur deməkdir. Ermənilə-

ri öldürənlərə, incidənlərə qarşı amansız ol, humanizmin tapdanmasına heç vədə yol vermə. Unutma ki, ermənilərin içində namuslu, vicdanlı adamlar da var. Onlar bizi dünyada tanıda bilərlər. Erməni murdarlığına qarşı özünü səkkizinci qatdan atan Petoyan kimi kişilər bütün bəşəriyyət üçün məşəldir, namus, vicdan etalonudur. Mən bu məsələlər barədə ayrıca məqalə də yazmışam. Abutalıbov apardı Moskvaya, yazıqlar ki, çap etdirə bilmədi. Mərkəzin demək olar ki, bütün qəzet, dərgi redaksiyalarında erməni barmağı var.

Metro tikintisi xadimi Qaçaq Hüseynli, Cəsarət Qulusoy, Fərman İsgəndərli çıxış edirlər. Evə qayıdıram. "Azadlıq" qəzetinin 14 ocaq 1990-cı il tarixli sayında Həsən Həsənlinin dəyərli bir məqaləsini oxuyuram. Məqalə məni düşüncələr dünyasına aparır. Düşüncələrimin məzmunu budur:

1. Kreml Qərbi və Şərqi Berlin arasındakı səddin götürülməsinə, Almaniyanın birləşməsinə qol qoyduğu halda, nədən Gülüstan (1813), Türkmənçay (1828) bağlaşmaları əsasında iki yerə, xeyli sonralar  bəlkə 200 yerə parçalanmış Azərbaycanın birləşdirilməsi söhbəti araya gələndə başını tutub qiyam qaldırır. Bütün türkazər yurdsevənlərini panislamçı, Pantürkçü damğası ilə damğalamağın yeni-yeni fəndlərini istehsal edir. Yerli MK-ya gətirdiyi manqurtları, robotları üstümüzə qısqırdır?

2. Ermənistandan, felən klassik Azərbaycandan 318 min türkazər rus avtomatlarının tətiyi altında qovulur, darmadağın edilir, dünyaya səpələnir. Yalnız bundan sonra Qorbaçov ilə Rıjkovun bəyanatı dərc olunur ki, adamları milli əlamətinə görə işdən çıxarmaq olmaz. Yəni Azərbaycandakı ermənilərə toxunmaq olmaz!

Ey fəndgir, əgər belə fikrin var idisə, əmrini türkazər qovulmamış verəydin. Niyə iş işdən keçəndən sonra verirsən? Çünki antitürk və antibəşərsən!

3. Bədnam SSRİ Nazirlər Sovetinin 6 mayıs 1989-cu il tarixli qərarı ilə Dağlıq Qarabağın iqtisadiyyatı Azərbaycan hökuməti ixtiyarından alınıb. Bəs bu alçaq qərar Azərbaycanın, suveren respublikanın daxili işlərinə qarışmaq deyil, nədir? Dağlıq Qarabağın ermənilər yaşayan hissəsi guya iqtisadi cəhətdən geri qaldığı üçün bura Ümumittifaq büdcəsindən milyardlar verilir. Türkazər hüquqlarının təminatı isə sıfıra endirilir. Elə bir zamanda endirilir ki, Bakının qaz kəməri Yerevana, Xankəndinə atəş və yanacaq daşıdığı halda, öz kəndlərimiz buna da möhtacdır. Şuşadakı mehmanxanada bircə ovuc su tapılmır ki, oyananda əlüzünü yuyasan, mütləq yuxarı qatdan birinciyə enməlisən, orada da su tapılmayanda bulağa, irmağa enməyə məcbursan.

4. Dağlıq Qarabağda Xüsusi Təşkilat Komitəsi kimin iradəsilə yaradılır ki, başçısı gah canavar (volk) sözü ilə həmahəng Volski olur, gah da Əfqanıstanda burnu əzilmiş Viktor Petroviç Polyaniçko?! Sonuc: MK bürosu satqındır. Kremlin nökəridir.

5. Şimali Azərbaycan Xalq Cəbhəsinin bayrağı altında Azadlıq meydanına gələn mitinqçilər soyuğa, aclığa, susuzluğa dözməyə razıdır, ləyaqətsizliyə yox! Buna görə casusları çıxmaq şərtilə onların hamısını bağrıma basıram, qardaşım bilirəm.

6. Keçən il 7 min vaqonu almadıq. Siyasi iqtisadi blokada içindəyik. Halbuki böylə çağlarda Dağlıq Qarabağın erməni dayaqlarına, Xankəndinə tikinti materialları pərdəsi altında silah yeridilir.

6. Bu gün Azərbaycandakı 300 min işsizə 318 min didərgin də əlavə olunmuşdur. Son üç ildə nə qədər adam, didərgin, qaçqın aclıqdan, susuzluqdan, biganəlikdən, yurdsuzluqdan qırılıb. Kəlbəcərin qarlı dağ keçidlərində, dərələrdə tökülüb qalıb. At və ulaq üstündə, yaralı olduğu halda pay-piyada gələnlərin, bəlkə ilk cocuğunu qaya altında doğan, iki daş arasında dəfn edən gəlinlərin sayını aparan varmı?

7. Ağdamı Şuşa ilə birləşdirən Ağa körpüsünün tikintisi başa çatdırılıb. Bəs niyə istifadəyə verilmir? Nə vaxtacan seçmə sərnişinlər örtülü hərbi maşınlarda gedib-gəlməlidirlər?

8. Susuz qalan Şuşada, Xocalı, Kərkicahan, Qubadlıda, Qazaxda onlarla kənd daşnakların daimi atəşi altındadır. Sov. İKP, daşnaksutyun, Qnçak partiyaları əslində beynəlxalq terrorçu "ASALA" təşkilatı ilə birlikdə eyni əjdahanın iki başı və iki qanlı pəncələridir.

# BEŞİNCİ GÜN, 19 OCAQ 1990, BAKI.

Mərkəzi Komitəni blokadaya almış əzəmətli insan dalğaları nə Filarmoniya önünə sığır, nə şərəfsiz "Kommunist" (İndiki İstiqlaliyyət – red.) adı daşıyan küçəyə, nə "Çkalov" (İndiki Niyazi – red.) küçəsinə, nə də Göz şəfaxanasının həndəvərinə. Mikrafonu idarə edən Ramiz adlı uca boylu, pəhləvan cüssəli, qarasaqqal, naxçıvanlı bir dəliqanlıdır. Mənə söz verir. Polkovnik şairimiz Ramiz Duyğun bəyin söz ala bilmədiyini və söz deməyə təşnə olduğunu görüb mikrafonu təntənəli biçimdə ona təqdim edirəm. Qəzəbli və müdrik çıxışından sonra erməni qəsbkarlarını ifşa edən kəsərli bir şerini oxuyur. Şer bir az uzadılsa da, izdihama yaxşı təsir bağışlayır. Mən çıxış edirəm. İslam dünyasının mənəvi çiçəklənməsindən, müzəffər yürüşündən qorxanların miskinliyini, Əfqanıstanı, İranı, İraqı, Türkiyəni, Ərəbistanı hədəf seçdiklərini xatırladıram.

Şimali Azərbaycan Xalq Cəbhəsi İdarə Heyətinin üzvləri Nəcəf Nəcəfli, Vurğun Əyyub, Kərbəlayı Əlikram, "Qeyrət" dərnəyinin başçısı, ADU öyrətməni Vəkil Məhəmməd çıxış edirlər. İstefa verməli Vəzirovun yerinə keçməli Həsən Həsənovun namizədliyini irəli sürürlər…

Ağdamdan gəlmiş yazıçımız Şahlar iddia edir ki, xalqını və özünü dərk etmiş Həsən kimi rəhbərlər çox iş görə bilər.

– Pərvərdigara! Özün bizi Azadlığa çatdır! – deyən Kərbəlayı Əlikram tarixdən misal çəkir.

Harun Ər-Rəşidin sarayı önündən keçən Bəhlul Danəndə görür ki, silahlılar saraya keşik çəkir. Sual edir ki, bu mehmanxananın qaravulunu çəkməkdə nədir məqsədiniz?

– Axmaq kişi, mehmanxana nədir? Biz saray keşikçiləriyik! – cavabını alır. Onu darta-darta Harun Ər-Rəşidin taxtı önünə gətirirlər. Dartışma yenidən başlanır.

– Axmaq kişi, sən nə ixtiyarla mənim günəşə söykənmiş qəsrimi, bu sarayımı mehmanxana adlandırırsan?

– Dinlə, görək kimdir axmaq? Qonşu bir məmləkətlə vuruşmuş olsan, təklənsən, susuzluqdan ciyərin kabab olanda bir nəfər əlində su dolu kasa sənə yanaşsa, şərt qoysa ki, şahlığının yarısını ver mənə, al bu suyu iç, şərtinə əməl edərsənmi?

– Əlbəttə, əməl edərəm! – deyir Harun Ər-Rəşid.

– Sancılansan, sancı içində qovrula-qovrula qalsan, bu məqamda bir nəfər sənə yanaşsa, "Şahlığının qalan yarısını da mənə ver, səni ölümdən qurtarım!" deyibən şərt kəssə, bu şərtə də əməl edərsənmi? – sorur Bəhlul Danəndə.

– Əlbəttə əməl edərəm!

– Bir halda ki,sənin bu boyda taxt-tacın bircə nəfəsə dəyməz, neçin zülm eləyirsən, nə üçün İmam Cəfər Sadiqin qanını tökməyə çalışırsan? Nə üçün yaddan çıxarırsan ki, sarayda yox, dünya dedikləri mehmanxanadasan?

Ağlı, qaralı saqqallı, türk sifəti nur saçan Kərbəlayı Əlikram nitqini ümumiləşdirir.

– Ölüm zülmkarlara!

Vurğun Əyyub bəyin hayqırışı eşidilir:

– Həyasız, qırmızı ordu Azərbaycana, Bakıya girsə, çıxmayacaq! Biləcəriyə, Binə aerolimanına, Şıxa gedin, ordunun şəhərə girməsinə yol verməyin!

Mikrafon ətrafında qayda-qanun yaratmağa çalışan Xalid bəy hayqırır:

– Burda toplaşmağın mənası yoxdur. Silahlı köşklərimizi qorumağa gedin!

Yanımda qaraqaş, qaragöz, dünya gözəli Bəturə xanım, gecəni burada, tonqal başında keçirdiyini bildirən Rima xanım, məni Milli Qurtuluş Partiyasına rəhbərlik etməyə çağıran Karrar Abil, mikrafonda hayqıran Dilarə xanım Əlisoy:

– Moskva, Kreml bizə yağı kəsilib. Həm Kremlin, həm də ona satılmış Bakı hakim dairələrinin basqısı altındayıq! 1987-ci ilin 23 avqustunda Daşnaksutyun partiyasının Afinada keçirdiyi qurultayında "Böyük Ermənistan" yaratmaq xülyasının nəqşəsini çəkmişdir. Buna xidmət edən ordunun qarşısını alın! Şəhərə girməsinə yol verməyin! Bakıya ordunu buraxmayacağıq! Vəzirov istefa verməlidi.

– İstefa! – deyə milyon yarımlıq izdiham nərildədi.

Yanımda dayanmış mavi gözlü Ənvər paşanın asta nitqindən anlayıram ki, Fransanın Strasburq şəhərində yerləşən və 17 dövləti özündə birləşdirən Avropa İqtisadi Birliyi bizə qarşıdır, ermənilərlə həmrəy olduqlarını bildirmişlər. Cenevrədə yerləşən Ümumdünya kilsə – xaç mərkəzi də eləcə.

Ənvər paşa və Hüseyn Muradoğlu bu xəbəri mənə vahimə içində yetirirlər.

– Xeyr! – deyibən onları ürəkləndirirəm.

Fəqət bu dünyada bir qanun da var,
Xəyanət nə qədər pərdələnsə də,
Onu, zülmət olub göydən ensə də,
Günəşin qüdrəti yerdə parçalar.

*Səməd Vurğun.*

Haqqın bir damlası güclüdür inan,
Ton-ton yalandan.

Qara saçlı, ağ üzlü şairimiz Sabir Rüstəmxanlı mikrafon qarşısında kədər və ləyaqət saçır:

– Kərbəlayı Əlikram kişinin nitqini dinlədikcə ürəyimdə ağladım, – deyir. – Göz yaşları, qan selləri, fikir baharı içindəydik. Bizi kökümüzdən ayrı salıblar. Köksümüzü arayırıq. Tapa bilməsək, budaqlarımız da quruyacaq. Meydanlarda əzəmətliyik, amma dağılıb evlərə çəkiləndə tək qalırıq. Müxtəlif didişmələr, xudbinlik, şöhrət, sərvət düşkünlüyü bizi didib parçalayır.

Natiq 1917-ci ildə şairimiz Əli Nazimin "Molla Nəsrəddin" dərgisində basılmış "Hürriyyət" şerini oxuyur. Verilən, paylanan hürriyyətdən buxaralıya, xivəliyə şapalaq düşür. Azərbaycan türklərinə təpik, erməniyə imperiya darğalığı. Dünyanın altıda bir hissəsini ən alçaq müstəmləkəyə çevirmiş qırmızı, sarı imperiyanın Azərbaycanı dünya müharibə meydanına çevirməyə çalışması, nəinki Azərbaycana, bəşəriyyətə, həmçinin rus xalqına da düşmən kəsilməsi natiqin ifşa qaynağıdır.

– Əsrin sonu azadlığa gedən yoldur. Nişanov Naxçıvana gəldi, getdi, ancaq xalqın mənliyini görə bilmədi. Xankəndinə üz qoydu. Təyyarədən enməyə qoymadılar. Şuşaya yan aldı və uçub Moskvaya qayıtdı. Moskva Azərbaycan türklərinin qanını tökənlərə, hadisələrə siyasi qiymət verə bilmir, bunu istəmir. İki ildir ki, Azərbaycanı qan dənizində boğmağa çalışır. Bu gün Azərbaycanda yeganə real qüvvə Şimali Azərbaycan Xalq Cəbhəsidir.

– Xalq Cəbhəsinin, "Azadlıq" və "Azərbaycan" qəzetlərinin ətrafında sıx birləşək! Naxçıvanda tikanlı məftillərin arxasından baxan Nişanov yalnız qəbristanı, "Gülüstan"

türbəsini gördü. "Azərbaycanlılar öz əzizlərinin məzarına baş çəkmək istəyirlər" dedi. Ey Nişanov, niyə sən o tayda, 23 milyonluq xalqı yox, yalnız qəbristanlığı görürsən? Niyə sən sərhəddi dağıdan, Ərdəbil telegüzgüsünə müsahibə verən Cəlilabad dəliqanlılarının nəyə can atdıqlarını görmək istəmirsən? Biz yalnız Gülüstan türbəsinə yox, xalqımızın vüsalına can atırıq. Qarşıda mədəni inqilabımız var. Bakıda yeni qanlar tökməyə hazırlaşırlar. 318 min didərgin biyabandadır. Amma onun düşmənləri ipək yorğan-döşəkdə ağnayırlar. Bakıda erməniyə əl qaldıranlar biz deyilik, yad təşkilatlardır. Türkü vəhşi kimi qələmə verməyə çalışanlardır. Onlar 20-30 nəfər ermənini öldürüb bizim üstümüzə hücuma keçməyə hazırlaşırlar. Cəmiyyəti fəlakətə aparan təkcə Vəzirov deyil, onun mənsub olduğu nökər partiya aparatının bürosudur. Qoy şərəfsiz Büro anlasın ki, Azərbaycanın gələcək rəhbərləri də satqınlıq yolu tutsa, gec-tez devriləcək.

Növbəti natiq Nemət Pənahlıdır:

– Köşklər ətrafında toplanmış keşikçilərimizə yardım edin ki, ordu şəhərə buraxılmasın! Mərkəzi Komitə süpürgəçisindən tutmuş katibinədək istefa verməlidir. Həsən Həsənov da!

Bu kimi natiqlərdən qan qoxusu gəlir. Üzülürəm. Yanımda dayanmış, əyni meşin pencəkli, buğdayısifət Hüseyn Muradoğluya və mavi gözlü Ənvər paşaya üz tuturam. – Gedək! – deyirəm. "Göstəbək" maşınımıza minib Hüseyn Muradoğlunun evinə gəlirik. Mustafa Sübhi küçəsi, altıncı dalan, ikinci mənzil. Divarda Hacı Zeynalabdin Tağıyevin və xalçada Nizami Gəncəvinin şəkilləri. Evin anası Nailə xanım, qızı Nuranə süfrəmizi bəzəyir.

– Moskvaya qaçmış əclaf Nersesdən satın aldığın evə girə bildinmi?

– Hələ yox! – deyir Hüseyn Muradoğlu.

– Bu gün həmən mənzilə mütləq girməliyik! Sabah gec olar. O əclafa nahaq yerə on min manat verdin. Beşcə min də bəsi idi. Yığışın gedəlim.

28 aprel (indiki 28 May – red.) küçəsindəki yeni ünvana gəlirik.

Mübarəkdir. Nizami kinoteatrı ilə üz-üzə. Telefonu da, şükür Tanrıya, sazdır, işləyir.

"Göstəbək" maşınımız məni evə yetirir. Gəlinim Sevinc telefonda şad xəbər verir: Cəlilabad və Astara tərəfdə Güney Azərbaycan türkləri sərhədi dağıtmışlar, Salyana çatıblar.

Dünyanın ən dəhşətli qanlı gecəsi başlanır. Telegüzgü işləmir. Hərbçilər partlatmışlar. Telegüzgü əməkdaşı uca boylu, pəhləvan cüssəli Babək telefonda məndən yardım istəyir

– Hərbçilər ilə atışırıq. Qüvvəmiz çox, silah isə lap azdır. Respublika Şəfa evinin yanındayıq. Şimali Azərbaycan Xalq Cəbhəsi qərargahı telefon zənglərinə heç bir cavab vermir. Silah gətirin. Mədəd, haray! Yoxsa bizi qıracaqlar!

Telefonda ikinci səs:

– Leytenant Şmidt (indiki Səttərxan – red.) zavodunun yanında atışma gedir. Qan tökülür.

## ŞƏNBƏ,
## 20 OCAQ, 1990, BAKI.

On doqquzundan 20-sinə keçən yanvar gecəsi heç vaxt unudulmayacaq, qırmızı və sarı imperializmin, Kremlə soxulmuş yırtıcıların alnında silinməz ləkə, qanlı damğa kimi yaşayacaq.

Telefonda tarixçi Şəfiqə xanımın səsi:

– Müsibət! Müsibət! Kaş öləydim, bu günü görməyəydim! Bakı isti qan gölləri içindədir. Meyitləri yığışdırmağa qoymurlar. Tökülən qanlardan heç kimin tükü də ürpənmir. Nolacaq bu müsibətin axırı? Top ağzına bağlayıblar Azərbaycanı! Nə pulemyot atəşilə ürək soyuyur, nə də Kalaşnikov avtomatının atəşilə. Zirehli BTR-lər meyit üstündən yeriyir. Heç bilirsənmi Maştağanı, Zığı necə qan dənizinə bürüyüblər! Bakı kəndlərinə divan tutublar. Semaşko (indiki Musa Nağıyev – red.) adına şəfaxanada, respublika xəstəxanasında nə çarpayı çatır, nə pambıq, nə tənzif…

Salyandan gəlmiş və dünəndən bəri Bakıda olan qardaşım Məhəmməd Rza içəri girir, qan ağlayır.Gözlərinə baxa bilmirəm.

– Mərkəzi Komitə önündə mitinq hələ də davam edir! – deyir. Anarı, Həsən Turabovu fitə basdılar. Əllərilə "YOX!" deyibən hamı rədd etdi, izdiham qəzəblə dalğalandı. Mikrafonçu izdihamı sakitləşdirə bilmədi.

– Mən deputat Anara yox, Yazıçılar İttifaqının başçısı Anara yox, yazıçı Anara söz verirəm! – dedi. – Dinləyin.

Anar deputatlıqdan, sədrlikdən boyun qaçırdığını, partiyadan imtina etdiyini bildirdi. Həsən Turabov da eləcə.

… Az-çox sağlam adamlardan qan alırlar. Mən də verdim qanımı…

Məhəmməd Rzanı Salyana yola salıram. Sonra üzünü tük basmış, dərd əlində yumağa dönmüş Zeynal Əvəz oğlu Zeynallı gəlir. Yanında papaqlı, paltolu ucaboy bir dəliqanlı.

– 13-14 yaşlı yeniyetmələrin qan gölü içində necə çabaladığını ömrüm boyu unuda bilməyəcəyəm! – deyir. – Çoxu da başından, sinəsindən güllələniblər. Partiya biletlərini cıranların, yandıranların sayı-hesabı yoxdur. Aman Allah, dağ boyda maşınları, Kam AZ-ları, UAZ-ları necə darmadağın eləyiblər, dönüb olub dəmir qutab!

Şairimiz Ramiz Duyğun və onu matəm rəngli qara maşında gətirən Ramiz İsgəndərli gəlib çıxırlar.

– Neçə min ölən, yaralanan var! – deyirlər. – Velikorus faşizmi indən belə bu torpaqda sakit davrana bilməz. Ayaqları altında torpaq od tutub yanmalıdır!

Kreml öz qanlı qətlini necə planlı, necə namərdcəsinə dürüst qurub. Həm Araz sərhəddi, həm də düşmənlə sərhədlərimiz boyunca Azərbaycan üçün qanlı divan hazırlanıb. Dişlərinəcən silahlı düşmən qarşısında Azərbaycanın adicə quş tüfəngini də əlindən almaq – məqsədin alçaqlığına baxın!

Dünən Mərkəzi Komitə qarşısındakı mitinqdən sənin necə getdiyindən xəbər tutmadım. Mən gecə saat 24-əcən qaldım.Etibar çıxış etdi. General buna xəbərdarlıq edibmiş ki, Sizə, Xalq Cəbhəsinə ikicə saat vaxt veririk.

XC adından Etibar nə desə yaxşıdır:

– Xot dayte odin ças. Poluçite otvetnıy udar!

Masamın üstündə iri şəkillər Çaykənd həndəvərində vertalyotdan açılan atəşlə öldürülən dəliqanlıların şəkilləri - qara saçlı, ağ üzlü Abasqulu Əzim oğlu Məmmədli (1965-1990), paqonlu, qara bığlı, ağ üzlü Bəxtiyar Nadir oğlu Əlisoy (1965-1990), qara bığlı, türk sifətli Ruzigar İmran oğlu Qasımlı (1956-1990), qara bığlı, ağ üzlü, qalstuklu Neman Əli oğlu Vəlisoy (1962-1990). Bu şəkilləri mənə kim verdi dünən, İlahi?!

Zəng edib Hüseyn Muradoğlundan əhval tuturam.

– Mərkəzi Komitə qarşısındakı mitinqdən indicə qayıtmışam! – deyir. – SSRİ xalq artisti Lütfiyar İmanlını hiddətlə qarşıladılar.

– Bəs hanı dünənki dostun? – Vəzirova işarə vurdular.

Söz altında qalmadı.

– Dünən dost idik, bu gün düşmən.

Vəkil Məhəmməd onu ittiham etdi:

– Sən burada dünən olmalı idin. Qanlı toydan sonra nağara çalmağa gəlmisən!

Hərbi xidmətdən qayıtmış onbeşlərin adından Şahin adlı dəliqanlı çıxış etdi. On beş nəfərdən indi üçü qalıb, qalanları həlak olub. Zirədə qadınları yaman qırdılar. 80 meyit üst-üstə qalanıb. Meyitlər sahiblərinə verilmir, dərhal basdırılır ki, sayı bilinməsin….

Qars müqaviləsinə əsasən Naxçıvan SSRİ-dən ayrılıb. Muxtar Respublika Ali Sovetinin sədri Səkinə Əliyeva xanım Həcər qəhrəmanlığı göstərib.

– Naxçıvanın ağ əli Azərbaycanın başına!

… Yazov burdadır. Qərargahları adı batmış 26-lar (indiki Səbayıl – red.) rayonunda yerləşir. Dörd tərəfdən tank,

top əhatəsindədirlər. M.S.Qorbaçovun bugünkü nitqi iyrəncdir. ABŞ bu iyrəncə həmrəy olduğunu bildirir. Münxen radiosunda Mirzə Xəzər, Bəxtiyar Vahab, Türkiyə, İran, İsrail dövlətləri Kreml cinayətkarlığını ifşa etmişlər. Salyan kazarmasında vuruş gedir.

# İKİNCİ GÜN, 23 OCAQ 1990, BAKI.

– Partiya biletlərini təhvil veririk, tələs! Partiya özəyi, büro ləğv edilir!

Telefonda dinlədiyim bizim akademiyanın Nizami institutunun əməkdaşı, solğun bənizli, içəridən qüdrətli Mayis Əlizadənin səsidir. Qubalı balası, türk sifətli Füzuli ilə birlikdə evdən çıxıram. Yolda Gənclər dostluğu küçəsində sürdüyü maşını kimsə bizim üçün saxlayır. Oğlum Təbrizdir. Ardımca gəldiyini bildirir.

– Kimindir maşın?

– Yiyəsi öldürülüb! – deyir. – On doqquzundan iyirmisinə keçən gecə. Biz yaralıları daşıyırdıq, maşının qana bulaşdığını onda gördüm. Baxın, dal pəncərəsi dağılıb.

– Bəs niyə maşını varisinə qaytarmamısan?

– Yoxdur evində. Texniki talon bir qadının adınadır. Tapa bilmirəm.

– Mütləq tap qaytar.

Akademiyanın önündə sağollaşırıq. Mayis Əlizadəni, zahirən solğun, içəridən qüdrətli gənc alimi görməyə macal tapmıram. Lift önündə rastıma çıxan mavi gözlü, türk sifətli Qurban Bayramlı, partiya özək katibimiz Arif bəy Səfisoy, çox keçmədən bizə qoşulan "Ala buludlar" romanının yaradıcısı Şahlar Həsənoğlu bildirirlər ki, hərbçilər tərəfindən mühasirəyə düşən Yazıçılar İttifaqı Akademiyanın "İsmailiyyə" binasında yığıncaq keçirir, orada olmaq daha vacibdir.

– Altı aydır üzvlük haqqı vermirsən, sən onsuz da par-

tiyadan çıxmış kimisən! – deyir Arif bəy, təbəssümünü hələ qasırğalara təslim etməmiş üzü tüklü arkardaşımız.

… Lağımda "Ala buludlar" romanının yaradıcısı, əslən ağdamlı, türk oğlu Şahlar bəyi dinləməyə macal tapıram.

– 1985-ci ildə bizim Xankəndindəki pedaqoji instituta Krasnodar tərəfdən Anastasyan adlı bir nəfər gəlib çıxdı! – deyir. – İlk cümləsi bu oldu ki, sizin kitabınız bağlandı. Ciddi sözümdür. Sizin Xankəndi həmişəlik, birdəfəlik Stepanakertə çevrildi.

Heyrətimizi görüb sözünü xırdalamağa başladı.

– Qorbaçovun anasının birinci əri erməni olub. Ondan boşanıb gedib rusa. Qorbaçov bu rusdan anadan olsa da qardaşı ermənidir. Bu qan qohumluğunu unuda bilməz. Heydər Əlirza oğlu Əliyevi mütləq çıxaracaq Siyasi Bürodan. Ondan sonra vay sizin halınıza!

Çox keçmədi əclaf Anastasyanın bu sözləri öz yerini tutdu.

… Akademiyanın "İsmailiyyə" binasında bizim Yazıçılar Birliyinin birinci katibi Anar bəy məclisi açır. Kədərli və qəzəblidir. İmtiyazlarından, deputatlığından, partiya biletindən və Yazarlar Birliyi katibliyindən imtina etdiyini bildirir. SSRİ Yazıçılar İttifaqına və qardaş respublikaların yazarlar birliyinə xitabən yazılmış mühüm bir sənədi diqqətimizə çatdırır.

– Hörmətli həmkarlarımız. Rus yazıçıları sırasında qələm dostlarımız az olmasa da, indən belə Azərbaycan Yazarlar Birliyi SSRİ Yazıçılar Birliyi tərkibində qala bilməz. Respublikamızın suverenliyinə qəsd edilmiş, Moskvanın, Kreml hökumətinin əmrilə sovet qoşunları Azərbaycana soxulmuş, Azərbaycan parlamentinin heç bir razılığı olmadığı halda Bakıya təpilmiş, 19 yanvardan 20-nə

keçən gecə bəşər tarixində misli görünməmiş cinayətlər törətməyə girişmişlər, sudan, qurudan – dörd tərəfdən Bakıya yeriyən zirehli tanklar, hərbi gəmilər, ən yeni çağdaş silahla yaraqlanmış yırtıcılar heç bir suçu və hadisədən xəbəri olmayan dinc əhalini, qocaları, cocuqları, qadınları, boylu gəlinləri güllə yağışına tutmuş, zirehli tırtılların altına atmış, nəhəng maşınları, avtobusları, UAZ, Kam AZ tipli mühərrikləri darmadağın etmiş, yastıladıb dəmir qutaba döndərmişlər. "Qurd ağzı qapıları"ndan ("Volçiye vorota" - red.), aerolimandan, Biləcəridən şəhərin üstünə atılan silahlı yırtıcıların İnşaatçılar prospektində, Tbilisi prospektində, Salyan kazarmasında, Gənlər Dostluğu küçəsində, Şmidt zavodu (İndiki Səttərxan - red.) həndəvərində, illah ki, Azərbaycan türklərinin sıx yaşadığı Maştağa, Hövsan, Zirə, Zığ, Türkan, Mərdəkan qəsəbə və kəndlərində, obalarında törətdikləri vəhşilikləri sözlə təsvir etmək mümkün deyildir. Azərbaycan türklərinin başına yağan yalnız güllə yağışı, gözyaşardıcı zəhərli qaz selləri deyil, həmçinin Moskvadan tutmuş ABŞ senatınadək qlobal dairədə radionun, telegüzgünün, gündəlik mətbuatın saçdığı yalan və böhtan qasırğalarıdır. Ən dəhşətli, həyasız, alçaq yalan və iftiralar velikorus şovinizminin rəsmi nümayəndəsi M.S.Qorbaçovun dilindən saçılmaqdadır. Onun dediyindən belə çıxır ki, silahlı Azərbaycan terrorçuları yazıq, fağır, dinc rus qoşunlarının üstünə atılmışlar. Zirehli tanklar yalnız bundan sonra atəş açmağa və guya Bakıdan qovulan rusları qorumağa məcbur olmuşdur.

Xəzər dənizindəki hərbi gəmidə əyləşmiş SSRİ Müdafiə Naziri Yazovun M.S.Qorbaçov ilə söhbətinin telefonoqramması bizim rabitəçilər tərəfindən ələ keçirilmişdir.

– Все работы идут по плану. Трудно с морем!

Yazov əclafın dilindən çıxan ikinci cümlənin anlamı odur ki, meyitləri yandırmaqda, ayaqlarına daş bağlayıb Nargin adası həndəvərində 1937-38-ci illərdə olduğu kimi batırmaqda çətinlik çəkirik.

Cinayətin birinci gecəsi tərkibində ermənilər olan rus sovet qoşunları, təxminən 30-35 yaşlı təcrübəli canilər, başlıca olaraq Əfqanıstanda burnu əzilib gələnlər hitlerçilərin görə bilmədikləri cinayətlərə meydan vermiş, yaşayış binalarının hətta doqquzuncu qatını atəşə tutmuşlar. İçiləndən sonra şüşəsi kənara atılan erməni konyakı, papirosları çəkiləndən sonra fırladılan boş qutular – erməni siqaretləri cinayətin köklərini dürüst nişan vermirmi? Cinayət ərəfəsində əsgərlər içirdilmiş, kefli-kefli döyüşə atılmışlar. Avtomat yağışından sonra onların həyasızcasına çəkdiyi qəhqəhələr hələ də bakılıların o sırada bizim rəssam-heykəltəraş arkadaşımız Zeynal Əvəz oğlu Zeynallının qulaqlarında səslənir. Hücuma keçən əsgərləri hərbi psixoz havasına atmaq üçün zabitlər onların ardınca atəş açmışdılar. Atəş açanlar guya Azərbaycan döyüşçüləridir. Cinayətin və həyasızlığın hansı qata qalxdığını Azərbaycan SSR Ali Sovetinin 21-22 yanvar 1990-cı il tarixli fasiləsiz sessiyasında tibb elmləri doktoru, professor Nurəddin Rzanın çıxışından aydın bilmək olar. O deyirdi:

– Müharibə qanunlarına görə, sanitar maşınları, tibb işçiləri toxunulmazdırlar. Ancaq Bakıya soxulmuş qatillər bu qanuna əsla məhəl qoymadan dörd sanitar maşınını darmadağın etmiş, şəfqət bacısını və həkimi güllələmişlər.

Xəyallarımdan ayrılıb Anara diqqət edirəm. Rusca oxuduğu mətndə "besçnstvo" sözünü qavramağa çalışır, özüm üçün tərcümə edirəm: qudurğanlıq, azğınlıq. Yox, bu epitetlər Bakıya soxulmuş "SA" paqonlu sovet qoşunlarının

cinayətlər miqyasını tam qapsaya bilmir. Anarımızın dilində "qosudarstvennoye prestupleniye" ifadəsi səslənir. Bu, dürüst anlayışdır. Natiqin dilində "попираниие конститутции" anlayışı səslənir. Bu anlayış da dəqiqdir. Zireli tankların dəmir, polad tırtılı yalnız günahsız qocaları, gəncləri, boylu gəlinləri, ağ saçlı qadınları yox, həm də SSRİ və Azərbaycan konstitusiyasının ən mühüm maddələrini, hümanizmi basıb keçmişdir.

Anarın dilində "SSRİ-nin sərhəd zolağı məgər Bakıdan keçir?" cümləsi eşidilir. Bu, M.S.Qorbaçova cavabdır. Onun iqrarına görə, sovet qoşunları Azərbaycana İran və Türkiyə ilə dövlət sərhədələrini qorumağa gəlmişlər. Həyasızlığın dərəcəsinə baxın! Maştağa əhlini tank altına alanlar sovet sərhəddini qoruyurmuş!

Anarın dilində "İslam respublikası" ifadəsi eşidilir. SSRİ-nin türk respublikaları ünvanına deyilən bu ifadədə də Qorbaçovun, daha doğrusu bu anlayışı onun ağzına atan erməni daşnaklarının və xarici qaragüruhundur. Guya başda Azərbaycan olmaqla İslam respublikası yaradanlar var!

Fərqanədən Qdlyan mafiyası tərəfindən qovulan Mesheti türklərinə qarşı cinayətin səbəblərini guya izah etməyə çalışan M.S. Qorbaçovun dilində həyasızcasına işlənən "İslam özülçülüyü" ifadəsinin dəhşətli bir iftira olduğunu necə yada salmayasan? Azərbaycanın qeyrətli, cəsur oğlu. "Yeni Müsavat" partiyasının yaradıcısı Mansur Əlisoy (indi o haradasa yaralı yatır) şahiddir ki, biz Bakı məscidlərini nə gündə görmüşük. Künclərini hörümçək toru basmış, şüşəsiz pəncərələri taxtalanmış Nizami metrosunun yanındakı Cümə məscidi "Azkonsert" adlanan təşkilatın ixtiyarına verilmiş, erməni ustaları təmiri nəticəsində xaraba qoyulmuş, günbəzi sökülmüş, mina və kaşıları, incə

naxışları qazılıb yerə tökülmüş, sirk üçün nəzərdə tutulduğu halda at tövləsi səviyyəsinə endirilmişdir. Hüsü Hacıyev küçəsində Yazıçılar evi ilə üz-üzə dayanan Molla Qasım məscidi qovluqlar və mühasibat dəftərlərilə yüklü elə bir təşkilatın ixtiyarına verilmişdir ki, tualeti də bu müqəddəs məkanda yerləşdirməyi vacib saymışdır. Budurmu islam özülçülüyü? Hanı böyük dini ədəbiyyatımız? Hanı ortada Ləli, Qumri, Dəxil, Raci kimi klassik ustadlarımızın əsərləri? Hanı islam tarixinə dair az-çox mükəmməl bircə kitabımız? Hanı dini-elmi ədəbiyyat nəşr edəsi bircə mətbəəmiz, nəşriyyatımız? Bu barədə xəyalları belə şumlayan, az qala yasaq edən, iki ayağını bir başmağa, ateizm mövqeyinə dirəmiş sovet hökumətinin lideri M.S. Qorbaçov hansı fakta əsasən bizi islam özülçüsü, islam respublikası memarı sayır və bu memarlara qarşı qanlı hücuma meydan verir?

Anarımızın dilində "verolomno", "kovarno" ifadələri səslənir. Bunlar Bakıya donuz burnu soxmuşların şərəfinə və şərəfsizliyinə dair dürüst epitetlərdir, tərzi-hərəkət zərflikləridir.

Anarın dilində sərrast səslənən "qosudarstvennıy terrorizm", "polnıy krax perestroyki", "nasiliye", "litsemeriye" ifadələrini unutmaq mümkündürmü? Axı bunlar gözümüzün önündəcə baş vermiş, evlərimizi silkələmiş, qan sıçrantıları qapılarımıza, pəncərələrimizə təpilmiş cinayətin ürəkləri xırpalayan, beyinləri şumlayan əks-sədasıdır!

– Уважаемые коллеги! Это наша объшяя трагедия! – sözləri yaddaşımda həmişəlik həkk olunur. Əlbəttə, aydındır ki, indən belə Moskvada qərar tutmuş SSRİ Yazıçılar İttifaqının tərkibində qala bilmərik, yenidən təşkil olunac-

aq Azərbaycan Yazarlar Birliyi özünü suveren elan edir.

Bədəncə çəlimsiz görünsə də, ruhən güclü şairimiz, Münxen radiosu ilə qanlı qətli dünyaya car çəkmiş, Kremldə yuvalanmış caniləri ifşa və rüsvay etmiş Bəxtiyar Vahabzadə söz kürsüsünə qalxır, mətni bəyəndiyini bildirir, xəstəxanaya aparılan xəstənin əlinə dəymiş güllədən, həkimin də yaralanmasından Bakıdan rusların çıxarılması zərurəti haqqında şayiə yayan hərbi komendant, general-mayor V.S.Dubinyak cənablarının fitnəkarlığından danışır.

– Bu alçaq provakasiyanı qızışdıranların məqsədi bizə bəllidir! – deyir. – Onlar bu fənd ilə tökdükləri günahsız qanlara bəraət qazandırmağa çalışır, türkazər millətinin ruslara qarşı millətçilik mövqeyində dayandıqlarını əsaslandırmağa çalışırlar. Provakasiya yaradıcıları Azərbaycan türklərini qırmaqla yetinmir, üstəlik onların üstünə çamır atmağa cəhd edirlər. Keçməyəcək. Bizim düşmənimiz rus deyil, rusun özünü zəlil vəziyyətinə salan böyük dövlət şovinizmidir! Quldarlıq və qəsbkarlıq diktaturasıdır. Biz nəinki rusa, yəhudiyə, heç erməniyə qarşı da heç vaxt ədavət bəsləməmişik, yalnız qəsbkarlığa, yalnız antihumanizmə qarşı nifrət bəsləmişik.

– Yalnız SSRİ yazıçılarına yox, həm də dünya yazıçılarına üz tutaq!

Bəxtiyarımızın bu təşəbbüsü bəyənilir. Qarşıda zahirən və daxilən səfərbər, müdrik, cəsur Elçinimiz görünür. Saçlarına düşən dən xeyli çoxalıb. Məhəbbət və qəzəb nuru içindədir.

– Vaxt itirməyək! – deyir. – Bu məktubu teleqram şəklində yola salaq! Siz məşğul olun, mən getdim!

"Azərbaycan" qəzetini gözəl dərc etdiyi və ürəklərdən

tikan çıxardığı üçün getdikcə daha güclü ümumxalq məhəbbəti qazanmış şair, publisist, redaktor Sabir Rüstəmxanlını dinləyirik:

– Təəssüf ki, mətni Elçin Əfəndi apardı. Orada mütləq cinayət sözü işlənməli idi. Məgər Azərbaycan hökumətinin rus ordusunu respublikamıza dəvət etməsi ən böyük cinayət deyilmi?

Yerdən səs:

– Rus ordusunu bura dəvət qılan Azərbaycan hökuməti deyil, Azərbaycan Kommunist Partiyasının lideri Əbdürrəhman Xəlil oğlu Vəzirovdur.

– Bəli, bu cinayətdə MK katiblərinin barmağı var. Onlar bu cinayətin baş verəcəyini hələ yanvarın 13-də bilmişlər. Ailələrini təhlükəsiz yerlərə köçürmüşlər. Azərbaycanın köhnə rəhbərləri başdan-başa xəyanətkarlardır. Akademiyadan başlamış haralaracan Milli Müdafiə şurası yapanlar da, mitinqləri qızışdıranlar da onlardır. Guya Azərbaycan elə bir vəcd məqamına gəlib çatmışdır ki, daha onu idarə etmək mümkün deyil, rus ordusunun dəvət olunması vacibdir! Alçaqlığın dərəcəsinə baxın! Bununla belə rus ordusunun Bakıya, Gəncəyə dəvətinə dair heç bir rəsmi sənəd yoxdur. Mən Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində, Nazirlər Sovetində, Ali Sovetdə işləyən rəhbər xadimlərin istinasız olaraq hamısının məhkəməyə, divana çəkilməsini tələb edirəm. Hansı təmizsə qoy özünü qorusun!

Yeni rəhbərlər yalnız və yalnız Moskva hökumətinin qanlı cinayətini pisləyənlər, onun üzünə tüpürməyi bacaranlar içindən seçilməlidir! Cinayətə bəraət qazandıranlar ümumxalq nifrətilə damğalanmalıdır!

– Unutmayalım ki, İran və Türkiyə ilə Azərbaycan sər-

hədlərinin qapadılması, hərbi baxımdan möhkəmləndirilməsi Azərbaycan televiziyasının partladılması ilə eyni vaxta düşür. Bu, cinayətə qarşı üsyan püskürəcək, xalqın səsini boğmaq üçün nəzərdə tutulub. Qoy fəryadına heç kəs gələ bilməsin!

Qara saçlı, ağ üzlü, Peyğəmbər sənətkarımız İsa Hüseynov Muğanna söz kürsüsündə görünür, Rüstəmxanlının çıxışını bəyənmədiyini bildirir, dənizə tökdürülən meyitlərin saysız-hesabsız olduğundan danışır, Azərbaycana qarşı qızışdırılan etnik qruplardan bəhs açmaq istərkən salondakılardan bəzilərinin etirazı ilə qarşılaşır:

– Mən lahıcam! Ancaq Azərbaycan uğrunda döyüşlərin qaynarındayam!

Bu, qara saçlı, ağ üzlü şairimiz Maarif Soltan bəyin səsidir.

Adını öyrənməyə macal tapmadığım bir rəssam çıxış edir, cinayəti damğalayır. Solğun bənizli gözəl tənqidçi filoloq Gülrux Əlibəylini dinləyirik. Qarşılaşanda arabir mən ona "Gülruh" da deyirəm. Sənin ruhun güldür, Gülruh xanım! Bu gün belə zarafatların, təəssüf ki, yeri deyil. "Prestupnıy Qorbaçov" ifadəsinin mətnə salınmasını tələb edir.

– Partiya biletini geri qaytaranlar içində tərəddüd edənlər var! – deyir. – Neyləməli, şərəfsiz partiyadan çıxmadan başqa əlacımız yoxdur. Mən istərdim ki, ikiləşənlərin tərəddüdü uzun çəkməsin, qoy onlar qan tökən partiyadan üz döndərsinlər. Xalqın, haqqın tərəfinə keçsinlər!

Yazarlar birliyində partiya özəyinin katibi, Nadir Cabbarlı bu gün ciddi və sərtdir. Sarı çalarlı qırmızı imperiyanın sarsıldığı, fəqət hələ ölmədiyi çağlarda yaralı gürzə kimi qıvrıldığını, ətrafındakıları dəhşətlə çaldığını bildirir və

elan edir ki, bu gündən belə bizim partya bürosu öz fəaliyyətini dayandırır. Çünki kommunistlərin hamısı öz kommunistliyindən boyun qaçırmış, partiya biletlərini təhvil vermişlər.

Mən çıxış edirəm. Gülüstan (1813), Türkmənçay (1828) bağlaşmalarının antihumanist mahiyyəti, rus çarlığı və velikorus şovinizminin son iki əsrdə törətdiyi fəsadlar, fitnələr, "Ayır, buyur!" siyasəti, həzm edə bilmək üçün yalnız bir hissəsini qopardığı məmləkətdə, Şimali Azərbaycanda bərqərar etdiyi sümürgə sistemi, İrəvan mahalını, Zəngibasarı, Arpaçay vadisini, Zəngəzuru, Altunkəndi (Krasnoselski), Dilicanı, Allahverdi rayonunu, Qafanı, Basarkeçəri, ümumən Göycə vilayətini bizdən alıb ermənilərın ağzına atması, Qazax, Gədəbəy, Tovuz, Laçın, Kəlbəcər, Naxçıvan, Ordubad torpaqlarını, meşələrini, yaylaqlarını, bulaqlarını, biçənəklərini zaman-zaman bizdən alması, milli satqınların əlilə Ermənistana qatması, Şaumyan, Mikoyan, Mirzoyan, Beriya, Stalin, Orconokidze, Yejov, Jdanov, Suslov, Qvam üs-Səltənə, Xruşşov, Vəzirov kimi zədəli şəxsiyyətlərin adı ilə fəlakətləri və son iki ildə M.S.Qorbaçov, Reyqan, Buş, Tetçer, Mitteran blokunun törətdiyi cinayətlər kompleksini nəfəsimdən od kimi püskürməyə macal tapmıram. "Şer oxuma!" deyə Qabilimiz mane olsa da, "Mixail Sergeyeviç Qorbaçova" adlı şerimi tələsik oxuyuram. Ağ saçlı alim, şərqşünas, professor Mübariz Əlizadə:

– Bu qanlı cinayətin yanında Hitler az qala üzü ağdır! – deyir. – Mən və mənim mənsub olduğum nəsil qırx il kor olmuşuq. Yaxşı ki, bu qanlı günlər bizi ayıltdı, gözlərimizdən korluq pərdəsini qaldırdı. Bu gündən KP-dən azadam!

64 yaşına əlvida desə də, saçları hələ qara qalmış, ol-

duqca saf, məğrur, səmimi və qüdrətli şairimiz Qabil söz kürsüsündə boy göstərir:

– Vəzirov və onun dövrəsində quyruq bulayanlar xalqın mühakiməsinə verilməlidir! – deyir. "Kommunist" adlı qəzet çıxmamalıdır. Rus xalqına hörmətimiz var. Lakin ruslaşma kursu götürənlər bizim daimi ifşa obyektimiz olmalıdır!

"Gənclik" dərgisini döyüş səngərinə çevirməyi bacarmış redaktor şairimiz Məmməd İsmayıl təklif etdi ki, nümayəndələrimiz Moskvaya və qardaş respublikaların paytaxtına getsin. Cinayəti aşkarlasınlar.

Saçları, hətta, bığları vaxtsız ağarmış Yusif Səmədoğlu ona cavab verir ki, bizimkilər yola düşmüş və özləri ilə cinayət sənədləri, videokasetlər aparmışlar. Litva M.S.Qorbaçovu lənətləyir. Sıralarımız təmizlənməli, kommunist qalmamalıdır!

Qara saçlarına hələ indi-indi dən düşən, buğdayısifət, həbəş dodaqlı qocaman sənətkarımız İsmayıl Şıxlı kürsüdədir. Necə təmkinli danışır. Heyranam.

– Mən Böyük vətən müharibəsi iştirakçısıyam, – deyir. – Bir sıra cəbhələrdə və Almaniyada olmuşam, heç yanda vəhşiliyin, həyasızlığın, cinayətin bu mərtəbəsini görməmişəm. Ali Sovetin 21-22 yanvar tarixli son sessiyasında oldum. Bütün deputatlar və deputat olmayanlar suverenliyimizi namərdcəsinə tapdalayanları, Bakıda günahsız insanların qanı üstündə meyitlər sərgisi açanları ifşa və rüsvay etdilər. M.S.Qorbaçovu lənətlədilər. Lakin bu azdır. Biz cinayətkarları beynəlxalq məhkəməyə verməliyik!

Dünən Biləcəri yanında evləri, dinc adamları yenə atəşə tutmuşlar. Dövlət Təhlükəsizlik Komitəsinə zəng et-

dim. Havaya atəş açıldığını bildirdilər. Yalandır. 71 yaşlı qadın süfrə başında həlak edilmişdir. Dörd nəfər yaralı düşüb. Radio, televiziya dondurulub. Mətbuat yoxdur. Qəzet redaktorlarından tələb edirlər ki, insanları tırtılı altına alan tankları xalqın guya gətirdiyi tər çiçəklər əhatəsində versin. 1988-ci ilin dekabrında belə bir cəfəngiyyata yol verilmişdi. Sadəlövhlər, axmaqlar tankın top lüləsinə gül dəstələri qoymuşdular. İsa Hüseyn əbəs hirsləndi. Rüstəmxanlı düz deyir ki, ilk canilər sapı özümüzdən olan baltalardır. Bir neçə gün bundan irəli Primakov, Girenko, Vəzirov dinlədib bizi. Primakov ağayana şəkildə izah etdi ki, Bakıda fövqəladə vəziyyətin elanını tələb edən Yerevanın 300 minlik mitinq iştirakçılarıdır. Moskvanın fabrik və zavodlarıdır. Yalan informasiyalar əsasında quraşdırılmış antihumanizmə, cinayətlərə qarşı mübarizə yolları aparmalıyıq. Partiya biletlərimiz yandırılmalı – deyənlər çoxdur. Yox, partiyadan mütəşəkkil çıxmalıyıq. 45 ildir ki, KP üzvüyəm. Mənə yalnız bu günlərdə bəlli oldu ki, bu SS, partiyasından daha dəhşətli kor qüvvədir.

Məndən düz 30 yaş gənc olan qara saçlı, ağ üzlü İrfan Murad Yıldırım bəyi dinləyirik. İzmir Universitetinin öyrətmənidir. Azərbaycanşünasdır. – Böyük türk xalqı adından sizə baş sağlığı verirəm – deyir . – Çox təəssüf ki, Bakıya ilk gəlişimdə Azərbaycan türklərinə qarşı soyqırım ilə qarşılaşdım. Böyük kədərimi, üzüntülərimi bildirir, cinayətə qarşı protest edirəm.

– Proçtite, pojalyusta, svoy tekst, Aleksandr Qriç!

Yığıncağın sədri Anarın bu təklifini yerinə yetirən qara bağlı, ağbəniz şair Aleksandr Qriç ruslara, yəhudilərə və türkazər olmayan başqa millətlərə qarşı provakasiya təşki-

latçılarını ifşa və rüsvay edən müraciətnaməni oxuyur. "Bratya, sestrı!" xitabı ilə başlanın bu sənəd 1990-cı ilin 19-20 ocaq (yanvar) ayrıcında baş vermiş cinayətin ordu tərəfindən necə yerinə yetirildiyini açıqlayır. Rusların, yəhudilərin və başqa millətlərin nümayəndələri üçün də doğma, əziz olan Bakını xaraba qoyanları ittiham edir, bundan bir həftə öncə baş vermiş ixtişaşın da fitnəkarlıq olduğunu bildirir. Azərbaycan Respublikasının suverenliyini tapdalayanları divana çəkdiyini bəyan edir.

Qaraqaş, qaragöz, ucaboylu gənc şairimiz Nəriman Qasımoğlu ilk cərgədəki yerindən ayağa qalxır, söz kürsüsünə çıxmadan hayqırır ki, partiyadan çıxanların siyahısını xalqa elan edək!

Sifətini tük basmış mükəddər şairimiz Ağamalı Sadiq söz istəyir:

– Daha böyük təhlükə irəlidədir! – deyir. – Bizə adicə təbliğatçı yox, həqiqət təşnələri gərəkdir ki, Kremlin bu alçaq siyasətini ifşa edə bilək, respublikalara və xaricə əldə sənədlə gedək.

Anar bu fikri təsdiqləyir. Yaslı evlərə, şəfaxanalara getməyin, pul və qan verməyin zəruriliyini yada salır.

Ağarmağa üz qoyan saçları, nurani çöhrəsi şölə verən alim-tənqidçimiz Kamil Vəlisoyu dinləyirik. Xəyanətkar Vəzirov siyasətinin hələ də davam etdirildiyini bildirir.

– Türkiyə prezidenti Turqut Ozal demişdir ki, dada yetmək üçün Azərbaycan hökuməti bizə heç bir müraciət etməmişdir. Xəyanətkarlara təslim və iflic olmuş Azərbaycan hökumətini buna məcbur etməliyik... Azərbaycan silahsızdır. Onu silahlı kimi qələmə verənlər yaratdı bu şəhidlər sərgisini! Qanımıza susamış velikorus şovnizminin əli-

nə dəstavuz və bəhanə verdilər.

"Qobustan" dərgisinin əməkdaşı, alim və şair, türksifətli dəliqanlı Azər Abdulla kişini dinləyirik:

– Minlərcə qurban verdikdən sonra ayılmağımız, KP-dən çıxmağımız gecdir! – deyir. – Azərbaycandan və Dağlıq Qarabağdan son erməni çıxıncayadək tətil yapaq, işə çıxmayaq!

Ağ saçlı Şamo Arif qarşıda boy göstərir:

– Atam Süleyman Rəhimov partiya sıralarına Lenin çağırışı ilə gəlmişdi. – deyir. – KP kitabçasını əzizləyib saxlayırdım. Bu günlərdə iki bileti birdən təhvil verdim. Ən qatı faşist də bu cür cəlladlıq etməyib. Əsir düşən əfqanları kommunistlərin necə güllələdiklərini eşitmişdim, indi öz gözümlə gördüm dinc xalqın necə güllələndiyini! İlk konsdüşərgəni V.İ.Lenin yaradıb. 1988-ci ilin dekabrında Bakı küçələrində nərildəyən tankların qarşısına ilk çıxan, qollarını gərən mənim qızım olub. KP-dən çıxmaq azdır, onu rüsvay etməliyik!

Adını dürüst eşidə bilmədiyim qara bığlı, ağ üzlü dəliqanlı D. Əzizovu dinləyirəm:

– Moskva hökumətinə üz tutmağın mənası yoxdur! - deyir. - Yerli hökumətimiz də iflicdir. BMT-yə, Qırmızı Xaç Cəmiyyətinə, Qızıl Aypara Cəmiyyətinə üz tutmalıyıq.

Keçən ilin ortalarında Bakı tətillərinə, mitinqlərinə ilk və güclü təkan vermiş, birinci olaraq partiyadan bütün müqavimətləri qıra-qıra çıxmış mavi gözlü, türk sifətli, açıq alınlı Sirusmu qarşıdakı natiq? Yox, onun qardaşı Çingiz Zindani kişidir. İki il Əfqanıstanda işlədiyini, ali partiya məktəbi müdavimi olduğunu bildirir, şəraiti dərk et-

məyə, dürüst qiymətləndirməyə, dostu, düşməni dəqiq ayırd etməyə, döyüş üsulları tapmağa çağırır.

– DTK-ya yazmışam ki, Viktor Petroviç Polyaniçko canidir. Dünən əlləri əfqan qanına bulaşmışdı, bu gün türkazər qanına! İlan ölməzdən öncə sancmağa can atır. Qırmızı, sarı imperiya da belədir. Demirəm rusu göz üstündə saxla. Ancaq alçaq bəhanələrə yol verməmək üçün rusu qoru, qovulmasına imkan vermə! Toqquşmanı özləri təşkil edirlər. Onlara ölü saldat gərəkdir ki, ölümü bizim boynumuza yıxsınlar. Qırğına bəhanə tapsınlar.

Şimali Azərbaycan Xalq Cəbhəsi İdarə Heyətinin üzvü Dilarə xanım Əlisoyu dinləyirik.

– Akademiyada başlanan və Bakıya yayılan Milli Müdafiə Şuraları Mərkəzi Komitənin öz əlilə yaradılıb, – deyir. – Fitnəkarlıqmış. Fitnəçiləri aşkarlayıb ifşa etməliyik.

Bizim qadınların hüququnu qoruyan cəmiyyətin fəaliyyətini Türkiyədə çıxan "Tərcüman" qəzeti az-çox işıqlandırıb. İstanbulun, ümumən türk dünyasının bizə həmrəy olması yaxşıdır, amma azdır. Həmrəyliyimizin işə çevrilməsi hələ az görünür. Türkiyə türkləri bizə qan verməyə, maddi yardım göstərməyə hazır olduqlarını bildirirlər. Təəssüf ki, Sovet səfirliyi bunu qəbul etmir. Əslində səfirlikdən başqa münasibət gözləmək çətindir. Dağlıq Qarabağa Yardım Komitəsi bu günlərdə dadımıza yetməlidir, yas düşən evlərə yağ, qənd, ət, çay göndərmək vacibdir.

Ağ saçlı sənətkarımız Bayram Bayramlı belə bir yardıma hazır olduğunu, bunun üçün yarım milyon manat ayrılmasına sərəncam verdiyini bildirir:

– Partiya bileti cibimizdə olduğu üçün xalq bizə inanmır! – deyir. – Buna görə tezliklə KP sıralarını elə tərk et-

məliyik ki, bu partiya havadan asılı qalsın, Vəzirov xəyanətini davam etdirən tapılmasın, tapılsa da, ayağı yerdən üzülsün. Milli müdafiə komitələrinin fitnəkarlıq olduğunu mən Rüstəmxanlıya demişdim. Mükafat, orden, medal, imtiyazlar biz yazıçılara və ziyalılara dövlət tərəfindən rüşvət verilib. Gec olsa da bu xəyanət əqrəblərini yaxamızdan, boynumuzdan çıxarıb atmalıyıq.

Atın, imtina edin! Tankların lüləsi bizim hamımıza tuşlanıb. Silahsızıq. Fitnə törədənləri cilovlayın. "Azərbaycan" qəzeti qanlı bir nömrədə sizin bu çıxışlarınızın hamısını çap edəcək. Elə işləyək ki, güllə bizə dəysə də, balalarımıza dəyməsin! Adı batmış 26-lar meydanından şərəfsiz abidələri çıxarıb ataq, onu müsibətlər meydanı adlandıraq, orada şəhidlərimizə abidə qoyaq! Ermənilərə Dağlıq Qarabağ muxtariyyəti vermək üçün 1923-cü il ərəfəsində yüzlərcə türkazərin qanını tökmüş, panislamçı, pantürkçü damğası ilə ləkələmiş, ləkələndirilmiş ən gözəl ziyalılarımızın ölümünə qol çəkmiş Sergey Mironoviç Kirovun zülmət heykəli yəqin ki, hökumətin öz əlilə devriləcək, götürüləcək. Bundan sonra oranı Şəhidlər xiyabanı adlandıraq.

… Şəhərimizdə səhiyyə, nəqliyyat, su və qaz kəmərinin fəaliyyəti pozulub. Ayrıca qrup yaratmalıyıq ki, xalq ilə hökumət arasında körpü olsun, bu işləri səhmana salsın.

– Bayram müəllim, deyirlər Qarabağa Yardım Komitəsi qidalanmaq üçün orduya yardım fondu ayırıb?!

– Yalandır! Onu ancaq iftiraçılar deyə bilər. Belə bir alçaq fond mənim yalnız meyitimin üstündən keçə bilər.

"Ulduz" dərgisinin redaktoru, şairimiz Abbas Abdulla ayağa qalxır:

– 106 kommunist ilə birlikdə büromuzun ləğvi müsbət hadisədir! – deyir. – Mən əminəm ki, bu təmizlənmə bütün Azərbaycanı bürüyəcək və bizə nicat işığı gətirəcək. Sabir Rüstəmxanlı tam dürüst deyir ki, Mərkəzi Komitəyə, Nazirlər Sovetinə, Ali Şuraya soxulmuş xainləri, satqınları, fərariləri ifşa etməliyik. Qorbaçov, Yazov, Vəzirov başda olmaqla onların hamısını beynəlxalq məhkəməyə verməliyik!

Anarı dinləyirik:

– 1987-ci ilin iyul ayında məni Yazarlar Birliyinə birinci katib seçdiniz. Aradan keçən müddət ərzində bu etimadı doğrultmağa çalışdım. Lakin Bakıda 20 Yanvar 1990-cı il tarixli qanlı faciə, inanın ki, məni sarsıtmışdır. Xahişim budur ki, məni həm katiblikdən, həm də rəyasət heyətindən azad edin! İmtiyazlarımdan, deputatlığımdan da əl çəkdiyimi səmimi başa düşün. Qərarımda qətiyəm. Kimsə iradəmi sarsıda bilməz!

Ağ saçları, ağ bığları, nurani sifəti şölə verən Yusif bəy Səmədoğlunu yenidən dinləyirik:

– Müstəqil Azərbaycan Yazıçılar Birliyi mədəniyyətimiz tarixində yeni və yüksək mərhələ olmalıdır! – deyir. – Qoy Anar istefa verməyə tələsməsin. Ola bilsin ki, rəyasət heyəti onu yenidən seçəcək.

Anar:

– Heç bir inzibati işdə qalmaq istəmirəm! – deyir. – Xalqıma yalnız qələmimlə xidmət etmək istəyirəm.

– Salyan kazarmasında atışmadır. Əlac!

Qara bığlı, həbəş dodaqlı İsmayıl Şıxlı yenidən ayağa qalxır:

– Başsızlığa yol verməyək! SSRİ deputatlığından imtina

etmək meydanı boş qoymaqdır. Buna sənin haqqın yoxdur. Katiblikdən imtina edə bilməzsən, əksinə, təşkilatı gücləndirməyə borclusan. Sənə səlahiyyət verək, katibləri özün yenidən seç.

Ağ saçlı Abbas Zamanlı ayağa qalxır:

– Anarı bir yaşından tanıyıram! – deyir. – Heç vaxt hissiyata qapılmayıb. Amma bu gün hissiyyat axınları içərisindədir. Getməsi fərarilik olardı.

# İKİNCİ GÜN, 23 OCAQ 1990, BAKI.

Telefonda tarixçi müəllimə Şəfiqə xanım Sərxan qızı Şəfisoyu dinləyirəm. Hıçqırır. Göz yaşlarını, hönkürtüsünü ürəyimin başında hiss edirəm. Əsli Füzuli rayonunun Xalaclı kəndindəndir.

– Sinəmizə dağ çəkdilər! – deyir. – Ən gözəl oğullarımızı, ən ülvi qəhrəman qızlarımızı əlimizdən adılar. Yerində bir ovuc kül qaldı. Cəmiyyətimizin qaymağı getdi, dürdanəsi getdi. Mənim rəfiqəm Dilarə Kərimli Qubadlıdan idi. Sabir adına pedaqoji məktəbdə riyaziyyatdan dərs deyirdi. Murdar raykom katibi Marqarita Əşrəfovnanı dönə-dönə ifşa etmişdi, divara söykəmişdi. Babam Məşədi Mahmud kişini Stalin rejiminin nökərləri güllələtdirib. Elə atamı da! Dilarə Xalq Cəbhəsinə yardım üçün beş yüz manat yığmışdı. On manat verən müəllimləri qınayırdı:

– Axı Vətən olmayandan sonra ev-eşik, güzəran sizin nəyinizə gərəkdir?!

Mən brilyant üzüyümü 500 manata satdım, o da hərəsi yüz manat dəyərində dörd istiqrazını dəyişdi. Yığılan pulları üst-tüstə qoydu ki, Xalq Cəbhəsi üçün silah alsın, buna macal tapmasa, Xalq Cəbhəsi fonduna keçirsin! Əri Fəxrəddin Kərimli riyaziyyatçıdır, Bakı Maliyyə-Kredit texnikumunda dərs deyirdi. Mən dünyada bu qədər gözəl, ülvi ailə görməmişdim. Oğlu Moskvada ali məktəb bitirib gəlmişdi. Faciə gecəsi telefonda qışqırdı ki, bizi qırırlar. Bizi günəbaxan tumu kimi çırtlayırlar. Od içindəyik. Mən vuruşa gedirəm!

– Atma uşaqları tankın altına! Biz silahsızıq, köməksizik! – dedim.

Baxmadı sözümə. Salyan kazarması dairəsində yaşayırdı. Kazarmanın külü də qalmayıb cahanda. Tbilisi prospektini görürsənmi nə gündədir: tankların tırtılı şərəfsiz heykəlin kənarındakı qraniti dağıdıb, gülüstanı şumlayıb, nəhəng maşınları alıb altına, muma döndərib. Kam AZ, UAZ damğalı maşınlar tank tırtılı altında dəmir qutaba çevrilib. Adamların qanı daş asfaltı al boyayıb. Səkilərin kənarındakı daşlar kömürə dönüb. Dağım-dağım pəncərələri dərhal təmir edirlər ki, cinayəti maskalasınlar. Gözü qızmış, beyni odlanmış hərbçilərin qudurğanlığı görün hansı mərtəbəyə qalxıb ki, güllələri doqquzuncu mərtəbəni dağıdıb. Qan göllərinin ətrafına indi qərənfillər düzüblər. Oğlum Rövşən Sumqayıtda yaşayır. Hərbi müəllimdir. Qan ağlayır:

– Heç kimi qaçıra bilmədim! – deyir. – Hamımızı qırdılar. İlki təzəcə anadan olub. Atamızın adını körpəyə vermişik – Sərxan!

Dünən səhər saat altıda gedib Dağüstü parkda qəbir qazmağa, gecə gəlib evə palçıq içində, gil içində. Ac-susuz, üzünü tük basıb, ikicə gündə qocalıb.

– Niyə özünü bu günə qoyursan? – deyirəm. – Axı sənin balan var!

– Bəs o şəhidlərin balası yoxdur? – deyir. – Külə dönmüş Dilarə xanımdan mənim nəyim artıqdır?

"Şaxsey" içindəyik. Xalq Cəbhəsi niyə bu faciəni öncə görmədi, görə bilmədi? Meyitləri yandırdılar. Bəs biz neyləyək? Alçaq Qorbaçovdan necə öc alaq? Daşnaklar bayram içindədirlər. Qanımızdan əllərinə xına qoyublar. Qorbaçov vəhşilikdə Hitleri kölgədə qoydu. Kommunist qul-

durları qırmaqda haqlı imiş Hitler. Bəşəriyyət onu anlamadı. Anasının bic balası Qorbaçov ən gözəl övladlarımızı külə döndərdi. Dərdimi deməyə söz tapmıram!

# BEŞİNCİ GÜN, 26 OCAQ 1990, BAKI.

Həyat bizə dəyişməz bir şərt ilə verilib.
Onu son qırpımınadək cəsarətlə qorumalı!
*DİKKENS*

Bakı dizəcən qan içindədir. Torpağa tapşırdığımız Qara yanvar şəhidlərinin məzarı başında hələ qərənfillər solmamış, Azərbaycanın dürlü guşələrindən – Naxçıvandan, Lənkərandan, Astaradan, Neftçaladan, Arazboyu sərhədlərimizin sökülən məftilləri arasından yaman xəbərlər gəlir. İki gün bundan irəli Bakı-Sumqayıt yolunda həlak olmuş üç alimin – professor İbrahim İsmayıl oğlu İbrahimovun (1928), İsmayıl Həsən oğlu Mursaqulovun (1939) və professor Svetlana xanım Məmmədovanın (1939) akademiyadan götürüləcək cənazələrini yola salmaq üçün evdən çıxıram, çantamı götürüb iş yerimə gəlirəm. Qəzəbli və qüdrətliyəm. "Qanlı cəllad Mixail Sergeyeviç Qorbaçova" şerimi oxumaq üçün fürsət gəzirəm. Şer çantamdadır. Mən haradan biləydim ki, bu gün özümlə birlikdə çantam da, şerim də həbs olunacaq. Mən haradan biləydim ki, Bakıda az ala son günümdür, Bakıya və doğmalarıma həsrət qalacam. Bilsəydim, Firəngizimin gözlərindən öpərdim. Türkayımı bağrıma basardım. Pəhləvan cüssəli Təbrizim, Sevincim və Rzamla şəkil çəkdirərdim. Rüstəmimlə sağollaşardım.

… Akademiyanın dəyirmi salonunda. Rəyasət Heyətinə yaxın mövqedə yer tuturam. Çox keçmədən matəm mitinqi başlanır. Çiçəklərlə bəzənmiş tabutlar qarşısında ayaq üstə, başı açıq dayanmış uca boylu Fərəməz Maqsudov,

Günəş alınlı Yaşar Qarayev, solğun sifətli Bəxtiyar Vahabzadə, Turan dünyasının ulduzu saydığımız Oljas Süleymenov və başqa alimlər sükut içindədirlər.

– Bir həftədir Bakıdayam. Mən bura yalnız Azərbaycan millətinin dostu kimi yox, həm də SSRİ Ali Sovetinin deputatı sifətilə gəlmişəm. Baş vermiş hadisələri öyrənməliyik. XX əsrin qurtarhaqurtarında, bəşər sivilizasiyasının bəlkə ən yüksək inkişaf mərhələsinə qalxdığı çağlarda Bakının, Azərbaycanın al qanına bələdilməsi, heç bir suçu olmayan ağsaqqalların, ağbirçəklərin, qızların, gəlinlərin, çocuqların və yeniyetmələrin güllə yağışına tutulması, alimlərin tank altına verilməsi, şəksiz böyük cinayətdir, tarixdə misli az görünmüş, bəlkə heç görünməmiş vəhşilikdir. Bu gün biz Azərbaycanın üç dəyərli övladını, üç böyük alimi – Svetlana xanımı, İbrahim bəyi, İsmayıl kişini canlarından çox sevdikləri Vətən torpağına tapşıracağıq. Onların üçü də elmin, mədəniyyətin, çiçəklənən insan zəkasının timsalı idilər. Bu böyük itkilərə, ağır qurbanlara dözmək, davam gətirmək nə qədər çətin olsa da, yalnız bununla təsəlli tapırıq ki, bu xalqın ləyaqətini, idrak gücünü tank tırtılları altına atmaq mümkün deyil. Azərbaycan milləti dünya mədəniyyəti xəzinəsinə özünün layiqli töhfəsini vermiş millətdir, tutduğu Azadlıq, Müstəqillik yolundan onu geri qaytarmaq mümkün olmayacaq.

Oljas Süleymenovun müdrik nitqi yanan ürəklərə beş-on damla şeh çiləyir.

… Matəm izdihamı Nərimanov prospektinə (indiki Hüseyn Cavid prospekti – red.) və şəhərə sığmır. Bir həftə bundan irəli avtomatların, pulemyotların güllə yağmuruna tutulmuş, tank tırtılları və zirehli maşınlar altında qalmış 170 mərhumun, 700-dən çox yaralının qızıl qanı Bakı

küçələrindən, tüstülənən Salyan kazarmasından, şumlanan Binə yolundan, darmadağın edilmiş Hövsan həndəvərindən, maşın təkərlərindən, divarlardan, həkim xalatlarından hələ silinməyib. Bəşər cəlladlarına – Qorbaçov, Yazov, Kryuçkov, Girenko, Barannikov kimi qırmızı imperiya xadimlərinə, onların yerli nökərlərinə qarşı xalq nifrəti, xalq qəzəbi sonsuzdur. Bakını ayağa qaldırıb Şəhidlər xiyabanına doğru aparan da kədərin, qəzəbin, hiddətin sonsuzluğudur.

Mən rəssam və naxış ustası, dostum Zeynal Zeynallının maşınındayam. Ağsaqqal atası da burdadır. Doğma rayonlarına, Füzuliyə getməyə hazırlaşırlar. Ürəyimə nəsə damır. Üşürgələnirəm. Bəlkə mən də gedim Füzuliyə?! Telefonda şair arkadaşım Məstan Günərin dedikləri düşür yada: "Saqqalını qırxıb qaç. Canilərdən uzaqlaş".

… Bakı Şəhidlər xiyabanına sığmır. Aman Tanrı, nə qədər güldəstə, qərənfil gətiriblər! Qabaq-qənşər dayanan insan cərgələridir, ya qərənfil sıraları. Yaxınlar, doğmalar gözə çarpır: Ədilə, Nübar, Zərifə, Könül, Sərvinaz, Dilarə, Naibə xanımlar. Bir çoxları öpür məni. Mən isə irəli can atıram. Taxta körpü üstündə quraşdırılmış mikrafona doğru!

… Nitqim hər tərəfdə aydın eşidilir. Gülüstan (1813), Türkmənçay (1828) bağlaşmalarından üzü bəri gələn tarixi vərəqləyirəm. Ağ və qırmızı imperiyanın törətdiyi cinayətlər diqqətimdədir.

… Şerimi sonadək oxumağa macal tapmıram.

Qarasaqqal, şivərək bir dəliqanlı arxadan mənə yanaşır:

– Tuthatut başlanıb. Çıx aradan.

Əhəmiyyət vermirəm, şeri oxumaqda davam edirəm.

İkinci dəfə yanaşır:

– Vəziyyət təhlükəlidir. Mütləq çıx aradan!

– Yoldaşlar! Məndən asılı olmayan səbəblərə görə şeri yarımçıq qoyuram.

Taxta körpüdən aşağı enir, qabaq-qənşər dayanmış cərgələr arasından keçirəm. Yenə yaxınlar, doğmalar ilə göz görüşü, səssiz salamlaşmalar. On bir övlad anası olsa da, gənc qalmış Ədilə xanımın əlini yenidən sıxıram. Meydanda uğuruma dostum, qüdrətli aktyorumuz Mikayıl Mirzə çıxır. Üzünü saqqal basıb. Rejissor Rafiq Atakişi də onun qırmızı "Jiquli"sindədir.

– Gedəkmi?

– Gedəlim!

"Gənclik" metrosuna çatanda dostlar siqaret almaq fikrinə düşürlər. Maşından enirik. Və bu halda bizi bircə qırpımdaca qamarlayırlar. Mülki paltar geyinmiş, əli tapançalı beş nəfər bizi yaxalayıb yaxındakı RAF maşınına yükləyir.

– Silahın varmı?

– Var!

– Hanı?

– Mən özüm silaham!

Tapancasını gözlərimizə tuşladıqları halda, başımızı balaca, darısqal avtobusun təkinə doğru əyməyə məcbur edirlər.

– O yoldaşa imkan verin! Ürəyi xəstədir. Nəfəssizliyə dözməz!

Mikayılımız bununla rejissor qardaşımız Rafiq bəyə işarə vurur. Sözünü saya salan kimdir? Rafiqimizin başını bir az da aşağı basırlar ki, kənardan baxanlar görməsinlər.

Əlvida, "Gənclər meydanı!" Əlvida, bizim küçəmizə yaxın yerlər… Şəhidlər xiyabanına gəlib çatanda başımızı

bir az da aşağı basırlar ki, matəm sükutuna qərq olmuş qəzəbli izdiham bizi əsla görə bilməsin. Ali Sovet arxada qaldı. DTK-nın yeni binası. Yəqin ki, bizi buranın zindanına gətirirlər. Vur-tut iki, üç həftə bundan əvvəl DTK ətrafında yapdığımız əzəmətli piket, rəis müavini İlhüseyndən tələblərimiz düşür yada:

– 70 ildir ki, DTK-da daşnaklar yuva salıb. Üstəlik daşnak südü əmənlər, qırmızılar. Təmizləyin DTK-nı murdarlardan.

Bəlkə də adım qara siyahıya həmən gün salınıb… Hansı mərtəbədə olduğumuzu bilmirəm. Püskürən yanar dağa bənzər Mikayılımız bizi gətirən silahlılardan su istəyir, mən ondan bir "tüstü". Danışmağımıza izn verilmir. Və çox keçmədən bizi ayrı salırlar. Tualeti də içində olan darısqal, kirli və üfunətli bir kameradayam. Aşağıda ensiz, dəmir bir çarpayı. Yuxarıda səmanın bir parçasını göstərən dəmir şəbəkə, içəridə xeyli ağcaqanad.

Üstünə yalnız quru döşək atılmış çarpayıda, əllərimi başımın altında daraqlayıb uzanmışam. Ac, susuz və yorğunam. Məni müstəntiqin görüşünə aparırlar. Orta yaşlarında, mavi gözlü, qızıl saçlı bir rusdur. Əl uzadır:

– Mixail İliç Boytsov!

– Xəlil Rza Ulutürk!

– Əyləşin. Siz SSRİ Baş Prokurorunun müavini Abramov yoldaşın əmri əsasında dustaq edilibsiniz. Azərbaycan SSR Prosessual Cinayət Məcəlləsinin 67-ci maddəsilə ittiham olunursunuz!

– Nədir bu maddənin məğzi?

– Milli ədavəti qızışdırmaq!

– Gülüncdür və məndən milyon kilometr uzaqdır bu maddə. Mən Böyük Azərbaycan Türk şairi Xəlil Rzayam

və bütün ömrüm boyu bəşəriyyətin, planetin, günəşin vahidliyini oxucularıma nişan vermişəm. Dünyanın 300-dən çox şairini Azərbaycan türkcəsinə tərcümə etmişəm. Günəşə ləkə yaxmaq təşəbbüsünüz hədərdir. Milli ədavəti qızışdıran mən deyiləm, ağ və qırmızı imperiyanı yaşadanlardır, Birinci Pyotrun, quduz Pyotrun, Yırtıcı Pyotrun vəsiyyətini yerinə yetirənlərdir, velikorus şovinizmini təmsil edən Abramovlar və onların nökərləridir. Bizim böyük sərkərdəmiz və şairimiz Şah İsmayıl Xətai dövründə Azərbaycanın sahəsi olub iki milyon 800 min kvadrat kilometr. Bu gün isə Azərbaycanın sahəsi vur-tut 86,7 min kvadrat kilometrdən ibarətdir. Bu o deməkdir ki, son iki yüz ildə Azərbaycanın sahəsi 32 dəfə kiçildilib. Bəs deyilmi? Ayıb deyilmi? İrəvan xanlığını ləğv etdiniz, atdınız erməninin ağzına. Göyçə mahalını qapdınız, atdınız ermənininin ağzına. Zəngəzuru tutdunuz, atdınız ermənininin ağzına.. Dərbəndi ələ keçirdiniz, atdınız RSFSR-in boğazına! Bəs deyilmi? Ayıb deyilmi?

Siz dövlət DTK dediyiniz bu qanlı mağarada heç bilsəniz bəşəriyyətin Hüseyn Cavid, Mikayıl Müşfiq, Seyid Hüseyn, Yusif Vəzir Çəmənzəminli, Əhməd Cavad, Əlirza kimi nə qədər ən dəyərli, ən istedadlı, ən cəsur oğullarını məhv etmisiniz, qırmızı imperiya adlanan cütbaşlı əjdahanın ağzına atmısınız! Fikir verin, başınızın üstündəki Lenin şəklinin altında divar çatdayıb. Halbuki sarayınız təzədir. Əsrin ildırımıdır o şırımı açan! Əsrin qasırğası, əsrin zəlzələsidir bu qanlı mağaraları silkələyən! 70 ildən çoxdur ki, SSRİ Dövlət Təhlükəsizlik Komitəsi və ölkədə onun 15 filialı felən bəşəriyyət, planet üçün ən böyük təhlükədir. Yalnız təhlükə yox, cinayətlər mağarası! Qoy bu sizi bir rus kimi düşündürsün!

– Da, mı doljnı zadumatsya kak mladşiy brat…

Sağa. Səs gələn tərəfə qanrılıb baxıram. Bu cümlə bizdən bir az kənarda əyləşmiş "bala" müstəntiqindir. Dərhal anlayıram ki, ruslara daim "mladşiy brat" ifadəsi mənimdir, meydanlarda çox demişəm. Görünür, nitqlərimin qaytanı əllərindədir. Afərin DTK! Dürüst işləyən aparatdır.

– Yorulmuşuq. Bəlkə 67-ci maddəyə münasibətinizi bildirəsiniz. İmza atın. Təhqiqat sənədini müstəntiqdən alıb ittihamın qarşısında aydın xətt ilə yazıram

– Kateqoriçeski otritsayu. Xalil Rza Uluturk.

# ŞƏNBƏ,
# 27 OCAQ 1990, BAKI.

Nə yumruğumda zireh, nə gözümdə göz yaşı,
Barmaqlıqdan görünür Savalanın ağ başı.
Qocaman bir dustağam, bəlkə tarixlə yaşıd,
Dayanmışam zindanda Xaqanilə yanaşı.

Təkadamlıq kameramda, ensiz çarpayımda, yorğansız döşək üstündə uzanmışam. Gecə saat iki çağları… Dəmir qapı cingilti ilə açılır və içəri girən silahlının ilk cümləsi səslənir:

– Qalx, gedirik. Qaçsan, güllələyəcəyəm!

Həyətə enirik. Burada maskalı maşın bizi gözləyir. Sağ qolumdan, sol qolumdan tutanlar maşina qısa pilləkən vasitəsilə çıxmağıma yardım edirlər. Banın dörd küncündə əli batareyalı dörd silahlı əyləşib. Mən kabinəyə yaxın mövqedəyəm. Dörd batareya işığı dünyanın və maskalı maşınımızın zülmətini gizlədə bilmir. Qanlı qar və qanlı buz üstündə irəliləyən maşının zəncirli təkərləri haray qoparır. Dilini ağzından çıxarıb ləhləyən hərbi iti batareya işığında aydın görürəm və başa düşürəm ki, "Qaçsan güllələyəcəyəm" ifadəsi əbəs deyilməyib. Hara gedirik, ilahi? Bəlkə dustaq məkanımı dəyişirlər? Bəlkə Qobustan, yaxud Xələc dustaq düşərgəsinə aparırlar?! Haraya gedirik, ilahi? Bəlkə Bakının onuncu həbs düşərgəsinə. Bir vaxt ora düstaqlar ilə görüşə getmişəm. Qanlı qar, qanlı buz üstündə sürüşən, xırçıldayan təkərlərin ağır zəncirləri səslənir. Çovğunu, qanlı qasırğaları yara-yara gedirik. Maşının qara brezent örtüyü şappıldayır, hərbi köpək ləhləyir, köpəkdən daha vahiməli silahlılar əhatəsində irəliləyirəm.

Ustad Molla Pənah Vaqif düşür yada:

Müxtəsər kim, böylə dünyadan gərək etmək həzər,
Ondan ötrü kim, deyildir öz yerində xeyrü şər.
Alilər xaki məzəll ətdə, dənilər mötəbər.
Sahibi zərdə kərəm yoxdur, kərəm əhlində zər,
İşlənən işlərdə ehkamü ləyaqət görmədim.

Mən dəniləri, alçaqları heç vaxt mötəbər saymamışam, zər, qızıl sahiblərini də eləcə. Ən pis vaxtda belə dünyadan həzər etməmişəm.

… Təyyarələrin uğultusundan, gurultusundan anlayıram ki, aerolimana gəlmişik. Aha, deməli, Moskvaya uçuruq… Silahlılar yenə yardım edirlər. Maşından enən kimi trapa ayaq basır və yuxarı qalxıram. Moskvaya haçan çatdığımızı bilmirəm. İki saat qırx dəqiqəlik yol mənim üçün beş, on dəqiqə kimi gəlib keçir. Çünki şer yazmaqla məşğulam. Günlər, həftələr, aylar dolanacaq. Moskva, Rostov, Voronej, Bakı zindanlarında günlərimin də necə gəlib keçdiyindən xəbər tutmayacam. Çünki şer yazmaqla, qəzet, kitab oxumaqla məşğulam. Sən nə böyük möcüzəsən, ey yaradıcı qüdrət! Sən necə əzəmətli xilaskarsan, ey zülmət gecələrimə işıq salan Poeziya məşəli!

… Dan yeri söküləndə Moskvanın Şeremetyevo uçaq alanına çatırıq. Günaydın, Moskva! Günaydın, gəncliyimin oylağı! Salam, çiyinlərinə qar qonmuş kitirgəli şamlar. Qardan, şamlardan süzülən ətirli, soyuq havanı acgözlüklə uduram. Maşındayıq. Soyadını indicə öyrəndiyim Solovyov gəldiyimizi Lefortovo zindanı rəisinə xəbər verir, əlbəttə, ratsiya ilə. Çox keçmədən iqamətgahımıza çatırıq. Silahlı Solovyov məni SSRİ DTK-sının dünya şöhrətli Lefortovo zindanına təhvil verir.

– Soyunun!

– Əlvida, kostyumum, papağım!

Hamamda, isti duş altında yuyunub dustaq paltarı geyinirəm. Kameradaşım Vladimir Mixayloviç Komuxin ilə tanış oluram. 1945 doğumlu, mavi gözlü, sarışın bir oğuldur. Məni yedirir, içirir, nəvaziş göstərir.

– Təcridxana rəisi podpolkovnik Yuli Daniloviç Rastvorov sizi gözləyir.

Konvoy qarşısında (biri öndə, digəri arxada) onun görüşünə gedirəm. Ucaboy, daz rəis məni davranış qaydaları ilə tanış edir. Robotdur. Yenə ustad Hüseyn Cavid düşür yada:

Dinləməz kimsə qəlbi, vicdanı,
Məhv edən haqlı, məhv olan haqsız.
Başçıdır xəlqə bir yığın cani,
Həp münafiq, şərəfsiz, əxlaqsız
("Peyğəmbər")

## BAZAR, 28 OCAQ 1990,
## MOSKVA, LEFORTOVO ZİNDANI.

İlk səhərim açılır bizim dustaq evində. Ona görə bizim deyirəm ki, Şimali Azərbaycan Xalq Cəbhəsi liderlərindən biri Etibar Məmmədlinin də həbsə alındığını "Pravda" qəzetində oxumuşam. Günlər, həftələr keçəcək. Öyrənəcəm ki, burada Azərbaycandan altı nəfərik. Saçları şabalıd rənginə çalan, uca boylu, türk sifətli Şəki balası Rəhim Qazi də buradadır. Piketlərdə "Allahu əkbər!" deyə haray çəkən, "Mən Milli Qurtuluş Partiyası adından danışıram!" söyləyibən hayqıran ağ üzlü, qarasaqqal Seyid Tahir Abbas Qarabaği də, az danışan, qaya kimi sərt, müdrik alim, dönməz yurdsevər Məhəmməd Hatəmi Tantəkin də, buğdayısifət mətin inqilabçı Məmməd Əlizadə də.

Ünvanımız Moskva, Energetika küçəsi, 3a, SSRİ DTKsının təhqiqat şöbəsi, 29-cu oda.

Kameramızın uzunluğu beş arşın, eni üç arşın, əlçatmaz tavanı qoşa lampalı, dəmir qapısının üstündə gözcüyü, qəbul qapağı, zəngi, işıq düyməsi, barmaqlıq dalında pəncərəsi. İki masası, üç dəmir çarpayısı, divar qutusu, özünə görə səliqə-səhmanı lap balaca bir otaqdır. Davranış qaydaları lövhəsi başımız üstündə ipdən asılıb.

Səhər saat altıda dəmir qapının qəbul qapağını açıb "Qalx" deyə hayqırırlar.

– Gəzintiyə hazırlaşırıq.

– Mənə elə gəlir ki, bağa-baxçaya, yaxud ən azı geniş bir sahəyə çıxacağıq, yox, sən demə gəzinti guşəmiz də elə kameramız boyda imiş. Divarları buz bağlayıb. Divar-

lar qırmızı kərpic ilə hörülüb, sement-beton suvaq vurulub.

Volodyanı dinləyirəm:

– Bu dustaq evi dörd qatlıdır. "K" hərfi biçimindədir. Çariça II Yekaterina tərəfindən zabitlər üçün tikdirilib. Divarı Kremlin divarı ilə eyni kərpicdəndir. Moskva, Peterburq məhbəsləri Rusiyanın ən qüdrətli oğullarını "bəsləyib" öz ağuşunda. Dahi Soljenitsın yatıb burada. Kosmik gəmilər kəşfiyyatçısı Sergey Korolyov yatıb. Səhnəmizin günəşi Georgi Jjenov yatıb bəlkə sənin çarpayında. Bu yaxınlarda "Pravda" qazetində məqaləsi verilmişdi. Deyir:

– İki balıq tutan kəndçiyə beş il, on il iş kəsilir. Milyard manatları udan nazirə isə töhmət verməklə yetinirlər.

Gəzintidən qayıdırıq. Ağ xalatlı, mavi gözlü həkim Viktor Fyodoroviç dəmir qapımızın qəbul otağını açır, diabetdən qorunmaq üçün mənə həb verir. Dabanımdakı çatları sağaltmaq üçün "Belina" mazı verəcəyini vəd edirsə də, yerinə yetirmir. Kameradaşım Vladimir Mixayloviç Komixin mənə örnək göstərir, otaq növbətçiliyini boynuna götürür, döşəməni yaş əski ilə silir. Öyrənirəm ki, qadını Anna Fyodorovna özündən iki yaş gəncdir (1947). İki qızları var. 21 yaşlı Lena müəllimədir, 19 yaşlı Svetlana şəfqət bacısı.

– Son görüşdə az qala tanımadım onları. Qızlar gəlib çatıb gəlin həddinə. Annam isə gəncləşib. Mən Moskva yaxınlığında texniki materiallar hazırlayan zavodun direktoru olmuşam. Raket hissələri də hazırlamışıq. Xaricilər ilə xəlvət danışıqda ittiham olunmuşam. Onlar mənə videomaqnitofon bağışlayıb. Bu, rüşvət kimi qələmə verilib. Halbuki 1500 manat əvəzinə 3000 manat vermişəm.

Sosializm cildinə girmiş Qırmızı imperiyanın öz istis-

marçı təbiətini, fəryad qoparan içəri zidiyyətlərini getdikcə daha çox aşkarlaması, Ukrayna, Özbəkistan, Azərbaycan kimi varlı respublikaların vəhşicəsinə sümürülməsi, zəhmətkeş təbəqələrin az qala dilənçi kökünə salınması, şəxslərin iqtisadi zənginliyinə yol verilməməsi mütləq hərbi üstünlüyə canatma stixiyası, donuz burnunu Əfqanıstana soxmuş sovet qoşunlarının yalnız 1988-ci ildə çıxarılması SSRİ-dəki 40 milyon işsiz, ağlar, dilənçilər, baraklarda gecələyənlər atmosferin, suyun, torpağın, bitkilərin zəhərlənməsi Bakıda 20 Ocaq 1990-cı il tarixli qlobal cinayətdən, faciədən sonra poqonlarını cıran zabitlərin mənəvi üsyanı, milli dartışmalar, zəhmətlərimizin cövhərinə çevrilir.

– Səhiyyə məntəqəsinə!

Poqonlarında 3 ulduz daşıyan baş proporşik məni kameradan çıxarıb üçüncü qata yönəldir. Uzunsov sifətli, uzunkirpikli Mariyanın göstərişi ilə ağ divana uzanıram. Köksümə, ayaqlarıma maz çəkir, kardioqram deyilən uzun naqilli aparatı quraşdırır, kardioqram çıxarır… Qolumu rezin ilə sıxır, qan təzyiqimi ölçür…

...Qayıdıram. Əynimizi, odamızı yoxlamağa iki nəfər gəlir. Dəhşətdir. Qəndin, yağın, tütünün, şahmat fiqurlarının, kitabın, dəftərin, şalvarın, köynəyin… hər şeyin çölünü, içərisini, bükümlərini, altını-üstünü yoxlayırlar. Gizlədilən heç nə yoxdur ki? Qoy yoxlasınlar. Onların da ruzusu bundan çıxır.

# XÜSUSİ TƏYYARƏDƏ

Al, birinci məktubum
Ərmağanımdır sənə.
Canım, gözüm Firəngiz,
Şölə düşsün çöhrənə.
Gətirdi bəxtim mənim
Geri qalmadım əsla
Nə Məhəmməd Hadidən,
Nə dili boğazından
Çıxarılmış qardaşım
Böyük Fərrux Yəzdidən.

Keçdim… kirpiklərimi
Qarsalayan alovdan.
Geri qalmadım əsla
Nə mərd Soljenitsından,
Nə Sergey Korolyovdan.

Qanadları bükülməz
Bir qüdrət məni aldı.
Al qanına bələnmiş
Dünya yerində qaldı.

Təbəssümlə əl etdim,
– Bakım, əlvida! – deyə.
– Qalxdım layiq olduğum
– təmiz, ülvi mövqeyə.

Sağımda bir avtomat,
Solumda bir avtomat.
Qabağımda, arxamda,
Ya vatomat, ya soldat –
Yaxud çibin, həşərat.

– Çək kəməri ey!
Çəkdim,
Toqqamız zərnişandı.
Belimdəki kəmər yox,
İşıqlı kəhkəşandı.
Uğuldayır mühərrik,
Uçuşumuz mübarək.
Birdən hiss elədim ki,
Təyyarədə təkəm, tək.

Silahlılar əridi,
Nə qaraltı, nə uyuq.
Məndən savay pilot yox,
Məndən savay adam yox.

Yağış yağır, yoxsa qar?
Nə yağışam, nə qaram.
Bu qar səltənətində
Özüm boyda baharam,
Cahan boyda baharam.

Nərildəyir, gurlayır
Dörd matorlu təyyarə.
Təyyarədən təmkinli,
Təyyarədən güclüyəm.

Qanadının altında
Kəlmələr TU-SSSR.
Tupolyevin nəbziyəm,
Yerin, göyün məğziyəm.

Oturacaq yumşaq, rahat,
Ölkə şah taxtındayam.
Buludlardan ucada,
Vüqar paytaxtındayam!

Görəsən qasırğadan
Keçirmi təyyarələr?
Mən yüz dəfə keçmişəm.
İldırımın boynunu
Ölçürmü təyyarələr.
Mən azca qarsalanmış
Qollarımla ölçmüşəm.

Bəlkə durnalar keçir
Səmadan qatar-qatar.
Amandır, toxunmasın.
Təyyarəyə durnalar.

Gətirdi bəxtim mənim,
Mən öz babam Nəsimi.
Görməliydim … ölümə –
72 qurşuna hamilə avtomatın
gürzəgöz lüləsini.
Bağrımı nişan almış
Buz və od lüləsini.
Günəşi kama çəkən
Zülmət darvazaların
Zəncir cingiltisini.

Gümüşü pillələrdən
Yavaş-yavaş enirkən,
Vnukova meydanına
Günəşmi doğdu birdən?

Salam, yaşıl ormanlar!
Salam, ey pakizə qar!
Kitirgəli, qətranlı
Şamlar, ətirli şamlar.

Daş təbəqə üstündə
Təyyarə döndü getdi.
Təyyarə söndü getdi,
Qanadlıyam mən hələ.
Öz yeni səngərimdə
İnadlıyam mən hələ.

Canım, gözüm Firəngiz,
Çatıq qaşlım, təlaşlım.
57 yaşlım yox,
mənim 17 yaşlım.
Enməsin kirpiklərin,
Sil gözünün yaşını.
Vüqarla gəz, əyilmə!
Şax tut məğrur başını.

Sən Şair qadınısan, böyük Şair qadını!
Vermə qasırğalara ürəyinin odunu.

Canım, gözüm, inan ki, hər cür səddi yıxacam,
Dəmir kimi gəlmişəm, polad kimi çıxacam.

***Moskva, Lefortovo zindanı,***
***bazar, 28 ocaq - yanvar, 1990.***

# BİRİNCİ GÜN, 29 OCAQ 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Bu gün izolyatorda səliqə-səhman mənim boynumadır. Yaş əskiylə döşəməni, masa və çarpayıları silirəm. Ağ xalatlı, uzunsov sifətli, uzun kirpikli gözəl Mariya gəlir. Diabetə qarşı meyvə şəkəri verir. – Hələlik yemə, içmə! – deyir. – Qanından nümunə götürəcəm. O vaxtacan döz!

… Od tutub yanan ucsuz-bucaqsız zəmilər ilə bağlı yuxumu yozmağa, araşdırmağa macal tapmamış yeni əmr eşidirəm:

– Sanitar bölməsinə!

Əlllərim arxada, gedirəm yenə.

– Yumruğunu işlət!

Ağ xalatlı gözəl şah damardan qan alır.

Şprits dolu. Borucuqlar tünd qırmızı.

… Qayıdıram. Kamerada xoş bir türkü səslənir

[illegible],
[illegible].
[illegible],
[illegible].

[illegible],
[illegible].
[illegible],
[illegible].

[illegible],
[illegible].

# İKİNCİ GÜN, 30 OCAQ 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

– Al, sənə verdiyim bu diabet həbini yeməkdən sonra bütünlüklə ud, dabanındakı çatdağa, yaraya sürtmə. Onun üçün həkim başqa dərman verər.

Dəmir qapının qəbul qapağını açıb bu sözləri deyən südəmər bir şəfqət bacısıdır.

… Trapez biçimli gəzinti guşəsində qar və buz üstündə addımlayan Volodyanı dinləyirəm:

– DTK dövlət içində dövlətdir! – deyir. – Rəhm gözləmə. Ancaq burası yaxşıdır ki, bu sistemdə artıq bircə nəfər də yəhudi qalmayıb. Yəhudi qohumluğu olan Brejnevin 29 maşını vardı. Rusiyada kommunizm qurmağa çağıranlar əsasən yəhudilər olub. Buxarin, Kamenyev, Zinovyev, Trotski, Vışinski… Məgər onları sayıb qurtarmaq olar? Rusiyada yəhudi lobbisi çox güclüdür. Hamısı sinoqoq əhlidir. Yaxşı oğulları az deyil. Amma yamanları daha çoxdur.

Günorta üstü nəzarətçi Anatoli gəlir. Üçüncü qata qalxırıq. Paqonlarında üç böyük ulduz yanan hərbçi fotoqraf barmaqlarımın və əllərimin əksini ayrı-ayrı sənədlərə köçürür, ailəmizin və yaxınlarımın adını, soyadını sənədləşdirir, üzdən və profildən şəklimi çəkir. Sonda isti suyu və sabunu göstərir. Yəni yuyuna bilərsiniz. Əllərimi, ovuclarımı yaxılmış qaradan çox çətinliklə təmizləyə bilirəm.

…Çox keçmədən xəbər verilir: DTK rəisinin baş yardımçısı və şöbə müdiri, hüquq polkovniki Fyodor Gerasi-

moviç Poxil məni öz kabinetinə dəvət edir. Ucaboylu, pəhləvan cüssəli, buğdayı sifət müstəntiqim məni yaxşı tanıdığını bildirir:

– Ad-sanına, şöhrətinə bələdəm, – deyir. – Yanvarın 26-da Bakıda, DTK təcridxanasında müstəntiq Mixail İliç Boytsov sizi dindirib. Əlbəttə, olub keçən fəci hadisələrə PARTİYAMIZ öz qiymətini verəcək. DTK isə, görürsən, öz qiymətini verməyə başlayır. Dünən yazıçı Henrix Borovik telegüzgüdə obyektiv çıxış etdi. Bilirəm, o, sənin xoşuna gəlmir. Amma kimsə dürüst deyib:

– Demokratiyaya qanundankənar çağırış ağılsızlıqdır.

Azərbaycan Xalq Cəbhəsinin tamam pis işlədiyini deyə bilmərəm. Çünki ümumxalq rəğbətini və yardımını qazanıb. Mən bilirəm: erməni iki cürdür: əməkçi, günahsız, təmiz ermənidən başqa yırtıcı, bandit, millətbaz erməni var. Bəla bundadır ki, 12-14 yanvarda heç bir günahı olmayan təmiz erməni də qurban gedib. Bilirəm, burada qisas hissi öz rolunu oynayıb. 318 mindən çox azərbaycanlı, siz demişkən, Türkazər Ermənistandan və yuxarı Qarabağdan qovulub, ac, susuz, işsiz vəziyyətə salınıblar. Bir çoxu yollarda qırılıb, öldürülüb. Bu faciənin yaranmasının tam məsuliyyəti "Karabax" komitəsinin, "Krunk" təşkilatının və başqa daşnak birləşmələrinin boynuna düşür. Axı hansı ixtiyarla sən taqsırsız, əməkçi Türkazəri qovmağa, öldürməyə çağırırsan? Onların böyük əksəriyyəti kənd təsərrüfatında çalışır, səni ruzi ilə təmin edirdi. Eyni sualı sənə verirəm, yoldaş Xəlil Rza: Hansı məntiqə görə sən erməniləri qovmağa, işdən azad etməyə çağırmısan? Keçən il dekabrın 24-də, bu il yanvarın 4-də və 13-də çıxış etmisən. Çıxışlarının videoqaytanı durur.

Biz Türküstan elləriyik,
Qeyrət, qüdrət selləriyik.
Ermənini qovan bizik,
Dar gözləri ovan bizik.
Yetər, meydan suladılar,
Yurdumuzu taladılar.
Bakımızı əzizləyək,
Daşnaklardan təmizləyək.
Şölə versin bu ləl, mərcan -
Ermənisiz Azərbaycan!

– Bu misralar sənin deyilmi?

– Mənimdir və xalqımındır. Mən murdar erməniləri zərərsizləşdirmək, təmiz ermənini xilas etmək naminə bu cür davranmışam. Rus və erməni işğalçıları tərəfindən mənim xalqımın qanı töküldüyü, başı kəsildiyi çağlarda başqa cür davranmaq mümkün deyildi. Qanlı qasırğa içinə düşdüyün məqamda ermənini növləşdirməyə, macalın, imkanın varmı? Yoxdur. Buna görə bu halda ən yaxşı üsul onları işdən azad etməkdir, yola salmaqdır. Qalmaları qan tökülməsi, ölüm, qırğın deməkdir. Buna görə öz çağırışımda mən haqlıyam. Həssas adamlar öncəsezmə duyğusuna malik olurlar. Puşkin, Lermontov öz ölümlərini sezmişlər. Həbsim ərəfəsində mən yazmışdım: "Bəlkə son şerimdi bu" ("Qanlı cəllada"). Qadınım bu şeri makinada köçürəndə ağladı. Bəli, mən hiss etmişdim ki, Bakıda qırğın düşəcək, arada qurunun oduna yaş da yanacaq. Burada günahsız erməni də qurban gedə bilər. Buna görə ən yaxşı yol onları işdən çıxarmaqdır. Qoy işdən çıxıb düşünsünlər, Həyatlarını xilas etsinlər. Sizinlə indicə telefonda danışan Rubeni "Azərittifaq"da vaxtında xəbərdar etməsəydik, indi bəlkə çoxdan torpağa quylanmışdı. Mən felən Rubeni ölümdən qurtarmışam. Buna görə hər iki velikorus şovini-

stinin – Abramovun, Boytsovun ittihamlarını, 67-ci maddəni rədd edirəm. Mən planetin, günəşin qarşısında üzüağam.

Fyodor Gerasimoviç Poxil ayağa qalxır, kabinetinin ortasına gəlir:

– Mən bilirəm ermənini Bakıdan qovan hansı qüvvədir:

1. Sizin çıxışların, tələblərin təsiri.
2. Ermənistandan qovulanların intiqam hissi.
3. Ekstremistlər, xuliqanlar.

– Ən başlıca amillərdən birini unutdunuz, – deyirəm. – Hakimiyyət uğrunda mübarizə! MK katibi Vəzirovu yıxıb yerinə necə keçmək olar? Yalnız qan tökməklə! Bu qəsdi həyata keçirənlər olub. 1990-cı ilin 13-14 ocaq (yanvar) günlərində iğtişaş qopanda DİN susub, DTK öz fəaliyyətini dayandırıb, hüquq orqanları ölgünləşib. Yalnız və yalnız Xalq Cəbhəsi sinəsini qabağa verib, erməniləri ölümün caynağından qoparıb atıb gəmiyə, qatara, vertolyota, təyyarəyə. Siz niyə Xalq Cəbhəsinin bu qəhrəmanlığını qiymətləndirmək istəmirsiniz?

Bir də sadaladığınız maddələr içində ikincinin birincinin yerinə qoymalısınız. Bizim çıxışların təsiri onuncu dərəcəli amildir. Həm də subyektiv amildir. Obyektiv reallıq isə 1905-ci ildən bəri Ermənistandan, daha doğrusu klassik Azərbaycandan çıxarılmış iki milyon Türkazərin qana bələnməsidir, rus silahı altında erməni əlilə qovulmasıdır, öz dədə-baba torpağından didərgin salınmasıdır. Millətin bu vəhşiliyə dözməməsidir. Milli şüurun oyanışı və öz cəlladlarını tanımasıdır. Tarixi yönü heç vaxt yaddan çıxarmayın. Siz bilirsinizmi ki, Birinci Pyotrdan tutmuş ta Leninə, Stalinə, Xruşşova, Brejnevə, Qorbaçova qədər olan dövrdə ermənini dəstəkləyən rus dövləti Azərbaycanın

başına hansı oyunları gətirib. Yalnız torpaqlarını parça-parça mənimsəməklə yetinməyib, həm də beynini şumlayıb, bütün maddi, mənəvi sərvətlərini daşıyıb aparıb. Şaumyan, Mirzəyan, Kirov, Orconikidze, Serebrovski, Beriya, Qalustyan, Markaryan, Qriqoryan, Volski… Bu iyrənc, bu mənfur adlardan birini çəkmək yetər ki, planetin köksündə Türk qanı, Azərbaycan qanı yenidən göllənsin, cəhənnəm alovları Azərbaycanı yenidən və yenidən bürüsün. Əgər Lenində zərrəcə vicdan vardısa, niyə Bakıya fövqaladə hərbi komissar olaraq layiqli bir adamı yox, başkəsən Andronikin silahdaşı Şaumyanı göndərdi? Əgər Lenində zərrəcə səmimiyyət vardısa, onda niyə On Birinci Qırmızı Ordunu guya Türkiyəyə, Mustafa Kamal Atatürkə yardıma gedirmiş kimi qələmə verdi, Bakıya göndərdi, ADR-i, Şərqdə birinci müstəqil dövləti qan dənizində boğmaqdan utanmadı? İnciməyin, Fyodor Gerasimoviç, bu sorğuların heç biri sizi bir hüquqçu, bəşər oğlu kimi düşündürməyib. Düşündürməyibsə, deməli böyük tarixi həqiqətlərə göz yummusunuz, xırda-xuruş, onuncu dərəcəli, cılız məsələləri öyrənməklə, əylənməklə vaxtınızı öldürübsünüz. Buna görə Mixail İliç Boytsovun, yaxud İvan Pavloviç Abramovun ünvanına dediklərim eynilə sizə də aiddir. Hər hansı adam öz sənətini, peşəsini humanizm baxımından yerinə yetirə bilmirsə, adam deyil, ən yaxşı halda bioloji varlıq hökmündə olan bir məxluqdur.

– Xəlil bəy, sən mahir natiqsən. Ancaq gəl məni dağa-daşa salma! Bu gün bu meydanda nə birinci Pyotr var, nə Lenin. Sənsən, mənəm. Yaxam sənin əlindədir. "On armyanin" - məgər bu milli əlamətinə görə adamı öldürmək olar? Sizin çıxışlarınız, çağırışlarınız kriminal səciyyə da-

şıyır. Bu çıxışları dinləyəndən sonra erməniyə əl vermək mümkün deyil, ermənidən iyrənirsən.

Təcridxanada sizə necə baxırlar, öz işləridir. Mən sizə münasibətdə obyektiv, haqq olacam. Yaxşı ki, çıxışlarınızda işıqlı, humanist cümlələr də az deyil.

– Erməni qadınlarına, erməni qızlarına toxunmayın!

– Erməni cocuqlarını qoruyun!

Bu cümlələr Bakıda, sizin Azadlıq meydanındakı 4 ocaq - yanvar 1990-cı il tarixli çıxışlarınızdandır. Bu cümlələr, əlbəttə, nəzərə alınacaq. Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində mənim dostlarım da var. Əziz bəy Əziz oğlu Rəsullu müstəntiqdir, arkadaşımdır. Qələm və söz sizin silahınızdır. Hədəfi düz seçməli, silahı düzgün işlətməlisiniz. Heyrətdəyəm.

– Uvolit s rabotı!

Bu cümləni siz hansı ixtiyarla demisiniz? İslam Tağıyev sizinlə bir gedib Yanğından Mühafizə İdarəsinə. Ermənini qovmaqla siz faciə üstünə faciə gətiribsiniz. İnsanların psixolojisini dəyişdirmisiniz. İradələri qırmısınız. Hələ mən onu demirəm ki, insanların əmək hüququnu tapdalayıbsınız.

Sizin kimi kişilər xalq sərvətidir. Mədəniyyət Fondunun sədri, akademik Dmitri Lixaçov "Qalx!" desə, bütün Rusiya ayağa qalxar. "Hücum!"desə, bütün millət hücuma keçər. Xalq sizə də bu cür inanır, arxanızca gedir. Adı böyük hərflərlə yazılmağa layiq İinsansınız! Zirvədən bataqlığa enmisiniz. Qara kütlənin girdiyi bataqlığa! Çevrə qapanıb, qan tökülüb, məsuliyyəti itiribsitiz. 67-ci maddə ilə ittiham olunursunuz. Bu, Azərbaycan kodeksində dövlət cinayəti sayılır. Sizin üçün üç aydan onilədək iş gözlənilir. 58 yaşınız var. On il həbsdə yatsanız 68 yaşında azad-

lığa çıxmanız şübhə altındadır. Səmimi olsanız, obyektiv vəziyyətiniz bəlkə yüngülləşdirilə. Bakıda sizi həbs etmək üstündə əmr verən İvan Pavloviç Abramov kimi tutduğunu və nəyə görə tutduğunu yaxşı bilir. Onun toruna düşən kilkə deyil, qızıl balıqdır.

… Əfqanıstandan qayıdan əsgərlər var. Dəli kimidirlər. Nə ətraf onları başa düşür, nə onlar ətrafı. Çünki günahsız qan töküblər, vicdan məhkəməsi içindədirlər. Əlbəttə, hamısı yox, düşünməyi bacaranları. Tarix bu cinayətləri qupquru faktlar kimi qeyd edəcək. Göl-göl tökülən qanlar isə üç-dörd cümləyə çevriləcək. Yordum sizi, qoy bir qəhvə hazırlayım sizin üçün… Sənətkar dürüst deyib "Krov lyudskaya ne voditsa".

İnsana ömür bircə yol verilir, qaçqına, didərginə də. Qafandan, Basarkeçərdən, Quqarkdan qovulan türkazər, yaxud sənin Bakıdan qovduğun erməni məgər ikiömürlüdür? Məgər o bir də dünyaya gələcək? Yalnız dahilər və qəhrəmanlardır ikiömürlü, bir də sizin kimi şairlər, alimlər! Siz alovun üstünə benzin tökübsünüz! Təmiz benzin də yox, kirli benzin. Məgər cinayəti cinayətlə yumaq olar?

Kim xalqı çağırıb orduya qarşı barrikada qurmağa? Kim çağırıb vuruşa? Bəs nə üçün özü qaçıb gizlənib? Döyüşə çağıranların bəs niyə bircəsi də heç olmasa yaralanmayıb. Bu, cinayətdir.

Kimdir ziyalı? Özündən öncə özgəsini düşünənlər. Düşünübmü onlar xalqın əhvalını? Düşünməyiblər! Onları düşündürən yalnız hakimiyyətə yiyələnmək düşkünlüyü olub, bir də şöhrət azarı!

Pəhləvan cüssəli Fyodor Gerisimoviç Poxil ayağa qalxır, böyük çini piyaləyə qaynar çaydandan su alır, güllü

qutudan suya iki qaşıq qəhvə tökür, qənd atır, qarışdırır, qarşıma qoyur, məni dinləyir.

Azərbaycana qarşı ikiəsrlik xəyanət, başda Sov. İKP və AKP olmaqla Kremldəki, Bakıdakı qanlı mağaralar, Ə.X.Vəzirova, DİN qolmancı Barannikova və başqalarına məktublarım, telefonlarım, tələbnamələrim, velikorus dövlət siyasətinin fəsadları diqqətimdə dayanır.

– İndi Azərbaycan çıxmaza dirənib, – deyir söhbətdaşım. – Prekratite! Kim müqavimət göstərsə darmadağın ediləcək. Şimali Azərbaycan Xalq Cəbhəsi xalqı qabağa itələyib özü gizlənməklə cinayət işlədib.

# SSRİ DTK-nın TƏHQİQAT ŞÖBƏSİNƏ ETİRAFNAMƏ

Bir halda ki, dustağınızam və təhqiqat gedir, istərdim ki, son illərdəki fəaliyyətimin tam mənzərəsi və mahiyyəti Sizə aydın olsun. 1988-ci ilin başlanğıcından etibarən Azərbaycanı yenidən bürüyən alovlar mənim varlığımda zəbanə çəkən cəhənnəm hökmündədir. Sizə gözəl bəllidir ki, Azərbaycanın şimal hissəsini yenidən bölmək, erməni işğalçılarının ağzına atmaq, milli azadlıq hərəkatını boğmaq uğrunda ağ və qırmızı imperiyanın son iki yüz ildən bəri apardığı qanlı siyasət özünün yeni və ən alçaq mərhələsinə daxil olmuşdur. Şimali Azərbaycanda, xüsusilə, Bakıda dönə-dönə Moskvanın göstərişi əsasında elan edilən hərbi vəziyyət, qoyulan komendant saatı və təqiblər nəticəsində xalq buxovlanmış və dişlərinədək silahlanmış düşmən qarşısında tərksilah edilmişdir. Hakim dairələrə yeridilən milli satqınlar bu işdə öz Kreml ağaları ilə əlbirdir. Lakin Xalq buna dözmür. O, həm açıq düşmənlərini, həm də onun arxasında dayananları ram etmək, müqəddəs torpağını natəmizlərdən, qəsbkar murdarlığından təmizləmək əzmindədir. Bu gün Azərbaycanı bürüyən mitinqlər, nümayişlər, küçə yürüşləri, piketlər, tətillər Vətənimizə qarşı bitməz, tükənməz xəyanətlərin, cinayətlərin əks-sədasıdır. Mən 1980-ci ilin başlanğıcından bəri davam edən bu təlatümlərin çoxunda iştirak etmişəm. Qoynunda yaşadığım Bakıdan başqa, Azərbaycanın Lənkəran, Astara, Masallı, Cəlilabad, Salyan, Sabirabad, Sumqayıt, Gəncə, Xanlar, Ağdaş, Ağdam, Şuşa, Xocalı, Laçın, Kəlbəcər, Qubadlı, Beyləqan kimi şəhər və rayonlarında, kəndlərində dönə-

dönə olmuşam, həqiqəti xalqa başa salmağa, dostu, düşməni dürüst tanımağa, qəsbkarlığa və qəsbkar ideologiyasına təslim olmamağa çağırmışam. Azərbaycanı və xüsusilə Bakını çoxdan bəri burada yuva salmış, ən yaxşı, ən yağlı vəzifələri, rütbələri, bağları, malikanələri, evləri mənimsəmiş, Azərbaycanın Hüseyn Cavid, Mikayıl Müşfiq kimi ən parlaq idrak sahiblərini güdaza vermiş, güllələtdirmiş, sürgünə yollamış, milli ədavəti zenit nöqtəsinə çatdırmış, üç dəniz arasında böyük Ermənistan – murdarıstan yaratmaq fikrinə düşmüş "Krunk" və "Qarabağ" təşkilatlarını yemləmiş daşnaklardan, nacinslərdən, namərdlərdən təmizləməyə çağırmışam. Bakıda piket qurşağına aldığımız, "Ermənilər işdən qovulsun!" tələbilə silkələdiyimiz idarə və müəssisələr bunlardır: Azərbaycan Yazarlar Birliyi, Rus Dram Teatrı, "Azərneft", Filarmoniya, çörək zavodları, Yanğından Mühafizə İdarəsi, Səhiyyə Bakanlığı, Azərbaycan Dövlət Nəşriyyatı, Elektrik hesablamaları zavodu, "Azərittifaq", Nəsimi rayon icraiyyə komitəsi, Respublika Hərbi komissarlığı, Azərbaycan Dövlət Universiteti, Telegüzgü redaksiyası və s.

Bu piket, yürüş, tətil və təlatümlərdə başlıca tələblərimiz yalnız erməniləri zərərsizləşdirməkdən ibarət olmayıb, üstəlik tələb etmişik ki, rus-erməni istibdadının rəmzi kimi ucaldılmış Kirovun, Şaumyanın qara heykəlləri, On birinci Qırmızı Ordunun abidəsi aradan götürülsün!

Küçələr, metrolar, müəssisələr Serebrovski, Orcinikidze, Osipyan, Əliheydər Qarayev, "Avrora", "Oktyabr", "28 aprel" kimi şərəfsiz adlardan təmizlənsin!

Bakı Universitetinə ADR-in başçısı, Müsavat Partiyasının yaradıcısı Məhəmməd Əmin Rəsulzadənin adı verilsin!

Respublika hərbi Komissarlığından tələb etmişik ki,

SSRİ-nin dürlü guşələrində hərbi xidmətdə olan Türkazər əsgərlərin öldürülməsinə, döyülməsinə, yalnız tikinti batalyonlarında işlədilməsinə son qoyulsun. Öldürülmüş, təkcə 1989-cu ildə qətlə yetirilmiş 480 əsgərin analarının üsyanı, göz yaşları, övladlarının şəkillərini nümyiş etdirmələri heç vaxt unudulmayacaq.

1990-cı ilin 24 yanvar günü Bakıdan Sumqayıta, öz laboratoriyalarına doğru gedən yolda tank tırtılları altında həlak olmuş üç professorun – İbrahim İsmayıl oğlunun, Svetlana xanımın, İsmayıl Həsən oğlunun məzarı başında Qırmızı Ordunun, Kreml qaragüruhunun ən yeni cinayətləri barədə danışmışam.

Azərbaycan alimləri tərəfindən yazılmış və yayılmış "Bir nömrəli təhlükə" bəyannaməsində mənim də imzam var. Burada söhbət xalqa qarşı tuşlanmış daha böyük cinayətdən, hərbi qurğuların saçdığı radiasiyadan, havanın, suyun, torpağın, Xəzər dənizinin, çayların, bulaqların, bitki və heyvanlar aləminin zəhərlənməsindən, qadın və kişilərin doğum və törəmə bacarığını itirməsindən gedir.

Qarlı aşırımlarda, dərələrdə, ormanlarda aclıqdan, susuzluqdan, soyuqdan həlak olmuş didərginlər, salamat qalanların çörək, ev dalınca diyar-diyar gəzmələri, rüşvətin, qanunsuzluğun tüğyanı, respublikanın ən nadir sərvətlərinin – neftin, pambığın, kürünün, balığın, sitrus bitkiləri məhsullarının, ilan zəhərinin, qozun, zeytunun çox cüzi qiymətə zorla alınıb uzaqlara daşınması, qadın və cocuq əməyinin vəhşicəsinə istismar edilməsi, tətbiqi yasaq edilmiş "DDT" və başqa kimyəvi maddələrin tarlalara geniş miqyasda səpilməsi, Azərbaycanın hələ Gülüstan (1813), Türkmənçay (1828) bağlaşmalarından bəri İran və Rusiya arasında bölüşdürülməsi azmış kimi sərhəd rayonlarına yal-

nız xüsusi izn vərəqəsi əsasında getməyin şərt qoyulması, tikanlı məftillərlə hörülmüş sərhədlərin yalnız əli silahlı rus əsgərləri və rus hərbi zastavaları tərəfindən qorunması, yolsuzluq, üfunət, antisanitariya, buruqlar arasında ağcaqanad, malyariya xəstəliklərinin daimi qaynağı olan mazut gölləri, bataqlıqlar, orta məktəbi bitirən ən istedadlı oğlan və qızların ali məktəbdən kənarda qalmaları, aclıq, ruzu qıtlığı, kitabxanaların bərbad vəziyyəti, mədəni müəssisələrin, su kəmərlərinin bir çox rayonlarda, kəndlərdə olmaması bizim məmləkətin dünyadakı hər hansı mədəni müstəmləkədən qat-qat aşağı olan səviyyəsini göstərən əlamətlərin heç də hamısı deyil. Buna görə Azərbaycanda dünyaya göz açan hər hansı namuslu vətəndaş özündə mütləq və mütləq mənəvi inqilabın enerjisini daşıyır, kordan sosializmə, qırmızı müstəmləkəçiliyə, yalnız rüşvət və korrupsiya əsasında "seçilmiş" deputatların quraşdırdığı saxta parlamentə qarşı qəzəb və nifrət püskürür. Belə bir şəraitdə öz çıxış və tələblərimdə bəzi ifratlara yol verməyim təbiidir, hətta labüddür. Xoşbəxtəm ki, xalqımla eyni səngərdə olmuşam, yalnız onun düşmənlərinə, simasızlara, dönüklərə, fərarilərə atəş açmışam. Mətbəədə dustaq edilmiş son şer kitabım – "Məndən başlanır Vətən" (1988) məhz xalq piketi sayəsində azad edilmiş, dünya işığı görmüşdür.

***Xəlil Rza ULUTÜRK,***
***M., 31 yanvar 1990***

## ÜÇÜNCÜ GÜN, 31 OCAQ 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Silah qabağında hüquq polkovniki Fyodor Gerasimoviç Poxil cənablarının hüzuruna gətirilmişəm. Kefimi soruşur. Onun işarəsi və kameradaşım Vladimir Komuxinin təşviqilə iki mühüm sənəd hazırladığımı, ruscaya çevirdiyimi, gecə yatmadığımı bildirirəm. Nəyə eyham vurduğumu anlayır: onlar məndən söz qoparmaq istəyir, mən də bu imkanı onlara verirəm. Divardan ip ucunda lövhə şəklində asılmış zindan qaydalarını, yasaqları pozmuşuq, yatmamışıq, işləmişik, buna qəsdən, bilə-bilə izn veriblər, məni həm "Etirafnamə", həm "Müraciətnamə" yazmağa təhrik etmək üçün Volodyanın qılığına giriblər, dilə tutublar, üç dəqiqədənbir dəmir qapının deşiyindən baxan, nə iş gördüyümə göz qoyan gözətçi mane olmayıb, susub. Bunların heç biri təsadüfi deyil, dustaqdan nəyin bahasına olur-olsun bir söz, sirr qoparmaq məqsədini güdür.

– İndi ki, bütün gecəni işləmisən, onda qoy sənin üçün yaxşı bir qəhvə dəmləyim. Həm dincələk, həm dinləyək.

– Mavi gözlü, pəhləvan cüssəli müstəntiqimin böyük, güllü piyalədə gətirdiyi qəhvə, doğrudan da, dadlıdır, əladır.

– Sənin şəkərin var, qəndini azca verirəm, çox tünd çıxıb, qoy üstünə bir azca qaynar su alım.

– "Görək kim kimi?".

Bu cümləni ürəyimdə deyir, dalbadal hər iki mətni oxuyuram. Diqqətlə dinləyir, "Müraciəti" daha çox bəyəndiyini bildirir:

– Səmimidir, – deyir. – Burada konyuktura yoxdur. Məndən olsa, fərman verərəm, həm Mərkəzi televizyon ilə çıxış edərsən, həm də Bakı ekranı ilə.

Dəstəyi götürür. Makinaçı Yelena xanıma zəng edir…

İçəri girən dəliqanlıya üz tutur:

– Anatoli Vasilyeviç, apar bu sənədləri, Yelena xanım surətini çıxaracaq.

Aparır.

– İnsanı yaşadan yalnız cismi deyil, həm də ruhudur. Dustaqlığa dözə bilmək üçün şərt ruhun sarsılmazlığıdır. Tutulanlar arasında Bakı İnşaat İnstitutunun dördüncü kurs tələbəsi Şirxan Ağayev də var. Telegüzgüdə çıxış edib deyib ki, Xalq Cəbhəsi hakimiyyəti ələ keçirmək fikrində idi. Özü gizləndi, xalqı atdı tankın altına!

– Bunlar əfsanədir! – deyirəm. – Cəfəngiyyatdır!

– Yox, yoldaş Xəlil Rza, Xalq Cəbhəsi rəhbərlərindən hər birini ayrıca və dürüst qiymətləndirmək sizin borcunuzdur. Şirxan səhv edə bilər, büdrəyə bilər. Amma siz xalqın vicdanısız. Andrey Dmitriyeviç Saxarovun qüsurları çoxdur. Ancaq böyüklüyü bundadır ki, axara qarşı üzməyi bacarırdı. Eybəcərliyə qarşı susmurdu, səsini içinə salanlardan deyildi. Arvadı Yelena Bonneri də yaxşı tanıyıram. Ermənidir. Birinci əri də eməni olub. Fırıldaqçıdır. Saxarova dörd yandan mənfi təsir ediblər, yaramaz siyasət yürüdüblər. SSRİ prokuroru onunla dönə-dönə söhbətləşib. Səhvlərindən əl çəkdirə bilməyib. İnsan ziddiyyətlər kələfidir. Yalnız ağdan, qaradan, mənfidən, müsbətdən ibarət deyil, daha mürəkkəbdir. İnsan varlığında həm alçaqlığa, həm ülviyyətə gedən yollar var. Saxarov yaramazlar, murdarlar ilə əhatələnmiş böyük alimdir. Böyüklər öz içərisindəki maneələri qıra bilir, amma kənardakı

çevrəni heç də həmişə qıra bilmir.

…Şirxan Qardaşxan oğlu öz ifadəsində deyir ki, " Milli qurtuluş" son dərəcə mürtəce, terrorçu bir təşkilatdır, Xəlil Rza onun liderlərindəndir. Bəs "Qeyrət", "Birlik" nədir? Vəkil Məhəmməd, Seyid Tahir, Məhəmməd Hatəmi Tantəkin kimdir? Siz onları necə səciyyələndirirsiniz?

– Fyodor Gerasimoviç, mən bu təşkilatların heç birinə mənsub deyiləm. Adlarını çəkdiyiniz adamlar, məncə, Azərbaycanın yaxşı oğullarıdır. Hər biri əlindən gələni edir, Azərbaycanı qan dənizindən, fəlakət burulğanından çıxarmaq istəyir.

Fasilədən sonra hüquq polkovniki Fyodor Gerasimoviç Poxil məni yenə öz hüzuruna çağırtdırır. Geniş, işıqlı kabinetinə göz qoyuram. Üçüncü qat. 321-ci oda. Stol, lampa, yazı makinası, ağ və qara kağız. Divarda saat. Küncdə palma. Seyf. SSRİ-nin xəritəsi. Dəniz mənzərəsi. Marksın saqqallı şəkli. Əl boyda, üçkünc bayraqlar sərgisi.

Moskvadakı Azərbaycan səfiriyində baş vermiş qalmaqal, səfirlik başçısı Rüstəmzadə, güllə atılması, mətbuat konfransı, 20 Ocaq 1990-cı il tarixli cinayət ərəfəsində Şimali Azərbaycan Xalq Cəbhəsinin respublika hökümətindən və MK katibindən istefa tələb etməsi, bu tələbə felən bütün xalqın qoşulması, XC-nin Dram Teatrında keçirilən 10 dekabr 1989-cu il tarixli konfransında mənim "Erməniləri qovmalı!" şüarı ilə tarixi çıxışım, səsimin videoqaytana yazılması, balası və əzizləri əsgərlikdə daşnaklar və velikorus şovinistləri tərəfindən öldürülmüş Dilarə, Elmira, Ədilə, Sərvinaz, Könül, dünya gözəli Bətutə, Zərifə, tarixçi Şəfiqə, dəmir yumruqlu Naibə, yalnız XC xadimləri və onlara rəğbət bəsləyənlər üçün paltar tikən dərzi Mirbəyim kimi fədakarlar söhbətimizin mövzusuna çevrilir.

Belə bir film var: almanlar hücuma keçir, öndə bizim əsirlər, bizim qadınlar, bizim cocuqlar… Di gəl atəş aç. Öz güllən özünə dəyəcək.

Yaxud Napoleon dayanıb qoşunun arxasında, təpədən durbinlə baxır. Sizin dediyiniz Şimali Azərbaycan Xalq Cəbhəsi Napoleon qüdrətinə malik olmasa da, Napoleonluq iddiasına düşüb. Xalqı od içinə atıb, özləri gizləniblər.

– Yox, Georgi Fyodoroviç, bütün bu sözlər 20 Ocaq – Yanvar 1990-cı il tarixli cinayətə bəraət qazandırmaq, tökülən qanları maskalamaq, ört-basdır etmək üçündür. Xalq Cəbhəsinə qara ləkə yaxmaq cəhdindən başqa bir şey deyil. Mən Xalq Cəbhəsinin Əbülfəz Elçibəy, Tofiq Qasım, Etibar Məmməd, Sabir Rüstəmxanlı, Mürşüd Məmmədli, Faiq Baxşəli, Nemət Pənah, Arif Rəhimli, Məryəm Həsənli, Nəcəf Nəcəfli kimi fədakar xadimlərini yaxından tanıyıram. Onlardan hər biri irtica qasırğaları qarşısında dağ kimi dayanan oğullardır. Neftçalada, Lənkəranda, Sabirabadda, Naxçıvanda, Bakıda, Gəncədə güllələnən, vertolyotdan atılan, boğdurulan, zindana salınan mərdlər sırasında Xalq Cəbhəsi üzvləri birinci yeri tuturlar.

# DÖRDÜNCÜ GÜN, 1 ŞUBAT (FEVRAL) 1990, MOSKVA., LEFORTOVO ZİNDANI.

Konvoy qabağında gəzinti guşəsinə çıxarılanda bir keybimi üzümə çırpırlar.

– Tixo! Tixo! Bərkdən danışmaq olmaz!

Düşünürəm ki, bu mövzuda "Mənim səsim" adlı şer yazmaq olar. Dustaqlığa heç cür alışa bilmirəm. Mənə elə gəlir ki, azad, geniş cahandayam.

Səhər yeməyindən sonra müstəntiqimlə görüşürəm:

– Müraciətiniz Mərkəzi Televiziya ilə veriləcək, deyir. – Türkazərcəsi Bakıya göndəriləcək. Ancaq siz ora bəzi əlavələr etməlisiniz. Şimali Azərbaycan Xalq Cəbhəsi (o, mənim bu ifadəmə deyəsən çoxdan alışıb - X.R.U.) liderlərinə üz tutun, silahı yerə qoymağa çağırın!

– İdeoloji silahı yerə qoymaq olmaz! – deyirəm. – O biri silahdaşım Tofiq Rza Salyanda yaşayır, arabir qəssablıq ilə məşğul olardı. Fövqəladə vəziyyəti qoruyanlar, hərbçilər evə soxulub qəssab bıçağından, ət baltasından tutmuş dəhrəyə, kərəntiyə, qəməyədək hər şeyini aparıblar. Moskva dişlərinədək silahlı düşmən qabağında bizi silahsız qoyub.

– Broste orujie. Xalil Rza. Eto vam niçevo ne dast…

Siz Azərbaycanın mənəvi sərvətisiniz . Hər sözünüz xalq içində böyük əks-səda yaradır. Sizin Mərkəzi televiziya ilə çıxışınız odun üstünə su tökə bilər. Xalq Cəbhəsinin heç bir xadimi buna qadir deyil. Amma sizə qulaq asarlar… Telegüzgü redaksiyasından altı nəfər sırasında xalq deputatı Aleksandr Mixayloviç Krutov gələcək. Yəqin te-

legüzgüdə görmüsən. Səmimi, söhbətcil bir dəliqanlıdır. Dialoq aparacaqsınız. Səsin xalqa çatacaq. Musa Cəlilə bu imkan verilmədi. Sizə verilir. Geyiminizi indicə təmizləyib, ütüləyib Sizə qaytaracaqlar. Əvvəlki şux qamətinizdə görünəcəksiniz, bu dustaq paltarında yox! Yaxşı ki, saqqala maya qoyubsunuz. İşıqlı, qüdrətli görünürsünüz. Saçınız, saqqalınız, maşallah, nur saçır. Moskvadakı Azərbaycan səfirliyində Etibar Məmmədlinin dikbaş çıxışı unudulmasın:

– Biz Azərbaycanı ikinci Əfqanıstana döndərəcəyik!

Soruşan gərək:

– Nəyin hesabına? Azərbaycanın axıdılan qanları, tökülən göz yaşları hesabınamı?

– Etibar müdrik kişidir! – deyirəm. – Təsadüfi söz deməz. Azərbaycan gec-tez işğalçılardan təmizlənməlidir.

Mavi gözlü, pəhləvan cüssəli Fyodor Gerasimoviç Poxil ayağa qalxır, çaydanın işıq çəngəlini işıq yuvasından çıxarır, qəhvə qutusundan yenə iki qaşıq qəhvə götürür, yenə dünənki, əzəmətli güllü piyaləmə tökür, qənd atıb qarışdırır, qarşıma qoyur… Makinada nəsə yazır, çıqqıldadır. Mən isə əllərimi qəhvə piyaləsi kənarında isidə-isidə çıxışımın mətnini zənginləşdirmək üstündə düşünürəm.

– İndi çox bəhslər gedir: Azərbaycan neçə oğlunu, qızını itirib? Ermənistan nə qədər qurban verib? Məgər mahiyyət yalnız saydadır? Bircə çırağın, bircə ocağın söndürülməsi, bircə ovuc günahsız qanın axıdılması, atasını itirdiyini başa düşən, yaxud başa düşməyən bir körpənin gecə yarı yuxudan hövl içində oyanıb "ata!" deyə çağırması , bircə damla göz yaşı da məgər yer kürəsinə ləkə deyilmi? Tank altına düşən professor İbrahimin, professor

İsmayılın , yaxud onların qız qardaşı günəş sifətli alim Svetlana xanımın itkisini hansı xəzinə əvəz edə bilər?

Müstəntiqim mavi gözlü Fyodor Gerasimoviç Poxil telefon hərləcini fırladır, çağırır, dünən gördüyüm qara saçlı, şəvə bığlı dəliqanlı Anatoli Vasilyeviç içəri girir, qayıdıb montyor gətirir.

Müstəntiqim atmaca atır:

– Telegüzgü xadimləri gələcək, işığı gücləndirin!

Montyor gətirdiyi qoşaayaqlı nərdivanı açır, çalışır, taxdığı yeni lampa yanan kimi sönür, külə dönür, içində titrəyən tel gün işığında aydın görünür.

– Görürsən, ermənilərin buraxdığı lampa da yaramazdır, – deyir.

1957-1959-cu illəri, Moskvada Maksim Qorki adına Əbədiyyat İnstitutu nəzdindəki Ali Ədəbiyyat kurslarında dinləyici olduğum çağları, əlini sıxdığım erməni şairi Paruyr Sevakı, mənim "Шедрый день" ("Молодая гвардия" M., 1959) kitabçama məqalə yazmış professor Apresyanı Gəncədə Nizami Gəncəvinin heykəli qədəmlərinə güldəstə qoyan şair Alek Xaçunsu anıram. Neçə il bundan irəlinin söhbətidir. Onda mən Gəncəyə dostum Mürşüd Əsəd oğlu Məmmədovun toyuna gəlmişdim. Dan üzü oyanıb gəzməyə adət etdiyimdən Gəncəçay yaxasında gördüyüm mənzərə diqqətimdən yayınmadı. Aman Allah, bu kimdir belə, hələ heç kəs oyanmamış, Nizaminin qədəmlərinə qızılgül bükümü qoyur? Tanış olduq, bəlli oldu ki, erməni şairi Alek Xaçunsdur. Qolundan tutub onu üç gün davam edəcək toya gətirdim, görüşümüz ədəbi ülfətə çevrildi.

"Sən də quzu, mən də quzu. Gəl qoruyaq canavardan özümüzü". Gərək ki, bu beyt onundur. "Fəhlə təri ağırdır tərəzi daşlarından." Bu misra da onundur. "Çiçəyin gözü çöldə, kökü yerdə ağlayır". Bu misra da…

Lakin bu gün telegüzgü çıxışımda bu lirik notların heç birinə  yol vermək olmaz. Çünki Azərbaycana qarşı Ermənistan yırtıcıdır!

Paruyr Sevakın "İldırmı ötürən", "Zəngli saat" şerləri bu günümüz üçün də ibrətlidir. Zəngli saatı qurursan ki, sabah səni yuxudan vaxtında oyatsın. Oyadır səni. Bu halda başından basır, susdurursan onu. Paruyr Sevak sizi ölüm yuxusundan, qəflət mürgüsündən oyanmağa çağırır, ey yırtıcılar, insan qanına susayanlar!

Müstəntiqin səsi məni xəyaldan ayırır:

– 24 dekabr 1989-cu il tarixli çıxışınızda  Məhəmməd Hatəmi Tantəkini yüksək qiymətləndirirsiniz. Bu gün isə onun fəaliyyəti haqqında heç nə bilmədiyinizi bəyan edirsiniz. Bu iki faktı necə uyuşdurmaq olar?

– İşıq ucu verən insanları dəyərləndirmək, ruhlandırmaq mənim şakərimdir. Borcumdur. Keçən ilin sonlarında onu “Nizami” metrosu önünə toplaşdığımız zaman üçrəngli bayrağımızın yanında görmüşəm. Onda biz xaraba məscidləri yoxlamağa gedirdik. Məhəmməd Hatəmi piketdə sonacan qaldımı. Deyə bilmərəm.

Əslində Məhəmməd Hatəmi Tantəkin haqqında bildiklərim heç də az deyil. İş yerimiz akademiyada, Nizami muzeyində, onun təşkil etdiyi "Çənlibel" təşkilatı dərnəklərində, yığıncaq və mitinqlərdə, ikilikdə onu dönə-dönə dinləmişəm. Saqqalının qarası ağına qarışmış Məhəmməd iliklərinədək Azərbaycan Türk yurdsevəridir. Prinsipiallığına, mərdanəliynə, zəka qüvvəsinə davam gətirmədikləri üçün onu Akademiyanın Şərqşünaslıq  İnstitutundakı vəzifəsindən, baş elmi işçi mövqeyindən azad etdilər, lakin buna əsas olmadığı üçün Nizami muzeyinə gətirdilər. Məhəmməd Hatəmi  Tantəkinin  1988-ci ildə "Çənli-

bel"dəki məruzəsi möcüzə idi. 500 adamlıq böyük salonu ayağa qaldırmışdı. Hələ də vaysınıram ki, çağdaş Azərbaycan dünyasının dərin ictimai, siyasi, iqtisadi həyatının təhlilini verən, qırmızı imperiya timsalında onun düşmənlərinin portretini çəkən bu parlaq məruzənin surətini ələ keçirə bilmədim.

…Nahar fasiləsindən sonra geyimimi gətirirlər. Öz libasımda yenidən müstəntiqimin görüşünə gedirəm. Burada xeyli adam var, telegüzgü əməkdaşı, mavi gözlü, qızılı saçlı Aleksandr Mixayloviç Krutov əl uzadır, operatoru, operator köməkçisini, özünü və başqa arkadaşlarını mənə təqdim edir.

– Azərbaycan xalqı Sizin azadlığınızı tələb edir.

– Şadam. Amma istərdim ki, xalq yox, millət tələb etsin mənim

azadlığımı! Bu, daha yüksək mərhələdir.

– Müstəntiq sizi erməniləri Azərbaycandan qovmaq çağırışınızda ittiham edir. Bu barədə nə deyə bilərsiniz?

– Bəli, mən buna çağırmışam və bu çağırış felən ermənilərin xeyrinə olub. Hansı qaçıb qurtulubsa, indi sağ-salamatdır. Ölənlər mənim çağırışıma biganə qalanlardır. Mən hətta Şimali Azərbaycan Xalq Cəbhəsinin 10 dekabr 1989-cu il tarixli ikinci konfransında bu məsələnin gündəliyə daxil olunmasını tələb etmişəm. Həmən çağırışı hayqırarkən mən sezmişdim ki, Bakı qanlı-qadalı günlər qarşısındadır. Burada günahsız erməni qanı da tökülə bilər.

Mənim çağırışlarım onları respublikadan çıxarmağa, felən xilas etməyə xidmət edib. Nitqim yazılı videokasetlərdə belə cümlələrim var:

– Erməni cocuqlarını qoruyun!

– Erməni qızlarına, qadınlarına toxunmamalı!

Bu cümlələr yalnız mənim deyil, xalqımındır. Bu çağı-

rışlar hələ neçə min il bundan irəli vuruşlar qoynunda bərkimiş, mərdanəlik qanunlarını dünyaya car çəkmiş babalarımızın damarlarında çarpan qandan gəlir – Türk qanından!

Saxta tarix kitabları gizlətsə də, xalq yaddaşı heç nəyi unutmur. 1905-ci ildən bəri 1 milyon 800 min türkazər Ermənistan adlandırılan ərazidən, daha doğrusu klassik Azərbaycandan, öz dədə-baba yurdlarından zorla qovulub çıxarılıb. Məgər xalq bu faciəni unuda bilər? Heç vaxt! Buna görə hələ indən belə fırtına qopacağı şəksizdir.

Mətnin ruscasını qismən ağızdan oxuduğum halda, türkazəricəsini bədahətən söyləyirəm. Sağollaşırıq.

Yataqdayam. Telegüzgü mərasimi bitəndən sonra mənimlə dostcasına danışan müstəntiqim Fyodor Gerasimoviç şuxluqlarını anıram. Ömrünün son günlərində Bakıya gəlmiş Leonid İliç Brejnev:

– Doroqiye afqanskie neftyaniki! – deyə bakılılara xitab edir. V.İ.Lenin adına sarayda tamam başqa mövzuda mətnin qrankalarını əlindəki mətnə qarışdırıb oxuması, salonda qopan qəhqəhələr düşür yada.

- Bu zülmətxananın ömrü çox uzundur. Özulu çar Yekaterina tərəfindən 1776-cı ildə qoyulub. Bu dəmir qapılar dalında ömürlər çürüyüb. Bu divarlar 1937 dəhşətlərini yola salıb. Bu divarlar dilə gəlsə, heç bilsən nələr deyər?!

- O divar,
o divar,
o divarınız
Bizə vız gəliyor, vız!

deyən ustad Nazim Hikməti anıram.

– Volodya, sən təcrübəli dustaqsan, məsləhətini əsirgəmə. Bizə ayda evdən beş kilo ərzaq almağa izn verilir. Nə istəyim?

– Deyim, yaz: iki kilo hisə verilmiş kolbasa,
Bir kilo soğan, sarımsaq,
Yarım kilo qoz ləpəsi,
Yarım kilo limon,
Yarım kilo kişmiş,
Yarım kilo da qaysı qurusu

Diqqət: sənin şəkərin var. Bu nemətləri ikiqat ala bilərsən. Fürsəti əldən verməməli!

# BEŞİNCİ GÜN, 2 ŞUBAT 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Bütün gecəni yatmayan və altı saatdan bir dəyişən keşikçi dəmir qapımızın gözcüyündən göz qoyur: sən nə ilə məşğulsan?

Gecə saat 22-də verilən "Yatın!" komandasının ömrü dan üzü saat 6-da verilən "Qalxın!" fərmanı ilə bitir. Bu zaman kəsimi arasında yazmaq, oxumaq yasaqdır. Qələmə əl atdınmı, keşikçi dərhal ya qapını açıb içəri girir, irad tutur, ya da işığın bayırdakı düyməsini basmaqla səni qanuna əməl etməyə çağırır. Gecə ürəyimi deşən şerin başlığını yalnız bu dan üzü yazmağa macal tapıram: "Keşikçim", "Ağzıma dirənmiş silah lüləsi" (Ne şevelis, qad!), "Dustaq geyimi", "Təmiz havanın dadı" , "Gəzinti guşəsi", "Soruş peşimanammı?", "Cəza köynəyi", "Bayırdan gələn səslər"…

Səhər yeməyi zamanı bəlli olur ki, yağ boşqabının üstünə soyuq su tökməyi unutmuşam. Burada soyuq su felən soyuducunu əvəz edir. Ağ köynəkli, qızıl saçlı, mavi gözlü Volodya kamerada var-gəl edə-edə mızıldanır, oxuyur.

Cümə günü zindanda təmizlik günüdür. Döşəkağıların, balışüzülərin təzəsini gətirirlər ki, dəyişək. Alt geyimləri də eləcə. Hamamlanırıq. Mənim aradığım soyuq duş yoxdur. Yalnız ılıq – isti duş var, onun də hərləci öz əlimizdə deyil. Volodya arabir köhlən kimi fınxırır.

– Çox istidir!

Bu halda hamamçı bayırda hərləci hərləyir.

Çimib alt geyimlərimizin qar kimi ağappaq təzəsini geyinirik. Yüngülləşirik. Hətta kameraya gətirmək üçün bir neçə sabun parçası da çalırıq.

… Saat 15 çağlarında müstəntiqim Fyodor Gerasimoviç Poxil məni yenidən öz hüzuruna çağırtdırır. Saçlarına yenicə dən düşən göyçək sifətli prokuror ilə tanış edir: İqor Konstantinoviç Titov. Təmkinli və soyuqdur.

Müstəntiqim dünən gündüz hazırlanan çıxışımın saat 21.35 çağlarında Mərkəzi Televiziya ilə verildiyini və Bakıda DTK xadimləri tərəfindən yaxşı qarşılandığını bildirir.

– Metrodakıları dinlədim. Bircə məqamına irad tutdular: Guya sənin erməniləri qovmaq çağırışın felən onların qırğından xilas olmalarına yardım etmişdir. İndi Ermənistan Yazarlar Birliyinin qurultayı gedir. Hər halda biz faydalı iş görmüşük.

Müstəntiqim mənim kimliyimi prokurora bildirir. Azərbaycan SSR Prosessual Cinayət Məcəlləsinin 67-ci maddəsilə ittiham olunduğumu bəyan edir. Yenidən hayqırıram ki, bu maddənin mənə dəxli yoxdur. Çünki erməni cocuqlarını qorumağa çağırmışam. Üstəlik erməni qadın və qızlarına toxunmamağa haraylamışam. Qəsbkarların, yırtıcıların köləsinə çevrilənləri isə qovmaq borcumuzdur.

… Müstəntiqin və prokurorun diqqətini bugünkü – iki şubat (fevral) 1990-cı il tarixli "Pravda" qəzetində redaksiyanın xüsusi müxbirləri A.Qroxov və V.Okulov cənablarının imzaları ilə verilmiş "Rassvet posle noçi" məqaləsinə cəlb edirəm.

– Mənə qarşı tərtib olunmuş ittiham aktında 1990-cı ilin 13-14 yanvar gecəsindəki qırğına gətirib çıxaran səbəblər

heç də hərtərəfli, dürüst və düzgün göstərilməyib. Burada iddia olunur ki, mənim çıxışlarım, həmçinin mənə bənzər başqa natiqlərin çıxışları, üstəlik Şimali Azərbaycan Xalq Cəhhəsinin "ekstremist qanadı"nın fəaliyyəti nəticə etibarilə qırğına gətirib çıxarmışdır. Amma görün qəzet nə yazır: "А вед именно част беженстсев из Арменийи и стали движушшей силой програмов и грабежей, случившихсйа в Баку в ноч с 13 на 14 йанварйа".

Siz qırğının səbəbini obyektiv reallıqda yox, subyektiv mülahizələrdə arayırsınız. Birinci dərəcəli səbəbləri bir kənara qoyub onuncu dərəcəli səbəbi ön plana çəkirsiniz. Bakıda qopan qığılcım Ermənistanda, yaxud klassik Azərbaycanda bizim üçün təşkil olunmuş cəhənnəmin əks-sədasıdır, öz dədə-baba torpaqlarından zorla çıxarılan, rus silahı altında qovulan 318 min türkazərin hələ kükrəməmiş intiqam atəşinin bircə çınqısıdır!

Xahiş edirəm, bu məqaləni diqqətlə oxuyun, burada Şimali Azərbaycan Xalq Cəbhəsinin orqanı "Azadlıq" qəzetindən sitat gətirilir. Bu sitat olduqca qiymətlidir və qırğının mahiyyətini açır, səbəbkarlarını göstərir: "Определенные силы" (которым я себя противопоставил – Х.Р.У.) спровотсировали погромы в Баку в ноч с 13 на 14 января 1990 г., чтобы добится введения в республике черезвычайного положения, которое будет на руку Центру, Армении и безответственному руководству Азербайджана и поможет с помошью войск задушит демократическая преобразования в республике".

Doğrudan da, belədir. Bütün qırğınların və cinayətlərin birinci təşkilatçısı, sükançısı qanlı mağaradır, Kremldir. Qoşunun Bakıya girməsi ərəfəsində yaradılan Müdafiə Komitəsi Mərkəzi Komitənin və hakim dairələrə soxul-

muş milli satqınların, yuxarıdakıların əlilə təşkil olunmuşdu. Onlar qanın, ölümün yaxınlaşdığını bilirdilər, buna görə ailələrini, əzizlərini Bakıdan çıxarmış, uzağa, bağ-malikanələrinə köçürmüşdülər. Vəzirov isə sivişib aradan çıxmış, Moskvaya, ağalarının yanına qaçmışdı.

… Fyodor Georgiyeviç! Mən birinci növbədə Sizə üz tuturam - öyrənin həqiqəti: bizim həbs edilməyimiz dünya miqyaslı qlobal cinayəti maskalamaq üçündür. Qorbaçov, Yazov, Kryuçkov, Vəzirov, Mütəllibov, Vaqif Hüseynov, mənim həbs olunmağıma sərəncam verən İvan Pavloviç Abramov, ilk müstəntiqim Mixail İliç Boytsov və sonrakılar eyni cinayət zəncirinin dürlü halqalarıdır.

# ŞƏNBƏ, 3 ŞUBAT 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Gecələrim həddindən artıq uzundur. Soyuqlamışam. Ən dözülməzi budur ki, oyanıb iş görməyə, oxumağa, yazmağa izn verilmir. Gecə saat 22-dən səhər saat 6-dək yatmalısan, yaxud var-gəl etməlisən. Dünən yazdığım şeri gözdən keçirirəm.

## SORUŞ, PEŞİMANAMMI?

Ağzıma tuşladılar avtomat lüləsini,
Lülədə yatan gördüm Əzrayıl gülləsini.
Cüt əlimi arxadan qıfıllı zəncir ilə
Bağlayıb hayqırdılar: – Sus, çıxarma səsini.

Basdılar təyyarəyə, gətirdilər paytaxta,
Dəmir-beton qəfəsdə, darısqal məhbəsdəyəm.
Ayağımın altında qızıl-qırmızı taxta,
Hər gün sorğu, istintaq, hər gün atəş üstəyəm.

Soruş, peşimanammı əməlimdən, işimdən?
Soruş, vaysınırammı barı bir zərrə qədər?
Keçdim gözəl ömrümün parlaq keşməkeşindən,
Yaralanmış köksümdə ləngər vurur dənizlər.

Manqurtların buz kimi gözlərində qan, hədə,
Toqquşuruq nə vaxtdır. O dəmirdi, mən - almaz.
Nəinki zindan, cəza… Hətta heç ölümlə də
Mənim azadlığımı əlimdən almaq olmaz!

## BAZAR, 4 ŞUBAT 1990,
## MOSKVA, LEFORTOVO ZİNDANI

Hərarət içindəyəm. Bayırda qar. Barmaqlıqda quşcuğaz. Vaxtımı ancaq kitab oxumağa sərf edirəm. A.Platonovun Puşkin, Lermontov, Mayakovski, Maksim Qorki haqqındakı məqalələrində hələ köhnəlməmiş mülahizələr də var. Mayakovski, hər şeydən öncə, qırmızı imperiyanın şairi və təbliğçisidir. V.İ.Lenini ideallaşdıran Maksim Qorkinin bu kimi ciddi qüsurları və şəxsiyyətindəki naqisliklər, İtaliyadan qayıtdıqdan sonra özgəsinin bağ-malikanəsini zəbt etməsi ona bağışlanmayacaq. Zaman hamını ələkdən keçirir.

Zamana heyranam… bəşəriyyəti
Ovcunda sabaha aparır zaman.
Mərmər lövhələrə layiq olmayan
Adları mərmərdən qoparır zaman.

Hüquq polkovniki, müstəntiqim Fyodor Georgiyeviç Poxilin adına ərizə yazıram, bütün həyat və fəaliyyətimin bəşəriyyətə məhəbbətdə yoğrulduğunu yada salır, buna görə 67-ci maddənin üstümdən götürülməsini tələb edirəm.

# İKİNCİ GÜN, 6 ŞUBAT 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Bu gün kamerada növbətçi mənəm. Döşəməni, üç çarpayını, dəmir qapımızı, su lüləyini, stol və stulu, divardakı taxçanı, barmaqlığın həndəvərini yaş əsgi ilə silib təmizləyirəm. Hər şey par-par parıldayır. Daha sanitar komissiyası irad tuta bilməz. Dünən istintaqdan qayıdan kameradaşım Volodyanın dediklərini anıram. Moskvada 4 şubat 1990-cı il tarixli nümayiş, mitinqdə Yeltsin və Yevtuşenko kimi üsyankar natiqlərin çıxışları sarı, qırmızı imperiyanın sarsıldığından yeni soraqlar gətirir. Konstitusiyanın 6-cı maddəsinin ləğvi tələb olunur. Görəsən M.S.Qorbaçovun buna qeyrəti çatacaqmı? Başa düşəcəkmi ki, marksizm-leninizm artıq bütün dünyada ifşa olunmuş, gözdən düşmüş, müflis bir ideologiyadır. Rüsvayçı bir sonluqla tarix səhnəsindən silinən KP-nın ondan dördəlli yapışmaq cəhdi isə 64 ildən bəri torpağa həsrət qalan meyiti qızıl, qırmızı Kreml divarları yanında, məqbərədə, tabutda nümayiş etdirmək həyasızlığından başqa bir şey deyil.

Keçən il Gəncəyə getdiyimi, Həsənbəy Zərbadi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun fəlsəfə və politologiya kafedrasının baş müəllimi Əlvan Əlisoy ilə görüşdüyümü, olduqca maraqlı keçən, zəngin bir mühazirəsini dinlədiyimi yada salıram. Velikorusların Güney Qafqaza, Yaxın və Orta Şərqə tuşlanmış işğalçılıq siyasəti və ermənilərin həmən siyasətdə detonator rolu oynaması müəllimin diqqət mərkəzində idi. Birinci Pyotr varisləri-

nin böyük dövlətçilik iddiaları, Türk – müsəlman millətlərə qarşı bütün hüdudları aşan qeyzi, kini, rüşvətə sonsuz hərisliyi ermənilərin xislətindən irəli gələn antibəşəri keyfiyyətləri: yırtıcılığı, qəsbkarlığı, özgə yuvasında bala çıxarmaq səyləri, iri miqyasda rüşvət vermək səriştəsi, qadın və qızlarını özgə yatağına itələmək də daxil olmaqla məqsədlərinə ən iyrənc vasitələrlə çatmaq aludəliyilə zaman-zaman çulğaşmış, bir-birini cəzb etmişdir. Məhz sadalanan xüsusiyyətlər əsasında velikorus – erməni konsensusu təşəkkül tapmış və yalnız XX əsrin deyil, bütün dövrlərin ən böyük qanlı cəlladlarından biri kimi şöhrətlənmiş V.İ.Leninin antibəşəri fəaliyyəti sayəsində yeni tarixi cinayətlərə yol açmışdır.

1918-ci ilin qanlı mart günlərində türk çocuqlarını ağ ovcundan divarlara mıxlayanlar, indiki Nizami muzeyinin binasında, o zamankı "Qrand otel"də Azərbaycan qızlarının sinəsinə dağ basan, cənazələri üstündə "Dasnıçors" rəqsi oynayan, ağbirçəkləri, ağsaqqalları qanına bələyən kimlər idi? Yalnız erməni zabitlərimi, ya onları bu cinayətlərə təhrik edən Stepan Şaumyanın başına sığal çəkən, Azərbaycanı azərbaycansızlaşdırmaq üçün Bakı fövqəladə komissiyasının sədri Ter-Qabrielyana göstəriş verən V.İ.Lenin?!

…Günorta naharından sonra sorğuya çağrılıram. Qarşıda bir paqonlu, arxada bir paqonlu, ortada mən, əllərim arxada. Üçüncü qat, 309 saylı kabinet. Bəlli olur ki, müstəntiqim dəyişdirilib. Burada məni mavi gözlü, sarışın saçlı, sağ biləyi qızıl saatlı, ciddi və təmkinli Aleksandr Georgiyeviç Qubinski qarşılyaır, vəzifəsini nişan verir:

– SSRİ DTK Xüsusi Şöbəsi rəisinin köməkçisi.

Ağ köynəkli müstəntiqim özü hələlik məşğuldur. Bu-

na görə 6 fevral (şubat) 1990-cı il tarixli "Sovetskaya Rossiya" qəzetini mənə təqdim edir. Burada M.S.Qorbaçovun məruzəsində Azərbaycana dair parçanı oxumağımı məsləhət bilir. Məruzəçi iddia edir ki, hərbi hissə Bakıya yeridilməsə və orada fövqəladə vəziyyət elan edilməsəydi, daha çox itki olar, minlərcə insanın qanı tökülə bilərdi.

– Necədir?

– Cəfəngiyyatdır! – deyirəm. – Qanla suvarılmış cinayəti sözlə maskalamaq cəhdidir. İkiüzlüdür Qorbaçov. Bir yandan "Azərbaycanın ərazi bütövlüyü" ifadəsini işlədir və sanki bununla yaralarımıza məlhəm qoyur, bir yandan da qan daman dişlərinədək silahlandırdığı ermənilər qarşısında Azərbaycanın quş tüfəngini. qəssab bıçağını da əlindən alır. Aqanbekyan, Şahnazarov (əslində Şahnəzəryan), Brütens, Qaragözyan, Əlixanyan, Ambarsumov (yaxud Ambarsumyan), Danilyans, Balayan və başqa "yanlar" yenidənqurma liderinin qafasını erməni qafası ilə əvəz etmişlər. Bu ülfət əslində Qriboyedov ilə Markaryan, Lenin ilə Şaumyan, Stalin ilə Mikoyan, Beriya ilə Sarkisyan (Sarkisov) əməkdaşlığının, dünyada ən iyrənc, ən murdar iş birliyinin davamıdır.

– Sarkisyan kimdir ki?

– Beriyanın zəncirsiz köpəyi, onun şəxsi mühafizə dəstəsinin rəisi, dövlət təhlükəsizliyi polkovniki! Mühafizə işini öz müavininə tapşıran Sarkisyan ancaq və ancaq Beriyanın, qadın düşkünü, alçaq və şorgöz Beriyanın sevimli cananlarının başını tutan hərəmağası rolu ifa edirmiş. Beriyanın gözü tutan qadınları, qızları tapıb onun yanına gətirər və yataq görüşlərini sahmana salarmış. Sonralar həmin qadınlardan hansı xitab edərdisə, polkovnik Sarkisyan abort işini yoluna qoyar, yaxud dünyaya gəlmiş cocuğu

nəzərdə tutduğu yerə göndərərdi. Qadınlardan hansınınsa müraciəti ağlına batmayanda onu qovarmış, cibində daim hazır saxladığı arayışı göstərərmiş. Bu arayışda yazılıbmış ki, "Lavrenti Beriya cocuq əkmək bacarığından məhrumdur".

– Bu faktlar sizə haradan bəllidir?

– 1953-cü ildə marşal Konevin rəhbərlik etdiyi hərbi tribunal qarşısında Beriyanın məhkəməsindən Beriya özünə dair bütün cinayət sənədlərini məhv etmişdi. Ancaq bu cinayətlər silsiləsi yaddaşlarda yaşayırdı. Valın o biri üzünü çevirən, yaxud əsl simasını göstərən Sarkisyan məhkəmədə açdı sandığı, tökdü pambığı…

– Nə var qəzetdə?

– Qəzetdə Bakının "Azərenerqo" adlanan idarəsində böyük partlayış və yanğın barədə məlumat da var. Bu idarədə biz olmuşuq, xəbərdar etmişik ki, daşnaklar təxribat törədə bilərlər.

Yeni müstəntiqim hüquq polkovniki Fyodor Gerasimoviç Poxil yoldaşın adına yazdığım ərizəni dinləyir. Bircə düzəliş edirik. Bakıda mənim tutulmadığım üstünə əmr verən Abramov sadəcə DTK əməkdaşı deyil, SSRİ baş prokurorunun müavinidir.

Fyodor Gerasimoviç özü gəlib çıxır, adına yazdığım ərizəni oxuyur, yeni müstəntiqim ilə məni daha ətraflı tanış edir: - Yerdəyişmə oldu. Mənə doğru can atanlar, zəng edənlər çoxdur. İndən belə sizin işinizlə Aleksandr Georgiyeviç Qubinski məşğul olacaq.

Yeni müstəntiqim iradını bildirir; sonra ittihama keçir:

– Qara Yanvardan sonra Ali Sovetin sessiyasında iştirak etmisən. "Bakıda fövqəladə hərbi vəziyyət 48 saat ərzində ləğv olunmasa SSRİ ilə münasibətləri kəsməyə məc-

bur olacağıq" deyiblər. Susmusan, etiraz etməmisən… Sizin erməniləri işdən azad etmək çağırışınız hansı nəticələrə gətirib çıxarıb, burası öyrəniləcək. Ağır nəticə yalnız ölüm deyil, işçilərin həm də əmək qanunçuluğunun pozulmasıdır. İnsanlar göz açdığı yurdunu, evini, işini atıb gedir. Məgər bu, ağır nəticə deyil? Öyrəniləcək ki, siz təşkilat rəhbərlərinə necə yanaşıbsınız? Zorla, ya şirin dillə? Sizin hər sözünüz cəmiyyətdə əks-səda verir, həqiqət kimi qarşılanır. Şairin öz başlıca missiyasını – humanizmini əldən verməyə haqqı yoxdur. "Literaturnaya qazeta" nın son nömrəsində psixoloq-professor Artur Petrovskinin "Sindrom tolpı" məqaləsi verilib. Buyurun, macal tapsanız, oxuyun. Məğzi budur ki, qaynayıb-daşan izdihamı həmişə təşkil edən var, kiminsə uzanan barmağı yol göstərir. 30 yanvar tarixli sorğuda və 31 yanvar 1990-cı il tarixli etirafınızda bildirirsiniz ki, erməniləri işdən azad etmək tələbinizi başqaları ilə birlikdə irəli sürmüsünüz. Bu tələbi əsas götürüb haçan, hansı təşkilatlara kimlərlə getmisiniz?

Müstəntiqin bu sorğusuna dürüst cavab verməyə çalışıram. Övladları və əzizləri əsgərlikdə başlıca olaraq ermənilər və onların havadarları tərəfindən öldürülmüş ağbirçək Dilarə, Elmira, Naibə, Sərvinaz, Vətutə, Zərifə, Nübar, tarixçi Şəfiqə kimi qadınların etiraz və üsyan saça-saça hərbi komissarlığı, Ali Soveti, Akademiyanı, Rus Dram Teatrını, Yanğından Mühafizə İdarəsini… necə mühasirəyə aldıqlarını xatırlayıram. Öndə Mahirin və qətlə yetirilmiş başqa igidlərin şəkilləri… Piketçilərin üsyankar ləngərindən titrəyən hərbi komissarın nitqinin fitə basılması, boykot edilməsi xəyalımda yenidən canlanır.

Müstəntiqim qeydlər götürür, kompüteri işə salır. Yanındakı seyf önündəki təqvim, qoşa ağ telefon, arxasındakı Leninin əksi, tavandakı qoşa çilçıraq, mizüstü lampa, çay ziyafətindən sonra müstəntiqimin mənə təklif etdiyi, çəkdiyim papiros, sanki "Dızza, Dızza!" deyə səslənən kompüter həmişəlik yadda qalır. Birinci sürətini hərbi komissarlığa, ikinci surətini Ali Sovetə, üçüncü surətini Şimali Azərbaycan XC İdarə Heyətinin üzvü İsa Qəmbərə təqdim etdiyim, dördüncü surətini özümdə saxladığım məktubun məzmununu açıqlayıram. Ali Sovetdə bizi qarşılayan Naum, Abdulla Hacı oğlu İbrahimov, müşavir Tofiq Bağırov yoldaşların adlarını çəkirəm.

Kompüterdən çıxarılan protokolu hər ikimiz imzalayırıq.

## ÜÇÜNCÜ GÜN, 7 ŞUBAT 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Nahardan sonra yeni müstəntiqim Aleksandr Georqiyeviç Qubinski ilə təzədən görüşürəm. Əhval tutur. Sergey Arutyunyanın plenumdakı nitqini mənə oxuyur.

– Məkrdir! – düşünürəm. Çıxışbaz təklif edir ki, Dağlıq Qarabağ RSFSR-in ixtiyarına verilsin. Tula itdən betər!

Azərbaycan guya Ermənistanı iqtisadi blokada məngənəsində saxlayır, dəmir yolunu kəsib. Alçaq! Bəs Mehridə qatarlarımızı daşa, gülləyə basan, rels altına bomba qoyduğu məqamda özü gəbərən kimdir? Çobanları, naxırçıları gülləleyən, sürü-sürü qoyunları, naxır-naxır inəkləri Naxçıvan, Laçın həndəvərindən oğurlayıb aparan kimdir?

– "Oqonyok" dərgisinə sən gərək inanmış olasan, sərt yazır, sarı mətbuat sayılır. Budur, həmən dərgidə foto-surətlər. Tanış olun!

Burada 13-12 ocaq 1990-cı il tarixli Bakı hadisələri, erməni fəryadları və 20 ocaq 1990-cı il tarixli qoşun yürüşündən sonra şəhərin qanlı mənzərəsi əks olunmuşdur.

– Acını dadmasan, şirinin qədrini bilməzsən! – deyir Aleksandr Georgiyeviç. – Mənim bir dustağım vardı. "Zdes idyot u menya oçişşeniye!" deyərdi, ürəyinin başını göstərərdi.

– Bir gün gördüm pərvanə qalıb pəncərənin iki layı arasında. Gücsüzdür. Dırmanır yuxarı, yenə sürüşüb düşür tozun içinə. Ərinmədim. Sap tapdım. Uzatdım içəri. Pər-

vanə sapdan yapışıb qalxdı yuxarı və birdən qanadlanıb uçdu, nəfəslikdən çıxdı. O gün xoşbəxt idim. Dünyada barı bircə xilqətə azadlıq vermişdim.

– Bu mövzuda bir poema da var, gərək ki, Lesya Ukrainkanındır.

Müstəntiqim, Romen Rollanın "Oçarovannaya duşa" əsərindən misal gətirir:

– Həyat kitabların kitabıdır. Onu sonadək oxumaq, anlamaq hər kəsə müyəssər olmur.

"Vklyuçayem stanok!" – deyə kompüteri işə salan müstəntiqim səssiz işləyən yazı makinasının hərfləri üstündə əl gəzdirməyə başlayır. Bu gün iki əhvalatı danışıram. Hərbi hissədən göndərilən tabutu Ali Sovetin önündən Astaraya necə yola saldığımızı, "Ağır tabutlar gəlir" şerimi oxumağımı, bir də "Məndən başlanır Vətən" kitabımı mətbəədən necə xilas etməyimi, mənə misilsiz yardım edən xalqdan, yürüşdən daha heç vaxt ayrıla bilməməyimin kökünü.

# DÖRDÜNCÜ GÜN, 8 ŞUBAT 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Hüquq polkovniki Aleksandr Georgiyeviç Qubinski məni yenidən qəbul edir. 10 fevral 1813-cü il tarixli Gülüstan sazişinə qarşı universitetdə keçirilən etiraz mitinqini açıqlayıram. Şimali Azərbaycanın çar Rusiyası tərkibinə guya könüllü daxil olduğunu iddia edən, tarixi saxtalaşdıran tarixbaz alimcikləri, oyuncaq ziyalıları, Azərbaycanın heykəli qızıldan tökülməli milli qəhrəmanı Cavad xana, ADR lideri Məhəmməd Əmin Rəsulzadəyə, Əlibəy Hüseynzadə, Əhmədbəy Ağaoğlu, Mirzəbala Məmmədzadə kimi zəka məşəllərinə qara yaxan, böhtan atan saxtakarları lənətləyirəm.

– "Elmi kommunizm" kursunu ləğv etməli. Biz bu saxta fəndən imtahan verməyəcəyik! – deyə hayqıran tələbələrin alovlu nəfəsi, düyülmüş yumruqları qanımı yenidən coşdurur.

– İsti qan və göz yaşları içərisində olmağımıza baxmayaraq, biz bu gün milli intibah, mənəvi çiçəklənmə çağlarındayıq. Bu fikir baharı, bu oyanış, bu qalxınma bizə qüvvət və enerji verir.

On birinci Qırmızı ordunun Bakıya böyük məkr ilə soxulması, 1920-ci ilin 27 nisan (aprel) günündən başlayan və bir həftə davam edən qarət, namussuzluq, Azərbaycan ziyalılarınıın ən yaxşı nümayəndələrinin qurşunlanması, zindanlara atılması, Kirov, Mirzəyan, Serebrovski, Orconikidze kimi qırmızı qatillərin fəaliyyətləri ilə bağlı cinayətlər, aldadıldığını anlayan Nəriman Nərimanovun Azər-

baycandan zorla qoparılması, ermənilər üçün Dağlıq Qarabağ muxtariyyətinin təşkili, əlifbanın dönə-dönə zorla dəyişdirilməsi, ən parlaq qafa sahiblərinin pantürkçülük, panislamçılıq damğaları ilə ləkələndirilməsi, 1937-ci ilin faciələri və sonrakı xəyanətlər diqqətimdə dayanır.

Qara saçlı, ağ üzlü, pəhləvan cüssəli tələbə Paşa Paşasoyun mikrofon arxasında, üçrəngli bayrağın altında dedikləri düşür yada: Suverenlik anlayışına özümüz layiq deyiliksə, heç bir bəyannnamə, heç bir kəs bizə yardım etməyəcək. Biz suverenliyimizi daşdan, qayadan zərrə-zərrə, misqal-misqal qoparmalıyıq. Universiteti, Akademiyanı, institutları, mətbuatı, telegüzgünü, məscidləri partiya nəzarətindən çıxara bilsək, Azərbaycan Türkcəsini dövlət dilinə çevirməyi bacarsaq, dissertasiyaların Moskvada, Ali Attestasiya Komissiyasında deyil, öz elmi şuralarımızda təsdiqinə nail olsaq, bu da suverenliyimizin bir parçasıdır.

Müstəntiqim Aleksandr Georgiyeviç Qubinski "İzvestiya" qəzetinin bugünkü sayını mənə verir. Ruslan İqnatyevin Bakıdan telefonla verdiyi xəbəri oxuyuram: "18 yanvardan bəri dayanmış müəssisələrdə 180 milyon manatlıq itkiyə yol verilib. Bakı, Şuşa, Qazax (Yuxarı Əskipara, Aşağı Əskipara), Cəlilabad, Lənkəran rayonlarında hərbçilərə qarşı silah önduruş (müqavimət) hələ güclüdür. Xalq hələ tam tərksilah edilməyib".

Azərbaycan KP MK-nın birinci katibi Ayaz Mütəllibovun 7 şubat 1990-cı il tarixli "Pravda" qəzetində basılmış çıxışını oxumağa macal tapıram. Azərbaycanın suverenliyini tapdayanların Bakıya ordu yeritməsini ifşa etməyə cəsurluğu çatıbmı? Yox, A.Mütəllibov Kremlin nökəridir.

…Nahardan sonrakı sorğu-sual çağı Aleksandr Georgiyeviçin telefon söhbətindən bəlli olur ki, bacanağım Əlibala Məmmədsadıq oğlu Əlizadə Bakıdan gəlib, mənim

üçün bağlama gətirib. Axşam qayıdıb bağlamanı açanda bəlli olacaq ki, burada iki baton, qənd, peçenye, soğan, sarımsaq, limon kimi nemətlər var. Sviter, qaragül papaq, corab, köynək anbara verilib, ərizə yazıb almaq olar. Amma mənim bunlara ehtiyacım yoxdur.

Müstəntiqimin mənə verdiyi "İzvestiya"nı gözdən keçirirəm. Boris Pasternakın yüz illiyinə dair Lev Ozerovun məqaləsini oxuyuram. "Eşitdiyim bütün səslər içində ən gözəli sənsən, sükut!” (B.P.).

Nə qədər Puşkinbaz alimciklər var,
Sitatdı sözünün əvvəli, ardı.
Doktorluq əsəri yazmasaydılar,
Görəsən Puşkini kim tanıyardı.

Bu sarkazm da onundur. 1957-59-cu illərdə Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutu nəzdində Ali Ədəbiyyat kurslarının dinləyicisi olduğum çağlarda böyük şairin məruz qaldığı təqibləri, yataqxanamıza girib onun əleyhinə imza toplayanları xatırlayıram. Yazarlar birliyinin, ədəbiyyat fondunun üzvlüyündən çıxarılmasını tələb edirdilər. Mən qol çəkmədim.

– Gətirin, "Doktor Jivaqo"nu oxuyum, sonra baxarıq.

O vaxt bütün həngamə Nobel mükafatına layiq görülmüş "Doktor Jivaqo" üstündə qopmuşdu. "Pozor dlya naşey kulturı, çto ne oteçestvennaya akademiya, a şvedskaya razqlyadela qeniy poeta…

…Poet bıl çistoy müzıkalnoy sovestyu veka. K naşemu sçatyu on ne popal v QULAQ. On nosil QULAQ v sebe.

…Poet pervım tsenoy svoey sudbı probil jeleznıy zanaves i soyedinil kulturı. Vsemirnıy soyuz intelligensii - vot çto mojet spasti nas ot qibeli" (Andrey Voznesenski, Sveça Pasternaka, Pravda, 9 fevral 1990).

Xəyala dalıram. 1958-59 ayrıcında qalmış o qalmaqallı

günü bir daha anıram. Moskva, Dobrolyubov küçəsi, 11/13. Bu ünvanda yerləşən səkkiz qatlı binanı, əzəmətli yataqxanamızı sanki zəlzələ silkələyir. Xəbər gedib çatır Tver bulvar küçəsində, 25 nömrəli qəsrdə, Gertsen evində yerləşən institutumuza. Partiya, komsomol, həmkarlar təşkilatları dəyir bir-birinə:

– Necə ola bilər? Bütün institut qol çəkib Pasternakın Ədəbiyyat fondundan çıxarılmasına, bircə Bakıdan gəlmiş gənc şair Xəlil Rzadan başqa!

İmza yığanların başçısı xərçəng sifətli Laptev məni dilə tutmaq istəyir.

– Rədd olun! – deyirəm. – Qol çəkməyəcəyəm! Nur heykəlidir Pasternak! Predelkinoda dönə-dönə görmüşəm. Gedin gətirin, "Doktor Jivaqo"nu, oxuyum, görüm nədir. Sonrasına baxarıq. Qol çəkməyəcəyəm!

# QALDIRDIM CÜT YUMRUĞUMU

***"Не шевелись, гад!.. Руки в верх!" - Bakıda "Gənclik" metrosu yanında SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin mülki paltarda altı əməkdaşıtərəfindən həbs edildiyim çağda birisinin tapança lüləsini ağzıma tuşlayıban dediyi ilk cümlə***

Mən həyatda həmişə hörmət, izzət görmüşəm,
Bir nəzakət, bir ülfət, bir məhəbbət görmüşəm.

Yüyürüblər, üstümə çiçək-gül gətiriblər,
Bənövşəyə bükülü bir könül gətiriblər.

Alqış nəhri görmüşəm ləngərlənən salonda,
Bircə sözüm min qəlbə şöləsini salanda.

Yumruğumu görəndə meydan təlatümlənib,
Pərakəndə Vətənim birləşib, bütövlənib.

Yanaşıblar, analar gözlərimdən öpüblər,
Avtoqraf yazdıranda sözlərimdən öpüblər.

O gün bu məhəbbətin tamam əksini gördüm,
Kürəyimə tuşlanan, ürəyimə tuşlanan
Bir neçə avtomatın
Dolu diskini gördüm.

Dəmir gürzə dikəlib baxır təkcə gözüylə,
Soyuq, dar lüləsində yüz-yüz qanın axarı.

"Ne şevelis, qad!.. "Əllər!"
Əl yox, cüt yumruğum var.
Polad yumruqlarımı
Qaldırmışam yuxarı!

***Moskva, Lefortovo zindanı,***
***şənbə, 10 şubat 1990.***

# TƏMİZ HAVANIN DADI

Bu gecəli-gündüzlü 24 saatımın
Vur-tut bircə saatı keçir açıq havada.
Səmanın bir parçası aydın-aşkar görünür
Ən böyük həbsxana - bu şanlı Moskvada.

"Pravda" qəzetinin bir parçası əlimdə,
Yenə tütün eşirəm… xoş zümzümə dilimdə.
Apaydın  bilinərdi təmiz havanın dadı,
Zəhrmar "Pravda"nın tüstüsü olmasaydı.

***Moskva, Lefortovo zindanı,***
***şənbə, 10 şubat 1990.***

# BİRİNCİ GÜN, 12 ŞUBAT 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Yuxudan oyanan kimi Təbrizimi anıram. 12 fevral onun ad günü, ilkəsdi bayramıdır.

Qoy sənə doğulan günəş deyim ki,
Nurunla açılan al səhərəm mən.
Yeddi il yol gələn, ay mənim ilkim,
Gəldiyin yollara gül düzərəm mən.

Təbrizim ilə yaşıd şerimi tam xatırlamağa, bu mövzuda düşünməyə vaxtım, macalım yoxdur. "Pravda" qəzetinin son nömrəsini gözdən keçirirəm. Cənubi Afrika Respublikasının milli qəhrəmanı Nelson Mandela 28 il yatdığı "Viktor Förster" zindanından azad edilərkən "Urra!", "Yaşasın Mandela!", "Azaddır!", "Yaşasın Azadlıq!" sədaları ilə qarşılanmışdır. 30 il şəkli qəzetlərdə görünməyən Mandela qadını Vinni ilə birlikdə onun şərəfinə əzəmətli marş mərasimi keçirən Keyptaun meydanına yönəlir, sonra Yohannesburq Soueto adlanan şəhər kənarındakı evinə gəlir. Hüquqçudur. Dəmir iradə sahibidir. Şəklinə baxıb düşünürəm ki, bu mövzuda mütləq şer yazmaq gərək.

Başqa bir məqaləni oxuyub öyrənirəm ki, Semipalatinskidə 1949-cu ildən bəri atom və hidrogen bombası sınaqları nəticəsində on mindən çox adam şüalanma xəstəliyinə tutulub. Dəhşətdir. Dəhşət obyekti olaraq məhz Türküstan dünyasının seçilməsi təsadüfidirmi? Əsla! Həmən bölgədə ölüm tozlarının miqdarı beş dəfə artıb. Suyun, havanın, buludun, torpağın, iqlimin, canlı aləmin zəhərlənməsi öz dairəsini getdikcə genişləndirir. Çaylar, bulaqlar, kölgələr, dənizlər, ana südü zəhərlənir. Hər part-

layışdan sonra quyuların, kəhrizlərin, çeşmələrin suyu çəkilir, bir çoxu tamam quruyur. Kor quyular, kor bulaqlar yaranır. Son partlayış keçən il 12 fevralda, Təbrizimin ilkəsdi günündə keçirilib. Abay, Beşkaraqay, Cinasmey rayonları yaralıdır.

– Sən bu işlərə necə baxırsan? – kameradaşımdan soruşuram.

Qızıl saçlı, ağ köynəkli, 45 yaşlı Vladimir Mixayloviç Komuxin dillənir:

– Bəşəriyyəti var-yoxdan çıxaran, zəhmət adamlarını səadətdən məhrum edən ən böyük qara qüvvə dövlətlərin silahlanmasıdır, - deyir. – Bircə raket 12 milyon manata başa gəlir. ABŞ ilə sazişimiz əsasında 1.200 raketi məhv etmişik. Deməli, bircə qırpımda 1 milyard 200 milyonumuz batıb, heç uf da deyən yox! Bircə tankın xərcinə 25 kombayn yapmaq olar. Kiçik, böyük, orta mənzilli raketlər istehsalı, onları qoruyan ordular, DİN, DTK, partiya, komsomol sistemi… Hamısı xalqın, elmin qanadsızlaşdırılması hesabınadır. Krım AES-i, Yerevan AES-i dayandırıldı. Nə boyda xərclərin batdığını təsəvvür edirmisən? Hələ SOİ - Strateji Müdafiə Qurğusu! Bütün bunlar planetin, bəşəriyyətin bədənində əzəmətli xərçəng xəstəliyi hökmündə bəladır. Keçən il 40 min moskvalı köçüb xaricə. Bunun başlıca səbəbi həyat səviyyəsinin aşağı olmasıdır. Hakim dairələrin siyasi korluğu ucbatındandır. Tətillərin, mitinqlərin öhdəsindən gələ bilmirlər. Qorx ki, xalqı silah gücünə işə çıxaralar. Dinc bakılıları güllələmək və buna bəraət qazandırmağa cəhd etmək dövlətin gücündən deyil, gücsüzlüyündəndir. Demokratiya ölən yerdə zorakılıq başlanır. Qdlyan və Qdlyan bandasının məhkəməyə cəlb olunması heç bilirsənmi nə boyda cinay-

ətlərin üstünü açmalıdır! Polşadakı səfirimiz Borikovun plenumdakı çıxışı dəhşətdir.

Volodya deyinir. Mən isə onu dinləmirəm. Fikrimdə söz qoşuram.

Söz qoşmaq - cəhənnəmə
gedən bir yoldur, inan.
Cəhənnəmə gedirsən,
Bəzən cənnət tapırsan.

Nelson Mandela qəhrəmanlığı diqqətimdədir. Yohannesburq şəhərində polis atəş açmış, beş nəfər öldürülmüşdür. Yaralananlar içində cocuqlar da var. Onlar "Viva Mandela!" deyə hayqıranlardır.

Frederik le Klerk (Cənubi Afrika Respublikasının başçısı) Afrika milli konqresi və onun lideri Nelson Mandela önündə təslim oldu – sağ qüvvələr, ağlar belə deyirlər. "Afrika müqavimət hərəkatı" başçıları hökümət iqamətgahı pillələrinə N.Mandelanın rəmzi tabutunu qoymuşlar. Corc Buş telefon söhbətində N.Mandelanı Vaşinqtona görüşə dəvət etmişdir. 27 il həbsdə yatmış qəhrəman məmləkətin ən çox əhali yaşayan Soueto şəhərində, öz evindədir. Bildirir ki, vahid demokratik Cənubi Afrika yaratmağa doğru aparan yol hökümətin ölkədəki fövqəladə vəziyyəti ləğv etməsi və siyasi dustaqların azad olunmasıdır. Başqa yol yoxdur.

# İKİNCİ GÜN, 13 ŞUBAT 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Bu gün müstəntiqim Aleksandr Georgiyeviç Qubinski mənimlə sərt davranır. Bakıda Yanğından Mühafizə İdarəsinin əməkdaşı Yusifzadənin mənə qarşı ittiham yazdığını bildirir.

– Ermənilləri işdən azad edənlərin başçısı sənmişsən! – deyir. – "Çənlibel"dəki çıxışlarınız ilə maraqlanacağıq. İpin ucu oradan başlanır. "Xotyat li russkiye voynı?" türküsünü lağa qoymaq təşəbbüsünüz olubmu?

– Velikorus şovinizmini ifşa etmək məni həmişə düşündürüb. Ola bilsin ki, bu mahnıya da sataşmışam. 1956-cı ildə Budapeşti qanlı qəssabxanaya çevirən, 1968-ci ildə Çexoslovakiyanı, Praqanı darmadağın edən, 1979-1988-ci illərdə Əfqanıstana burnunu soxan, 1986-da Alma-Atanı al qanına bələyən, 1989-da Tiflisi qurşunlayan, 1990-ın 20 yanvarını Bakıda qırmızı cəhənnəmə çevirən bəs kimlərdir?! Bu mahnını orkestr önündə çox böyük ləzzətlə oxuyan generallar, zabitlər deyilmi?

Sakit və qüdrətliyəm. Özümü mümkün qədər soyuqqanlı, təmkinli aparmağa çalışıram. 1920-ci ildə burnunu Azərbaycana və Polşaya soxan, 1936-1939-cu illərdə İspaniyaya hərbi müdaxilə yapan, bir il keçməmiş finlərə qarşı qanlı meydan açan, 1944-də azad Tuva ölkəsini "sakitcə zəbt edən", hələ bundan xeyli öncə Uzaq Şərqi, Sibiri, Türküstanı, Qafqazı öz cənginə keçirən həmən mahnı müəllifləri deyilmi? 300 ildən çoxdur ki, rus imperiyası qara qanadlarını gərir, dağlıları, çeçenləri, türkləri, müsəl-

zib etsin, rus dövlətinin öz övladları tərəfindən dolandırıldığını sübuta yetirsin. Əslində, bu dövlətin beşiyi başında dayananlar gah normanlar olub, gah türklər-tatarlar, gah yəhudilər, gürcülər. İndi də növbə çatıb ermənilərə . Bütün ermənilərin katalikosu Birinci Vazgen əbəs yerə demir ki, bu Moskvada ermənilər 600 dövlət telefonuna malikdirlər. Krasnodar, Stavropol kimi əzəmətli şəhərlər çoxdan "Böyük Ermənistan imperiyası"nın ayrılmaz parçası olub. İndi növbə Moskvanındır. SİTA-nı RİTA-ya çevirənlər yaddan çıxarırlar ki, Rita yalnız yatağa yarayan pozğun bir erməni qadınıdır.

Bu gün rus silahı yalnız və yalnız Birinci Pyotrun vəsiyyətlərini yerinə yetirməklə məşğuldur. Rus süngüsü Dehliyə və İstanbula – Böyük Hind okeanına və Aralıq dənizinə yol açmalıdır. Bu iki qitəyə gedən yol Türküstandan, Qafqazdan keçir. Bu kirli, murdar, nəqşəni yerinə yetirmək uğrunda nə qədər qanlar tökülüb, gözəl bilirsiniz. Bircə Cavad xanın, Şeyx Şamilin, yaxud Ənvər paşanın adını çəkmək yetər ki, keşiyində dayandığınız Lefortovo zindanı yenidən silkələnsin.

Heç tamam olmamış XX əsr
Vətənim dörd dəfə ayağa qalxmış.
Söylə, hansı xalqın qanı bu qədər,
Qanı dərya-dərya havayı axmış?

Dinclik illərində, xüsusilə qanlı müharibələrin gedişində milli xarakterlər aydınlaşır. Hələ keçən əsrdə Qafqazın fəthi zamanı Rusiyanın ən işıqlı qafa sahibləri, Puşkin, Lermontov, Lev Tolstoy kimi dahilər öyrənmişlər ki, ayrı-ayrılıqda fərdlərtək millətlərin də növü var.

Tı - vor, tı - trus, tı - armənin!

Bu misra böyük Puşkinindir. Oğrunun, ağciyərin milli səciyyəsi o vaxtdan bəri bir az zənginləşib. O, yalnız oğ-

ru və bərk ayaqda dabanına tüpürən deyil, həm də əzazil, qaniçən, murdar və iyrəncdir. Bunun əksinə, tatarın, türkün nəcibliyi, xeyirxahlığı, çeçenin döyüşkənliyi, azadlıqsevərliyi, dağlının cəsurluğu, mərdanəliyi, üsyankarlığı rus dahilərinə bəlli olub.

… Hörmətli Aleksandr Georgiyeviç, Sizin ümdə vəzifəniz Puşkini yıxmaq deyil, onu təkzib etmək deyil, əksinə, milli xarakteri aydınlaşdırmaqda, mərəzi və dərdin dərmanını göstərməkdə ona yardım etmək olmalıdır. "Hacı Murad"ın davamını siz yazmalısınız, öz hüquqçu qələminizlə! Biz ziyalıyıq. Bizim vəzifəmiz bəşəriyyətin həyatına ziya, işıq gətirməkdir. Bu bilik işığını, zəka nurunu cəmiyyətə biz gətirməsək, yarasadan, hörümçəkdən fərqimiz yoxdur.

Ermənilər 1915-ci ildən bəri bar-bar bağırırlar ki, onlar türklər tərəfindən soyqırımına məruz qalıblar. Əslində soyqırımına düçar olan bizik, 1905-dən bəri 2 milyon Türkazər Qərbi Azərbaycandan (indiki Ermənistandan) zorla çıxarılıb, qovulub, didərgin salınıb, al qanına bələşdirilib. 1918-də öldürülən Aşıq Nəcəfi tanıyırsınızmı:

Nəcəfin belində qaynar samovar
Çiynində alovlu şırımlar saldı.
Təzənə əlindən düşəndə naçar,
Səni gözlərinin yaşıyla çaldı.

Bu misralar mənim "Saz" şerimdəndir, 30 il bundan irəli Göyçədə Ağkilsə kəndində, İsmixan, Haqverdi, Ələsgər kimi dostlarımın yanında yazılıb. İndi onlardan heç biri Göyçədə qalmayıb. Səpələniblər dünyaya. Ormanlarda, dərələrdə, dağ aşırımlarında acından, susuzluqdan, şaxtadan bağrı çatlayıb ölənlərimiz daha çoxdur.

…Bir var qatillik, bir də var əzazil qatillik, ölümün, işgəncənin ən murdar növündən zövq almaq, sadistlik - ermə-

ni üçün tipik bir haldr. Naxçıvan, 1918. Yaşıl təpə yamacında Andronikin qoşunları. Günəş qürubu. Andronik əyləşən kreslonun zəri günəş qürubunda parlayır. Qarşıda yanar kömürlə dolu iki böyük samovar buğlanır.

– Haydı,gətirin əsirləri!

Qolları arxadan bağlı türkazər əsirlər gətirilir.

– Çatın bu samovarları o iki əsirin arxasına! Beləcə… Açın samovarların puslarını! Beləcə!.. Kim əsirləri bu işgəncədən qurtarmağa çalışsa, samovarlar açılıb onun arxasına bağlanacaq!

Mağara sakini dinozavr görkəmli Andronikin səsi yaxındakı bulağın şırıltısını susdurur. Mən uzaqdan, ağac budağından baxıram. Əlimdə durbin var. Durbinsiz də bu cinayətləri aydın görmək olur. Əsirlərin fəryadı dağı, daşı yandırır. Biz bu cinayətlərə qarşı susaqmı deyirsiniz? Barı cınqırımızı da çıxarmayaq, eləmi?

Şair anlayışının tərifi çoxdur. Bir tərifi də, məncə, yaddaş deməkdir: Xalqın yaddaşı, bəşəriyyətin yaddaşı! Siz niyə bizi yaddaşdan, ən elementar beyin funksiyasından da məhrum etmək istəyirsiniz, Aleksandr Georgiyeviç?!

Qollarını qoynunda çarpazlamış qızıl saçlı, mavi gözlü Aleksandr Georgiyeviç qarşımda bunca sükut etməyin münasib olmadığını görüb dillənir.

– Yaddaş yaxşı şeydir. Amma sən bu gündən danış. Sizin cinayətləriniz dünən yox, keçmişdə yox, bu gün olub. Bu gündən danış!

– Bu gün ermənilər dünya boyunca bar-bar bağırırlar ki, biz onları iqtisadi blokada məngənəsində sıxırıq. Tam əksinədir. 1828-ci ildən sinəmizdə gürzə bəsləmişik. Türkiyədən, İrandan qovulan ermənilərə yuxarı Qarabağda və başqa bölgələrimizdə yer vermişik. Azərbaycanın türk qonaqsevərliyi bu gün başımıza bəla olub. Mehridə qatarları-

mızı daşa, gülləyə basan, vaqonlarımızın pəncərələrini çilik-çilik edən kimdir? Naxçıvanda rels dibinə partlayıcı maddə qoyduğu yerdə həlak olan yeniyetmə kimdir? Sədərək yaylağında iki çobanı avtomat atəşilə yerə sərən, 1.250 baş mal-qaranı, qoyun-quzu sürülərini dəhrəmləyib aparan kimdir? Laçından Şuşaya, qohumlarına baş çəkmək istədikləri məqamda, bulaqdan su içdikləri yerdə Orduxanı və arkadaşını güllələyən, gözlərini deşən kimdir? Özünü qayadan atmaqla ölümdən qurtulan üçüncü yoldaşın adını heyif ki, xatırlamıram. Xocalının, Kərkicahanın büllur təki gözəl evlərini top atəşilə darmadağın edən kimdir?

Təşkilatlara, müəssisələrə getdiyimiz zaman bizi maraqlandıran yalnız ermənilərin təxribatçılığı, özgə torpağını mənimsəmək cəhdi deyildi. Həm də dərdlərə illər boyu biganəliymiz idi. Niyə 70 ildir susuruq? Niyə insanların çoxu manqurtlaşıb, itirib yaddaşını!

Biz təşkilatlara gedirik ki, öyrənək: niyə bu boyda kollektiv xalqın bağrını yaran bunca dərdlərə biganədir? Hanı bu müəssisə işçilərinin fərdi, yaxud kollektiv ərizələri, məktubları, teleqramları! Biganəlik ən böyük mərəzdir, ən üfunətli infeksiyadır. Gedirik, öyrənirik ki, bu təşkilatda ermənilər özlərini erməni kimi aparır, yoxsa adam kimi?! Daşnak avantürasına qarşı səslərini qaldıran varmı?

Nə üçün Mərkəzi televiziya, Mərkəzi mətbuat baş verən hadisələri düzgün işıqlandırmır, ermənilərin yaraqlılarını, döyüşkən xoruzlarını könüllü, bizim könüllüləri isə "döyüşkən xoruz" kimi qələmə verir?

Qubadlıda məzar daşlarınadək yandırılan Eyvazlı kəndi, öldürülən sovxoz direktoru, qayalar dalında gizlənib insan ovlayanlar, Xankəndidə üstünə neft, benzin tökməklə

alışdırılan 200-dən çox türk evi, institutun Azərbaycan bölməsinin ləğvi, İrəvanda Azərbaycan Dövlət Dram Teatrının və türkcə buraxılan bütün qəzet redaksiyalarının darmadağın edilməsi, beş mindən çox toponim, hidronim və etnoniminin dəyişdirilməsi, erməniləşdirilməsi, bizim partiya və hökumətin bu cinayətlərə qarşı təslimçilik kursu, respublika prokurorluğunun, DTK-nın, DİN-in xalqa zidd fəaliyyəti, Lev Davidyan və Rudolf Mirzoyanın Mərkəzi Komitəyə işə gətirilməsi, köç yolunda aclıqdan ölən ana və onun qızı, "Azərbaycan müəllimi" qəzetinin əməkdaşı Flora Xəlilovanın mitinqdə çıxışı zamanı fışqıran isti göz yaşları… Hər şey yaddaşımdadır. Təşkilatlara gediş, əslində, vicdanı sakitləşdirmək üçündü, bir sıra hallarda özünü aldatmaq kimi bir şeydi: Gedirəm, guya mən də bir iş görürəm. Yerevan – Kreml – Vatikan – Paris – London – Vaşinqton çevrəli qlobal cinayətin qarşısında bu iş əslində son dərəcə cüzi idi və cüziliyi öz ürəyimizi yandırıb-yaxırdı. Daşnak rus silahına güvənib 318 min türkazəri Ermənistandan, əslində, klassik Azərbaycandan qoparır, biz isə burada "Qrakan Azərbaycan" dərgisini, ermənicə "Kommunist" qəzetini, yaxud radio, teleşirkət redaksiyasının murdar bölməsini qapamaqla yetinirik.

– Sən dünyaya səyahətindən danışma, öz işindən danış! – deyən müstəntiqimi dinləyirəm. Öyrənirəm ki, 17 yanvar 1990-cı il tarixli sorğu-sual çağlarında İslam Tağıyev adlı birisi bildirmişdir ki, dəstəbaşı Xəlil Rza Yanğından Mühafizə İdarəsində rəis və polkovnik S.İ.Məmmədovu, onun müavini A.N.Nuriyevi, "Yandıracağıq! Dağıdacağıq sizin idarəni!" kimi hayqırışları ilə hədələmiş, onların istefa verməsini tələb etmişdir. O, öz ifadəsində məni başı şapkalı, ağ saçlı, 50 yaşlı kişi Şair kimi təqdim edir.

Yanğından Mühafizə İdarəsinin əməkdaşı A.E.Yusifzadə isə mənimlə 20 dəqiqə söhbətləşdiyini bildiribmişdi. Dəqiq yadımda deyil. Ola bilsin bu, həmən adamdır ki, bu idarədə türkazərcəyə hörmət qoyulmadığını pillələrdən endiyimiz zaman üzünə çırpmışam.

– Sabah azadsan. Məhəmməd Hatəmi Tantəkini dinləyəcəm!

# DÖRDÜNCÜ GÜN, 15 ŞUBAT 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Qırmızı, dəmir qapımız yenə cingilti ilə açılır. Öndə və arxada gedən paqonlular məni istintaqa gətirirlər. Hüquq polkovniki, şabalıd saçlı, gözlüklü, sol biləyi qızıl saatlı, sarışın sifətli, qəhvəyi köynəkli müstəntiqim Aleksandr Georgiyeviç Qubinski ilə salamlaşırıq. Yanğından Mühafizə İdarəsində və "Azərnəşr"də olduğumuz çağları açıqlayıram. "1905-ci ildən bəri ermənilər velikorus şovinizminə, onların dövlət aparatına güvənərək bizim başımızda dəyirman hərləmişlər". – Lentə alınmış bu sözlərimi üzümə çırpır. Təsdiqləyirəm və dediklərimi sübut etməyə çalışıram.

– "Velikorus şovinizmi" ifadəsi V.İ.Lenınindir! – deyirəm.

– Yanğından Mühafizə İdarəsindən çıxandan sonra neylədiniz?

– Fəvvarələr bağında mitinq yapdıq. Simasızları, biganələri necə ifşa etdiyimizi bildirdik. Sonra da "Azərnəşr"ə gəldik. Nəşriyyatın direktoru Əjdər Xanbabayev ilə görüşdük. Burada erməni redaksiyasının qapandığını bildirdi. Müqəddəs Quranın və başqa gərəkli kitabların bu yaxınlarda çapdan çıxacağına dair məlumat verdi. Ogünkü görüşümüz Mərkəzi Komitə önündəki böyük mitinq ilə tamamlandı. Mən Azərbaycan ziyalılarına xitab etdim. Başda İmam Mustafayev, İsmayıl Şıxlı, Ziya Bünyadov, İsa Hüseyn Muğanna, Yaşar Qarayev olmaqla, bütün ziy-

alılarımızı irticaya müqavimət göstərməyə, susmamağa, girlənməməyə, zəka və mütəşəkkillik nümayiş etdirməyə çağırdım.

– Hər bir təşkilat, hər bir fərd insan hüquqlarının, millət hüquqlarının tapdanmasına qarşı öz qəzəbini, öz səsini ucaltmalıdır. Hər kəs öz teleqramı, məktubu, gündəlik fəaliyyətilə antihumanizmin, qəsbkarlığın yolunu kəsməyə çalışmalıdır. Biz mürgü vurmamalıyıq. Yazıçı, alim, sənətkar, vətəndaş vicdanının yatmağa haqqı yoxdur.

Çıxışımın məğzi bundan ibarətdi. Müstəntiqim məni dinləyir və makinada öz işini görür. Arxasındakı yeganə pəncərənin ağ və sarı pərdələrindən bayırda yağan qarı aydın görürəm. Küncdə dəmir seyf, divarda dəniz və orman mənzərəsi, yaraşıqlı böyük təqvim, divara söykənmiş kitab şkafı, masa üstündə kompüter, iki ağ telefon, mənə dair sənədlər, başımız üstündə V.İ.Leninin daz başlı şəkli, aşağıda qırmızı örtüklü səkkiz stul, rəfdə güldan bitkiləri…

– Məhəmməd Hatəmi Tantəkin kişiyə mənim salamımı söyləyin!

– Baş üstə! – söyləyir. – Qardaşı Bakıdan gəlmişdi. Bağlama gətirmişdi.

Müstəntiqim qayğılıdır. Söhbətlərimizdə həqiqəti açıq deməyim,
səmimiyyətim, deyəsən, onu bir azca sarsıdıb. Qollarını qoynunda çarpazlayır: – Görürsənmi, vəziyyətimiz necə ağırdır. Macarıstandan, Monqolustandan, Çexoslovakiyadan, Almaniyadan ordumuz çəkilir. Hərbçilər ailələri ilə birlikdə geri qayıdır, bütün ağırlıqları da ana Rusiyanın

çiyinlərinə düşür. Bakının alovu Düşənbəyə keçir. Oradan ermənilər qovulur. Mərkəzi Komitə, mağazalar, avtobuslar, təşkilatlar dağılır. Qan və qarət güclənir. Bu yandan Mesxeti türklərinin acı taleyi, o yandan Ermənistan, Azərbaycan didərginləri… Culfa Ermənistana qatar buraxmır. Bakılılar patrullara hücum edir. Bəşəriyyət nə gündədir. Tək bircə tankın xərcinə 25 kombayn yaratmaq olar. Ermənistan AES-i dayandırıldı – zəlzələ sahəsində olduğuna görə!.. Krım AES-i dayandırıldı – xalqın tələbinə görə!.. 1200 qanadlı raketimizin qanadlarını yolduz – ABŞ ilə sazişinizə görə. Təsəvvür edirsənmi, nə boyda xalq sərvətləri batıb gedir. Xalq özü qan-yaş, üsyan içində!

Əsərlərinizdə, Xəlil bəy, bu dəhşətli cəhənnəm mənzərəsini göstərin və bir sorğuma mümkünsə cavab verin: Məhəmməd Əmin Rəsulzadə adına ADU "Vahid Azərbaycan" təntənəsi keçirib, "Gülüstan" sazişini qəsbkar aktı kimi dəyərləndirib, damğalayıb, pisləyib. Siz bu təntənədə çıxış etmisiniz. Sizcə, Naxçıvandan başlamış Astarayacan sərhədlərin dağıdılmasına o çıxışların və şəxsən sizin alovlu nitqinizin təsiri olubmu?

– Şəksiz, müəyyən dərəcədə olub. Lakin bu faktı şişirtmək olmaz. Axı Azərbaycan poeziyası 150 ildən çoxdur car çəkir. Car çəkir ki, qəsbkarlar tərəfindən parçalanmış Vətənimiz birləşməlidir. Mən Bakıda və Azərbaycanda, şer gecələrində, ümumən böyük təntənələrdə Həsənzadə Məryəm xanımın bir şerini  bəlkə yüz dəfə əzbər demişəm, bütün Azərbaycanı o şerin idealları səviyyəsinə ucalmağa çağırmışam:

Mən açım dərdimi, kimə deyim ki,
Ağlaya bilmərəm, gülə bilmərəm.
Həyat bir, ölüm bir, Vətənsə iki,
Mən böylə dərd ilə ölə bilmərəm.

Qəhqəhə çəkim ki, tutsun cahanı,
Sızlasın bağrımda  yaram, demişəm.
Birləşdirməyincə Azərbaycanı,
Ömrümü özümə haram demişəm.

# GÜNÜ GÖZƏL KEÇİRMƏK

"Qalx!"  komandası verdi keşikçimiz qapıdan.
– Qalxdıq, yoldaş kapitan!

– Mənəm bu gün növbətçi - təmizlik gözətçisi.
Bu gün  bərq vursun gərək bu köşkün hər incisi.

Göy ləyənə su töküb, isladıram şəlpəni,
Səliqəylə silirəm sanki qızıl külçəni.

Şölə verir döşəmə, parlayır necə par-par.
Üç çarpayı, dörd divar.

Yeganə stulumuz elə bil şah taxtıdır.
Varlığım kamerada Azadlıq paytaxtıdır.

Cüt qaşığı, boşqabı, lüləyi də silirəm,
Hər birini gövhərim, zərim, dürrüm bilirəm.

Qələmlərim yan-yana, kağızlarım ağ çiçək,
Qılınc qələm bir azdan düşmən qanı tökəcək.

Ağ çaydanda bir azdan bir laləzar gələcək,
Bənövşəm birəllidə kiçik gülzar gələcək.

İsidib əllərimi çay buğlana-buğlana,
Lənkəranın ətrini yayacaq dörd bir yana.
Tüstülətmək istəsəm "Zolotoye runo"nu,
Aram-aram, ləzzətlə nuş  edəcəm mən onu.

Barmaqlıqdan baxacaq bahar qədər nəşəli,
Günəş-cahan məşəli, şerim qədər şöləli.

Biz gəzməyə çıxanda bəlkə də qar yağacaq,
Dəmir tordan başıma ağ ulduzlar  yağacaq.

Səpiləcək ağappaq, tər badam çiçəkləri .
Qarın hər bir danəsi ya gövhər, ya mirvari.

Başım - səadət tacı, mən - Azadlıq Allahı,
Bu cür qarşılayıram zindanda hər sabahı.

Başlanacaq bir azdan sorğu-sual, istintaq.
O dalğadır, mən – bir dağ.

Qara şübhələrini darmadağın edəcəm,
Dəmir-beton divarı qəlpə-qəlpə didəcəm.

Yumşalacaq müstəntiq, bir qəhvə dəmləyəcək,
Qənd atıb, qarışdırıb: - Buyur, nuş et! - deyəcək.

Gözlərimə baxanda
Azca gülümsəyəcək.

Beləcə başlanacaq günü gözəl keçirmək,
Ömrümün hər qırpımına bir ümmanı içirmək.

Günü gözəl keçirmək -
Barmaqlıq arxasında təmiz hava udmaqdır.

Vətən ləyaqətini, kişi ləyaqətini
Canından və günəşdən bir az uca tutmaqdır!

***Moskva, Lefortovo zindanı.***
***18 şubat 1990***

# BAZAR, 18 ŞUBAT 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Süd kimi ağappaq qarın yağmağından yalnız gəzinti sahəsində xəbər tuturuq. Başımız üstündəki dəmir tordan lülə-lülə buz sallanır. Yuxarıda papaqlı, kürklü keşikçinin yeknəsəq addımları səslənir. Tütün çəkə-çəkə Volodya ilə danışırıq. Bu il sarsılan SSRİ-dən yarım milyon yəhudinin gedəcəyi, 70 ildə törədilən fəsadlar, əksinqilabın inqilab kimi qələmə verilməsi, Yəhudi Muxtar Vilayətinin və İsrail dövlətinin təşkilində İ.V.Stalinin rolu, fələstinlilərin öz ərazilərindən İordaniyaya doğru sıxışdırılmaları, Almaniyanın şərqindən qərbinə axının getdikcə güclənməsi söhbətlərimizin canıdır.

Zahirən Volodyaya qulaq assam da, onu dinləmirəm. Dünya türklərinin vətəni – Turandır. Bu anlayışı, Turan kəlməsini şerdə ilk dəfə işlədən, dahi sərkərdə Atillanın nəvələrinə – macarlara xitab edən bizim böyük Əlibəy Hüseynzadəni anıram:

Sizlərsiniz, ey qövmi-Macar, bizlərə ixvan.
Əcdadımızın müştərəkən qaynağı Turan.

Onun şagirdi, dahi türkçü Ziya Göyalp bu fikri düstur şəklinə salmışdır:

Vatan nə Türkiyədir Türklərə, nə Türküstan,
Vatan böyük və müəbbəd bir ölkədir: Turan.

XX əsrdə türkçülüyün, yəni türksevərliyin büllur qaynaqlarından su içmiş şair, yazıçı, alim, tarixçi, filosof Nihal Adsız bayrağımızdır.

Məslək uğrunda könüllər dəlidir.
Kişilər məslək üçün ölməlidir.

Zindanın divar betonundan zərrə boyda sementi qoparıb tasın içinə atıram.

# BİRİNCİ GÜN, 19 ŞUBAT 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Üstündəki dəmir torundan buz salxımları sallanan gəzinti sahəsindən qayıtdığımız zaman kameradaşım, "kiçik qardaşımız" deyə arabir cırnatdığım Volodyanın yarımxaraba kitabxanadan sifariş ilə gətizdirdiyi kitabları gözdən keçirirəm və birdən dürdanə tapıram: Yapon yazarı Natsume Soseki (1867 – 9 dekabr 1916), "Ürək" romanı, Leninqrad, 1935, Tərcüməçi və ön sözü yazan N.İ.Konrad. Mənim gözümdə şəksiz dahidir Konrad. Onun qızıl qələmindən çıxmış "Zapad i vostok" kitabı – mənim stolüstü kitabım möcüzə bir əsərdir. Qərbi və Şərqi iki beyin yarımkürəsinə bənzədir. Bunları qarşı-qarşıya qoymaq olmaz. İnsan başı vahid olduğu kimi, planet və bəşəriyyət də vahiddir. Beyinin sağ yarımkürəsində doğmuş fikrin sol yarımkürəsinə keçməsi labüd olduğu kimi, Şərq intibahının da Qərbə keçməsi qaçılmazdır. Qazax şairi Oljas Suleymenov bəlkə bunu nəzərdə tutduğuna görə, bir şerində yazır ki: "Nə Doğu var, nə Batı. Vahid Yer kürəsi var",

Planet, bəşəriyyət vahid olsa da, ayrı-ayrı millətlərdən, xalqlardan, tayfalardan ibarətdir. Bəşəiyyətə xidmət amalı öz millətinə xidmətdən başlanır. Ziyalı öz millətinin və özgə millətin səadəti uğrunda çarpışan qəhrəman deməkdir.

Tokioda təhsil alan tələbə gəncin birinci şəxsin dilindən yazılmış romanını oxumağa başlayıram. Əsər arvadı Sidzu xanımla konuşmaları, görüşləri əsasında qurulub.

# İKİNCİ GÜN, 20 ŞUBAT 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Bu gün öz adımın və soyadımın yanında "Azadlıq" kəlməsini böyük hərflərlə yazmaq istərdim. Gözəl bir yuxu görmüşəm.Türkan. Bağ evimiz. Doğmalar. Yaxınlıqda uca bir minarə. Başı kəlağayılı ilahi bir gəlin, dünya gözəli gənc ana qulpundan yapışdığı təkərli beşiyi irəlilədə-irəlilədə mənim şerimi avazla oxuyur.

Könlüm eşi gəldi,
Evin günəşi gəldi.
Ocağımın alovu,
Odu, atəşi gəldi.

İri, qara-qonur gözlərindən süzülən, uzun kirpiklərini isladan, qızılgül yanaqlarından yuvarlanan qəm və sevinc yaşları parlayır. Hovuz qırağında dayanıb əllərilə su çəkən qardaşım Tofiq Rza gəlini barmaq işarəsi ilə göstərir, türkülərə diqqət kəsilməyini tələb edir.

Gəlin ağ bələkdəki körpəsini qucağına alır, oxuya-oxuya irəliləyir, mavi kaşılı minarənin başına qalxır. Ardınca gedirəm. Cocuğu əlindən alıram ki, asanca qalxa bilsin.

Ömrüm, yeganəm, bircəm,
Gözü şehli gülqönçəm!
Nə bir qəm ye, nə ələm:
Sapsağlamam, dipdiri.
İkinci minilliyin
Ən qüdrətli şairi!

Minarənin ortasında bələk əlimdən düşür. Uçunuram. "Aman, vay!" deyə yerimdəcə donuram. Gəlin isə oxumağına davam edir.Yaşlı, gülümsər gözlərinin işarəsilə bildirir ki, cocuğa zaval yoxdur.

– İndicə onu sağ-salamat tapacağım!

Əlimdən yapışır. Və çox qəribədir: aşağı enmək əvəzinə yuxarı qalxırıq. Ağ bələyi açıq pəncərə çərçivəsinə ilişmiş görürük. Cocuğu bağrıma basıram. Bu ki mənim Təbrizimin cocuqluğudur. Dodaqlarını necə də bir-birinə qısıb.

Minarə hücrələrinin bir neçəsinə baş çəkirik. Burada qana bələnmiş quzular və qırmızı qanadlı qazlar var. Cocuq anası oxuduqca onların hamısı sağalır, öz rəngini alır və sanki yuxudan ayılırlar.

Minarənin ən uca zirvəsinə qalxırıq. Gəlin oxuyur. Ancaq ayırd edə bilmirəm. Eşitdiyim bizim Firəngizin səsidi, yoxsa mənimlə bir sırada tətil və mitinqlərə yollanan tarixçi Şəfiqənin səsi? Bu qadını son dəfə 1990-cı ilin 20 ocaq gecəsi dinləmişəm. Bacılığını itirdiyi üçün fəryadı telefon naqillərini qırırdı.

…Minarənin başından görürük ki, bağımız, bütün Türkan, bütün aləm ağappaq çiçəklərə qərq olub. Süd rəngli badam bağları elə bil indicə qanadlanıb ağappaq buludlara qoşulacaq. Gəlin oxuyur:

Könlümün eşi gəldi,
Evin günəşi gəldi.
Ocağımın alovu,
Odu, atəşi gəldi.

# İKİNCİ GÜN, 20 ŞUBAT 1990, MOSKVA., LEFORTOVO ZİNDANI.

Nahardan sonra müstəntiqim Aleksandr Georgiyeviç Qubinski ilə görüşürəm. Qardaşım Rüstəm Rzanın məktubunu, məhəbbət və həyəcanlarını, SSRİ deputatları sırasında Kremlə, sessiyaya gəlmiş Anarımızın İttifaq prokuroru Suxarev ilə görüşməsi məlumatını mənə yetirir.

Müstəntiqim hiddətlidir. Rumıniyada hökümət evini dağııdanlar, Leninin heykəlini yıxanlar, Daniil Qranin, Yevtuşenko kimi xadimlərin mövqe dəyişkənliyi, Stalin, Yejov, Brejnev, Suslov ehkamları əsasında qurulan sosializmin puça çıxması onun beynini alovlandırır. Rüstəm Rza zəng edir. Konuşurlar.

– Anar Suxarev ilə görüşə bilibmi?

– Görüşüb. Hələ nəticəsi bilinmir.

Son cümlə Rüstəm Rzanındır. Müstəntiq onun məktubunu mənə
verir.

**QARDAŞIM XƏLİL!**

Günaydın! Səni – xalqımızın böyük oğlunu bağrıma basıb öpürəm.

Evdən nigaran qalma. Hamımız gedib gəlirik. Evi hər şeylə təmin etmişəm. Qələm yoldaşların tez-tez baş çəkir və zəng edirlər. Üçüncü gündür Moskvadayam. Anar ilə görüşdüm. O, SSRİ prokuroru Suxarevə baş çəkib, sənin barəndə söhbət edib. Nəticəsini bu axşam öyrənəcəyəm. Nə lazım olduğunu öz müstəntiqinə – Aleksandr Georgiy-

eviçə söylə ki, mənə yetirsin. Telefon əlaqəmiz var. Çalışacağam ki, dördüncü gün sənə bəzi şeyləri çatdırım. Əlbəttə, Firəngiz çox əzab çəkir. Hamımız onun yanındayıq.

***Rüstəm Rza,***
*Moskva, 19 şubat (fevral)1990.*

# ÜÇÜNCÜ GÜN, 21 ŞUBAT 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

"Kolumb və onun kəşfləri" (Moskva, 1950) kitabını oxumağa macal tapıram. Bəlli olur ki, Kolumbun elmi məqsədlərindən daha irəli gedən məramı mirvarı, qızıl xəzinələri ələ keçirmək və özünə silah gücünə təslim etdiyi hindliləri qula çevirib satmaq imiş. Barmaqlıq dalında yatması, əllərinin, ayaqlarının zəncirlənməsi də bu səbəbdəndir. Haiti, Kuba, Yamayka, Moskit adaları və qitənin sairə yerlərinin sakinləri admiralı çörək, balıq və meyvə ilə qarşıladıqları halda, o, hindliləri qul edib Avropa bazarlarında satmağa gətirir.

Müstəntiqimin çağırışına qoşuluram. Məni cibindən dörd patron tapılmış Etibar Səlidar oğlu Məmmədova qarşı qaldırıılan ittiham ilə tanış edir. Tanışlıq sənədini imzalayıram. Firəngizə, iş yerimə, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru professor Yaşar Vahid oğlu Qarayevə rusca qısa məktublar yazıram ki, gündəliyimi "tapıb" DTK əməkdaşlarına versinlər.

Əslində gündəliklərimin çox dərinlərdə olduğuna və tapılmayacağına əminəm. Müstəntiqin tələbini yerinə yetirmək üçün bu süni addımı atmağa vadar oluram.

– Alın, oxuyun! Sizə qarşı məqalə var! – deyə Aleksandr Qubinski "Bakinski raboçi" qəzetinin 16 şubat 1990-cı il tarixli sanını mənə təqdim edir. Burada "T.Məmmədov" imzası ilə DTK casusu, cızmaqaraçı və muzdlu nökərinin mənə, habelə mənim havadarlarım, azad olunmağımı tələb edən Dilarə xanım Orucovaya, Rəhbər Bəşiroğluna,

"Azadlıq" radiosunun dünya şöhrətli əməkdaşı Mirzə Xəzərə qarşı tuşlanmış məqaləsilə tanış oluram. İyrəncdir. Məqalənin ruhundan hiss edirəm ki, adını çəkdiyim yoldaşların mənim üçün Azadlıq tələb etməsi, bu tələbin bütün dünya üfüqlərinə yayılması və bu qüdrətli ildırım sədalarının mənim Mərkəzi Televiziyadakı coşğun çıxışım ilə eyni vaxta düşməsi, bizimkiləri və düşmənləri zəkaya dəvətim DTK mağarasında bomba kimi partlamışdır.

Yalan qusan məqaləbaz iddia edir ki, Bakı mitinqlərində mən zorakılığa, qan tökməyə çağırdığım halda, indi beynəlmiləlçiliyə haraylayıram. Kimdir T.Məmmədov? Bəlkə də belə adam heç həyatda yoxdur. Uydurma imzadır.

"Bakinski raboçi" qəzetində basılıbsa, türk-azərcəsinin “Kommunist” qəzetində dərc ediləcəyi də şəksizdir . Bu cür şərəfsiz məqalələri oxuyunca Firəngizin və dostlarımın necə üsyan püskürdüyünü, redaksiya və redaktor ilə toqquşacaqlarını təsəvvür edirəm. Redaktorun nə taqsırı?! Hər şey DTK-nın əlində, hökmündədir. Bakıda, Azərbaycanda casusxana – DTK, ruslaşdırma kursu, irtica meydan sulayır, tanklar və avtomatlar ilə kəməndə saldığı millətə qarşı püskürür.

Qulaqları sağ-salamat … düşünürəm beyni karı,
Qəsbkarı qucaqlayan, doğmasını bıçaqlayan fitnəkarı…

## PƏRVANƏYƏ AZADLIQ

Pəncərəm qoşa laylı… saf şüşələr üz-üzə,
Arasında pərvanə - ağ qanadlı möcüzə.

Dar qəfəsə görəsən hardan düşüb bu yazıq?
Qabaq şüşə, dal şüşə… irəlidə barmaqlıq.

Hey dartınır yuxarı… qalxır, qalxır, sürüşür,
Düşür bir də aşağı, qanadları büzüşür.

Pərvanə çıxa bilmir balaca, dar qəfəsdən,
Bu çıxılmaz guşədə düşüb yazıq həvəsdən.

Nəyə gəlir gümanım? Adi aşıq sapına,
Götürdüm bir ağ sapı, tulladım kəmənd ona.

Anladımı? Ağ sapın ağ ucundan yapışdı,
Bir daha cəhd elədi, qəfildən qanad açdı.

Uçdu gözəl pərvanəm barmaqlıq arasından,
Uçdu, ağ şəkli qaldı gözümün qarasında.

Uç sevimli pərvanəm, əksin gözümdə qaldı,
Dünya dustaqlarından bu gün biri azaldı.

***Moskva, Lefortovo zindanı,***
*beşinci gün, 23 şubat 1990.*

## BEŞİNCİ GÜN, 23 ŞUBAT 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Müstəntiqim Aleksandr Georgiyeviç Qubinskinin hüzurundayam.

– Səni təbrik edirəm! – deyir. – Mübarək!

– 23 fevral mənim üçün bayram deyil! – söyləyirəm. Yasdır. Azərbaycanın Qırmızı Ordu tərəfindən işğalı günüdür. Və "qırmızı" sözünün bir mənası həyasız deməkdir.

Gülür, şaqqanaq çəkir Qubinski. Qarşıma lalə rəngli çay stəkanı qoyur. Əlimi sıxmağa çalışır:

– Nəvən gəlib dünyaya, qız nəvən! Atası səndən ad gözləyir. Qardaşın Rüstəm Rza indicə zəng edəcək.

Rüstəm, doğrudan da zəng edir. Danışırlar. Sabah Bakıya uçacağını və ad gözlədiyini bildirir.

– Gültac! – deyirəm. Bu ad ürəyimdə çoxdan dolaşır, Daşkəndə özbək tənqidçisi Toxtasın Cəlalovun "Leyli və Məcnun" məqaləsini oxuduğum gündən bəri. Orada belə bir cümlə vardı ki, Məhəmməd Füzulinin "Leyli və Məcnun" dastanı bu mövzuda bütün poemaların gültacıdır. O vaxt bu söz məni tutmuşdu.

Gültac Təbriz qızı gəlib dünyaya. Mübarəkdir bu gəliş. Atalı, analı boy atsın.

… Kameradayam. 23 şubat 1990-cı il tarixli "Pravda" qəzetində SSRİ EA Fəlsəfə İnstitutunun şöbə müdiri, fəlsəfə elmləri doktoru, professor A.Hüseynov ilə müsahibə verilib. "Etika ne-nasiliya" adlanan bu müsahibə qeyri-zorakılıq mövqeyində dayanmış L.N.Tolstoy, Mahatma Qandi, Martin LIter Kinq kimi filosofların mübarizəsinə əsas-

lanır. Bu vaxtacan biz inqilabi zorakılığı qəbul etmişik. İndi bunu rədd edənlərin sayı çoxalır.

Zorakılığa və haqsızlığa qarşı üç reaksiya var: passivlik, cavab zorakılığı, bir də qeyri-zorakı mübarizə üsulu.

Otuzuncu illərdə qolçomaqların bir sinif kimi ləğvi zorakılığı hara gətirib çıxartdı: kənd təsərrüfatının çağdaş böhranına!

Başqa bir məqalədən öyrənirəm ki, kommunist partiyaları bütün dünyada getdikcə daha böyük sürətlə nüfuzdan düşür. Leypsiq, Veymar, Drezden, Maqdeburq, Berlin əhli Almaniya Vahid Sosialist Partiyası sıralarını tərk edirlər. 2,3 milyon üzvündən vur-tut yarım milyonu qalmışdır, onlar Demokratik Sosialist Partiyası cərgələrində birləşmişlər. Dünya silkələnir.

22 şubat 1990-cı il tarixli "İzvestiya"nı oxuyuram."Rusiya görüşləri festivalında" "Nevə" – Ladoqa – Oneqa" ictimai xilas komitəsi tərəfindən təşkil olunmuş mərasim keçirilib. Köhnə rus ordusunun zabit geyimində gələn gənclər qətl olunmuş imperatorun xatirəsini yad etmişlər. Yazıçılardan Sergey Vikulin, Vasili Belov, Vladimir Solouxin, V.Buşin, F, Şipunov, tənqidçi M.Lyubomudrov "Moskva" dərgisinin redaktoru M.Alekseyev, "Sovremennik" jurnalının redaktor köməkçisi A.Kazintsev, şairə E.Markova festival tonqalını alovlandırmış, Stalin, Trotski, Kamenyev, Zinovyev, Uritski, Yaroslavski başda olmaqla bolşevikləri qəzəbli ittiham obyektinə çevirmişlər.

– Rədd olsun Siyasi Büro üzvləri!

– Rədd olsun rus içində alkoqol yayan sionistlər!

– "Smena"nın redaktoru V.Yukin başda olmaqla "Azadlığı boğanların cəmdəyinə min lənət!".

Festivalda bu şüarlar qəzəblə gurlayıb.

# BAZAR, 25 ŞUBAT 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Gəzinti sahəsindəyik. Yağış yağır.

– Çox güman ki, bu, süni yağışdır, - deyir Volodya.

– Bu gün Moskvada böyük nümayiş - mitinq olmalıdır. Mitinqi dağıtmaq vasitələrindən biri də budur ki, təyyarələr qalxır göyə, buludlara yod gümüşü səpir. Bu yolla süni yağış yaranır.

Konvoy qabağında kameramıza qayıdırıq. "Pravda" qəzetinin bugünkü sayı zəngindir. Madriddəki Prado muzeyi, XVI əsr dahi ispan rəssamı Velaskes, sovet kəşfiyyatçısı Bıstroletov (1901-ci ildə Krımın Ağçora kəndində anadan olub, yazıçı Aleksey Tolstoyun kəbinsiz kəndçi qızından törətdiyi övladıdır), sarsılmaqda olan SSRİ-nin çoxpartiyalı məmləkətə çevriləcəyi, Kommunist Partiyasının nüfuzunu və funksiyasını iitirməsi, anayasada (konstitusiyada) altıncı maddənin ləğvi zərurəti haqqında məqalələr maraqlıdır. Volodyanı dinləyirəm:

– Bu gün "Maslenitsa" bayramının son günüdür. Gəl, biz də bayram edəlim. Bıçağımız yoxdur. Bu almanı qaşıqla yarı bölək.

Bölüşürük. Böyük Türk şairi Faruq Nafiz Çamlıbel (1889-1973) düşür yada:

Zülfünün yay gibi qüvvətli çəlik tellərinə
Takılan könlüm asrlarca peşindən gedəcək.
Sən bir ahu gibi dağdan dağa qaçsan da, yenə
Səni aşkım canavarlar gibi təqib edəcək.

# BİRİNCİ GÜN, 26 ŞUBAT 1990, MOSKVA, LEFORTOVO ZİNDANI

Hər həftəbaşı axtarış aparırlar. Ədyalı, döşəyi, geyimlərimizi, ayaqqabılarımızı, ərzağın içərisini, dizlik və köynəklərimizi bükümlərinədək çox diqqətlə gözdən keçirirlər. Bu gün də eləcə. Bu gün dustaqlığımın bir ayı tamam olur. Yeganə xilaskarım ilhamım və qələmimdir.

Qəsbkarların "Karabax" və "Krunk" təşkilatı üzvlərini burada yarım ilədək saxlamışlar. Yalnız zəlzələdən sonra M.S.Qorbaçovun Ermənistana gəlməsi, yalvarışlar, tələblər onları xilas etmişdir. Görəsən bəs bizim bəxtimizə hansı zəlzələ düşə bilər? Mən burada altı ay qalmağa dözə bilərəmmi: Kameradaşım Volodya Mixayloviç Komuxin burada üç ildən bəri yatdığını, 94 dəfə hamamlandığını bildirir. Günlərimiz yeknəsəqdir. Yalnız qələmim və dahi ingilis yazıçısı Çarlz Dikkensin çağırışıdır bu yeknəsəkliyi pozan:

– Нам дана жизнь с непременным условием: храбро зашищать ее до последней минуты.

"Qalxın!" komandasından sonra gözlük verilir, üstəlik mənim diş qapaqlarım. Sonra ikinci lampanın yandırılması kameranın işıq gücünü artırır. Sonra zibildaşıyan gəlir. Sonra bıçaqşünas qapının ağzını kəsdirir ki, varınızsa, bizim üçün kolbasa, pendir doğrasın. Mənə diabet dərmanı – manilin, vitamin, həb və meyvə şəkəri verilir. Üstəlik zindan rəisi Yuri Daniloviç Rastvorovun adına yazdığım diləkçə öz bəhrəsini verir: mənə xaraba kitabxanadan yapışqan gətirirlər. Deməli, yazdığım qrankaları bir-birinə yapışdırmaqla gündəlik şəklinə sala bilərəm. Bu ki, xoşbəxtlikdir.

## İKİNCİ GÜN, 27 ŞUBAT 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Müstəntiqim Aleksandr Georgiyeviç Qubinski həzrətlərinin hüzurundayam. Dərdlərimi açıram. "Şeytan azdırması" deyilən mərəzin hər gecə təkrar olunduğunu, məni əldən saldığını bildirirəm. Sözümün canı budur ki, taqsırım yoxdursa, buraxın, çıxım gedim.

Yəqin ki, sadəlövhlüyümə gülümsünür və SSRİ-nin Baş prokuroru A.Y.Suxarevin adına müfəssəl ərizə yazmağımı məsləhət görür, məni almaya, lalə rəngli çaya və siqara qonaq edir.

Sağollaşırıq. Qayıdıram. 27 fevral 1990-cı il tarixli "Pravda" məni sevindirir.

### ŞAD XƏBƏR

Latışların yeni dövlət bayrağı, himni, gerbi mübarək!

– Tanrım, Latviyaya xeyir-dua ver! - Himn bu yalvarış üstündə səslənir.

Qalxanvarı böyük gerb bir neçə hissədən ibarətdir. Maviliyində doğan günəşin yarısı görünür. Gümüşü parçasında qırmızı rəngli arslan oyanıb qalxır. Qırmızı hissəsində sağ pəncəsində qılınc tutmuş əjdaha (qrifon) var. Qalxanın yuxarı yarımdairəsində üç dənə beşguşəli ulduz parlayır. Bunlar Latviyanın tarixi bölgələrinin rəmzidir: Vidzeme, Kurzeme, Latqale.

Gerbin bərpaçısı, rəssamı Rixard Zarinşdir. Bu həmin Zarinşdir ki, rus poçt markalarının yaradıcısı kimi tanınır.

Ləğv edilib arxivə verilmiş köhnə himni, gerbi, bayrağı beynəlcəbhə öz təşkilatının rəmzi kimi götürmüşdür.

## ÜÇÜNCÜ GÜN, 28 ŞUBAT 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Növbətçi, təmizlik keşikçisiyəm. Qanla boyanmış kimi qıpqırmızı döşəməni, dəmir qapını, çarpayıların ayaqlarını silirəm. Ən başlıca iş misdən yapılmış su lüləyini par-par parıldatmaqdır, yoxsa Volodya inciyər, "parıldamır" deyə uzun müddət donquldanar… Səhər yeməyindən sonra gəzinti guşəsinə dəvət olunuruq. 13 sanlı guşədə hərlənir, tütün çəkə-çəkə addımlayırıq. Qayıdandan sonra vitamin tozu və diabetə qarşı manilin həbi qəbul edirəm, əlbəttə, üstündən su içməklə. Başım bitib tükənməz şer mövzularının xəzinəsidir. Türkanda 20 il bundan irəli fəvvarə vuran quyu-bulağımızın dibində qaynayan çeşmələri, divarlarında şölə verən süzüntüləri yada salıram. Dustaq düşməyim bəlkə də səadətimdir. Bakıda bunca mövzuları düşünməyə, yazmağa macalımmı vardı?

Hind-müsəlman yazarı Xoca Əhməd Abbasın "Hindistan oğlu" romanını oxuyub başa çıxıram. İngilis imperializminə qarşı mübarizə aparan Mahatma Qandi, Cəvahirləl Nehru kimi inqilab xadimlərinin fəaliyyəti ilə bağlı dövrü əks etdirir. Burada diqqətəlayiq bir aforizm var:

– Axtarsan, axtarmağı bacarsan, ot tayasının içindən inəyini tapa bilərsən. Axtarmasan, axtarmağı da bacarmasan, heç dümdüz səhrada dəvəni də görə bilməzsən.

# DÖRDÜNCÜ GÜN, 1 MART 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Lenin mükafatına təqdim olunmuş bəstəkar Alfred Şnitke haqqında böyük ilhamla danışan sənətşünaslıq doktoru L.A.Qakkelin məqaləsini dünənki "İzvestiya"da maraqla oxuyuram.

Axşamüstü mənə hədiyyə çantası gətirilir. Alma, portağal, baton, yağ, pendir, peçenye rayihəsilə kameramız dolur. Qəbul kağızını imzalayanda Firəngizin əziz, doğma adını və tanış imzasını gözlərimlə öpürəm. Deməli, könüldaşım Moskvadadır. Halallıq istəyirəm. Bu gün sanitar məntəqəsində barmağımdan qan alan, şüşə borucuqlara süzən ilahi bir gözəlin gözlərinə baxmışam.

Sazının sədəfli qolunu günəşə söykəmiş Dadaloğlu (1785-1868) düşür yada:

Qalxdı, köç eylədi Avşar elləri,
Ağır-ağır gedən ellər bizimdir.
Ərəb atlar yaxın eylər irağı.
Uca dağdan aşan yollar bizimdir.

Belimizdə qılıncımız kirmani.
Daşı dələr mizrağımın təmrəni.
Haqqımızda dövlət vermiş fərmanı.
Fərman padişahın, dağlar bizimdir.

Dadaloğlu, yarın qavğa qurulur,
Tüfəng ötər, davulbazlar vurulur.
Neçə qoç igidlər yerə səpilir,
Ölən ölür, qalan sağlar bizimdir.

# TÜRK

– Hər türk on kişiyə bərabərdir! – dedilər.
– Xayır! – dedi Mustafa Kamal Atatürk.
– Hər türk bir dünya deməkdir.

– Sən 58 yaşlı, mənsə 45 yaşında,
Söylə hardandı səndə bu mətanət, bu qüdrət?!
Yoxsa od kürəsi var ürəyinin başında,
Qələmin ildırımdır, özün bambaşqa cürət.

Tükəndi dəftər-qələm, gecə-gündüz yazırsan,
Qaralayıb pozursan, pozub bir də yazırsan.
Dərdi büküb qoymusan dizlərinin altına,
Arslan kibi, şir kibi hər döyüşə hazırsan.

Dəmir beton divardan dırnaq boyda qopartdım,
Tas içində göllənən yağış suyuna atdım.
Dedim: - Bu sorğulara cavab almaqçün, inan
Türk olmalı, anadan sən Türk doğulmalısan!

***Moskva, Lefortovo zindanı,***
*1 mart 1990.*

# BEŞİNCİ GÜN, 2 MART 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Gecə yarı oyanıb Firəngizi düşünürəm. Yandırdığım "Astra"nın, – cahanda bəlkə ən ucuz papirosun tüstüləri arasında onu görürəm. – Qalx! – komandası verilir. Səhər yeməyi,beton qəfəsdə gəzinti, hamamlanma və təmizlik dəstgahı bir-birini təqib edir. Müstəntiqimin mənə yetirdiyi, Firəngizimin məktubu ən böyük sərvətimdir.

**ƏZİZİM, SEVİMLİ BİRCƏM XƏLİL!**

Günaydın!

Yalnız Səni düşünürəm. Sağlamlığın sarıdan bərk nigaranam. Ən böyük arzum səni tezliklə sağlam, məğrur və qüdrətli görməkdir. Millətin səni düşünür və yolunu gözləyir. Bakının hər yerinə plakatlar yapışdırılıb:

– Xalq şairi Xəlil Rzaya Azadlıq!

Bakının və Moskvanın yuxarı dairələrinə göndərilən məktub və teleqramların sayı, hesabı yoxdur. Bura uçuşum ərəfəsində mənə deyirdilər ki, martın başlanğıcında azad olunacaqsan. Bütün Bakı, Azərbaycan sənin zindandan buraxılmağını tələb edir. Daşkənddən də xeyli tələbnamələr göndərilib. Zindana düşməyin sənin şöhrətini aləmə yaydı.

"Azadlıq" radiosunun dahi əməkdaşı Mirzə Xəzər necə qüdrətli oğulmuş. O, Azərbaycan üçün yenidən doğulmuşdur. "Davam edir 37" şeri onun ifasında bütün dünya üfüqlərində necə əzəmətlə səslənir.

Sənə bağlama gətirmişəm. Qoz ləpəsi, qaysı qurusu və kolbasanı götürmədilər. Lap axmaqdılar, diabet xəstəsinə gərək olan məhz bu nemətlərdir, həkimi qandıra bilmədim.

Dabanındakı çatlar sağaldımı? "Belina" mazı gətirmişəm ki, yaralarına məlhəm qoyasan. Amma bilmirəm qəbul edəcəklərmi?

İkinci nəvənin dünyaya gəlişi münasibətilə Səni təbrik edirik. Təbrizin qızcığazına sən seçdiyin adı verdik: GÜLTAC. Sağlam, şən bir cocuqdur. Hər iki ailə və elat səbirsizliklə yalnız sənin yolunu gözləyir.

Burada, qohumların evinə düşmüşəm. Səni bağrıma basıram.

***Firəngiz. Moskva,***
*2 mart 1990.*

# GÜNAYDIN, FİRƏNGİZ – SƏADƏTİM MƏNİM!

Salam, on səkkiz yaşlı gözəlim!

Bilirsənmi, biz səninlə yer üzünün ən xoşbəxt sevgililəriyik, Məni eşidirmisən? Ən xoşbəxt! Mən Xəlil Rza Ulutürk səni bağrıma basıram, möhkəmcə öpürəm, yeni sevimli nəvəmizin dünyaya gəlməsi münasibəilə candan təbrik edirəm.

Müstəntiqim, Aleksandr Georgiyeviç Qubinski mənə humanistcə yanaşır, işimin incəliklərini öyrənir. Yaxın zamanda görüşəcəyimizə ümidvaram. Burada mən öz yaradıcılığımın ən yüksək mərhələsini yaşayıram. 60-dan çox şer, dastan, ballada, türkü, nəğmə, marş yazmışam. Yaşasın doğmalarımız və dostlarımız: Təbrizim, Sevincim, Rzam, Türkayım, Gültacım. Respublika yollarını az qala yalın ayaqları ilə ölçən qardaşım Məhəmməd Rza Xəlilbəylinin nələr çəkdiyini anlayıram. Fərhad Rza, Tofiq Rza, Arifə Rza, Böyükxanım Rza, Ulduz Rza və könüldaşları var olsunlar. MİkayıI Mirzə, Ramiz Duyğun, Qabil, xalam Gülnisə, Faiq, Nizami, Təhmasib, Sima və doğmaları, doktor Elxan, Könül, Əsmər, Aynur… bütün dostlar, qohumlar ürəyimin başındadırlar. Hamınızı Azərbaycan boyda güldəstə kimi bağrıma basıram, qoxulayıram. Mirzə Xəzərin Münxendən, "Azadlıq" radiostansiyasından yayılan ildırım səsinin sorağı gəlib mənə çatdı, Lefortovo zindanını yardı, buzdan soyuq dəmir divarlarını əritdi. Qoy gözləri işıqsız olsa da, varlığı günəşlə dolu Mehdi mənim kitabımı və salamımı ona yetirsin.

Bakıya XX əsrin poetik ensiklopediyası ilə qayıdacam.

***Sənin Xəlil Rza Ulutürkün.***
*Moskva, 2 mart 1990.*

## ŞƏNBƏ, 3 MART 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Möcüzə bir kitabla tanış oluram:

**MADLEN RİFFO, SİZİN XÜSUSİ MÜXBİRİNİZDƏN**

*"Pravda" yayın evi, 1965.*

Kitab cəsur fransız yurdsevəri, şair və jurnalist Madlen Riffo xanımın 1944-cü ildə böyük rəssam Pablo Pikasso tərəfindən çəkilmiş şəkli və öz portreti ilə açılır. Hər ikisinə heyranam. İllah ki, özünə. Kitab sənədlidir. "Türkü" şeri Fransız Müqavimət hərəkatının fəal xadimi, 17-18 yaşlı Madlen xanımın alman faşist zindanına düşdüyü zaman keçirdiyi ovqatı dürüst əks etdirir. Tətiyini çəkdiyi qumbaranı alman maşınına atmaq istəyən, lakin maşını qaçıranların öz doğmaları olduğunu görüncə qumbaranı ürəyinə sıxan uşağın ölümünün təsviri dəhşətli dərəcədə təsirli və unudulmazdır, Madlen Riffo yarımca səhifədə, bircə abzasda az qala bütöv poema yaratmağa qadir, olduqca səmimi sənətkardır.

Kitabı oxuduqca qəsbkarların yaraladığı dəhşətli cəhənnəm mənzərələri gözümüzdə canlanır. Əsir düşərgələrindəki 238 min fransızdan vur-tut on beş mini qurtula bilir. Sena sahilləri, Paris Notr-Dam kilsəsi, Blanş meydanı, alman tanklarına qarşı qurulan barrikadalar, qum kisələri, susan Madlenin dilini açmaq üçün gözü qabağında qırmanc ilə döyülən cocuğun stula bağlanan yaralı qolları, "yer" və "göy" xanaları arasında qın-qın oynayan, tək ayağı üstündən hoppanan cocuqlar, aclara ARPA qəhvəsi pay-

layan qadınlar, dörd milyon qurbanını udan Osvensim, 50 dərəcə şaxtada, buz üstündə saxlanandan sonra yanar qaz kamerasına doldurulanların yanıq ət və yanıq sümük qoxusu, SS yırtıcılarının yığdıqları qızıl dişlər, alova bürünən evlər, bütün dəhşətlərə baxmayaraq, ölümcül yaralı Fransanı od içindən çıxarmağı bacaranlar yaşayır bu müqəddəs kitabda.

Mənə həyat bəxş edir bircə kəlmənin gücü,
Səni tanımaq üçün, sənə ad vermək üçün
Yarandım ey Azadlıq!

Böyük fransız şairi Pol Elüarın bu coşğun misraları kitabın döyüşən Vyetnama həsr olunmuş səhifələrindən qırmızı xətt kimi keçib gedir. Ormanda nə divarı, nə bacası olan zavod, bəndini yaran çaylar, ac pələngi çəkic səsilə qovanlar, düşməndən qənimət aldığı qumbaranı, topu söküb quruluşunu öyrənənlər, yenisini hazırlayanlar, yağı görməsin deyə öz zəmisini gecə biçənlər, çəltik, düyü daşıyanlar, yağış tutmasın deyə ruzunu yolda köynəyi və bədənilə örtüb qoruyanlar, ildə iki yol sünbüllənən vadilər, münbit torpağı torba ilə daşıyanlar, orman talasını tarlaya çevirənlər, Berlində festival zamanı vyetnamlıların süfrədən əl çəkdiklərini görüncə utanan, yeməyini dayandıran Madlen, "Ey Vətən, bircə düyünə layiq olaydım!" deyən Vyetnam şairi Nquyen Din Txi, "Orduya düyü" deyibən 200 kilometrlik yolu piyada irəliləyənlər, "Məgər bunca qocayam ki, yediyim halda işləyə bilməyim?" söyləyən ağsaqqal, bərəkətli Qırmızı çay vadisi, sevgilisi Xnonq (ətirli) üçün həb gətirmək üçün 200 kilometr yol gedən, onu ölümdən qurtara bilməyən Zunq, napalm hücumu zamanı eyni şəfa evində yan-yana yatan fransız, Vyetnam əsgərləri, boylu fransız gəlini Raymonda Den, onun relslər üstünə uzanıb Vyetnama silah aparmaq istəyən qatarın yo-

lunu kəsməsi, Cenevrə sazişlərinə təsir edə bilmək üçün imzalar toplusu gətirən Reno zavodu metalçıları, Massen deposu kollektivi, kotanı, topu çəkməkdə öküzü, kəli əvəz edənlər , relsi, borunu əridib top gülləsinə çevirənlər, "Xıa me dat" adlı Vyetnam çiçəyi, Nam Bo (Güney Vyetnam), konfet nə olduğunu bilməyən cocuqlar, villada yaşayan yetimlər, səma gözətçisinin yardımçısı olduğuna görə öyünən cocuq, budaqdan da qorxan yaralı quşcuğazlar, qıyma-qıyma doğranıb kisələrdə dənizə atdırılanlar, ömrü, günü kimi qara mədəndə çalışan kömürçülər, ölümü bahasına azadlıq bayrağını qaldırmağa nail olanlar əslində kitab yazarı, şairimiz Madlen Riffo xanımın ürək döyüntüləridir. Bəşəriyyəti böyük məhəbbətlə sevmədən belə kitab yaratmaq olmaz!

Hamilə Raymonda Den rels üstündə müqtədir:
– Qatar keçməməlidir.
          – Silah getməməlidir!
Cüt yumruq havada bomba olmağa qadir:
– Qatar keçməməlidir!
          – Silah getməməlidir!
Anri Marten… milyonlar məhkəmədə həmfikir:
– Qatar, maşın, donanma… Heç nə getməməlidir!
Lapdan qorxudur qasırğa, Fransa boyda tufan
Alır ağ yaylığını Raymondanın başından.
Yaylıq gedib sancılır düz Eyfel qülləsinə,
Dönür qeyzin, qəzəbin bəyaz şəlaləsinə.
Altı qitəli dünya titrəyir yenə tir-tir:
Yaralıdır Vyetnam… Silah getməməlidir!

Xəzinədir bu kitab. Gecə-gündüz çalışan Xan adlı qızcığaz şəkər qamışını sıxıcı makinanın presi ağzına verirkən yorğun və yarıyuxulu olduğu üçün balaca biləklərini itirir.

İtin, pişiyin artığı ilə dolanır. Göz yaşlarını silməyə əli yox. Dişlərilə kəndirdən yapışıb su çəkir quyudan. Düyü daşıyır. Məktəbdə oxuyur.

Ağ vərəqi - ağac yarpağı.
Mürəkkəbi – qırmızı daş, su.
Qələmi – bambuk şaxəsi.
Əli – qoynundakı qolçaqlar.

Müəllimlik edir. Məşhur fransız jurnalisti ilə görüşərkən sevinir: – Paris tətillərində kor edilmiş Mişel Domennakı mənim əvəzimdə quc, necə ki, mən səni qucuram, Madlen Riffo!

Ölənləri ağac dibində basdırırlar ki, gübrəni əvəz etsin.

Cocuğu yedizdirən Xo Şi Min bizim Madlen xanıma məsləhət görür ki, təbiətdən çox insanlara diqqət yetirsin!

Vyetnam, doğrudan da kül içindən eşələnib qalxan Səməndər quşudur. Səməndər (Feya), Feniks Jar-ptitsa.

Vyetnamın imperializmə qarşı birinci silahı – amansız nifrətidir. Köləliyə, qəsbkarlığa nifrəti! Ələ keçən hər şey – balta, dəhrə, oraq, çəkic, ov tüfəngi… bu nifrətlə cilalanır. İtilənir. Bambuk cidası, qao ağacının pərvanəyə bənzər çiçəyi də eləcə. Vyetnamın Milli bayrağı ortası ulduzlu, beş al ləçəkli bu çiçəkdənmi almış rəngini, yaraşığını?!

Ərik ağacının çiçəkləri bu məmləkətdə gənclik, eşq rəmzi sayılır. Cenevrə sazişindən sonra Azadlıq əsgərləri Cənubi Vfetnamı tərk edirlər. Cənub qadınları göz yaşları tökə-tökə əsgərlərə yanaşır, onlara ipək yaylıq arasında bir ovuc cənub torpağı bağışlayırlar.

– Qızım, bizim bağçada o əsgərin ayaq izləri qalıb. Get bambuk ağacı gətir, çətir quraq, o işləri qoruyaq. Bizim vətənimiz Lanq Şou vadisindən Kamau körfəzinədək vahid torpaqdır. Birləşdirməliyik.

Dayaqlar üstündə evlər tikilir – arslan, qaplan soxula

bilməsin.

Ağçay, Qırmızıçay vadiləri başdan-başa çəltikistandır. Göyərçinlərin sayı-hesabı yoxdur. ABŞ imperializminə tapınan Cənubi Vyetnam hökumətinin başçısı Nqo Din Dyom görəsən düşmənə təslimçiliyin nə boyda fəlakət olduğunu bilirmi?

Haray, göz yaşım, haray!
İtən baş daşım, haray!
Matəm paltarı geymiş
Bacım, qardaşım, haray!

Adamları A, B, V dərəcələrinə bölür, ABŞ rejiminə və hökumətinə təslim olmayanları dama basır, doğrayıb kisəyə doldrurur, qanlı kisələri gecə dənizə tullayır, yaxud üstünə benzin töküb yandırırlar. Nəfəsi üstündə olduğu halda torpağa basdırırlar. Bu cəhənnəm guşəsində qadınlar ana olmaq imkanını itirirlər. Yurdsevərlərin qadınını "Boşan!" əmrilə ərindən ayrılmağa, muzdlu əsgərlərin zövcəsi olmağa təhrik edir, təslim olmayanları qətlə yetirirlər. Yaşamaq üçün heç bir çıxış yolu qalmadığını görən 931 Sayqon fəhləsi üstlərinə benzin tökməklə özlərini yandırmışlar.

Düşmənə nifrətini açıq bildirdiyinə görə, Nquyen Van Txan adlı fəhlənin qafa tasını öz çəkicilə partlatmışdılar. Məsləkdaşlarının ona yapdırdıqları heykəli düşmən dağıtmış, kəndçiləri onu yenidən dikəltmişlər.

ABŞ imperializmi Güney Vyetnamdakı rejimi saxlamaq üçün 15 general, 16 min soldat, saysız hərbi ləvazimat, çoxlu təyyarə göndərmişsə də, Vyetnamın birləşmək iradəsini qıra bilməmişdir.

Kitabın "Əlcəzair (1952-1962)" bölməsi daha dəhşətli həqiqətləri açır. Kömür, qurşun, mis, marqans kimi sərvətlərindən özü bəhrələnməyən Cənubi Oran vilayəti, yerin

azı bir kilometr dərinliyində hər gün təkbaşına 22 ton kömür atdığı halda "tənbəl" adlandırılan, arpa cadı və ucuz xurma ilə dolan, məscidə getməyə belə macal tapmayan, qəzaya düşüb ölən ərəb fəhləsi, yabançılar tərəfindən şəklinin çəkilməsinə razı olmayan çəkməsilən Ömər bala Kenadze şəhərində "Baş ağa" sarayı zirzəmilərində çürüyənlər bu kitabda əbədi yaşayırlar. Kömür şaxtasında hər gün 16 saat uzanıb yanpörtü, yaxud üzü yuxarı işləyən Ömər Məhəmməd kömürün uçqun layı altında qalır, hamı kimi üzü qibləyə dəfn olunur. 1945-ci ilin 8 mayisində Fransadan dişlərində tutduqları qızılgüllər ilə qayıdan üç ərəb gənci Herrat bəndi yanında divara söykədilir, qurşunlanır. Üstəlik general Qarbenin əlilə 40 min ərəb güllə yağışına tutdurulur. Ey Herrat şəlaləsi, sən bu qədər Qanı yuya biləcəkmisən?

Katib Hadi boylu qadını və oğlu ilə birlikdə həlak edilir. Taba Saleh 1918-ci ildə aldığı ordenilə birlikdə torpağa basdırılır. "Mən 180 ərəb öldürmüşəm!" deyən cəlladlar da var.

– Sənin qulağının dibinə bircə güllə də heyifdir, əclaf!

Xalqın qəsbkarlara qarşı intiqam eşqi sonsuzdur… Hərbdən qayıdan Abdulla gəlib arvadını, uşağını evində tapmır. Vəfalı köpəyi gedib yanındakı dərədən qafa tası gətirir, ikinci qafa tasını gətirəndə burnunu göyə tutub hürür.

Qadınların kişilərindən seçilməz Ores dağları, at quyruğuna bağlananlar, çılpaqlandırılıb qadın cocuqlarının gözü qabağında rəqs etməyə vadar edilən ağsaqqal, palmaları, xurma ağaclarını qum basqınından qoruyanlar, aclıq, susuzluq, quraqlıq çağlarında südsüz qalan analar, ölüsünü basdırmağa torpaq tapmayanlar, yarımcan balasını məzara

gömən, buna görə zindana atdırılan Fatma, bu dərdləri kim yazacaq?

Zeytun, taxıl, üzüm, xurma… tərəvəz. Hər neməti yetirir bu torpaq. Ancaq torpaq da, su da yadların əlindədir. Tətil, göz yaşardan qaz, dəyənək zərbələri, həbslər... zindanda dizlərini dəmir üstünə qoymağa məcbur edilən, ancaq nəğmə oxuyan 85 yaşlı Kunder Əmrah:

– Mənim yaşımda cəllad əlində ölmək şərəfdir! - deyə hayqırır, elektrik  işgəncələrinə də dözür.

Beş cocuğundan üçünü südsüzlük ucbatından  beşik boyda məzara tapşırmış Yasəmən! Liman fəhləsi əri Vyetnama silah daşıyan gəmiləri yükləməkdən boyun qaçırdığı üçün həbs edildi. İndii sən limanda yanına daş yığıb polisləri dağıdan üsyançılara qoşulmusan.

Restoranda qab yuyan  on bir yaşlı Fatma! Ayağının altına kətil qoyurlar ki, masa üstündəki qabları yumağa boyun çatsın. Bu cür yaşamaqdan bezirsən. Barberus zindanını dağıdan üsyançılara qoşulursan.

Orleanvil zəlzələsinə qoşulan yoxsulluq zəlzələsi, artıq eşşəyə mindirib yavrularını xilas etməyə çalışanlar, nazirə yalvaranlar, çörək istəyənlər, polis dəyənəyilə qovulanlar birmi, ikimi? Öküzlər mələr, itlər ac, evlər uçuq, ilanlar ayaq altında, qayalar aşmağa hazır, su yox, bulaqlar kor, yaralar qurd salıb, xarabalıqlar üstündə hərlənən ac quşlar çıxarılan meyitləri yeməkmi istər? Şəfaxana önündə durub qanın verməyə macal gəzən əlcəzairlilər, epidemiya, aclıq, susuzluq, cəhənnəm istisi əleyhinə çarpışanlar, portağal ağacını, evlərindəki sərvətdən yeganə salamat qalanı qucaqlayıb yuxuya gedən Malikə, 1.700 ölü, 100 min evsiz, gözünə yuxu getməyən aclar, gecə nəmişliyi, üzüntü, ölüm düşərgələri, böyrü böyründən keçdiyi halda, yük da-

şıyan ulaqlar, şikara məruz qalanda bir-birini haraylayan kəkliklər, çiyni qan ləkəli köynəyini çıxaran, əvəzində Parisdən göndərilmiş köynək geyən Malikə, siz bəşər fəlakətinin hələ bircə yarpağısınız!

Şəfa evinə verdiyi oğlunun nə ölüsünü, nə dirisini geri ala bilməyən Məhəmməd dəli-divanədir. Amma görün Əlcəzair şəhərinin meri nə yazır: "Ponteb, Menas, Əbdü Əbəd, Qulaff, Kafafs, Şəklil, Şikuyət kəndlərinə daha ərzaq göndərməyin. Uşaqlar da, böyüklər də işə çıxırlar. 15.9. 1954".

Həmən il, 7 qasimdə (noyabrda), deməli, mən universiteti bitirdiyim çağlarda Əlcəzairin səkkiz il sürən Milli azadlıq inqilabı alovlandı. Fransız təyyarələri göydən yerə vərəqələr tökdü:

– Üsyançıların başına daşlar yağacaq!

Qocaman Əlcəzair isə bir gənc qətiyyəti, Məhəmməd Füzulinin dililə hayqırdı:

Degil bihudə gər yağsa fələkdən başimə daşlar,
Binasın tişeyi - ahimlə viran etdigimdəndir!

Əksinə oldu: Əlcəzair qəsbkarların başına daş saldı. Konstantin qalası, Kabili ormanları, Orleanın həndəvəri partizan məskənlərinə çevrildi. Milli Azadlıq Ordusu yarandı, – mücahidlər, müsəbillər, fədailər ordusu!

Hapalm bombaları yağdırıldı. Kəndliləri qurşunladılar. Sağ qalanları ölüm düşərgələrinə sürüklədilər. Himn gurladı:

Yaşayacaq Əlcəzair,
Buna şahid olun siz.
Yaşayacaq Əlcəzair,
Batsaq, qırılsaq da biz.

Xalq Milli Azadlıq Cəbhəsində birləşdi və millətə çevrildi.

1956-cı ildə ölkəni tətillər bürüdü (Onda mən "Azərbaycan qadını" dərgisində əməkdaşlıq edirdim, onuncu dərəcəli işlə məşğuldum. Planetin ən qaynar nöqtəsində olmamaq və bəşəriyyətə burdaca yardım etmək kişi üçün naqislik nişanəsidir). Səkkiz gün sürən tətildən sonra BMT Əlcəzairin istiqlala layiq olduğunu təsdiqlədi və Fransa sümürgəçiliyini pislədi. 1959-cu ildə Əlcəzair Respublikası hökuməti yarandı. Yaşıl, ağ, qırmızı zolaqlı bayrağı yüksəldi. Onu bir çox ölkələr tanıdı.

1956, mayis. Fransız milləti öz oğullarını Əlcəzairə müharibəyə buraxmaq istəmir. Mets, Tur, Vilnev – Sen Jorj, La Roşel və başqa dayanacaqlarda qatarlar nəfəs dərəndə mitinqlər keçirilir, analar oğullarını, adaxlılar sevgililərini, bacılar qardaşlarını, qadınlar ərlərini saxlamaq üçün hökumətin yaxasından yapışırlar. "Kəsin atəşi! Heç bir gənc hərbə getməməlidir!" - hayqırır Paris.

Edam kürsülü Konstantina şəhərində qadınlar qara geyimlidir: 125 ildir ki, ölkə əsarətdə, yas içindədir.

Yoxlanış dəhşətdir: qadınların üzündən rübəndi cırır, bələyi açıb körpəni çölə fırladırlar. Koru futbol topu kimi ayaq ucunda atır, ovuclarını taxtaya mismarlayırlar. Qaçmağı gümanına da gətirməyəni öldürüb anketində yazırlar: – Qaçmaq istəyirdi.

Nə gəzinti çağı, nə tualet üstündə, nə yemək vaxtı biləklərdən qandal açılmır.

– Bizim ölümümüz milyonları ayağa qaldıracaq. Əlcəzair yaşayacaq!

Ərəb qızları saçlarında gizlətdikləri patronu partizanlara ərmağan aparırlar.

1958-ci ilin 14 həziran (iyun) günü Parisin Yelisey meydanında "qardaşlaşma" mərasiminə dəvət olunmuş və dö-

nə-dönə yoxlanmış Əlcəzair gəncləri lapdan öz milli bayraqlarını ucaldır, əldən-ələ ötürürlər. Fren və Sent məhbəsindəki 1.500 əlcəzairli siyasi dustaq rejimi uğrunda aclıq elan edirlər. Madlen Riffo bu hadisəni yalnız aclığın on ikinci günü qələmə almağa maçal tapır. Ac qalanlar işgəncə və təhqirə son qoyulmasını, müsəlman ayinlərini yerinə yetirmək, qəzet, kitab almaq imkanı tələb edirlər, bir də dopdolu kameralarda dustaqların seyrəkləşdirilməsini!

Təşnələr təklif olunan südü içməkdən boyun qaçırırlar. Çünki süd içmək aclıq elanını pozmaq deməkdir. Şəfa evinə köçürülənlər aclığı davam etdirirlər.

Əlcəzair – Tunis sərhədində toplaşan 160 min ərəb, 500 yetim Tuaref, Kef, Suk-Əl-Ərbə, Hafsa, Sbeyt bölgələrində aclıq və hərb girdabı içindədirlər. Burada bircə quşcuğaz da qalmayıb. Ovlayıb yeyiblər. – Sənin yazı makinan pulemyot kimi səslənir, Madlen ana! – bu cümlə yetim bir cocuğundur.

Əlsiz, ayaqsız, gözsüz, xəstə, ac yetimlər cındır içindədirlər. Yetim evinə gətirilərkən vaxtında yemək, yatmaq, kitab oxumaq zərurəti onları heyrətləndirir. Şəkil çəkirlər: ayaqlarını göyə qaldırmış ulaq, relsindən çıxmış qatar, əsiri döyən qırmızı beretli paraşütçü, anasını və öz adını itirmiş, yaddan çıxarmış çocuq bu şəkillərin mövzularıdır.

Çocuqlar yuxuda qışqırır, analarını çağırırlar. "Tay-ra safra" görəndə, – "qırmızı təyyarənin" səsini eşidəndə qaçıb çarpayı, stol altında gizlənirlər.

– Bizimkilər "qırmızı təyyarə"lərin hamısını məhv etmişlər. Bax, beləcə tərbiyəçilər çocuqları sakitləşdirməyə çalışırlar.

– Bura Əlcəzair deyil, Tunisdir, gülüm! Qorxma, adın nədir?

– Bilmirəm. Atam namaz qılırdı. Fransa gəldi, onu güllə ilə öldürdu.

Nə tabaşir var, nə qara lövhə. Divarlara hərfləri kömür ilə yazmaqla əlifbanı öyrənirlər. Qara çörək, paxla və su ilə dolanırlar. Yanacaq kəməri işləmir. Hər çocuğun yaşaması 6,6 dinar, yaxud 77,58 frank tələb edir. Hər ay Tunisin "Yasəmən" yetimlər evində.

Mağaralara sığınan didərginlər axşamlar tonqal çata bilmir. Çünki od-ocaq əqrəbləri məhv edə bilər.

## BAZAR, 4 MART 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Görəsən bizim qırmızı dəmir qapımız, yaxud qapımızın qəbul qapağı gündə neçə dəfə açılır:

1) Səhər saat altıda, "qalx!" komandası veriləndə;

2) Gözlük və diş qapaqları veriləndə;

3) İkinci çıraq yandırılanda (bu halda qəbul qapağı açılmaya da bilər);

4) Zibilyığan gələndə;

5) Qara çörək və diabetbazlara ağ çörək veriləndə (əslində, tərsinə olmalıdır: diabet xəstələrinə ağ yox, qara çörək verilməlidir. "həkim" bunu qanmır);

6) Mənim meyvə şəkərim (ksilit) gətiriləndə;

7) Kolbasanı, limonu, pendiri doğradanda;

8) Çay gətiriləndə;

9) Səhər yeməyi veriləndə;

10) Gəzinti guşəsinə dəvət olunanda;

11) Qəzet veriləndə, Vur-tut ikicə qəzet verilir: "Pravda", "İzvestiya";

12) Sorğuya çağırılanda;

13) Yoxlanışda;

14) Həkim çağıranda;

15) Günorta yeməyi, axşam çayı, axşam yeməyi veriləndə;

16) Həbs muddəti uzadılanda. Qəzet aparılanda;

17) Gözlük və diş qapaqları alınanda.

Bugünkü "Pravda" qəzetində Belçikanın Brüssel şəhərindən yazan Qradovun "Başqa planetdən gələnlər deyil-

mi?" məqaləsi diqqətimi çəkir. Burada söhbət Belçikanın ADR və Avstriyaya həmsərhəd bölgələrində tez-tez görünən Dərk-olunmamış Uçan Obyektlər (НЛО – Неопознанный летающий объект) haqqında gedir. Üçbucaq biçimlidir. Ən böyük tərəfi təxminən 40 metrdir. Dörd əlaməti aşkarlanıb:

1) O enəndə yerdə elektrik öz gücünü azaldır, lampalar işıqdan düşür;

2) Pişiklər özünü narahat hiss edir;

3) İnsanı öyrənməyə çalışırlar;

4) Aparat sürətlə və dik qalxıb ərşə çəkilir.

Brüsseldə yaradılmış elmi mərkəz başqa planetdən gəlməsini zənn etdiyi obyekti ardıcıl öyrənmək üçün astro-fiziklərə və BMT-yə müraciət etmişdir.

# BİRİNCİ GÜN, 5 MART 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Xalq və millət mənasında kiçik qardaşım deyib cırnatdığım ağ köynəkli, qızıl saçlı Volodya xeyli deyinib sakitləşəndən sonra deyir:

– Faşizm stalinizmin solğun kölgəsidir. Stalin çox şeyi: totalitar sistemi, gestapo quruluşunu Adolf Hitlerdən götürmüşdü. Hitler hakimiyyətə gələndə fəhləyə, sənətkara çox şey, ilk növbədə, maddi təminat verdi. Milyonların rəğbətini qazandı. Bizim quruluş isə varlıları yoxsullaşdırdı, amma yoxsulları varlandıra bilmədi. Ən pisi budur ki, mənəvi sərvətləri aldən verdik. Məscidi, kilsəni, Allahı az qala yıxdıq, əvəzində cəmiyyətə heç bir yüksək inam aşılaya bilmədik.

İqtisadi tənəzzül əslində mənəvi tənəzzülün nəticəsidir. Müharibədən sonra kənd təsərrüfatına müharibədəkindən on qat artıq xərc qoymuşuq, Ortada heç nə yoxdu. Əfqanıstana qoşunu kim yeritdi? Bilən yox. Gürcüləri kim boyadı al qana? Ünvanını göstərən yox. Bakını qanlı xırmana döndərən kimlərdir? Məsuliyyət obyektini nişan verən yox, 30-cu illərdə torpağın əsl sahibini qolçomaq adıyla damğaladılar, qurşunladılar, sürgünə basdılar. Torpağa sahiblik duyğusu öldürüldü. İndi nə torpağa sahib duran var, nə ölkəyə.

# KƏFƏNİNİ GEYMİŞ KİŞİ

Qan ləkəli kötüyü lapdan vurdu ildırım,
Od yerində açıldı kül rəngində bir şırım:
– Sənətkara Azadlıq!
Silkələdi qasırğa şahə qalxan Xəzəri,
Sal qayalar doğradı ağappaq köpükləri:
– Sənətkara Azadlıq!
Şəhidlər məzarında ləpələndi çiçəklər,
Ərdəbildən Kremlə kəmənd atdı küləklər:
– Sənətkara Azadlıq!
Çəkic zərbələrindən qığılcımlar sıçradı,
Ağır toppuza döndü yumruqların poladı:
– Sənətkara Azadlıq!
Gürz götürdü  Mikayıl,
Kommunist küçəsində qırıb tökdü divardan
"Kommunist" kəlməsini.
Xəlil Rza qalası yaydı öz nəğməsini:
-Sənətkara Azadlıq!
Elxan fırça götürdü,
Aydın isti yapışqan,
Afişada göründü dağ çiyinli bir azman:
-Sənətkara Azadlıq!
Beyinlərdə bir üsyan,
Ürəklərdə bir ümman,
Biləklərdə güc, qüvvət, qələmlərdə qətiyyət,
kirpiklərdə göz yaşı.
Xəlil Rza dayandı bayraqlarla yanaşı!
Əl-əl gəzdi kitablar:
"Məndən başlanır Vətən",
"Qollarını geniş aç!",
"Krasnodon qartalları",
"Bahar gəlir" dünyaya, Xəlil Rza baharı.
'Nurlandırır korları,
Natiq edir lalları
Xəlil Rza əşarı.

– Hər sətrində tapmışam istəyimi, arzumu.
Vermərəm cəlladlara balam Xəlil Rzamı!
Hayqırır telefonlar:
– Sənətkara Azadlıq!
Gurlayır mikrofonlar:
– Sənətkara Azadlıq!
Teleqramlar od vurur Moskvaya, Kremlə,
Başsız Baş prokurora, ağzı qanlı qatilə.
Dünyanın sinəsində zəlzələlərmi dindi,
Zindanlar silkələndi, sərhədlər tikələndi.
Balası öldurülmüş Oruc qızı Dilarə
Gəldi kişi, ər kimi, ordunu yara-yara.
Zirehləndi Zərifə, daş yumruqlu Elmira,
Min zənciri qırmağa hazır Naibə xanım...
Könül, Süsən, Sərvinaz, Rima... neçə tərlanım!
Od baxışlı Vətutə, dişi aslan Ədilə,
Şəfiqənin köksündə alaylar gəlir dilə.
– Ürəyimin başından Müşfiqimi qopardın,
Nur heykəli Hadimi, Cavidimi apardın'!
Döymədimı ac gözün, Yanmadımı daş üzün?
Hanı Almaz Yıldırım?
Hanı Əhməd Cavadım?
Hanı Yusif Vəzirim?
Xəndəklərə atıldı neçə zərim, gövhərim.
Sünkər etdin aləmin taçı məmləkətimi,
Qatar-qatar daşıdın pambığımı, neftimi.
Portoğallı, limonlu bağlarımın ətrini,
Toprağımın, beynimin, ürəyimin şəhdini!
Ərdəbildən, Təbrizdən, Abşerondan daşıdın
Yeraltı sərvətimi, yerüstü sərvətimi!
Darmadağın elədin min-min yadigarımı, dövlə-
timi, varımı.
Tank ilə basmarladın nadir övladlarımı.
Susamısan indi də mərdlərimin qanına?
Min lənət ünvanına!
37-ci il yox, əsrin son çağlarıdır

Alov, atəş püskürən
üsyan bayraqlarıdır!
Ey əsrin üstə ləkə müstəmləkə hadimi!
Əl çək Azərbaycandan,
caynaqların yanacaq!
Rədd ol odlu məkandan,
O şərəfsiz, o murdar ayaqların yanacaq!
Bakı özü boydaca qəzəb, hiddət meydanı.
Bakı tufan içində! Moskvaçay yaxası tamam
başqa biçimdə.
Burda böyük sənətkar heç pozmadan kefini,
Gəzirdi kamerada, əynində ağ kəfəni.
Hər döyüşə, hər cənkə, ölümə də hazırdı,
Dəmir-beton divara ən qüdrətli şerini
öz qanıyla yazırdı!

***Moskva, Lefortovo zindanı,***
*6 mart 1990.*

# İKİNCİ GÜN, 6 MART 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Bakıda bizim Yazarlar Birliyinin Natəvan klubunda coşqun nitqlərini dönə-dönə dinlədiyim, Gənçədə Nizami Gəncəvi bayramında daha yaxından tanış olub əlini sıxdığım, şerlərini türkazərcəyə çevirdiyim belorus şairi Nil Gileviçin bugünkü "Pravda" qəzetində basılmış "İnsan olaraq qalalım" ("Оставаться людьми") məqaləsi və şəkli diqqətəlayiqdir. Sarsılmaqda olan SSRİ-də respublikaların iqtisadi və siyasi müstəqilliyinə dair federasiya qanunu yaradılmasını təkidlə tələb edir.

Milli dil – millətin şah əsəridir. Bu tezisi əsas tutan şairimiz sözdə dövlət dili elan edilən beloruscanın işdə bu səviyyəyə qalxmasına mane olan əngəlləri, ən adi məsələlərin həllinin də mərkəzə tabe və təslim edildiyini yana-yana bildirir.

Gəncəçay sahillərini birgə addımladığımızı, eyni süfrə başında duz-çörək kəsdiyimizi, Şıx düzündə Nizami Gəncəvinin əzəmətli məqbərəsi önündə birlikdə təzim edib düşündüyümüz çağları yada salıram. Hər nitqi, hər tələbi, hər şeri ürəkdən tikan çıxaran uca boylu, qızılı saçlı, mavi gözlü Nil Gileviç ilə dostlaşmaq üçün aylar, illər gərək deyil, bircə görüş də yetər. Çünki öz millətini təmsil etməyi bacaran oğuldur. Beloruscanı assimilyatorlardan qorumaq onun həat idealıdır. Yalnız beloruscanımı?

# ÜÇÜNÇÜ GÜN, 7 MART 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

İndi yəqin ki, azı 64 yaşına gəlib çatmış, dünya gözəli, fransız qəhrəmanı, şair və jurnalist Madlen Riffo xanımın "Sizin xüsusi müxbirinizdən" kitabını oxumağı davam etdirirəm.

Qəzəbdən alışan göylər... Əlcəzairdə öldürülmüş normandiyalı Roje Filippin vur-tut ikicə ay gəlin olmuş, indi dul qalmış qadını ilə sərhəddi keçib Tunisə pənah gətirmiş qucağı uşaqlı qadın tutuşdurulur. Belqasimin qadınıdır. Döşündə süd yox. Əri öldurülüb. Qızıl aypara çəmiyyəti belələrinə yalnız çörək və şorba verməyə qadirdir. Quran oxuyan çocuqlar meyvənin dadını yaddən çıxarmış-lar. Bircə həkim gündə azı 700 xəstəni, acı, yaralını dərmansız, vitaminsiz, qidasız necə qəbul etsin?!

Yenicə doğduğu çocuğun sərhəddi keçəndə gülləyə tutulan tikanlı məftillərin altında itirmiş, dəli olmuş, döşləri südlə dolu Ayişə torpağı qucmasın, bəs neyləsin?

Sediq adlı əlcəzairlini ərəb musiqisinin təranələri altında əzişdirirlər ki, fəryadı küçədə eşidilməsin.

– Arkadaşlarının adlarını deməsən, səni doğrayıb Sena çayına atacağıq!

Lion şəhərində 28 yaşlı əlçəzairli (Təbrizim ondan vurtut ikicə yaş kiçikdir) Əbdürrəhman Ləklifinin gilyotin bıçağı ilə edam olunduğu gün bütün Monlyuk dustaqları yurdsevərlik himni oxuyur, De Qolla qəzəbli etirazlarını bildirirlər.

34 yaşlı vəkil Uld Audianı əlcəzairli dustaqları məhkə-

mədə mudafiə etdiyinə görə, faşistlər qətlə yetirirlər.

– Əlcəzairə sülh!

Bu tələblə Evian şəhərinə 400 nəfərlik nümayəndə heyəti gəlir. Paris, Sen-Deni, Kurnev dəmiryolçuları, metalçılar, fəhlələr çələng, çiçək gətirir, şəhid edilmiş şəhər meri Kanil Blan kişinin məzarını bəzəyirlər. Firmin, Tur, Renn, Gassis, Elem, Trua, Rikamar elçiləri haqsız tökülən qanların kəsilməsini, Əlcəzairin Müvəqqəti höku-mətini tanımağı tələb edirlər. Aralıq dənizinin o tayından gələn partizan türkülərini dinləyirlər.

Bütün sevdiklərimi sənə bəxş etmişəm: mən,
Həyatımı verərəm, həyatımı, ey Vətən!
Güllələnmiş ağaclar yenə çiçəkləyəçək,
Külə dönmüş səhralar yenə yaşıl geyəcək.

Ormandan odun gətirmək bəhanəsilə düşərgədən çıxan, legionerlərin əlindən qurtulan kəndçilər yerdən götürdükləri yanıq torpağı ovuclarında sıxır, Əlcəzair uğrunda son damla qanlarınadək döyüşəcəklərinə and içirlər. "V-26" təyyarələrinin saçdığı napalm – qatılaşdırılmış yanar benzin atəşi nəticəsində üzü-gözü şişmiş, suluqlamış, sudur bağlamış, barmaqları əyilmiş, qaralıb rəngi boğulmuş ərəblər Tunis şəfa evində Madlen Riffo xanımla danışmaqdan boyun qaçırırlar.

– Napalm alovu adamdan bərk yüyurür. Napalm atəşi altına düşmüş adam ölə bilmədiyinə vaysınır, eybəcərləşdiyinə görə səninlə üz-üzə gəlmək istəmir. İncimə. Axı onları bu kökə salan Fransadır.

1961-ci ilin yanvarında Əlcəzair və Oran şəhərlərinə əlavə olaraq 800 min fransız döyüşçüsü gətirilir.

– Dustaqlara azadlıq!

– Yaşasın Əlcəzair Xalq Ordusu!

Projektorlar, avtomatlar, patrullar, gur səsli reproduktor-

lar qırmızı, yaşıl, ağ zolaqlı bayrağı zirvədən endirmək istəyir, bacarmırlar.

Eynilə bizdə olduğu kimidir. Üçrəngli bayrağımızı 70 ildən sonra ilk dəfə Bakının bu başından o başına aparan, Mərkəzi Komitə adlanan qanlı mağaranın önündə ləngər vuran əzəmətli izdihamın gözü qabağında dalğalandıran, dönə-dönə həbslərə, təqiblərə məruz qalsa da, yolundan dönməyən dostum, qarasaqqal Yaşar Türkazəri yada salıram:

Əlimdə avtomat yox, qələmimdir bu axşam,
Yaralı güllərinin keşiyində durmuşam.
Sökülləcək dan yeri, çəkiləcək qaranlıq.
Üfüq qızarır artıq, günəşdir ardındakı
Günaydın, əziz Bakı!

**1961, təmmuz (iyul)**. Əlvida, fransa! Mən Madlen Riffo Cenevrə, Roma üzərindən uçub Tunis şəhərinə gəlirəm. Bombalanmış və paraşütçülər tərəfindən tutulmuş Tunis od və sükut içindədir.

– Rədd olsun De Qoll!

Paraşütçülər, tanklar Bazerta şəhərinə girir, ultra ağlar onlara yardım edir, şəhəri "təmizləyirlər". Sanitar maşınları Bazertadan Tunisə hey yaralı daşıyır.

**Bizerta, 24 həzirən (iyun), 1961.** Min bir məzar təpəsi. Məzar qazan könüllü işləyib o qədər yorulub ki, ayaq üstə dura bilmir.

– On min tank, təyyarə yeritmişdilər ustümüzə. Biz yüz min idik, ancaq silahımız yox.

Tunis qadınları ağlamır. Ağlayan bircə fransız qızıdır:

– Tunis istiqlal qazananda elə bildik bizi qovacaqlar. Yox, onlar yaxşı adamdırlar. Amma bizimkilər görün neylədi?!

Paraşütçülər pəncərəsi dağıdılmış sanitar maşınında pi-

və yeşikləri aparır, içir, söyür, şəkil çəkən jurnalisti hədələyirlər.

Həkim şikayətlənir.

– Legionerlər bizi saxladılar. Yaralıları qan aparır. Maşını tərpətdim. Atdılar. Güllə baldırımı tutdu... Yalnız bir neçə yaralıya, yara üstünə buz qoya bildim (Məhəmməd Məkki Şalua).

Min bir məzar təpəsi...
O məzara qoyuldu
Yıpranmış plakatlar,
Saxta, çürük şüarlar.

**31 həziran 1961, Tunis.** Bizerta bombardmanından qaçan üç min qaçqın məktəblərə, şəfa evlərinə sığmır. Körpəsini itirib dəli olmuş ana, evini, anasını itirmiş cocuqlar, ətəkdən yapışıb gedənlər, bilərziyi biləyindən qoparılmış gəlin, meyit üfunətindən başı-beyni çatlayanlar, öldürülmüş və köksünə bıçaqla faşist xaçı yazılmış gənc fəhlə, heç bir oyuncağını götürməyə macal tapmamış didərgin yavruları, yeməkdən boyun qaçıran, ayaqyalın, başı ağ çalmalı ağsaqqal, işıqsız, susuz və ac qalan Bizerta, pulemyot yuvası pəncərələr, tank əleyhinə dəmir kirpilər, qayıdıb Bizertaya gələn Tunis milli ordu hissələri, könüllülər, şəhəri paraşütçülərdən, legionerlərdən qoruyanlar, qanı saçlarında quruyan sifətsiz ölülər müəllifin şair ürəyinin çırpıntılarına çevrilib.

**13 fevral 1962, Paris.** OAS-çılar tərəfindən öldürülən kommunistləri Per-Laşez qəbiristanında dəfn edir, yaralıları, gözləri çıxarılanları şəfa evlərinə daşıyırlar.

**3 may 1962, Əlcəzair.** 8 yaşlı Zora küçədə top-top oynadığı vaxt avtomat gülləsi yağışına tuş olur. "Ən çətini cocuqların gözlərini qapamaqdır" (şəfqət bacısı). "Böyuk-

lər bizə mane olmamağa çalışır, səssiz-küysüz ölürlər" (həkim).

Qatil OAS-çılar təkid edirlər ki, həkimlər yaralılara "dincəldici iynə" vursunlar.

Əlcəzairliləri, hətta, Evian sazişindən sonra süd, çörək, dərman dalınca getdikləri çağda vururlar. Ultra-qatil və OAS-çı tutulmur, məsuliyyətə alınmır.

Sumaxun qəsəbəsi. Summan dərəsi xarabazara çevrilib. Hər bölgəyə gündə 800 ölü düşür.

– Ot yeyərəm, amma doğma məskənimdən əl çəkmərəm.

Əlcəzairdən Qəbailə qayıdanlar belə deyirlər, OAS-çılar Ores dağı ətəklərindəki məhsuldar torpaqları kəndlilərin əllərindən almışlar.

– Get, qayalarda eşələn! Taxıl ək!

Sətif şəhərində əynində köhnə cələbiyyəli ərəb əlindəki tranzistoru dinləyir:

– Öldürülən 23 ərəbdən 18-i qadındır. Oran, Əlcəzair hələ əsarətdədir. Lafayet şəhərində meyid dağları yüksəlir.

Sətif restoranına Əlcəzairli komandir də girə bilərmiş. Deməк, sümürkəçilik can verməkdədir.

Sətif mədrəsəsinə yığışan qadınlar – didərginlər Milli Azadlıq Ordusu əsgərlərini görüncə irəli atılır, ərlərini soruşurlar. Bilərziyini, boyunbağısını, üzüyünü... nəyi varsa çıxarıb verən, əzabkeşlər fondunu zənginləşdirən çadralı qadına bax. Belələri birmi, ikimi? "Ərinin necə öldürüldüyünü ona danışımmı? Necə danışım?". Əsgər belə düşünür.

Qan gölü içində çırpınan yaralı gözəl soruşur:

– Niyə bizi atıb getdiniz?

Bu qədər acı, möhtacı, yalavacı olduğu halda, dilənçisi olmayan yaralı Əlcəzair, ölməyəcəksən. Ölənlərin qalanlarından qat-qat çoxdur.

Sənə dar gəlməyəcək məqbəri kimlər qazsın,
Göməlim gəl səni tarixə desəm, sığmazsın.

Madlen Riffo xanımın gözəl kitabı müstəmləkəçiliyə, qəsbkarlığa qarşı böyük fransız ürəyinin, fransız mənliyinin şanlı üsyan bayrağıdır. Bu cür kitab yaza bilmək üçün yalnız Fransanı, Vyetnamı, Əlcəzairi, Tunisi yox, bütün bəşəriyyəti candan sevməlisən.

# BEŞİNCİ GÜN, 9 MART 1990, MOSKVA, LEFORTOVO ZİNDANI

Yuqoslaviyanın türk yazarı Cəmil Raduliçin "çar qoşunları" ("Sarsgoye voysko") romanını oxuyub başa çıxıram. XIX yuzildə Osmanlı imperiyasının içəridən dağılmağa başlamasını, onu Mərkəzi Avropada qoruyub saxlamağa çalışanların əbəs cəhdlərini, muzd ilə əsgər gedən türklərin faciəsini əks etdirir. Ərlərinin ardınca hərbə qoşulan qadınlar sırasında ayağı sürüşkən Hüsniyyə adlı gözəl ilə bağlı lövhələr olduqca cəlbedicidir, oxucuda ehtirası, şəhvət hissini qızışdıran məqamlar ilə zəngindir.

İmperiyalar bəzən müharibələr nəticəsində dağılır, bəzən də qanlı müharibələrə gətirib çıxarır. Bizdə ikincisidir. Ağ imperiyanın dağılması Birinci dünya müharibəsi nəticəsində baş verdi. Qırmızı imperiyanın dağılması isə erməni-Azərbaycan vuruşlarına gətirib çıxartdı. Xaraba yıxılanda altında qalmaq təhlükəsi var. Təki itkimiz az olsun. Azərbaycan bu qan dənizləri, göz yaşları, iqtisadi, siyasi, hərbi böhran məngənəsindən sağ-salamat çıxa biləcəkmi? Azərbaycan Cinayət Məcəlləsinin 67-ci maddəsi məhkum üçün üç aydan on iləcən cəza müddəti müəyyənləşdirir. Mühakiməmiz Moskvada olsa, bizə mütləq iş kəsəcəklər... Şer yazmaqdan, poeziyaya güvənməkdən başqa əlacım yoxdur. Haydı, Xəlil bəy, təslim olma, miz ardına keçməli. Qələm sənin əlində ildırımdan güclüdür.

# BAZAR, 11 MART 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Müstəntiqim Aleksandr Georgiyeviç Qubinskinin hüzurundayam.

– Firəngiz yazdığım məktubu oxudumu?

– Oxudu, ağladı, – deyir. – Qardaşı ilə bir gəlmişdi.

Nahardan sonra yenidən görüşürük. Sorğularına cavab verirəm. Qardaşım Rüstəm Rza Bakıdan zəng edir.

– Vəkilə ehtiyacım yoxdur, – deyirəm. – Beş kilodan çox olmayan bağlama göndərə bilər.

Öyrənirəm ki, təcridxanadakı hesabıma yüz manat pul köçürüb. Guşəmizə qayıdıram. Fransız yazarı Madlen Riffo xanımın gözəl kitabını oxumağı davam etdirirəm. Cəmilə və başqa Əlcəzair qızları fransız zindanından buraxılanda, aman Tanrı, necə sevinir, necə qanadlanır, üzü rübəndli hər qadını elə küçədəcə bağırlarına basmaqdan özlərini saxlaya bilmirlər.

# BİRİNCİ GÜN, 12 MART 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Gəzinti sahəsindəyik. Yuxarıda eşələnən, bəlkə dən axtaran qarğanın caynaqları arasından tökülən qar və buz qırıntıları başımıza yağır. Pencəyinin qollarını ağız-ağıza verən, əllərini üşüməkdən qoruyan, mavi gözlü Volodyanı dinləyirəm:

– Xaraba qalmış SSRİ-də son 20 ildə 30 milyon adam məhbəsdən gəlib keçib, – deyir. – Beynəlxalq aləmdə bizi şinayət ölkəsi kimi tanıyırlar. Qadın və çocuq əməyinin istismarına görə, dünyada birinci yerdəyik. İqtisadi səviyyəmizə görə, 28-ci yerdə. Orta məktəbi bitirənlərin 90 faizi çismani cəhətdən naqisdir, qızların böyük əksəriyyəti bakirəliyini itirib. Dolanmaq üçün bədənini satanlar, mənəvi şikəstlər statistikaya alınmır. Varşava paktı dağıldı. "Xalq demokratiyası ölkələri" adlandırdığımız məmləkətlər bizdən üz döndərdilər. Əfqanıstanda yüz milyon dollar itirdik. İtki hələ də davam edir. M.S.Qorbaçovun Azərbaycana, Ermənistana dair 5 mart tarixli qərarı sizə heç nə vermir. Dişlərinədək silahlı Ermənistan qarşısında Azərbaycanın adicə quş tüfəngini də əlindən aldılar. Gülə-gülə deyir:

– İndi gedin, özünüz dil tapın!

...Müstəntiqimin hüzurundayam. Firəngizin Bakıdan zəng etdiyini bildirir. Etibarnamə istəyir ki, əmanət kassasından pul götürə bilsin. Yazıram. Öyrənirəm ki, 23 ocaq (yanvar) 1990-cı il tarixli axtarış zamanı Bakı Universitetində Məmməd Əlizadədən "Makarov" tapançası üçün 210

patron tapılıb. Başqa bir hüquq polkovnikinin tərtib etdiyi protokolu imzalayıram. Qara qonur gözləri zəka işığı ilə dolu Məmməd Əlizadə gözümdə canlanır. Yəqin ki, o da zin-dandadır.

# İKİNCİ GÜN, 13 MART 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Bakıda Səttarxan adına zavodun 28 yaşlı fəhləsi, qara saçlı, ağ üzlü, çevik, qətiyyətli, üsyankar oğul kimi tanıdığım, şair təbiətli Nemət Pənahlını yuxuda görürəm. Bu, bəlkə də heç yuxu deyil. Bakıda, Azadlıq meydanında Nemətin təşkil etdiyi 11 ocaq 1990-cı il tarixli əzəmətli mitinqin yaddaşımda yenidən oyanmasıdır,

– Süpürgəçisindən tutmuş başçısınadək bütün MK, bütün Ali Sovet, bütün Nazirlər Soveti aparatı, bu qartımış, kif basmış, çürümüş aparatların bütün üzvləri günü bugün dərhal, danışıqsız istefa verməlidir. Biz zavodda silah istehsalına keçirik. Azərbaycanı bütün xarici və daxili düşmənlərdən bu silah gücünə təmizləyəcəyik. Budur, Naxçıvanda dağıtdığımız sərhəddən gətirdiyim tikanlı məftilin bir hissəsi! 177 ildir ki, biz yorğan-döşəkdə yox, bu tikanlı məftillər üstündə yatıb dururuq. Xoşbəxtəm ki, millətimizin əlinə, ayağına ilan kimi dolaşmış bu ziyilli, iyrənc, paslı məftilləri qıranlar sırasında mən də varam. Qanı axan dırnaqlarımızla, heydən düşən barmaqlarımızla qırmışıq bu kirli məftilləri.

Bəli, bu, Nemətin səsi idi, Azadlıq meydanında bundan əvvəlki 2, yaxud 3 ocaq 1990-cı il tarixli əzəmətli mitinqi təşkil edən, hər iki qəzəb təntənəsini maqnitofon, mikrofon və səsyayan aparatlar ilə sahmana salan, natiqlərə söz verən də o özü idi... Oyanıb yataq içində əyləşmişəm. Elə bil nəyimsə çatışmır.

Əlim sağ, qolum sağ, ayağım da sağ,
Qəddim, qamətim də yerli-yerində.
Aha, azadlığım çatışmir ancaq,
Asiman çatışmır ciyərlərimdə.

Musa Cəlilin "Azadlıq" şeridir xatırladığım.

Azadlıq elə ki, əlindən çıxır,
İnsan bir itə də qibtəylə baxır.

– Qurban olum, darıxmayın, hamınıza söz verəcəm!

Nemətin böyuk səmimiyyət ilə açılan dodaqlarından yeni bir söz eşitmək üçün oyanmışam. Bakının doğma havası, əzizlərim və qələm dostlarım üçün darıxıram. Evimiz, kitab rəfimiz, iş stolum, istədiyim kitabı rəfdən götürüb vərəqləmək üçün darıxıram. Və birdən-birə dərk edirəm ki, Azadlığımı – nə boyda sərvətimi itirmişəm.

Yurdum, hürriyyətim olmayan yerdə
Yetiməm, lap atam, anam olsa da.
Pəncərəm dəmirdən, qapım dəmirdən,
Qısılıb qalmışam, beton bucaqda.

Adam zindanda yalnız doğmalara, əzizlərə yox, istədiyi kitablara da həsrət, tamarzı qalarmış. Məmməd Alimin mənə 1979-cu ildə Gəncədə bağışladığı sarı rəngli "Ürəyimin şəkli" adlanan birinci şerlər toplusunu xatırlayıram. Gəncə mənim üçün yalnız Bətənimizin gözəl bir parçası, gülşən bir diyar, Göygölü, Maralgölü bir daha görmək fürsəti deyil, daha nələrdir, bunu sözlə demək olmaz. Mürşüd Əsəd oğlu, Sabir Şərqi Əlisoy, Bahadur Fərman, Əsmət Məhsəti, Sahib Axundov, Aləmzar Əlizadə, Altay Məmmədov, Qərib Mehdi, Nüşabə Məmmədova, Sədnik Paşa, Rübail, Xəlil Yusif, Bağır Bağırov, Fəridə xanım Əliyarbəyli... Nə Gəncə, nə də Azərbaycan hüdudlarına sığışmayan bu adlardan hər birilə nə qədər xatirələr bağlıdır.

Gəl, hər gün bir sevdaya, təzə fikrə düşməyək,
Görüşsək, ayrı1mayaq. Ayrılsaq, görüşməyək.

Məmməd Alimindir. Gözəl deyib, Doğrudanmı, görüşmək bizə bir daha qismət olmayacaq?!

Yolları gözümün içindən çəkin,
Görüm hansı yolla qayıdır oğlum.

Bu beyt isə şairimiz Bahadur Fərman kişinin müharibədən neçə illər keçəndən sonra da əsgər oğlunun yolunu gözləyən Anaya həsr etdiyi şerindəndir. 1990-cı ilin 20 yanvar səhəri mənə ağlaya-ağlaya zəng edən tarixçi Şəfiqə xanımın dedikləri beynimi dağlayır, isti göz yaşları hələ də ürəyimin başına səpələnir:

– Nemət niyə elə dedi? Niyə hayqırdı ki, biz silah istehsal edirik? Rus gülləleri bəlkə həmən cümləyə tuşlandı? Məgər silahlanan da silahlandığını dünyaya car çəkər? Nemət niyə elə dedi, ay Xəlil? Ay başına dönüm, taqsırımız nədir ki, bizi qanımıza bələdilər? Zinadan törəmiş Qorbaçov niyə dünyamızı qana çalxadı?

# DÖRDÜNCÜ GÜN, 15 MART 1990, MOSKVA, LEFORTOVO ZİNDANI

– Çağırışa gedirəm. Müstəntiqim Aleksandr Georgiyeviç Qubinski 1989-1990-cı illər ayrıcındakı Şuşa səfərimi işıqlandırır. Qayıdanda demək olar ki, vertolyot pilləkənindən sallana-sallana qaldım, birtəhər dırmanıb güclə yuxarı qalxa bildim. Təsəvvür edin ki, Bakıya can atan 250-300 sərnişin ola, vertolyotda isə vur-tut 28 adamlıq yer. Basabası, hərc-mərcliyi təsəvvürə gətirin.

Müstəntiqin bir stəkan çayını içir, bir siqarını tüstülədir və kompüterdən çıxardığı protokolu imzalayıb qayıdıram.

Moskva Dövlət Tarix Arxivi İnstitutunun direktoru Afanasyevin SSRİ deputatlarının üçüncü qurultayındakı nitqi "İzvestiya" qəzetinə işıq salıb. V.İ.Lenini ən böyük terrorçu və zor bayraqdarı adlandırır. Dağılmaqda olan Sovetlər birliyini çıxmaza dirəmiş M.S. Qorbaçovun kursunu zərərli və təhlükəli hesab edir. Yeni konstitusiya, federasiya qanunları müəyyənləşməyincə hansı prezidentdən söhbət gedə bilər? Moldav yazarı Çebanu və bizim Akademiyanın prezidenti Eldar Salayevin çıxışlarında da buna bənzər ittiham notları var. Qorbaçov, doğrudan da, ciddi siyasi xadimdirsə, niyə Bakıda vur-tut il yarım ərzində iki dəfə qanlı qırğına, bu dərəcədə uzun sürən fövqəladə vəziyyətə yol verdi?

## ŞƏNBƏ, 17 MART 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Kainat ucsuz-bucaqsız... bizim kameramız isə qartal yuvası boyda. Deyirlər, qartal öz yuvasını qayalər başında, zirvələrdə qurmağı xoşlar. Bilmirəm. Ancaq bildiyim budur ki, bizim yuvacığımızın qapağı daşdan, qayadan, dəmirdən də möhkəmdir, çıxış yolu yoxdur. Kameradaşım qızıl saçlı, mavi gözlü Volodyanı dinləyirəm. O da mənim kimi, bu fikirdədir ki, Sovetlər birliyindən ayrılan qardaş Litva xalqının böyük tarixi qəhrəmanlığı, müstəqil dövlətin ilk prezidenti Landsbergis, deputatların üçüncü qurultayında M.S.Qorbaçovu qəzəbli tənqidinin qırmancına dolayan gürcü Avaliani, Rıjkovu ağladan Sobçak, partiya plenumunda SSRİ-nin Polşadakı səfiri Brovikovun çıxışı unudulmazdır.

– Gələcək və səadət Yaponiyanın və Yaponiya kimi ölkələrindir. Sinqapur, Koreya, Tayvan, Malayziya, Türkiyə kimi milli istiqlal bayrağı qaldırmış hürr məmləkətlərindir. Fənalığa baxın ki, dünyanın altıda bir qismini tutan Moskva imperiyası Yaponiyanın üç, dörd balaca adasını da özünə qaytarmaq istəmir. Həyasızlığın dərəcəsinə baxın!

Volodya bu sözləri mənə xoş gəlmək üçünmü deyir. Yox, o qəzə-bində, hiddətində səmimidir.

# BİRİNCİ GÜN, 19 MART, MOSKVA, LEFORTOVO ZİNDANI.

Dünən üstünə qışqırıb acıqlandığım üçün bu gün könlünü almaq istədiyim kameradaşım Volodyanın çiyninə pencəyimi atıram ki, səhər yuxusu şirin olsun. Hərçənd burada "Qalx!" komandasından sonra yatmaq imkanı verilmir. Ən azı durub yerini sahmana salmalısan, istəsən sonra uzana da bilərsən.

Düşünürəm: müstəqil Litvanın azadlığını deputatların üçüncü qurultayının səsvermə maşını ilə boğmağa çalışan SSRİ prezidentinin Landsbergisə teleqramı nə ilə nəticələnəcək? Doğrudanmı, Moskva Litvaya da silahlı qoşun yeridəcək, Vilnüsdə fövqəladə vəziyyət elan edəcək?!

Şairimiz Oljas Süleymenovun deputatların qurultayındakı çıxışı diqqətəlayiqdir.

– Qorbaçov həm qazı basır, həm əyləci. Buna görə haray-həşir qoparan (aşkarlığı bildirən) maşını yerində sayır, irəliləyə bilmir, Söz azadlığı verilib, təsərrüfat, iş azadlığı yox.

Düşunürəm: M.S.Qorbaçovun Litvaya, Landsbergisə mü-qaviməti zahiridir, gözdən pərdə asmaqdır, özü də yaxşı bilir ki, ABŞ nəqşəsini dürüst yerinə yetirir, SSRİ-nin dağılması labüddür.

# DÖRDÜNCU GÜN, 22 MART 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Gözün aydın, Namibiya, müstəqilsən! Qara qitə Afrikanın köksü üstə qızıl gülsən, Namibiya! İndən belə qoy adın tarixə böyük və qızıl hərflər ilə yazılsın. Ölkənin paytaxtı Vandxuk aşıb-daşan təlatüm, bayram içindədir. "Atletiko" stadionundakı təntənəyə BMT- nin Baş katibi X.Peres Kuelyar özü gəlib. Geçə saat 24-də Afrikanın cənubundakı son müstəmləkə ləğv edilir, ölkənin rəsmi müstəqilliyi elan olunur. Gündüz beşrəngli milli bayraq qaldırılır. hökumət üzvləri və deputatlar ilk prezident, 60 yaşlı Sama Nyuma önündə and içirlər. Müstəqillik marşı səslənir. Övladlarının qürurlu hərbi addımları yalnız stadion torpağını deyil, az qala Yer kürəsini titrədir. Sağ əlin başımıza, Namibiya! Sənin şərəfinə bu gün bəlkə ən gözəl şerimi yazacam.

Döşəmə yox, taxta yox,
Ayağımın altında arslan dərisi varmış.
Zəncirli biləklərim.
Səadəti pələngin boğazından çıxarmış.
Kişi gözündəki nur eşir, deşir zülməti,
Tapır, taxta çıxarır gedən hakimiyyəti.
İmkan məhdudlaşanda mən könüllər ahıyam,
Kamerada kölə yox, Azadlıq Allahıyam!

# BAZAR, 25 MART 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Gecələrimiz xeyli uzundur. Əslində ən böyük cəzamız da elə bundan ibarətdir. Mübarizədən ayrı düşmək, fikirləşmək, yata bilməmək, götür-qoy cəzası dustaq üçün bəlkə ölüm cəzasından daha ağırdır. Çarlz Darvinin arvadı Emma xanım görür ki, tələyə düşmüş siçanlar dərhal ölmür, bəzən 8-9 saat əzab çəkir, can verirlər. Onları bu əzabdan qurtarmaq üçün firmaya həm şikayət məktubu yazır, həm də "müqəssir"i dərhal öldürməyə qadir yeni tələ hazırlamaq sifarişi verir. Bizim hərbi diktaturaya söykənən quruluşda insana bircə siçan qədər də əhəmiyyət verən yoxdur. Məndən öncə mənim yatdığım çarpayıda yatan özbək kameradaşımın dediyinə görə, heç bir taqsırı olmadığı üçün dörd illik həbsdən sonra azad edilmişdir. Heç məhkəməyə gəlib çatmamış "cinayət" işini qapamağa məçbur olmuşlar.

– Bəs mənim batan dörd ilim?

Onun bu ittihamına cavab verən yoxdur. İtalyanlardan videomaqnitofon aldığına görə həbs edilmiş kameradaşım Volodyanı dinləyirəm:

– Mən zavod direktoru olduğum çağlarda öz işçilərimə bəlkə heç bir xadimin verə bilmədiyi xeyir vermişəm. Yenə verməyə hazıram. Buraxsınlar azadlığa, heç donluq da istəmirəm, təki fəaliyyət, iş azadlığı versinlər, görsünlər ölkəni mövcud böhrandan xilas etməyin yollarını necə tapıram. Kolxoz quruluşu özünü doğrultmur, keç ferma, ferfer üsuluna. Mən böhrandan çıxmaq üçün SAPR metodu

düşünürəm. SAPR - smelost, aktivnost, predprimçivost, reşitelnost. Mövcud partiya istər-istəməz mütləq parçalanmağa doğru gedir. Onun sağlam qismi yalnız tərəqqi yollarını taqmaqla xalqın rəğbətini qazana bilər. Xalq cəbhələri də eləçə. Heç bilirsənmi, göllərin dibində çayların, irmaqların, sellərin gətirdiyi nə qədər munbit çürüntü yatır. Məhsuldarlıq üçün bu çöküntü əvəzsiz gübrədir. Xaricilləri cəlb et bu işə, müqavilə bağla, çöküntünün yarısını özü aparsın, yarısını versin sənə, gör necə aşıb-daşan məhsul götürərsən.

...Həbsin, ümumən cəmiyyətdəki ədalətsizliklərin nə olduğunu bilməyən adam partiya, dövlət xadimi olmağa layiqdirmi? Əsla! Vatslav Qavelin, Nelson Mandelanın çəkdiklərinin mində birini bizim "rəhbərlər" çəkiblərmi? Heç biri! Çoxu ləyaqəti olmadığı halda, karyerə yolunu tapanlardır. Bir ovuc adam sayı üç yüz milyona yaxınlaşan cəmiyyətin çiynində əyləşib onu istədiyi səmtə hərləyir, burnunu gah Bakıya soxur, gah Litvaya, gah Alma-Atanı qanına bələyir, gah Tiflisi...

İçərisi cəhənnəm alovları ilə dolu Volodya üzdə necə də sakit və təmkinlidir.

# BİRİNCİ GÜN, 26 MART 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Dustaq edilməyimin iki ayı bu gün tamam olur. Bakı hələ də fövqəladə hərbi vəziyyət şəraitindədir. Gecə-gundüz özünə sığal verməklə məşğul olan Ayaz Mütəllibov Kremlin qarşısında dizlərini də yerə qoyub, hələ əllərini də. Zərrəcə də müqavimət qüvvəsi yoxmuş. Tam kölədir. Qanına bələnmiş Azərbaycan, Bakı nə üçün onun ayaqları altında oda, alova, vulkana çevrilmir?

Kamerada var-gəl və zümzümə edən ağ köynəkli Volodyaya diqqət kəsilirəm. "Zəncilərin Azadlıq nəğməsi"ni əzbər deyir. Onun rusca söylədiklərini türkcə səsləndirməyə çalışıram:

Bu sərt qasırğaları yarıb keçəcəyik biz.
Bu sərt qasırğaları yarıb keçəcəyik biz.
Bu sərt qasırğaları yarıb keçəcəyik biz.
Qüvvəmiz – dəniz-dəniz.

Heç nə qorxutmur bizi!
Heç nə qorxutmur bizi!
Heç nə qorxutmur bizi!
İçəcəyik dənizi.
Biz gedirik əl-ələ.
Biz gedirik əl-ələ.
Biz gedirik əl-ələ.

**Addımımız – zəlzələ.**

Bu qartımış aləmi, ey baharım, təzələ.

– Qaralar iddia edirlər ki, ağların mübarizəsindən bir şey çıxmadı. Bəşəriyyətə niçatı yalnız biz verəcəyik!

...Xəlil bəy, deyəsən siz tərcüməçiliyə aludəsiniz. Stendalın əlimdəki bu kitabında yaxşı bir soneti var. Bəlkə bunu da...

Volodyanın diləkçəsini yerinə yetirirəm.

## SONET

*Stendalın İtaliya gündəliyindən*

Kimsən, nəsən, ey ölüm?
Günahkar, yava, murdar.
Ancaq nakəslər üçün səmum kibi əsirsən.
Səndə ulu göylərin intiqam qılıncı var,
Yaxşı ki, zalimlərin nəfəsini kəsirsən.

Ancaq zülmün, zillətin, məşəqqətin dağ yükü
Altında bel bükənlər səni özü arzular.
Son nəfəsdə gülümsər, titrəməz də bir tükü,
Yanıb külə dönsə də bağrındakı arzular.

Sənə nifrət bəsləyər döyüş vaxtı qəhrəman.
Dar gündə poladlaşar, aşar-daşar da ruhu.
Ariflər səni bəklər, heç rəngi də qaçmadan.

Kimsən, nəsən ey ölüm? Zülmət gecə, ya səhər?
Xeyir, ya şər?! Nə qədər adın var, ey canalan!
Can verənlər adını qoy özləri desinlər.

Poqonlu bir keşikçi qapımızı açır:

– Qalxın! – deyir. – Döşəkləri dəyişirik. Köhnələri bükün, verin. Təzəsini gətirmişəm.

Təzə döşək həm qalındır, həm yumşaq.

– Daha buradan getdi yoxdur, Volodya. Bu dəstgahı nə Kamenyev görüb, nə Zinovyev.

...Səssizlik. Yalnız açılan səhifələrin xışıltısı. Bugünkü "Pravda" qəzetindəki "Demokratiya və antidemokratiya" məqaləsi dağılmaqda olan SSRİ-ni bürüyən mitinq, üsyan və yürüşlərin mahiyyətini anlamağa imkan verir. "Kommunizm – XX əsrin qanlı ideyasıdır!" – bu şüarı Sverdlovsk (indiki Yekaterinburq) şəhəri mitinqçiləri irəli sürmüşlər. "Çağdaş quruluş – dövlət banditizmidir" cümləsi Moskvanın Zubov meydanında çıxış edən "Demokratik ittifaqın üzvü S. Kuznetsovun dilindən çıxmışdır. Gürcüstanda V. İ. Leninin heykəlini dağıdanlar da eyni fikirdədirlər.

Ermənilərin Azərbaycana hücumu daha həyasız şəkil alır, Qazaxın Əskipara kəndində yeddi türkazərin, o sırada, ana və cocuğun, milis işçisinin öldürülməsi, Mehridən keçən Azərbaycan qatarına və Şuşa qalasına yeni hücumlar SİTA-nın həmişə erməni xeyrinə ört-basdır etdiyi cinayətlərin yalnız kiçik bir şaxəsidir.

Bugünkü "İzvestiya" qəzetində Çernobıl faciəsinə həsr olunmuş "Fəlakət" ("Katastrofa") məqaləsi misilsiz dərəcədə dəhşətli həqiqətləri açır. Ormana getmə, göbələk, meyvə yığma, zəhərlənərsən. Bulaqdan, çaydan, göldən su içmə, şüalanarsan. Bəslədiyin inəyin südünü içmə, ətini yemə, ölsən qəbrə girmə, radiasiyaya məruz qalarsan.

## İRADƏNİ İTİLƏ!

Burda hər şey tuşlanıb iradəni qırmağa,
Vüqarını, əhdini, əzmini sındırmağa.

Günəşsiz pəncərəni örtən buz salxımları,
Cinayət qovluğunun qara ildırımları.

Dəmir qapı dalından verilən dadsız yemək,
Başa vursan baş yaran, yavan, qupquru çörək.

Polkovnik müstəntiqin buzdan soyuq gözləri,
Sorğu-sual çağında qan qoxulu sözləri,

Gecə ərşə çəkilən yuxun, yuxusuzluğun,
Qaynar qazan beynini söküb-tökən min duyğ-
un.

Ciyərinə çəkdiyin tüstülərin zəhəri,
Tək-tək yaman xəbərlər, məktubsuzluq qəhə-
ri...

Hər şey, hər şey tuşlanıb iradəni qırmağa,
Səni ayağından yox, ürəyindən vurmağa.

Onlar səni ovcunda bir sərçə görmək istər,
Ayaq ucunda bir top, kələfçə görmək istər.

Təslim olma, əcəli uzaqlara itələ,
Sən dəmirsən, bülöv tap, iradəni itilə!

Qəzet, kitab tükənsə, öz beynini aç, oxu
İnsan özü kitabdır.

Qoru kişi hökmünü,
Kişilik – inqilabdır!

Onlar yanğın, Sən - zəmi. Qoyma sünbül ütülə,
İradəndir xəncərin. İradəni itilə!

Çarpışırsan büt ilə. Neçə nadan, küt ilə
Haqq nahaqqı kəsəcək. İradəni itilə.

Kəsafəti, zülməti, barmaqlığı, zilləti,
Canavarlar dişində neçə min cinayəti,

Bu iyrənc səltənəti darmadağın edəsi,
Qəzəbinin bombası bənddir bircə fitilə,

İradəndir o fitil,
İradəni itilə!

Haqq önündə min haqsız nəyə bənzər?Mitilə!
Coş, kükrəsin atəşin! İradəni itilə!

Çirməklidir qollarım, gecə-gündüz yazıram,
Misra-səngər başında hər bir cəngə hazıram.

Yalnız polad iradəm bu yoxsulluq içində
Dövlətimdir, varımdır.

İradəm – günəş kibi
ölməz misralarımdır!

***Moskva, Lefortovo zindanı***
*28 mart 1990.*

## DÖRDÜNCU GÜN, 29 MART 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Maraqlı bir kitabla tanış oluram: Mixail Stepanoviç Kapitsa, Nikolay Pavloviç Malyotin. Sukarno, siyasi ömürlüyü. M., Mısl, 1980.

332 yarpaqlı bu kitab XX əsr milli azadlıq hərəkatının ən görkəmli xadimlərindən biri, İndoneziyanın ilk prezidenti, milli qəhrəmanı Sukarnonun ictimai-siyasi fəaliyyətini işıqlandırır.

Yava adasının Surabay şəhərində 1901-ci ilin 6 həziranında (iyununda) dünyaya göz açmış Sukarno 1970-ci ilin 21 həziran günü dünyadan köçmüş və Yava adasının Blitar qəbiristanında torpağa tapşırılmışdır. Ana dilindən başqa hollandca, almanca, fransızca, ingiliscə gözəl bilən, əla natiq, tribuna arslanı Sukarnonu fərqləndirən incə cəhətlərdən biri qadınlara, gözəllərə sonsuz məhəbbətidir. Ustadı Çokroaminotunun 15 yaşlı qızı Utari onun ilk qadını olub. Ərindən ayrılmış 33 yaşlı İnqgit Qarnasix onun evinə ikinci gəlin sifətilə gəlib. Sukarnonun qızı yerində olan Fatmavati onun üçüncü qadınıdır. Dördüncü arvadı Natna Sari Devi, beşinci könüldaşı 23 yaşlı Xaryata, altıncı zövcəsi Xartini ona murad verib murad almışlar. Yeddinci gəlin Naoko Nemoto yapon köklü olub.

İslam dinini və kommunist ideologiyasını milli azadlıq hərəkatı vasitəsinə çevirmiş Sukarno eyni zamanda marxaenizmin banisidir. Marxaen bizdə Əhməd, Məmməd kimi geniş yayılmış addır. Sukarno ideologiyası Marxaenin şəx-

siyyəti, taleyi, ruhu, mənafeyi ilə bağlı həqiqətləri milli azadlıq hərəkatının embleminə, bayrağına çevir-mişdir.

Kitab üç fəsildən, ön söz, sonuç və qeydlər bölməsindən ibarətdir. "İndoneziya xalqının carçısı" adlı birinci bölmə beş mövzunu işıqlandırır.

1. Cocuqluğu, gəncliyi. 2. İndoneziya ittiham edir. 3. Yapon işğalı.
4. İstiqlaliyyət. 5. Sağ qalmaq uğrunda mübarizə.

"Ömür boyu prezident" adlı ikinci fəsil birincinin davamı olan bölmələrə malikdir: 6. Yönəldilmiş demokratiya. 7. "İnqilabın sonu olmamalıdır". 8. Ömrün təhlükəli ili. 9. Otuz sentyabr.

"Vətəndaş Sukarno" fəslindəki bölməzlər: 10. "Mən hələ də prezidentəm". 11. Yolun sonu.

Muharibə böyük dağıntılara, insan itkisinə, fəlakətlərə baxmayaraq ictimai tərəqqiyə təkan verirmi? Bəli. İkinci dünya müharibəsi hitlerizmin məğlubiyyəti ilə bitməsəydi, İndoneziya 300 ildən çox davam edən Hollandiya müstəmləkəçiliyindən, Yaponiya əsarətindən qurtula bilərdimi? Çətin!

1945-ci ilin 17 qasim (noyabr) günu öz milli istiqlaliyyətini Sukarnonun dilmlə dünyaya car çəkmiş İndoneziya – hind adaları deməkdir. Nesos – ada yunan sözüdür. İlk tərbiyəsini səcdə qıldığı anasından, atasından, Yava dililə uyğunlaşdırılmış "Mahabharata", "Ramayana" kimi ülvi hind dastanlarından, qulluqçu Sarina bacıdan almış, 1947-ci ildə "Sarina" adlı kitabını nəşr etdirmiş, min sevgilisi olmuş Arcun, Vayanq təki xalq qəhrəmanlarından ilham almış, Həccə getmiş, mərdəkə (azadlıq) bayrağını qaldırmış, "Ömürlük" kitabını (1965) Sindi Adalis xanıma diktə etmiş

Sukarno dünyaya küləklərin Şərqdən əsdiyini, Asiya, Afrika və Latın Amerikası ölkələrinin yeni doğulan qüvvələr qaynağı olduğunu bildirmiş, köhnəlmiş qüvvələri (Oldefo) təzələməyə (Nefo) çağırmış, Qərbi Nriananı da Hollandiya caynağından xilas edə bilmişdir. Müstəqil filosofdur.

## BEŞİNCİ GÜN, 30 MART 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Axşam dəmir qapımızı açan iki nəfər poqonlu içəri girir, T. və O. adlı dustaqlara kəsilən cəzanın mətnini bizə oxuyur. Səhər gəzintisinə çıxmadıqları üçün onlar ayda bircə yol verilən və çəkisi beş kilodan çox olmayan bağlamanı almaq, həmçinin on manatlıq ərzaq sifarişi vermək hüququndan məhrum edilmişlər.

Bugünkü "İzvestiya" qəzetində A.Krovopalovun "Kto otdaval prikaz" məqaləsindən bəlli olur ki, 1918-ci ilin 20 eylulündə (sentyabrında) 26-ları Ağcaqumda güllələyənlərin təşkilatçısı Tiq Couns adı altında fəaliyyət göstərən Ronald Sinkler və Aşqabad təşkilat komitəsinin baş naziri, parovoz sürücüsü Funtikov olmuşlar.

Universitet illərinə (1949 - 1954) düşən gəncliyimdə, hələ xeyli sonralar da gör nə qədər qafil, kal və nadan olmuşam ki, "26-lar" poeması tipində əsərlər yazmışam, 1918-ci il mart döyüşlərində Bakı türklərini qanına bələyən Şaumyanı tərənnüm etmişəm, inqilab xadimi kimi qələmə vermişəm. Ar olsun, Xəlil, səni dama nahaq basmayıblar.

Nazir qafil olsa, qafil sayarlar.
Tacir qafil olsa, bağışlayarlar.
Sənətin qanunu başqadır bir az:
Şair qafilliyi bağışlanılmaz!

## NƏ CÜR BAXACAQSAN GÖZLƏRİMƏ SƏN?

Sənin gözlərinin lap önündəcə
Sənin vətənini ayaqladılar.
Dahilər qəbrini döndərib heçə,
Ölüb-itənini ayaqladılar.
Yerində zəncirli it bağladılar.
Cınqırın çıxdımı barı bircə yol?

Neçə yüz, neçə min həmvətənini
Silah qabağında, bircə həftədə
Evindən fırlayıb çölə tökdülər.
Yüz ilə, min ilə qurduqlarını
Bircə qırpımdaca söküb-tökdülər.

Qopardıb elindən, yurd-yuvasından,
Yaylaq havasından, dağ havasından
Ayırıb səpdilər qarlı yollara.
Soyuq bələkləri gözmuncuğulu
Çoçuqlar söykəndi yorğun qollara,
Cınqırın çıxdımı barı birçə yol?

Kiminin kuklası bucaqda qaldı,
Qazanı od üstə, isti ocaqda,
Kimi əl üstündə, qucaqda qaldı,
Bir qəbirlik yer qazımaqda...
Samanı, yoncası, yemi axurda
Uçar köhlənləri güllələdilər,
İnəyi naxırda, atı ilxıda...
Mərdlərin başına od ələdilər.

Mülkü, top dağıtmaz qalası qaldı,
Zümrüd çəmənlərin laləsi qaldı.
Goreşən ağızda, qurd caynağında
Boylu gəlinlərin balası qaldı.
Cınqırın çıxdımı barı bircə yol?

Sənin dörd ellinin əl-ayağını
Möhkəmcə sarıyıb rezin təkərə.
Od vurub... üstünə benzin tökdülər
Alovlar dirəndi Aya-ülkərə.

Yandı diri gözlü dörd canlı məşəl,
Odlandı Xankəndin tən ortasında.
Karlaşan, daşlaşan qulaqlarına
De, gəlib çatdımı bu səs, bu səda?
Cınqırın çıxdımı barı bircə yol?

Sənin göylər boyda məmləkətini
Bölüb, bölüşdürüb gəmirdilər də,
Sorub zaman-zaman sümürdülər də.
Arslan millətini, şir millətini
Bir əl quzusuna döndərmək üçün.
İNSAN  kəlməsinin ucalığından
Bir qul mövqeyinə endirmək üçün,
Bakını qanına bələdi düşmən. –
Şəhdini çəkdiyi dərdli Bakının
Üstünə zirehli tanklar yeritdi.
Fəqət unutmadı altındakını!
Cınqırın çıxdımı barı birçə yol?

Mənim cüt qolumu zəncirlədilər,
Kündəyə saldılar ayaqlarımı.
Çəkib avtomatı "Molçat!" dedilər,
Qıyıqla tikdilər dodaqlarımı.
Mən sənin uğrunda atıldım oda,
Sən mənim uğrumda, ey üzüqara,
Barı heç olmasa otuz qəpiklik
Teleqram vurdunmu "yuxarılara"?
Cınqırın çıxdımı barı bircə yol?

Əlbəttə, vaxt olub – cınqırın çıxıb,
Hələ yumruğunu yalandan sıxıb

Mikrofon önündə bağırmısan da.
Bildiyin sözlərin udub çoxunu,
Dərhal düzəldibən qalustukunu,
Xalqı imdanına çağırmısan da.
Yambızın, ulğumun tərpənib ancaq,
Ürəyin qul qalıb, içərin də qul!
Cılız qeyrətinə, cır şöhrətinə
Qarovul çəkmisən, ey qul, qarovul!
Yalandan iyrəncdir yarımhəqiqət,
İlan sümüyüdür boğazda yalan.
İlanlar, yalanlar torunda qalan
Ehtiyatlı oğlan, get sərbəst dolan!

Əli qanlıların qoltuğundasan,
Girdiyin deşiyə min dəfə sığın.
Kimsə medalına toxunmayacaq,
Yerində qalacaq deputatlığın.

Kişi gözlərində rentgen gücü var,
Bir gün qarşılaşsaq, söylə görüm sən
O yorğun başını qaldırıb naçar,
Gözlərimə 'baxa biləcəkmisən?

***Moskva, Lefortovo zindanı.***
*5 nisan 1990.*

# ZİNDANDA NOVRUZ BAYRAMI

Mənim solğun laləzarım,
gözü yaşlı nobaharım,
Cibi dolu, əli dolu,
qəlbi dolu gələn yarım!
Bir ağappaq süfrə açdı,
üstündə yar səliqəsi,
Bir az kişmiş, bir az küncüt,
bir az badam, qoz ləpəsi.
Qurdaladı çantasını,
tapdı şəffaf sellofanı,
Açdı, qoydu altı-yeddi
romb şəkilli paxlavanı.
Şam yandırdı, şölələri
necə parlaq, necə əziz.
Dəvət etdik, yanaşmadı
zər poqonlu keşikçimiz.
– Bu il Novruz bayramımız
bir az qəmli keçdi, Xəlil,
Nuş et, ağzın şirin olsun,
sənsiz bayram heçdi, Xəlil!
Bu da körpə, göy səməni –
xalan, bacın ərmağanı,
Süfrə birdən xatırlatdı
yaz nəfəsli gülüstanı.
Səmənidən ətri gəldi
doğma Milin, Muğanın da.
Moskvanın qucağında,
Lefortovo zindanında
Buğdanın hər dənəsindən
sanki bahar sıçrayacaq.
Gözə çıraq, qəlbə dayaq,
Ovsuna bax, saçaq-saçaq,
Yolda azca sıxılsa da
yamyaşıldır hələ rəngi,

Göy səməni – bar-bərəkət,
ilk baharın tər çələnki!
Keşikçi dost, qəbul eylə
barı bircə paxlavanı,
Azərbaycan naxışlıdır,
bu neməti sən də tanı.
Səp göylərə bu kişmişi,
dönəcək ağ ulduzlara.
At torpağa o buğdanı,
yol açacaq bəhrə-bara.
Bələnsə də al qanına,
çəkilsə də min yol dara,
Çörək verir, ürək verir
Azərbaycan dünyalara.
Yanır şamlar... göz yaşları
damla-damla, gilə-gilə.
Şam ağlayır gülə-gülə,
şam yaşayır ölə-ölə.
Göz nurunu, can şəhdini
cahan ilə bölə-bölə.
Yanır şamlar... pənçərədən
gör silirmi qarı, buzu?
Şüşələrdən süzülür su,
hər damlası dan ulduzu.
Uçub gedir qəm kölgəsi
Məhəmmədin çöhrəsindən.
Zəif şamlar qüvvət alır
Xəlil Rza nəfəsindən.
Sil gözünü, məğrur əyləş,
mənim ürkək novbaharım,
Sənsən mənim dunya boyda
səadətim, ilhamım da.
Min zindanı parçalayan
gur çırağım, bayramım da.

Firəngizim göy səməni,
şamlar təki pak, müqəddəs.
Sil gözünü, ey gülnəfəs
Çırağımız haqdan yanır,
onu heç kəs söndürəmməz!

***Moskva, Lefortovo zindanı.***
***6 aprel 1990.***

# İKİNCİ GÜN, 10 NİSAN (APREL) 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

## DEPUTAT YAZIÇIMIZ İSMAYIL ŞIXLIYA

Hörmətli, əziz İsmayıl müəllim!

Salam, günaydın!

Bu gecə oyanıb yatandan sonra Sizi ikinci dəfə yuxumda görməsəydim, bəlkə də bu məktubu yazmayacaqdım. Lakin mək-tubumun məhz Sizi unvan seçməsi heç də yalnız yuxum ila bağlı deyil. Mən bu sətirləri bugünkü alaqaranlıq Azərbaycanda ən işıqlı ünvana göndərirəm, buna görə itib batmayacağına, faydasız olmayacağına əminəm.

Beşinci aydır ki, Moskvada, məşhur Lefortovo zindanında SSRİ DTK-sının dustağıyam. Sanki beş əsrdir buradayam, bəlkə də Əfzələddin Xaqaninin zindandaşı, tale qardaşıyam.

Mən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 67-ci maddəsilə ittiham olunuram. Bu, xalqlar arasında milli ədavəti qızışdırmaq, başqa millət nümayəndəsini təhqir etmək dərəcəsində dövlət cinayəti sayılır. Müqəssirə üç aydan on ilədək həbs cəzası kəsilməsini nəzərdə tutur. Mənim bütün həyat yolumun, belə demək mümkünsə, yaradıcılıq yolumun, elmi fəaliyyətimin, ən başlıcası xarakterimin bu ittihamla daban-dabana zidd olduğunu, Siz əlbəttə, yaxşı bilirsiniz. Nöqsanlarım, səhvlərim də, şəksiz Sizə yaxşı bəllidir. Xarakterimdəki çılğınlıq, ictimai fəlakətlərə dözməmək, milli hüquqsuzluğa, istismara, əsarətə, mənəvi dilənçiliyə qarşı mübarizədə heç bir kompromisə

getməmək ifratlarım Sizin diqqətinizdən yəqin ki, yayınmayıb. Sübut etməyə ehtiyac varmı ki, çoxlarına yalnız 1985-ci ildə bəlli olan "yenidənqurma" anlayışı bizim üçün lap çoxdan başlanıb – əlimiz qələm tutduğu gündən! "İlan, kərtənkələ yuvalarını dağıdın, sökün!" – Bakı mitinqlərinin birində, yaxud bir çoxunda dilimdə səslənən bu cümləni müstəntiqim mənə qarşı ittiham aktına çevirmişdir. Halbuki bu cümlənin seçdiyi qara hədəf yalnız erməni-daşnak yırtıçılar deyil, ümumən çağdaş planetimizdəki şərdir, eybəcərliklərdir. Belə bir əhvalatı Sizə xatırlatmaq istərdim: Bakı hələ 1988-də didərginlərin ilk dəstələrini qəbul edəndə hamını mənzildə, yataqxanada yerləşdirmək mümkün olmur. Sumqayıt yaxınlığındakı Saray qəsəbəsində öz ata-anası, bacı və qardaşları ilə birlikdə mal-qara pəyəsində gecələyən 12 yaşlı qızcığaz gecə yarı susuzluqdan oyanıb gözlərini açanda başı üstündəki tirdən divar çatdağına doğru sürünən xallı bir ilanı elektrik işığında aydın görür, qışqırır və həmən andan etibarən danışmaq qabiliyyətini itirir. Mən bu lal qızı Yazıçılar İttifaqından qovulan didərginlərin iri, yumşaq avtobuslara doluşub Nazirlər Sovetinə pənah apardıqları çağda görmüşəm, onlardan ayrılmamışam. Azərbayçanın necə fəci durumda olduğunu Nazirlər Sovetinin sədr müavini Musa kişiyə bildirmişəm. Çox yerlərdə olmuşam ki, bəlkə yüz-yüz yaramızım birinə məlhəm qoya bildik.

Hörmətli İsmayıl müəllim, "boğulan, saman çöpünə də əl atar" məsəli yadıma düşür, Azərbaycanımız, ədəbi-elmi ictimaiyyətimiz mənim üçün saman çöpü deyil, əbədi ilham, umud və qüvvət qaynağıdır. Mən xahiş etməsəm belə, Azərbaycanın, onun ən yaxşı övladlarının bizim uğurumuzda, xalqımızın günahsız tökülən qanlarının yerdə qal-

maması yolunda çarpışdıqlarını yaxşı bilirəm. Bununla belə umuram ki, mənə qarşı irəli sürülən saxta ittihamın təkzib edilməsi üçün mənsub olduğum Yazıçılar İttifaqı, iş yerim Akademiya, redaksiyalar, nəşriyyatlar, Ali Sovetimiz öz sözünü desin, öz rəyini bildirsin və bu işdə Siz təşəbbüsçü olun!

* * *

– Sən nə yazırsan?

– Deputatımıza ərizə!

– Azərbaycanca?

– Əvət.

– Əbəsdir. Lefortovo zindanından gedər-gəlməz ərizələr yalnız və yalnız rusca yazılmalıdır.

Kameradaşım Volodyanın bu sözündən sonra qələmim sustalır, ərizəni yarımçıq qoyuram. Kamerada var-gəl etməkdəyəm.

Hardasan, qardaşım İsmayıl Şıxlı?!
Ürəyi asiman, beyni işıqlı
İsmayıl Şıxlı!
Bu zülmət zindanı nə cür devirim?
İldırım kimiyəm – kinli, acıqlı.
Peyğəmbər çöhrəli, həbəş dodaqlı
İsmayıl Şıxlı!

# DÖRDÜNCÜ GÜN, 12 NİSAN 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Dəvətini qəbul edib gənc müstəntiqim, hüquq kapitanı Andrey Vladimiroviç Yanalovun hüzuruna, 324 nömrəli otağa gəlirəm. Əlbəttə, konvoy hüzurunda. Salamlaşırıq. Müstəntiqim çay dəmləyir. Firəngizin gətirdiyi nemətlərdən qalanları şkafdan çıxarıb masamın üstünə qoyur – qoz ləpəsi, portağal, üç alma, paxlava.

Selofan arasındakı qara kürünü geri qaytardığını və Firəngizin bu səhər zəng etdiyini bildirir.

– Gündəliyim tapılıbmı?

– Yox! – deyir. – Sizin institutun direktoru professor Yaşar Qarayev bu münasibətlə komissiya təşkil etdiyini bildirib.

Ürəyimdə Yaşarımızı alqışlayıram. Komissiya təşkil edib, guya mənim gündəliyim institutdan tapıla da bilərmiş. Bu həngamələr iz azdırmaq üçündür. Firəngiz üçün imkan yaradır ki, Xəlilin qoyub getdiyi yazıları yerbəyer etsin, gizlətsin.

– Bu gün mitinq filmlərinə tamaşa edəcəyik. Bakıda keçən ilin dekabrında, bu ilin başlanğıcında keçirilmiş mitinqlərin bir qismi bizim sovet və yapon maqnitofonlarında lentə alınıb. Görün çıxışçılardan kimləri tanıya bilərsiniz?

Respublika Ali Soveti önündə keçirilmiş 28 aralıq (dekabr) 1989-cu il tarixli mitinqə telegüzgüdə tamaşa edirik. Qırmızı, yaşıl işıqları yanıb-sönən mavi ekran Bakı təlatümlərini yenidən gözdə canlandırır. Çıxışçılar sırasında yalnız ağ saçlı Dilarə xanım Orucovanı tanıyıram. Oğlu

Tahir sovet ordusu sıralarında Stavropolda erməni-rus qaragüruhu tərəfindən öldürülüb. Ona şer həsr etmişəm. Münxen "Azadlıq" radiosunda "Şairimiz Xəlil Rzaya azadlıq!" deyə hayqıran həmən bu qadındır.

Uşaq kimi sadə, saf təsir bağışlayan Andrey Vladimirović Yanalov dediklərimi qələmə alır, SSRİ-nin hüquqi dövlətə doğru getmək istədiyini və bu gedişin çox gərgin, mürəkkəb olduğunu bildirir. Prokurorun əmri əsasında yuzədək hüquqçunun bizim işə cəlb olunduğunu xəbər verir.

Sənədlə tanış oluram, adları gözdən keçirirəm. Heç birinə qarşı etiraz etmədiyimi bildirirəm.

– Bakıda fövqəladə vəziyyət ləğv edilibmi?

– Yox! – deyir. – Ləğv edilsəydi, xəbər tutardıq.

Deməli, Bakı hələ də Kremlin qarşısında diz çökənlərin, boşqab dibi yalayanların, zəncirli köpəklərin, avtomatlıların əlindədir.

– Mənim təhqiqat işimi aprelin 26-sınadək bitirə biləcəksinizmi?

– Çətin!

Günortadan sonra yenidən görüşürük. Telegüzgüdə müəllimə və dünya gözəli Sərvinaz xanımın, "Yaşasın Azərbaycan xalqının milli birliyi!" – deyə hayqıran alovlu natiq Mənsur Əlisoyun çıxışlarını dinləyir, ağbirçəyimiz Gültəkin xanımın əlilə toxunmuş ADR bayrağının işığına qərq oluram.

# BEŞİNCİ GÜN, 13 NİSAN 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

14 sanlı gəzinti mağarasından qayıdandan sonra poqonları üç ulduzlu, sarı bığlı Saşa qapımızı yenidən açır və məni çöhrəsi işıqlı, gənc müstəntiqim, kapitan Andrey Bladimiroviç Yanalovun 324 nömrəli kabinetinə gətirir. Pəncərədə kənara çəkilmiş ağ pərdə. Divarda dəniz, dağ, orman mənzərələri. Bakılı Ağa Axundov Seyid Məhəmmad oğlunun və Tahir Quliyev Qeybulla oğlunun adlarını çəkir.

– Tanıyırsanmı?

– Tanımıram.

– Kommunist partiyası SSRİ-də, dünyada, xüsusilə Azərbaycanda nüfuzunu getdikçə daha çox itirir. Sizcə, Azərbaycanda elə bir ictimai qüvvə, təşkilat, partiya varmı ki, hakimiyyəti ələ almağa qadir olsun?

– Xalq Cəbhəsinin sağlam hissəsi buna qadirdir və layiqdir, – deyirəm. – Xalq Cəbhəsinin Lənkəran özəyi bunu isbat etdi.

Andrey Vladimiroviç deyəsən mənimlə razılaşmır, Bakıda bu il yanvarın 19-nu 20-sinə bağlayan gecə xalqı qabağa, tankın, avtomatlı qoşunların sərəncamına verib özü gizlənən Xalq Cəbhəsi başçılarını ittiham edir.

– Belələri vardı, – deyirəm. – Ancaq unutmayaq ki, vəhşiliyin bu miqyasını nə Xalq Cəbhəsi gözləyirdi, nə xalq, nə də heç kəs. Qorbaçov misilsiz bir cinayətə yol verdi. İmperiya ordusu Azərbaycanı qana bələdi.

Sükut edən və görünən, mənə etiraz etməyə gücü çat-

mayan Andrey Vladimiroviç ucu çəngəlli məftil dəstini stolunun gözündən çıxarır, "Başlayaq!" deyə şkafa yanaşır, VK-120 damğalı videokaseti monitor-pleyer "Panasonik" adlandırdığı yapon aparatının qutusuna qoyur. "Panasonik" firmasının buraxdığı bu aparata telegüzgü demək olarmı? Bəlkə də olar, fərqi budur ki, dalğanı radiostansiyadan almır, indicə qutusuna yerləşdirilmiş videokasetdən alır. Sol qanadında yaşıl və qırmızı işıqlar. Alt tərəfində səs düyməsi. Elektrik çəngəlini işıq yuvasına keçirən Andrey aparatı məharətlə idarə edir. Xalq Cəbhəsinin Ali Sovet önündə keçirdiyi 29 aralıq (dekabr) 1989-cu il tarixli mitinqin gedişini ekranda izləyirik. Mikrofonu idarə edən, çıxışçılara söz verən qara bığlı, qara saçlı, ağ üzlü aparıcının adını, heyif, yaddan çıxarmışam, Qırmızı imperiya başçıları qarşısında diz çökənləri ifşa etdiklərini, "Vəzirova istefa!" hökmündə olduqlarını bildirir. Böyükbəy, İnqilab, Sevil xanım və başqa natiqləri dinləyi-rik. Saatı, dəqiqəni, saniyəni göstərən rəqəmlər ekranın alt tərəfində, videokasetin uzunluğunu bildirən rəqəm isə ekranın sol qanadındadır.

Günorta naharından sonra işimizi davam etdirmək üçün yenə konvoy qabağında addımlayıram. Birinci qatdan üçüncü qata taxta pillələrlə qalxırıq. Dəmir torla hörülmüş pəncərələr ikiqatdı. Mərtəbələrin içərisi dəmir tor ilə bir-birindən ayrılıbdı... Mavi rəng ilə boyanmış dəmir məhəccərlərin dibindəki ensiz, dar dəhliz ilə irəliləyirsən və yalnız pəncərədən Moskvanın bir qismini, çılpaq ağacları, dayanan maşınları görürsən.

Qızıl saçlı, sarışın, gülər üzlü, cocuq təbəssümlü hüquq kapitanı Andrey Vladimiroviç Yanalov divarları dağ, dəniz, orman və azadlıq mənzərələrilə süslü otağında bizi gözləyir. Su qrafini. Təqvim. Dəmir seyf. Harasa tələsən

müstəntiqim mənim keşiyimi çəkməyə gəlmiş Dima adlı gənci nişan verir.

– Mən gəlincə söhbətləşə bilərsiniz!

Ruscada Türk köklü sözlərin bolluğundan bəhs açırıq. Məmə (mama), ata (otes), baba (papa), dədə (deduşka), div (devuşka), nənə (nyanya), dayı (dyadya) kimi sözlər sırasında ikincinin birincidən törədiyini söhbətdaşıma başa salmağa, ümumən rusların türkdən törəmə olduqlarını anlatmağa çalışıram.

Yanalov gəlib çıxandan sonra bizim Ali Sovet önündə keçirilmiş 29 aralıq 1989-cu il tarixli mitinqin davamını yapon telegüzgüsündə görür və eşidirik. Xalq Cəbhəsinin Ağsu ozəyindəki rəyasət heyətinin üzvü Vaqif bəyin, Ağcabədi münaqişələrinin odunu köksündə gətirmiş Lətif bəyin, (Yeni Müsavat Partiyası adından danışan Firuz Haşımovun, həmən partiyanın liderlərindən biri, alovlu natiq və alim Mənsur Əlisoyun, Bakı fəhlələrinin sevimlisi, şair ürəkli 28 yaşlı dəliqanlı Nemət Pənahlının, respublikada milli hərəkatın çarpan qəlbi Etibar Məmmədovun, Universitet müəllimənsi Solmaz xanımın mərdanə çıxışları, üçrəngli bayrağımız ürəyimə şölə salır.

## ŞƏNBƏ, 14 NİSAN 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Dünənki "Pravda" qəzetində Heydər Əlirza oğlu Əliyevə qarşı tuşlanmış məqalələr silsiləsi dərc olunub. Naxçıvanlı Sadıqov istisna olunmaqla məqalə müəlliflərinin hamısı bu il hələ fevralın başlanğıcında bu qəzetdəcə "Əliyevçilik" terminini işə salan, hallandıran və pisləyən professor Əfəndiyevə əks-səda verirlər. Bu gün Azərbaycanı al qanına və isti göz yaşlarına bələyən, qoz qabı-ğına soxan, iqtisadi, siyasi va hərbi böhran məngənəsində sıxan amillərin, cinayətlərin hamısı, kadrların darmadağın edilməsi, rüşvətxorluğun, yerlibazlığın, praqmatizmin, qeyri – əxlaqiliyin ölkənin bağrında xərçəng azarına çevrilməsi yalnız bircə kommunistin ayağına yazılır. Qanmaq istəmirlər ki, yalnız Azərbaycanı deyil, sarsılmaqda, dağılmaqda olan bütün SSRİ-ni bürüyən fəlakətlərin, cinayətlərin başlıça səbəbkarı qırmızı imperiyadır, çürümüş kommunist diktaturasıdır. Bataqlıq qoxusu verən bu qanlı sistem şəraitində hər hansı vəzifə əhalini ləkələmək, gözdən salmaq üçün istənilən qədər "material" tapmaq olar. Məgər Siyasi Büronun digər üzvləri bizim Heydər Əliyevdən yaxşıdır? Bəlkə qat-qat aşağı, cılız və yava olduqları üçün bu cür şərəfsiz məqalələr silsiləsi meydana çıxır.

Böyük şairimiz, ustad Rəsul Rzanın yaxşı bir sözü var, deyir:

– Düşmən bəyənmir, demək, qərarımız doğrudur.

Nə vaxtdan bəridir Kremlin təmsilçiləri, "Pravda", veli-

korus şovinizmi Heydər Əliyevi gözdən salmaq uçün dəridən-qabıqdan çıxır. Deməli, onun timsalında Azərbaycanı yaşadan, yüksəldən bir qüvvəni görürlər. Haqlıdırlar. Heydər Əlirza oğlunun başçılıq etdiyi 14 il ərzində (1969-1983) Azərbaycan, doğrudan da yüksəldi, kommunist rejiminin, sümürgəçiliyin, kommunist imperializminin verdiyi məhdud imkanlar daxilində dirçəldi, boy göstərdi. Kənd təsərrüfatının, sənayenin, üzümçülüyün, bağçılığın, şərabçılığın, pambıqçılığın əhəmiyyətli dərəçədə inkişafı diqqəti cəlb etdi, elm, ədəbiyyat, incəsənət yaradıcılarına qiymət verildi. Cəmiyyətin müəyyən təbəqələrini nisbi firavanlıq bürüdü. RSFSR ədəbiyyatı və incəsənəti günləri, Azərbaycanda Özbəkistan ədəbiyyatı və incəsənəti günləri, Özbəkistanda Azərbaycan mədəniyyəti günləri millətimizi, respublikamızı tanıtmaq və sevdirmək uğrunda mübarizənin sağlam qaynaqlarından dirilik suyu içmişdi.

Akademiyanın əlyazmalar fondunu müstəqil bir instituta çevirən kim oldu? Heydər Əliyev!

Hüseyn Cavidin cənazə qalıqlarını Sibirin Tayşet qəbiristanından öncə Bakıya, sonra Naxçıvana köçürdən, əsərlərinin yeni nəşrinə və səhnəyə qoyulmasına diqqəti cəlb edən, Cavid irsinin qədrini bilməyin yeni mədəni yüksəlişimiz üçün qüvvətli təkan olacağını hamıdan öncə sezən kim oldu? Heydər Əliyev!

Süleyman Rəhimov, Süleyman Rüstəm, Rəsul Rza, Fikrət Əmirov, Zeynəb Xanlarova, Tahir Salahov, Arif Məlikov kimi mədəniyyət yaradıcılarını Sosialist Əməyi Qəhrəmanı, Xalq yazıçısı, Xalq şairi, SSRİ xalq artisti, xalq rəssamı fəxri adları ilə şöhrətləndirən, ruhlandıran kim oldu? Heydər Əliyev!

Dağlıq Qarabağda yırtıcı erməni şovinizminin tüğyan

etdiyi çağlarda Şuşada Molla Pənah Vaqif məqbərəsi və Vaqif heykəli yapdıran, ölkə ziyalılarının böyük bir dəstəsini bu təntənəyə, bayrama gətirən, Xan qızı Natəvandan tutmuş Mir Möhsün Nəvvabadək bir sıra elm, sənət xadimlərinin ev-muzeyinin açılışını təmin edən kim oldu? Əlbəttə, Heydər Əliyev!

Cəmşid Naxçıvanski adına hərbi məktəbin, Bakı fəhlələrinin böyük bir qismini özünə cəlb edən, Bakı Kondisionerlər Zavodunun yaradılmasını, Şıx çimərliyinin bu başından tutmuş o başına, az qala Qaradağa qədər uzanan meşənin, yaşıllığın salınmasını təmin edən də o özü deyildimi!

Nizami Gəncəvinin anadan olmasının 845 illiyi bayramında Qazax şairi Oljas Süleymenovun verdiyi sual və aldığı cavab yadıma düşür: – Yoldaş Heydər Əliyev, axı 845 yuvarlaq rəqəm deyil, nə üçün belə tələsirsiniz bu bayramı keçirməyə?!

– Əziz dost, mən deməsəm də siz yaxşı bilirsiniz: Nizami Gəncəvi elə bir şairdir ki, bayramını nəinki hər il, hətta hər gün keçirməyə dəyər. Məgər bu fursət həmişə ələ düşür?

Şairə, dahiyə, klassik irsə məhəbbətindən doğan bu təntənənin miqyası əslində Heydər Əlirza oğlunun öz ürəyi qədər geniş, böyük idi: Nizami əsərlərinin rusca, azərbaycanca və başqa dillərdə nəşri Bakını, Gəncəni, Şıx düzünü, Moskvanı bürüyən təntənələrin yekunu kimi meydana çıxırdı.

Sumqayıtda yaşayıb-yaradan qüdrətli şairimiz Xıdır Alovlunun dedikləri yada düşür:

– Dağlıq Qarabağı və Naxçıvanı Azərbaycandan qoparmaq ermənilərin, daşnakların çoxdankı məqsədidir. Lakin

nə qədər ki, Heydər Əliyev hakimiyyətdə idi, onlar buna cəsarət etmirdilər. Buna görə başda Aqanbekyan olmaqla Moskvada yuvalanmış erməni yırtıcılar öncə bu böyük maneəni aradan qaldırmağa girişdilər, Qorbaçovun qılığına girdilər və Azərbaycanın böyük oğlunu Siyasi Bürodan uzaqlaşdırdılar. Dağlıq Qarabağa hərbi hücum, siyasi, mənəvi hücum yalnız bundan sonra başlandı.

Tanınmış hüquqşünas Hümbət Süleymanlının dedikləri yada düşür:

– Bu qatqarış, hərcmərc mühitdə Heydər Əlirza oğlunun siyasi dühasını görmək və dürüst qiymətləndirmək hər kəsə nəsib olmaz. Siyasi xadimin sözü ilə işi heç də həmişə üst-üstə düşmür. Bizim yaxından tanıdığımız Heydər Əlirza oğlu sözdə Leonid İliç Brejnevi tərifləyib göylərə qaldıran Heydərdən – məddah natiqdən tamamilə fərqli, bəlkə ona daban-dabana zidd bir insandır, sərkərdə, dövlət xadimidir. Aysberqə bənzər. Onun yalnız səkkizdə bir qismini görüb irəliləyən düşmən gəmilərinə toxunsa, onları darmadağın edər.

Kərbəlada İraq hökumətinin Məhəmməd Fuzuli xatirəsinə hörmətsizlik etdiyindən, məzarını sökdüyündən, cənazə qalıqlarını bir məscid küncünə yığdıqlarından şair Bəxtiyar Vahabzadənin şikayətini xatırlayıram.

– Axı niyə siz gözləyirsiniz ki, bütün bu kimi işləri mütləq və mütləq MK katibi şəxsən özü həll etməlidir? Axı Məhəmməd Füzulinin varisi, ilk növbədə, sizsiniz. Xalq ürəyindən tikan çıxarmaq üçün, bu kimi müşgülləri açmaq üçün biz sizi hər cür imtiyazlar ilə təmin etmişik. Xalq şairisiniz, universitetin professoru, Akademiyanın akademikisiniz. Böyük tələbələr ordunuz, sizi sevənlər pleyadası var. Haçan başınıza mötəbər bir dəstə yığıb Ba-

kıdakı İraq səfirliyinə getdiniz, bu məsələni orada açmağa təşəbbüs etdiniz?

Heydər Əlirza oğlunun bu sərrast və səmimi cavabı görüşə toplaşanların hamısının ürəyindən xəbər vermişdir.

Əlimdə 13 nisan 1990-cı il tarixli "Pravda" qəzeti, kamera içində asta addımlar ilə var-gəl edir və düşüncələrimi kameradaşım Volodya ilə bölüşürəm. Mənimlə razılaşır.

– Məmləkəti bürüyən bütün ictimai rəzalətlərin ümdə səbəbi qanlı kommunist diktaturasıdır, – deyir. Bu quruluş təmiz, mərd insanları, zəka əhlini xoşlamır. Kremlin Heydər Əliyevi burunlaması, ləkələməyə çalışması yalnız bununla bağlıdır.

# BAZAR, 15 NİSAN 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Şairimiz Qabili yuxuda görmüşəm. Mənə şer qoşub salonlarda hayqırır, guya məni ləkədən təmizləməyə çağırır, ucalığımı, qüdrətimi, saflığımı vəsf edir.

– Axı mənim buna ehtiyacım yoxdur, ay Qabil! – deyirəm. – Bu nə zəhmətdir çəkirsən?

– Ehtiyac var! – deyir. – Sən mənim səsimə səs ver ki, bilim sağ-salamatsan. Sən böyük iş görmüsən. Sən Bakını əqrəblərdən təmizləmisən. Sən alçaqlığa, eybəcərliyə, əsarətə qarşı səsini bərkdən ucaldan cəsur şairimizsən. Sən səsini içinə salmamısan, Mərkəzi Komitənin fərariliyinə, miskinliyinə qarşı üsyan püskürmüsən. Səni qorumaq borçumuzdur. Sən zindana yox, şah taxtına layiq qardaşımızsan,

Biz o qara zindanları mütləq və mütləq dağıtmalıyıq!

Oyanıb düşünürəm: mənim üçün narahatdırlar. 60 yaşına əlvida desə də, hələ saçlarına dən düşməmiş, buz baltası kimi sağlam, pəhləvan çüssəli Qabilimiz sayı o qədər də çox olmayan şairlərimizdəndir. Mərdənəlik, prinsipiallıq onun boyuna biçilib. Şerbazların, öz yerini bilməyənlərin, ucuz şöhrət düşkünlərinin amansız düşmənidir, Yalnız Qabil yaradıcılığının yox, həm də çağdaş poeziyamızın ən parlar örnəklərindən biri olan "Nəsimi" dastanının necə yaranmasının şahidi olmuşam.

"Nəsimi" üç hissədən ibarət mənzum romandır, vur-tut doqquz ilə yaransa da (1964 - 1973), mənə elə gəlir ki, Qabil bütün ömrü boyu bu möhtəşəm dastanı yazmağa hazır-

laşmışdır. Bir sıra fəsilləri, parçaları bədii möcüzə hökmündədir.

Pedaqoji institutda müəllimlik etdiyim çağlarda "Şahi Xəndan" fəslini tələbələrə əzbərlətməyim yadıma gəlir. Dinləyə-dinləyə mən də əzbərləmişdim.

Mənim böyük qardaşımın adı Şahi Xəndan idi,
O, şairdi – eşidənlər kəlamına heyran idi.

Atəşliydi, alovluydu sinəsində çarpan ürək,
O, sel kimi coşqun idi, bulaq kimi rəvan idi.

Özümüz də yoxsul idik, vardı bizdən yoxsulu da,
Kasıbların taleyinə tüstülənib yanan idi.

Zalimləri, rəzilləri görən gözü yoxdu onun,
Cəlladların başı üstə nərildəyən tufan idi.

Həqiqətə, ədalətə səcdə qılar, baş əyərdi,
Saxtakarı, riyakarı ürəyindən çalan idi...

Mənə elə gəlir ki, bu parçadakı saflıq, sadəlik, dil aydınlığı, əsrarlılıq, cəmiyyət hadisələrini təbiətlə birlikdə qavramaq aludəliyi, antropomorfizm, ən başlıcası bədii idrak gücü "Nəsimi" dastanı üçün nə dərəcədə tipikdirsə, Qabil şəxsiyyətinə də o dərəcədə xasdır, səciyyəvidir. Bu möhtəşəm poemanın bir sıra fəsillərini mən Türkandakı bağ evimizdə, Xəzər yaxasında dinləmişəm və bəzən sevincimdən bağırmışam:

– Möcüzədir, bədii möcüzə!

Mənim bu heyrətimdən Qabil necə şadlanıb, necə ruhlanıbsa, heç bircə həftə keçməmiş Türkana yeni fəsillər gətirmək üçün 55 kilometrlik yolda avtobusu avtobusa calayıb, düşüb pay-piyada yeriyib, quma bata-bata axır ki, özünü mənzilə yetirib. Qabilimizi bizim dəmir darvazanın yanında, hasar əvəzinə səliqəsiz yığılmış daş qalağının ar-

xasında görəndə, doğma səsini eşidəndə nə qədər sevinmişəm.

– Ay Xəlil!

– Ay Qabilimiz! – deyə onu bağrıma basmışam.

Mənə elə gəlir ki, möcüzə poeziya yaradıcısı mütləq möcüzə şəxsiyyətdir. Mən bu möcüzə saflığı, aydınlığı, alçaqlığa, gədalığa qarşı barışmazlığı, açıq söz demək hünərini Qabilmizdə dönə-dönə gormüşəm. Guya satira və təmsil ilə məşğul olan bir nəfəri "Gənclik" nəşriyyatında görüncə, əlindən tutub darta-darta bizə doğru gətirdiyini, ictimaiyyətin qaynarına çəkdiyini xatırlayıram.

– Əziz qardaş, mən sənin xətrini çox istəyirəm. Ancaq bu gözəl ziyalıların – Xəlilin, Hidayətin, Əlicanın qarşısında səndən bir xahişim var: təmsil yazma! Aşkarlığın, demokratiyanın bu vaxtında öz sözünü ilanın, qurbağanın, ayının, meymunun boğazına soxma. Yazıqdı bu heyvanlar, sözün varsa, kişi kimi özün de!

Möcüzədir Qabilimiz. Talvara dırmanmış, yaxud qızıl quma batmış tənəkdən bircə salxım ağ şanı, yaxud qara şanı dərəndə, saralmış bir heyvanı budağından üzəndə, yaxud qonşu Ağamoğlanın həyət bağındakı yelçarxını külək tərpədəndə, Abşeronun dərinliklərindən gələn dupduru, soyuq suyun borudan hovuza şırıltı ilə töküldüyünü görəndə cocuq kimi sevinən, şadlanan Qabilimizi görməyə iki göz gərək.

– Bəs sənin niyə yelçarxın yoxdur?

– Yel, külək olmayanda yelçarxı dayanır. Ona bel bağlamaq olmaz. Bizim quyu elektrik duyməsi ilə işləyir. Daha etibarlıdır.

– Yox, Abşeronda yelçarxının başqa hüsnü var.

Məncə, Qabilimizin bu məntiqi təsadüfi deyil. Həyatda son dərəcə realist olan bu kişinin yaradıcılığında və üslu-

bunda dərin, güclü bir romantika yaşayır, əslində bu romantika onun xalqa, klassik Azərbaycana son dərəcə böyük, qanadlı, ülvi məhəbbətindən qidalanır. "Nəsimi" dastanı millətə, bəşəriyyətə, insana ən böyük məhəbbətin dastanıdır. Əsərin qəhrəmanı bu məhəbbət uğrunda qurban gedir, Allahı, Tanrını göydə yox, yerdə arayır, sevdiyi insanların əxlaqında, davranışında, yaradıcı qüdrətində, zəka gücün-də arayır, tapır və bu kəşf ona çox baha tamam olur.

Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin obrazı yaddaqalan, parlaq boyalarla rəsm edilib. Dastan qəhrəmanı gileylənir ki, tarixən sizdən çox uzağam...

Axı kim deyir ki, bizdan uzaqsan,
Çox da görunmürsən göz qabağında.
Sən qövsi-qüzehsən, parlayaçaqsan
Sənət göylərinin sonsuz tağında.

Yaxın var – dolaşır ələ, ayağa
Gözü yaralayır qaratikan tək.
Uzaq var – Can verir ana torpağa,
Nə deyək? Günəşə uzaqmı deyək?

Azərbaycan ədəbiyyatında ikinci əsər göstərmək çətindir ki, karvan yolları, dəvə qafilələri, sərdabələr, saraylar, məzarıstanlar, meydanlar, kənd və şəhər həyatının əlvan lövhələri ilə bu dərəcədə, bu möhtəşəm dastandakı qədər zəngin olsun. Şamaxıdan çıxan karvan Bakıya, oradan Təbrizə, Bağdada, Hələbə doğru irəliləyir. Əslində karvanın hərəkəti Nasiminin fikir hərəkətidir, insanı və həqiqəti dərk etmək uğrunda mübarizəsidir.

Qabilimiz əruz vəzninə necə məharətlə yiyələnmişdir. Vəznlər sərgisidir "Nəsimi" dastanı.

# BİRİNCİ GÜN, 16 NİSAN 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Vaxtilə akademiyada, Nizami adına Ədəbiyyat İnstitutunda bizimlə birlikdə çalışan, İranda İslam Respublikası yaradılandan sonra bizi tərk edən, ata yurdu Ərdəbilə, ordan Tehrana gedən, güzəran tapa bilmədiyi üçün yenidən ata yurduna qayıdan qüdrətli alim, yazıçı, böyük yurdsevər Mirzə Abbaslını yuxuda görmüşəm. Bu həmən Mirzə Abbaslıdır ki, Şah İsmayıl Xətaiyə dair yazdığı əsər yalnız Azərbaycanda yox, sərhədlərimiz dışında, Türkiyədə və başqa ölkələrdə ciddi elmi kəşf kimi qarşılandı. Bu həmən Mirzə Abbaslıdır ki, bu tayda ziyalılarımızın, qələm tutanların bir çoxunu inandırdı ki, gördükləri sərabdır, ilğımdır, heç də bulaq, şəlalə deyil. Kommunizm illüziyası yalnız mənəvi korları aldada bilər. Bu həmən Mirzədir ki, məşhur "Nəsimi" dastanının yaradıcısı Qabilimizin əlindən tutdu, əsərin ideya, məzmun şaxələrini yaratmaqda, orta əsrlərin keşməkeşli mühitini mənimsəməkdə ona bələdçilik etdi... Yuxuda görürəm ki, solğun və mükəddərdir. Babək haqqında yazdığı böyük bir əsəri mənə yetirmək üçün guya Moskvaya, Lefortovo zindanına gəlib çıxıb. Məni öz maşınında aparıb Bakıya çatdırmaq, oradan Ərdəbilə getmək əzmindədir.

– Sən əzəmətli, barlı bir ağacsan! – deyirəm. – Biz sənin budaqlarınıq, yarpaqlarınıq... Bu əsəri qısnağında saxlayıb gizlətmə, qoy hamı oxusun, bəhrələnsin.

– Sən oxusan, elə bilərəm hamı oxuyub! – deyir.

Farscanı, ərəbcəni, ruscanı dərindən mənimsəmiş, üstə-

lik bütün türk dillərini bilən, Şərq ədəbiyyatını və tarixini başında gəzdirən Mirzə institutumuzun gözü idi. Foyedə tez-tez başına toplaşar, dediklərini, ətrafa saçdığı inciləri yığıb yığışdırmağı qənimət bilərdik. Son dərəcə ehtiyatlı və ayıq bir kişi olan Mirzə Abbaslının, qara saçlı, ağ üzlü alimin məni bu quruluşun üfunətli bataqlığından və diabet mərəzindən xilas etmək üçün verdiyi öyüdlər, həmçinin qapağına avtoqraf yazıb bəxş etdiyi "Elin sözü" kitabı düşür yadıma. "Təbrizli şairin düşüncələri" poemamı və bir çox şerlərimi onun təlqin və söhbətlərinin təsiri altında yazmışam.

Bircə sətir yazsam könülsüz, soyuq,
Arxadan səs qopar qəfil tufan tək,
– Sən həyat yolunu mürəkkəblə yox,
Öz ürək qanınla yazasan gərək.
Verəndə könlümü ilhama, sözə,
Babalar göz qoyar karandaşıma:
– Şerini yazmırsan təkcə kağıza,
Elə bil yazırsan məzar daşına.

Bəli, bu sözlər Mirzə Abbaslınındır.

– Hər nə yazırıqsa, elə bil öz məzar daşımıza yazırıq. Nəsillər baxıb qiymət verəcəklər ki, burada yatan qafildir, ya ayıq. Son beytini redaktə etmək istərdim: "Şerini yazmırsan təkcə kağıza. Elə bil yazırsan öz baş daşına".

...Gəzinti guşəsindən qayıdandan sonra poqonu üç ulduzlu, sarı bığlı praporşik Saşa dəmir qapımızı şaqqıltı ilə açaraq içəri girir, ənənəyə uyğun olaraq əynimi, ciblərimi yoxlayır. Qan rəngli qırmızı pilləkənləri, dəmir tor şəbəkələri arxada qoyub üçüncü mərtəbəyə qalxır, 324 sanlı otağa, gənc müstəntiqim, hüquq kapitanı Andrey Vladimiroviç Yanalovun hüzuruna gəlirik. Salamlaşırıq. Əhvalımı soruşur. Bu fürsətdən istifadə edib ona açıq deyirəm:

– Andrey Vladimiroviç, sizə hörmətim böyükdür. Ancaq açığını deyim ki, neçə müddətdir boşboş işlərlə məşğuluq. Siz Bakını qanına bələyənləri, qatilləri, cəlladları bir kənarda qoyub tamam gərəksiz işlərlə başınızı qatırsınız.

– Kimdir qatil, kimdir cəllad?

– Rus ordusunun Bakıya soxulmasına əmr verənlər, onları qarşılayanlar, qanlı qətli öncə təşkil edənlər. Mən həbs olünmağım ərəfəsində altı günün içində öyrənə bildim ki, bəşəriyyət tarixinin ən iyrənc, xəyanətkar, qanlı səhifələrindəndir 20 yanvar 1990-cı il . Bakıdan qovulmuş ermənilərin heyfini çıxmaq üçün bu qəsd, bu qətl, bu amansız ölüm mexanizmi çoxdan, düşünülmüş şəkildə qurulub: xəstəxanalar boşaldılıb, qospitala çevrilib. Ölüxanalar dezinfeksiya edilib, yuyulub, təmizlənib, sahmana salınıb. Moskvadan gəlmiş böyük qonaqların mehmanxanada yerləri dəyişdirilib, təhlükəsiz, uzaq yerlərə köçürülmüşdür. Hakim dairələrə soxulmuşlar öz ailələrini Bakıdan çıxarmağa, bağ evlərinə köçürməyə macal tapmışlar. Bütün bunlar 19 yanvaracan olmuş hadisələrdir, hadisə yox, təşkil olunmuş cinayətin əlamətləridir. Mənim həbsimə sərəncam vermiş SSRİ prokurorunun müavini Abramovun Bakıya önçə gəlişi təsadüfidirmi?! Yəqin ki, onun başında böyük "hüquqçu"lar dəstəsi gəlib. Diqqət yetirin ki, onlar huqüqçu deyil, əli qanlı, ağzı qanlı qatillərdir. Onlar Azərbaycanın ən yaxşı övladlarını güllələdikdən sonra gəliblər ki, həm də ayıq oğullarını aradan götürsünlər, milləti başsız və dilsiz qoysunlar. Mən tam olmayan siyahını sizə verə bilərəm: Qorbaçov, Kryuçkov, Yazov, Primakov, Polyaniçko, Barannikov, onların erməni havadarları, yerli nökərləri – Vəzirov, Mütəllibov, Vaqif Hüseynov – budur qatillər!

– Xəlil bəy, zaman ən böyük hakimdir, heç bir cinayət onun nəzərindən yayına bilməz. Hər kəs öz işilə məşğul olsa yaxşıdır. Buyur, bu sənin çayın, bu da Firəngiz xanımın qoyub getdiyi nemətlərin sonuncusu: qoz ləpəsi, paxlava, portağal... Yeyin, için, nuş olsun...

– Bakıda, sizin Azadlıq meydanında keçirilmiş 30 aralıq 1989-cu il tarixli mitinqin gedişinə baxacağıq bu gün.

Dinləyirəm. Dahi Üzeyir bəyin "Koroğlu" operasının üvertürası... Aman Tanrı, necə əzəmətlə səslənir, dustaq Xəlili azadlıq havasına çıxarır. Azadlıq meydanının söz kürsüsündəki mikrofonu səsyazan aparatlar ilə birləşdirən ağ naqil qaranlığın bağrını yaran ildırıma bənzəyir. Mitinqi açıq elan edən Rəhim Qazıyev və Şimali Azərbay-can Xalq Cəbhəsi sədri Əbülfəz Əliyev barədə yığcam məlumat verirəm.

– Əbülfəzi haradan tanıyırsınız? İlk görüşünüz?

– İlk dəfə onu 1969-cu ilin 26 dekabr günü görmüşəm, tanımışam. Universitetin köhnə binasında kimisə axtarırdım. İkinci mərtəbədəki foyenin sonunda auditoriya önündən keçəndə qulağım bir söz çaldı – "açıqlamışdır". Başa düşdüm ki, həmən söz bizə lap bu yaxınlarda Türkiyədən keçib. O vaxtacan "şərh olunmuşdur" deyərdik. Yeni sözü yerində işlədən adam yəqin ki, ayıq düşüncəli oğuldur, dedim. İçəri girdim... Xeyli adam, güldəstələr. Başa düşdüm ki, söz kürsüsündə dayanan qarasaqqal gənc Əbülfəz Əliyevdir. Şərqşünasdır. Ərəbcə bilir və "Tulunilər dövləti" mövzusunda namizədlik dissertasiyası müdafiə edir. Sübuta yetirir ki, ərəb xəlifələrinin çoxu türklərin əlində oyuncaq olmuşlar... Əbülfəz sonralar Universitetdə

"Azərbaycan" cəmiyyəti yaratmaq üstündə ittiham olundu, həbsə düşdü. Mühakiməsinin gedişini dinləmişəm. Milli hərəkat başlananda bizim "Çənlibel"də onun Şah İsmayıl Xə-taiyə dair maraqlı bir məruzəsinə diqqət kəsilmişəm.

...Nahardan sonra Azərbaycan millətinin cəsur oğlu, yazıçı-jurnalist Sirus Təbrizlinin çıxışını dinləyirik. KP sıralarından nə üçün çıxmasının səbəblərini açıqlayır:

– Faşizm yalnız müharibə zamanı dağıdıcı qüvvədir, – deyir. – Kommunistlər isə adi vaxtda, dinc quruculuq çağlarında da dağıtmağı qurmaqdan üstün tuturlar. Baxın, görün Xəzər dənizi, Muğan, Mil, Şirvan torpaqları, havamız, suyumuz nə gündədir. Azərbaycən antisanitariya və ekoloji fəlakət içində batır. Milyard manatlarla sərvətlərini gecə-gündüz daşıyanlar heç yadlarına da salmırlar ki, bu günün sabahı da var. Bakını, Abşeronu ağcaqanadlı, üfunətli bataqlıqlar, ölü vışkalar ölkəsinə çevirmək, bağsız, gülüstansız, çörəksiz, susuz qoymaq cinayətdir. Çernobılın ətrafa yaydığı zəhər bəlkə nə zamansa zərərsizləşdiriləcək. Abşeron qərənfillərini bəsləmək üçün daşınan ton-ton zəhərli gübrələrin yaydığı ölüm, xəstəlik isə daha müdhişdir. Xərçəng, SPİD xəstəliklərindən qat-qat qorxulu və öldürücüdür... Kainatın əşrəfi saydığımız əməkçi insana, yaradıcı insana qiymət verilməyən cəmiyyətdən hər cür cinayət gözləmək olar. Buna görə SSRİ dünyanın cinayətlər bazasıdır. Bu cəmiyyətdə kişilər kişiliyini, qadınlar qadınlığını itirmiş, şəxsiyyətdən məhrum fərdlər müqəvvaya, oyuncağa çevrilmişlər. Hakim dairələri bürüyən əxlaqsızlıq, təslimçilik, öz millətinə biganəlik, qəddarlıq, baş-kəsənlik təsadüfi deyil, ictimai quruluşun təzahür biçimləridir.

...Ekran tutqunlaşır, Cəlilabadlı Şakir bəydən sonra mikrofon yanında dayanan qarasaqqal Seyid Tahirin və alovlu natiq Firuz Haşımovun səsləri eşidilmir, Əbulfəz Əlisoyun bayaq böyük türk ideoloqu Ziya Göyalpdan gətirdiyi misal hələ də beynimdə gurlayır:

– Ana südünü, doğma xalqını unudan, milli amaldan uzaq düşən ziyalı artıq ziyasız kimidir.

## İKİNCİ GÜN, 17 NİSAN 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Bu gün iki dəfə gənc müstəntiqim, hüquq kapitanı Andrey Vladimiroviç Yanalovun hüzurunda, üçüncü qatdakı 324 sanlı kabinetdə oluram. "Panasonik" işə düşür. Bakıda Azadlıq meydanında keçirilən 2 aralıq 1989-cu il tarixli mitinqdə çıxış edən Rəhim Qazı, Fəhmin Hacısoy və Sirus bəy qarşımızda boy göstərir, Onları dinləyirik.

Müstəntiqim məni bu binada təhqiqat şöbəsinin rəisi M. İ. Osin cənablarının fonoqrafik ekspertizaya hazırlanmasına dair əmrilə tanış edir. Bu mətndə Etibar Məmmədov, Xəlil Rza, Məhəmməd Hatəmi, Rəhim Qazı və Seyid Tahir öz çıxışları ilə milli ədavəti qızışdırmaqda, ermənilər üzərində zor tətbiqi çağırışlarında ittiham olunurlar.

...Biz Türkustan elləriyiz,
Qeyrət, qüdrət selləriyiz.
Ermənini qovan bizik,
Dar gözləri ovan bizik.
Yetər; meydan suladılar,
Yurdumuzu taladılar.
Yurdumuzu əzizləyək,
Əqrəblərdən təmizləyək,
Şölə versin bu ləl, mərcan –
Ermənisiz Azərbaycan!

– Bu şer səninmidir?

– Bəli! – deyirəm. – Mənimdir. Rusqarışıq erməni bandası təpiyini boğazımıza qoyanda yazmağa məcbur olmuşam. Mənimdir. Oxuyan da özüməm!

Hardasa "Ataturk rayonu" anlayışı dilə gəlir. Yenidən

çıxış edən qarasaqqal Əbülfəz Əlisoyu, meydan əhlinə xeyir-dua verən, "Ənizül billahi şeytanir rəcim" deyə Qurandan ayə gətirən ağsaqqal üləma Kərbəlayi Əlikram kişini dinləyirik. Mitinqi yekunlaşdıran və növbəti təlatümün şənbə günü saat 14 çağlarında başlanacağını elan edən Xaliq bəy öz şerini oxuyur: "Qeyrət gunüdür bugün. Vətən çağırır bizi”.

Yumruqlar havada. "Uvertüra" səslənir. Mən ömrümün səadət çağlarını yenidən yaşayıram. Möcüzədir Üzeyir bəy. Bircə "Uvertüra" ruhunun qələbəsi uğrunda ölümə getmək olar. Quyruğu düyümlü atlar, köhlənlər üzərində uçub havalanan Çənlibel dəlilərinin aşıb-daşan ruhunu ilhamının necə qaynar, coşqun çağlarında yaratmışdır. Yox, 1920-1990-cı il arasındakı qul, quldarlıq dövru nə qədər fəci olsa da, hədər getməmişdir. Həmən çağlarda Məhəmməd Əmin Rəsulzadə, Şeyx Məhəmməd Xiyabani, Üzeyir bəy, Hüseyn Cavid, Almas İldırım, Əhməd Cavad, Şəhriyar kimi böyüklərimiz Azərbaycan türk millətinin varlığını bir daha təs-diqləmiş, dünyaya car çəkmişlər.

– Elə deyilmi, Andryuşa?

– Я в области музыки совершенно профан! – deyə gənc müstəntiqim gulümsəyir, könüldaşım Firəngizin, qardaşım Rüstəm Rzanın dünən zəng etdiklərini bildirir.

# CÜMƏ AXŞAMI, 19 NİSAN 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Mən Azadlıq Allahı tək yaşayıram bu zindanda,
Zindandamı, ya özüm tək sonsuz, ülvi bir cahanda.

Səyyarələr qanadlarım. Ayla Günəş ayaqqabım,
İldırımlar köhlənimdir, qoy bir daha minib çapım.

"Səadət sorağında" adlı bu şeri yazdığım çağlarda açılan dəmir qapımız yenə açar səsindən şaqqıldayır. Yenə sarışın praporşik önündə 324 sanlı otağa, dəvətini qəbul etdiyim hüquq kapitanı Andrey Vladimiroviç Yanalovun hüzuruna gəlirəm. Yenə videonu işə salır. Bakıda 13 ocaq 1990-cı il tarixli mitinqin gedişini izləyirik. Aparıcı Radioteleviziya komitəsinin əməkdaşı, saçlarına erkən qar yağmış türk sifətli şairimiz Xaliq bəydir. Müdafiə şurası yaradılması səbəblərini açıqlayır. Etibar Məmmədovu dinləyirik. Hərbi vasitələrə əl atmaq zərurətindən danışır. Ondan öncə nitq edən uca boylu, qarasaqqal liderimiz Əbülfəz Əlisoyun haqlı olduğunu bildirir.

Xaliq bəy deyir ki, 1918-1922-ci illər arasında beynəlxalq imperializmin birləşmiş qüvvələrinə qalib gələn yalnız türk silahı deyil, ilk növbədə, türk qeyrəti idi. Qeyrətliyiksə, biz də qalib gələcəyik!

Aparıcı natiq Milli Müdafiə Şurası üzvlərini elan edir: Nemət Pənahov, Etibar Məmmədov, Rəhim Qazıyev, Xaliq Hacıyev.

Ağ üzlü, qarasaqqal Nemət Pənahov, uçaboy Xudu Xudusoy, türk sifətli Ramiz, Şöhrət, Xəlil Rza və başqa natiq-

lərin çıxışlarını dinləyirik.

– Bakıya, Xəzər sahillərinə sığışmayan arkadaşlarım, səngərdaşlarım! Sizin hamınızı bir milyard üç yüz milyonluq İslam-türk dünyası və bəşəriyyət adından salamlayıram, alqışlayıram.

Mən çıxışıma bu sözlərlə başlayır, sonda "Silahlan!" şerimi oxuyuram:

Vur-çatdasın içində eylə bilmə ki, təksən,
Yer də, göy də sənindir,
Sən qalib gələcəksən!
Sən qalib gələcəksən!

Qoy Azərbaycana qarşı Mərkəzi televiziyada, radioda, mətbuatda, Moskvanın, Kremlin, Yerevanın bütün informasiya vasitələrində yaydığı böhtanlar, yalanlar sussun, susdurulsun, yerə batsın!

Bu şəkildə hayqıran özümə – dəli-divanə Xəlilə baxıb düşünürəm:

Milyonlardı nəfəs alan
Sənin köksündə, köksündə!

Qarasaqqal Nemət bəy yenidən çıxış edir, böyük türk şairi Tofiq Fikrətin çox sevdiyi "Millət şərqisi" şerini bir daha oxuyur:

Çeynəndi, yetər varlığımız cəhl ilə qəhrə,
Doğrandı müqəddəs Vətənin bağrı səbəbsiz.
Birlikdə bu gün bulmalıyız dərdinə çarə,
Can qardaşı, qan qardaşı, şan qardaşıyız biz.
Millət yoludur, haqq yoludur tutduğumuz yol,
Ey haqq, yaşa, ey sevgili millət, yaşa, var ol!

# CÜMƏ, 20 NİSAN 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Hamamda, puçu öz əlimizdə olmayan duş altında ləzzətlə, tərtəmiz çimib alt geyimlərimizi, döşəkağını, balışüzünü və məhrəbanı dəyişəndən sonra dəvətini qəbul edib gənc müstəntiqim, hüquq kapitanı Andrey Vladimiroviç Yanalovun hüzuruna, 324 sanlı kabinetinə gəlirəm. Zökəmdən uçuqlamış dodaqları yavaş-yavaş sağalmaqdadır. Dəmlədiyi çaydan bir stəkan mənim üçün süzür və Firəngizin gətirdiyi nemətlərin son qalığını sellofondakı qoz ləpəsilə birlikdə stolumun üstünə qoyur. Videonu işə salır. Bakıda keçirilən 4 yanvar 1990-cı il tarixli mitinqin gedişini ekranda izləməyə başlayırıq. Aparıcı yenə odur – şairimiz Xaliq bəy. İlk sözü ağ saçlı Lahıc balası Firuz Haşımova – "Yeni Müsavat" partiyasının üzvünə verir. Bu kişini mən yaxşı tanıyıram. İçərisində dərin bir qəzəb və üsyan qasırğası yaşayır. Bu qasırğa Azərbaycanı son iki yuz ildə ta-lan edənlərə, Ərdəbil xəzinələrindən tutmuş Gəncə xalılarına, nadir rəssam tablolarına, nadir kitablaradək bütün sərvətlərimizi yağmalayıb Moskvaya, Petroqrada, öz şəxsi muzeylərinə daşıyan Yelistratov tipli qəsbkarlara, onların yerli nökərlərinə, qafillərə, miskinlərə qarşı yönəlmişdir. Bununla belə, ağ saçlı Firuz Haşımov bəzən həddini aşır, çaşır, fars mənliyindəki qəzəbi, qeyzi bizə, Azərbaycan türklərinə qarşı tuşlayır. Bugünkü nitqində məmləkətin qeyrətli oğullarına, radikal qüvvələrinə qarşı aparılan mənəvi sui-qəsd natiqin diqqət mərkəzindədir.

Sonra "Yeni Müsavat" partiyasının fəal xadimi Mənsur Əlisoyu, Moskvada yerləşən "Frans-press" agentliyinin nümayəndəsilə görüşdüyünü bildirən uca boylu Niyazi İkramini, Cəlilabad hadisələrinin qaynarından çıxıb gəlmiş Tofiq Dadaşovu, onun həmkarı Hafiz bəyi, oğlunun bir il iki aydan bəri Moskva zindanında dustaq saxlandığını bildirən Gəncə sakini qüdrətli bir kişini, filosof şairimiz Məmməd Arazın "Azərbaycan" şerini əzbər deyən 12 yaşlı Ramil Əsgəroğlunu, "bu günlərin qəhrəman şairi Xəlil Rzanı", yenicə yaradılmış Bakıxanov rayonu elçisini və qarşıdakı milli vəzifələri müəyyənləşdirən Etibar Məmmədovu dinləyirik.

Əl – beş şüa deməkdir,
Səninki – ac hörümçək.
Acmısan, cəhənnəm ol.
Daş torpağımdan əl çək!
Sinəm  çarpaz dağlıdır,
Sinə dağımdan əl çək!

Gözlərim çıraq-çıraq
Göz çırağımdan əl çək!

Viran qaldı bağlarım
Bağça-bağımdan əl çək!

Dərbəndimdən, Xoyumdan,
Qarabağımdan əl çək!

Əl çək, ey qara köpək!
Əl çək, ey sarı köpək!

– Bu şer səninmidir?
– Bəli, mənimdir! – deyirəm. – Oxuyanı da özüməm.
– "Sarı köpək" deyəndə kimi nəzərdə tutursunuz?

– Əlbəttə, velikorus şovinizmini! İki əsrdən bəri erməniləri, qara köpəkləri üstümuzə qısqırdanları!

Müstəntiqim ərizəmə cavab olaraq nəzarətçi prokuror İqor Konstantinoviç Titovun rədd məktubunu mənə yetirir və məni prezident M.S.Qorbaçovun 10 nisan 1990-cı il tarixli qərarı ilə tanış edir: "О вынесении изменений и дополнений в Основы уголовного судопроизводства Союза ССР и союзных республик".

Bu qərara əsasən Qazax şairi, SSRİ Ali Sovetinin deputatı Oljas Süleymenovu özümə müdafiəçi seçirəm. Görək razılıq verəcəkmi? Çətin. İşi başından aşır.

Şair Məmməd Muradın katib olduğu çağlarda Zaqatalaya, xeyli sonralar Nizami Gəncəvi bayramına, Gəncəyə birgə getdiyimizi, türkçülük elminə böyük hədiyyə olan "AZ i YA" kitabını avtoqraf ilə mənə ərmağan göndərdiyini, nəhayət, Bakıda, Akademiyada, dəyirmi salonda, tabutlar başında 26 ocaq 1990-cı il tarixli nitqini xatırlayıram. Mən bu görüşlərin hamısında Oljas Süleymenovu hər hansı döyüşə hazır vəziyyətdə, natiqlik edən, fəqət artıq söz işlət-məyən, kip və lokonik danışan alim, şair sifətində görmüşəm. Yuri Qaqarinə həsr etdiyi "Yer kürəsi, baş əy bizə!" poemasının başlanğıcını və öz ifasında, oxucular ilə görüşdə coşqun alqış dalğası gətirən "Çat mənə" şerini ruscadan çevirmişəm. Qazaxlarda "Kızkou" söylənilən milli oyun eşqi bildirmək vasitəsidir: cıdırda qıza çatan oğlan onu öpür. Şer qızın dilindən yazılıb:

Rəhm eləmə köhlənə,
Çat igidim, çat mənə!
Vurulmusansa cəld ol,
Çatmalıdır at mənə!

Sevdim. Sevirəm səni,
Çat igidim, öp məni.
Səsim həyadan əsir,
Ağ yellər də tələsir.

Öpür məni, sən də öp!
Qucur məni, san də quc!
Uç! Uç! Ah... sən... gerisən,
Neçin qaldın geri sən?

Ələ salır Ay bizi,
Yalqızıq Ay da, mən də.
Əllərim ağardı... bax,
At da qan-tər içində.

Ah, insafsız adamlar,
Ay imansız adamlar!
Neylədiniz görün siz.

Ən cürətli igidə,
Yel sürətli igidə,
Ən gözəl bir igidə
At yox, yabı verdiniz.

# ÜÇÜNCÜ GÜN, 2 MAYIS (MAY) 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Moskvada dünən gecəki 1 may şənliyinin, toplardan açılan yaylım atəşlərinin, görmədiyim, amma hiss etdiyim əlvan bayram fişənglərinin, eşitdiyim hay-küy, "Ura!" sədalarının təsiri altında yuxuya getmiş, yuxumda yenə Firəngizi görmüşəm. Ünvan soruşmaq bəhanəsilə qapımızdan içəri soxulmaq istəyən oğrudan-mı, canidənmi qorxub mənə sığınır.

– Qorxma! – deyirəm. – Mənim Poeziya adlı silahım var. Bizə yaxın düşə bilməzlər. Fişəngləri, yaylım atəşləri bomboşdur.

...Keçən aydan bəri Lermontovu tərçümə etməklə məşğulam. Dahidir. İllah ki, Qafqaz şerləri gözəldir. Bu gözəlliyin mahiyyətini və dərkini, ziddiyyətlərini anlamaq üçün iki Lermontov olduğunu yadda saxlamalıyıq: şair Lermontov, bir də rus çar ordusunun zabiti. İkinci Lermontov, əlində silah çeçenlərə və Qafqazın başqa millətlərinə qarşı vuruşur, hətta igidlik göstərir. Zabit Lermontov sümürgəçilər, kolonizatorlar sırasındadır, Qafqazı rus əsarəti altına almaq əzmindədir. Şair Lermontov isə öz istiqlalı, ləyaqəti uğrunda ayağa qalxmış, silaha sarılmış Qafqazın tərəfindədir. Yalnız cəmiyyət yox, təbiət də onun müttəfiqidir.

Lermontov poeziyasında Qafqaz təbiəti özünün bütün əzəməti, fəsilləri, xüsusilə sərt qışının tufanları, qasırğaları, əyilməz qarlı dağları, iti çayları, əngin vadiləri ilə birlikdə görünür. Qəsbkarlara qarşı meydan oxuyan Kazbek,

çiyninə əlçatmaz Elbrus, dar keçidləri düşmən üzünə qapalı Daryal, igidliklə həlak olanların cənazələrini dənizə daşıyan ildırım sürətli Terek çayı, mavi gözlü azman Xəzər daimi hərəkətdə, qəzəb və çılğınlıq içindədir. Dəmir, tor köynəklərinin altında Quran ayələri görünən, dalğalarda batıb-çıxan kabardinlər, çeçenlər, ləzgilər, tatarlar, hətta, öləndən sonra da düşmənlə vuruşmaq əzmindədirlər.

Lermontovun poeziya dili ruscanın bütün gözəlliklərini, incəliklərini, lakonizmini, fikir və ehtiraslar axarını özündə toplamışdır, cümlələri ildırım kimi kəsərli, qasırğa kimi qanadlıdır. Mən Lermontov şerinin oynaqlığını, rəvanlığını, dərkini, saflığını saxlaya bilmək üçün bəzən hecadan əruzə keçməyə məçbur oluram.

Səhər altun zəmilər eylə ki, qalxar, oyanar,
Lalələr qan gölü tək dalğalanar, yirğalanar.
Çirmənər tərli biləklər, yəni bir iş bəklər
Çiyələklər, göbələklər, kələbəklər, köklər...

Lermontov işığına boyanmışam və bəzən onun şerində istehza ilə işlənən "basurman" sözünə qarşı hiddət saçıram... Sevgi şerləri cəmiyyət saxtalıqlarına qarşı üsyan püsgürən, məğrur bir kişinin qələmindən saçılıb. İnsanın qəddarlığı, nanəcibliyi və yalnız məhəbbətin həyatımıza ani səadət gətirməsi bu poeziyada necə ustalıqla, qaynar ilhamla rəsm edilmişdir.

# CÜMƏ AXŞAMI, 10 MAYIS 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Firəngizim Moskvadadır. Poqonlu praporşikin açıq zənbildə gətirdiyi limon, portağal, xiyar, pendir, alma üzərində onun tanış, doğma xəttilə doldurulmuş kağız parçasındakı adı, soyadı ən böyük sərvətimdir. Xəttini gözlərimlə öpürəm. Görəsən, müstəntiq bizə görüş verəcəkmi? Görəsən Oljas Süleymenov mənim müdafiəçim olmaq xahişimi qəbul edibmi? Sorğular, həyəcanlar dənizindəyəm.

Hardasan, ey mənə canımdan əziz,
Dağına, daşına qurban olduğum!
Orda nalan qalıb mənsiz Firəngiz,
Gözünün yaşına qurban olduğum.

O mənim ilk müjdəm, ilk qaranquşum,
Yuxusuz gözlərim, dağılan huşum.
Vüsalı yazımdır, hicranı qışım,
Yazına, qışına qurban olduğum.

Uzaq xatirələr toyda-dügündə,
Ömür gəldi, keçdi darda, surgündə.
Kişilər dünyada seyrələn gündə
Kişi duruşuna qurban olduğum.

Gözüm pəncərədə... pəncərə zülmət,
Yatıb dincəlməkdən bezmişəm daha.
Haçan açılacaq bu sabah, Allah,
Yüz il var, min il var hələ sabaha.

***Moskva, Lefortovo zindanı.***
***birinci gün 14 mayıs, 1990.***

# DÖRDÜNCU GÜN, 24 MAYIS 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Üşüməmək üçün geyimli yatmışam. Üşüyəndə yuxu da görmək olmur – doğmalar ilə röyada görüşmək səadəti də əldən çıxır. Varlığımı isindirən yeganə hərarət qaynağı doğma şerimiz, musiqimiz, el havalarımız, dahi Üzeyir bəyin "Uvertüra"sı, "Sənsiz"i, Bülbülün, Xanın, Seyid Şuşalının, Cabbar Qaryağdıoğlunun, Qədir Rüstəmovun, Mələkxanım Əyyubovanın, Zeynəb xanımın səsidir.

Elə yar-yar deyirlər.
Heç məni demirlər,
Ay sona bülbüllər.

Könlümü ən çox rahat buraxmayan "Sona bulbüllər" türküsüdür, bir də Nizami – Üzeyirbəy – Bülbül nəfəsli "Sənsiz".

Dünya möcüzələr ilə dopdoludur, deyirəm. XII əsrdə Nizami yetişməli, "Sənsiz" rədifli şah əsər-qəzəl yaratmalı imiş. Səkkiz əsrdən sonra Cəfər Xəndan adlı şair-professor Azərbaycan türkcəsində həmən qəzəli yenidən dünyaya gətirməliymiş. XX əsrin dahi bəstəkarı Üzeyir bəy dünya musiqisinin dürdanələrindən birini yaratmalı, piano arxasında həmən qəzələ yenidən can verməliymiş. Bülbül adlı dahi xanəndəmiz də əsrlərin, zəkaların, ilhamların qovşağından yaranmış bu möcüzəni cahana yaymalı, Bakıdan ayrı düşən Xəlil adlı bir dəliqanlı da uzaq Moskvanın Lefortovo zindanında üşüməsin deyə yorğan altında onu zümzümə etməli imiş:

Hər geçəm oldu kədər, qüssə, fəlakət sənsiz...

# ŞƏNBƏ, 26 MAYIS 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Kamerama dünən axşam gətirilən müttəhim Vladimir Borşşov ilə bu gün daha ətraflı tanış oluram. 1951-ci ildə Zabaykalyedə, hərbi qulluqçu ailəsində dünyaya gəlib. Atası ukraynalı, anası rusdur. 1978-ci ildən bəri Moskvada yaşamış podpolkovnik Vladimir iki qız atasıdır. 7 yaşlı Yuliya, 17 yaşlı Nataliya və qadını Tatyana azadlıqda onu bəklər. Hərbi sirri fransızlara satmaqda ittiham olunur.

"İspanlar" pyesinin tərcüməsi üstündəyəm. Firəngiz, Təbriz, Rza və digər əzizlərim ilə bağlı xatirələr, qayğılar, fikirlər başımdan çıxmır.

## BAZAR, 27 MAYIS 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Xilaskarım M.Y.Lermontovdur. "İspanlar" pyesinin tərcüməsini tamamladım. Firəngizin telefondakı səsindən aldığım qüvvət və ilham ilə dünəndən bəri "Maskarad"ın tərcüməsi üstündə çalışıram. Rəsul Rza bu əsəri məncə, yaxşı tərçümə edib. Görək mənim tərcüməm əla çıxacaqmı?

Yeməyimiz kəmdir. Verilən bir fincan südü səhərdən axşamacan az qala damla-damla içirəm. Kisel iki gündən bir verilir, bircə parç həcmində.

# BİRİNCİ GÜN, 28 MAYIS 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Bayramın mübarək, Xəlil bəy! Bu gün ADR-in ilkəsdi günüdür, 72 yaşı tamam olur. Kamerada ikinci adam olsa da, yalqız kimisən. Doldur piyaləni qızıl günəşlə, iç bu günün sağlığına. Məhəmməd Əmin Rəsulzadənin məşhur kəlamı düşür yada:

– Bir kərə yüksələn bayraq bir daha enməz!

Sağ dizim ağrıyır. Buna görə idmandan əl çəkmirəm. Eni üç addım, uzunu dörd addım olan gəzinti guşəsində – dəmir-beton qutu içində "yürüşümü" davam etdirirəm. Bir saatdan sonra bərk acdığımı hiss edirəm. Yemək kəm. Dəmir parçda iki gündən bir verilən kiseli udum-udum, damla-damla içməlisən ki, günortadan axşama çatsın. Dadıma yetən üç qüvvə var: Firəngizin qulağımda qalan səsi, pəhriz və Lermontovun "Maskarad"ını coşqun ilhamla tərcümə etməyim.

# CÜMƏ, 1 HƏZİRAN (İYUN) 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Təhqiqat təcridxanasına rəis müavini, tünd mavi gözlü, sarışın sifətli polkovnik Boris Qriqoryeviç kameramıza baş çəkir, dünən gəzinti guşəsindəki zibil qabına yazılı kağız atdığımı mənə irad tutur.

– O kağız Lermontovdan etdiyim tərcümənin qaralaması idi, – deyirəm. – Çirkabın üstünü örtmək istədim.

– Bu vaxtacan aramızda konflikt olmayıb, – deyir. – Olmasın!

O gedəndən sonra kameradaşım Volodya bu gəlişi mənim xeyrimə yozur.

– Rəislər heç vaxt dustağın ayağına gəlmir, tualetə girmir, adlarını demirlər. Amma sənin ayağına gəldi, adını dedi, iradını da nəzakətlə bildirdi. İki həftə bundan irəli Xarici İşlər Nazirliyinin mətbuat konfransında bildirildi ki, bizdə siyasi dustaq yox dərəcəsindədir. 44 dustaqdan yarısı buraxılıb. Bəlkə sənin da buraxılmağın gözlənilir. Hər halda özlərinin haqsız, sənin haqlı olduğunu etiraf etməsələr də, sezirlər.

...Hamamlanırıq. Blokirator yanında dayanıb yaşıl işığın yanmasını gözləyirik ki, keçib gedək. Baş tutmur. Yəqin hamama qarşıdan müttəhim gətirilir. Biz bir-birimizi görməməliyik. Buna görə məni və kameradaşımı dar və qaranlıq bir qutuya basırlar.

– Предчувствую: что-то будет связанное с моей судьбой! – deyir Vladimir Mixayloviç Borşşov.

Mən ürəyimdən keçəni ona demirəm: Məni buraxacaq-

lar. Sifariş verdiyim bir aylıq azuqə – yağ, pendir, qənd sənə qalacaq. Halalın olsun!

...Azca uyuyub ANAMI şəffaf yuxuda görürəm. İçərişəhərin Muslüm Maqomayev küçəsindəki 88 saylı binanın komacığında, xalamın yanındadır, ağarmış unlu tabaqda xəmir yoğurmaqla məşğuldur. Üzündən, gözündən nur tökülür. Arıq əllərinin göy damarları dənizə can atan çaylara bənzəyir. Nurlu ana üzü səadət və azadlıq deməkdir. Düşünürəm ki, Münxen radiosunun mənə həsr etdiyi yeni veriliş də azadlığıma qanadlar verə bilər.

Ara vermə hücumuna, yar fitnəni,fe'li könlüm,
Hərdən bir az ağıllı ol, dəli könlüm, dəli könlüm!

# İKİNCİ GÜN, 5 HƏZİRAN (İYUN) 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Gecələr soyuqdur. Buna görə geyimli yatıram. Hələ üstəlik döşəkağını da dustaq paltarımın altından bədənimə dolayıram. Ustad Məhəmməd Füzulinin bir misrası başımda od qalayır: "Hünər sərriştəsin tutdum, əlimdə əjdaha gördüm". Bu misranın aid olduğu qəzələ Mikayıl Müşfiqin verdiyi cavab dəhşətli dərəcədə qüdrətlidir.

Əgər su damənin tutdum, rəvan döndərdi üz məndən,
Və gər güzgüdən umdum sidq, əksi-müddəa gördüm.

Mikayıl Müşfiqin "Bəyaz çöllər" şeri bu beytə cavab ilə başlanır:

Xayır, məndən sular dönməz, təbiət pəncəm altında.
Baxıb ayinəyi-qəlbimdə əksi-aşina gördüm.

Əmanət kassamızdakı məbləğdən tutulan on manat hesabına bu ay üçün ərzaq payımız gətirilib: bir kiloqram yağ, bir kiloqram pendir, qənd, dörd baton... daha aclıq təhlükəsi yoxdur. Qüdrətliyəm. Bütün gücümü Lermontovun "Maskarad"ının tərcüməsinə sərf edirəm. Bəxtəvər və qüdrətli olduğunu özunə təlqin edən Mikayıl Müşfiqin yolunu tutmaqla və yalnız bu yolla irəliləməliyik. Başqa yol yoxdur. Əks-halda udar səni zindan divarları. "Hünər sərriştəsin tutdum, əlimdə əjdaha gördüm" düsturu gerçəkləşər.

# ÜÇÜNCÜ GÜN, 6 HƏZİRAN (İYUN) 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Yuxuda görürəm ki, dahi yazar İsa Hüseyn Muğannanın "İdeal" romanında əbədi insanın əbədi məskəni kimi təsvir etdiyi OdərAĞüz planetində, Məqsud Şeyxzadə bayramında məruzəçiyəm. Bütün planet və içərisində olduğumuz Əlişir Nəvai adına Opera- Balet Teatrı Şeyxzadənin şəkilləri və seçmə beytləri ilə bəzənib. İclas salonunda, ön cərgədə əyləşənlər kimlərdir? "Erk" partiyasının sədri, şair Məhəmməd Saleh, guya dirilib gəlmiş Çolpan, Fitrət, Ab-
dulla Ələvi, Osman Nasir, mənim qələm dostlarım – Tahir Qəhhar, Abdulla Arif, Erkin Vahid, Həlimə xanım...

Soruşuram ki, bu boyda təntənənin, bu boyda məhəbbətin səbəbi nədir? Axı Şeyxzadə indi gözdən düşmuş Kommunist Partiyasını, Oktyabrı mədh edənlər sırasında az qala birinci yeri tutub?!

Guya ulduzlar ilə bəzənmiş foyedə, kəhkəşan yolunda mənimlə yanaşı addımlayan professor Natan Mollayev cavab verir ki, Şeyxzadənin iki qüdrətli pyesi – "Cəlaləddin Mənquberdi", "Mirzə Uluqbəy" onun daim yaşaması üçün təminatdır. Bir də bu sənətkar şəxsiyyətcə əzəmətlidir. Varlığını başdan-başa Özbəkistana, bəşəriyyətə verdi.

Təntənədən sonra Şeyxzadənin 90 yaşlı anası Fatma xanımı arayıb tapıram, qucaqlayıb öpürəm. Kosmik gəmi ilə birlikdə Bakıya qayıdırıq.

# CUMƏ AXŞAMI, 7 HƏZİRAN (İYUN) 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Yuxuda Firəngizi – səadətimi görmüşəm. Rəngi solğun qızılgül kimidir. Ömründə ilk dəfədir ehtiyacdan, qəhətlikdən gileylənir:

– Nə vaxtacan suyla, quru çörəklə dolanacağıq? – soruşur. – Bayaq tələbən qızıl balıq, vermişel gətirmişdi. Niyə götürmədin, rədd elədin?

Acıqlanıram:

– Sən bilirmisən o tələbə kimdir? Didərgin balasıdır... Özü möhtacdır, acdır. Sən bilirsənmi ki, əsrin əvvəlindən bəri 2 milyon türkazər öz yurdundan, yuvasından didərgin düşub, səpələnib dünyaya.

Firəngizim qoynuma sığınır, "Bağışla!" deyib məni təsdiqləyir və otuz il öncə yazdığım bir şeri əzbər deyir:

Qalsan belə susuz, ac,
Yavan çörəyə möhtac,
Boğazına ilan tək
Sarılsa da ehtiyac.

Ehtiyaç ürəyini köksündən qoparsa da,
Odu, suyu, havanı evindən aparsa da,
Ürəyində dərd yaşa!
Sən kişisən, əyilmə! Yoxsul yaşa, mərd yaşa!

...Beton mağarada səhər gəzintisindən sonra müstəntiqim Aleksandr Qubinski məni hüzuruna çağırtdırır və Moskvaya gəlmiş Firəngiz ilə görüşümüzə izn verir. Heç üççə dəqiqə keçməmiş solğun qızılgül Firəngizimi bağrıma basıram. Bu görüşə nə ad vermək olar? Telepatiya,

öncəsezmə, yoxsa yuxunun gerçəkliyə çevrilməsi? Bu iş dönə-dönə başıma gəlib: indicə haqqında düşündüyüm insanı bir neçə dəqiqədən sonra mütləq görmüşəm. Yaxud gecə yuxuma girən insan səhər rastıma çıxıb. Bu gün də beləcə. Dəyanətlidir Firəngizim. Bu dəfə ağlamır. Yalnız şerlərimi dinləyəndə gözlərini silir. "Qurban olduğum", "Moskvada Novruz bayramı", "Hələ dünən bəxtəvərdim" – yalnız bu üç şerimi dinləməyə macal tapır. Çantasındakı nemətləri masamın üstünə qoyur; qara kürü, portağal, xiyar, qoz ləpəsi və mənim tərcüməmdə üç kitab: İlya Selvinskinin "Babək"i, R. Rojdestvenskinin "XXX əsrə məktub" dastanı, bir də "Krasnodon qartalları". "Yazıq Firəngizim, bilirəm, məhz bu kitabları gətirib ki, mənim millətçidən daha çox beynəlmiləlçi şair olduğumu kiməsə sübut etsin, yaxud özüm sübut edim. Bilmir ki, Moskvada, Lefortovo zindanında belə mətləblərə əhəmiyyət verən yoxdur. Yaxud əhəmiyyət o dərəcədə çüzidir ki, yalnız on dəqiqəlik görüşə icazə verməklə məhdudlaşır.

Ağ bulkanın üstünə qara kürü yaxan Firəngiz məni yedizdirməyə çalışır, üstəlik portağal soyur. "Sənsiz necə dönüm evə?" şerimi dinləyən Firəngizi təsvir etmək çətindir. Bakıda divarlara yapışdırılan, əl-əl gəzdirilən saqqallı şəklimi göstərir. Səbuhi mükafatına təqdim olunduğumu bildirir.

– Xalq şairimiz Xəlil Rzaya azadlıq!

Bu şüarın ruscası şəklin altındadır. Tez ayrılırıq. Başına qırmızı güllü qara şal bağlamış solğun Firəngizimi bir daha bağrıma basıram. Bu gün Firəngizimin gəlişindən, gedişindən əvvəlki hadisələr, Volodya adlı gəncin quraşdırdığı maqnitofonda dinlədiklərim də xeyli maraqlıdır. 17 noyabr 1989-cu il tarixli milli hərəkatımızın bir illiyi,

Azadlıq meydanı. Şimali Azərbaycan Xalq Cəbhəsinin lideri Əbülfəz Əliyevin nitqini yenidən dinləyirəm. Qulaqlarımda qulaqlıq, gözlərimdə gözlük, damağımda Qubinskinin yandırdığı siqar və süzdüyü tünd çayın dadı, konfet... Tağı Xalisbəyli, Vurğun Əyyub, Məhəmməd Hatəmi, Nemət Pənahlı, Sabir Rüstəmxanlı, Ramiz Duyğun və İstanbul – Bakı hava xəttilə gəlmiş türkiyəli qonaqları tribuna meydançasına dəvət edən qarasaqqal, ucaboy Əbülfəzi ekranda apaydın görürəm. Sakit Həsənli adlı dəliqanlı üç rəngli bayrağımızı qaldırır. Şairimiz Vaqif Səmədoğlu vur-tut on üç ay (28 Mayıs 1918 – 27 nisan 1920) ömür sürmüş Azərbaycan Demokratik Respublikasının səciyyəsini açıqlayır. Dahi Üzeyir bəyin və Əhməd Cavadın ilham qardaşlığından yaranmış himnimiz səslənir. Böyük Türk şairi Tofiq Fikrətin "Millət şərqisi" məşhur inqilabçı fəhlə Nemət Pənahlının ifasında necə əzəmətlə səslənir:

Çeynəndi, yetər varlığımız cəhl ilə qəhrə,
Doğrandı müqəddəs Vətənin bağrı səbəbsiz.
Birlikdə bu gün bulmalıyız dərdinə çarə,
Can qardaşı, qan qardaşı, şan qardaşıyıq biz.
Millət yoludur, haqq yoludur, tutduğumuz yol,
Ey haqq yaşa, ey sevgili millət, yaşa, var ol!..

– Allah onlara rəhmət eləsin! – deyə Əbülfəz bəy qurbanlarımızı yada salır, müsəlman olduğumuzu xatırladır və meydana gətirilən İslam bayrağının dini təməlçilik ilə heç bir əlaqəsi olmadığını bildirir, bizə böhtan atanları təkzib etməyə çalışır. 1988-in 4 dekabrından 5-inə keçən gecə antisanitariyadan qorumaq, təmizləmək bəhanəsilə Azadlıq meydanına yeridilən ordunun tökduyü qanlar, qaragüruhun qurbanlar udan əjdaha mədəsi, institutdan qovulan tələbələr, işdən çıxarılanlar, sümürgəçiliyə, şərə və ey-

bəcərliyə qarşı mübarizə ocağı kimi yaranan "Çənlibel", "Birlik", "Ana dili", "Tərəqqi", "Aşıq Ələsgər", "Yurd", "Milli qurtuluş" kimi cəmiyyətlər, partiyalar natiqin diqqət mərkəzində dayanır.

– Azərbaycan Xalq Cəbhəsi bu zəmində yarandı, – deyir. – Bizim demokratiya qatarımızın yola düşməsinə Sirus və Sirus kimi oğullar böyük təkan verdilər. AXC-nin təkidi və qətiyyətilə Ali Sovetimizin suverenlik barədə çıxardığı qərar ciddi qələbəmizə çevrildi. Müstəqil ordumuz, milli pul vahidimiz, gerbimiz, dövlət bankımız olmalıdır – bunlar suveren dövlətin ümdə şərtləridir. Azərbaycan Xarici İşlər Nazirliyinin müstəqilliyi Azərbaycanın suverenliyinin mühüm bir halqasına çevrilməlidir. Cənubi və Şimali Azərbaycanın yaxınlaşması, birləşməsi uğrunda mübarizə ruhu bizi bircə an da tərk etməməlidir. Seçkilərin demokratik yolla aparılmasına nail olmalıyıq. Mən oyanan, övladlarını fəlakətdən, düşmən gülləsindən qorumağa can atan Azərbaycan qadınının qüdrətinə baş əyirəm... Bizi demokratiya yolumuzdan heç kəs döndərə bilməyəcək. Bu gün daşları, qayaları qan ilə şırımlanan Dağlıq Qarabağ Azərbaycanın şah damarı, arteriyasıdır. Biz onun bircə qarışını belə heç kəsə tərk etməyəcəyik... Qonaqlarımızı dinləyək.

Saratovdan gəlmiş Müqəddəs Abbas oğlu İbasov, Krım türku Rəşad Osmanov, özbək şairi, dramaturq Tural Mirzə, özbəklərin "Birlik" cəmiyyətinin Daşkənd qurultayından qayıtmış Ağacavad, alim və alovlu natiq Mənsur Əlisoy, qırmızı imperiyanı ifşa edən Məhəmməd Hatəmi Tantəkin, ondan "Çənlibel" cəmiyyətinin sədrliyini təhvil götürmüş qara saçlı, ağ üzlü Vurğun Əyyub, Tağı Xalisbəyli, rusların demokrat partiyasının nümayəndəsi,

Gürcüstan türklərinin hüquqları uğrunda mübarizə aparan şairimiz Abbas Abdulla, tatar şairi Firuzə xanım, Lənkərandan gəlmiş şairimiz Əli Nasir, Şimali Azərbaycan Xalq Cəbhəsinin alovlu tribunu Etibar Məmmədov və Xəlil Rza Azadlıq meydanının nəfəs tutumunu bəlkə Xəzər dənizi qədər genişləndirirlər.

Başı buxara papaqlı, uçaboy, üzü nurlu şairimiz Əli Nasirin şeri və öz himninə özü bəstələdiyi musiqi dəhşətli dərəçədə gözəldir:

Ey ana Vətən, ey ana Vətən,
haqq yolunda durmuşuq –
Bu baş, bu bədən!

Meydanın söz kürsüsündə səslənən ən kəsərli cümlələri unutmamağa çalışıram:

Vətən nə Türkiyədir türklərə, nə Türküstan,
Vətən böyük və müəbbəd bir ölkədir: Turan.

Ziya Göyalp həzrətlərinin bu müdrik beyti şair Tural Mirzənin dilində əzəmətlə səslənir. Onun Azərbaycana həsr etdiyi "Dağlar - baba heykəlidir!" şeri də yanğılıdır.

Natiqlərdən biri hayqırır ki, 1917-ci il Oktyabr çevrilişindən bəri 98 milyon adam vətəndaş hərbinin, 1937-ci il təqiblərinin, İkinci dünya savaşının, aclığın, sürgünlüyün qurbanı olmuşdur.

Vətənin yolunda kimimiz öldük.
Kimimiz nitqlər söylədik ancaq.
Orxan Vəli

# BEŞİNCİ GÜN, 8 HƏZİRAN (İYUN) 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Müstəntiqim Aleksandr Georgiyeviç Qubinskinin hüzu-rundayam. Yanında əyləşmiş Volodya videokassetləri işə salır. 4 dekabr 1989-cu il tarixli mitinqi mavi ekranda görür və dinləyirik. Xəyalən Bakının Azadlıq meydanına qayıdıram. Xəzər yaxasına sığışmayan uçsuz-buçaqsız izdiham... dalğalanan üçrəngli bayraqlar, plakatlar, şüarlar. Şairimiz Məmməd Arazın şeri səslənir:

Azərbaycan! Qayəsi nur, mayası nur ki,
Hər daşından alov dilli ox ola bilər,

Azərbaycan deyiləndə ayağa dur ki,
Ana yurdun ürəyinə toxuna bilər.

Son misranın başqa variantı da düşür yada: "Füzulinin ürəyinə toxuna bilər". Aparıcı türk sifətli şair, jurnalist Xaliq Hacısoydur. Milli hərəkatımızın 19 fevral 1988-ci ildə başlandığını bildirir. XX əsrdə dönə-dönə ayağa qalxan, qalib gələn, məğlub olan Azərbaycanın keşməkeşli tarixindən, ağlı, qaralı taleyindən danışır.

Heç tamam olmamış XX əsr,
Vətənim beş dəfə ayağa qalxmış.
Söylə hansı xalqın qanı bu qədər,
Qanı dərya-dərya havayı axmış?

Sözü Azərbaycan uğrunda başından keçməyə hazır olanların dilavəri Əbülfəz Əliyevə verir. Qarasaqqal, ucaboy Əbülfəz bu günün rəmzi gün olmasından, 1988-ci ilin 4 dekabrından 5-nə keçən gecə toplarına və tanklarına güvənən 15 minlik qırmızı ordunun avtomat, rezin dəyənək

və gözyaşardıcı qaz gücünə igidləri meydandan necə sıxışdırıb çıxardığını təsvir edir.

Dəmiryolçu Zeynal bəyi, bir azca arıq, qayışbaldır olduğu üçün ucaboy görünən, mərd çöhrəli Xudu Xudusoyu dinləyirik.

– 60 min nəfərlik hərbi qüvvəsi, rus silahı olan Ermənistan Dağlıq Qarabağı qamarlayıb dağılmaqda olan SSRİ-dən çıxmaq əzmindədir! – deyən Xudu bəy ayıqlığa çağırır.

– Azərbaycan milli hərəkatı qalib gələ bilməyəcək, çünki orada generallar və akademiklər iştirak etmir.

Bir alimciyin bu fikrini təkzibə çalışan Xaliq bəy operator Zeynal Məhərrəmlinin "Meydan" və "Torpaq" filmlərinin telegüzgüdə göstərilməsini tələb edir.

– Bizim hakim dairələrə soxulmuş milli satqınlar bu filmlərin kəsərindən, həqiqət işığından qorxurlar, – deyir. – Buna görə filmləri kəsib doğramış, şil-küt etmişlər.

Laçın rayonundan gəlmiş Tofiq bəyi dinləyirik. Gorusun Dığ kəndinə 20 min erməni döyüşçüsünün yığıldığını bildirir. Arutunyanın gözü önündəcə yerə atılan Azərbaycan bayrağının ermənilər tərəfindən tapdanmasından danışır.

Kəlbəcərdən gəlmiş Akif bəyi dinləyirik. Vertolyotu, maşını bir-birinə calayan, yıxılmış elektrik dirəkləri yanından piyada addımlayan Əbülfəz Əliyevin Kəlbəcərə necə əziyyətlə gəlib çıxmasından danışır.

Dostum, bu yerlərə yolun düşübsə,
Sən də keç bir kərə dəmir meşədən.
Yurdumda ağac da dəmirləşibsə,
Demək taleyimdən arxayınam, mən.

Əliağa Kürçaylının "Dəmirağac" şerini anan Xaliq bəy mənə söz verir:

Can qurban etməyin vaxtı çatıbsa,
Səndən hansı namərd əsirgəyər can?!
Qoyuram başımı ayaqlarına,
Ey məğrur başımız, ey Azərbaycan!

Gücü dağlar qədər, səadəti kəm,
Qüdrətli, yaralı, bağrıqan olkəm.
Amandır, heç kəsə ağız açma sən,
Özüməm yolunda birinci qurban.

Nitqimə Şəhriyarımızın bu şerilə başlayıram. Erməni qaraküruhu önündən qaçan təslimçiləri, Azərbaycan KP MK bürosunun qanlı mağarasına təpilən fərariləri ifşa və rüsvay edirəm.

Biz heç bir erməniyə güllə atmayacağıq, onları Vəzirov və bütün milli satqınlar ilə birlikdə alovlu nifrətimizlə, odlu tüpürcəyimizlə qovacağıq... Müstəmləkə zülmünə dözməyən Azərbayçan bu gün yeni bir inqilaba hamilədir. Nə tələs, nə yuban! İzlə Rusiyanı, izlə Ukraynanı, izlə öz istiqlalı uğrunda ayağa qalxmış bütün qonşu respublikaları! İnqilabi yürüşdən geri qalma! "Bu gün tezdir, sabah geç!" demiş Lenin, yaddan çıxmasın, Biz bu mənfur, bu zəlil, bu rəzil ictimai quruluşu yalnız o zaman devirməliyik ki, Moskva, Leninqrad, Kiyev onu devirməyə girişsin.

Bu yaxınlarda Sumqayıtın birinci katibi Eldar bəy ilə görüşdüm.

– Xəlil bəy, səndən incimişəm! – dedi. – Məni nəzakətsizlikdə ittiham etdi ki, Mərkəzi Komitəni mağara adlandırmışam.

– Bağışlayın, yanılmışam, – dedim. – Eldar müəllim, "bizim" Mərkəzi Komitə sadəcə mağara yox, qanlı mağaradır. Moskva, Yerevan, Xankəndi önündə diz çökənlərin,

quyruq bulayanların, özləri ilə birlikdə bizi də fəlakətə sürükləmək istəyənlərin yalquzaq kahasıdır.

Ey ucu-bucağı görünməyən əzəmətli izdiham, ey qanımıza, göz yaşlarımıza bələnmiş nəhəng Meydan! Mən sizin hamınızı bu mənfur quruluşu, özülü Lenin, Stalin tərəfindən qoyulmuş qanlı mağaraları darmadağın etməyə, yerlə yeksan etməyə çağırıram.

# DÖRDÜNCÜ GÜN, 14 HƏZİRAN (İYUN), 1990 MOSKVA, LEFORTOVO ZİNDANI.

Dünənki "İzvestiya" qəzetində Boris Vasilyevin gözəl bir məqaləsini oxuyuram. Burada deyilir: "...Kirov da, Rıkov da, Jdanov da, Kuybışev də, Suslov da və sayı xeyli, xeyli çox başqa ruslar da xüsusilə "yerlərdə" xalqlara qarşı cinayətkarlıqda müstəsna dərəcədə fəal iştirak etmişlər".

Bugünkü "İzvestiya"da həmən məqalənin ardı verilib: "...Bütün təzahur biçimlərində milli mədəniyyətin darmadağın edilməsi, təhsilin bəsitləşdirilməsi, onun mənəvi başlanğıcdan məhrum edilməsi, təcavüzkarlıq, fanatik dərəcədə ideologiyalaşdırma, incəsənətin simasızlaşdırılması nə təsadüfi idi, nə də səhv. Bu, bizim ölkəmizin bütün xalqlarına qarşı öncə duşünülmüş və yaxşıca planlaşdırılmış cinayət idi.

...Biz mənəviyyatsızlıq, ruhaniyyətsizlik dünyasında yaşayırıq, artıq ona öyrəşmişik, davranışın tələb olunan stereotiplərini işləyib hazırlamışıq. Dərin, acı bir təəssüf ilə boynumuza almalıyıq ki, Rusiyanın mənəvi quvvəti öldürülmüşdür, Vətəndaş müharibəsi onun çiçəklənmə məqamını, kollektivləşdirmə onun köklərini, rişələrini, böyuk terror onun əlaqələrini məhv etmişdir, Çılpaq ada daha bar verməyəcək. Yeni pöhrələr isə tamam başqa Rusiyadır". ("И все же я уверен, что Россия привержена Добру").

# DÖRDÜNCÜ GÜN, 21 HƏZİRAN (İYUN) 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Bugünkü "İzvestiya" qəzetində V.Lakşin həzrətlərinin "Tvardovski dərsləri" adlı gözəl bir məqaləsi basılmışdır. Məqalədə dahi Lev Tolstoydan gətirilən misal məni xeyli duşündürür: "Cəsur o adam deyil ki, düşmən gülləları altında numayişkəranə şəkildə addımlamış olsun və "tarixə duşəsi" effektli ifadələr tələffüz etsin. Cəsur o kişidir ki, özünü lazım olduğu kimi aparır".

Özümə bu meyar işığında qiymət verməyə çalışıram. İçəridə etiraf edirəm ki, bir sıra hallarda özümü düşmən gülləları altında nümayişkəranə şəkildə aparmışam, effektlk kəlamlar söyləmişəm. Lakin burası da şəksizdir ki, qırmızı imperiyaya təslimçiliyin, milli satqınlığın tüğyan etdiyi çağlarda həmən kəlamları söyləmək qəhrəmanlıq olmasa da, onun bir qığılcımı idi, ən azı ürəklərdən qorxunu-ürkunü çıxarmaq vasitəsi idi. Şairin, natiqin əlində kəsərli sözdən savayı silahı yoxdur. Təki büdrəməyəsən, hədəfə dürüst atəş açasan.

Məqalə yaradıcısı V.Lakşin rusların sevimli şairi Aleksandr Tvardovskini, onun irticaya qarşı ardıcıl döyüşən mərdanə və parlaq şəxsiyyətini, redaktoru olduğu "Новый мир" dərgisini və şairliyini rus bədii sərvətlərinin yeni və yüksək mərhələsi kimi dəyərləndirir. Öyrənirəm ki, qırmızı imperiya ehkamlarını və stalinçilik ənənələri- ni nəyin bahasına olursa-olsun qoruyub saxlamağa çalışanlar bu ehkamlara, bu ənənələrə qarşı mübarizədə böyük vətəndaş dəyanəti nümayiş etdirmiş Tvardovskini və "Новый

мир" dərgisini ləkələmək, sıradan çıxarmaq üçün əllərindən gələni etmişlər. Kreml boşqabının dibini yalayan söz alverçilərindən biri "Новый мир" dərgisini "üfunətli bataqlıq" adlandırmış, başqa birisi isə nəcib məsləhəti ilə bu cür quyruq bulamışdır: – "Praqaya girməzdən öncə tankları "Новый мир" və "Юность" dərgiləri redaksiyalarının içərisinə sürmək lazım idi".

Məqalə Aleksandr Tvardovskinin vətəndaş dəyanətini aşkarlayan faktlar ilə zəngindir. Öyrənirəm ki, Tvardovski bütün işlərini bir kənara qoyub siyasi motivlərə görə həbs edilmiş bioloq-dissident Jores Medvedevin "psixuşka"dan azad edilməsi işinə girişmişdir. Burada Lev Tolstoydan gətirilən misal Tvardovskiyə necə də yaraşır. "Rus çəsurluğunun xüsusi və ali cizgisi sözə inanmamaqdır, çünku kişi öz varlığında böyük iş görmək üçün qüvvət tapanda ən yaxşı söz də gərəksizləşir".

# BEŞİNCİ GÜN, 22 HƏZİRAN (İYUN) 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Müstəntiqim Aleksandr Qubinskinin yanındayam. Bakıda, Azadlıq meydanında 17 noyabr 1989-cu il tarixli çıxışımın əslini dinləyirik. Tərcüməsini dürüst sayıb imzalayıram. Mətnin baş çizgilərini qələmə alıram ki, unudulmasın:

Əziz bacı və qardaşlarım, səngərdaşlarım! Xəzər sahillərinə, Azadlıq meydanına sığışmayan Azadlıq aşiqləri! Mən də sizin kimi yaralı, sizin kimi kədərli, sizin kimi qüdrətli və sarsılmazam. Biz qan selləri, göz yaşları, qəzəb zirehi içindəyik. Tam olmayan, hələ başa çatmayan 1989-cu ildə biz yüzlərcə tabut qarşılamışıq. Cəbhələrdə tökülən günahsız qanlar hələ bir yana... Dağılmaqda olan SSRİ-nin müxtəlif bölgələrində xidmət etmiş əsgərlərimizin qara tabutları gəlir Azərbaycana. Bu sonu görünməz matəm zəncirinin səbəbkarları qırmızı imperiyadır, velikorus şovinizmi, daşnak yırtıcıları və milli satqınlarımızdır.

Mən Salyandan gəlirəm, Mən Sabirabaddan gəlirəm, Mən Əli Bayramlıdan, İmişlidən gəlirəm. Hər yana qaçqınlar, didərginlər, qana və göz yaşlarına bələnənlər səpələnib, Salyanın "Yeni Muğan" sovxozunda saqqalında saman çöpləri qalmış Mesxeti türkü Məhəmməd kişiylə görüşmüşəm. Onlar tövlələrdə, samanlıqda, ot tayası dibində gecələyirlər. Analar cocuqlarını yağış, külək altında bələyir, şüşəsiz pəncərələri örpəkləri, şalları, koftaları ilə qapayırlar ki, balalarını qoruya bilsinlər.

Bu yaxınlarda mən Azərbaycan KP MK-da oldum. Əs-

lində belə bir müstəqil təşkilat yoxdur. Azərbaycan Kommunist Partiyası Sov.İKP-nin nökəri, ən murdar, ən rəzil, ən iyrənc köləsidir. Moskvanın, Kremlin əmri, fərmanı, buyruğu əsasında ora yeni daşnaklar gətirilib. Hardasa işdən qovulmuş, Azarbaycan nifrətinə əsir düşmüş Lev Davidyan, Rudolf Mirzəyan, soyadını dəyişmiş, maskalanmış "R. Mirzəyev" şəklinə düşmüş adamcıqlar Əbdürrəhman Xəlil oğlu Vəzirovun himayəsi, kirli qanadı altında "bizim" "Baş" qərargahın, əslində boş Qərargahın binasına soxula bilmişlər.

Çox maraqlıdır: orada, Dağlıq Qarabağın paytaxtı Xankəndində ermənilər 200-dən çox türkazər evini yağma edir, yandırır, külünü göyə sovurur, bizim millətdən olanları maşın təkərinə zəncirlə sarıyıb üstünə benzin tökür, od vurur, gecənin qaranlığında tüstüsü buludları qarsılayan canlı məşəllər yapırlar. Burada, Azərbaycanın paytaxtında isə insan qəssabları, bəşəriyyətin qanına susayanlar ən mühüm vəzifələrə işə göturülür, evlə yox, imarətlə, bağmalikanə ilə təmin edilirlər. Dunyada bundan böyük təslimçilik, bundan böyük murdarlıq ola bilməz və yoxdur. Lev Davidyan, Rudolf Mirzəyan kimilərdən hər birinə Bakıda, Mərmər sarayda əla mebel ilə təminatlı dörd-beş otaq yox, salonlar verilib.

Böyük Azərbaycan millətinə qarşı ağ və qırmızı imperiyanın 200 ildən bəri başladığı soyqırımı davam edir. 1813-cü ildən, Gülüstan sazişindən bəri neçə milyon türkazərin İrəvandan, Arpaçay vadisindən, Göyçə gölü həndəvərindən, Gümrü, Basarkeçər, Qafan rayonlarından köçürüldüyünü, darmadağın edildiklərini, öz qanlarına və göz yaşlarına bələndiklərini, nə qədərinin gəlib bir mənzilə çatmadan qarlı aşırımlarda, susuz dərələrdə aclıqdan,

soyuqdan, yandırıcı günəş istisindən qırılıb məhv olduqlarını dürüst söyləmək çətindir. Çünki statistika heç vaxt bununla məşğul olmamışdır. 1905-ci ildən bəri 1 milyon 800 min türkazər min illər boyu yaşadıqları dədə-baba torpaqlarından qovulub, darmadağın edilib səhralara, sıldırımlara, barsız, bəhrəsiz çöllərə səpələnmişdir. Çar Rusiyası, velikorus şovinizmi, erməni yırtıcıları və onların qarşısında quyruq bulayan öz satqınlarımız Azərbaycanı zaman-zaman gəmirmiş, sümürmüş, ən zəkalı övladlarını qurşunlamış, sürgünə çəkmiş, zindanlarda, əsir düşərgələrində çürütmüşlər. Qızıl günəşli, sağlam havalı, bərəkətli Göyçə mahalını Azərbaycandan qoparıb erməni əjdahasının ağzına atmışlar. Yeraltı, yerüstü sərvətlər, məbədlər və abidələr ilə zəngin, müqəddəs Zəngəzur diyarını Azərbaycandan qoparıb dinozavr mədəli Ermənistanın ağzına atmışlar. Basarkeçəri, İrəvanı, Qafanı, Zəngibasarı, Dilican dərəsini Azərbaycandan qoparıb canilərin ağzına atmışlar. Azərbaycan torpaqları hesabına 1920-ci ildə Ermənistan dövləti yaradılmış, təkcə sovet hakimiyyəti illərində Azərbaycanın 26 min kvadratkilometr torpağı Ermənistanın hesabına keçirilmişdir. Vur-tut bir il on bir ay ömür sürmüş Azərbaycan Demokratik Respublikası (28 May 1918 - 27 aprel 1920) çağlarında məmləkətimizin sahəsi 112 min kvadratkilometr olduğu halda, indi bundan vur-tut 86,6 min kvadratkilometr qalmışdır. Qazax, Qubadlı, Tovuz, Gədəbəy, Ordubad, Zəngilan rayonlarının ayrı-ayrı münbit torpaq sahələri, biçənəkləri, otlaqları, ormanları, Laçının özündən böyük Qaragöl yaylağı, Həsənqulu bağları Ermənistanın və erməni yırtıcılarının ixtiyarına verilmişdir. Düşmən qabağında təslimçilik, xəyanət və satqınlıq kursu davam etdirilir.

1988-ci ildə 318 min türkazər Ermənistandan, yaxud klassik Azərbaycandan rus silahı gücünə qovulmuş, qan dənizləri və göz yaşı leysanlarına qərq edilmiş, evsiz-eşiksiz, yurdsuz-yuvasız qalmışlar. İndi şərəfsiz partiya və onun üzüqara başçısı Mixail Qorbaçov tərəfindən xüsusi fərman verilir ki, adamları milli əlamətinə görə işdən çıxarmaq olmaz!

Bəs adamları milli əlamətinə görə öldürmək, sürgünə, gedər-gəlməzə yola salmaq, evsiz-eşiksiz, aç-susuz qoymaq olar? Damarlarından kişi qanı əvəzinə sarı məhlul axanlar Azərbaycana qarşı qlobal cinayət aktına qol çəkib Dağlıq Qarabağda xüsusi idarə formasının yaradılmasına, quraşdırılmasına razılıq verdilər, başsız başçılarımız murdardan murdar, iyrəncdən iyrənc Kreml qərarına təslim oldular, Moskvanın qarşısında əllərini və ayaqlarını göyə qaldırdılar, daha hansı əmri yerinə yetirməyə hazır olduqlarını bildirmək üçün qulaqlarını şəklədilər. İndi "volk" anlayışını yada salan Volski, onun ermənilərdən və ruslardan ibarət ağzı qanlı yalquzaq dəstəsi Dağlıq Qarabağda meydan sulayır, tökülən qanlara kənardan tamaşa edirlər. Volskinin buzdan soyuq canavar gözləri önündəcə min bir fəlakət baş verir, Ağdamı Şuşa ilə birləşdirən Ağa körpüsü partladılır, avtobuslar, arabalar darmadağın edilir, qurşunlanır, yandırılır, pəncərə şüşələri çilik-çilik, ovum-ovum edilir, Xocalı, Kərkicahan kimi kəndlər hər gecə Xankəndindən hucuma keçənlər tərəfindən mərmi, güllə yağmuruna tutulur. Mərkəzi telegüzgüdə çıxış edən Volski isə uzun boğazını uzada-uzada, daz peysərini qaşıya-qaşıya iddia edir ki, "Mən burda olmasam qan dizə çıxar".

Beynəlxalq sionizmin, daşnakçılığın, velikorus şovinizminin murdar tribunası olan "Pravda", "İzvestiya", "Literaturnaya qazeta", "Moskovskiye novosti", zəhərlənmiş efir

hər gün bizə qarşı yalan və hədyan püskürür, Henrix Borovik, İqor Belyayev, Xanzadyan, Silva Kaputikyan, Zori Balayan, Aqanbekyan, Şaumyan tör-töküntüləri, Mikoyan qulbeçələri Azərbaycana qarşı cinayətlərin yeni-yeni bataqlıqlarını yaratmaqdan həya etmirlər.

Mən lap bu yaxınlaracan M. S. Qorbaçovu ciddi siyasi xadim sayırdım. Lakin o artıq qanlı buynuzlarını gizlədə bilmir, hansı cinayətkar dairəninsə təsiri altında yalan qusur ki, Fərqanə hadisələrinin başlıca səbəbi İslam fundamentalizmidir. Məscidlərimizin xaraba qoyulduğu, dini ədəbiyyatımızın hələ 1937-ci ildə tonqallarda yandırıldığı, əmmamələrimizin, molla papaqlarının Xəzər dənizində üzdüyü çağlarda hansı İslam özülçülüyündən danışmaq olar?! Buna görə Kreml dəyirmanının istehsal etdiyi bütün yalan və böhtanlara, iftiralara üsyan əlaməti olaraq hayqırmaqdan başqa çarəm qalmır;

– Mən müsəlmanam! La ilahə illəllah! Mən İslam ölkələrini, Şərq millətlərini, bütün sağlam bəşəriyyəti yardıma çağırıram. Allah vahid, kainat vahid, günəş vahid, planet vahid, bəşəriyyət vahiddir. Eşq olsun bu müqəddəs birliyə, müqəddəs vahidliyə! Rədd olsun qırmızı imperiya!

Dağılmaqda olan SSRİ-nin dürlü bölgələrində Azərbaycan əsgərlərinin öldürülməsinə, şikəst edilməsinə son qoyulmalı, hərbi komissarlığa soxulmuş və Moskvaya çamadan daşıyanlardan tutmuş bədnam SSRİ hərbi komissarlığında yuvalanmış Qriqoryana qədər butün cinayətkarlar cəzalarına çatmalıdırlar. Biz Mənsur Əlisoy, Elmira xanım, tarixçi Şəfiqə, Dilarə Oruclu, Vəkil Məhəmməd, Sərvinaz, Ədilə, Vətutə, Nübar, Könül, Oqtay, Rafiq, Namiq və baş-qa səngərdaşlarımız ilə birlikdə bir sıra yürüşlər keçirmişik. Nəsimi rayon icraiyyə komitəsini, bir sıra baş-

qa müəssisələri blokadaya almışıq. Azərbaycan əsgərləri Azərbaycanda saxlanmalı, milli ordu yaradılmalıdır. Bəzi ağzıgöyçəklər iddia edirlər ki, bizim hərbi terminalogiyamız, hərbi nizamnaməmiz yoxdur. Yoxdursa, Turkiyə-dən gətirtmək olar. İstanbuldan, Ankaradan, İzmirdən müqavilə bağlamaqla nəinki hərbi nizamnamə, hətta, hərbi kadrlar, generallar, marşallar da gətirtmək mümkündür.

Biz televiziya önündə blokada yapmışıq. Məqsədimiz yalnız Elşad Quliyev kimi kadrlarımızın yaramazlığını, təslimçiliyini nəzərə çarpdırmaq deyil. Bəla bundadır ki, Azərbaycan milləti tökülən qanlar, isti göz yaşları içində çabaladığı çağlarda radio və televiziya komitəsi öz verilişlərini "Pəh-pəh... nə qəşəngdir!" təranələri üstündə köklə-mişdir. Radio-televiziya komitəsinin, Akademiyanın, Universitetin, institutların, mətbuatın üzərindən partiya mafiyasının nəzarəti, hökmü götürülməlidir!

Bu yaxınlarda biz Mətbuat Komitəsi və adı batmış 26-lar çap evi qarşısında blokada yaratdıq, keçən ildən bəri çap evində dustaq edilən "Məndən başlanır Vətən" kitabımızı dustaqlıqdan xilas etdik. Həmən kitabın bir nüsxəsi əlimdədir. Mən bu kitabı Elektron hesablamaları zavodunun cəsur fəhləsi Yaşar Məmmədliyə ərməğan edirəm. Yaşar bəy, gəl apar yadigarını.

Mən, Şimali Azərbaycan Xalq Cəbhəsinin başçısı Əbülfəz Əliyevə dönə-dönə demişəm:

– Bu Cəbhə Azərbaycan türk millətinin bugünkü inqilabi coşqunluğu səviyyəsində dayanmağı bacarmalı, sarsılmamalı, zirvədən enməməlidir.

Biz latın qrafikalı əlifbamızı bərpa etməliyik. Bu halda 63 milyonluq Türkiyə ilə mənəvi yaxınlığımız daha da qüvvətlənər. Bizə baxıb, bizdən örnək götürüb böyük Tu-

ran, Türküstan dünyasının ardımızca gələcəyi şəksizdir. 200 milyonluq etnik vahidin əlifba birliyi yaranar. Elə buna görə biz türk xalqlarından hər birinə ayrıca əlifba sırıyan, "Parçala, hökm et!" siyasəti yeridən qırmızı imperiya nökərlərinə üz tutub deyirik:

– Çək əlini Özbəkistandan! O, Məhəmməd Salehin göstərdiyi yolla gedəcək!

– Çək əlini Qazaxıstandan! O, Oljas Süleymenovun türklüyünün bayrağıdır!

– Çək əlini Qırğızıstandan! O, Çingiz Aytmatovun idealına yol açmaqdadır.

Əziz səngərdaşlarım, baçılarım, qardaşlarım! Bilin ki, Bakıda, Azərbaycanda son qəsbkar, son daşnak, son casus qalıncayadək bizim həyəcanlarımız soyumayacaqdır!

Biz Türkustan elləriyiz,
Qüdrət, qeyrət selləriyiz.
Ermənini qovan bizik,
Dar gözləri ovan bizik.
Yetər, meydan suladılar,
Yurdumuzu taladılar.
Yurdumuzu əzizləyək,
Əqrəblərdən təmizləyək.
Şölə versin bu ləl, mərcan,
Ermənisiz Azərbaycan!

Onların içərisində dunyada ən rəzil, ən murdar, qanlı terrorçu zümrənin – "Daşnaksutyun" partiyasının üzvləri, uzun qulağı kəsilmiş Andronikin – andıra qalmışın işini davam etdirənlər, insan qəssabları çoxdur. Göyçə mahalında böyük Aşıq Nəçəfin belinə kömürü yanar, qaynar samovar bağlayanların davamçıları hələ də gəbərməmişlər.

Nəcəfin belində qaynar samovar,
Çiyninə alovlu şırımlar saldı.

Təzənə əlindən düşəndə naçar,
Səni gözlərinin yaşıyla çaldı.

Biz ermənini silah gücünə yox, Bakıdan tüpürcəyimizlə, nifrətimizin gücü ilə qovacağıq. Naxçıvandan, Sədərəkdən tutmuş Şuşaya, Ağdam divarlarınadək Azərbaycan millətinə qarşı soyqırımına girişənlər, qoyun-quzu, malqara oğruları qoy müqəddəs torpaqlarımızdan rədd olub getsinlər!

# BİRİNCİ GÜN, 25 HƏZİRAN (İYUN) 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Müstəntiq Aleksandr Georgiyeviç Qubinskinin hüzurundayam. Yanında xidmət edən Volodya adlı gənc videokassetləri işə salır, Bakıda, Azadlıq meydanında 24 aralıq (dekabr) 1989-cu il tarixli çıxışımı mavi ekranda görür və dinləyirik. Başlıca tezislərimi qeyd etməyə macal tapıram:

Xanımlar və bəylər! Əziz bacı və qardaşlarım, səngərdaşlarım! Azadlıq meydanına sığışmayan azadlıq aşiqləri! Keşməkeşli tarixin ən mühüm çağlarından birini yazırıq. 170 il bərqərar olan, qanımızı şüşəyə tutan ağ və qırmızı imperiya gözlərimizin önündə dağılır, tarimar olur. Dəhşət budur ki, biz onun xarabaları altında qala bilərik və belə bir təhlükə realdır. Dağlıq Qarabağı Azərbaycandan qoparmaq cəhdləri, 370 kilometrlik sərhədlərimizdə tökülən qanlar, Naxçıvana, gözlərimizə tuşlanan güllələr bu təhlükənin getdikcə dərinləşməsindən xəbər verir. Azərbaycanın ərazi bütövlüyünə, milli istiqlalına qarşı dayanan ən böyuk qara qüvvə dünənki İrəvanın, bugünkü Yerevanın arxasında duran Kremldir, dişlərinin dibindəki zəhəri bizim üstümüzə tüpürmək üçün girəvə gəzən marşal Yevgeni Şapoşnikovdur, onun təmsil etdiyi qırmızı (həyasız) imperiya törtöküntüləridir. Bu yaxınlarda mən Akademiyadan Mərkəzi Komitəyə gedən on bir alim sırasında idim. Katib Viktor Petroviç Polyaniçko ilə görüşməli oldum və ona açıq dedim:

– Mən sizin şəxsinizdə velikorus şovinizmini yox,

qırmızı imperiyanı yox, zəhmətkeş rus xalqını görmək istərdim.

Gülümsədi. Mənim nişan verdiyim qara qüvvələri tanımadığını bildirdi. Bu, özünü sadəlövh yerinə qoymaq demək idi. Azərbaycanın, Qafqazın və bəşəriyyətin Cavad xan, Şeyx Şamil, Səttarxan, Məhəmməd Əmin Rəsulzadə kimi böyük oğullarına, dahi sərkərdələrinə qarşı iki yüz ildən bəri işğalçılıq müharibəsi aparanları görməyənlərə, tanımayanlara başqa nə ad vermək olar?

Keçən əsrin başlanğıcında dişli-dırnaqlı ağ imperiya, Rusiya çarlığı Azərbaycanı bəlkə də bütövlüklə götürə bilərdi, ancaq yarısını götürdü. Mədəsinin partlayacağından qorxdu. Lakin bu gün də onun 7 milyonluq Şimali Azərbaycanı ram etməyə, tam susdurmağa gücü çatmır. Təkcə sovet hakimiyyəti illərində 25 min kvadratkilometr Azərbaycan torpağı zorla qoparılmış, Ermənistana qatılmış, bəşəriy-yətə dahilər və böyük maddi, mənəvi sərvətlər vermiş Göyçə mahalı, Zəngəzur, Zəngibasar, Arpaçay vadisi, Dərbənd, Borçalı, həmçinin başqa qızıl torpaqlarımız əlimizdən alınmışdır. Təkçə Stalin, Lenin, Şaumyan, Kirov, Orconokidze, Mirzəyan, Yejov, Qavam üs-Səltənə, Suslov, Brejnev kimi xadimlərin adlarını çəkmək yetər ki, Azərbaycan millətinə qarşı illər boyu yeridilən soyqırımının, mustəmləkəçilik, sümürgəçilik siyasətinin kəsəfətli və qanlı hörümçək toru apaydın görünsün.

Təkcə "Dağlıq Qarabağ Muxtar Respublikası" anlayışını yada salmaq yetər ki, Kreml mağarasına soxulmuş imperialistlər tərəfindən Azərbaycana qarşı 1923-cü ildə təşkil edilmiş bu süni, əldəqayırma qurumun bu gün hansı faciələrə gətirib çıxardığı və xəyanət kökləri aydın görünsün. Hələ mən onu demirəm ki, bədnam sovet haki-

miyyətinin ayrı-ayrı dövrlərində Naxçıvan, Ordubad, Zəngilan, Tovuz, Qazax, Gədəbəy rayonlarından nə qədər qızıl torpaqlarımız, biçənəklərimiz, otlaqlarımız, çaylarımız, irmaqlarımız, yaylaqlarımız, göllərimiz zaman-zaman qoparılıb ermənilərə verilmiş, rüşvət və kreslo acgözü olan milli satqınlarımız bu xəyanətdə daha fəal rol oynamışlar. Arxasını Ermənistana və Kreml mağarasındakı yırtıçılara söykəmiş Xankəndi, Əskəran bu gün bizə qarşı meydan oxuyur, Azərbaycan qan selləri, göz Yaşları və zirehlənmiş nifrət, qəzəb içindədir. Bu nifrətin, bu qəzəbin başlıca obyekti Azərbaycan KP MP bürosuna soxulanlardır, təslimçi, minsifət MK katibləridir, velikorus şovinizminin və daşnakçılığın qarşısında əllərini yerə qoyanlarımızdır. "Daşnaksutun" partiyası dünyada ən mürtəce, terrorçu partiyadır! – deyən Mirzə İbrahimova haqq vermək lazım gəlir.

Öz torpağını, öz ləyaqətini qoruyan türkazər ilə qəsbkar erməni Moskva mətbuatında çox zaman eyni tərəzinin gözlərinə qoyulur. Guya hər iki tərəfdə ekstremistlər var. Qüdrətli sənətkər İsmayıl Şıxlı bu incə siyasi yalanı telegüzgü çıxışında necə dürüst rüsvay etdi. Ermənistandan, yaxud klassik Azərbaycandan rus silahı gücünə zorla qovulan, çıxarılan Azərbaycən türkləri həyətdə, hətta, köpəyini zəncirdən açıb buraxmağa macal tapmamışlar. Atlar ilxıda, qoyun-quzu sürüdə, mal-qara naxırda, isti qazan ocaq üstündə qalmışdır.

Dünyanın az qala bütün bölgələrində yaşayan, həm də pa-razitcəsinə şərəfsiz yaşayan, diaspora və lobbilər yaradan ermənilər birləşməklə, zamanın ən mürtəce qüvvələrinə arxalanmaqla ən murdar niyyətlərini həyata keçirmiş, özlərindən başqa bütün başqa millətlərin nümayəndələrini

qovmaqla Ermənistanı monorespublikaya çevirmişlər. Buna görə biz onları dəstəkləyənlərə qarşı sağlam nifrətlə, yandırıcı qəzəblə dopdoluyuq. Buna görə biz hayqırırıq ki, Mərkəzi televiziyadan, Rusiya mətbuatından az qala hər gün bizə qarşı yalan, iftira və təhqir lavaları püskürən Henrik Borovik, "Literaturnaya qazeta"da İslam fundamentalizmi cəfəngiyyatı uyduran İqor Belyayev kimi saxtakarların, şovinistlərin, bəşər və tərəqqi düşmənlərinin üfunətli cəmdəklərinə min lənət!

Zaman-zaman Azərbaycanda və Bakıda yuvalanan ermənilər sovet hakimiyyəti illərində ən mühüm vəzifələri, ən gözəl imarətləri, bağ-malikanələri mənimsəmiş və məmləkətimizin ən qeyrətli, zəkalı, ayıq övladlarını məhv etmək üçün tor qurmuşlar. Onlar bu gün də erməni qəsbkarlarına hər cür yardım edir. Bakıda və Sumqayıtda, Gəncə və Xanlar rayonlarında yeni-yeni xəyanət kələfləri hazırlayır, şərəfsiz "Grunk" və "Qarabağ" təşkilatlarına pul keçirir, ən murdar əməllərin min bir növü ilə məşğul olurlar. Buna görə biz daşnak bandasının bütün tör-töküntülərini Bakıdan və Azərbaycandan qovub çıxarmağı vacib sayırıq.

...1988-ci ilin 21 noyabrında mənə Xanlar rayonundan, dan yerindən zəng etdilər. Getməzdim. Min işim vardı. Bir cümləyə dözmədim.

– Burada didərginlərdən ibarət 40 ailə internat məktəbin bircə binasına doldurulub. Pişikdən böyük siçovullar atılıb cocuqların burnunu, qulağını gəmirir.

Getdim, daha dəhşətli mənzərələri gördüm. Xalq Cəbhəsi və xalq tərəfindən kabinetindən qovulmuş birinci katib Qərib İsgəndərov özünü qorumaq üçün kooperativ Xalq cəbhəsi təşkil edib, onlara gündə üç dəfə ziyafət ve-

rir, Çaykənd, Kamo və Azadkənddə 5,000 ermənini özünün kirli qanadları altında bəsləyir, Gəncə bankından onlara donluq göndərir, Yerevandan yola salınan ərzaq və silah dolusu vertolyotların erməni düşərgələrinə sağ-salamat çatdı-rılmasına şərait yaradır, 5-6 əli var. Bir əli Kremldə, Şahnazaryanın əlindədir, bir əli Yerevanda, Arutunyanın ovcunda, bir əli də Əbdürrəhman Vəzirovun! Azərbaycanı bu cür ictimai əqrəblərdən təmizləyə bilməsək, heç nəyə nail olmayacağıq.

Bizi passivlikdə, qeyrətsizlikdə taqsırlandıranlar unudurlar ki, Azərbaycan türkləri vur-tut 27 ildə, 1918-1945-ci illər arasında dörd milli respublika yaratmışlar. Məhəmməd Əmin Rəsulzadə, Şeyx Məhəmməd Xiyabani, Seyid Cəfər Pişəvəri (Xalxali), Heydər Əmioğlu kimi şanlı rəhbərlərin adı ilə bağlı bu milli respublikaların hamısı Kreml – Tehran sövdələşmələrinin, imperializmin və daxili xəyanətin qurbanı olmuşdur.

Türkiyənin Qartal şəhərində rastlaşdığım 11-12 yaşlı çəkməsilən cocuğu xatırlayıram. Biz Türkiyəyə gürcü və üzdəniraq erməni yazarları ilə birlikdə getmişdik. "Türk cocuğu yabançıların çəkməsini silməz!" – deyə o Qartal balası ermənin ayaqqabısını silməkdən boyun qaçırdı. Dahi şairimiz Mehmet Akif Ərsoyun "İstiqlal marşı"nı da mən ilk dəfə həmən uşağın dilindən eşitmişəm:

...Bən əzəldən bəridir hür yaşadım, hür yaşarım,
Hanki çılğın bana zincir vuracaqmış, şaşarım.
Kükrəmiş sel kibiyim, bəndimi çeynər, aşarım,
Yırtarım dağları, ənginlərə sığmam, daşarım...

Bizimlə birlikdə M. F. Axundov adına Respublika kitabxanasına, hesablama mərkəzinə, Ağac Emalı Sənayesi Nazirliyinə, "Zərgər" mağazasına erməni qovmağa getmiş Namiq bəy, İslam dayı, Məlik kişi, əsgərlikdə balası

öldürülmüş qadınlar bu yüksək xitabət kürsüsündən haqlı olaraq hayqırırlar ki, heç bir rus qoşunu, onların "Kalaşnikov" avtomatları, rezin dəyənəkləri, hərbi köpəkləri bizim poladlaşmış iradəmizi qıra bilməyəçək. Bəlkə Xalq Cəbhəsi içində də səbatsızlar, simasızlar, dönüklər var. Biz onların da yırtılmış, yırtılmamış maskalarını tapdayıb keçəcəyik!

"Bilik" Cəmiyyətinin başçısı Qeysər Xəlilov bilikdən qorxur, Sabir Yanardağ, Şamil Saleh kimi cəsur və qüdrətli ziyalıları mühazirədən məhrum edir.

Mənim filosofum var Şamil Saleh adında,
Şimal qütbü əriyər ürəyinin odunda.

Dağlıq Qarabağda Xüsusi idarə biçiminin başçısı Volski ağzı qanlı ictimai canavardır, Ağdamın keçmiş birinci katibi Sadıq Murtuzayev onun əmrini yerinə yetirib məni Şuşadan geri çağırdı, biletimin alındığını, Bakıya qayıtmağımın labüdlüyünü bildirdi, Azərbaycanın zəka günəşi Zeynal Huseyn oğlunu Ağdamdan Şuşaya ardımca gön-dərdi. Sumqayıtda yaşayan şairimiz Xasay Cahangirovun qadını Solmaz xanımın onu və bütün dönükləri necə ifşa etdiyini yaxşı xatırlayıram.

Azərbaycan KP MK katibi Ə.Vəzirov və Ermənistan KPMK katibi Arutyunyan bir medalın iki uzüdurlər, fərqləri bəlkə budur ki, Vəzirov medalın pas atmış tərəfidir, çünki milli şüurdan və milli şərəfdən məhrumdur. Arutyunyanın dar gözləri önündəcə Azərbaycan bayrağını yerə atıb tapdayırlar. Buna qarşı Vəzirov gözlərini döyə-döyə susur. Şuşadan gələn və qorunmaq üçün silah istəyən Mərdan kişinin ağ saqqalından yapışıb silkələyir: – Mən silahı hardan tapıb sizə verim? Özüm avtomatmı olum, yoxsa pu-

lemyot? Budur, pulemyotam... Drr... budur, düşmənləri qırıram...

Bu murdar mənzərəyə baxanda istər-istəməz hayqırmalı olursan: – Azərbaycan KP dünyada ən şərəfsiz partiyanın dilsiz-ağızsız nökəridir; ayağı sürüşgənlərin partiyasıdır.

...Dağılmaqda olan SSRİ-də bütun yağlı vəzifələr bölüşdürülur. Moskva rüşvətin, göz yaşlarının, əxlaqsızlığın və qlobal cinayətlərin başkəndi, paytaxtıdır. Cəlilabadda Xeyrulla Əliyev ilə Nağı bəy birinci katib yerini tutmaq üstündə əbəs yerə vuruşurlar. Əslində hər ikisi birləşib bu vəzifəni və rəzil ictimai quruluşu darmadağın etmək uğrunda döyuşməlidirlər. Milyon-milyon əlin birləşib qaldırmalı olduğu əzəmətli çəkici eyni zindana vurmalı, qəsbkarları darmadağın etməli, Azərbaycanın milli istiqlal bayrağını yerdən göyə qaldırmağa nail olmalıyıq. Bundan böyük şərəf yoxdur.

# BİRİNCİ GÜN, 25 HƏZİRAN (İYUN), GÜNORTADAN SONRA, 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Bu gün ikinci dəfədir ki, konvoy qabağında müstəntiqim Aleksandr Qubinskinin otağına gəlirəm. Burada Bakıdan gəlmiş 70 yaşlı, ağ saçlı vəkilim Hacı Rəhmanlı ilə görüşürəm. Uca boylu, pəhləvan cüssəli kişidir. Zəhmət adamlarına məxsus günəşdə, leysanlarda, həyatın keşməkeşli günlərində yanıb qaralmış, zirehlənmiş çöhrəsində nuranilik var. Xızı əhlidir. Qudam Xudabaxış tərəfdən bizə qohumluğu çatır. Hüquqşünas arkadaşım, səngərdaşım Hümbət Süleymanlının və doğmalarımın salamlarını yetirir. İnsan hüquqlarını qoruyan cəmiyyətin bülleteninə imza atan və məni qorumaq, xilas etmək uğrunda ayağa qalxanların siyahısını stolumun üstünə qoyur. Kimlərdir məni qoruyanlar: Könül Zeynallı, Cavad Məliksoy, Fərəh Məliksoy, Ramiz Duyğun, Nuşabə Süleymanlı, Türkel Süleymanlı, Mahirə Babayeva, Umnisə Mirəli, Kamilə Cabbarlı, Həmid Atakişisoy, Anar Həsənli, Yaşar Qulusoy, Tərlan Fərəculla, Vaqif Mahmudlu, Akif Əhmədli, Murad Raqi, Ramiz İsgəndərli, Məmməd Məmmədli, Qasım İbrahimli, Elçin Paşalı, Manaf Əhmədli, İlqar Hüseynli, Ceyhun Əlisoy... Siyahı cox böyükdür və təbii ki, adların, soyadların həmısını yığıb-yığışdıra bilmirəm, ürəyimdə hamısına təşəkkür edirəm.

– Allahın birinci adı Səbrdir! – Deyə vəkilim məni səbirli olmağa çağırır. – Birinçi işimiz bu olmalıdır ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 67-ci maddəsi-

nin üçüncü bəndindən birincisinə düşəsən. Buna imkan var. Çünki heç bir qrupa, təşkilata mənsub deyilsən. Ermə-niləri milli hərəkat dalğasında qovmusunuz. Səni ermə-niyə qarşı üç obyektdəki çıxışında ittiham etməyə çalı-şır-lar: Yanğın komandasında, "Azərittifaq"da, bir də Respub-lika prokurorluğunda piket iştirakçısı olmusan, hətta rəh-bərlik etmisən. Özünü bu təşkilatlara soxulmuş böhtançı-lardan, ermənibazlardan qorumalısan. Öz işini bizim hamı-mızdan yaxşı bilən özünsən. Buna görə özünü məhkəmə-də bizdən çox özün qorumalı olacaqsan. Sənin meydan nit-qlərin lentə alınıb, yəqin ki, ruscası da hazırlanıb. Mən sə-nin meydan nitqlərindən bəzilərini dinləmişəm. Zəka işığı saçır. Burada səni xilas edəcək motivlər güclüdür. Məsə-lən, mən sənin dilindən eşitmişəm ki, erməni yırtıcılığına qarşı etiraz əlaməti olaraq özünü səkkizinci mərtəbədən atan, intihar edən Petoyanı cənnət-məkan adlandırmısan, "Ona heykəl qoymalıyıq!" demisən. Başqa bir çıxışında er-məni qızlarının, erməni qadınlarının ismətinə toxunmama-ğa çağırmısan. Sənin nitqlərində rus xalqı velikorus şovi-nizminə qarşı dayanan qüvvə kimi təqdim olunur. Bizim Mərkəzi Komitəyə soxulmuş Lev Davidyan, Rudolf Mir-zoyan kimi murdar millətçiləri qovmaq çağırışında da haq-lısan. Bunlar xirtdəyəçən çamura batmış adamcıqlardır. İn-di dağılmaqda olan SSRİ-nin hüquqi dövlətə doğru getdiy-indən dəm vururlar. Bu halda ümid etmək olar ki, sizin məhkəməniz Moskvada yox, Bakıda ola-caq, – "cinayət" harda baş veribsə, orada! Bu halda Bakıda, milli hərəkəti-mizin paytaxtında, erməni alçaqlığının bütün hörümçək torlarını aydın görənlərin dairəsində hüquq işçiləri səni dərk etməyə bilməzlər. Bircə şeyi unutma: Sən xalq mə-həbbətini qazanmış sənətkarsan. Heç vədə bu zirvədən en-

məməlisən. Bu zirvənin özü səni xilas edəcək!

Dostların çoxdur. Azərbaycanın ən qüdrətli oğulları, qələmdaşların – İsmayıl Şıxlı, Qasım Qasımzadə, Humbət Süleymanlı, Qabil, Ramiz Duyğun, Əlisəmid Kür, Vaqif Bayatlı Yazarlar Birliyi nəzdində "XƏLİL RZAYA azadlıq komitəsi" yaratmışlar. Munxendəki "Azadlıq" radiosunda Mirzə Xəzər şerlərini bütün dünyaya yayır, sənə azadlıq tələb edir. Cənubi Azərbaycan, İran, Özbəkistan, Qazaxıstan... yazarlarının da bu hərəkata qoşulacağı şəksizdir, Ramiz Duyğun öz teleqram və məktubları ilə buna nail olmaqdadır, Məhəmməd Saleh, Tahir Qəhhar, Erkin Vahid, Abdulla Arif kimi özbək şairləri ilə yazışır, nəfəsindən od püskürür. Qardaşın Məhəmməd Rza Xəlilbəyli sənə dair gözəl bir poema yaradıb, sənə həsr olunmuş şerlərdən ibarət çox qiymətli bir almanax hazırlayıb. Səni qoruyan və uğrunda mübarizə aparan oğullar sırasında Zeynal Vəfa, Qaçay Köçərli, Babək Hüseynoğlu, Qulu Kəngərli, Əşrəf Şəfi, Hidayət Oruc, Şahmar Əkbərzadə, Zeynal Hüseynoğlu xüsusilə fərqlənən kişilərdir. Küll halında onlar çox böyük ictimai quvvədirlər...

# ÜÇÜNCÜ GÜN, 27 HƏZİRAN (İYUN) 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Mustəntiqim Aleksandr Qubinskinin hüzurundayam. Ona xidmət edən Volodya videokassetləri işə salır və bəlli olur ki, Bakıda, Azadlıq meydanında 8 ocaq (yanvar) 1990-cı il tarixli mitinqi mən aparmışam. Başlıca tezisləri bunlardır;

1. Milli satqınları da daşnaklar və hər çeşiddən olan qəsbkarlar ilə birlikdə nifrətimizin amansız və əzəmətli süpürgəsilə süpürüb bu müqəddəs torpaqdan kənara atmalıyıq. Unutmamalıyıq ki, bizim üçün Vəzirov da, Qərib İsgəndərov da Manuçaryan və Zori Balayan qədər təhlükəlidirlər.

2. Bu gün qarşımızdakı ən böyük maneələrdən biri ağ və qırmızı imperiyanın 1813-dən "Gülüstan sazişi"ndən bəri qanımıza aşıladığı, canımıza sindirdiyi qorxu-hürkülərdir.

3. Bəşəriyyətin bütün mütərəqqi qüvvələri, rusların “Pamyat" təşkilatı, Soljenitsın dahiliyi, "Arxipelaq QULAQ" bizim də mənəvi sərvətimizdir, öyrənilməyə, mənimsənilməyə layiqdir.

4. Arvadı Yelena Bonner-Alixanyan tərəfindən yoldan çıxarılan Saxarovu dahi saymaq olarmı?

5. Ən böyük idealımız – Vahid Azərbaycandır. Bu vahidliyə nail olmağın bütün vasitələrini kəşf etməliyik.

6. "Heç bir vəch ilə hakimiyyəti türkə verməməli!" xəttini yeridən Rəfsəncani – Brejnev bağlaşması hələ də gücdən düşməyib.

7. Türk – İslam dünyasında təcili yardım maşınlarının üstündə xaç yox, aypara olmalıdır.

8. Teleradio şirkətinin, Akademiyanın, universitet və institutların, yaradıcılıq təşkilatlarının, mətbuatın suverenliyinə nail olmalıyıq.

9. Biz xaraba SSRİ-nin dağılması ərəfəsindəyik. Hər respublika, hər millət, xalq köləlikdən qurtulmaq, öz istiqlalına, müstəqilliyinə nail olmaq uğrunda mübarizə aparır. SSRİ-dən ayrılmaq bu günün ən aktual mövzusudur. Ancaq biz SSRİ-dən ayrılsaq, onda gərək bu möhtəşəm ərazinin böyük yarısını qoltuğumuza vuraq. Çünki əksər toponimləri bizimdir, bu toponimlərdə babalarımızın ayaq izi, yaratdıqları maddi-mənəvi mədəniyyətin xəzinələri yaşayır: Elbrus, Kazbek, Kuban, Yessentuki, Krım, İtil (Volqa), Oder (Odər), Ural, Karpat Altunsu (Krasnovodsk), Baykal, Altay, Sibir, İrtış, Yenisey, Çukot, Taymır, Kamçatka... başdan-başa hamısı bizim türk toponimləridir.

10. İsa Hüseyn Muğanna dahiliyi, "İdeal" romanı, illah ki, onun "Qapalı dünya" fəsli, "Ədəbiyyat" əsəri, mənəvi xəzinəmizdir.

11. Gəlin köçən qızlarımızın ilk cehizi "Dədəm Qorqud"un kitabı", "Koroğlu", Məhəmməd Füzuli, Sabir, Şəhriyar, bayatılarımız olmalıdır.

12. Əbdürrəhman Vəzirov tipli katiblərimiz manqurtdur, Azərbaycanın bədənində infeksiyadır. Vəzirovun Beyləqandakı çıxışı rusvayçılıqdır.

13. Andronik, Amazasp, Mirzoyan, Mikoyan, Markaryan, Qalustyan... cinayətlərini necə unutmaq olar? Bu, həmən Qalustyandır ki, 1938-ci ilin fevralında Mikayıl Müşfiq kimi gənc dahini vur-tut 25 dəqiqəyə mühakimə

etmiş və haqqında ölüm hökmü çıxarmış "troyka"nın sədri olmuşdur.

14. Mədəniyyət bakanlığını ayağı sürüşkənlərin sərəncamına verənlərin, Opera-balet teatrını "Əsli-Kərəm" əyləncəsinə çevirənlərin, teatrımızda daşnaklar üçün toxucu dəzgahı quraşdıranların, Moskvada hərbi komissarlığa soxulmuş Ter-Qriqoryan uçün çamadan daşıyanların xalqa duşmən mövqeləri göz qabağındadır.

15. "Adamları milli əlamətinə görə işdən çıxarmaq olmaz!" deyə fərman verən Mixail Sergeyeviç Qorbaçov! Bəs 318 min adamı milli əlamətinə görə rus silahı altında darmadağın edib çöllərə səpmək olar? Bu, necə fərmandır ki, cinayət baş tutandan sonra verilir və yalnız ermeniləri qorumaq üçün verilir?

16. "Silahlan!" şerimi oxuyuram.

# DÖRDÜNCÜ GÜN, 28 HƏZİRAN (İYUN) 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Uca boylu, pəhləvan cüssəli, ağ saçlı vəkilim Hacı Rəhmanlı ilə yenidən görüşurəm. Leysanlardan çıxıb günəşdə yanıb qaralmış və bahar şəfəqlərilə sığallanmış kimidir. Mənim üçün armud və kətə gətirib. Yedikdən sonra cinayət sənədlərinin ikinci cildi ilə tanış oluram. Daxili İşlər Nazirliyinin Baş Yanğından Mühafizə İdarəsində piket keçirdiyimiz zaman mənim haqqımda yeganə duzgün məlumat verən baş mühasib Bayram Qaib kişiyə və bir də idarənin əməkdaşı Faiq İlyas bəyə urəyimdə təşəkkür edirəm. Onlar mənim rəyasət heyətində sakit əyləşdiyimi və özümü son dərəcə təmkinli apardığımı xüsusi qeyd edirlər. Doğrudan da, Bakının ən tufanlı, təlatümlü çağlarında, minlərcə adam tərəfindən əhatə olunmuş binanın içərisində o gün elə bir qalmaqal, vur-çatlasın, nitq alovları vardı ki, mənim susub dinləməkdən başqa əlacım qalmamışdı.

Qadınlar xüsusilə fəal idilər. Onlar poqonlu rəisi divara dirəmiş, qoz qabığına soxmuşdular.

Kimlər idi bu lənət saçanlar? Uzun kirpikləri mavi sürməli, dünya gözəli Vətutə xanımmı? Uca boylu Məlaikə müəllimə, cəsur natiq Sərvinaz xanımmı? Yoxsa kişi yumruqlu Naibə, qəzəb heykəli Elmira, balası əsgərlikdə erməni-rus bandası tərəfindən öldürülmüş, öz nifrəti dipdiri, salamat qalmış Dilarə xanım Oruclu, yoxsa uzun barmaqları beşqanad yaba kimi açılmış Könül Zeynallı, ya bəlkə xeyli sonralar, 1990-cı ilin 20 fevralında telefonda qan-yaş tökən, rəfiqəsinin alışıb-yanan Salyan kazarması

ətrafında yaşamasından və rus gülləsi ilə öldürülməsindən fəryada gələn tarixçi Şəfiqə xanımmı, on övlad yetirsə də hələ şux qalmış, gəncliyini itirməmiş Ədilə xanımmı? Kimlər idi yalnız Baş Yanğından Mühafizə İdarəsini yox, bütün Bakını silkələyənlər? Bakı qadınları idilər bütün tətil, nümayiş və piketlərin təşkilatçıları, döyüş quvvəsi və bayraqdarları!

Əlimin altında cinayət sənədləri, özüm xəyallar dünyasında... Kimdirsə Əliyev Telman da məni qorumağa çalışır. O, ifadə verir ki, "Bizim Qafqaz Enerji-Təmir İdarəsində Xəlil Rza sakitcə əyləşmişdi, hay-küylü danışıqlara girişmirdi". Bəlkə də düz deyir.

Dördüncü cild ilə tanış oluram. Burada böhtanlar da var, dəhşətli həqiqətlər də. "Stepanakert ipək fabrikində azərbaycanlı qadınları işdən çıxarmaq üçün erməni dəliqanlıları sexə çılpaq halda girdilər. Qızları, qadınları zorlamağa girişdilər... Sonra Azərbaycan qəbiristanını yer üzündən sildilər, murdarlıq yapdılar. Yüzlərcə adamı öldürdulər, minlərcə adamı təhqir etdilər".

Bakıdakı təlatümlər, əlbəttə, bu vəhşiliklərin əks-sədasıdır. Görunür, respublika prokurorluğu önündəki 7 aralıq (dekabr) 1989-cu il tarixli piketi Milli Qurtuluş təşkilatı, Məhəmməd Hatəmi, Mənsur Əlisoy, Seyid Tahir Qarabaği və başqa yoldaşlar təşkil etmişlər. Mitinqi mən aparmışam. Daşnak Bejanovun və başqa ermənilərin işdən qovulması tələbi taqsırsız dustaqları azad etmək, didərginlərin, qaçqınların evlə təmin olunması, Kreml qarşısında quyruq bulayanların cəzalandırılması zərurəti diqqətimizdə dayanmışdı. Respublika prokuroru İlyas İsmayılova və bu qəbildən olan yuksək vəzifəli şəxslərə danışmaq imkanı verilməyəndə xalqı intizama çağırdığımı, onun nəzakət-

li bir adam və ədəbiyyat bilicisi olduğunu car çəkdiyimi yaxşı xatırlayıram. Lakin aşıb-daşan qəzəb, üsyan selləri içində mənim təqdimatım qasırğalı dənizə atılan xırda bir daş təsiri bağışlayırdı.

İsmət Hüseynov adlı şahid mənə qarşı üç ittiham irəli surür:

1. Daşnak Bejanovu və başqa ermeniləri işdən qovmalı.

2. Azərbaycanda, xüsusilə Dağlıq Qarabağ Muxtar Vilayətində Azərbaycan millətinə qarşı cinayətlər silsiləsi baş alıb gedir, ildən-ilə, gündən-günə qüvvətlənir.

3. Respublika prokurorluğu bu cinayətlərə biganədir. Özü Moskvaya təslimçilik, rüşvət və dürlü cinayətlər burulğanında boğulmuşdur. Aparat başdan-başa rus relslərimə keçirilmiş və milli sima anlayışından milyon verst uzaqlaşdırılmışdır. İstefası labüddür.

Şahid Fərman Cəfərov yazır: "Xəlil Rza respublika prokurorluğu əməkdaşlarını onun mənsub olduğu milli hərəkata qoşulmağa çağırır, əks halda prokurorluq binasını partladaçaqlarını, dağıdacaqlarını bildirirdi". Şahidin dediyinə görə, Zemfira Əhmədova da bu cur hayqırırmış. Yazıqlar ki, o gün qəzəb və usyan kürəsinə dönmüş bu qiymətli qadının alova bürünmüş parlaq nitqi, bu tarixi sənəd əlimdə deyil, bəlkə də o vaxtkı gündəliyimdə var.

Şahidlərdən Məhərrəm İsmayılov və Elxan İsmayılov dürüst olmayan ifadələr işlədirlər. Guya o gün mən "Ermənilərə ölum!" şüarını irəli sürmüşəm. Yalandır. Qəzəb və ittiham obyektim daşnaklardır.

# İKİNCİ GÜN, 3 TƏMMUZ (İYUL) 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Müstəntiqim Aleksandr Qubinski ilə yeni görüşüm yatmış könlümü oyadır. Firəngizin bir ay bundən irəli gətirdiyi qara kürünun qalan hissəsini sellofan arasında soyuducudan çıxarıb qarşıma qoyur. Kitab şkafının küncündə saxladığı qoz ləpəsini də qəzet bükümü arasında mənə yetirir. İki konfet verir. Dəmlədiyi təzə çaydan bir stəkan, sonra ikinci stəkan qismətim olur. Qarşımdakı yavanlıq cibimdə gətirdiyim quru çörəyə dad-tam verir. Gözlərimə işığ gəlir, dizlərimin titrəyişi dayanır. Müstəntiqin sözlərinin verdiyi qüvvət daha böyükdür:

– İradəni itirməməli! Qələmi əldən yerə qoymamalı!

Verdiyi iki sənədi imzalayıram. Birinin canı budur ki, Bakının və ümumən Azərbaycanın dürlü müəssisələrində etdiyim çıxışların 90 faizində cinayət tərkibi olmadığı uçün hamısını ayağımdan silib atmışdır. Mərkəzi telegüzgüdə 2 şubat (fevral) 1990-cı il tarixli çıxışımdan sonra məni tanıdığını və vaxtilə Gəncədə əzamətli iz-diham qarşısındakı meydan nitqimdə erməniləri darmadağın etməyə çağırdığımı bildirən Qazaryan adlı birisinin dəlilsiz, sübutsuz iddiasını ləğv etmişdir – bu ikinci sənəddir.

– Beşinci gün vağzaldan zəng edən oğlun dünən gəlib çıxmalı idi. Görünmədi. Adı gərək ki, Təbrizdir!

– Bəli, Təbrizdir.

– Dördüncü gün gəlib çıxar! – deyirəm. – Azuqənin qəbul günü!

...Kameraya qayıdır və uzun müddət Təbrizim haqqında düşünürəm. Mənim həbsim ərəfəsində cəbhəyə getmək

istəyirdi. İndi atasının ardınca Moskvaya gəlib çıxıb, Namxuda, kişiləşib. Uça boylu, enli kürəkli, bəzən üzünü qara saqqal basan Təbrizim qeyrətli oğuldur. Vaysınıram ki, ona bu vaxtacan şirin, xoş bir söz deməmişəm. Çox vaxt üzünü danlamışam. Məndən aşıb-daşan məhəbbət, nəvaziş görübmü? Çətin. Bu cəhətdən qardaşım Rüstəm Rza məndən xeyli fərqlənir. İçərişəhərdəki Müslüm Maqomayev küçəsindəki 88 sanlı binanın zirzəmisində, alaqaranlıq, darısqal otaqda qocalmış xalam Gülnisə xanımla baş-başa verib yaşayan Anamı necə məhəbbətlə dindirdiyini unutmaqmı olar?

– Başına dönüm, Ana, gəl, öpüm gözlərindən. Sağalacaqsan, inşallah, hələ Təbrizin, Rzanın balalarının toyunu görəcəksən?

Qardaşım Rüstəm Rza olduqca istiqanlıdır, Təbrizə də xeyli mehriban olub, öyüd-nəsihət verirkən də incə davranıb, uzatdığı tikanlı budaqdan qızılgül əskik olmayıb.

Qoy sənə doğulan günəş deyim ki,
Nurunla açılan al səhərəm mən.
Yeddi il yol gələn ay mənim ilkim,
Gəldiyin yollara gül düzərəm mən.

Özüm də bilmirəm nə işdir bu iş,
Yerdənmi, göydənmi tapmışam səni?
Bəlkə də səni heç tale verməmiş,
Taleyin əlindən qapmışam səni.

Sən bu gün sevincim, qanadım-qolum,
Dünən ürəyimdə dağ olmusan sən.
Heç ana bətninə düşməmiş, oğlum,
Bu ata könlümdə doğulmusan sən.

Mən səni bağrıma basanda bərk-bərk,
Deyirlər naşıyam, görməmişəm mən.
Alıram boynuma, niyə gizlədim,
Sənin tək səadət görməmişəm mən.

Anan süd veribdir, fəqət mən sənə
Köksümdə közərən odu vermişəm.
Seçib milyon-milyon adlar içindən
Dünyada ən gözəl adı vermişəm.

Təbrizim, ilhamım, məramım, andım,
Eşqim, mübarizəm, məsləkim mənim!
Bala yox, mənimçün yer-göy yarandın,
İnanmaz sözümə, söylə kim mənim?

Bir döyüş ordusu var mənzilimdə,
Qoy dünyalar bilsin nəçisən, kimsən.
Kiçik mənzilimdə, dar mənzilimdə
Sən   ucsuz-bucaqsız məmləkətimsən.

Sən – oğul, sən – igid, sən – ər oğlu ər,
Get, milli paytaxtdan istə adını.
Məqribə, məşriqə,  çahana  göstər
Adında gizlənmiş istedadını!

Ey bala Təbrizim, gün o gün olsun
Ana Təbrizimə mən azad deyim.
Ustad Şəhriyarla görüşün olsun,
Təbrizi Təbrizə qol-qanad deyim.

Arzular köksümdə çeşmə-çeşmədir,
Arzular qoynunda boy atmış könül.
Səni əhdim üçün, ərmanım üçün, –
Səni döyüş üçün yaratmış könül.

Atanın ömrünə oğul yaraşıq,
Qoy bir nəfəs alım daha dərindən.
Mən öz Təbrizimlə bu gün yanaşı
Keçirəm  Bakının küçələrindən.

Bu gün yağış yağır. Qorxma yağışdan,
Leysanda, tufanda bərkisin canın.
Sən mənim balamsan, mən sənin atan,
Biz bir cüt oğluyuq Azərbaycanın.

# QORXMA, MƏN SARSILMAZ DAĞ QALASIYAM!

Sən orda yuxusuz, mən burda oyaq,
Başımın altında əllərim daraq.
Gözlərim yoluna göz dikən çıraq,
Ötən ağ günləri an, Firəngizim!

Ey dünən göylərdə uçan nazənin,
Hanı ilk atəşi, odu busənin?
Bu gün alovdandı köynəyin sənin,
Alış Firəngizim, yan Firəngizim!

Bilirəm, yatmırsan sən gecələri,
Açırsan nə qədər bilməcələri.
Bağrınmı sökülən, yoxsa dan yeri?
Bağrı dan yeri tək qan Firəngizim!

Bu əjdaha soylu qanlı dəryada
Mən dəmir adayam, sənsə qum ada.
Sən də dəmirləşə, tunclaşa bilsən,
İnan, yetəcəyik bir də murada.
Bu incə hikməti qan, Firəngizim!

Sən mənim nicatım, qurtuluşumsan,
Dayağım, varlığım, ağlım, huşumsan,
Başımda çələngim, dövlət quşumsan,
Gəl, polad çiynimə qon, Firəngizim!

Haqqın daş məhbəsi sökən gücü var,
Başının üstündə arslan bürcü var.
Günəş bir şairin hansı suçu var?
Ərisin ahımdan beton divarlar.
Sən – Şair qadını, çələngin vuqar,
Bükmə qanadını, Aya, Marsa var,
Yoxdu qeyrətinə son, Firəngizim!

Ayağım qandallı, içərim azad,
Yetim bir dürrəm ki, sədəflə təzad.
Mənə bir kağız ver, bir qələm uzat,
Şimşək qələmimi yon, Firəngizim!

Ən böyük mərdliyə meyar, ölçüyəm,
Göyün dayağıyam, yerin gücüyəm.
Yarsam bu zindanı, el sevinciyəm,
Dustaqlıq man deyil, man, Firəngizim!

Qorxma, mən sarsılmaz dağ qalasıyam,
Min-min ölüm gələ... sağ qalasıyam.
Sabah azad olub hayqırasıyam:
– Canım, ey Azadlıq, can Firəngizim!

***Moskva, Lefortovo zindanı,***
*üçüncü gün, 4 iyul 1990.*

# DÖRDÜNCÜ GÜN, 5 TƏMMUZ 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Çarpayıda uzandığım halda əllərimi başım altında daraqlayıb Bakıda tətil və nümayişlərin, piket və mitinqlərin aparıcı qüvvəsini təşkil edən oğul və qızları, səngərdaşlarımı düşünürəm. Bizi özünün əməkdaşı olduğu Qaz idarəsinə, erməniləri qovmağa aparan ucaboy dəliqanlı Oqtayın ağ üzü, onunla yanaşı addımlayan Məhəmməd Hatəminin ağlı, qaralı saqqalı xəyalımda canlanır:

– Bizi Xalq Cəbhəsinə yaxın buraxmırlar. Neyləməli?

Ayrı-ayrı partiyalardayıq. Birləşə bilmərikmi?

İldırım səsilə meydanlara od tökən Mənsur Əlisoyun amansız natiqliyi nə qədər ürəklərdən tikan çıxarmışdır:

– Bizi yaxın buraxmırlar. Cəhənnəmə buraxmasınlar. Biz öz işimizi görürük. Ən başlıca iş Bakını əqrəblərdən təmizləməkdir. "Yaxın buraxmırlar", deməli, özlərinin xıltı çoxdur.

Filosof idraklı Bəxtiyar Tuncayın dediklərinə diqqət kəsilirəm:

1. Xalq hərəkatı, milli hərəkat nə zaman yaranır? O zaman ki, yuxarı idarə edə bilmir, aşağılar isə köhnə durumda yaşamaq istəmir. Biz quldarlıq sosializmi sistemində yaşayırıq, yaşamırıq, sürünürük. Bu sistemin dağılacağı şəksizdir... Siyasi hadisələrin alt qatında iqtisadi amillər durur. İqtisadi baxımdan SSRİ ABŞ-dan xeyli geridə-dir. Buna görə onun diktəsini qəbul etməyə məcburdur. Qorbaçovun bütün diqqəti Buşun, Tetçerin, Mitteranın... ağzındadır. Bəlkə də onların casusudur.

...Bəşəriyyət ağ günə, dincliyə qovuşa bilmir, qan dənizləri, göz yaşı gölləri içindən özünə yol açır. Bunun səbəbi imperiyalar, qəsbkar dövlətlər, irticaçı hakim dairələrdir. Təkcə Əfqanıstan müharibəsində 1 milyon 200 min adam öldürülüb. Əfqanlara qarşı müharibə SSRİ-nin belini sındırıb, bütün ağırlığı düşüb əməkçilərin boynuna. Dağlıq Qarabağda Kreml tərəfindən qızışdırılan müharibə bu imperiyanın fəsadlarından biridir. Oyundur. Nizami metrosunun qarşısında, dördyol ayrıcındakı meydanda ağzından od tökən müəllimə və dünya gözəli Sərvinaz Məlikovanın düyülmüş yumruqları, uzun kirpikləri arasından qığılcım səpən qara qonur gözləri xəyalımdan çəkilmir:

– Dağlıq Qarabağda erməniləri silahlandıran, Azərbaycan kəndlərini boşaltdıran Arkadi Volski Bakıda eyni diversiyanı xəlvətcə həyata keçirən Viktor Polyaniçko qədər məkrli, təhlükəli düşmənimizdir. Bunlar eyni medalın iki üzüdür və ikiüzlülükdə misilsizdirlər. Çünki dost cildinə girmiş düşmən, quzu cildinə girmiş canavarlardır. Bizim hakim dairələrə soxulmuş milli satqınlar onları nəinki ifşa etmir, əksinə, qarşılarında diz çökür, qurban-sadağa gedir və gecə-gündüz onlar üçün rüşvət çamadanları daşıyırlar. Xankəndi həndəvərində bulaq başında çadır qurduran, guya bu çadırda ağsaqqalları qəbul edən, əslində Şuşanı, Kərkicahanı, Malıbəylini, Laçını necə tutmaq, necə qırmaq üçün layihələr hazırlayan axçilər və başkəsənləri zaman-zaman qəbul edən, Azərbaycanın qeyrətli oğlu Əlisahib Orucovu və özünün məkrinə təslim olmayan türkazər katibləri sərhəd rayonlarından uzaqlaşdırən Arkadi Volskidən nicat ummaq tüpürcək atan ilandan, gürzədən şəfa gözləmək kimi bir şeydir.

...O kimdir, qolları bir cüt qılınca bənzər. Ağ köynəkli,

ağ üzlü Sabir Rüstəmxanlıdır. Yarım milyonluq Azadlıq meydanına sığışmayanların əzəmətli mitinqini necə də məharətlə idarə edir. Ayrı-ayrı alaqaranlıq beyinlərə ildırım kimi şölə salır:

– Almanlar üçün ictimai fikir qaynağı pivəxanalardır, bizim üçün çayxanalar. Buna görə çay evlərinin qapadılmasına yol verməməliyik... Bu gün Xalq Cəbhəsinin parçalanmasından söhbət gedir. Unutmayaq ki, parçalanmanı da təşkil edənlər var. Dostu düşmənə çevirənlər var. Moskva tərəfindən ələ alınmış DTK-da və başqa təşkilatlarda millətin düşməni dostundan daha çoxdur. Burada polkovnik Eldəniz kimi oğullar, ariflər, ayıqlar, milli şüur yolçuları nadirdir, müstəmləkə toruna əsir düşən qafillər, satqınlar, rüşvət hesabına qarın otaranlar, imarət yapanlar, yatır yığanlar çox-çox!

...Moskva və Rusiya inqilab ərəfəsindədir. Burada iki meyl var: a) Qoy xalqlar başımızdan açılsın, bəsdir onları yedirib bəslədik. b) Saxlayaq. İmperiyanın dağılmasına yol verməməliyik.

Göründüyü kimi, hər iki təmayül bizə qarşıdır, bizə yuxarıdan aşağı baxmağın nəticəsidir. Cəsur olmalı. Milli hərəkatımız bizi azadlığa doğru aparır. Mən əminəm ki, ən geci 1991-ci ildə azadlığımızı qazana biləcəyik! Tələsməməli, Moskvadakı, Kiyevdəki, Minskdəki inqilabi gedişatı diqqətlə izləməliyik. Nə irəli şığı, nə geri qal. Daim orta həddi gözləməli. Yaş olma, sıxarlar, Qupquru olma, dərhal sındırarlar.

...İçəri girən sarı poqonlu, sarı bığlı, sarışın praporşik məni xəyallarımdan ayırır. Gətirdiyi hədiyyələr zənbilinin üstündə verilən kağızda tanış, doğma xəttini-gözlərimlə öpdüyüm Firəngiz və Təbrizim yaxınlığımda, Moskvada-

dırlar. Qubinski düz deyirmiş, Təbrizim beşinci gün zəng edibsə, deməli, az qala bir həftədir buradadırlar. Görəsən, hara düşüblər. Necə dolanırlar? Məşəqqət-ləri, əzabları çox böyükdür. Moskva ilə Bakı arasında yox, odla su arasında qalıblar. Hər ay bu boyda yolu gedib-gəlmək, kassalar qabağında bilet növbəsinə dayanmaq, ala bilməyəndə sıxılmaq, dönmək, qayıtmaq, məqsədə yenidən can atmaq, ərzaq, azuqə tapmaq... çətin işdir, felən qəhrəmanlıqdır. Bu boyda zəhmətin, məşəqqətin qabağında onlar üçün neyləmişəm? Yəqin donluğumu da çoxdan kəsiblər. Çap olunmaqdan, qonorar almaqdan heç söhbət gedə bilməz.

– Qol çək!

Sarışın praporşikin səsi məni xəyaldan ayrılmağa və nemətləri yerbəyer etməyə haraylayır. Təbrizimin, Rzamın anası imkan verilən dərəcədə azuqə göndərib, daha doğrusu gətirib: alma, xiyar, ərik, pomidor, kökə, yağ, pendir, qoz ləpəsi, çiyələk, ərik qurusu... Firəngiz fədakarlığının ümmanından damlalardır. Azadlıq olmayan yerdə bu nemətlər yalnız dadsız yemdir, yalnız Firəngizin və Təbrizimin əli, nəfəsi dəydiyi üçün ülvi və müqəddəsdir.

Qorxma, mən sarsılmaz dağ qalasıyam,
Min-min ölüm gələ, sağ qalasıyam,
Sabah azad olub hayqırasıyam:
– Canım, ey Azadlıq, can Firəngizim!

...Günlər, aylar keçəcək... Lefortovo zindanının işığı zülmətindən betər 72 mərtəbəsini çiynimizdan atıb Azadlığa qovuşduğumuz zaman Firəngiz qara qonur gözlərindən gülə-gülə bu çağları anıb deyəcək:

– Getmişdim sənin üçün bazarlıq eləməyə. Gördüm qoz ləpəsi yaman bahadır. Qərara gəldim ki, hələ sındırılmamış, köynəkli qoz götürüm. Çapanlı, araxçınlı bir özbəyə yanaşdım. İki kiloqram qoz aldım, gəldim Lefortovo zin-

danının həyətinə... Qəbulda bizdən vur-tut beşcə kiloqram azuqə götürürlər. Buna görə qozu mütləq arıtlamalıyam ki, çəkisi yüngülləşsin. Neyləməli? Dolandım həyəti, paralanmış bir
qırmızı kərpic tapdım. Dəmir şəbəkəni saxlayan hörgünün üstündə əyləşdim, başladım qozu qırmağa. Yaşlı bir qadın mənə yanaşdı:

– Bacı, icazə verin, mən də sizə kömək edim, əvəzində qoz pərdəsini mənə verərsiniz!

– Buyurun! – dedim. Onun üçün bir daş tapdıq, başladıq işləməyə... İşin heç yarısını görməmişdik ki, bir milis nəfəri yaxınlaşdı.

– Həyəti zibilləyirsiniz! – dedi. – Bura qoz fabriki deyil, yığışın!

– Cavan oğlan! – dedim. – Ərim dustaqdır, xəstədir, ona azuqə yetirməliyəm. Burada bəxtəvərlikdən oturmamışıq ki... Buyurun, qonaq olun.

Ona bir ovuc ləpə verdim, getdi. Ancaq işi yenə axıra çatdıra bilmədik. Yağış başladı, nə başladı. Tut ucundan göyə çıx... Yalan olmasın, qoz boyda yağış, yağış qırmancları, üstəlik "çadır deşən ağ dolu" üzümüzə, gözümüzə çırpılır. Qaçdıq. Sığındıq qəbulxanaya. Qadına bir ovuc köynəkli qoz verib yola saldım. Dua edə-edə, xaç vura-vura getdi.

Nisbətən dinc, sakit günlərimizdə Firəngiz beləcə danışacaq, mən isə onun haqqında Lefortovo zindanında yazdığım, Voronej, Rostov, Bakı zindanlarından keçirdiyim şeri əzizləyə-əzizləyə, təkrarlaya- təkrarlaya bu mənzərəni ömrüm boyu başımda-gözümdə gəzdirəcəyəm, Lefortovo zindanı həyətində yağış, dolu, tufan, qasırğa və bu qasırğanı, tufanı saya salmadan işləyən, əlindəki qırmızı kər-

piclə qoz qıran, mənim çörəyimi daşdan çıxaran, yağış və dolu altında islanmağını, curumbur su içində olmağını unudan, qatarları təyyarəyə bağlayıb 2000 verstdən çox yolu uça-uça gəldiyi halda, yorulmağından xəbərsiz bir qadın...

Haqqın daş məhbəsi sökən gücü var,
Ahımdan əriyir beton divarlar.
Sən şair qadını ... çələngin vüqar
Bükmə qanadını, Aya, Marsa var,
Yoxdu qeyrətinə son, Firəngizim!

# BEŞİNCİ GÜN, 13 TƏMMUZ 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Konvoy qabağında müstəntiqim Aleksandr Qubinskinin hüzuruna gəlirəm. Salamlaşırıq. Qarşıma bir stəkan çay, iki konfet qoyub deyir:

– İndicə Anar zəng eləmişdi. Sən çayını içincə gəlib çıxar.

Sevinçimin yerini möhkəmləndirmək üçün:

– Hansı Anar? – soruşuram. Mənim qardaşoğlumun da adı Anardır.

– Yox! – deyir, – Sizin Yazarlar Birliyinin sədri, məşhur yazıçı, SSRİ Ali Sovetinin deputatı Anardan gedir söhbət.

Sevincimin yeri möhkəmlənir və birdən-birə bu geniş salon, ağ, ipək pərdəli hündür pəncərələri günəşə açılmış, küncündə yamyaşıl palma dibçəyi qoyulmuş böyük otaq, tavandan asılan büllur çılçıraq nəzərimdə bir az da şəfəqlənir. Dizlərimə taqət, gözlərimə işıq gəlir. Az qala qışqıram ki, Anarın gəlişi mənim üçün Azərbaycanın gəlişi və Azadlıq deməkdir. Çox istəyirəm bu yazıçını. Əvvələn parlaq şəxsiyyətinə, insani fəzilətlərinə, ikincisi sənətkar gücunə görə! "Ensiklopediya" sozü Türkiyə türkcəsində "ansiklopedi" biçimində yazılır. Anar mənim nəzərimdə böyük hərflər ilə yazılmağa layiq ANSİKLOPEDİ hökmundə olan bir qudrətdir. Elə qələm sahibləri var ki, haqqında bircə epitet deməklə yetinirsən. Anarınsa adı çəkiləndə qazandığı bütün epitetləri tələb edir: yazıçı, şair, publisist, tərcuməçi, dramaturq, ssenarist, rejissor, folklorçu, tarixçi. Üstəlik poeziyanın, rəssamlığın, teatrın, musi-

qinin, incəsənətin incə bilicisi. Çağdaş Azərbaycanda bu qədər dürlü idrak sahələrini qavrayan və hər sahədə özünün dürust, sanballı sözünü deməyə qadir ikinci alim və sənətkar tapmaq çətindir. Stalinizmin hələ tam sınmadığı, ehkamçılığın, qaragüruhun meydan suladığı çağlarda "Qobustan" dərgisinə, süd rəngli ağ kağızda buraxılan, yuksək poliqrafiya mədəniyyətinə malik inçəsənət toplusuna redaktorluq etdi. Bu dərginin hər nömrəsinin Azərbaycan ədəbi, elmi ictimaiyyəti tərəfindən necə səbirsizliklə, necə aşıb-daşan sevinclə qarşılandığı unudulmaz. Bunun səbəbini yalnız indi, yavaş-yavaş dərk etməyə başlayırıq. "Qobustan" toplusunun gucü süd rəngli ağ kağızda, ən yüksək poliqrafiya mədəniyyəti ilə buraxılmasında deyildi. Sevincimin başlıca nədəni o idi ki, bu dərgi Azərbaycanda neçə illər boyu hökm edən ehkamçılıqdan, ruslaşma, simasızlaşma kursundan sonra həmən buzlaşmanı əritməyə doğru tuşlanmış ilk milli şüur çırağı idi. Məsələ yalnız onda deyildi ki, burada yalnız Anar nüfuzu sayəsində meydana çıxan dərgidə buçağacan az qala yasaq edilmiş mətləblərə ilk dəfə toxunulur, əsrin əvvəlindən bəri Azərbaycan uğrunda məşəl kimi alışıb yandığı halda, adı, əsərləri və xatirəsi çirkaba atılmış, pantürkçü, panislamçı ləkəsi ilə qaralanmış Əlibəy Huseynzadə kimi dahilərin, onun hazırda Fransada yaşayan oğlu, məşhur rəssam Turan təki böyüklərimizin haqqında ilk obyektiv məlumat verilir, rəsm əsərlərindən, fikirlərindən örnəklər çap olunurdu. Ən böyük qələbə və jurnalın sevilmə səbəbi bu idi ki, çoxdan bəri milli şuur qaynaqlarına təşnə, tamarzı olan Azərbaycan Türk gəncliyi burada, Anarın nəşr etdirdiyi topluda özünün bir sıra sorğularına cavab tapırdı. Toplu bütünlükdə ehkamlara təslim olmayan Azərbaycanın yeni

intibah dalğasından xəbər verirdi. Onu yaxınlaşmaqda olan baharın qaranquşu saymaq olardı. İllər keçəcək, jurnalın əməkdaşlarından biri olan şair Azər Abdulla başqa bir şairin – Əlisəmid Kürün redaktoru olduğu "Yolda" qəzetində yazacaq ki, bu gün Anarın milli hərəkatımızdan uzaq düşdüyünü və ona biganə olduğunu iddia edənlər unudurlar ki, hələ bu hərəkat başlanmazdan xeyli öncə beynimizə, ürəklərimizə ilk milli şüur toxumlarını sə-pən, cücərdən ilk redaktor Anardır, onun "Qobustan" toplusudur. hələ bu "toplu" sözünün Azərbaycana yad və Türkiyədən gəlmə anlayış olduğunu sübut etmək üçün dərisindən, gönündən çıxan çızmaqaraçıları susdurmaq üçün görüşlərdə, disputlarda nifrət və qəzəbimizi necə səfərbər etdiyimiz unudularmı?

...Şuşada Üzeyirbəy Hacıbəyli haqqında film çəkdiyi zaman Anarımıza Üçmıxda, Turşsuda, yaxud Natəvan heykəlinin yanındamı, yeniyetmə bir şuşalının ürkək-ürkək, çəkinə-çəkinə yanaşması epizodunu anıram.

– Adınızın mənasını soruşmaq istərdim. "Anam Nigar, atam Rəsul" – bu cür yozanlar var. Eləmi?

– Elədir, oğul, elədir. "Anam Nigar, atam Rəsul". Bu dörd kəlmənin baş hərflərini yığanda mənim adım alınır.

Təxminən 50 il bundan irəli anadan olmuş cocuğa ad seçiləndə bu yozumun fikirdən keçib-keçmədiyini deyə bilmərəm. Ancaq burası şəksizdir ki, Anar, doğrudan da, iki hibridin, iki seçmə toxumun – Nigar xanım istedadı ilə Rəsul Rza qəhrəmanlığının vəhdətindən yaranmış möcüzədir. Son əsərlərindən birini – "Dünya bir pəncərədir" kitabını avtoqraf ilə mənə göndərməyi unudulmazdır. "Əzizim Xəlil, sənin dost çiynini həmişə hiss edirəm. Ən xoş arzularımla. Anar. 7 aprel, 1986". Maraqlıdır

ki, onda mən iki nüsxə kitab almışdım. Biri məşhür aktyorumuz Mikayıl Mirzə üçün. Dost olduğumuzu və kitabı ona çatdıracağımı bilirdi.

"Dünya bir pəncərədir" kitabını mən iki dəfə oxumuşam. Bir sıra əsərlərini üçüncü dəfə oxumağa ehtiyac hiss edirəm. Bunun ümdə səbəbi odur ki, 532 yarpaqdan ibarət bu tünd mavi cildli kitab sanballıdır. Cildi Qobustan qayalarına bənzər, içi Xəzər dənizinə. Yalnız bədii əsər deyil, üstəlik elmi tədqiqatın məhsuludur. Bəlkə çağdaş bədii əsər elə bu cür olmalıdır. – Bədii təfəkkür mütləq elmi təfəkkür qaynaqlarından dirilik suyu içməlidir.

Burada, bu əzəmətli kitabda nə qədər tarixi qəhrəmanların və qəhrəman dərəcəsinə yüksələn sənətkarların, qələmə, qılınca, pianoya, fırçaya, kətana yeni nəfəs, yeni cila gətirən hünər sahiblərinin ən lakonik, unudulmaz portretləri yaradılmışdır. Türk dünyasının doğum, çiçəklənmə və idrak rəmzi ağ saçlı Dədə Qorqud, bütün yaradıcılığı boyunca İslam ehkamları ilə döyüşən, Allahı göydə yox, yerdə, insan zəkasının qüdrətində, insan camalının ülviyyətində axtaran dahi Nəsimi, haqq vergisi Aşıq Ələsgər, qışın soyuğunda övladları donmasın deyə əlyazmalarını yandıran əsəbi dahi Mirzə Cəlil, ona qurtuluş yolunu göstərən Eynəli Sultanov, Bakıdan Sibirin Tayşet qəbiristanına yola salınan poeziya günəşi Hüseyn Cavid, bəşəriyyətin "Leyli və Məcnun"dan "Koroğlu"ya qədər musiqi mərhələsini keçmiş ustad Üzeyirbəy Hacıbəyli, Rusiyada ilk müsəlman qəzeti "Əkinçi"nin banisi böyük Həsənbəy Zərdabi, ilk opera aktrisamız Şövkət xanım, iki dünya arasına dəmir pərdə çəkiləndə Türkiyə türklərinin milli şöhrətini aləmə yayan Nazim Hikmət, baltanı öz ayağına vurmasa dincəlməyən şair və alim Mikayıl Rəfili, təmkin və ləya-

qət sahibi Məmməd Arif, onun oğlu Araz Dadaşzadə, "Çətin yolun yolçusu" Sabit Rəhman, öz parlaq zəkası ilə Azərbaycan teatrının yoluna işıq salmış Cəfər Cəfərov, öz əbədi musiqisi ilə ölümə meydan oxuyan Qara Qarayev, "Böyük sənətkarın sənətkar oğlu" Ərtoğrul Cavid, poeziya aləmində ömrü boyu "gənc şair" qalmış Əli Kərim, yalnız ölümündən sonra dünya şöhrəti qazanmış pianoçu, bəstəkar Vaqif Mustafazadə, sərgisi könüllərə işıq salan rəssam Əşrəf Muradoğlu (1925-1979), şairliyinin çiçəklənən çağlarında Sumqayıt-Bakı yolundakı xaosun, hərcmərciliyin qurbanı olmuş Vaqif İbrahim, tablolarında Naxçıvanın əsrarəngiz mənzərələrini canlandıran Turan Məmmədli, atasının ölümünə dözməyib özünü Xəzər dənizinə atan Ülkər Kürçaylı, Azərbaycanın sehirkar guşələri: "Qədim Gəncə, yeni Gəncə", sal qayalarındakı yazıların sirri hələ tam açılmamış Qobustan, Qafqazın konservatoriyası Şuşa, bəşər mədəniyyətinin ən qədim beşiklərindən olan Naxçıvan, daş abidələr, qədim qəbiristan xəzinələri... Bunlar Anar qələmilə yenidən canlandırılan elm, incəsənət və idrak qaynaqlarımızdır. Məni heyran qoyan, Anarın bilik, zövq, maraq dairəsinin bunca geniş, bunca zəngin olmasıdır. "Keçmiş dövrlərin böyük şairlərinin taleyi – hər halda çoxusunun taleyi faciəvidir (Bizim əsr də bu cəhətdən istisna deyil). Müşfiq, Lorka, Nurdal Qriq, Musa Cəlil, Neruda, Viktor Xara – bu qəmli siyahını xeyli davam etdirmək olar". Anar hələ az çağdaşı olduğu, yaxından tanıdığı Qumilyov, Anna Axmatova, Fitrət, Çolpan, Almas Yildırım, Hüseyn Cavid, Əhməd Cavad və Paustovski, Pablo Neruda, Mayakovski, Yesenin kimi poeziya qəhrəmanlarını bu siyahıya daxil etmir, lakin qələmə aldığı İmadəddin Nəsiminin parlaq surətini bu fonda canlandırır,

sübut edir ki, böyük poeziya heç vaxt şər ilə, eybəcərlik ilə barışmır, ehkamçılığa qarşı döyüşür, hətta, bu döyüş çox zaman poeziya yaradıcısına öz ölümü bahasına başa gəlsə də.

Okovı tyajkiye pladut,
temnitsı ruxnut i svoboda
Vas primer radostno u vxoda
İ bratya meç vam otdadut.

Anar mənim yanıma Puşkinin bu sözlərini yenidən demək üçün gəlir. Xoş gəlir, səfa gətirir.

Zahidin bir barmağın kəssən dönüb həqdən qaçar,
Gör bu gerçək aşiqi, sərpa soyarlar, ağrımaz.

Anarımız bu sözləri yenidən car çəkmək, mənə qüvvət vermək üçün gəlir yanıma. Xoş gəlir, səfa gətirir.

Məndə sığar iki cahan, mən bu cahana sığmazam,
Gövhəri-la-məkan mənəm, kövnü məkana sığmazam.
Kövnü məkandır ayətim, zatınadır bidayətim,
Sən bu nişanla bil məni, bil ki, nişana sığmazam.
Can ilə həm cahan mənəm, dəhr ilə həm zaman mənəm,
Gör bu lətifeyi ki, mən dəhrü zəmanə sığmazam.
Zərrə mənəm, günəş mənəm, çar ilə pəncü şeş mənəm,
Surəti gör bəyan ilə, çünki bəyanə sığmazam.

Öz misralarım bu misralara qarışır:

Nəsimi alnında qanlı bir qürur
Baxır kainata öz dan yerindən.
On dördüncü əsr yıxılır, durur
Tutur o ustadın ətəklərindən!

Anarımız bu kəlamları demək üçün gəlir yanıma, xoş gəlir, səfa gətirir.

Anar qələmindən çıxmış "Sizsiz" sənədli romanı haqqında düşünürəm. Yaxşı ki, bu əzəmətli əsər barədə vaxtında çıxış etdim, "Ulduz" dərgisində məqaləm basıldı. Vaxtında görülən işdən gül qoxusu gəlir. "Sizsiz" ataya, anaya oğul-övlad məhəbbətinin əvəzsiz abidəsidir. "Siz-

siz" Azərbaycan Türk ədəbiyyatının iki parlaq nümayəndəsi barədə himndir, dan üzü bahar gülüstanında cəh-cəh vuran bulbül nəğməsidir. Xoşbəxtliyi burasındadır ki, Anar bizim Rəsul Rzanın və Nigar xanımın yaradıcılığını heç bir araşdırıcının, alimin, tənqidçinin bilmədiyi dərəcədə gözəl bilir, onların qələmindən çıxmış bədii varidatın ən yaxşı örnəklərini tanıyır və əzizləyir. Buna görə "Siz-siz" romanı gəncliyin, fəlsəfi düşüncənin, şairliyin aşıbdaşan qaynaqları haqqında şərqidir. Romanın belə demək mümkünsə, bədii diametri Rəsul Rza poeziyası qədər genişdir, əngindir. Az sürməyən ömründə 23 ölkəni gəzməyə, görməyə və öyrənməyə macal tapmış və həmən ölkə xalqlarının taleyini əks etdirmiş Rəsul Rzanın, ana və qadın olması ucbatından belə bir fürsəti itirmiş, yaradıcılığının boyundan kəsib övladlarının, ərinin boyuna calamış Nigar xanımın daxili yanğıları bu əvəzsiz romanda necə unudulmaz boyalarla nəqş edilmişdir.

Mən bu düşüncələr içində ikən addım səsləri eşidirəm, qapını açıb böyük salona qədəm qoyan və sürətli addımlar ilə gələn Anarımızdır. Qalxıram. Qucaqlaşıb öpüşürük və üz-üzə əyləşirik. O, pəncərə tərəfdədir. Mən də Anarla və günəşlə göz-gözə.

Rusca danışırıq. Yuxarı başda əyləşən mavi gözlü, qızıl saçlı huquq polkovniki Aleksandr Qubinski bizi dinləyir. – Deyir, bəzi şeyləri boynuna almısan, eləmi?

– Bəli! – deyirəm. – Aleksandr Georgiyeviç iddia edir ki, Bakının barıt çəlləyinə döndüyü günlərdə mən öz nitqlərimdən ora bir qığılcım atmışam, erməniləri Bakıdan qovmağa çağırmışam. Qətl, qarət, yanğın, tufan bundan sonra başlanıb. Bilmirəm, mən neyləməliydim? Ermənilərin, daşnak bandasının yarım milyon türkazəri öz ata-baba

ocağından qoparıb çöllərə səpələdiyi çağlarda hansı çağırışa qoşulmalı idim? Anaları, gəlinləri, qızları, çocuqları ayaqyalın, başıaçıq halda çölə tökən, qarın, qiyamətin, cəhənnəmin, çörəksizliyin, susuzluğun, cəhənnəmin ortasına tullayanların başını sığallamağamı çağırmalı idim? Bura mühakimə yeri deyil, ancaq ən mötəbər sənədlər, mənim nitqlərim qarşıdadır. Yazılıb. Mən ermənidən erməniyə fərq qoymuşam. Erməni vəhşiliyinə, erməni qəddarlığına, erməni qəsbkarlığına etiraz əlaməti olaraq özünü doqquzuncu mərtəbədən atıb öldürən Petoyana abidə qoymağa çağırmışam. Erməni qadınlarının, qızlarının namusuna, ismətinə toxunmamağa çağırmışam. Erməni çocuqlarını qorumağa çağırmışam! Bundan artıq neyləmək, nə demək olardı? Yaxşı ki, DTK casusları, Arkadi Volski, Viktor Petroviç Polyaniçko nökərləri bu nitqlərimi vaxtında maqnitofona yığıblar. Azərbaycana qarşı qaldırılan qanlı baltanın dəstəyi kimin əlindədir – siz bunu yaxşı bilirsiniz, əziz Anarımız. Xayanətin və qəsbkarlığın kökləri 1813-cü ildən, 1828-ci ildən gəlir, bəlkə də daha əvvəllərdən, Birinci Pyotrun fərmanlarından. Çağdaş Ermənistan dövləti Azərbaycan türk torpaqları hesabına quraşdırılmışdır.

Aleksandr Georgiyeviç bunu gözəl bilir, qəsdən özünü bilməməzliyə qoyur.

– Bizə dəxli olmayan mövzular ilə niyə məşğul olaq?

Mavi gözlərin mavi buzu ərimir, qara qonur kirpiklər altından gah mənə, gah Anara baxır.

– O mövzuların bizə dəxli var, hörmətli Aleksandr Georgiyeviç! Bəşəriyyət tarixində nə baş vermişsə, hamısının bizə dəxli var. Tarix özü bir bədəndir, biz onun hüceyrələri.

Nazik ortasının kəməri enli,
Allah iddialı, cırtdan bədənli,
Paskeviç meydanda hey at oynatdı,
Alovdan boynuna bir kəmənd atdı!

– misralarını Azərbaycan türkcəsində deməkdən özümü güclə saxlayıram. Zubov, Sisiyanov, Yermolov ilə və onların nökəri, tulası, kəşfiyyatçı köpəyi kimi hərlənən, girlənən erməni dığaları ilə bağlı qəzəbli "xatirələrim" ürəyimdə, dilimdə oda, alova dönür.

– Siz alt yapı üstündə üst yapısınız, hörmətli Aleksandr Georgiyeviç! Ancaq üst yapı öz ədalət funksiyasını yerinə yetirə bilsə, qəsbkarların əli, ayağı zəncirlənər. Heyhat! Taqsır sizdə deyil, ozümüzdədir.

Heç bir qəsbkara baş əyməz bu yurd,
Ağacı içindən gəmirməsə qurd.

Aramızdakı münaqişənin alovlanacağından ehtiyat edən Anar odun üstunə su tökməyə çalışır:

– Bayram Bayramov, Nəbi Xəzri sənə xüsusi salamlar göndərdilər.

– Sağ olsunlar! – deyirəm.

– Prezidentimiz də, Ali Sovetimiz də, Sənə yardım edəcəklər!

– Sağ olsunlar! – deyirəm, ancaq demirəm ki, Prezidentimiz Ayaz Mütəllibov əslində Dayaz Mütəllibovdur və planet jandarmının təcrübəli köpəyidir, bizi bu zindana, qırx arşınlıq quyunun dibinə saldıranlardan biri də o, özüdur, bacarırsa, özünü xilas etsin xalq nifrətindən!

– Anar bəy, Siz SSRİ Ali Sovetinin deputatısınız, hayqırın. İldırım səsiniz Kremlin qan qırmızı divarlarını laxlatsın. Orada yazıçı dostlarımız: David Kuqultinov, Oljas Suleymenov, Çingiz Aytmatov... David məni yaxşı tanıyır. İki il birlikdə oxumuşuq. Ali Ədəbiyyat kurslarında çiyin-

çiyinə mühazirələr dinləmişik. "Sənətkara Azadlıq!" deyə hayqırın, bu miskin kölələrin, Aleksandr georgiyeviçlərin hördüyü hörümçək torlarını qırın, dağıdın! Sizin qarşınızda bunlar kimdir, nədir? Milçəkdən, çibindən də gucsüz, miskin bir məxluq! Siz sənətkarsınız! Siz Planet vətəndaşısınız. Qına çəkilməyin, hayqırın! Bakını qanına bələyənlər, Sumqayıtı cəhənnəmə döndərənlər qarşınızda kiçilsin, ərisin, yerə girsin. Başı xallı əclaf nə boyda qatil olduğunu dərk etsin!

Bu cümlələr ürəyimdən keçir, ancaq heç birini, heççə birini Anarımıza demirəm. Niyə deməliyəm ki? Özü bilməlidir. Sən demə yazıçılıq ayrı şeymiş, vətəndaşlıq ayrı şey. Öpüşüb ayrılırıq. Kameraya qayıdıram. Yorğun olduğum halda uyuya bilmirəm. Müstəntiqimin sözləri beynimi yenidən tustuləndirir:

– Xəlil Rza şairdir. Əlbətə, şairliyinin səviyyəsi Sizə və başqa oxucularına daha yaxşı bəllidir. Mənim onda qabarıq şəkildə müşahidə etdiyim ən böyük nöqsanı odur ki, tamamilə təmkinsizdir. Məncə, ziyalı adlanan şəxsiyyət hər hansı şəraitdə, hətta ən pis şəraitdə öz təmkinini qoruyub saxlamağı bacarmalıdır!

– Elədir! – Bu cümlə Anarınmı dilindən çıxdı. Yoxsa sözlə deyil, bunu sükutu ilə dedi. Hər halda burası aydındır ki, o, müstəntiq, huquq polkovniki Aleksandr Qubinskiyə etiraz etmədi. Üsyan saçmadı, hayqırmadı ki, axı bu mühitdə nə cür təmkinli olmaq mumkündür? 1905-ci ildən bəri iki milyona yaxın turkazər Ermənistandan, yaxud klassik Azərbaycandan, öz dədə-baba torpaqlarından silah gücünə, zorla qoparılmış, sürgün edilmiş, yollarda, dərələrdə, dağlarda aclığın, susuzluğun, şaxtanın, selin, qasırğanın, evsizliyin qurbanı olmuş, hadisənin siyasi mahiyyəti-

ni anlayanlar, susmayanlar, üsyan saçanlar sürgün edilmiş, güllələnmiş, təqib və zindanlardan yaxa qurtara bilməmişlər.

Mən necə təmkinli ola bilərdim ki, türk nişanələrini hələ bu gün də saxlayan gözlərimizin önündəcə Qafan, Basarkeçər, Göyçə, Zəngəzur, Gümrü daşnaklara verilmiş, Birinci Pyotrun vəsiyyətlərini yerinə yetirənlər tərəfindən Azərbaycan torpaqları hesabına Ermənistan dövləti quraşdırılmışdır. Mən necə təmkinli ola bilərəm ki, Şah İsmayıl Xətai dövründəki 2 milyon 800 min kvadrat kilometrlik Azərbaycan torpaqlarından bu gün əlimizdə vur-tut 86,7 min kvadrat kilometr torpaq qalıb ki, o da "Böyük Ermənistan" xülyasıyla, üç dəniz arasını udmaq iştahıyla cəhənnəm ağzını açmış əjdahanın od püskürən nəfəsi altındadır. Mən necə təmkinli ola bilərəm ki, 1988-ci ilin 11 dekabrında Ermənistandakı zəlzələnin nəticələrini aradan qaldırmaq uçün Leninakana yön götürmüş təyyarəmiz 78 nəfərlik ekipajı ilə birlikdə erməni raketi ilə vurulub salındı, Moskvadan gələn komissiya Yerevan ilə sövdələşdi, insanlığa xəyanəti, alçaqlığı təbii qəza kimi qələmə verdilər. Erməni, əlbəttə, alçaqdır. Lakin hər alçaqlığın da bir həddi, hüdudu olmalıdır. Fransadan Spitaka humanitar yardıma gələn fransızların bir iti hər iki başı qaynaq edilmiş uzun borunun yanından əl çəkmir, gah o başa gedir, gah bu başa. Qaynağı sökürlər, bəlli olur ki, bu uzun, enli borunun içinə çoxlu türkazər çocuqları doldurulub, hamısı da havasızlıqdan boğulub.

Son iki ildə Şimali Azərbaycanda iki dəfə fövqəladə vəziyyət elan edilmişdir. Hərbi zor tətbiq olunur. Bu, Bakıya, Azərbaycana qarşı Moskvanın növbəti cinayəti, yeni xəyanətidir. İlk dəfə görürük ki, "doğma" ordumuz öz av-

tomatlarını, dəyənəklərini, gözyaşardıcı qazını, zəhərini, gözləri kor edən güclü projektorlarını öz həmvətənlərinə qarşı tuşlayır, həmin asfaltı darmadağın edən, örtüksüz yerlərdə torpağın qaymağını aparan tırtıllı zirehli tanklarını onların üstünə sürür, dinc xalqa atəş açır, güllə yağdırır, suçluya, suçsuza fərq qoymadan rastına çıxanı nişan alır. 1988-ci ilin dekabrın 4-dən 5-nə keçən gecə təcili yardım maşını mənim kiçik oğlum Rzanı ölümcül halda evimizə gətirdi. Şəfa evində düz iki ay çarpayısı başında keşik çəkdik, yenə onu sonadək sağalda bilmədik. Sol gö-zünün işığını, sınır dincliyini itirmiş, beyni silkələnmiş halda evə qayıtdı. Arkadaşı, Sumqayıt avtoparkının 21 yaşlı gənc fəhləsi Ələsgər Xalıqverdi oğlu şəfa evində gözlərimizin önündəcə öldü. Ortasından güllə keçən Ələsgər cərrahlıq kürsüsunə gedib çata bilmədi, süzülən qanı liftin döşəməsini qırmızı bir gölməçəyə döndərmişdi.

İkinci fövqəladə vəziyyət özünün öldürücü vüsəti və qanlı nəticələrilə Azərbaycan tarixində misli görünməmiş faciəyə çevrildi. 1990-cı ilin 20 yanvar səhəri Bakının demək olar ki, bütün şəfa evləri, qospitalları, poliklinikaları, meyidxanaları ağır yaralılar, ölülər və yarımdirilər, həmişəlik şikəst edilmişlər ilə dolmuşdu. Onların sırasında ağsaqqallar, ağbirçəklər, çocuqlar, yeniyetmələr də vardı. Təcili yardım şəfa evinin baş həkimi, ağ xalatlı, peyğəmbər çöhrəli həkim müxtəlif yaralardan çıxarıb masasının üstünə düzdüyü gülləleri göstərdi. Bu ölüm toxumlarının rusca xüsusi adı var: – Пуля со смешшанным центром! Трассирующая пуля!

Tətbiqi çimb. Bu güllə dəydiyi yerdə xırdaca bir dəlik, çıxdığı yerdə yarğan açır, hərlənə-hərlənə, fırlana-fırlana irəlilədiyi uçün bütün bədəni söküb tökür.

Gəzdim. Məni dəhşət bürüdü. Meyidxanalar qan dənizidir. Qapını açıb içəri ayaq basmaq mümkün deyil. Yaxşı ki, yanvar şaxtası üfunətin yaranmasına yol vermir. Qolluqanadlı, pəhləvan cüssəli oğulların qurşunlardan dəlik-deşik qırmızı bədənlərinə, al ləkəli köynəklərinə, qanla dolu ayaqqabılarına təmkinlə tamaşa etmək mumkündürmü? Çiyinlərdən qoparılmış qollar, çıxarılmış gözlər, kimə məxsus olduğu bilinməyən tək ayaq ən təmkinli seyrçinin də ürəyini qana döndərir.

Maşınların kapotunda, qapısında, divarlarda gördüyüm yazılar mürəkkəblə yox, tabaşirlə, qələmlə, karandaşla da yox, sahibinin qanı ilə yazılmışdır:

– Əlvida, Azərbaycan!

– Bizim qisasımızı alın!

– Öldük, amma qaçmadıq!

Bu yazıları mən avtoparkda görmüşəm. Cəhənnəm nəfəsli ağır tanklar taxta-şalbandan, yüngul arabalardan, yük maşınlarından ibarət maneələri basıb keçəndə, dinc əhalinin üstunə od püskürəndə gecə qarovulçusu əlacsız qalıb avtoparkın darvazasını açıb ki, ilk güllələr və zərbələr altında qışqırışanlar, yaralılar, "Anam vay!" deyə haray çəkənlər içəri təpilə bilsinlər. Əli yalın insanlar hələ bir yana, ağır və yüngül maşınlar, KamAZ-lar, UAZ-lar heybətli, zirehli tankların polad tırtılları altında dəmir qutaba dönmüşdü.

Bu halda mən necə təmkinli ola bilərdim? Moskvanı, velikorus şovinizmini, onsuz da xaraba SSRİ-ni sonədək darmadağın etmək üçün xaricdən təlimat almış başı xallı rəhbəri necə lənətləməyə bilərdim?

Kremli cinayətlər yuvası, Sov.İKP-ni ayağı surüşgənlər partiyası, qırmızı (həyasız) ordunu ən yırtıcı qəsbkar ordusu adlandırmağım gördüklərimin, duyduqlarımın nəticəsidir.

Moskva ziddiyyətlər kələfidir. Sovet hakimiyyəti illərində Rusiyanı parçalayan, vətəndaş müharibəsinə çəkən bolşeviklərin, başda Lenin, Stalin, Orconokidze, Beriya, Yejov, Suslov, Mikoyan, Xruşşov, Bulqanin, Malenkov, Andropov olmaqla inzibati-amirlik sistemi, antitürk, antiislam, antibəşəri, antiazərbaycan qaragüruhu məhz burada, Moskvada yuvalanmışdır. Onların cinayətkar fəaliyyəti nəticəsində bütün respublikalar, o sırada Azərbaycan öz suverenliyini tam itirmiş, bu anlayış yalnız quru kağız üzərində qalmışdır. Belə bir faktı demək yetər ki, Azərbaycan sənayesinin 93 faizi Ümumittifaq tabeliyindədir. İttifaqın mərkəzi isə, təbii ki, Moskvadır.

Aydın, günəşli günlərdə təyyarədən baxsanız, Bakını, Abşeron yarımadasını Xəzərin yaxasında eybəcər, qara ləkə kimi görəcəksiniz. Qanını, neft cövhərini illər boyu sümürduyü buruqlardan tökülən mazutqarışıq zəhərli sular zülmət göllərə, bataqlıqlara çevrilmiş, dəhşətli cəhənnəm mənzərəsi yaratmışdır, Əksəriyyəti sovet hakimiyyəti çağlarında yaranmış bu üfunətli göllərdə, gölməçələrdə hətta suilanı, qurbağa belə yaşaya bilmir. Bu ölüm düşərgələri, xəstəlik qaynaqları bakılılara yalnız və yalnız say-sız-hesabsız ağcaqanad, hünü, ditdili və digər malyariya virusları gətirməyə qabildir, halbuki Bakının torpağı qızıldır, ağ şanı, qara şanı, badam, püstə, xartut və zəfəran kimi nadir bitkilər, bostan məhsulları, tərəvəz yetirməyə qadir möcüzədir, xəzinədir, Bakı neftinin gətirdiyi gəlirin bircə faizi özü üçün ayrılmış olsaydı, Bakı bu vaxtacan gülüstana, cənnətə dönə bilərdi.

Özünün misilsiz bitkilər aləmi, balıq xəzinələri, yosunları, dəniz ulduzları ilə birlikdə əzəmətli şəfa qaynağı, sağlamlıq ocağı Xəzər dənizi qətlə yetirilmiş, öldürülmüşdür.

Bu halda mən necə təmkinli ola bilərəm? Bir zamanlar çocuq doğumu faizinə görə İttifaqda birinçi yeri tutan Azərbaycan indi sonuncu yerdədir. Niyə? Çünki burada yaşayışın ilkin şərtləri məhv edilmiş, hava, su, torpaq zəhərlənmişdir. Hələ yırtıcı qonşuların iştahını çoxdan cəlb edən bərəkətli torpaqlarımızın nə günə duşdüyunü demirəm ki, dürlü kimyəvi maddələrin təsiri altında məh- suldarlığını itirmiş, düzgün suvarılmamaq və hədsiz istismar ucbatından min hektarlarla sahələri bataqlığa çevrilmişdir.

Mənim bir sıra çıxışlarımda rus xalqı kiçik qardaşımız adlandırılıb. Bunu deməkdən məqsədim heç də rusu gözdən salmaq deyil, rusu kiçildənləri, onu yırtıcıya, qəsbkara çevirənləri nişan vermək və məhz qəsbkarlara, sümürgəçilərə qarşı bəşər nifrətini itiləmək, bülövə çəkməkdir. Demokratiya və aşkarlıq XX əsr rus tarixinin ən qaranlıq səhifələrini oxumağa imkan verdi. 1917-ci ildən bəri 93 milyon insan hərb maşınının, vətəndaş müharibəsinin, aclığın, tə'qib və sürgünlərin ağzına verilmiş, öldürülmüşdur. Bu qurbanların əksəriyyəti rusun payına düşür. 20-30-cu, 40-50-ci illərin amansız təqibləri cəmiyyətin qaymağı olan ən yaxşı ziyalıların Vətəndən uzaqlaşdırılmasına və ölümunə gətirib çıxarmışdır. Bunin, Şalyapin, Rahmaninov, Vladimir Nabokov, Aleksandr Zinovyev, Vasili Aksyonov, Vladimir Voynoviç, Soljenitsın və hələ mənim tanımadığım yüzlərcə ziyalılar inzibati-amirlik sisteminin qurbanı olmamaq üçün Vətəni tərk etmək məcburiyyətində qalmışlar. Qürbətdə olduqları müddətdə əzizlərindən nəinki heç bir yardım, məktub, təsəlli ala bilməmiş, əksinə, hücum və böhtanlar, şantajlar kampaniyasına məruz qalmışlar. Mən öz çıxışlarımda dönə-dönə bildirmişəm ki, ruslar da Türklər və başqa uluslar kimi dövlət istismarına,

dövlət təqiblərinə məruz qalır, qırmı-zı əsarətin caynaqlarında inləyirlər, Rusiya ilə Azərbaycan və digər respublikalar arasındakı milli bərabərlik yazıqlar ki, yalnız bu baxımdan bərqərardır.

Türkcədəki və ruscadakı məmə (mama), baba (papa), ata (otes), nənə (nyanya), div-dev (deduşka), dayı (dyadya), bir ət (brat), bəy ər (barin, boyar) kimi sözlərin mənşəyini xatırlatmaq əslində millətlərimiz arasındakı tarixi əlaqələrin qədimliyini, mədəni təsirin dərinliklərini nişan vermək üçündür.

Hörmətli Aleksandr Georgiyeviç Qubinski! Bu arqumentlərimə görə məni təmkinsiz adlandırmaqda nə dərəcədə haqlısınız?

# DÖRDÜNCÜ GÜN, 19 İYUL 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Məni və kameradaşım Vladimir Borşşovu 29-cu kameradan yenisinə köçürürlər. Vitali adlı üçüncü bir yoldaş da gəlib çıxır. Sütül bir dəliqanlıdır. Üzünü çil basıb. Geydiyi dar-düdük cins şalvar onu olduğundan bir az da arıq göstərir. Kontrabanda işində ittiham olunduğunu öyrənirəm.

Mənə duza qoyulmuş alagöy bir pomidor uzadır.

– Sağ ol! – deyə alıb yeyirəm.

Bu dəm Vladimir Borşşov yerindən dik atılır və mənim ustümə qəzəb püskurür:

– Pomidor yeməyi həkim sənə qadağan edib. Vitalinin verdiyi pomidoru hansı haqq ilə alıb yeyirsən. Hələ üstəlik utanmadan "Sağ ol!" da deyirsən?!

Başa düşürəm ki, Vətənə xəyanətdə ittiham olunan, hərbi sirri fransızlara satdığını bildirən Vladimir Borşşov məni qəsdən burunlayır ki, bu kameradan çıxıb gedim. Yalnız onlar qalsınlar.

– Həkimin göstərişini yaddan çıxarmışam, – deyirəm. Qəzəbinin odu ustünə elə bil benzin tökürsən.

– Mən adamı yatdığı yerdəcə elə boğaram ki, heç barmaqlarımın yeri də qalmaz!

Susuram. Şer yazmaqla məşğulam.

# ŞƏNBƏ, 14 TƏMMUZ (İYUL), 1990, MOSKVA, LEFORTOVO ZİNDANI.

Bugünkü növbəti yoxlama zamanı poqonlu əclaflar soyu-ducumuz olmadığı üçün suyun içində saxladığımız yağın dərinliklərinə, pencəyimizin bükümlərinə, döşəyimizin saralmış pambığınadək hər şeyi yoxlayırlar.

## BAKIYA DOĞRU

Şad xəbər!
Muştuluq!
Doğmaca elə
Gör necə həsrətlə gəlirəm, Bakım!
Nəfəssiz qəfəsə sığınsaq belə
Qataram, sürətlə gəlirəm, Bakım!

Min bir cəhənnəmi tapdayıb keçdim,
Alovdan dirilik suyunu içdim.
Düşmənin boyuna dar kəfən biçdim,
Amansız qüdrətlə gəlirəm, Bakım!
Sinəm çarpaz dağlı, can şırım-şırım,
Bu dəmir qapını nə cür sındırım?
Əlimdə dörd cildlik əlyazmalarım,
Ölməz şeriyyətlə gəlirəm, Bakım!

Arxada qoyuruq ildırımları,
Dibi qan dənizi sıldırımları.
Loğmansan, yaramı gəl özün sarı,
Ümüdlə, riqqətlə gəlirəm, Bakım!

Səndə yüz bənövşəm, min nərgizim var,
Dərdini həbs etmiş Firəngizim var.

Qarşıda ən böyük mübarizəm var
Qiyam, qiyamətə gəlirəm, Bakım!

Dustaq qatarımız xumar mürgülü,
İşıqsız pəncərə dəmir hörgülü.
Nə çölü görürsən, nə də bir gülü,
Gör hansı qismətlə gəlirəm, Bakım!

Dizimin altına alıb kədəri,
Çəkmişəm belimə polad kəməri.
Bütün cəbhələrin ilk səfərbəri
Oğlunam, qeyrətlə gəlirəm, Bakım!

Hanı başı batmış baş girləyənlər?
Mərdlərin yoluna daş gilləyənlər,
Qansın məhəbbəti güllələyənlər:
Ölməz məhəbbətlə gəlirəm, Bakım!

Xalqın şərəfini tapdalayanlar,
Kişi igidləri nə zaman anlar?
Özünü boğacaq tökdüyü qanlar,
Qansıza nifrətlə gəlirəm, Bakım!

Bir ömür yaşadıq, ömür qutuda,
Qaranlıq guşədə, dəmir qutuda.
Saymadıq, alsaq da əmr qutuda,
Sanma itaətlə gəlirəm, Bakım!

Sağımda, solumda məsləkdaşlarım,
Fikir qardaşlarım, qan qardaşlarım.
Yerin, göyün fəxri arkadaşlarım
Gör hansı sərvətlə gəlirəm, Bakım!

Zülmət vaqonlarda işıq seliyik,
Haqqın görən üzü, vuran əliyik,
Bu Yer kürəsinin Çənlibeliyik,
Rövşənəm, cürətlə gəlirəm, Bakım!

Məmmədli Etibar – Göyçə balası,
Ana Türküstanın döyüş qalası.
Saraldıb üzünü həsrət laləsi,
Acı bir hikmətlə gəlirəm, Bakım!

Əfruzu, Orxanı yol gözləməkdə,
Biri pərvazlanıb, biri bələkdə.
Zemfira bacımız başqa bir cəngdə,
Haqq cəngə  hörmətlə gəlirəm, Bakım!

Seyr et çal papaqlı Rəhim Qazını,
Göyərtmək istədi Vətən yazını.
Tanklar basdı keçdi sədəf sazını
Qanlı bir xətt ilə gəlirəm, Bakım!

Hayqır, ey qatarım Vətənə sarı,
Dar həlqədən düşür gün şüaları.
Sənsən pənahımız ey ulu Tanrı,
Haqqa ibadətlə gəlirəm, Bakım!

Məhəmməd Hatəmı Tantəkin qardaş,
Sərraf gözlərində nə qəm, nə təlaş.
Vulkan nəfəsindən əriyir dağ, daş,
Qıy vur, ləyaqətlə gəlirəm Bakım!

Seyid Tahir Abbas Qarabağlı ər,
Hüsnündən nur alır ağappaq səhər.
Utansın uzündən yada nökərlər
Tutiya, türbətlə gəlirəm, Bakım!

Məmməd Əlizadə nərildəyən nər,
Hətta zindan içrə daim səfərbər.
Bütün çovğunlara dağ köksünü gər,
Əl-ələ, ülfətlə gəlirəm Bakım!

Başımız üstündə yırtıcı köpək,
Əlində dəyənək, çiynində tüfəng
Hamısı gözümdə bir toz, ya püfək.
Belə bir qismətlə gəlirəm, Bakım!

Bir qılınc ucudur hər kirpik ucu
Kiçik köksümüzdə min azman gücü.
Səni yeddi ərşə tanıtmaq üçün
Bizim planetlə gəlirəm, Bakım!

Yüz yerdən dağılar müstəmləkələr,
Günəş vətənimin üstə ləkələr.
Çəkilsin başımdan qara kölgələr,
Əl ver, qətyyətlə gəlirəm, Bakım!

Qanlı xiyabanda, dağ üstündəki
Məzarlar qızarır laləzar təki.
Uyusun ruhları, dincəlsin təki.
Qürurlu bir dərd1ə gəlirəm, Bakım!

Yubanma yollarda, şığı ey qatar,
Vətəndir nəbzimdə, varlığımdakı.
Yolda yük daşıyan qarışqana da
Qıymaram, şəfqətlə gəlirəm, Bakım!

Şahiddir sözümə dostum Hatəmi,
Boğub yüz kədəri, min-min matəmi,
Şadam, cəhənnəmi söndurmüş kimi,
Sən ki yaxındasan, gülürəm, Bakım!

Bizimdir son zəfər, əmin ol, əmin,
Uça tut başını, ərisin qəmin.
Uğrunda can qoydu MƏHƏMMƏD ƏMİN!
Bütün kainatın, bütün aləmin
Azadlıq taxtısan, bilirəm, Bakım!

Düşmən çəkdisə də şişə ətimi,
Sındıra bilmədi fil qüvvətimi.
Mavi Xəzər boyda səadətimi
Sahildə səninlə bölürəm, Bakım!

Gözəldir yarımın tikdiyi tikmə,
Yoxdur zaval mənə, dərdimi çəkmə.
Bir gün bada getsəm, göz yaşı tökmə,
Ölərsəm, uğrunda ölərəm, Bakım!

**Moskva - Voronej yatab qatarı,**
***5 oktyabr 1990.***

# BİRİNCİ GÜN, 8 OKTYABR 1990, MOSKVA - BAKI YOLLARI.

Bütün məşəqqətlərə baxmayaraq varlığımızı bürümüş səadət duyğusunu öldürmək mümkün deyil. Ən böyük səadətimiz budur ki, qatarın təkərləri şaqqıldayır və bizi Vətənə doğru aparır. Möhkəm qıfıllanmış vaqon-hücrələrdəyik. Qatarımız elə bil kainatı bürümüş qırmızı zülməti, qırmızı qaranlığı doğrayan, parçalayan, darmadağın edən ağ bir ildırımdır. Qırmızı imperiya zülmətlərini yara-yara gedirik. Mən Etibarla eyni hücrədəyəm. O biri arkadaşların da yaxınlıqda, lap qonşuluqda olduğunu hiss etdiyim üçün məmnunam. Saqqalının ağı qarasına qarışmış Məhəmməd Hatəmi Tantəkin də burdadır, hərdən hayqırışı ilə yeri-göyu silkələyən, "Allahü Əkbər'!" deyə üsyan saçan, xaçpərəst keşikçilərin bağrını yaran qarasaqqal, gənc üləma Seyid Tahir Qarabaği də! Özünü təmkinli, mərd aparan Məmməd Əlizadə də, səsi gəlməyən Rəhim Qazi də.

Qatar od və buxar fısqıra-fısqıra tövşüyür, yavaşıyır, bəlkə dayanmaq istəyir. Hardayıq görəsən? Rostovda. Rostov bizi sərt qarşılayır. Bizi qıfıllarını açdıqları vaqon-qəfəslərdən çıxaran poqonlular maşın qəfəslərə yükləyirlər. Əllərində tox, sağlam köpəklərin zənciri. Özümüzü və əşyalarımızı köpəklərə uzaqdan iylətdirirlər ki, qaçmağa imkan qalmasın. Xaraba SSRİ-nin dürlü qütblərindən toplanan, Azərbaycana göndərilən dustaqlar da bizim-lədirlər. Sayı-hesabı bilinmir. Aman Tanrı, görəsən bu qədər dustağı hansı əzəmətli dustaqxana tuta bilər?

Maşınlarda, dəmir qutular içindəyik. Dəmir qutu o qədər dardı ki, Etibar dizlərim üstündə əyləşməli olur. Məndən fərqli olaraq Etibar gözcükdən baxmaq imkanına malikdir.

Maşın, sanki al qırmızı qana boyanmış əzəmətli dəmir maşın irəliləyir... Rostov şəhəri bəlkə də gözəldir. Lakin bu dan üzü o, bizim qarşımıza ucu-bucağı görünməyən, nəhəng dustaqxana şəklində çıxır. Elə bil ağzını 180 dərəcə açmış heybətli bir əjdahanın mədəsinə doğru irəliləyirik. Maşınlar dayanır.

– Enin!

Enirik. Qorxub çəkindiyim yalnız tox, sağlam zəncirli köpəklərdir, ləhləyən köpəklərin ağızlarından görünən uzun dilləridir.

Keçib getdik. Əjdahanın mədəsindəyik. Avtomatlı, dəyənəkli tox əsgərlər burada bircə himə bənddirlər ki, bizi əzişdirsinlər. Hara gəldiyimizi ömürlük yadda saxlayaq. Lakin sənədlərimizi gözdən keçirən arıq leytenant dəyənəklilərə "YOX!" işarəsi verir, yəqin ki, siyasi dustaq olduğumuzu işarə ilə başa salır. Döymək olmaz.

Arıq leytenantın işarəsilə girəcəyi keçəndən sonra bizi sağa doğru aparır, daş kisəyə salırlar. Günlər, aylar, həftələr gəlib keçəcək, lakin bu məqam heç vaxt unudulmayacaq!

Susuzluq, havasızlıq. Tualetsizlik. Oturmağa bircə kətil də yoxdur. Daş borunun, daş quyunun əvvəli var, axırı görünmür, Dan üzü saat 4-dən gündüz saat 13-dək bağırıırqsa da, heç nə əldə edə bilmirik. Etibar yəqin ki, Lefortovo zindanından götürdüyü dəmir birəlli ilə cəftəsiz qapını hey döyəcləyir. Yalnız bircə dəfə qapı aralanır və kə-

məri qırmızı ulduzlu keşikçinin buz gözləri, daş sifəti görünür:

– Nə istəyirsən?

– Su! Yoldaşım diabet xəstəsidir. Su!

– Пусть сдохнет! (Qoy gəbərsin!)

Qapı üzümüzə çırpılır. Sanki əbədilik qapanır. Daş kisənin seyrinə dalıram, hardasa çatdağı var. Hardasa şüaya bənzər bir işıq titrəyir. Ya bəlkə yalnız mənə belə gəlir. Bəlkə heç bir çatdaq, heç bir şüa yoxdur, sərabdır bunlar.

Etibar inadından dönmür, dəmir birəlli ilə cəftəsiz qapını döyməkdə davam edir Mən susuzluqdan güclə nəfəs alıram. Alnımda tər muncuqlanıb. Çöməlib yerdə otururam. Sement döşəmə buz kimidir. Tezliklə ayağa qalxmağa məcbur oluram. Yalnız saat 13 dolaylarında qapı açılır. Kəməri qırmızı ulduzlu keşikçi bizi hara aparır? Hamama! Bu, səadətdir. Tilət sabunla hamamlanırıq. Keşikçi bizi 25 saylı mağaraya gətirir. Aman Tanrı, bu kamera nə gündədir. çəkilmiş papiros kötükləri, yeyilmiş kolbasa qabığı, yandırılmış qəzetlərin külu və qalıqları, zibil dizə çıxıb. Divarlarda dürlü yazılar, dürlü imzalar. Ürəyimdən bir misra keçir:

– Heç kəsə təslim etmə öz gözəllik duyğunu!

Qərara gəlirəm ki, təmizlik yaradım. Bəlkə burada bir neçə gün qalmalı olduq. Yaxşı ki, zibildaşıyan kəmər işləyir. Yaxşı ki, süpürgəyə bənzər bir şey də var. Çarpayılar üst-üstə qoyulub. Burada bütöv bir qvardiya yerləşə bilər. İşimin şıdırğı məqamında qapı açılır. İçəri girən çilingərlər dəmir barmaqlığın üstündən yeni bir barmaqlıq taxırlar. Oldu ikiqat. Guya birincini dartıb qıra bilərikmiş,

Pəncərədən səs gəlir – Məmməd Əlizadənin səsidir:

– Xəlil bəy, məni eşidirsənmi?

– Eşidirəm.

– Burda bir yerlimiz var. Qazax əhli Yaşar Fəxrəddin oğlu Cəfərli. Umur ki, ona şer qoşasan.

– Hünər dağlarını aşar Fəxrəddin,
Yaşa, Vətən oğlu, Yaşar Fəxrəddin!

... Pəncərədən səs gəlir. Saqqalının ağı, qarası bir-birinə şölə verən Məhəmməd Hatəmi Tantəkinin səsidir:

– Xəlil bəy, kameradaşımız Şahin bəy umur ki, onu yaddan çıxarmayasan. İçərişəhərli surücüdür. Altı il iş alıb. Dörd ilini çəkib.

– Sən əzad doğuldun azad anadan
Adın da Şahindir, özün da Şahin.
İldırım çıxaçaq dustaqxanadan,
Külə döndərəcək düşməni ahın.
Kişini tanıdır əzmi, qeyrəti,
Döz ki, qarşıdadır sənin sabahın.
Sarsılmaz oğlusan Azərbaycanın,
İçərişəhərli ey əziz Şahin!

Yadındamı, Etibar, o günümüz necə tamamlandı. Mən kameranı elə silib süpürdüm ki, tamaşasına iki göz gərəkdi. Bircə qızılgülü əskikdi ki, güldana qoyub sevgilin azadlığı qarşılayasan. Əllərimi isti su ilə yuyub qurulayandan sonra yatmağa pəncərə ağzını, çarpayının ikinci qatını seçdim. Cibimdən bir ovuc qoz ləpəsi və bir limon çıxarıb sənə uzatdım:

– Ləpəni ye! Limonu sümür!

Özüm də eləcə. Qoz ləpəsinin son dənələrini ağzıma atıb, əlimdəki son limonu sümürməyə başlamışdım ki, avtomatlılar qapımızı yenidən şaqqıldatdılar:

– Встанте! К поездам!

Qalxdıq. İki saatdan bəri çəkdiyim zəhmət hədər getdi.

Bəlkə yanlış dedim, 25 sanlı tərtəmiz kamera bizdən Rostov dustaqxanasına yadigar qaldı.

...Yenə dili ağzından bir qarış çıxmış ləhləyən zəncirli köpəklər! Yenə qırmızı imperiya qaranlıqlarını yara-yara irəliləyən, kömür yeyib od gəvələyən qatarımız. Qatarımız Bakıya doğru qanadlanır. Bundan böyuk səadət olarmı? Atan Salidar kişi, qardaşın Eldar, bacın Dilşad xanım, balan Orxan... əzizlərin, doğmaların orda sənin yo-lunu gözləyirlər.

...Qıfıllı vaqon-qəfəsdəyik.

– Süngü ilə qorunmaq olar. Amma süngü üstündə oturmaq olmaz. Bunca uzun çəkən fövqəladə vəziyyətin təşkilatçıları süngü üstündə oturanlardır, – deyirsən. – Gürcü xadimləri istefa verməklə hərbi vəziyyəti aradan götürdülər. Bizimkilər hələ də quyruq bulayırlar.

Vaxtilə Əli Kərim yazardı: "Düz üç gün, üç gecə qulaqlarıma Moskva, Moskva dedi təkərlər". Bizimki əksinədir. Qatarın təkərləri "Bakı! Bakı!" – deyə şaqqıldayır.

# II HİSSƏ*

# DOĞRANSAM DA QIYMA-QIYMA, TİKƏ-TİKƏ, RİZƏ-RİZƏ MƏRAMIMDIR MÜBARİZƏ

Bütün əlavələr şairin həyat yoldaşı Firəngiz xanım Ulutürkə məxsusdur - Red.



# 1990, 26 YANVAR

Şəhidlərin yeddisi günündə Xəlil qəbr üstündə nitq söyləyərkən, kimsə ona yaxınlaşıb deyir ki, Xəlil müəllim, tuta-tut başlanıb, bəlkə aradan çıxasınız...

Xeyli vaxt keçir, Xəlilim gəlmir. Narahatçılıqdan otura bilmirəm, tez-tez həyətə boylanıram. Heyhat! Gecə saat 12-də Mikayıl Mirzə bizə gəlib mənə xəbər verdi ki, Xəlil DTK-dadır. Səhərə kimi gözümü qırpmadım. Səhər tezdən DTK sədrinin yanına getdim, məni qəbul etmədi. Növbətçi otağında oldum. O da dedi ki, bizdə belə adam yoxdur. Onda mən DTK sədrinə, MK-nın birinci katibinə, Bakı şəhəri xüsusi rayonunun hərbi komendantına aramsız teleqramlar vurdum, ərimin harada olduğunu soruşdum. Bir neçə sənədi oxuculara təqdim edirəm.

**Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri V.Hüseynov yoldaşa, Bakı şəhəri, 14-cü Aşırım, 11/15 nömrəlievin 87-ci mənzilində yaşayan Xəlilova Firəngiz Böyükağa qızından**

## ƏRİZƏ

Dünən, yəni, yanvarın 26-da saat 17-15 radələrində mənim həyat yoldaşım Xəlilov Xəlil Rza oğlu 5№li şəhər xəstəxanasının qabağında naməlum şəxslər tərəfindən yaxalanıb. "RAF" - mikroavtobusda sizin rəhbərlik etdiyiniz idarənin binasına gətirilib. Bu barədə ailəmizə məlumat verilməyib. Yanvarın 27-də ailə üzvlərimizdən biri Sizin

idarəyə getmiş, lakin oradan bu barədə heç bir məlumat ala bilməmişdir.

Yuxarıdakıları nəzərə alaraq, Sizə müraciət edirəm. Xahiş edirəm ərimin taleyi barədə bizə təcili məlumat verəsiniz.

***Ümidlə, Firəngiz Xəlilova***
***27.01.1990***

***Azərbaycan KP MK-nın birinci katibi Ayaz Mütəllibov yoldaşa Bakı şəhəri, 14-cü Aşırım, 11/15 №li evin 87-ci mənzilinin sakini Xəlilova Firəngiz Böyükağa qızından***

## ƏRİZƏ

Məlum edirəm ki, 26 yanvar 1990-cı ildə saat 17-15 çağlarında mənim həyat yoldaşım şair Xəlil Rza (Xəlilov Xəlil Rza oğlu) Montin qəsəbəsi rayonunda, 5№li şəhər xəstəxanasının qabağındakı sfetaforun önündə dayanarkən mülki paltarlı şəxslər onun oturduğu "Jiquli" maşınına qəflətən həmlə edib, qollarını buraraq "RAF" markalı maşına basıblar. Maşında onu üzü üstə yıxıb, gicgahına tapança dirəyiblər. Bu vəziyyətdə onu və ondan başqa iki nəfəri DTK-ya aparıblar.

Dövlət orqanları onun tutulması barədə ailəsinə heç bir məlumat verməmişdir.

İki gün ərzində həyat yoldaşımı axtarışlar heç bir nəticə verməmişdir. Dönə-dönə Dövlət Təhlükəsizlik Komsitəsinə, Nərimanov rayon Hərbi Komendantlığına, Nərimanov

rayon DİŞ-nə müraciət etmişəm. Heç kim onun barəsində məlumat vermir. DTK isə barəsində heç nə bilmədiyini deyir. İşin bu vəziyyəti məni olduqca narahat edir, mən həyat yoldaşımın taleyindən çox nigaranam.

Xəlil Rza böyük hümanistdir, 30 kitabın müəllifidir. SSRİ və dünya xalqlarının 300-dən çox şairin əsərlərini Azərbaycan dilinə tərcümə edib ("Qardaşlıq çələngi", "Dünyaya pəncərə", Musa Cəlilin "Moabit dəftəri", Selvinskinin "Babək" pyesi və s.). Filologiya elmləri doktoru, Azərbaycan SSR-in əməkdar incəsənət xadimidir. SSRİ Yazıçılar İttifaqının, Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin üzvüdür. Şair Xəlil Rza ictimai xadimdir. Xalqların dostluğu və qardaşlığı uğrunda ardıcıl mübarizdir. Bundan əlavə o,  ağır xəstədir. 1979-cu ildə xroniki şəhər diabeti diaqnozu ilə disponser uçotundadır. Həmişə pəhrizdədir. O, hər gün dərman qəbul edir, mən onun üstünə atılan hər hansı böhtanın əleyhinəyəm. Həyat yoldaşımın saf olduğuna inanıram. Ərimin istintaqsız, qərarsız, hökmsüz tutulmasına qəti etirazımı bildirirəm. Bu insan hüququnun kobudcasına pozulmasının bariz nümunəsidir.

Sizdən artıq dərəcədə xahiş edirəm, qəlbimin fəryadını eşidəsiniz, həyat yoldaşım Xəlil Rzanın tapılmasına və azad olunmasına kömək edəsiniz.

Ümidlə, Firəngiz Böyükağa qızı Xəlilova .

***Коменданту Особого района гор. Баку генерал-лейтенанту тов. Дубиняку от. Гражданки Халиловой Ф.Б. проживающей в гор. Баку, по ул. 14-ая Перевальная, дом № 11/15, кв. 87.***

## ЗАЯВЛЕНИЕ

Мой муж Халилов Халил Рза оглы, 26-го января 1990 г., примерно в 17:15 часов районе 5-ой городской больницы был задержан неизвестными людьми и на микроавтобусе "РАФ" был доставлен в здание КГБ республики (на проспекте Нариманова). Об этом наша семья не была уведомлена.

27 января 1990 г. один из членов нашей семьи обратился в КГБ республики с просьбой предоставить информацию об этом инциденте. Однако по заявлению работников комендатуры у них об этом сведений не имеется.

Обращаюсь к Вам с просьбой сообщить нам о месте нахождения моего мужа.

***С уважением, Халилова Фирангиз.***
***27.01.90 г.***

Lakin Xəlilimdən xəbər verən yox idi, onu elə həmin gecə təyyarəyə mindirib, Moskvanın Lefortovo zindanına aparmışdılar. Ümid Moskvaya qalırdı. Onda teleqramları birbaşa Moskvaya, SSRİ prokurorluğuna və DTK-ya vurmalı oldum.

## ТЕЛЕГРАММА ГЕНЕРАЛЬНОМУ ПРОКУРОРУ СССР СУХАРЕВУ А.Я.

## ПРЕДСЕДАТЕЛЬЮ КГБ СССР КРЮЧКОВУ В.А.

Мой муж, поэт Халил Рза после январских событий в Баку на улице был арестован КГБ, препровожден в Москву. Обращения обществ, союзов, организаций, коллег, неформалов республики в высокие инстанции центра остались без ответа. 5 месяцев нахожусь в полнейшем неведении о судьбе мужа.

Убедительно прошу известись о положении дел. Он тяжело болен диабетом, нуждается в уходе.

*С уважением, Халилова Ф.Б.*

Lakin susurdular... Dəli kimi olmuşdum. Günlərim ağlamaqla keçirdi. Evimiz qohumlarla dolub-boşalırdı. Mən yəqin bilmirdim ki, Xəlil Moskvanın, yoxsa ölkənin başqa həbsxanalarındadır. Çünki şəhərdə geniş miqyasda repressiya gedirdi. Dustaqların bir qismini Saratova, Sevastopola, Krasnodara və s. yerlərə göndərirdilər. Mən baldızımın əri doktor Elxanla dəfələrlə DTK binasının həndəvərində fırlanırdıq ki, bəlkə Xəlildən bir xəbər alaq. Gördüm deyən yox idi.

Evlərə basqın edib talan edirdilər, qorxudan yatmırdım. Xəlilin gündəlikləri üçün narahat idim. Ona görə də gündəlikləri qohumlarımızdan Xırdalanda yaşayan Lelüfər xanımın evinə aparıb yığdım. Bütün bunları təkbaşına edirdim ki, uşaqlar xəbər tutmasınlar. Birdən ağızlarından qa-

çırarlar. Yaxın qohumumuza dedim ki, gecə saat 2-də gəl ki, qonşularımız da görməsinlər. Bu ağır yükləri döşək üzlərinə yığıb liftlə aşağı endirdik və Xırdalana getdik. Gündəlikləri orada yerləşdirib, evə qayıtdım. Ürəyim hər an narahat idi ki, görən nə vaxt gələcəklər? Ürəyimdən keçənləri heç kəslə bölüşə bilmirdim, ehtiyat edirdim.

Bu ağır günlərdə Nərimanla şəhərdə görüşdüm. O, mənə təsəlli verməyə çalışsa da, özü əsəbiydi. David Kuqultinova məktub yazmışdı, xahiş edirdi ki, Xəlilin buraxılmasını Qorbaçovdan xahiş etsin. Mənə deyirdi ki, Qaysın Quliyev sağ olsaydı, dadımıza çatardı. David Kuqultinov Nərimanla, Xəlillə bir kursda oxusa da, bu məsələyə əhəmiyyət verməmişdi, yəqin, ehtiyat edirdi. Sonra Nəriman Xəlilin həbs olunması münasibətilə yazdığı «Ana Kürün nəğməsi» şerini çap etdirdi. Həmin günlərdə yazılan ilk şer idi, mənə böyük təsəlli, mənəvi köməklik idi. Nəriman ürək-dirək verib deyirdi ki, Firəngiz, sən mərd qadınsan, qəhrəman şairimizin ömür-gün yoldaşısan, möhkəm dayan, dost-düşmən var. Vətən sənə borcludur. Nəriman bir vaxt həyat yoldaşını, rəfiqəm Saranı itirmişdi, tək qalmışdı. Xəlil də, mən də həmişə ona təsəlli verərdik. İndi isə o mənə təsəlli verirdi. Doluxsunna-doluxsuna bildirirdi ki, bu şeri sənə ithaf etmişəm. Xəlil səni çox sevir. Qoy görsün ki, aslanın erkəyi-dişisi yoxdur.

## ANA KÜRÜN NƏĞMƏSİ

*Firəngiz xanıma*

Sən yatdığın gündən bəri,
Növbədə biz dayanmışıq,
səndən bəri.
Nizamisi, Nəsimisi olan bir xalq,
Yaşayacaq, Xəlil Rza,
yaşayacaq!
Bircə şeydən -
xəbərsizdi keşik çəkən, -
dustağa yox,
bir şairə keşik çəkir,
bilmir qəddar,
bu adətkar!
itaətkar!
Qələm - indi təhlükəli,
süngü - zəlil! -
qələbədi məncə, Xəlil.
Şerimizin bir qatısan dilimizdə
bayatısan,
Ana Kürün nəğməsisən, Xəlil Rza!
Şəhidlərin gur səsisən, Xəlil Rza!
Dustaqxana dibçəyində çiçək açır
şairlərin qorxulusu
və Ulusu!
Nazim Hikmət,
Musa Cəlil,
Şair Xəlil!

Xəlil Rza görür ki, onun harada olduğunu heç kəs bilmir. Onda belə qərara gəlir ki, televiziya ilə çıxış etsin. Fevralın ortalarında Xəlil televiziyanın nümayəndəsi jurnalist Kotovu dəvət edir, o da Xəlildən intervü götürür. Axşam bacılarım mənə zəng vururlar ki, ay qız, Xəlili göstər-

dilər, bir saatdan sonra Moskvadan çıxış edəcək. Xəlili ekranda görəndə elə bildim dünyanı mənə verdilər. Nigarançılığım bir az səngidi. Sifətdən pis görünmürdü. Lakin Xəlilin çıxışı bir çoxlarını narazı salmışdı ki, Xəlil nə üçün Silvaya xanım deyib.

Böyük bir millətin oğlu olub, İttifaq, dünya qarşısında çıxış edən Xəlil onu necə adlandıra bilərdi. O, qadın haqqında danışırdı. Nə cür nəzakətsizlik edə bilərdi? Hər bir davranış millətin səviyyəsini göstərmirmi? Düşmənə qələbə çalmaq üçün ağıl və fərasət lazım idi. Bunu bir çoxları dərk etmək istəmirdi. Bəla burasında idi ki, bunu aşağı kütlə desəydi, o qədər də narahat olmazdım. Ziyalılardan bir neçəsi belə deyəndə təəccüb qalırdım onların ziyasına… Beləliklə, Xəlilsevərlər onun harada olduğundan xəbər tutdular...

Bacım Rəna əri ilə Moskvaya növbəti müalicəyə gedəndə mənə dedi ki, özüm gedib Moskvada DTK-dan hər şeyi dəqiq öyrənəcəyəm. Fevralın 18-də bacım Rəna və həyat yoldaşı  Əli bəy Moskvada DTK-dan öyrənirlər ki, Xəlil oradadır. O, mənə zəng edəndə həm ağladım, həm də sevindim ki, heç olmasa yerini bildim. Bacım məktub yazıb Xəlilə 5 kq həcmində soğan, sarımsaq, yağ-pendir, çörək, alma, ləpə verir və kamendaturaya 100 manat pul köçürür ki, sabun, diş pastası, papiros almağa pulu olsun. Və mənə dedi ki, Xəlilə 5 kq həcmində yemək gətirmək üçün hər ayın 4-də Moskvaya gəlmək lazımdır.

# 1990, FEVRAL

Xəlil həbs edildikdən sonra Bakıda döymədiyim qapılar, redaksiyalar qalmadı. S.Rüstəmxanlı ilə görüşdüm. Xahiş etdim ki, öz qəzetində Xəlilin şeirlərini versin. Yazıçılar Birliyinə müraciət etdim. SSRİ Yazıçılar Birliyinə məktub yazılsın ki, mitinq vaxtı Azərbaycan şairi Xəlil Rzanı SSRİ DTK-nın əməkdaşları maşına basıb Moskvaya aparmışlar. Yazıçılar Birliyi, başda Hümmət Süleymanlı, xalq yazıçısı İsmayıl Şıxlı, xalq yazıçısı Əzizə Cəfərzadə, şair Ramiz Duyğun olmaqla mətni hazırladılar, bütün yazıçılar ona qol çəkdilər. Bu müraciətnaməni SSRİ Yazıçılar Birliyinə özüm aparacağımı bildirdim. Çünki Bakıdan göndərilən məktubların çox hissəsini yerlərə çatdırmırdılar. Mühafizəkar qüvvələr hər yerdə vardılar, maneə yaradırdılar. Mən müraciətnaməni alıb qaynım Rüstəmlə Moskvaya yola düşdüm. SSRİ Yazıçılar Birliyinə getdik. Orada sıravi bir yazıçı (adı yadımda deyildi) bizə kömək etdi. Müraciətnamənin üzünü çıxarıb milli respublikalara göndərdi. O zaman SSRİ-də sessiya gedirdi. Qaynım ətrafda qoyulan poçta bir neçəsini atdı ki, bəlkə deputatların əlinə keçə. Əlbəttə, az da olsa, xeyri olmuşdu. Qəzet və jurnallarda daha çox əks-səda tapmışdı.

Çoxları deyirdi ki, belə işlərə SSRİ prokurorluğu baxır. Ona görə də biz qarışa bilmərik.

Aylarla teleqram və məktublar yazıb DTK sədri Kryuçkovdan görüş istədim. Lakin bu, gec başa gəldi.

## 1990, MOSKVA

### KRYUÇKOV VƏ TİTOV İLƏ GÖRÜŞDÜM

Neçə günlük teleqram və məktublardan sonra SSRİ DTK-nin sədri ilə görüşə bildim. Qapıdan içəri girincə o dünyaya gedib-gəldim. Aman Allah, qorxu nə yaman pis şeymiş. Ancaq, hər halda məhəbbət qalib gəlir.

Ərim Xəlil Rza neçə vaxtdır Lefortovo zindanında yatır. Onu 67-ci maddə ilə guya milli ədavəti qızışdırdığına görə cəzalandırmısınız. Onu bu maddə ilə cəzalandırmaq ədalətsizlikdir. Əlimdə gətirdiyim tərcümələr kitabını bir-bir stolun üstünə qoydum. Bunlar hamısı rus şairlərindən edilmiş tərcümələrdir. Eyni zamanda, Xəlil Rza bütün dünya xalqlarının ən gözəl nümayəndələrini Azərbaycan dilinə tərcümə etməklə məşğul olmuş və millli mədəniyyətlərin yaxınlaşmasına çalışmışdır. Bu maddə ona yabançıdır.

Söylədim ki, erməni oğru  kimi evimizə girib bizi talan edir,  uşağımızı öldürür, durub baxmalıyıqmı? Onu qovmaq azdır, çünki o, buna dadanıb, başqa evləri də talan edə bilər. Onu cəzalandırmaq lazımdır. Mənim ərim də belə hərəkət edib, xalqa bildirib ki, qocalara, qadınlara, uşaqlara toxunmayın. Çıxarın, paroma mindirin, qoy öz yerlərinə salamat getsinlər.

Kryuçkov qəzəblə əlini stola çırpıb dedi: - Bu cür danışığa görə səni də ərinin yanına salaram. Mən halımı pozmadan gülümsünüb dedim: – Bu bizim şənlənməyimizə səbəb olar, bir az qəmi azaldar. Ürəyimdə qorxsam da, üzə vur-

murdım. Lefortovo zindanında illərlə alimlər, rəssamlar, siyasətçilər çürüyüb, heç izləri də tapılmayıb. Bunlardan hər şey gözləmək olar…

O davam edərək: - Sənin ərin meydanlarda mitinqlər keçirərək, ayrı-seçkilik salıb, milli ədavəti qızışdıraraq, erməniləri şəhərdən çıxarmağa çağırıb.

– Cənab Kryuçkov, mənim ərim əksinə milli ədavətin qızışmaması üçün qocaları, gəlinləri şəhərdən çıxarıb ki, onlara zaval dəyməsin. Ölkədə sakitlik yaranandan sonra qayıda bilərlər.

– Saysız-hesabsız teleqramlar, insan hüquqlarını imzalayan kitablar da onun cəzasız qalmasına kömək edə bilməz. Biz onun işində cinayət tərkibi olmasını yoxlayacağıq. Ölkədə olan vəziyyəti öyrənəcəyik, hələ baxarıq.

Sədrin quru səsi, soyuq, şüşə kimi gözləri, biganəliyi məni məhv edirdi. Çox süst, qolu-qanadı sınmış kimi qonaq evinə gedirdim. Yol boyu onun sərt sözləri məni rahat buraxmırdı. Şükürlər edirdim ki, məni azad buraxdı. Çünki bu biganə insanlardan nə desən gözləmək olardı. Bu görüş haqqında heç vaxt Xəlilə danışmadım. Bir vaxt dissertasiyamın elmi rəhbərimə oxudulmasına razı olmayan Xəlil mənim SSRİ DTK-ya getməyimə necə razı ola bilərdi. Mən vicdanımın səsini eşidib, Xəlili qurtarmaq üçün yollar axtarırdım. 2 milyondan artıq insan, hətta rus, gürcü, özbək, türkmən yazarları belə onun azadlığını tələb edirdi. Kryuçkov mənim sözlərimə məhəl qoymurdu. Ağır düşüncələrlə Moskvanın Azərbaycan nümayəndəliyi deyilən iqamətgahına qayıtdım. Qalmağa yerim də yox idi. Burada hansı iş üçünsə gəlmiş mərhum jurnalist Alı Mustafayevə rast gəldim, vəziyyəti danışdım. Yerim olmadığı üçün o, mənə öz yerini verib, qonşu otaqda qaldı. Üç gün, geri qayıdana qədər mən bu

qeyrətli vətən oğlunun mənzilində qalmalı oldum.

Allah ona rəhmət etsin, övladları xoşbəxt olsun. O vaxt mən onu tanımamışdım. Dərdlərim o qədər böyük idi ki, ancaq öz dünyamla məşğul idim.

Sabah Xəlillə görüşə gedəcəkdim. Onda Alı Mustafayev mənə yanaşdı və dedi: – Xəlil müəllimə salam söyləyin. Biz Bakıdan gələn yoldaşlar Etibar Məmmədovun günahsız olduğunu sübut etmək üçün buraya gəlmişik. Sabah küçələrə çıxacağıq. Mitinq edəcəyik.

«Post Predstava»nın qabağında bir çadır qurulmuşdu. Moskvada olan azərbaycanlı tələbələr də bura yığışacaqdılar. Mən Xəlillə necə görüşəcəyimi fikirləşirdim.

## 1990, FEVRAL, MOSKVA

Xalqın müstəqilliyini, azadlığını hər şeydən üstün tutan Xəlil barmaqlıq arxasına atılmışdı… Heç yeri tanımadığım üçün vağzalda gecələdik. Xalam oğlunun şəhər kənarında evi vardı. Səhər ona zəng etdim, gəlib bizi evinə apardı. 1990-cı il fevralın 28-də Moskvaya, Lefortovo zindanına gələndə həbsxananın pəncərəsindən mənə uzadılan bu kiçik məktub Xəlilin ilk xahişi idi.

Здравствуй, моя дорогая и единственная Фирангиз!

Пошли мне, пожалуйста, 5 кг фруктов и овощей. Сюда входит:

500 q çesnoka
500 q masla
500 q sıra
1 kq xleba
200 q peçenğə
750 q əblok
500 q apelğsinov
500 q limonov
Söda vxodit takje poüeluy.

***Твой Халил***

Bu kiçik diləkçəyə ayrı bir söz yazmağa icazə vermirdilər. Görüş martın 4-də olacaqdı. Martın 2-də mənə ünvanladığı məktubda Xəlil yazırdı:

## *Здравствуй, Фирангиз - Счастье мое! Здравствуй, моя 18-летняя!*

Мы с Тобой, знаешь, самые счастливые супруги на свете. Слышешь меня, самые!

Я Халил Рза Улутурк, величайший поэт второго нашего тысячелетия и всех времен и всей планеты обнимаю и целую Тебя крепко и поздравляю с нашей любимой, новорожденной внучкой. Мой следователь Александр Георгиевич Губинский тонко изучает мое дело. Надеюсь на ближайшую встречу. Здесь я переживаю самый высший этап своего творчества. Написал более 60 стихов, поэм, баллад, песен. Как наши родственники, друзья: Табриз, Севиндж, Рза, Гюльтач, Микаил Мирза, Рамиз Дуйгун, Зейнал, Рафиг, Атакиши, Низами, Рена, Алибек, Габил, Рустам Рза, Тофиг Рза, Фархад Рза, Мухаммед Рза, Арифа Рза, Улдуз Рза, Беюкханым Рза, Айдын, Эльхан, Конул Зейналлы, Асмар, Айнур, Сима ханум, Тахмасиб, Гюльниса халам, Низами, Фаик, Гуммет Сулейманлы, соратники по перу: устад Исмаил Шыхлы, Иса Гусейн Муганна, Анар, Зульфигар Шахсевенли, Идаят, Касум Касумзаде, Яшар Кара, Сабир Рустамханлы, Байрам Байрамов, Мюршуд Мамедли, Сабир Алисой, Нариман Гасанзаде, Шамил Аскер, Шахмар Акберзаде, Ашреф Шафи, молодой поэт Алисамид, Фирудин Шимшек, Тофиг Керим, Мастан Гюнер, Тофик Байрам, Сохраб Тахир, Мамед Араз, Забил Первиз, Бахтияр Вагаб, Барат Вусал?.. Разве я в силах всех перечислить и всех обнять:

Слышал я мужественный голос Мирза Хазара из ра-

диостанции "Азадлыг" (Свобода). Спасибо ему. Передайте, что обнимаю и целую нашего любимого Мирза Хазара, великого защитника нашей свободы и независимости. Внутренно озаренный Мехти Мамедли передаст, думаю, мою книгу ему. Спасибо Алибале, который принес мне первую почту. Работаю над книгой "Тюрма". Там самые лучшие стихи - жемчужины посвящены Тебе. Тут я окружен заботами врачей и медицинских сестер. Трещин на ступнях больше нет. Давление от диабета падает. Тут чистота и порядок. Чувствую себя долгосрочной творческой командировке. Кормят по диете. Обеспечивают книгами, газетами, вернусь в Баку с новой поэтической энциклопедией отражающей величественную панораму XX века с его прошлым и будущим.

***Твой Халил***
***Москва, 2 марта 1990.***
***Почти на СВОБОДЕ.***

## 1 MART, 1990, BAKI

Martın 1-də məni telefon vasitəsilə DTK-ya çağırdılar. Bu Dzerjinski (indiki Şəhriyar) klubunun 4-cü mərtəbəsində yerləşirdi. Getməzdən əvvəl baldızıma zəng vurub onu xəbərdar etdim. Baldızım Böyükxanım təkid etdi ki, tək getmə, qoy həyat yoldaşım doktor Elxan da səninlə getsin. Əlbəttə, bilmək olmaz, birdən məni də buraxmazlar. Bunlardan hər şey gözləmək olardı. Özümü nə qədər ələ aldım, nə cavab verəcəyimi dəqiqləşdirdim. Xəlilin "Dünyaya pəncərə", "Qardaşlıq çələngi", Robert Rojdestvenskinin "30-cu əsrə məktub", İ.Sevinskinin "Babək", Musa Cəlilin "Moabit dəftəri" tərcümələrini özümlə gətirmişdim. İçəridə mülki paltarda, saçı, qaşı sarı olan, üzü çəhrayı rəngində olan kişi rusa oxşamırdı. Latış və ya eston xalqının nümayəndəsini xatırladırdı. İlk sualı o verib dedi:

- Siz bilirsiniz ki, sizi də bura sala bilərik?

Mən təəccüblə onun üzünə baxıb dedim:

- Mənim günahım nədir?

- Vaxtında ərinizin qarşısını almamısınız.

- Mənim ərimin günahı yoxdur.

O, hirslə əlini stola vurub dedi:

- Sənin ərin erməniləri Azərbaycandan qovub, milli ədavəti qızışdırıb.

- Bəs ermənilər bizim azərbaycanlılarımızı Ermənistandan qovanda siz buna nə cür baxırsınız?

- Burada sualı mən verirəm – deyib, yenidən əlini stola çırpdı, məni psixoloji cəhətdən sarsıtmaq üçün. Özümü zorla ələ aldım.

- Mən də sizə cavab verirəm. Mənim ərim illər boyu beynəlmiləlçi olub. Onun yazdığı, tərcümə etdiyi əsərlər Azərbaycan xalqının stolüstü kitabı olub. Millətlərin bir-birinə yaxınlaşmasında beynəlmiləl mədəniyyətin yaranmasında ən böyük rolu olub. Onu milli ədavəti qızışdıran kimi qələmə vermək ən azı savadsızlıq və nadanlıqdır. Təkcə "Qardaşlıq çələngi" kitabı 300-dən çox şairi Azərbaycan dilinə tərcümə etməsi, hələ "Dünyaya pəncərə kitabı". Bütün dünya xalqlarından edilən gözəl nümunələr onun necə beynəlmiləlçi olduğunu göstərir…

- Siz harada işləyirsiniz?

- Mən Neft Akademiyasında işləyirəm.

- Kitabları qoyun, sizi yenə çağıracağam.

Qapıdan çıxanda yanındakı müsahibinə dediyi sözləri eşitdim: "Кто его за язык тянул? Интернационалист". Onun nə demək istədiyini anlamadım.

Mən Xəlilin yanında olanda bu söhbətləri ona demədim. Çünki narahat ola bilərdi.

# 1990, FEVRAL, MOSKVA

Bir neçə gündən sonra yenidən Moskvaya Xəlilin görüşünə getdim. Balaca bir pəncərədən Xəlilin adını, soyadını dedim. Yazan kapitan idi. Mən ərimi görmək istədiyimi bildirdim. O dedi ki, rəisin yanına getmək lazımdır. Mən rəisin yanına getdim. Dedim ki, iki aydır ərimi görmürəm, onun şəkər xəstəliyi olduğu üçün çox narahatam. O dedi ki, adətən, görüşə icazə vermirlər, bir ərizə yazın, xəstəliyini ora qeyd edin, bizim patrullarımızın yanında rusca qonuşarsınız. Ona çatacaq bağlamanı isə pəncərəyə təhvil verin, saat dörddə gəlin, o vaxtadək biz onu hazırlayaq.

Xəlillə ilk dəfə görüşəndə ağladım. Onun görkəmi məni yaman sarsıtdı. Mən gedəndən sonra Xəlil "Sənin göz yaşların" adında şer yazdı.

## SƏNİN GÖZ YAŞLARIN

Mən səni ömrüm boyu təbəssümlü görmüşəm,
Gülümsər gözlərindən sevinc, fərəh dərmişəm.
Sənin səadətinə həyatımı vermişəm,
Bəs nədir bu hıçqırıq?.. Göz yaşın almaz-almaz.
Canavarlar önündə, gülüm, ağlamaq olmaz!

Bir bax, öndə, arxada paqonlular dayanıb,
O da fələk dustağı… çoxu naçar dayanıb.
Şimaldayıq, dizəcən ləkəli qar dayanıb
Qoltuqlara sığınır burda bahar, burda yaz,
Canavarlar önündə, gülüm, ağlamaq olmaz!

Göz yaşlarım tökülür Moskvanın qarına,
Çırpılır kor məhbəsin soyuq divarlarına.
Qana batmış dağam mən, güvən yalnız yarına
Bizim dərin yaramız göz yaşıyla sağalmaz,
Canavarlar önündə, gülüm, ağlamaq olmaz!

And olsun Vətənimin qarsalanmış daşına
Yüz-yüz general dəyməz sənin bir göz yaşına!
Bahar kimi gəlmişəm, Günəş kimi qarşıla
Camalından utansın ruhu keçəl, beyni daz,
Canavarlar önündə, gülüm, ağlamaq olmaz!

Yanaqların islanıb… gözlərindən öpüm gəl,
Qırıq-qırıq, od nəfəs sözlərindən öpüm gəl.
Gedər qış da, gələr yaz, bu dövran belə qalmaz,
Canavarlar önündə, gülüm, ağlamaq olmaz!

Azadlığın havası dolubsa milyon qəlbə,
Əvvəl-axır bizimdir, bizimkidir qələbə.
Bu qanlı, nəm divarı qoparaq  qəlpə-qəlpə,
Yalnız haqqındır zəfər, nahaq özü matəm, yas,
Aç başından bu şalı, qara bağlamaq olmaz,
Canavarlar önündə, gülüm, ağlamaq olmaz!
Gülüm, ağlamaq olmaz!

Saat dördə qədər qardaşım Nizami ilə Moskvanın küçələrini gəzdik. Axırda Moskvada "Krasnıye Vorota" metrosunun yanındakı bağda oturduq, aldığımız pendir-çörəkdən yedik, saat dördü gözlədik. Nəhayət, vaxt gəldi, trolleybusa minərək, 7 dayanacaq gedib DTK-nın yanında düşdük. Qardaşımı içəri buraxmadılar. O, bayırda qaldı. Pasportumu aldılar, bir nəfər məni liftlə 4-cü mərtəbəyə qaldırdı. Uzun koridor boyu gözəl mebellər qoyulmuşdu,

döşəmə par-par parıldayırdı. Sən demə, bura rəislərin qərargahıdır. Məni bir polkovnikin yanına gətirdi. Polkovnik işarə ilə otur dedi. Gördüm Xəlili gətirdilər. Biz qucaqlaşdıq. Özümü zorla saxladım. Axı, gərək rusca qonuşaq, buna heç dilim yatmır. Xəlil məndən uşaqları, ev-eşiyi soruşdu. Mən dedim: - Hamımız sənə qurban, təki sən buradan çıx. Necəsən? Özünü necə hiss edirsən? Xəlil dedi ki, burada ayağındakı çapıq yaxşılaşıb, diabeti də normadadır. Mən dedim ki, əlbət yaxşı yemək vermirlər. - Süd və qatıq nə vaxt istəsəm verirlər, - dedi. - Təkcə səndən nigaranam, səni həyat yollarında tək qoymuşam, günahkaram. - Yox, Xəlil, bu, bizim hamımızın işidir. Bizdən nigaran qalma, - dedim. Xəlil dedi ki, yaxşı ki, Rənagil gəldi, yun paltar gətirdilər mənə, bura soyuqdur bir az. Polkovnikdən icazə istədi ki, mənə şer oxusun, o da icazə verdi. Xəlil "Xüsusi təyyarədə" və "Nigaranam" şerlərini oxudu. Mən onda ağladım…

Canım, gözüm Firəngiz… Çatıqqaşlım, təlaşlım,
57 yaşında mənim 17 yaşlım!
Enməsin kirpiklərin, sil gözünün yaşını.
Vüqarla gəz, əyilmə! Şax tut yorğun başını.
Sən şair qadınısan… Böyük şair qadını
Ulu saxla adını.
Vermə qasırğalara
Ürəyinin odunu.
Canım, gözüm inan ki, hər cür səddi yıxacam.
Dəmir kimi gəlmişəm, polad kimi çıxacam.

**Sonra "Nigaranam" şeirini oxudu.**

Canım-gözüm Firəngiz!
Dünyada hamıdan çox səndən nigaranam mən.
Ey mənim mərd Tomrisim, ey mənim Nigar anam
Səndən çox nigaranam.

Nə atam var, nə anam… hər ikisi məzarda
Sənsən atam, anam da… Ən gözəl arzular da.
Bəd xəbəri alanda ayaqların əsdimi?
Bəd xəbərin qılıncı vücudunu kəsdimi?

Bəlkə zəng eləyən var?
Bəlkə şəmadət verir bizi istəməyənlər?
Xəlilin arxasınca artıq-əskik deyənlər?
Şaxta vurdu, yoxsa qar
Sənin gülşənlər boyda eşqini, istəyini?

Mən qorxuram iz sala camalına qırışlar,
Kölgələnə, qorxuram, o kirpiklər, o qaşlar,
O ilahi baxışlar.
Dost-düşmən qarşısında
Alnı açıq, üzü ağ dayana bilirmisən?
Mənim zərif çiçəyim,
Qorxacağım, ürkəyim,

Qoyma yerə silahı, örnək götür ərindən
Qələmim dartır hər gün Günəşi dan yerindən.
Heç bir alçaq önündə  kölgələnmə, şax yeri,
Çıraq olsun gözünə Xəlil Rza gözləri.
İyirminci yüzilin xoşbəxt balasıyıq biz
Bizim xoşbəxtliyimiz – yalnız ləyaqətimiz.

O, bu şerləri oxuduqca mən ağlayırdım. Onda polkovnik Xəlilə irad tutdu ki, mən sənə icazə verdim ki, görüşəsən, qadını niyə ağladırsan. Mən dedim ki, bu şeirlərdə ərim məhəbbətini izah edir, mən sevincdən ağlayıram. Onda polkovnik dedi ki, mən onları tərcümə etdirərəm, görüm nə yazırsan. Sonra biz evdəki vəziyyətdən danışdıq. Xəlilin pulunu kassadan vəkalətnamə ilə mən alırdım, pulu daha mənə vermirdilər. Mən bunu Xəlilə demədim. Çünki

bizim öz içimizdə alçaqlar var ki, onlar ermənidən də pisdirlər. Sapı özümüzdən olan baltalar. Əmanət bankından kassir mənə dedi ki, pulu verə bilmərəm, onu tutublar. Mən dedim ki, bəlkə göstəriş-zad var. Qız heç nə demədi. Əmanət kassası dram teatrının yanında yerləşirdi. Qızın adı Kəmalə idi. Çox biganə münasibət bəsləyirdi. Onda mən ona dedim: - Ermənilər bizimkiləri qovanda heç əmanətlərini vermirdilər. Sən mənim azərbaycanlım ola-ola bizim pulumuzu niyə vermirsən? Xəlil bəyəm sexovşikdir, mağaza müdiridir? Onun gözlərinin işığının puludur. Sən nə haqla vermirsən? Onda o mənə dedi ki, vəkalətnaməni təzələ, vəkalətnamə Moskvadan təsdiq olunsa, onda verərəm. Mən həmin söhbəti Xəlilə bu tezliklə söyləmədim. Qoy, nigaran olmasın. Elə hey soruşur ki, dolanışığınız necədir? Mən deyirəm: - Lap yaxşı. Təkcə səndən nigaranam, hər şey öz qaydasındadır. Yarım saatlıq görüş bitdi. Mən Xəlildən ayrılsam da uzun müddət onun geyimi, oxuduğu şeirlər, gözlərindəki həyəcan, əllərimi sığallaması gözümün önündən çəkilmirdi. Ayrılanda məni qucaqlaması, ılıq nəfəsi ruhuma təsəlli verirdi. Məni duyan, ürəyimdən keçəni hiss edən yeganə adam o idi. Baxışlarımla ona ürəyimi açırdım. Heç vaxt dilimlə demirdim ki, səni sevirəm. Əlbəttə, bu söz çox sönükdür məhəbbətimin qarşısında. Ancaq əməllərimdə o bunu hər an hiss edirdi. Mən onu heç kimə etibar edə bilmirdim. Mənə elə gəlirdi ki, kimsə ona mənim kimi qulluq edə bilməz, onu mənim kimi əzizləyə bilməz. Moskva qorxulu, yollar qanlı-qadalı, atasından-anasından küsən ermənilərin hamısı Moskvaya dolmuşdu. Mən hər dəfə paytaxta gedəndə bacılarım çox nigaran qalırdılar. Səni yollarda öldürə bilərlər. Dostlarımızın bəziləri deyirdilər ki, ay qız, bəlkə bu kişidən ay-

rılasan. Yoxsa, bu ermənilər səndən əl çəkməzlər. Bacıları deyirdi ki, qoy azərbaycanlı olduğunu bilməsinlər, dağıstanlı, çeçen olduğunu söylə. Görürsən, yollarda nə cür hadisələr baş verir. Nə qədər çətin olsa da, mən hər dəfə özüm gedirdim. Mənim tək getməyimi baldızım Böyükxanım biləndə tez haray saldı ki, Firəngiz ayın dördündə gedəcək, onda ya Rüstəm, ya da Fərhad gəlib mənə qoşulurdu. Qaynım Tofiq isə özü müstəqil getmişdi. Biz Moskvada görüşdük. Bir dəfə də baldızımın əri doktor Elxan və qaynım Məhəmməd mənə qoşulub getmişdi. Qalan vaxtlarda hər dəfə özüm gedirdim. Yerim olduğundan daha narahat olmurdum. Hər dəfə biletimi qonşum, oğul kimi hörmət elədiyim Qədir alırdı. Oğlanlarım məni təyyarə meydanında yola salırdılar. Əlbəttə, hər dəfə Təbriz məndən xahiş edirdi ki, onu da aparım. Mən də başa salırdım ki, özgənin evində qalıram, özüm utanıram, səni hara aparım? Qəbul günlərini telefonla dəqiqləşdirib bu baş-o başın biletini birdən alırdım. Moskvada üç gün qalırdım. Görüşüb, bağlamanı təhvil verirdim. Xəlilim mənim hər dəfə onun yanına gəlməyimdən mənən əzab çəkirdi. Deyirdi, Firəngiz, bəlkə azuqəni poçtla göndərəsən. Deyirdim, Xəlil, sən nə danışırsan? 5 dəqiqə səni görmək, səsini eşitmək, səninlə təmasda olmaq məni bir ay saxlayır. Günlərimi sayıram ki, növbəti görüş nə vaxt olacaq.

# 1990, MART

Moskvaya yola düşərkən apardığım kürünü, qoz ləpəsini Xəlilə necə verəcəyimi götür-qoy etdim. Bakıda bütün qəzetlər Xəlilin azadlığı üçün haray salırdılar. «Azadlıq» radiosu hər gün «Davam edir 37» şeirini oxuyur və məqalələrdə onun azadlığı tələb edilirdi. Xəlilin şəkli olan məqaləni, qəzetlərdən birini kəsib günəbaxan yağı ilə yağladım və salafanın içinə qoydum, kürünü yağlı qəzetə bükdüm ki, şübhələnən olmasın. Çünki Bakıdan heç bir məlumat vermək olmazdı. Görüş zamanı mebellərlə bəzədilmiş səliqəli otaqda, otağın baş tərəfində qoyulmuş masanın arxasında oturmuş məmur sanki bizə əhəmiyyət vermir, öz işi ilə məşğul olurdu. Əslində divarlarda olan gözcüklər bizim hər hərəkətimizi izləyirdi. Söhbət, əlbəttə, rus dilində gedirdi. O, bizə çay təklif etdi. Mən bu fürsətdən istifadə edib dedim sumkamda olan çörək və kürüdən 200 qram ərimə verməyə icazə versin, o da başı ilə razılıq verdi. Məqsədim Xəlilə həm məqaləni, şəkli göstərmək, həm də onu yedizdirmək idi. Ancaq bunları sözlə demək olmazdı. Xəlil başını aşağı salıb kürünü yeməyə başladı. Mən ona yağlı kağızı göstərməklə şəklinin üstə əlimi qoydum. O bunu görən kimi əlini kürüdən çəkdi və acgözlüklə qəzeti qarşısına çəkdi. Qapıda duran praporşik yağlı qəzeti ondan istədi. Mən dedim ki, o mənə lazımdır, salafanda olan kürünü bükürəm. Xəlil başa düşüb özünü yeyən kimi göstərdi. Əslində gözü qəzetdə qalmışdı. Arada ona deyirdim ki, çayını iç, soyutma. O, stəkana

əl atıb qurtum-qurtum içirdi.

Divarın hər tərəfində olan gözlüklər bizim hərəkətimizi izləyirdi. Ona görə də ikinci dərəcəli söhbətlər edirdim ki, qoy şübhələnməsinlər. O həm yeyirdi, həm də oxuyurdu. Üzündə, gözündə işıq yanmışdı. İç dünyası nura boyanmışdı. Ona mənəvi ruhi qida lazım idi ki, ruhdan düşməsin. Görüşün qurtardığını elan etdilər. O, gətirdiyim kürünün və qozun ləzzətli olduğunu söylədi və təşəkkür etdi. Şairin mənəvi aclığı təmin edilmişdi… Çıxana yaxın oxuduğu şerin iki misrası yadımda qaldı:

Dəmir kimi gəlmişəm,
Polad kimi çıxacağam.

Mən səni heç kimə etibar edə bilmərəm. Əlbəttə, mənim bu fikrim Xəlilin ürəyindən idi. Amma nədənsə qorxurdu. Yollar qəza-qədərlə doludur. Bu, onu narahat edirdi. Bu narahatçılığını şeirlərində ifadə edirdi:

Yollarda duman var, yollarda qəza
Səndən uzaq olsun, yüz mənzil uzaq.
Dünyalar önündə daim üzü ağ
Könül çıraqbanım neçin gəlmədin?

Bu şeirin yaranma tarixi belədir: Xəlilin məhkəməsi Bakıya köçürüldüyü üçün məni onun yanına buraxmırdılar.

Onda Xəlilə müstəntiq vasitəsilə müraciət etməyə məcbur oldum:

## ЗДРАВСТВУЙ, ДОРОГОЙ, ЛЮБИМЫЙ, ЕДИНСТВЕННЫЙ МОЙ, ХАЛИЛ!

Как твое здоровье. Только о тебе думаю.

Ты просил, чтобы твоим защитником стал Олжас Сулейменов. Я с Рустамом несколько дней была в Москве. Олжас на сессии не присутствовал. Мы через Союз Писателей узнали, что он поехал в Германию.

Дорогой мой Халил, все говорят, что тебе нужен хороший, квалифицированный адвокат, который сам был очевидцем событий. Есть у нас такой человек, его зовут Рамиз Искендеров, кандидат юридических наук. В июле он защитит докторскую диссертацию в Москве. Если ты согласен, сообщи своему следователю о согласии. Я с ним заключу договор и он приступит к делу.

Люблю, целую, жду Фирангиз.

Посылаю тебе 5 кг продуктов.
Печенье 220 г
Лимоны 330 г
Масло 550 г
Груши 1 кг
Мандарины 500 г
Сыр 360 г
Хлеб 420 г
Яблоки 2 кг

Xəlil məhkəmənin Bakıya keçirildiyini nəzərə alaraq, hələlik vəkildən vaz keçdiyini müstəntiq vasitəsilə bildirdi.

Bakı Şəhər məhkəməsindən Moskvaya razılıq məktubu aparmalıydım. Həmin məktubu burada müəyyən qədər gecikdirdilər. Ona görə mən Moskvaya bir az gec getmiş-

dim. Xəlil bundan çox mütəəssir olub həmin şeri yazmışdı.

## NEÇİN GƏLMƏDİN

Gözlədim… gözümün kökü saraldı,
Vəfalı tərlanım, neçin gəlmədin?
Hansı gül ətrisə uzaqda qaldı
Bənövşəm, reyhanım, neçin gəlmədin?

Aypara sahilə sığınan Bakı
Bu dərddən, bəladan qurtulsun təki.
Xəzərin qırılmış aynasındakı
Solğun kəhkəşanım, neçin gəlmədin?

Kimsə öz kefində, cah-cəlalında,
Kimsə qəfəsdəki qartal halında.
Ömrümün, günümün dar macalında
Ən müqəddəs anım, neçin gəlmədin?

Nə zindan, nə zəncir, nə dəmir qəfəs
Bizi öz hökmündə saxlaya bilməz.
Sən ey pıçıltısı toplar susduran,
Naləsi tankların döşündən vuran,
Pakizə, müqəddəs, əbədi, ölməz,
Fəryadım, əfqanım, neçin gəlmədin?

Bu şeir iri həcmlidir. Mən onun bir neçə bəndini yazdım.

Mən Moskvaya SSRİ-nin keçmiş baş prokuroru A.Y.Suxarevin görüşünə getdim ki, Bakıdan olan razılıq kağızını ona verim, məni Xəlilin yanına buraxsınlar. Lakin buraxmadılar. Onda ərizə ilə başqa bir prokurora – Q.V.Titova müraciət etdim.

## Прокуратуре СССР Тов. Г.В.Титову от жены заключенного Халила Рзы Халиловой Фирангиз Б.А, проживающей в г. Баку.

### ЗАЯВЛЕНИЕ

В связи с окончанием следствия по делу моего мужа Халила Рзы, как мне сообщили в КГБ, разрешение на свидание с заключенным дается прокуратурой СССР.

Прошу Вас разрешить мне увидеться с мужем, так как он очень болен и я очень беспокоюсь за состояние его здоровья.

*С уважением, Халилова Ф.Б.*

Müraciətimə əsasən o, məni qəbul edib, görüş verəcəklərini bildirilir.

Səhər Qorki küçəsindən keçib SSRİ prokurorluğuna gəldim. Q.V.Titov məktub hazırlayıb mənə verdi. Sevincək "Krasnıye Vorota" metrosundan çıxıb, trolleybusla Lefortovoya getdim. Ən pisi o idi ki, hara gedirdimsə, əlimdəki bağlamanı özümlə sürüyürdüm. Bu məni çox yorurdu. Nəhayət, bağlamanı vermək üçün balaca pəncərəyə yaxınlaşdım. Xəlilin adını dedim, kapitan mənə balaca bir məktub verdi.

Mən qorxurdum ki, əlbət, Xəlilin halı yamandır. Xəlilim də o diləkcəyə görə nə cür daxili əzab çəkdiyini şeirindən duyurdum:

# DÖYÜŞ YOLU UZUNDUR

Ey müqəddəs, ey əziz
Mehribanım Firəngiz.
Dərdim, qəmim, ümüdüm,
Göz işığım, can odum.

Yəqin, rusca yazdığım
Diləkcəmi oxudun.
Divaramı söykəndin,
Ya  kamanda ox oldun?

Barmaqların titrədi
Yoxsa, əlində kağız
Otuz səkkiz il öncə
Gördüyüm bənövşə qız.

Yəqin, güman etdin ki,
Halım xeyli yamandır.
Yıxılmışam yatağa,
Öylə bilmə, amandır.

İnan gözüm, gözəlim,
Nə xəstəyəm, nə qəmgin.
Sənə vüqar yaraşır,
Mənə ləyaqət, təmkin.

Mən bir dağ qartalıyam,
Sən uca Şahdağımsan.
Mənim dirilik suyum,
Tükənməz bulağımsan!

Göndərdiyin almalar
Ayım, dan ulduzumdur.
Sil gözünün yaşını,
Döyüş yolu uzundur.

Xəlil məktubunda yazırdı:

# ƏZİZİM FİRƏNGİZ!

Günaydın və Sizə verdiyim bütün əzab-əziyyətlərə görə üzr istəyirəm. Bu dəfə sən, yaxud Rüstəm yanıma gəlməli olsanız bir yox, iki azuqə payı gətirə bilərsiniz. Diabetimə görə meyvə, qoz ləpəsi, qaysı qurusu və s. almağıma da izn verilib. Kürü, soğan, sarımsaq, pomidor, kolbasa! Məhkəmə yaxınlaşdığına görə, bəlkə, görüş mümkün olmadı. Azuqənin ümumi çəkisi 10 kiloqramdan çox olmamalıdır. Bunları yalnız qəbul məntəqəsinə vermək olar: "Yazıçı", "Gənclik", "Azərnəşr"də əsərlərim var. Sabir Rüstəmxanlıdan öyrən, müqavilə bağlamaq mümkünsə, sənin adına etibarnamə göndərim. Xalamdan nigaranam, Gültacımdan başlamış Mikayıl Mirzəyəcən, Ramiz Duyğunacan, hamınızı bağrıma basıram. Yazılarımı, qovluqlarımı dağıtmayın. Qalan hər şeyi vəkilim Hacı bəy bilir. Bilmirəm Təbriz səni incidirmi? Mətinləş! Allahın birinci adı Səbrdir. Hər iki Böyükxanım, Rüstəm, Arifə, Ulduz, Sevinc, Təbriz, Rza, Fərhad, Tofiq, Türkay, Xudabaxış, Elxan, Aydın bütün əzizlərimiz, Azərbaycan, Türkan, Salyan ürəyimdədir. Sən isə ürəyimin başında.

## BİRCƏ QAYĞIM

Alatoran kamerada mənim bir cüt ulduzum var,
Xeyli, xeyli uzaqlardan gözlərimə gözlər baxar.
Firəngizdir, bircə qayğım - içəridən qaralmasın,
Qar almasın dağ başını, rəngi-ruhu saralmasın.

Firəngizdir, bircə qayğım, sındırmasın qəm qaşını,
İtirməsin yerişini, duruşunu, baxışını.
Yandırmasın kirpiyini nə ah-nalə, nə göz yaşı,
Nakəslərin qarşısında əyilməsin məğrur başı.

Qara qonur gözlərinə qüssə dolsa Göygöl sönər.
Maral gölüm, zər Xəzərim bir nəlbəki suya dönər.
Əllərində ərizəsi, büllur qəlbi sına-sına
Yalvarmasın, yanaşmasın ilanların yuvasına.

Firəngizdir, bircə qayğım, mətin sürsün o qayığı
Bir cüt avar bilib çəksin qoy vüsalı, ayrılığı.
İki oğlu, cüt nəvəsi gözlərinə çıraq olsun
Ona Xəlil təbəssümü, yol göstərən mayaq olsun!

Qumlarında qan quruyan doğma Türkan torpağından
Bircə ovuc götür gülüm, çək gözünə, as yaxandan.
And iç onun paklığına, şahid olsun qoy dan yeri,
Bu torpağa qan tökənin, kəsiləcək biləkləri.
Bu torpaqsız nəfəs aldıq axı, haçan?
Qovuşarmı səadətə Firəngizsiz Azərbaycan?

**Lefortovo zindanı.**
***Doğmanız Xəlil, 29 iyul 1990.***

– Daşkənddən gələn olsa, Tahir Qəhhar, Abdulla Arif kimi dostlara, Puşkin adına Ədəbiyyat İnstitutunun direktoru, opponentim Bəxtiyara salam yetirin.

Mən əlimdəki bağlamanı təhvil verdim, ikinci bağlamanı düzəltmək üçün yenidən bazara yollandım. Lefortovo zindanı Bauman bazarına yaxın idi. Mən tramvayla bir neçə dayanacaq gedib, lazım olan şeyləri aldım.

– Qozu sındırmaq lazımdır.

– Qaynım Rüstəmlə çəpərin qırağında oturub onları bir-

bir sındırmağa başladıq. 3 kq qozu sındırmaq o qədər də asan deyil. Moskvada kərpic qırıntısı, yaxud daş tapmaq müşkül məsələ idi. Lefortovonun qarşısında ağaclıq vardı. Mən ağacların arasından zorla bir sınıq kərpic tapıb başladım işə. Bu vaxt hərbi geyimli bir nəfər mənə yanaşdı: – Гражданка, вы знаете где вы? Что вы здесь расселись? А нука убирайтесь. Mən dedim ki, məhbus ərimin yanına gəlmişəm, onlar qozu belə qəbul etmirlər. Mənim də burada evim yoxdur ki, gedim evdə təmizləyim. Qorxmayın, mən burada zibil qoymaram. Elə bu dəm oranı süpürən süpürgəçi qadın gəlib mənə dedi: – Можно я вам помогу, а вы мне дайте середину скарлупы. Mən başa düşdüm ki, bu qadın şəkər xəstəsidir, ona görə də qozun iç pərdəsini istəyir.

Dedim: – Kömək edin, yığın. O mənə kömək etdi və biz bu işi tez gördük. Aparıb bu bağlamanı da təhvil verdim. İndi qalırdı görüş məsələsi. Saat ikidə növbətçi otağına gəldim, pasportumu verib, yuxarıya qalxdıq. Xəlil bizi otaqda gözləyirdi. Mən onu dustaq kimi yox, sanki bir səfərdən qayıdan adam kimi bağrıma basdım. Rəngi bir az solmuşdu.

Dedim:

– Xəlilim, şəkərin qalxıb deyəsən?

– Hə, – dedi. Bakıdan nigaran idim. Sən gec gəldin, ona görə qalxmışdı. Fikir vermə, keçib gedəcək, bunlar hər gün yoxlayırlar. Əsəbdən qalxıb.

Polkovnik yanımızda oturmuşdu. O, özünü məşğul kimi göstərirdi, əslində isə bizim söhbətimizə diqqət kəsilmişdi. Xəlil yenə necə dolandığımızı soruşdu.

– Narahat olma, biz yaxşıyıq, ancaq sənin maaşını əma-

nət kassasından mənə vermirlər, deyirlər qoy Moskvadan təzə vəkalətnamə gəlsin.

Bunu deyəndə Xəlil üzünü polkovnikə tutub dedi:

– Mənim yoldaşım maaşımı əmanət bankından ala bilmir. Buradan vəkalətnamə təsdiq olunmalıdır. Polkovnik güldü, dedi ki, bu sizin bürokratların işidir. İndiki belədir, sən yaz, mən möhürləyim. Xəlil cəld qələm-kağız götürüb mənim adıma vəkalətnamə yazdı və polkovnik aparıb onu möhürlədi.

Gələnə qədər Xəlil mənə yeni yazdığı "Qurban olduğum" şeirini oxudu.

## QURBAN OLDUĞUM

Hardasan, ey mənə canımdan əziz,
Dağına, daşına qurban olduğum!
Orda nalan qalıb mənsiz Firəngiz,
Gözünün yaşına qurban olduğum!

O mənim ilk müjdəm, ilk qaranquşum,
Yuxusuz gözlərim, dağılan huşum.
Vüsalı yazımdır, hicranı qışım,
Yazına, qışına qurban olduğum!

Necə darısqaldır bu qara məhbəs,
Göyərçin əlinə əllərim yetməz.
Umduğum doğma səs, o isti nəfəs,
Bircə baxışına qurban olduğum!

Mən sənin uğrunda atıldım oda,
Dəmirdim əridim, döndüm polada.
Nakəs qarşısında, yad qabağında
Ey məğrur başına qurban olduğum!

Axmasın gözündən yaş almaz-almaz,
Məhəbbət qocalmaz, günəş qaralmaz.
Yüz illər keçsə də gəncliyin solmaz,
On yeddi yaşına qurban olduğum!

Mən kiməm?.. Əyilməz bir kədər dağı
Sədaqət ocağı, ümid çırağı.
Sən başım üstündə haqqın bayrağı,
Ey haqq savaşına qurban olduğum!

Uzaq xatirələr toyda-düyündə,
Ömür gəldi-keçdi darda, surgündə.
Kişilər dünyada seyrələn gündə,
Kişi duruşuna qurban olduğum!

Xəlillə görüşümüz qurtaran kimi onu apardılar. Müstəntiq Yanalov məndən xahiş etdi ki, bir az ləngiyim. Onun sözündən vahiməyə düşdüm.

Özümü zorla ələ aldım. O makinasını hazvırlayıb mənə suallar verməyə başladı. Bakıda Təhlükəsizlik Nazirliyində verilən sualları yenidən təkrar verdi:

1. Sual: Sizin əriniz Xəlil Rza evdə başqa millətlərə necə baxırdı?

Cavab: Mənim ərimin başqa millətlərə nə cür baxmasını onun yaradıcılığının yarısını təşkil edən - SSRİ və Dünya xalqlarından etdiyi tərcümələrdən olan sonsuz məhəbbəti ("Dünyaya pəncərə", "Qardaşlıq çələngi", Moabit dəftəri, "30-cu əsrə məktub", " Babək") bilmək olar. Onun yeganə amalı milli mədəniyyətlərin yaxınlaşmasını təbliğ etmək idi.

2. Sual: Pulu sevirdi?

Cavab: Gəlin gəldiyim gündən əmanət kitabçasını və maaşını mənim adıma keçirmişdi. Çörək neçəyədir, qənd neçəyədir, bilmirdi və ona vaxt sərf etmirdi. Yeganə sev-

diyi şey onun öz poeziyası və alimliyinə sərf etdiyi vaxt idi.

3. Sual: Qadınları sevirdimi?

Cavab: Bütün kişilər kimi gözəllikdən zövq alırdı. Lakin bu o demək deyildi ki, qadın düşgünü idi. Gözəllik onun şerlərinə təravət gətirirdi.

4. Sual: Hansı təşkilatın üzvü idi?

Cavab: Heç bir təşkilatın üzvü deyildi. Lakin harada yığıncaq, tədbir olurdu, orada iştirak etmək, xalqla bir yerdə olmaq istəyirdi. O ziyalı – alim kimi özünü hər yerdə görmək istəyirdi. Öz qayğıları da az deyildi.

Müstəntiq:

– Söhbətimiz haqda heç kəsə bir kəlmə də demirsiniz.

Sonra mənim iş yerimi, ünvanımı yazdı, məni azad etdi.

O vaxt Moskvada sessiya gedirdi. Biz qaynım Rüstəmlə çoxlu vərəqə gətirmişdik ki, sessiyada iştirak edən deputatlara paylayaq. Elə də etdik. Əvvəl Yazıçılar İttifaqına getdik. Oradan bütün respublikaların yaradıcılıq ittifaqlarına müraciətnamələr göndərdik.

# ТВОРЧЕСКИМ СОЮЗАМ ВСЕХ РЕСПУБЛИК ОБРАЩЕНИЕ

26 января с. г. после трагических событий в городе Баку поэт ХАЛИЛ РЗА был арестован прямо на улице, сотрудниками КГБ СССР. И долгое время мы ничего не могли разузнать о нем: где он?

Только спустя месяц, т. е. 27 февраля, пришло известие из КГБ Азерб. ССР о том, что он, "арестован и обвиняется по ст. 67 Уголовного кодекса Азерб ССР за нарушение национального и массового равноправия. Ведется расследование". Это был парадокс, потому, что он всю жизнь воспевал интернационализм, братство и дружбу народов СССР и мира. С первых дней своей творческой деятельности, дышал и жил историей и сегодняшним днем советских людей и народов, населяющих территорию нашей Страны. Ни одно значительное общественно-политическое событие, происходящее в СССР и мире, не оставалось вне его поля зрения и обязательно находило художественное отражение в его творчестве.

Герои поэм Халила Рзы - азербайджанцы, русские, украинцы, белорусы, молдаване, литовцы, татары и др.

Халил Рза истинный интернационалист, борец за справедливость, рыцарь в борьбе против негативизма в обществе и бюрократии. Он человек цельный, то есть слово и дело его едины. Он один из тех немногих поэтов, которые ежедневно ведут борьбу словом и делом за гласность и демократию. Он открыто и громогласно говорил правду в глаза многим чиновникам в рес-

публике за многие годы, в течении которых они занимали и занимают высокие посты в партии и правительстве. Поэтому нажил многих врагов на свою голову из числа этих лжедемократов и тщеславных бюрократов. И мы не сомневаемся в том, что вышеуказанные лица приложили немало усилий чтобьГизолировать" этого бесстрашного человека в борьбе за правду.

Известно, что перестройка в Азербайджан была привнесена (к сожалению!) только после февраля 1988 года, когда армянские экстремисты всем фронтом перешли в наступление с целью присвоить себе НКАО Азерб.ССР Он в эти тяжелые и кровопролитные месяцы стоял на платформе ЦК КПСС, был как говориться на переднем крае и защищал историческую правду о том, что НКАО - неотъемлемая часть Азерб.ССР В конце концов справедливость восторжествовала, НКАО оставлена в составе Азерб.ССР, а поэт Х. Рза оказался за решеткой.

Почему? Потому, что многие высокопоставленные чины в: республике в течении многих лет на него имели "зуб" и, воспользовавшись хаосом в общественно-политической ситуации в республике, решили "убрать" его и отомстить. Лишить азербайджанский народ такого революционера и трибуна за перестройку, гласность, и демократию многое значило для мафии бюрократии.

Когда в первой декаде декабря 1988 года армянские дашнаки выселили 200 тыс. азербайджанцев с территории Арм.ССР и НКАО. Х. Рза был шокирован этим бесчеловечным актом. В эти дни и месяцы он работал много, беспрерывно, спал всего 4-5 часов. Много ез-

дил по районам республики, проводил встречи в коллективах. Везде пропагандировал идею дружбы народов. А в малых и больших выступлениях, всегда клеймил позором лидеров армянкой мафии, армянских экстремистов и их подручных за то, что они в течении 2-х лет отняли покой у советских людей, нанесли удар в спину перестройке. Требовал у руководителей республики (неоднократно лично встречался с Везировым А. Х. и др.) принять решительные меры по решению искусственно созданной "проблемы НКАО". А республиканское руководство проявляло, бездеятельность. И всякое его выступление где-бы оно не происходило руководством республики оценивалось как противоправное, противозаконное и разжигающее межнациональные отношения.

Халил Рза автор 30 книг, стихотворных сборников и исследовательских работ. Доктор филологических наук, заслуженный деятель искусств Азерб. ССР, член Союза Писателей СССР член Правления Союза Писателей Азерб. ССР

Мастер перевода и сам переводился на многие языки народов СССР и мира. Два его сборника- "Настоящая любовь" и "Щедрый день" вышли на русском языке в издательствах Москвы. Также перевел на азербайджанский язык произведения 110 (стодесяти!) поэтов 21 народа СССР 71 поэта 29 народов мира. Эти произведения вышли в двух томах под названиями "Венок братства" (изд. "Маариф", Баку 1982 г.) - произведения поэтов народов ССР и "Окно в мир" (изд. "Маариф", 1984 г.) - произведения поэтов народов мира.

Дорогие братья! Наши сердца переполнены невыносимым горем от того, что в лице поэта Х. Рза задушена Справедливость и Правда. Дело в том, что ему некогда было "нарушать национальное и расовое равноправие". Он неутомимый труженник, денно и нощно трудился - искал, исследовал и писал ради того, чтобы еще больше сблизить народы и национальности.

Он венец Свободы, Дружбы и Братства всех народов. Борец за национальное равенство, равноправие. Он враг расизма, шовинизма и нацизма. Национальная ограниченность чужда ему. Он на деле доказал это. Суть его жизни и деятельности отражена в его творчестве и книгах.

Мы обращаемся к Вам от имени всей азербайджанской интеллигенции, от имени всех демократических сил республики! Мы взываем к Вашей творческой совести: не дайте погибнуть Правде. Справедливость должна восторжествовать!

Müraciətnaməni sessiyaya gəlmiş Çingiz Aytmatova, Oljas Süleymenova, David Kuqultinova, ümumiyyətlə, tanıdığımz deputatlara payladıq. Sənəd bütün ədəbi ictimaiyyəti Azərbaycanın xalq şairi Xəlil Rzanın azad olunmasına kömək etməyə çağırırdı. Belə bir kampaniya Bakıda da gedirdi. Azərbaycan Yazıçılar İttifaqı xüsusi Müdafiə Komitəsi yaradaraq Xəlilin azad olunması üçün imza toplayırdı. Eyni zamanda, SSRİ Baş prokuroru A.Y.Suxarevin adına bir milyon iki yüz mindən artıq tələbnamə, məktub, teleqram, ərizə, şikayət göndərilmişdi. Eləcə də evimizin yanında aclıq çadırı qurulmuşdu.

Xəlil Rza bir ağ saçlı bahardır,
Elburusdan, Savalandan ucadır.
Hər misrası bir qızılgül, qonçadır.
Başı qardır, özü bahar, laləzar,
Azad edin, hürr yaşasın sənətkar!

Müdafiə Komitəsinin sədri İsmayıl Şıxlı idi. Hümmət Süleymanlı, Ramiz Duyğun, Sabir Rüstəmxanlı, Əzizə Cəfərzadə, Könül Zeynallı və başqa üzvləri var idi. Komitənin əsas məqsədi Xəlil Rzanı müdafiə etmək üçün xüsusi vərəqlərdə "Beynəlxalq insan hüquqlarını müdafiə cəmiyyətin"in ünvanına imza toplamaq, milyon yarımdan artıq adamın imzaladığı bu blankları, xalqın haqq səsini yuxarılara çatdırmaq idi. Dediyim kimi, Bakıda da Elmira Mikayıl qızına, DTK-nın sədri Vaqif Hüseynova, MK-ya yüzlərlə teleqramlar, tələbnamələr göndərilirdi. Lakin yuxarılar susmağı üstün tuturdular. Anar müəllim Suxarevin yanına getmiş, Xəlillə görüş almış və işin nə yerdə olduğunu onlara anlatmışdı. Həmin dövrdə Etibar Məmmədov, Məhəmməd Hatəmi və başqa məhbuslar da Lefortovoda yatırdı. Lakin onların bir-birindən xəbərləri yox idi. Bakı-

da şairlər "Xəlil, hey!" - deyə haray qoparır, onun intizarını çəkirdilər. Həbsxana divarları arxasında qolları qandallı Xəlilim tam əmin idi ki, dünyada heç bir imperiya divarı, tikanlı xəyanət məftilləri o harayın qarşısını ala bilməz. Xəlilimi haraylayan səslər içərisində Ramiz Duyğun, Nəriman Həsənzadə, Şamil Əsgər, Şahmar Əkbərzadə, Zülfüqar Şahsevənli, Sabir Şərqi, Əşrəf Şəfi, Qabil və başqalarını göstərmək olar. Mən bunlardan yalnız birinin şerini verməklə kifayətlənirəm (Şerlərin çoxunu "Xəlil hey!.." kitabında oxumaq olar). Bu da Ramiz Duyğunun "Xəlil, hey..." şeridir.

## XƏLİL HEY

Bu torpağın ağırlığı çiynində,
Tufanları, şimşəkləri beynində,
Dənizləri, dəryaları əynində -
Xəlil… hey!

Uzaqdasan… sənə yetməz fəryadım,
Daşa dəydi… çilik-çilik dəryazım,
Külüngünü əldən verməz Fərhadım -
Xəlil… hey!

Ürək viran, beyin viran, can viran,
Hər dəqiqəm, hər saniyəm qan soran,
Hər saatım, günüm səndən nigaran -
Xəlil… hey!

Həsrətinlə yanar axar bulaqlar,
Səndən xəbər sorağında … oylaqlar,
Köhlənlərin meydanında… ulaqlar -
Xəlil… hey!

Dəryaların amalında sandalım,
Dan ürəklim, dan qanadlım, dan alım,
Arzuları, diləkləri qandallım -
Xəlil… hey!

Zülmətlərin qucağında çaxanım,
Günəş kimi, ulduz kimi çaxanım,

Salonlara, meydanlara sığmayan,
Zindanların bucağına sığanım -
Xəlil… hey!

Haqsızlıqla əlbəyaxa, davadar,
Lefortovo… hava bürkü, hava dar,
Sənə -  Allah, sənə - Tanrı havadar -
Xəlil… hey!

Həndəvərin məftil, tikan, çətənə.
Lənət, nifrət arzuları ütənə,
Bu il bahar sənsiz gəldi Vətənə -
Xəlil… hey!

Dövran namərd… tülkülərə kahadır,
Eşqin, Andın, Sözün, İşin - bahardır.
İmperiya... qəhr eyləyən Bahardır –
Xəlil… hey!

Amalına söykəklidir dağ sırtın,
Satqınların dişlərini çox qırdın,
Susma, hayqır, eşidilsin hayqırtın -
Xəlil… hey!

"Burda bir şir dara düşüb bağırır".
İstiqlalın üfüqləri ağarır.
Səni, anan Azərbaycan çağırır!

Xəlil… hey!
Xəlil… hey!

Bu çağırışlara, yalnız bir aydan sonra, fevralın 26-da cavab gəldi: Sizin əriniz 67-ci maddə ilə günahlandırılaraq, Moskvaya göndərilib.

Həmin dövrdə "Azərbaycan" qəzetinin baş redakioru Sabir Rüstəmxanlı idi. Dəfələrlə redaksiyaya gedib, Xəlilin şeirlərinin verilməsini, onun bizim aramızda olduğunu qəzet vasitəsilə xalqa çatdırılmasını, eyni zamanda, «Qayğı» cəmiyyətinin sədri Bayram Bayramovun yanına gedib, Xəlilə kömək əlini uzatmasını xahiş edirdim.

Bununla bərabər ölkənin müxtəlif bölgələrindən Azərbaycanın görkəmli oğlunun azad olması haqqında müxtəlif təşkilatlar və şəxslər tərəfindən Kremlə ardıcıl teleqramlar göndərilirdi. Bunlardan biri:

## Москва. Кремл. Президиуму Верховного Совета Союза от Президиума Верховного совета союзных республик:

***РСФСР, Украины, Белорусии, Грузии, Латвии, Эстонии, Казахстана, Киргизии, Узбекистана, Таджикистана, Туркмении, Азербайджана, Литвы.***

Агдамсий районный комитет профсоюза работников агропромышленного комплекса от имени двадцативосьми тысячи членов профсоюза обращается к Вам, Вашим умам, Вашим вердцам содействовать неотлогательному решению вопроса вывода советских войск из Азербайджана, освобождения демократически настроенных представителей народа, Народного поэта Халила Рзы и других арестованных активистов перестройки, выполнения указа Верховного Совета Союза по Нагорному Карабаху от 28 ноября 1989 года.

***12-02-90***
***Агдамский РК проф., работников АПК***
***Мамедов Зейнал Гусейн оглы.***

С праздником весны наш дорогой Олжас ага. Прошу вашего сответствия в освобождении талантливого, честного, пламенного интернационалиста поэта Халила Рза.

***С любовью Зейнал Гусейн оглу.***

**Həmin dövrdə mən Azərbaycan MEA-nın sabiq prezidenti akademik E.Salayevə də müraciət etdim.**

**Azərbaycan SSR EA-nın prezidenti akademik E.Salayev yoldaşa,Akademiyanın Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşı şair Xəlil Rzanın həyat yoldaşı Firəngiz Böyükağa qızı Xəlilovadan**

## ƏRİZƏ

Məlumunuz olduğu kimi şair Xəlil Rza bu il yanvarın 26-da SSRİ DTK-nın əməkdaşları tərəfindən ədalətsiz həbs edilmişdir.

Xəlil Rza həyatı boyu Azərbaycan xalqının milli tərəqqisi, o cümlədən, başqa xalqların mənəvi inkişafı uğrunda mübarizə aparmışdır. O, millətlər dostluğunun nəğməkarıdır. Təəssüf ki, bu gun onu milli və irqi ayrı-seçkiliyi qızışdırmaqda günahlandırırlar.

Xəlil Rzanı müdafiə məqsədi ilə Ədəbiyyat İnstitutunun direktoru professor Yaşar Qarayev dəfələrlə lazımi ünvanlara müraciət etmişdir. Mən aprelin 5-də Xəlil Rza ilə görüşərkən o xahiş etdi ki, bu məqsədlə Sizə də müraciət edim.

Siz Xəlil Rzanı yaxşı tanıyırsınız və o, Akademiyanın əməkdaşı olduğuna görə SSRİ baş prokuroru A.Y.Suxarevə müraciət etməyinizi Sizdən xahiş edirəm.

Ümidvaram ki, məni məyus etməyəcəksiniz.

***Dərin hörmətlə, Firəngiz Xəlilova.***

***11.IV. 1990***

Aprel ayının ortalarında məni yenidən DTK-ya çağırdılar. Bu dəfə üç nəfər oturub qarşılarına diktafon qoymuşdular. Mənə veriləcək suallara dəqiq cavab verməyi tələb edirdilər:

- Sənin ərin evdə millətlərə qarşı çıxış edirdimi?

Cavab: - Mənim ərim böyük beynəlmiləlçi olub. Yazdığı kitablar buna cavab verə bilər ("Qardaşlıq çələngi", "Dünyaya pəncərə" və s.).

- Səni ərin hansı partiyanın üzvüdür? Hansı təşkilata daxildir?

Cavab: - Mənim ərim heç bir partiyanın, heç bir təşkilatın üzvü deyil.

- Bilin, yalan məlumat sizi ərinizin yanına apara bilər.

Cavab: - Mənim ərim elm adamı idi, onun vaxtı nə gəzirdi, iclaslara getsin.

- Sənin ərin qadınları, pulu, şərabı sevirdimi?

Cavab: - Bütün kişilər kimi gözəl qadınlara rəğbət bəsləyirdi, lakin bu o deməkdeyildi ki, o qadın düşgünü idi. Pula gəldikdə, ərimin aldığı maaşı ilk gündən etibarnamə ilə mən alırdım. Onu heç vaxt pul düşündürməyib. Hər hansı iş görürdüsə xalqının inkişafı naminə edirdi. Şərab içməyə gəldikdə, evimizdə hər cür içki növü olurdu. Heç vaxt münasibətsiz ondan istifadə etmirdi. O deyirdi: - Sərxoşluqla ölümün bircə santimetrdir arası.

- Bura gəlməyinizi heç kəs bilməməlidir.

Bu suallardan sonra məni azad etdilər və Xəlilin kitablarını mənə qaytardılar. Əlbəttə, mən Bakıda olan söhbətləri Xəlilə danışmırdım. Qoy fikir çəkməsin.

# O GÜNLƏRDƏ XƏLİLƏ AŞAĞIDAKI MƏKTUBU YAZDIM:

## SƏADƏTİM, MƏHƏBBƏTİM!

Günləri sayıram, nə vaxt görəcəyəm səni. Anara verdiyim məktuba əsasən lazım olan materialı tapdım. Bu, 1966-cı il avqust ayındakı Qazax-Göyçay-Yerevan gündəliyidir. Sonra o başı "yekələrdən" etdiyin tərcümələr ki, kitaba düşməyib, onları yığıb, üzünü köçürüb verəcəyəm. Güman ki, işlərin yaxşılığa doğru gedir. Bizdən nigaran olma. Mən əziyyət çəkmirəm. Sənin üçün bütün cəfalara dözərəm. Axı sən mənim nəfəsimsən, mənim ürəyimsən. Tale məni imtahana çəkdi…

Müxtəlif idarələrdən sənin azad olunmağın haqqında iclas protokollarından (200-500 nəfərlik) sənədlər yığmışıq. Bundan başqa, insan hüquqlarının qorunmasına dair beynəlxalq hüquq anketlərinə bir milyona yaxın qol çəkdirmişik. Bu işdə kafedranın professoru İmran Cəfərov və baş müəllim Tamerlan Hüseynov, bacım Arifə çox çalışıb. Suxarevə və Kryuçkova azad olunmağın haqqında ərizələr göndərib. Bu işdə bizə qonşumuz doktor Cəbiyev kömək edir. Veteranların adından "Azadlıq" radiostansiyası sənin haqqında ardıcıl verilişlər verir. Hər dəfə "Davam edir 37" şerin oxunanda sənin necə uzaqgörən olduğunu görürəm. Moskvada olarkən Rüstəmlə birgə bütün deputatları, rəsmi şəxsləri hərəkətə gətiririk. Əlbəttə, sənə bənzərləri çox azdır. "Mənim ərim sizin firavan həyatınız üçün mübarizə aparıb, sizin süst düşməyə haqqınız yoxdur. Hə-

rə bir qığılcım olmalıdır", - deyirəm. Bu işdə Könül Zeynallı da səmimi qəlbdən iştirak edir. Təki sən sağ-salamat çıx gəl evimizə. Səni heç yana buraxan deyiləm.

May ayının əvvəlində Qazaxıstanın xalq şairi Oljas Süleymenova Ağdam Həmkarlar İttifaqları adından göndərilən məktubda deyilir:

"С праздником весны наш дорогой Олжас ага. Прошу Вашей помощи освобождения пламенного интернационалиста поэта Халила Рза.

***С любовью Мамедов Зейнал.***
***Агдам РК проф. Работ АПК***

# ÖZBƏKİSTAN YAZARLARININ XAHİŞİ

## MÖHTƏRƏM NƏRİMAN HƏSƏNZADƏ

"Şairə Azadlıq!" Komitəsinin yaradılmasını əks etdirən, şairimiz Xəlil Rzanın, alim qardaşımız Məhəmmməd Hatəmi və Azərbaycanın başqa fədakar oğullarının şərdən və böhtandan azad olunmasını, Bakıdakı Qanlı yanvar hadisələrinə dürüst qiymət verilməsini tələb edən məqalələri "Ədəbiyyat və İncəsənət" qəzetində oxuyub xeyli razı qaldıq. Tanrıya min şükür ki, Türk millətləri öz yaxşı oğullarını qorumaq üçün ayağa qalxıbdır. Bu mühüm işə qoşulduqları üçün bütün vətənsevər yazıçılara, jurnalistlər və hüquqşünaslara redaktoru olduğunuz qəzet vasitəsilə dərin təşəkkürümüzü bildirməyi vacib sayıram.

Biz bir dəstə özbək yazıçısı, alim və jurnalisti Bakı Şəhər məhkəməsinin sədri İlqar Abbasov yoldaşa tələb məktubu yazmışıq. Bu məktubu qəzetinizdə çap etsəniz xeyli məmnun olarıq.

***Ehtiram ilə: Tahir QƏHHAR,***
***şair, "Şərq ulduzu" jurnalının şöbə müdiri***
***Daşkənd, 2 noyabr 1990.***

# BAKI ŞƏHƏR MƏHKƏMƏSİNİN SƏDRİ İLQAR ABBASOV YOLDAŞA

## ÖZBƏKİSTAN YAZIÇI, ALİM VƏ JURNALİSTLƏRİNİN TƏLƏBİ

Biz 30 ildən çoxdur ki, Xəlil Rzanı istedadlı şair və alim kimi tanıyırıq. Xəlil Rza Azərbaycanın və Özbəkistanın sevimli şairidir. Xalq tərəfindən sevilən alimi və tərcümanıdır. 30 ildən çoxdur ki, o, Azərbaycan və özbək ədəbiyyatının yüksəlişi, bu iki qardaş mədəniyyətin daha da yaxınlaşması və tərəqqisi uğrunda yorulmadan, cəsarətlə qələm çalır, külüng vurur. Onun Azərbaycan və Özbək paoeziya incəsənətini işıqlandırmaq, zənginləşdirmək yolunda əvəzsiz xidmətlərini hər iki xalq gözəl bilir. Xəlil Rza öz şeir kitabları ilə, Sovetlər Birliyindəki (cumhuriyyətlərin, respublikaların) milli ədəbiyyatlardan etdiyi saysız və coşqun ilhamlı tərcümələri ilə, xalqlar qardaşlığını, xalqlar hüququnu, xalqlar şərəfini tədqiq edən əsərləri ilə SSRİ-də tanınan parlaq şəxsiyyətdir. Bizim Özbəkistanda dönə-dönə olmuş Xəlil Rza bura sadəcə səyahətçi kimi gəlməmiş, ədəbiyyat və incəsənətimizin çoxəsrlik dərin qatlarını kəşf edən, mənimsəyən və geniş oxucu kütlələrinə çatdıran sənət sərrafı, bilici və ustadı kimi yol göstərmişdir. Əlişir Nəvai, Məqsud Şeyxzadə kimi böyük sənətkarların, alimlərin yubileylərində Azərbaycan və özbək mədəniyyəti həftəliklərində, dürlü elmi sessiyalarda Xəlil Rzanın hər nitqi uca söz kürsülərində əzəmətlə səslənmiş, ürəklərə və idraklara şölə salmışdır. Xalqımız onun müdrik sözlərini həmişə böyük məhəbbətlə alqışlamışdır.

Biz Azərbaycanın Xəlil Rza kimi şair və alimləri, cəsur, xalqsevər, insansevər, sadiq övladlarının varlığı ilə həmişə

fəxr etmişik, öyünmüşük. Daim arzulamışıq ki, Xəlil Rza kimi parlaq şəxsiyyətlərin sayı Azərbaycanda, Özbəkistanda, bütün məmləkətlərdə çoxalsın, artsın!

Hörmətli İlqar Abbasov! Biz Xəlil Rzaya qarşı tuşlanmış ittiham və böhtanlara zərrə qədər də inanmırıq. Çünki bütün ömrünü, yaradıcılığını öz xalqına, başqa xalqlara həsr etmiş Xəlil Rza candan bağlandığı bəşəriyyətə zidd addım ata bilməz. Əksinə, onun hər bir addımı insanlığın tərəqqisi uğrunda böyük mübarizə yollarında vüqarla səslənir. Onun ildırım kəsərli qələmindən çıxmış "Qardaşlıq çələngi", "Dünyaya pəncərə" kimi sanballı kitabları dünya xalqlarına mənsub 500-dən çox klassikdən və çağdaş şairlərdən etdiyi tərcümələr fədakar zəhməti, poeziya qəhrəmanlığı bunu bir daha təsdiqlər. Biz Xəlil Rzaya ədalətlə yanaşılmasını, onun adının da, yaradıcılığının da hər cür ləkədən, böhtanlardan təmizlənməsini sizdən, haqq məhkəməsindən tələb edirik!

Cumhuriyyətlərin (respublikaların), məmləkətlərin azadlığa, müstəqilliyə can atdığı, tarixin yeni bir mərhələsinə qədəm qoyduğu çağlarda Xəlil Rza kimi şəxsiyyətlərin, sənətkarların vətən və xalq üçün hava və su təki lazımlı olması sizə və bizə yaxşı bəllidir. Bu cür kişiləri qorumaq borcunuz və borcumuzdur.

***Daşkənd, 1 noyabr 1990.***

***İmzalar: Tahir Qəhhar, İkram Atamuradov, Artıq Abdulla, Müzəffər Əhməd, Ömərqul Pulkan, İnabət Namurad,İsacan Sultan, Yusif Abdulla, Tursun İbrahim, Əsəd Əsil, Əhməd Taşxoca, Məhəmməd Rəhman, A. Möhkəm, Ənvər Abidcan, Müzəffər Mirzəcan, Cari Əvəz, Əzən Ötkəm, Rövşən Feyz, Rauf Sübhan T. Ədhəm, Yağubcan, Xocamberdi, Aşurəli Cürə, Cəlaləddin Səfa, Fəxrəddin Xudayqulov, Nəbican Baqqi.***

# ЧЛЕНУ БАКИНСКОГО ГОРОДСКОГО СУДА тов. АББАСУ И.Э. от адвоката РАХМАНОВА Г.Г. Баку, ЮРК № 13

Под вашим представительством рассмотрено уголовное дело по обвинению Халиова Халила Рза оглы и Гатами Магомед Фейзулла оглы обвинявшихся по ст. 67 ч. 3 УК Азерб. ССР. Защита прав Халилова и Гатами на суде осуществлена мною.

Приговором от 20.11.90 г. Халиова и Гатами оправданы за отсустствием в их действиях состава приступления.

Халилов и Гатами по этому делу с 26.01.90 г. находились подстражей, после освобождения к прежней работе приступили с 01.01.91 г. Таким образом в течение одиннадцати месяцев они лишились зарплаты. Зарплата Халилова составляет 350 руб. в месяц, а Гатами 300 руб. Всего за 11 месяцев Халилов потерял 3850 руб., Гатами 3300 руб. Кроме этого за услуги адвоката Халиловым внесено 650 руб. Гатами 300 руб.

Из этого расета материальный ущерб нанесенный Халиовым состовляет 4500 руб. Гатами 3600 руб.

В соответствии с указом Президиума Верховного Совета СССР от 18.05.81 г. "О возмещении ущерба, причиненного гражданину незаконными действиями государственных и общественных организаций, а также должностных лиц при исполнении ими служебных обязанностей" этот ущерб подлежит возмещению госу-

дарством внолном объеме при условии, в частности, наличия оправдательного приговора.

Согласно п. 2 Положения заработке которого лишился гражданин и сумма выплачена за услуги адвоката входит в общую сумму ущерба.

Согласно п. 11 этого эе положениясумма ущерба определяетсяорганом выносивший оправдательный приговор, о чем выносится опредедение, и соответствии и с п. 12 инструкции от 02.03.82 г. в трехдневный срок направляется в фин. Отдел по месту жительства взыскателья для исполнения.

На основании изложенного

Прошу:

Данное заявление, вынести определение о выплате Халилову Халилу Рза оглы 4500 руб. Гатами Магомеду Фейзулла оглы 3600 руб., направить эти определения в фин. органы по месту их жительства.

Приложение: 1. Приговор.
2. Справка на Халилова.
3. Справка на Гатами.
4. Справка ЮРК № 13.

РАХМАНОВ Г.Г.

"Mənim şirinim, şəkərim. Arzular kağıza sığmır. Əlbəttə, görüşəndə daha ətraflı danışarıq. Ramizdən, Mikayıl Mirzədən, bütün qohumlardan, xüsusilə xaladan salamlar.

Səni bir an belə unutmayan Firəngiz".

Nəhayət, oktyabrın 18-də Xəlili, Etibarı, Məhəmməd Hatəmini, Seyid Tahiri Bakıya gətirdilər.

Görüş üçün Bakı Şəhər məhkəməsindən icazə aldıq. Xəlil Bakıya gəlişini çox sevinclə qarşılayır və "Bakıya doğru" şerində bu sevinci tərənnüm edir.

Xəlilin söhbətlərindən belə məlum olur ki, qatarlarda içərisində dustaq aparılan xüsusi kameralar var. Bunu daş kisə adlandırırlar. Daş kisəyə iki nəfər zorla yerləşir. Xəlil danışırdı ki, mən yaşlı olduğumdan otururdum. Etibar mənim dizlərim üstə otururdu. Çevrilməyə imkan yox idi. Su istəyəndə dəmirlə bir əlli daş qapını döyürdük. Rostova çatanda isə bizi düşərgəyə təhvil verdilər. Üfunət verən bir otağa saldılar. Mən elə bildim ki, burada neçə gün qalacağıq, ona görə başladım təmizlik aparmağa. Elə otağı təmizləyib qurtarmışdım ki, bizi yenə qara maşında qatara apardılar, bütün zəhmətim hədər getdi. Bu dəfə Seyid Tahir də bizimlə birgə idi. Yol boyu pəncərədən düzənliklərə, çaylara tamaşa edirdik. Nəfəslik balaca olsa da, dünya nə gözəlmiş, Allah. Biz neçə ay bu gözəlliklərdən uzaq yaşamışıq. Nəhayət, üzüm bağları qarşımızda canlandı. Qatarın yanınca yüyürüb üzüm təklif eləyənlər bir-birini əvəz edirdi. Onda Seyid Tahir əynindəki gözəl cemperini çıxarıb kombata verdi ki, qoy bunu üzümə dəyişsin. Kombat özbək idi. Üzüm bağlarına qədər mən onun Əlişir Nəvai, Qafur Qulam kimi şairləri olan böyük bir millətin oğlu olduğunu bildirmişdim. Ona görə o bizə bir qədər meyl edirdi və cemperi aparıb bir neçə kiloqram üzümə dəyişdi.

Seyid Tahir qatardakı dustaqların hərəsinə bir gilə üzüm payladı. Yol boyu haradan keçdiyimizi Etibar bizə söyləyirdi. Nəhayət, bizi qatardan düşürüb qara maşınlara mindirdilər. Bakının küləyi bizi məst edirdi.

"Aman Allah, Vətən havası nə şirindir. Etibar bildirirdi ki, Xəzər sahiliylə yuxarı qalxırıq və nəhayət, Dağüstü parka yanaşırıq. Şəhidlər xiyabanı və… DTK-nın binası. Bizi içəri apardılar…

Məni yuxarı qatlarda bir otağa saldılar. Qonşum 7 erməni öldürmüş Fazil adında bir gənc idi. O da öz hökmünü gözləyirdi. Bura adi otaq idi. Dustaqlara əzab vermək üçün külli miqdarda ağcaqanad buraxmışdılar. Başqa cür də ola bilməzdi. Bütün divarlar qan içində idi. Fazil mənə kömək etmək üçün bütün günü çəkməsinin bir tayı əlində ağcaqanadları vurub öldürürdü. Lakin bu əbəs idi, çünki onların sayı durmadan artırdı. Səhərə qədər yata bilmədik. Mən qapıçıdan xahiş etmişdim ki, bizim evə zəng vursunlar ki, yemək gətirsinlər…".

Mən Xəlilin Bakıya gəlməsini biləndə tez ona toyuq, dovğa bişirib apardım. Toyuğu almadılar ki, sümüklüdür. Onda mən əti sümükdən ayırıb bağlama verilən yerə verdim. Bu məktubla birgə Xəlillə görüş tələb etdim:

**Bakı Şəhər Məhkəməsi**
**370601, Bakı şəhəri, QSP-601,**
**Neftçilər prospekti, №57.**
**Telefon№ 92-11-18, 92-24-18, 92-53-50**

**Бакинский Городской Суд**
**370601, гор. Баку, ГСП-601 роспект**
**Нефтянников, №57.**
**Телефон № 92-11-18, 92-53-50 92-24-18,**

***№ 1-76/90 г. «19» октября 1990***

**Началнику СИ КГБ Азерб ССР**

Разрешаю свидание с подс. Халилом Халил Рза оглы его нижеперечисленным родственникам:

1. Сын – Халилов Рза Халил оглы
2. Брат – Халилов Рустам Рза оглы
3. Невестка – Халилова Севиндж Худабахыш кызы
4. Жена – Халилова Фирангиз Беюкага кызы
5. Сын – Халилов Табриз Халил оглы.

***Член Бак. Гор. Суда***
***АББАСОВ И.Э.***

## ƏZİZİM XƏLİL!

Bakıya gəlişin mübarək! Hamımız görüşə gəlmişik: Böyükxanım, Ulduz, Rüstəm, Tofiq, Babək, Ramiz Duyğun uşaqlar - Təbriz, Rza.

Hər şey yaxşı olacaq. Dostlar görüş arzusundadırlar. Sənə cansağlığı arzu edirəm. Özünü qoru, mənim qanadım, qolum. Əlbəttə, Bakı Şəhər məhkəməsindən görüş icazəsi alacağam. Evdə olan şeylərdən tez-tələsik yığdım, gəldik. Toyuq, dovğa, kəsmik, pendir, çörək, qənd və çayı kiçik nəfəslikdən praporşikə təhvil verdim.

Görüş arzusuyla Bakı Şəhər məhkəməsi sədrinin yanına gedirəm.

Səni hörmətlə, məhəbbətlə gözləyən əzizlərin.

***Öpürəm səni, Firəngiz,***
***11.10.1990.***

# İKİNCİ GÜN,
# 20 QASİM 1990, BAKI.

Görüşə Bakı Şəhər məhkəməsi icazə verməliydi. Biz o icazəni aldıq. Sabahı, oktyabrın 19-da qohumlar, Xəlilin yaxın dostu Ramiz Duyğunla ora getdik. İçəri gircək Xəlil birinci Ramiz Duyğunu qucaqladı, fırladı. Demək istəyirdi ki, mən çox möhkəməm. Sonra bacıları, qardaşları, gəlini ilə görüşdü və körpə nəvəsi Türkayı qucağına aldı, hamımızı salamladı. Gətirdiyimiz sovqatları onun qarşısına qoyduq, onu yedizdirdik. Ramiz dedi ki, ayın 24-də, yəni, Xəlilin ad günü onun zaminə buraxılması üçün Bakı Şəhər məhkəməsindən icazə alınmalıdır. Əlbəttə, biz buna nail ola bilmədik. Yalnız 23-də Xəlili zaminə buraxdılar.

Xəlilimin gəlişi toy-bayrama çevrildi. Ramiq Muxtar Xəlilin ayağı altında qurban kəsdi. Qonşularımızın hərəsi bir tort, plov qazanları, müxtəlif şirniyyatlarla evimizə gəldilər. Xəlilimin görüşünə gələn Xəlilsizləmiş insanlar yenidən bu böyük, ülvi insanın məhəbbətinə baş əyirdilər. Sevinc yaşları, qəhər hamını boğurdu. Görüşlər səhər saat 9-dan başlayıb, gecə saat 12-yə kimi davam edirdi. Xalq şairləri Qabil, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə gələnlərin içərisində idi. Bəxtiyar müəllimin Xəlili qucaqlayıb ağlaması məni sarsıtdı. Bir gün sonra isə İsmayıl Şıxlı, Nəriman Həsənzadə, tanıdığım və tanımadığım dostlar gəldilər, xoş söhbətlər etdilər. Xəlil təmkinlə danışırdı.

Xəlilimə deyirdim ki, bəlkə yorulursan?

- Yox, - deyirdi. - Onlarsız mən heç nəyəm.

Əqrəbləri Bakıdan çıxaran dəstə: – Ədilə, Dilarə, Könül, Elmira, Naibə, Süsən kümi xanımlar Xəlilimə xidmət göstərməyə  çalışırdılar. Hamı onu evinə dəvət edirdi. Lakin o heç yerə gedə bilmirdi. Çünki məhkəmə davam edirdi.

# MƏHKƏMƏDƏKİ ÇIXIŞININ BAŞ CİZGİLƏRİ

1. "Həqiqəti tapmaq üçün ayaq altına yox, həm də üfüqlərə, günəşə baxmalısan". Çağdaş rüs təfəkkürü buna qadir deyil. Şah İsmayıl Xətai dövründə Azərbaycanın ərazisi 2 milyon 800 min kvadrat kilometrdən ibarət olmuşdur. Hanı? 1813-cü ildəki Gülüstan, 1828-ci ildəki Türkmənçay bağlaşmalarını göz önünə gətir. Azərbaycanın parçalanmasında ermənilər ən fəal surətdə çar Rusiyasına casusluq yardımı və hərbi yardım göstərmişlər. Ermənistan vilayətinin təşkili yalnız Azərbaycanın parçalanmasından sonra mümkün olmuşdu.

2. Mərkəzi televiziyada çıxışım:

Fitneyi-iblisi-məlun oldu nagah aşikar.

3. 1988-in fevralında məndə akkumlyatorlaşmış qəzəbin partlayışı baş verdi. Moskvadan qayıdanda APİ-nin, Azərbaycanın içəri üfunətini gördüm. Tələbələrim. Sorğularım. 2 qəpik üzvlük haqqı.

Öyrənin, APİ-dən nə üçün çıxarılmışam?

4. Məgər Ermənistan MK katibi Koçinyan 1963-də məhz Milli çirkaba batdığı üçün işdən qovulmadımı?

Yaxud Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin birinci katibi Melkumov bizim Milli satqınların xəyanəti üzündən AHİŞ-ə gətirilmədimi?

5. Futbolçu Markarovun, futbolçu Melkumov qardaşlarının, Mirzoyanın xəyanəti bizim milli satqınların xəyanəti ilə birləşmirmi?

6. Gündə Çaykəndə 14 dəfə uçan nişansız vertolyotlar kimindir?

7. "Erməniləri sənə tapşırıram, ay Qərib İsgəndərov" deyən Şahnazarov kimdir?

8. Maltada görüşə Corc Buşun və M.S.Qorbaçovun sövdələşmələri nələr deyir? Gürcülər o qədər mədəni millətdir ki, Gürcüstanda hərbi vəziyyət elan edilməsinə yol vermək olmaz" demiş M.S.Qorbaçovun Azərbaycanı il yarım ərzində iki dəfə qana bələməsinə, Bakıda, Lənkəranda, Astarada, sərhədlərimizdə iki yol hərbi vəziyyət elan edilməsinə və son hərbi vəziyyətin bunca uzun sürməsinə nə ad vermək olar? Məgər bu müqəddəs torpaqda hərbi vəziyyətin elanına Azərbaycan Parlamenti icazə veribmi?

9. Araz problemi, ana dili. Mühitimiz. Sumqayıtın ümumittifaq göstəricilərinə nisbətən dörd dəfə, Bakının iki dəfə artıq çirklənməsi, Muğan, Mil, Şirvan, Xəzər fəlakətlərinin düyün düşməsi.

Çörək də tapılır, ət də, balıq da,
Məhəbbət, sədaqət çəkilib ərşə.
Çoxdur məmləkətdə başı papaqlı,
Kişilik, dəyanət çəkilib ərşə.

10. Xanlar şəhərində 40 il bircə internat binasında necə yaşayasan?

11. Müstəntiqlərim ilə dartışmaları: Puşkin heykəlinin Moskvada darmadağın edilməsinə dözə bilərsənmi?

12. İmam Mustafayevin çıxışı: Akademiyanın Ağdərə (Mardakert) elmi özəyinin darmadağın edilməsi. Dekabrın 1-də (1989) Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə sənəd qəbul etmiş Ermənistan parlamentinin cinayəti, təcavüzkarlığı.

13. Lefortovo zindanında mənim çarpayımda yatan Vazgen Manukyanın indi Ermənistan Nazirlər sovetinin sədri mərtəbəsinə qalxması hansı xəyanətlə bağlıdır?

14. Azərbaycanın sənaye müəssisələrinin 93 faizinin Moskvaya, qırmızı imperiyaya tabe etdirilməsi.

15. Şaumyan, Mikoyan, Mirzəyan, Orconikidze, Serebrovski, Stalin, Mir Cəfər Bağırov, Yejov, Suslov, Jdanov, Xruşşov, Brejnev, Çernenko, Andropov, Qorbaçov antihumanizminin ilk növbədə Azərbaycana qarşı tuşlanması xəyanətin zirvəsi deyilmi?

16. Azərbaycanda hökmran olan kişilik, mərdanəlik, yoxsa qul və sürü psixolojisi? Dağlıq Qarabağa üz qoyan didərginlərin mindikləri maşının təkərindən yapışanVəziryanın, Volskinin və başqa xainlərin cəmdəyinə min lənət!

17. 1905-ci ildən bəri 1 milyon 800 min Türkazərə qarşı soyqırıımı təşkil edən erməni, velikorus yırtıcılarına nə ad vermək olar?

18. Planetdə, Azərbaycanda haçan başlanıb yenidənqurma?

19. SSRİ deputatlarının birinci qurultayında Azərbaycan xalqını faşist adlandıran İgidyan kimdir?

20. Dağlıq Qarabağ Azərbaycanın Tanrılan panteonu deyilmi?

21. Nə üçün mənim ekstremistə, yırtıcıya qarşı işlətdiyim "kərtənkələ", "ilan" epiteti təhqir sayılmalıdır?

22. "Erməni qadınlarına toxunma!", "Береч есть армянских девушек!".

13 yanvar 1990-cı il tarixli çıxışımdan

23. "Biz heç bir erməniyə güllə atmayacağız! Daşnakla-

rı yalnız və yalnız nifrətimizlə, tüpürcəyimizlə qovacağız!".

17 noyabr və 4 dekabr 1989-cu il tarixli çıxışımdan.

24. 8 ocaq 1990-da aydın demişəm: "Özünü səkkizinci mərtəbədən atan Petoyan cənnətlikdir, onun ölümünə bais olanlar cəhənnəmlik!".

25. Vətəndaş mövqeyindən əl çəkmək olarmı?

26. Şəfqət bacısı Gülər xanımın məni 5 saylı şəfa evinə dəvəti. Cahangir Hüseynovun baş həkim olduğu Semaşko adına şəfa evinə getməyim, mühazirələrim.

27. Səmadan səda verir Məhəmməd-əl Mustafa:

Vəziryana istefa.

M.S.Qorbaçov, Ə.Vəzirov, İqor Belyayev, Henrix Borovik, Barannikov, Xanzadyan, Dadamyan başda olmaqla bütün antihumanist, yırtıcı, millətçi, şovinist ünsürləri, tayfaları, lobbiləri, blokları, mafiyaları, onların Mitteran, Tetçer, Corc Buş kimi havadarlarını, bəşər qulduruna Nobel çələngi verənləri ittiham edənləri, cinayəti maskalayan Liqaçov və Medvedyevləri ifşa və ittiham edirəm.

28. Burnunun ucundan uzağı görməyən müstəntiqlərimi (Poxil, Qubinski, Yanalov, Boytsov İliç, Çistyakov, Suxaryev), prokuror adına layiq olmayanları ittiham edirəm.

29. Mən tutulmazdan öncə Ə.Vəzirova, Viktor Petro oğlu Polyaniçkoya, Barannikova, DTK xadimi İlhüseynə, DİN nazir müavini Barannikova, SSRİ Daxili İşlər Nazirinin qolmancı Statis Henrix oğlu Lisauskasa, Akademiya prezidenti Eldar Salayevə, akademik Cəmil Qulusoya, Ali Sovetin əməkdaşları Tofiq Bağırova, hərbi komissar Əbülfəz Qasımova, üsyançı alimlər, övladlarını itirmiş analar, qadınlar və kişilər sırasında dönə-dönə xitab etmişəm.

30. Qov daşnakları, işsizlərə iş ver! - bu tələb bağrımızda, oda, alova dönmüşdür.

Biz Türküstan elləriyiz,
Qeyrət, qüdrət selləriyiz!

31. Hanı İslam fundamentalizmi? Məscidlrimiz nə gündədir? Hanı Qumru, Ləli, Raci, Dəxil kimi dini şairlərimizin əsərləri? Bizə qarşı böhtan dəyirmanını işə salmış İqor Belyayevi, İşşukovu bəs kim ifşa etməlidir?

32. "Biz azərbaycanlıları Moskvada, Leninqradda yalnız turp, qərənfil satan, qoz ləpəsini beş manata alıb, ruslara 25 manata sırıyan, ciblərini yekəldən, şişlik yeməklə öyünən bioloji varlıq kimi tanıyırıq. Hanı dünya miqyasında boy göstərən hüquqçularınız, böyük ədibləriniz, beynəlxalq sərgilərimiz, filmləriniz, şahmatçılarınız?" deyən kameradaşlarımın ittihamı düzgündürmü?

33. "Məndən başlanır vətən" kitabımın bir il dustaq edilməsi.

34. Şer səciyyəsi.

35. Hanı ADR sınırları?

36. "Революционное бюро Дашнаксутунской партии"

**"Pravda", 31 avqust 1990".**

37. Qəlbim büllurdan büllur.

38. Qırmızı ordu cinayətləri. Rzanın dəyənək altına salınması, arkadaşı Xalıqverdi oğlunun öldürülməsi.

39. Пуля со смешанным центром.

40. 13 yaşlı İlhamın öldürülməsi.

41. Kiçik qardaşımız rus xalqı.

42. Paruyr Sevak, Silva Kaputikyan və başqa erməni yazarları ilə vaxtilə ülfətim unudulsun.

Məhkəmənin ilk günlərində Xəlili milis nəfərləri zala gətirəndə qohum-əqrəba, hamı onu qucaqlayıb öpürdü. Onların arasında umu-küsü olsa da, Qulu Xəlilini qucaqlayıb ağladı. Xəlilin saralmış bənizi, quş kimi yüngül cüssəsi Qulunu sarsıtmışdı. Xəlil arıqlasa da, möhkəm iradəsi əvvəlki kimi özünü göstərirdi.

Məhkəmədə dövlət tərəfindən təyin olunmuş vəkil Hacı Rəhmanov, ictimai vəkillər isə Qabil, Qasım Qasımzadə və Ramiz Duyğun idi. Bir ay davam edən məhkəmədə sədrlik edən İlqar Abbasov, bütün qayda-qanunları yerinə yetirərək məhkəməni yüksək səviyyədə aparırdı. Xalqımızın qeyrətli oğlu Hümmət Süleymanlının bu işdə böyük köməyini qeyd etməmək olmaz. Nəhayət, məhkəmənin bəraət hökmü oxundu. Hamı böyük sevinc içərisində hakimin üstünə gül-çiçək səpirdi.

İlqar Abbasova ədalətli hökmü üçün minnətdarlıq edirdilər. Bu izdihamın içərisində sevincdən ağlayan kim, gülən kim. İlqar Abbasovun mərhəmətli ürəyi yüzlərlə insanı, o cümlədən ictimai xadim və ulu Şairi xoşbəxt etdi. Mən özümü itirmişdim, İzdihamın içərisindən ona yaxınlaşa bilmirdim. Yalnız yrəyimdə: Allah, sən onu Azərbaycan xalqına çox görmə, – deyirdim.

Eşq olsun İlqar Abbasova, ədalət qahmarına!

İlqar bəyin adı tarix qarşısında üzüağ və nəsillərə örnək olaraq əbədi yaşayacaqdır.

Məhkəmə tarixində görünməmiş bir hadisə idi. Bəraət hökmü oxunandan sonra dəstə-dəstə adamlar Xəlili böyük məhəbbətlə bağırlarına basıb öpürdülər. Bunların içərisində yazıçılar, şairlər, müxtəlif peşə sahibləri var idi.

Əlbəttə, bəraət hökmünü olduğu kimi məhkəmədən almaq da olardı. Lakin məqsəd məhkəmənin gedişini deyil,

şairə ümumxalq məhəbbətini göstərmək idi. Bu məhəbbətin qarşısında ölümə də getmək qorxulu deyildi. Bir aydan çox davam edən məhkəmə prosesi ərzində zalda oturmağa yer olmurdu. Çoxu qapı ağzında dururdu. Çox vaxt yer tutmaq üçün tezdən gəlirdilər. Bütün qəzetlərdən müxbirlər iştirak edirdi. Məhkəmənin gedişini lentə alırdılar. Belə bir proses Etibarın da məhkəməsində gedirdi. Şükürlər olsun ki, ədalət qələbə çaldı. Azadlıq onun təşnəsi olanlara nəsib oldu.

## MÜBARİZƏ DAVAM EDİR

Xəlilim Lefortovodan özü ilə üç bağlama gətirmişdi. Bunlardan biri Lefortovo zindanında yazdığı şeirlər, ikincisi Puşkindən, A.Blokdan, Lermontovdan tərcümələr, üçüncüsü isə orada keçirdiklərindən bəhs edən gündəliklər idi. Xəlil zaminə buraxılan kimi məndən xahiş etdi ki, bu şerləri makinada yazım. Beləliklə, "Davam edir 37" kitabının üzünü köçürdüm. Daha sonra tərcümələrin də üzünü çıxardım. Bu işdə oğlum Rza mənə kömək edirdi. Xəlil həmin dövrdə "Uzun sürən gənclik" kitabını da hazırladı. Onun da üzünü köçürdüm, kitab halına saldıq. Əlbəttə, bu çox böyük əmək idi. Mən demək olar ki, hamıdan sonra yatırdım. Təki Xəlilin arzusu yerinə yetsin.

Xəlilim Lefortovodan gələndə Azərbaycanda Nəriman Həsənzadənin 60 illiyi keçirilirdi. Nəriman öz yaxınlarını, o cümlədən, Xəlili, məni, İsa Muğannanı, Lütfi Məmmədbəylini qadını Sevil xanımla, cəmi 30-40 nəfəri köhnə "İnturist"ə ziyafətə dəvət etmişdi. Həmin ziyafətdən gələndən sonra Xəlilim Nərimana "Əziz Nəriman" adlı təbrik

şeirini yazdı. Xəlil burada həssas qəlbli, xalqının dərdləri-lə yaşayıb-yaradan Nərimanı xalq şairi adlandırırdı.

## ƏZİZ NƏRİMANA

*(ixtisarla)*

İnanımmı gözümə?
İnanımmı sözümə?
İnanımmı özümə - 60 il gəldi keçdi.
Qırx il, qırx beş il öncə
Şairlik bulağından Nərimanım su içdi.
Bəlkə yamaq altında bir dürdanə, incidi.
Çoxu baxdı görmədi… bu baxışdan incidi.
Xayır, şair sözünə illər toxuna bilmir.
Əsrimizin gəncliyisən ey 60 yaşlı şair!
Xalqımızın gəncliyisən, ey 60 yaşlı şair!
Gözün aydın, əziz dost, günbəgün gəncləşirsən.
Əsirgəmə ömrünü, yarat, dönüm gözünə.
İş başında baharsan, elə bilmə solursan.
Makinaçı, maketçi, mürəttib də olursan,
Tək dan üzü köşkə çıxsın cəsur bir qəzet,
Vur, çatdasın köləlik. Şəri darmadağın et.
Azərbaycan qurşunlar, güllələr altındadır,
Düşmənlərin ən iyrənc xəyanət qatındadır.
Qəzetçilik döyüşdür. Macal vermə qardaşım,
Sağlığımda qoyulsun baş girləsəm, baş daşım.
Kişi yox, pişpişədir bu siyasi məlunlar,
Ümumxana əhlindən qat-qat yavadır onlar.
Dinlə, əziz Nəriman,
Od içmisən bir zaman şairlik bulağından.
Sal qayanı çatladan müqəddəs damcıları
Sən görmüsən yaxından.
Canından çox sevmisən o qayanı, o daşı,
Ey yaralı ölkəmin yaralı vətəndaşı.
Düşünək yaxşı-yaxşı.

Yarımçıq yaşamaqdan ölüm min dəfə yaxşı!
Qartal tayqanad uçmaz, qanad qoş qanadına,
Çağır yalnız mərdləri dadına, imdadına.
Birinci misrasından sonuncu sətrinədək
Qəzetini bana ver!
Savalan zirvəsindən dünyaya söz deməyin
Ləzzətini bana ver!
60 il gəldi keçdi… 60 il… ay Aman!
Ancaq əslinə baxsan
Təmizlikdə, saflıqda altı yaşlı cocuqsan,
Cocuq Əziz Nəriman!
Büllur Nərimanımız!
Qəhrəman kəlməsini özünə yaxın qoymaz
Şair qəhrəmanımız!

Xəlilin arxivindəki mateialllar arasında "Umacaqlarım" başlıqlı bir vərəqəlik yazı da var. Həmin yazının 4-cü bəndində oxuyuruq:

Nəriman Həsənzadənin "Xalq şairi" fəxri adı alması vaxtı çatmamışdırmı?

Xəlil Rza Lefortovo zindanından gələndən sonra "Davam edir 37", "Ayla Günəş arasında", "Turan çələngi" kitabını yazdı. Nizami İnstitutu onların müzakirəsini keçirdi (müzakirədə Yaşar Qarayev, Qabil, Şahmar Əkbərzadə, Ramiz Duyğun, Əhməd Elbrus, Rəfiq Zəka və b. iştirak edib). Bu üç əsərin birlikdə Dövlət mükafatına, Nobel mükafatına təqdim olunması qərara alınıb. Mən institutun direktoru Yaşar Qarayevdən təqdimat işinin niyə gecikdiyini soruşduqda cavab verdi ki, hələlik qəzetdə elan çıxmayıb, elan çıxan kimi mütləq Xəlili təqdim edəcəyik. Əlbəttə, respublikada Nobel mükafatına təqdimat təcrübəsi yoxdur. Lakin Dövlət mükafatı sözsüzdür. Burada az da olsa, əməyim var. Ona görə də Xəlil mənim bu əməyimi

qiymətləndirib, mənə "Mənim gözəl katibəm" şerini yazıb:

## MƏNİM GÖZƏL KATİBƏM

Elə bil stulda yox, şah taxtında əyləşib,
Makina qarşısında bir az da gözəlləşib.

Yaxşı misra görəndə qanadlanar, şadlanar,
– Xəlil, yaxşı yazmısan! - deyib könlü atlanar.

Naşı ifadə görsə, durar, çatılar qaşı,
– Dəyiş! – deyə əmr edər o gözəllik nəqqaşı.

Gündəliyim, poemam - hələ sökülməmiş dan,
Misra-misra süzülür süa barmaqlarından.

Təkcə katibəmmi, yox, odur dövlətim-varım,
Dən düşən saçlarıdır ən gözəl misralarım.

Qışda qorxar soyuqdan, əyləşər oda yaxın,
Gurhagur yanan soba, mənim qəlbimdir, baxın.

Armudu stəkanda təzələrəm çayını,
Qarşısına qoyaram kişmiş, badam payını.

Üşüsə, ürəyimi ona bir don biçərəm,
Son qurtumu yarımçıq fincanından içərəm.

Görüşlərdə  aldığım ətirli güldəstələr
Solmaz onun əlində, yeni nəğmə bəstələr.

Həyatımın günəşi, Təbrizimin anası,
Mən yatandan sonra da çaqqıldar makinası.
Məndən tələb etdiyi nə "Volqa"dır, nə "Zim"dir,

Şərik səngərimizdə məslək mübarizimdir.
Kimdir gözəl katibəm? Mənim Fİrəngizimdir!

Xəlil Lefortovodan buraxılandan sonra bir çox dostlar, qohumlar mənə suallar verirdilər ki, Xəlil ordan nə danışır? Ona nə cür baxırdılar? Əziyyət verirdilərmi? Doğrusu, belə suallar mənim ürəyimdən keçsə də, onları Xəlilə vermirdim. Onun daxili aləmini pozmaq, onu ağrılı keçmiş günlərinə qaytarmaq istəmirdim. Axı, mən bu sualları ona verəndə onun nə vəziyyətə düşə biləcəyini təsəvvür edirdim. Yaxşısı budur ki, heç dilə gətirməyim – deyə düşünürdüm. Onun yazdığı "Cəza köynəyi", "Kəfənini geymiş kişi" şeirlərindən az-çox nəsə başa düşürdüm. Onun könül sevincini kədərə çevirmək istəmirdim. Çoxları bunu başa düşmürdü. Təkid edirdilər ki, mən Xəlildən öyrənim. Parlamentə yeni seçklər başlayanda, 1990-cı il yanvar ayının 10-da Xəlilimi S.Lazo adına 18 saylı seçki dairəsindən deputatlığa namizəd göstərdilər. Lakin o, seçicilərin yüksək səsini qazanmasına baxmayaraq, sənədlərini saxtalaşdırdılar, seçilməsinə mane oldular. Xəlil Rzanın ömrünün qalan dörd ili Türkiyə, Almaniya, Fransada keçmişdir. Bu müddətdə şair əsasən müalicə olunmuşdur. Mən həmin dövrü «Xəlil Rza kədərimlə qol-boyun» kitabımda yazdığımdan burada təfsilat verməyə lüzum görmürəm.

«Lefortovo zindanında» tarixi memuar əsəridir. Dünya ədəbiyyatında bu tipli əsərlərin sayı barmaqla sayılacaq qədərdir. Ədəbi təcrübədə İvan Turgenev, Lev Tolstoy, Nelson Mandela, Madlen Riffo, Stendal, Etibar Məmmədovun salnaməçiliyi qeyd oluna bilər. Lakin Xəlil Rzanın «Lefortovo zindanında» kitabı emi-tarixi, ictimai-siyasi məramı, qayəsi ilə seçilir. Ümid edirəm ki, gəncliyimiz

vətəndaşlıq, dövlətçilik tərbiyəsi, millətinə və torpağına bağlılıq şüuruna, məfkurəsinə yetməkdə kitabdan çox fikir əxz edəcəkdir.

Hörmətli oxucularıma təşəkkürlər edir, xalqıma daimi xoşbəxtlik və firavan həyat arzulayıram.

# XƏLİL RZA ULUTÜRKÜN HƏYAT YOLUNUN BAŞLICA MƏQAMLARI

21 oktyabr 1933 – Salyan qəzasının Pirəbbə kəndində anadan olmuşdur (indi həmin kənd Neftçala rayonu ərazisindədir).

1948 – ilk mətbu şeri «KİTAB» «Azərbayacn pioneri» qəzetində dərc edilmişdir.

1949-1954 – ADU-nun filologiya fakültəsinin jurnalistik şöbəsində təhsil almışdır.

1954 – SSRİ Yazıçılar Birliyinin üzvü olmuşdur.

1955-1957 – «Azərbaycan qadını» dərgisi redaksiyasında əməkdaşlıq etmişdir.

1957-1959 – Moskvada M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutu nəzdində yazıçılar üçün açılmış ikiillik Ali Ədəbiyyat kurslarının dinləyicisi olmuşdur.

1963 – filologiya elmləri namizədi adını almışdır. Həmin ildə N.Tusi adına Pedaqoji Universitetdə dosent vəzifəsində çalışmışdır.

1967 – Azərbaycan yazıçıları sırasında Türkiyədə olmuşdur.

1969-1994 – Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunda çalışmışdır.

1985 – filologiya elmləri doktoru alimlik dərəcəsi adını almışdır.

1986 – Azərbaycanın Əməkdar İncəsənət Xadimi adını almışdır.

1990 – «Davam edir 37» şerinə görə M.F.Axundov mükafatı laureatı adına layiq görülmüşdür.

26 yanvar 1990 – Çağdaş Azərbaycan Milli hərəkatının fəal xadimi olduğuna görə Bakını işğal etmiş rus hərbçilə-

ri tərəfindən həbsə alınmış, Bakı, Moskva, Rostov, Voronej zindanlarında 8 ay 13 gün yatmışdır.

1991 – Azərbaycan Ali Sovetinə seçkilərdə iştirak etmiş, öncə 79, sonra 987 faiz səs çoxluğu ilə millət vəkili seçilsə də, o vaxtkı hakimiyyət «kvorum yoxdur» bəhanəsi ilə deputatlıqdan məhrum etmişdir.

1991 – «Türk milləti» mükafatı laureatı fəxri adına layiq görülmüşdür.

1992 – Azərbaycan Respublikasının «Xalq Şairi» fəxri adına layiq görülmüşdür.

1994-cü il iyun ayının 22-də vəfat etmişdir.

1995 – «İstiqlal» Ordeni ilə təltif edilmişdir (ölümündən sonra). 1995 – Anadan olmasının 60 illiyi dövlət səviyyəsindəqeyd olunmuşdur.

1995 – Türkiyə Respublikasının Milli şairi adına layiq görülmüşdür.

2002 – (14 noyabr) – xatirəsinin əbədiləşdirilməsi haqda Respublika Prezidenti Sərəncam vermişdir.

2004 – Respublika Sarayında Dövlət sərəncamına əsasən 70 illik yubileyi keçirilmişdir.

# ƏSƏRLƏRİ

1. «Bahar gəlir», Bakı Uşaqgəncnəşr, 1957.
2. «Bəhrəli gün», Moskva, Molodaya qvardiya, 1959.
3. «Sevən gözlər», Bakı Azərnəşr, 1959.
4. «Məhəbbət dastanı», Bakı Uşaqgəncnəşr, 1961.
5. «Poema o lyubvi», Moskva Sovetskiy pisatel, 1961.
6. «Mənim Günəşim», Bakı Azərnəşr, 1963.
7. «Qollarını geniş aç», Bakı, Azərnəşr, 1965.
8. «Krasnodon qartalları», Bakı, Gənclik, 1967.
9. «Yeni zirvələrə», Bakı, Azərnəşr, 1971.
10. «Ucalıq», Bakı, Gənclik, Yeni zirvələrə, Bakı, 1973.
11. «Doğmalıq», Bakı, Azərnəşr, 1977.
12. «Taparam səni», Bakı yazıçı, 1980.
13. «Marallar da duz yeyərmiş», Bakı, Gənclik, 1981.
14. «Ömürdən uzun gecələr», Bakı, Gənclik, 1982.
15. «Hara gedir bu dünya», Bakı Yazıçı, 1983.
16. «Daşdan çıxan bulaq», Bakı, Gənclik, 1986.
17. «Məndən başlanır vətən», Bakı, Yazıçı, 1988.
18. «Davam edir 37», Bakı, Gənclik, 1992.
19. «Ayla Günəş arasında», Bakı, Yazıçı, 1992.
20. «Uzun sürən gənclik», Bakı, Azərnəşr, 1994.
21. «Mən Şərqəm», Bakı, Elm nəşriyyatı, 1994.
22. «Bağışla, ey vətən», Bakı, 1995.
23. «Xəlil Rza Ulutürk», «Azadlıq», 1998.
24. «Uzun sürən gənclik», Kitab cəmiyyəti, 1998.
25. «Türkün dastanı», Bakı, Gənclik, 2000.
26. Seçilmiş əsərləri, 1-ci cild, Bakı, Gənclik nəşriyyatı, 2001.
27. «Mən onsuz da əbədiyəm», Bakı, Gənclik, 2003.

28. Seçilmiş əsərləri, 2 cilddə, I və IIcildlər. B., Qərb-Şərq nəşriyyatı, 2005 (Azərbaycan Respublikasının prezidenti cənab İ.H.Əliyevin verdiyi sərəncama əsasən).

# TƏRCÜMƏ KİTABLARI

1. A.Laptev. «Balacalar», Bakı, Gənclik, 1972.
2. İlya Selvinski. «Babək», Bakı, Gənclik, 1975.
3. Musa Cəlil. «Moabit dəftəri», Bakı yazıçı, 1979.
4. «Qardaşlıq çələngi», Bakı, Maarif, 1982.
5. «Dünyaya pəncərə», Bakı, Maarif, 1984.
6. Robert Rojdestvenski. «Otuzuncu əsrə məktub», Bakı, gənclik, 1984.
7. «Turan çələngi», Bakı, Elm Nəşriyyatı, 1993.
8. Yusif Balasaqunlu, «Qutadqu-bilik», Bakı, Gənclik, 1994.
9. N.Gəncəvi. «Sirlər xəzinəsi» – Lirikası, Bakı, Yazıçı, 1988.
10. N.Gəncəvi. «Yeddi gözəl» , Ensiklopediya, 2000.
11. N.Gəncəvi. «İsgəndərnamə», Bakı, Gənclik, 2002.
12. Yusif Balasaqunlu, «Qutadqu-bilik», Bakı, 2003.
13. «Turan-çələngi», Bakı, Çinar-Çap nəşriyyatı, 2005

# DİSSERTASİYA VƏ ELMİ ƏSƏRLƏRİ

1. Müharibədən sonrakı Azərbaycan Sovet Ədəbiyyatında poema janrı (1945-1950). Namizədlik əsəri (Əlyazmaları Azərbaycan Pedaqoji Universitetinin kitabxanasında saxlanılır).

2. M.Şeyxzadənin bədii yaradıcılığı və Azərbaycan – özbək ədəbi əlaqələrinin aktual problemləri (Əlyazmaları Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitunun kitabxanasında saxlanılır).

3. Məqsud Şeyxzadə. Bakı, Elm, 1978.

4. Məqsud Şeyxzadənin bədii yaradıcılığı, Bakı, Elm, 1982.

5. Drammaturgiyada ədəbi əlaqələr, Bakı, Elm, 1987.

6. Sabir Rüstəmxanlı haqqında. B., Mütərcim, 1998.

7. Ustadı Bəxtiyar Vahabzadə haqqında. B., Azərbaycan, 1999.

8. Rafiq zəka Xəndan haqqında. B., Mürtəcim, 1999.

9. Rəsul Rza həsrəti. B, Elm, 2000.

10. Mənə bənzə. B., Gənclik, 2000.

11. Ədəbi tənqid. B., Mütərcim, 2003.

# HAQQINDA YAZILANLAR

1. İlk Allahım, son Allahım mübarizə. B., Gənclik, 1999.

2. Mail Dəmirli, Xəlil Rza Ulutürkün poeziyası (monoqrafiya), B., Təfəkkür Universiteti nəşriyyatı, 1996.

3. Bəkir Nəbiyev, İstiqlal şairi (monoqrafiya), B., Elm, 2001.

4. Teymur Əhmədov, Xəlil Rza Ulutürk (kitab-albom), B.. Ensiklopediya, 2000.

5. Müasirləri Xəlil Rza Ulutürk haqqında, B., Çinar-Çap, 2004.

6. Yavuz Axundlu, İstiqlal şarlərit, B., Elm, 1998.

7. Dilek Erenoğlu Azerbaycan şairi Halil Rıza və Men Şerqem adlı eseri. Eserdeki şiirler üzerinde dil incilemesi. İzmir, 2005.

8. Əlizadə Əsgərli. Milli İdeal mücahidi. B., Elm, 2005.

# ELMİ-TARİXİ MEMUARLARI

1. Xəlil Rza Ulutürk. Lefortovo zindanında, B., Azərnəşr, 1998.

2. Xəlil Rza Ulutürk. Ustadım Əkrəm Cəfər, B, Mütərcim, 2005.

3. Xəlil Rza Ulutürk. Lefortovo Zindanında, B.,Çinar-Çap, 2006.

4. Xəlil Rza Ulutürk. Gəl, ey səhər, B., Nağıl evi nəşriyyatı, 2006.

# ŞERLƏRİNƏ BƏSTƏLƏNMİŞ MAHNILAR

**Ramiz Mustafayev,**
*«Saçları şəlaləsən», müğənni Elmira Rəhimova*

**Ramiz Mustafayev,**
*«Naxçıvanım», müğənni Yaşar Səfərov*

**Hökumə Nəcəfova,**
*«Tələsin subaylar», müğənni Məmmədbağır Bağırzadə*

**Hökumə Nəcəfova,**
*«Mükafatım», müğənni Elxan Əhədzadə*

**Faiq Sücəddinov,**
*«Qurban olduğum», Müğənni İslam Rzayev*

**Faiq Sücəddinov,**
*«Eşqim, vəfadarım», müğənni Samirə*

**Cavanşir Quliyev,**
*«Sən eşq üçün yaranmısan», müğənni Nüşabə Ələsgərli*

**Nacıbaba Həsənov,**
*«Sədaqət işıqları», müğənni Təhmiraz Şirinov*

**Emin Sabitoğlu,**
*«Sahibkarlar marşı», müğənni İlqar Xəyal*

**Hökumə Nəcəfova,**
*«Sağıcıdır mənim nənəm», (uşaq xoru)*

**Xumar Qədimova – bəstəkar və ifaçı**
*«Azadlıq həsrəti»*

**Mikayıl Mirzə – bəstəçi**
*«Gəldim», müğənni Ağadadaş Ağayev*

**Ünvan: Bakı şəhəri,**
**N.Nərimanov rayonu,**
**A.Gəraybəyli küç, 11/15**
**blok 2, VI mərtəbə,**
**mənzil 87.**
**Telefon: 462-87-87**
**İnternet saytı: www. xelilrza.com (Ulutürk)**

**XƏLİL RZA ULUTÜRK**

# LEFORTOVO ZİNDANINDA

NƏŞRİYYAT REDAKTORU
*Denis İzuf,*
TEXNİKİ REDAKTORU
*İlham Niftəliyev,*
BƏDİİ REDAKTORU
*Ceyhun Tağıyev*
KORREKTORLAR
*Fəridə Ələsgərli,*
*Gülarə Qədirova,*
OPERATOR
*Ramilə Əliyeva,*
ÇAPA MƏSUL
*Cavad Əliyev*
*Azər Yunusov.*

*Çapa imzalanmış 15.02.2006,*
*formatı 60x90 1/16*
*30.12 ç.v.*
*Kitab kağızı №1, tayms qarnituru,*
*sifariş K-07*
*sayı 1000.*

*Kitab*
✉ ***«ÇİNAR-ÇAP»***
*nəşriyyatında nəşrə hazırlanmış*
*və*
*ofset üsulu ilə çap olunmuşdur.*
☎ *Tel.: 4989555, 4937255, 4902757*